AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

# P O L İ T O L O G İ Y A

(dərs vəsaiti)

Bakı - 2004

# 1-ci MÖVZU

# POLİTOLOGİYANIN PREDMETİ

### 1. *Politologiyanın predmeti, qanun və kateqoriyaları, metod və funksiyaları*

Müasir dövrdə siyasət məsələlərinə, siyasi münasibətlərə, siyasi təsisatların fəaliyyətinə və onların demək olar ki, ictimai həyatın bütün sahələrinə – iqtisadiyyata, sosial və mənəvi sahələrə təsirinə maraq daha da artmaqdadır. Bu isə təbiidir, çünki hazırda cəmiyyət üzvlərinin geniş təbəqələri siyasi fəaliyyətə daha fəal cəlb olunur, yeni sosial-siyasi strukturlar meydana gəlir.

Politologiyanın rolunun getdikcə artması, ictimai fənn olmaq etibarilə onun tədrisinin zəruriliyi və aktuallığı cəmiyyətin siyasiləşməsi və eyni zamanda siyasi nəzəriyyə və siyasi mədəniyyətin səviyyəsinin kifayət dərəcədə olmaması ilə sıx surətdə əlaqədardır.

Politologiyanın bir tədris fənni kimi meydana gəlməsi Frensis Leyberin adı ilə bağlıdır. Onun 1857-ci ildə ABŞ-ın Kolumbiya universitetində siyasət nəzəriyyəsi üzrə oxuduğu mühazirələr burada 1880-ci ildə Con Bercess tərəfindən ali siyasi məktəb yaradılması üçün zəmin hazırladı.

1949-cu ildə YUNESKO-nun nəzdində Beynəlxalq siyasi elmlər assosiyasiyası yaradılmışdır.

Müstəqil elm sahəsi və tədris fənni kimi politologiya respublikamızda 90-cı illərdən öyrənilir.

Müasir elmi ədəbiyyatda «Politologiya» termini bir neçə mənada işlədilir. Geniş mənada politologiya siyasət haqqında bütün bilikləri əhatə edən elm sahəsi kimi nəzərdən keçirilir. Bu halda politologiya siyasəti öyrənən bütün konkret elm sahələrini-siyasi fəlsəfəni, siyasi sosiologiyanı, siyasi psixologiyanı, siyasi təsisatları, o cümlədən dövlət nəzəriyyəsini və s. özündə birləşdirir. Politologiyanın belə izahı bu barədə tarixən qərarlaşmış ənənəvi baxışlarla əlaqədardır.

Bir qədər məhdud mənada politologiya siyasəti, siyasi prosesləri, təsisatları, bir sözlə, siyasi elmin obyektini və predmetini təşkil edən problemləri öyrənən elm sahəsi kimi qəbul edilir. Bu mənada politologiya siyasətin ümumi nəzəriyyəsi rolunda çıxış edir və siyasəti öyrənən digər elm sahələrindən fərqlənir. ***Onun predmetini siyasət, siyasətin təsisatları vasitəsi ilə cəmiyyət və şəxsiyyətin qarşılıqlı münasibətləri təşkil edir***.

Siyasət anlayışı dövlət, hüquq, partiya, seçki sferalarını, qərarların qəbul edilməsi mexanizmini, siyasi prosesi, siyasi münasibətləri, siyasi mədəniyyəti və s. birləşdirir.

Siyasət-ictimai sinif və təbəqələrin, partiyaların, qruplaşmaların öz mənafeləri ilə müəyyən olunan fəaliyyəti, habelə dövlət hakimiyyəti və dövlət idarəetmə orqanlarının ölkənin ictimai və iqtisadi quruluşunu əks etdirən fəaliyyətidir.

Politologiya elminin obyektini cəmiyyətin siyasi sahəsi, bu sahədə baş verən hadisələr və proseslər təşkil edir. Lakin cəmiyyətin siyasi sahəsini politologiya ilə yanaşı eyni zamanda fəlsəfə, sosiologiya, hüquq, siyasi iqtisad, tarix, və s. elmlər də öyrənir ki, bunların da hər birinin öz spesifik predmeti vardır. Bu fənnlərdən fərqli olaraq politologiya siyasi hakimiyyətin formalaşması qanunauyğunluqlarını, müxtəlif siyasi sistemləri, siyasi ideologiyaları və siyasi mədəniyyətləri öyrənir. Politologiya eyni zamanda ümumbəşəri siyasi amilləri də tədqiq edir.

Deməli, biz politologiyanı siyasi münasibətləri ictimai inkişafın obyektiv qanunauyğunluqları əsasında tədqiq edən bitkin biliklər sistemi kimi müəyyənləşdirə bilərik.

Politologiyanı həmçinin cəmiyyətin siyasi həyatında siniflər və sosial qruplar, dövlətlər və millətlər arasında münasibətlərin, habelə partiya və siyasi təşkilatların davranış qaydası,

siyasi məqsədə çatmaq uğrunda mübarizə üsulları və formaları haqqında biliklərin məntiqi surətdə əsaslandırılmış, məzmun etibarilə bitkin və sistemli xarakterə malik olan forması kimi də təsəvvür etmək olar.

«Qısa siyasi lüğətdə» politologiyanın predmetinə cəmiyyətin siyasi sisteminin prinsipləri, onun əsas ünsürlərinin-dövlət, siyasi partiyalar və ictimai təşkilatların qarşılıqlı əlaqəsi, dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi, ictimai-siyasi münasibətlərin tənzimlənməsi, xarici siyasət məsələləri, beynəlxalq planda müxtəlif siyasi qüvvələrin fəaliyyət mexanizmi, habelə beynəlxalq münasibətlərin formalaşdırılması problemləri aid edilir.

Siyasət insan fəaliyyəti və ictimai münasibətlərin xüsusi növü olmaq etibarilə istehsal vasitələri üzərində xüsusi mülkiyyətin olması, adamların, ictimai siniflərin mülkiyyətcə bərabər olmaması, onların mənafe və səylərinin bir-birinə əks olması nəticəsində meydana çıxmışdır.

Sinfi qüvvələrin bir-birinə əks olan mənafeləri və mübarizəsi şəraitində onların fəaliyyətinin əlaqələndirilməsi zərurəti dövlətin yaranmasına gətirib çıxarmışdır. Cəmiyyət fəaliyyət göstərən və inkişaf edən bir sistem kimi dövlət və onun fəaliyyəti olmadan mövcud ola bilməz.

Dövlətin istər ölkə daxilində, istərsə də xarici fəaliyyəti və bu fəaliyyətə sinfi qüvvələrin münasibəti «siyasət» anlayışı ilə ifadə edilməyə başlanmışdır. Demokratik proseslərin coşqun inkişaf etdiyi, siyasi partiyaların, kütləvi ictimai təşkilatların meydana çıxdığı və bunlardan hər birinin coxlu adamların əhval-ruhiyyəsini və iradəsini ifadə etdiyi, dövlət işlərinin həllində iştirak etmək iddiasında olduğu zamanlardan siyasət yeni məzmun kəsb edir.

Mahiyyət etibarilə dövlətin fəaliyyəti cəmiyyətin bütün əsas fəaliyyəti sahələrini, onun başqa ölkələr ilə əlaqələrini əhatə edir. Böyük əhali kütləsinin mənafeyi ilə bağlı olan və deməli cəmiyyətin sabitliyi və dövlətin mənafeyinə təsir göstərən hər bir məsələ, hər bir ictimai problem siyasi xarakter daşıyır.

Siyasət mürəkkəb sosial fenomen kimi müxtəlif elmlərin tədqiqat obyektinə daxildir. Bu isə onun mürəkkəb və çoxsahəli məzmunu ilə sıx bağlıdır.

Bütün dövrlərdə siyasət bu və ya digər siniflərin, sosial qrupların mənafeyi ilə əlaqədar olduğundan əksər hallarda sinfi xarakter daşımışdır. Siyasi hadisə və siyasi meyllərin sinfi xarakterini qeyd etməklə, belə bir cəhəti də göstərmək lazımdır ki, siyasət həm dövlət işlərində iştirak etmək kimi, həm də dövlətin fəaliyyətinin forma və metodları kimi şərh edilə bilər. Müxtəlif sosial qrupların dövlət hakimiyyətinə münasibəti, onların dövləti idarəetmə proseslərində iştirakı siyasətin çox mühüm cəhətidir. Siyasi fəaliyyət həm də dövlətin iradəsi və qanunlar şəklində reallaşmaqla cəmiyyətdə gedən proseslərə, ictimai münasibətlərə şüurlu təsir göstərmək və beləliklə də sosial tənzimləmə məqsədinə xidmət edir. Bununla o, cəmiyyətin xaos girdabına yuvarlanmasının qarşısını alır.

Siyasət ictimai münasibətlərin bir hissəsi olsa da, öz növbəsində ictimai münasibətlərə, cəmiyyət adlı sosial orqanizmin bütün sahələrinə fəal təsir göstərir. O, ictimai münasibətlərdə fəal, tənzimləyici rol oynayır.

İntibah dövrünün görkəmli mütəfəkkiri N.Makiavelli özünün «Hökmdar» əsərində siyasəti xalqın oyanan ruhunu, dəyişikliyə olan istəyini boğmaq vasitəsi hesab edirdi.

Siyasəti sinif və sosial qrupların, ayrı-ayrı adamların məqsədə çatmaq üçün istifadə etdikləri forma və üsulların məcmusu, onların iradələrinin siyasi fəaliyyət və davranışlarda təcəssümü kimi izah edənlər də vardır.

Orta əsrlərin Azərbaycan filosofu Xacə Nəsirəddin Tusi «Əxlaqi-Nasiri» əsərində siyasət məsələlərinə böyük diqqət yetirir. O belə hesab edirdi ki, ictimai əməyi təşkil etmək, istehsal prosesində özbaşınalıq və hərc-mərcliyə yol verməmək üçün müəyyən tədbirlərə

ehtiyac duyulur ki, bütün bunlar da siyasət adlanır. Siyasəti həyata keçirmək üçün görkəmli bir adama ehtiyac əmələ gəlir. Həm də bunun üçün mütləq şah və ya hökmdar olması vacib deyildir. «Bütün dövrlərdə müdrik bir rəhbərə, tədbir sahiblərinə ehtiyac vardır: tədbir olmasa nizam-intizam aradan qalxar, insan cəmiyyəti lazım olduğu kimi inkişaf etməz».[1]

Bəzi siyasətşünaslar siyasəti elm deyil, daha çox sənət kimi başa düşməyi təklif edirlər. Məsələn, belə bir fikir vardır: siyasət mümkün olana nail olmaq üçün istifadə olunan siyasi fəaliyyət və normaların məcmusudur. Bəziləri isə siyasəti nəzərdə tutulan nə varsa hamısına nail olmağın vasitəsi hesab edir. Odur ki, siyasəti mümkün siyasi fəaliyyətin reallaşmasında təcrübə, ustalıq, istedad, məharət tələb edən sənət, fəaliyyət və davranma forması kimi səciyyələndirmək daha doğru olardı.

İqtisadiyyatla sıx əlaqədə olsa da siyasət hər halda üstqurum hadisəsidir. O, ictimai münasibətlərin bütün sahələri ilə demək olar ki, əlaqəsi olan universal fəaliyyət forması, habelə ictimai gerçəkliklərin bir çox sahələrini çevik və dinamik tərzdə özündə əks etdirən baxışlar və ideyalar sistemidir.

Siyasətin subyektini praktika və siyasi münasibətlərin cərəyan etdiyi real gerçəklik təşkil etsə də, o, bunların hamısını adekvat şəklində, olduğu kimi özündə əks etdirə bilmir. Müəyyən illüziyalar, təhrif olunmuş qavrayışlar siyasətin məzmununa daxil ola bilər. Bu mənada o, daha çox proqnoz xarakteri, siyasi hadisələrin gedişi, inkişaf istiqaməti və gələcəyi haqqında fikir səciyyəsi daşıyır. Belə ki, siyasət vasitəsilə ictimai hadisə və proseslərin gələcək mənzərəsini, onun ayrı-ayrı tərəflərinin xüsusiyyətlərini müəyyənləşdirmək mümkündür. Qeyd etmək lazımdır ki, siyasət daxili, xarici və dünya siyasətinə bölünür.

Daxili siyasət dövlətin, ictimai-siyasi təşkilatların, siyasi liderlərin və digər siyasət subyektlərinin cəmiyyət daxilindəki iqtisadi, maddi, sosial və digər münasibətlər sahəsindəki fəaliyyəti ilə xarakterizə edilir.

Xarici siyasət dövlətin, bu və ya digər ölkənin bütöv siyasi sisteminin beynəlxalq sahədəki fəaliyyətidir.

Dünya siyasəti özlüyündə ayrı-ayrı dövlətlər və beynəlxalq təşkilatların birgə fəaliyyətini ifadə edir.

Beləliklə siyasət sinfi, milli, qrup və şəxsi mənafelərinin, məqsəd və vəzifələrinin həyata keçirilməsi uğrunda mübarizədə dövlətlərin, partiyaların, digər siyasi institutların, siyasi liderlərin fəaliyyətinin istiqamətlərini, vasitə və üsullarını özündə ifadə edir.[2]

Cəmiyyətin inkişafının müəyyən mərhələsində zəruri olaraq siyasi münasibətlər meydana çıxır. Bu münasibətlər sinfi təsisatlar, siyasi təşkilatlar arasındakı münasibətləri tənzim edir, xüsusi siyasi ideya və nəzəriyyələrdə ifadə olunur. Siyasət qədim yunan dilində «Politika» sözündən olub mənası «dövləti idarə etmək sənəti» deməkdir. Politologiya isə «Politika» - dövləti idarə etmək sənəti və «loqos» - «söz» yaxud «elm» kimi ifadə edilir.

Siyasət fəaliyyətin və ictimai münasibətlərin xüsusi bir növü olub, istehsal vasitələri üzərində xüsusi mülkiyyətin meydana çıxması, adamların, ictimai sinif və təbəqələrin əmlak bərabərsizliyi, onların mənafe və səylərinin əksliyi nəticəsində yaranmışdır.

Politologiya müstəqil elmdir. Onun öz obyekti və spesifik idrak predmeti vardır.

Elmi fənn olmaq etibarilə politologiyanın başlıca məqsədi siyasi sistemlərin strukturu və fəaliyyətinin tədqiq edilməsindən ibarətdir.

Politologiyanın elmi xarakteri siyasi fəaliyyətlə əlaqəli olaraq nəzərdən keçirilməlidir. Politologiya siyasi fəaliyyətlə bağlı olan ayrı-ayrı adamlara və təşkilatlara siyasi hadisələrin mahiyyətinin ümumbəşəri izahını verməyə səy göstərir və bunun üçün hazırlamış olduğu nəzəriyyədən istifadə edir. Politologiya siyasi gerçəklik haqqında müntəzəm, əsaslandırılmış

---

[1] Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı, «Elm», 1989, səh. 177.
[2] Bax: Politologiya (dərs vəsaiti). Baki, AMTU, 1991, səh. 4-6.

və obyektiv dəyərə malik bilik əldə edilməsini nəzərdə tutduğu üçün siyasi fəaliyyətin səmərəliliyinin təmin edilməsinin mühüm vasitəsidir.[3]

İctimai həyatın siyasi sahəsinin nəzəri ifadəsi olan politologiya bu sahəni izah etməli, ona xas olan qanunauyğunluqları aşkara çıxarmalıdır. Bu qanunauyğunluqları bilmək əsasında politologiya konkret tarixi şəraitdə siyasi fəaliyyətin səmərəli prinsiplərini işləyib hazırlayır. Onun vəzifəsinə eyni zamanda müvafiq fəaliyyət sahəsində əsaslandırılmış proqnoz üçün zəruri olan dövlətçiliyin və kütləvi ictimai hərəkatların inkişaf meylinin aşkara çıxarılması da aiddir.

Siyasi elm olmaq etibarilə politologiyanın öz qanunauyğunluqlar sistemi vardır. Təzahür sahələrindən asılı olaraq bütövlükdə onun bütün qanunauyğunluqlarını üç qrupa bölmək olar:

***Birinci qrup qanunauyğunluqlar*** - cəmiyyətin iqtisadi bazisi ilə üstqurumun elementi olmaq etibarilə siyasi hakimiyyət arasında münasibəti əks etdirən siyasi-iqtisadi qanunauyğunluqlardır.

Siyasət iqtisadiyyatın təmərküzləşmiş ifadəsidir. İqtisadiyyatı siyasətdən, siyasəti isə iqtisadiyyatdan ayırmaq olmaz. Onlar üzvi əlaqə və vəhdətdədir. Bu özünü onda göstərir ki, iqtisadiyyat, iqtisadi münasibətlər nəticə etibarilə bütün ictimai hadisələrin, nəzəriyyələrin, təsisatların meydana gəlməsi və inkişafını müəyyən edir. Deməli, siyasi baxışlar da insanların iqtisadi münasibətlərinə və mənafelərinə əsaslanır. İqtisadi münasibətlərin yenidən qurulması istehsal, bölgü və idarəçilik münasibətlərinin dəyişilməsini, siyasi münasibətlərin yeniləşməsini tələb edir. Lakin, bazisin törəməsi olan siyasət iqtisadiyyata, iqtisadi münasibətlərə əks təsir göstərir, cəmiyyətin iqtisadi inkişafını sürətləndirə bilir və ya əgər bu siyasət düzgün olmazsa onun inkişafı yolunda maneəyə, əngələ çevrilir.

İqtisadiyyatdan asılı olmayan, iqtisadi şəraitdən törəməyən siyasət mövcud deyildir. Siyasətin təsirinə məruz qalmayan iqtisadiyyat da ola bilməz. İqtisadiyyat və siyasət ictimai həyatın iki qarşılıqlı əlaqədə olan tərəfləridir. Onların qarşılıqlı asılılığı və bağlılığının dialektikcəsinə başa düşülməsi cəmiyyətin indiki dövrü uçün çox vacib əhəmiyyət kəsb edir.

Siyasət, eləcə də siyasi və dövlət hakimiyyəti sistemi iqtisadi proseslərin inkişafı ilə sıx və qırılmaz surətdə bağlıdır.

***İkinci qrup qanunauyğunluqlar*** – siyasi-sosial qanunauyğunluqlardır. Onlar siyasi hakimiyyətin inkişafını öz daxili məntiqi və strukturu olan xüsusi sosial sistem kimi səciyyələndirir.

Siyasi hakimiyyət sisteminin əsas qanunauyğunluğu sabitliyin möhkəmləndirilməsindən ibarətdir. Bu qanunauyğunluq müxtəlif siyasi sistemlərdə müxtəlif şəkildə həyata keçir. Məsələn, avtoritar sistem sabitliyin möhkəmləndirilməsi üçün hakimiyyətin son dərəcə təmərküzləşməsini, zorakılığın geniş tətbiq edilməsini tələb edir. Demokratik sistem isə əksinə, hakimiyyət bölgüsünə (qanunverici, icraedici, məhkəmə hakimiyyəti) maraq göstərmək və razılığa gəlmək prinsiplərinə əsaslanmağı nəzərdə tutur.

***Üçüncü qrup qanunauyğunluqları*** şərti olaraq siyasi-psixoloji qanunauyğunluqlar adlandırmaq olar. Onlar şəxsiyyət və hakimiyyət arasında qarşılıqlı münasibətləri əks etdirir. Siyasi-psixoloji qanunauyğunluqlardan ən maraqlısı siyasi liderin hakimiyyəti əldə etməsi və onu əldə saxlaya bilməsidir. Bu qanunauyğunluq ilk dəfə N.Makiavelli tərəfindən formulə edilmişdir.[4]

Politologiyada elmi anlayışlar sistemi çox mühüm rol oynayır. Onların arasında «siyasi hakimiyyət» anlayışı əsas anlayış hesab edilir. Politologiyanın anlayış və kateqoriyalarının spesifikliyi ondan ibarətdir ki, onlar siyasi hakimiyyətin müxtəlif tərəfləri və münasibətlərini aşkara çıxarır və ifadə edir.

---

[3] Bax: Л.С.Санистебан. Основы политической науки. М., 1992, s. 4-5.
[4] Bax: «Социально-политические науки» jurnalı, № 3, M., 1991, s.66-67.

Hər bir elm kimi, politologiyanın da öz kateqoriyaları vardır. Kateqoriyalar hər bir elmin predmetinin ən ümumi, fundamental anlayışlarıdır.

Politologiyada hər şeydən əvvəl digər sosial elmlərin kateqoriyalarından (hüquq, cəmiyyət, sinif, etnos, qrup və s.) istifadə olunur. Bundan əlavə, ictimai fikir tarixindən gələn bir çox kateqoriyalar (ailə, təbiət, insan və s.) politoloji tədqiqatlarda geniş istifadə olunur.

Deyilənlərdən əlavə, hər hansı başqa bir elmdə olduğu kimi, politologiyanın da bilavasitə tədqiqat predmetini əks etdirən kateqoriyalar sistemi vardır. Bura daxildir: siyasət, siyasi həyat, siyasi sistem, siyasi hakimiyyət, siyasi hərəkat, siyasi münasibətlər, siyasi qrup, siyasi mənafe, siyasi fəaliyyət, siyasi təsisat, siyasi ideologiya, siyasi sərvət, siyasi proses və s.

Politologiyanın tədqiqat obyektinin genişliyi və mürəkkəbliyi burada istifadə olunan metodların və tədqiqat üsullarının rəngarəngliyini şərtləndirir.

Politologiyada digər ictimai elmlərin istifadə etdikləri bir sıra metodlardan, habelə riyazi metodlardan istifadə edilir. Bunlar aşağıdakılardır:

1. Ümummәntiqi metodlar: analiz və sintez, abstraktlaşdırma, ümumiləşdirmə, induksiya, deduksiya, analogiya və modelləşdirmə;
2. Nəzəri metodlar: fikri eksperiment, riyazi formalaşdırma, aksiomatik metod, abstraktdan konkretə keçid, hipotez-deduktiv metod, tarixi təsvir metodu və s.

Politologiyada sistem metodu geniş istifadə olunur. Kibernetika və informasiya nəzəriyyəsindən əxz olunan bu metodun köməyi ilə tədqiqat obyekti bütöv bir tam kimi qavranılır və onun ayrı-ayrı hissələri hərtərəfli öyrənilir.

Sistem təhlili aşağıdakı ünsürləri əhatə edir:

1. Sistem. Siyasi həyat davranış sistemi kimi qavranılır.
2. Mühit. Sistem mühitə daxildir və onun təsirinə məruz qalır.
3. Cavab reaksiyası. Sistemdə baş verən proseslər və dəyişikliklər sistem üzvlərinin bu və ya digər təsirlərə cavabı, alternativ davranışı nəticəsində ortaya çıxır.

Politologiyada sistem metodu üç səviyyədə tətbiq olunur:

- bütöv bir tam kimi siyasi sistemlər (dünya təsərrüfat sistemi, ayrıca bir ölkənin siyasi sistemi və s.);
- ayrı – ayrı qlobal sistemlərin hissələri - yarımsistemlər (partiya sistemləri, yerli hakimiyyət sistemi və s.);
- siyasi sistem elementləri (siyasi partiyalar, hökumət, vətəndaş və s.).

Biheviorçu metod siyasi hadisələri ayrı-ayrı insanların, yaxud qrupların fəaliyyətində (davranışında) təcəssüm etmiş halda öyrənir. Şəxsiyyətin siyasi davranışının müşahidə edilməsi ya bilavasitə müşahidə, ya da dolayı yolla məlumat toplamaqla (eksperiment, anket və s.) empirik informasiya əldə etmək məqsədini güdür. Bu zaman üç başlıca üsuldan istifadə olunur; siyasi fəallığın statik tədqiqi, anket tədqiqatı və müsahibə, laboratoriya eksperimenti.

Müqayisəli təhlil metodu. Onun mahiyyəti siyasi proseslər və təsisatlar arasında oxşar və fərqli cəhətləri aşkara çıxartmaqdır. Müqayisə metodu müəyyən şərtlər daxilində tətbiq edilə bilər: a) müqayisə eyni cins siyasi sistemlər arasında aparılmalıdır, məsələn, prezident idarə üsulu qərarlaşmış ölkənin siyasi sistemini bu cür idarə üsulu mövcud olan ölkənin siyasi sistemi ilə müqayisə etmək olar; b) müqayisə seçilmiş obyektlərin yalnız təsviri ilə kifayətlənməməli, onların daha geniş perspektivli və əhatəli müqayisəli təhlilinə əsaslanmalıdır.

Ən mühüm metodlardan biri qərarın qəbul edilməsi metodudur. Buna aiddir: qərarın qəbul edildiyi mərkəz (siyasi fəaliyyət subyekti); qərarın qəbul edilməsi prosesi; siyasi qərar; siyasi qərarın reallaşdırılması.

Politologiya cəmiyyət həyatı ilə rəngarəng əlaqələrə malik elmi fənn olub müəyyən funksiyaları yerinə yetirir. Bu funksiyalardan ən mühümləri idrak, idarəetmə, tərbiyəvi və proqnozlaşdırıcı funksiyalardır.

İdrak funksiyası siyasi inkişaf meylinin öyrənilməsi və müxtəlif siyasi hadisələrin, proseslərin dəyişilməsi ilə əlaqədardır. Siyasi həyatın elmi idrakında empirik politoloji tədqiqatlar siyasi hadisə iştirakçıları və onların tələbləri, siyasi mənafeləri, mədəni səviyyələri, davranışları haqqında, konkret siyasi şəraitdə ictimai rəy haqqında ilkin məlumat verir.

Beləliklə, empirik tədqiqatlar cəmiyyətin siyasi həyatının, onun müəyyən sahələrinin dərk edilməsi üçün informasiya bazası yaradır.

Politologiyanın idarəetmə funksiyasının səciyyəvi cəhəti cəmiyyətin siyasi həyatı və siyasi praktika ilə sıx əlaqəsindən ibarətdir. Politologiya siyasi inkişaf meylini aşkara çıxararaq səmərəli siyasi rəhbərliyin və ictimai prosesləri idarə etməyin həyata kecirilməsi üçün konkret məlumat verir. Politologiya siyasi fəaliyyət idarə edilərkən siyasi qərarlar qəbul edilməsi problemini xüsusi olaraq nəzərdən keçirir. Buraya siyasi qərarların hazırlanması, problemi doğuran şəraitin təhlili, qüvvələr nisbətinə qiymət verilməsi, siyasi hadisələrin iştirakçılarının qüvvə və təsir səviyyəsi, müxalifət qüvvələrinə əks təsir göstərilməsi daxildir.

Beləliklə, politologiyanın idarəetmə funksiyası siyasi proseslərə rəhbərliyin səmərəliliyinin yüksəldilməsi məsələlərində, əməli tövsiyyələrin hazırlanmasında, siyasi hadisələrin idarə edilməsində özünü əyani surətdə göstərir.

Politologiyanın tərbiyəvi funksiyası özünü cəmiyyətin siyasi inkişafının dərk edilməsində və siyasi sistemin inkişafının perspektiv və ən yaxın gələcək üçün məqsədləri haqqında tövsiyyələr hazırlanmasında, siyasi hakimiyyət, siyasət, siyasi sistem və s. haqqında müxtəlif konsepsiyaların elmi funksiyalarında, siyasi nəzəriyyənin yayılmasında, mütəxəssis kadrların hazırlanması və onların siyasi elmi öyrənmələrində təzahür etdirir.

Proqnozlaşdırıcı funksiya. Politoloji tədqiqatların dəyəri onların yalnız siyasi proseslərin bu və ya digər meylinin nə dərəcədə düzgün əks etdirilməsi ilə deyil, eyni zamanda konkret siyasi vəziyyət şəraitində adamların mənafeyinə uyğun olaraq mütərəqqi siyasi dəyişikliklərin həyata keçirilməsinə yönəldilmiş, elmi surətdə əsaslandırılmış proqnozlarla nə dərəcədə başa çatması ilə müəyyən edilir.

Kompleks siyasi problemlərin tədqiqi böyük əhəmiyyətə malikdir, çünki bu, siyasi həyatın əsas sahələrinin gələcək inkişafının bütöv mənzərəsini yaratmağa, baş verə biləcək neqativ nəticələri qabaqcadan görməyə, siyasi rəhbərliyin və idarəetmənin səmərəliliyinin daha da yüksəldilməsi yolları və vasitələrini müəyyən etməyə imkan verir.[5]

## *2. Müasir şəraitdə politologiyanın rolunun artması*

Bu gün bütün dünyada olduğu kimi, respublikamızda da mürəkkəb siyasi hadisələr cərəyan etməkdədir. Bu hadisələrin məntiqini düzgün dərk etmək, hadisələrin mürəkkəb burulğanında istiqamətlənmək zərurəti siyasəti öyrənən elmin geniş təbliğini tələb edir. Bu və ya digər hadisələrdə iştirak etmək, hələ müəyyən bir işin hamısı demək deyildir. Hər bir adam qarşısında duran vəzifələri və onların həlli yollarını müstəqil dərk etməyi, bu və ya digər siyasi problemlərin həllinə istiqamətlənməyi bacarmalıdır.

Siyasətşünaslıq (politologiya) fənninin öyrənilməsi bu gün hər bir vətəndaşın siyasi intellektual səviyyəsi və siyasi davranış mədəniyyətinin yüksəldilməsi üçün böyük əhəmiyyət kəsb edir. Hər bir elm kimi, siyasət haqqında elm də özünün təşəkkülü və

[5] Вах: Политология. Выпуск первый, Баку, 1991, s.26-31.

inkişafının uzun yolunu keçmişdir. Müasir şəraitdə sosioloji, hüquqi, tarixi və s. baxışları və yanaşmaları birləşdirən siyasət haqqında elmin (politologiyanın) tam formalaşması prosesi gedir.

Respublikamızda baş verən demokratikləşmə prosesləri, siyasi plyuralizmin dərinləşməsi, müxtəlif ictimai-siyasi təşkilatların meydana gəlməsi siyasi prosesləri daha da mürəkkəbləşdirmişdir. Bu mənada siyasi biliklərin fundamental və tətbiqi xarakteri artır. İndi siyasi hazırlıq vərdişlərinin gündəlik praktikada tətbiq edilməsinin imkanları daha da çoxalır. Siyasət, siyasi biliklər həyat tərzinin ayrılmaz hissəsinə çevrilir.

Belə bir vəziyyət politologiyanın idarəetmənin strategiya və taktikasının işlənib hazırlanmasındakı rolunu daha da artırır. Bu həm də siyasətdə gözlənilməz, qabaqcadan nəzərdə tutulmamış cəhətlərin heçə endirilməsi, onun daha başa düşülən, anlaşıqlı edilməsi deməkdir.[6]

Hazırda politologiya iki aspektdə-müstəqil elmi bilik sahəsi və tədris fənni kimi öyrənilir. Elm kimi politologiya siyasi fikir tarixini, siyasi sistemləri, siyasi prosesləri, siyasi şüur və siyasi mədəniyyəti, həmçinin dünyanın qlobal siyasi problemləri və inkişaf qanunauyğunluqlarını tədqiq edir.

Elm kimi politologiya fundamental və tətbiqi tədqiqatlar aparır. Tətbiqi tədqiqatlar cəmiyyətin yeniləşməsində hakimiyyət təsisatlarına kömək etməyi və eyni zamanda politologiya fənni müəllimlərinə pedaqogikanın ən mühüm prinsipi olan təlimin həyatla əlaqəsini həyata keçirməkdə istiqamət verməyi nəzərdə tutur.

Tədris fənni olmaq etibarilə politologiyanın başqa məqsəd və vəzifələri vardır. Politologiya fənni tələbələrdə cəmiyyətin siyasi sahəsi, onun inkişaf qanunauyğunluqları haqqında təsəvvür yaratmalı və eyni zamanda onlara müasir siyasi təsisatlar, onların quruluşu və fəaliyyəti haqqında, demokratik cəmiyyətdə vətəndaşların hüquq, azadlıq və vəzifələri haqqında, şəxsiyyətin siyasi-hüquqi vəziyyəti, siyasi həyatda onun iştirakının üsulları və formaları haqqında, siyasi proseslərin tipləri, formaları, dinamikası, onların subyektləri haqqında, siyasi mədəniyyətin məzmunu və formalaşması yolları haqqında, müasir dövrün müxtəlif ideya-siyasi konsepsiyaları haqqında, yeni siyasi təfəkkürün mahiyyəti və prinsipləri haqqında, müasir dünya inkişafının hərəkətverici qüvvələri haqqında bilik verməlidir. Təbiidir ki, tədris prosesində konkret siyasi hadi sələr, ziddiyyətlər və problemlər də nəzərdən keçirilməlidir.

Politologiya fənnini öyrənmək nəticəsində tələbə dərin siyasi bilik əldə etməli, siyasi cəhətdən səriştəli olmalı və siyasi prosesləri təhlil etməyi bacarmalıdır. Bu, tələbələrdə siyasi mədəniyyətin formalaşmasına, sosial-siyasi problemləri təhlil edərkən və onlara qiymət verərkən müasir siyasi təfəkkür prinsiplərini tətbiq etmək bacarığına malik olmağa, onlarda fəal vətəndaşlıq mövqeyinin, siyasi proseslərə səmərəli təsir göstərmək qabiliyyətinin yaranmasına, xalq hakimiyyətinin həyata keçirilməsində onların iştirakına kömək edir.

Politologiya fənninin öyrənilməsi cəmiyyət üzvlərinin siyasi intellektual səviyyəsi və siyasi davranış mədəniyyətinin yüksəldilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Siyasət haqqında təlim siyasi həyatda hər cür təsadüfilikdən, gözlənilməz hallardan uzaqlaşmağın, cəmiyyətin müvəffəqiyyətlə idarə edilməsinin, qarşıya qoyulan siyasi məqsədlərə nail olmağın çox vacib və mühüm vasitəsidir.

[6] Bax: Politologiya (dərs vəsaiti). Bakı, Az.MTU nəşri, 1991.

<u>2-ci MÖVZU</u>

# SİYASİ FİKRİN İNKİŞAFININ ƏSAS MƏRHƏLƏLƏRİ

## 1. *Qədim dövrün siyasi ideyaları*

Siyasi fikrin yaranması tarixin qədim dövrlərinə gedib çıxır. Bütün digər dünyagörüşlərində olduğu kimi, siyasətdə də bütün ideyalar, fikirlər tarixin ilkin çağları üçün real həyatdan uzaq olmuş və onlar ilk öncə dini-mifoloji xarakter kəsb etmişdir.

Qədim insanların şüurunda bir çox minilliklər ərzində ibtidai mifologiyanın və dinin müxtəlif formaları – əcdadlara pərəstiş, insanları əhatə edən predmetlərin canlılaşdırılması, çoxallahlığın mövcudluğu - hökmran olmuşdur. İnsanların düşüncələrində bu kimi fövqəladə qüvvələrin özünə yer tapması onların təbiətlə mübarizədə zəif olmasından, onun kortəbii hadisələrə tabeliyindən və baş verən hadisə və proseslərin mahiyyətini açmaq bacarığına malik olmamasından irəli gəlirdi. Buna görə də, insanlar belə bir qənaətə gəlirdilər ki, yer üzərində və onların həyatında baş verən hər cür hadisələr, o cümlədən, dövlət, hakimiyyət məsələləri, ağalıq və tabelik münasibətləri, münaqişələr və müharibələr və s. kimi hallar heç kimin iradəsindən asılı olmayaraq bilavasitə təbiətüstü qüvvələrin yer üzərində təcəssümünün nəticəsidir. Məsələn, qədim Misirin kahinləri öyrədirdilər ki, ilk firon allah Osiris olmuş, o insanlara bütün sənətləri öyrətmiş, dövləti yaratmış və qanunlar vermişdir. İnsanların vəzifəsi bütün bunlara əməl etməkdən ibarətdir. Əgər kimsə bu cür qanunlara qarşı cıxarsa, onda yerin və göyün arasındakı tarazlıq pozular ki, bütün bunlar da kainatın fəlakətinə gətirib çıxarar.

Bu kimi dini-mifoloji təsəvvürlər nəinki ilkin sivilizasiyaların yenicə təşəkkül tapmış olduğu sosial-siyasi həyatı əhatə etmiş, habelə e.ə. 2-ci və 1-ci minilliklərdə Qədim Çində, Hindistanda mövcud olmuş bir sıra təlimlərdə (Vedlərdə, Upanişadlarda və Manu qanunlarında) özünü göstərmişdir. E.ə. 6-5 əsrlərdə yaşamış böyük çin mütəfəkkiri Konfutsi öz təlimlərində cəmiyyətin sosial-siyasi həyatını üç dövrə bölür və onların təsnifatını aşağıdakı kimi verir:

Birincisi - Nizamsızlıq Mərhələsi ibtidai qruplar arasında sosial nəzarətdən kənar olan primitiv anarxiya ilə, daimi müharibələrlə xarakterizə olunur;

İkincisi - Stabillik Mərhələsi ailənin və xüsusi mülkiyyətin müəyyən dərəcədə sosial nəzarətin saxlanmasına uyğun gələn dövr kimi təsvir olunur;

Üçüncüsü - Böyük Uyğunlaşma Mərhələsi sosial intizamın stabilləşməsi, cəmiyyət üzvlərinin qarşılıqlı münasibətlərində ümumi mülkiyyətin, qarşılıqlı hörmətin və xeyirxahlığın bərqərar olması formasında səciyyələnir.

Konfutsinin təliminə görə dövlət hər bir cəmiyyətin sosial özəyi olan ailənin sinonimi kimi çıxış edir. Burada idarəçilik ierarxik qaydada, yəni yuxarıdan aşağıya tabeçilik prinsipi əsasında həyata keçir. Bu prinsip patriarxal-paternalist xarakter kəsb edir. Yəni məna etibarilə burada idarəetmə təkcə siyasi funksiyanın yerinə yetirilməsi ilə bitmir, eyni zamanda humanizmə, qayğıya və s. əsaslanır.

Qədim siyasi ideyalar Konfutsidən sonrakı təlimlərdə də davam edir. Mo-szı (e.ə. 479-400), Lao-szı (e.ə. VI-V əsrlər), Legistlər (Şan Yan, e.ə. 390-330) öz təlimlərində dövlət, hakimiyyət, ümumiyyətlə cəmiyyətdə siyasi münasibətlərlə bağlı müxtəlif fikirlər irəli sürürlər.

E.ə. 1-ci minilliyin ilk rübündə antik dövrə kecilməsi ilə əlaqədar olaraq qədim insanların şüurunda tədricən dini-mifoloji baxışlar rasionalizmlə əvəz olunur. Bu, hər şeydən əvvəl, insanların real həyatında baş verən hadisə və proseslərin bilavasitə gerçəkliyə əsaslanması ilə yaranır. İnsanlar belə bir qənaətə gəlirlər ki, onların yaşadığı polislərdən (şəhər-dövlət, ictimai özünü idarə sistemi) yalnız elələri mövcud olmağa qadirdir ki, onlar öz fəaliyyətində real əlaqə və münasibətləri daha çox dəyərləndirir. Bu cəhət ictimai-siyasi fəaliyyətin bütün sahələrini əhatə edir. Burada ən başlıca amil dövlətin, xüsusilə, yenicə yaranmaqda olan qədim demokratik quruluşun işində daha artıq ancaq aristokratların, oliqarxların və s. kiçik bir hissəsinin deyil, həmçinin əhalinin vətəndaş olan zümrəsinin hamısının iştirak etməsidir. Bundan belə hamı yaxşı başa düşürdü ki, demokratik quruluşda hakimiyyəti əldə etmək məqsədilə hansısa fövqəladə qüvvənin təcəssümü deyil, xüsusi olaraq ətrafındakıları və əhalini inandırmalı, öz düzgünlüyünü sübut etməli və rəqibini isə kənarlaşdırmağı bacarmalısan. Təbii ki, bütün bunlar qullara aid olmayıb, həmin dövr ücün yalnız azad vətəndaşlara xas olmuşdur. Başqa sözlə, ilkin antik demokratiya hələlikdə mübahisələr əsasında öz təzahürünü tapan siyasi fikirlərdən ibarət olmuşdur.

Antik siyasi fikirlər içərisində «Yeddi böyük müdrikin» - Solonun, Biantin, Falesin, Periandrın, Kleobulun, Pittakın və Hilonun rolu xüsusilə fərqlənir. B.e.ə. 1-ci əsrin ortaları və 2-ci əsrin əvvəllərində yaşamış qədim yunan tarixçisi Plutarx Xeroneyli (46-127-ci illər) özünün «Yeddi böyük müdrikin piri» əsərində həmin müdriklərin «Ən yaxşı çar hansıdır?» və «Ən yaxşı dövlət hansıdır?» haqqında mübahisələrinə toxunmuş və onların cavablarının aşağıdakılardan ibarət olduğunu göstərmişdir:

Solona görə, «Hər şeydən daha cox o şey çarı şöhrətləndirər ki, o vətəndaşlar üzərində olan təkhakimiyyətini xalq hakimiyyətinə göndərir».

Biantın fikrincə, - o çar yaxşıdır ki, «qanuna tabe olmaq nümunəsini birinci özü göstərir».

Falesin fikrinə görə, «Hökmdarın xöşbəxtliyi ondadır ki, ahıl yaşında özünün əcəli ilə ölsün».

Periandrın fikrincə, «o çar yaxşıdır ki, başqalarının arasında yalnız özünü ağıllı bilməsin».

Kleobul deyirdi: «özünün yaxınlarının nitqinə asanca inanan olmayan çar daha yaxşıdır».

Pittak göstərir: «ona nail ola ki, çara etibar edənlər ondan deyil, ona görə qorxsunlar».
Hilon bu müzakirəyə belə yekun vurur: «Hökmdarın işi ölüm haqqında yox, ölümsüzlük haqqında düşünmək olmalıdır».
«Ən yaxşı dövlət hansıdır» sualına müdriklərin cavabı aşağıdakı kimi olmuşdur:
Solon: «… o dövlətdə xalq hakimiyyəti hər şeydən yaxşı və hər şeydən möhkəmdir ki, orada ədalətli məhkəmə vardır».
Biant: «xalq hakimiyyəti o yerdə hər şeydən möhkəmdir ki, orada qanundan, müstəbiddən qorxan kimi qorxsunlar»..
Fales: «hədsiz kasıb vətəndaşın, eləcə də hədsiz varlının olmadığı dövlət daha yaxşıdır».
Periandr: «o dövlət yaxşıdır ki, orada xeyirxahlıq daha yaxşı, pislik daha az, qalanları isə bərabərcəsinə paylanır».
Kleobul: «o dövlət yaxşıdır ki, orada axmaq insanları idarə etmək, yaxşıları isə idarə etməmək lazım gəlir».
Hilon: «o dövlət yaxşıdır ki, orada qanunları daha çox, natiqləri isə az eşidirlər».
Antik siyasi ideyaların sonrakı inkişafı Pifaqorun (e.ə. 580-501), Heraklitin (e.ə. 530-470), Sokratın (e.ə. 469-399), Demokritin (e.ə. 440-370), Platonun, Aristotelin və b. səmərəli yaradcılığı ilə bağlıdır. Pifaqorun siyasi təlimində cəmiyyətdə baş verən siyasi hadisələrin riyazi üsullarla izahı, onun «bərabərlik» anlayışının mahiyyəti əsaslandırılır.
Sokrat (e.ə. 469-399) siyasi baxışlarında dövlətin idarə olunmasının ədalətli qanunlar əsasında qurulmasının tərəfdarı idi. Bununla yanaşı o, vətəndaşlar tərəfindən ümumi formada qəbul olunmuş qanunların və normaların yerinə yetirilməsini də məqbul hesab edirdi. Məhz bu iki cəhətin sintezi əsasında Sokrat sözdə deyil, əməldə tiranlığa qarşı mübarizə aparmış və öz iradəsində dəyanətli olmuşdur. Sokrat demokraiyanın əleyhinə çıxış edirdi. Onun «… çox gülməlidir ki, adamlar hər yoldan ötənə öz ayaqqabılarını tikməyi məsləhət bilmədiyi halda, dövləti idarə etməyə püşk atmaq yolu ilə həll edirlər. Məgər bu axırıncı çox asan işdir» deyərək demokratiyanı məsxərəyə qoyması ondan irəli gəlir ki, Sokrata görə, mənəviyyatın zəngin və bütün insanlara xas olmaması demokratiyanın reallığını mümkünsüz edir. Buna görə də, onun fikrincə, dövlətdə hakimiyyət «həqiqi mənəviyyatın daşıyıcıları olan aristokratlara məxsus olmalıdır».
Sokratın siyasi görüşlərində dövlət idarə formalarına mühüm yer verilirdi. Bütün əksər antik mütəfəkkirlər kimi, o da nə mütləqqiyyət formasında olan monarxiya dövlətini, nə də xalq hakimiyyəti adı altında yaranan demokratik dövləti qəbul edirdi. Sokrat, hər şeydən əvvəl, daha çox qanuna xidmət edən və hamı üçün eyni qəbul edilən ədaləti qoruyan dövlətə tərəfdar idi. Sokrat kosmopolitizmin əleyhdarı olmuşdu.
Antik yunan stoiklərinin və onun başçısı Zenonun siyasi görüşləri vəhdətlik pafosuna əsaslanır. Zenona görə, təbiətdə hər bir şey – insanlar, bütün digər canlılar, təbiətin özü və s. vəhdətdə olduğundan, deməli, insanların da ali məqsədi – onları ayıran bütün halları – etnik, irgi, sosial və dövlət maneələrini bütövlükdə aradan qaldırmalı, - və kosmik qardaşlıqda qovuşmaqdan ibarət olmalıdır. Belə bir nümunədə, Zenon – stoik daha böyük bir olçüdə klassik yunan polis sosial-siyasi sistemini (özünün xüsusi şəhərləri və icmaları, müxtəlif nizam-intizam qaydaları əsasında idarə olunan) qəbul etmir və kosmopolitikliyi davam etdirirdi.
Platon (e.ə. 427-347) özünün siyasi görüşlərinə görə, siyasi fəaliyyətinin xarakterinə görə Afina aristokratiyasının ideoloqu kimi çıxış edir. Sokrat kimi, Platona görə də mənəvi həyat özünün ən yüksək təzahüründə məhz insanların olduqca az bir hissəsinə, seçilmiş olanlara – aristokrat quldarlara xasdır; demos (xalq) yalnız mənəviyyatı inkar olunanlara aiddir. Qulları isə Platon ümumiyyətlə insan olaraq qəbul etmədiyindən, məhz bu baxımdan da o, öz siyasi görüşlərində demokratiyanın mövcudluğunu qeyri-mümkün hal sayırdı.
Dövlət haqqında təlimində Platon «ideal dövlət» layihəsini irəli sürürdü ki, ədalətin və qanunun təntənəsini məhz belə bir dövlətdə görürdü. Çünki, ona görə, ierarxik tabelik prinsipi («mütləq ruh», «ruh», «insan») və həmin prinsipə görə də insanların müvafiq olaraq hakimlərə, onların köməkçilərinə və istehsalçılara bölünməsi vahid tamın öz prinsipidir.
Platonun «ideal dövlət»ində cəmiyyət üç silkə bölünür: birinci – filosoflar, yaxud edarəedənlər, ikinci – mühafizəçilər (döyüşçülər), üçüncü – əkinçilər və sənətkarlar. Dövlət hakimiyyəti seçilmiş olan filosoflar – aristokratlara (əqli və mənəvi cəhətdən zəngin olanlara) məxsus olmalıdır. Mühafizçilər dövlətin zor aparatını yaradırlar və aristokrat-quldarların sinfi hökmranlığını qoruyurlar. Əkinçilər və sənətkarlar dövlət və cəmiyyət üçün bütün zəruri olan yaşayış vasitələrini istehsal edirlər. Platona görə, hər bir dövlətdə ictimai əmək bölgüsünün bu prinsipi pozulmamalıdır, əks halda mövcud cəmiyyət quruluşu öz ədalətli idarəçilik sistemini itirə bilər.
Platon aristokratik respublikanı, yaxud monarxiyanı «ideal dövlət» hesab edir. Bununla yanaşı o, dövlət formalarından timokratiyanı, oliqarxiyanı, demokratiyanı və tirayianı isə pis idarə forması olaraq görürdü. Ona görə, timokratiya «ideal dövlətin» in tələbələrinə cavab vermir, amma hər halda ona yaxınlaşır. Oliqarxiya ancaq bir yığım varlılıra, tacirlərə xas olduğundan, Platon onu daha aşağı həddə qoyurdu. Platon tənqidinin başlıca predmeti – demokratiyadır, birinci növbədə isə Afina quldarlıq demokratiyası.
Aristotel (e.ə. 384-322) antik siyasi fikrin inkişafında xüsusi rol oynayır. Onun siyasi görüşləri «Etika», «Siyasət», «Afina siyasəti», «Nikomaxın etikası» və s. əsərlərində əks olunur.
Aristotelin siyasi görüşləri onun quldarlıq dövlətinin möhkəmləndirilməsi zəruriliyi haqqında fikirinə söykənirdi. Buradan çıxış edərək o, hesab edirdi ki, bir insan üçün qul, digəri üçün ağa-quldar olmaq faydalı və ədalətlidir. Belə bir halın təbii-tarixi düzgünlüyünü bildirməklə, o təsdiq edirdi ki, güya həm quldarın və həm də qulun qarşılıqlı birliyinə maraqların ümumiliyi rəhbərlik edir.

O, quldarla qulun münasibətini insanın cismi və ruhu arasındakı münasibətlə eyni dərəcədə götürərək bildirirdi ki, ruh cismə necə baxırsa, öz təbiətinə görə onun üzərində necə ağalıq və onu idarə edirsə, quldar da qula münasibətini o cür göstərir.

Aristotel qulu quldara məxsus olan «danışan alət» hesab edir, onun cəmiyyətdə yalnız «ictimai heyvan» olduğunu bildirirdi.

Aristotel quldarlıq cəmiyyətinin sosial tərkibinə belə bir nümunədən yanaşaraq, eyni zamanda dövlətin yaranmasının ailədən irəli gəlməsi nəzəriyyəsini irəli sürürdü. İnsanların ünsiyyətinin ilkin növü Aristotelə görə, ailədir. Onun fikrincə, ailədə ər və arvad, ata və uşaqlar, ağa və qul eyni ilə dövlətdə hakimiyyətlə əhalinin arasındakı idarəçilik prinsipinin analoqudur. Quldarlıq ailəsi, Aristotelə görə, cəmiyyətdə ağa və qul arasındakı münasibətdə ilkin başlanğıc nüvədir ki, buradan da dövlət yaranmışdır. O, bir neçə ailənin birləşməsini «əhali» adlandırmış, həmçinin belə bir prosesi ailənin dövlətədək olan keçid forması hesab etmişdir.

Platonun aristokratik «ideal dövlət» nəzəriyyəsini qəbul etməyərək, Aristotel özünün quldarlıq dövləti nəzəriyyəsini yaratmışdır. Bu dövlət, ona görə insanların ünsiyyətinin daha təkmilləşmiş formasıdır. Onun fikrincə, dövlətdə hakimiyyət heç bir varlıya, heç bir kasıba deyil, ancaq quldarların orta təbəqəsinə məxsus olmalıdır.

Aristotel dövlət formalarını «normal» (monarxiya, aristokratiya və politiya) və «qeyri-normal» (tiraniya, oliqarxiya və demokratiya) növlərinə ayırırdı. Ən yaxşı dövlət formasını o, «orta olanı» - politiyanı qəbul edir və bu dövlət formasını monarxiyanın və demokratiyanın müsbət elementlərinin birləşməsində görürdü. Tiraniyanın isə ən pis dövlət forması olduğunu göstərir.

Aristotel cəmiyyətdə insanlar arasında baş verən münaqişəyə və mübarizəyə gəldikdə, quldarların orta təbəqəsinin maraqlarını müdafiə edən mübarizəyə daha çox üstünlük verərək deyirdi: «Məgər ədalətli olarmı ki, yoxsullar özlərinin çoxluq təşkil etməsinə arxalanaraq öz aralarında varlıların mülkiyyətini bölsünlər?». Bununla yanaşı olaraq o eyni zamanda hesab edirdi ki, heç bir vəchlə varlılardan təşkil olmuş oliqarxik azlığın şəhər-dövlətin (polisin) var-dövlətini dağıtmasına qətiyyən yol verməK olmaz.

Antik dövrün siyasi ideyaları Aristotellə başa çatır və bundan sonrakı siyasi ideyalar ellinizm dövrünün yaranması ilə öz məzmunu və mahiyyətinə görə köklü şəkildə dəyişir.

### *Ellinizm dövrünün siyasi fikirləri*

Bu dövrün cəmiyyətin ictimai həyatının bütün sahələrində olduğu kimi, onun siyasi həyatında da mühüm dəyişikliklərlə əlamətdar olduğu əksəriyyət tərəfindən qəbul edilir. Hər şeydən əvvəl, həmin dövr bəşər tarixində böyük bir dövrə – antik demokratiya və onunla əlaqədar siyasi mədəniyyətin çiçəklənməsi dövrünə, iqtisadi, mənəvi və siyasi müstəqilliyə malik olan bir sıra polislərin (şəhər-dövlətlərin) varlığı dövrünə son qoydu. Bundan əlavə orada təkhakimiyyətlilik (monarxiya və tiraniya, ən yaxşı halda isə oliqarxiya) dövrü başlayır ki, bu da ən ümumi tənzimetmə və dövlətin xalqdan ayrı düşməsi kimi xarakterizə olunur.

Antik dövrdən fərqli olaraq ellinizmdə azad insanların, xüsusilə, filosofların fəlsəfi dünyagörüşündə olduğu kimi, siyasi baxışları, görüşləri və düşüncələri də daha artıq azadfikirlik, plyuralizm mövqelərindən deyil, bir daha hakim dairələrin maraqları əsasında təzahür tapır. Bu cəhət ellinizm dövrünün sonlarında, daha dəqiq desək, erkən xristianlığın meydana gəldiyi tarixi bir şəraitdə getdikcə qüvvətlənir.

Ellinist insanı – bu daha, artıq suveren polisin vətəndaşı deyil, əksinə, nəhəng bir monarxiya dövlətinin daxilində öz hüquqlarını (əlbəttə, azad insanlara xas olan) itirən insana çevrilir. O, daha öz dövlətinin idarəolunmasında iştirak etmir və qarşılıqlı şəkildə dövlət və insan bir-birindən ayrı düşür. Butun hakimiyyət monarxın başçılığı altında hərbi-bürokratik aparatın əlində cəmləşir. Ellinist monarxları özlərini birbaşa dövlətlə eyniləşdirirlər. Bu dövrdə siyasi azadlıq demək olar, öz funksiyasını itirir.

Ellinizmdə vətənpərvərlik kosmopolitizmlə əvəz olunur. Bu cəhət həmin dövrün siyasi baxışlarında xüsusilə öz təzahürünü tapır. Ellinizm siyasi fikir tarixində ən öndə gedən mütəfəkkirlər Demosfen və İsokrat olmuşdur.

***Demosfen*** (e.ə. 384-322) öz siyasi baxışlarında monarxiya, tiraniya idarə etmə formalarını tənqid edərək, antimakedon partiyasına başçılıq edirdi. Öz nitqlərində Demosfen monarxiya dövlət quruluşuna qarşı çıxaraq, afinalı həmvətənlərini azadlıq uğrunda mübarizəyə səsləyirdi. O, yunanlıları makedoniyalılardan, Yunanıstanı isə Makedoniyadan müstəqil, demokratik xalq kimi qəbul edirdi. Makedoniya çarı haqqında öz fikrini belə bildirirdi ki, «o nəinki yunan deyil, hətta yunanlılarla heç bir ümumi əlaqəsi yoxdur », eyni zamanda «o həm də elə bir ölkədən deyildir ki, onunla hörmətlə danışasan, əksinə elə bir ölkənin sakinidir ki, əvvəllər hətta həmin ölkədə adicə bir qulu da qaydasında almaq olmazdı».

***İsokrat*** (e.ə. 436-338) Demosfendən fərqli olaraq öz siyasi görüşlərində monarxiya quruluşunun tərəfdarı kimi cıxış etmişdir. O, Makedoniya çarını məhz yunan kimi, yunan qəhrəmanı Herakl kimi dəyərləndirir. Əgər Demosfen üçün başlıcası – Afinanın azadlığı və müstəqilliyi idisə, İsokrat isə bütün nailiyyətlərin əldə olunmasını ümumi ellinlilərin «vəhşilərə» qarşı birgə çıxış etməsində görürdü. İsokrat «Şərq-Qərb» problemləri sahəsindəki nəzəriyyəçilərdən birincisi idi. O qəti şəkildə Avropa və Asiyanı öz ərazi-mədəni səviyyələri baxımından prinsipial bir əsasda qarşı-qarşıya qoyur, bütün Asiya xalqlarının vəhşi olduğunu göstərir və onların ellinlilərdən varlı olmasını avropalılar üçün ədalətsizlik və təhqir kimi sayırdı.

Romanın böyük yunan tarixçisi Polibi (e.ə. 200-120) özünün 40 kitabdan ibarət olan «Tarix» əsərində siyasi hadisələrin səbəbli izahının tapılmasına və onların mahiyyətinin açılmasına səy göstərmiş, bununla yanaşı etiraf

etməyə məcbur qalmışdır ki, çoxlu siyasi hadisələr özünün baş verməsinə görə təsadüflərə və yaxud uğurlara borcludur.

Mənşəcə yunan olmasına baxmayaraq o, öz siyasi fikirlərində Yunanıstanın mövcud dövr üçün siyasi xaosdan xilas olmasının əsasını yalnız Romanın timsalında görürdü. Bu əsası isə Polibi Roma xalqına xidmət edən roma dinində, eləcə də onun siyasi quruluşunda (monarxiyanın - çar hakimiyyətinin, aristokratiyanın - senatın və demokratiyanın - xalq yığıncağının elementlərinin birləşməsində) görürdü.

Polibi Romada mütləq çar hakimiyyətinin məhv edilməsi və xalq yığıncağına əsaslanan ali dövlət orqanının tərəfdarı idi. Ona görə belə bir dövlət qanunları qəbul edir, müharibə elan edir, sülh bağlayır və bütün yüksək vəzifəli şəxsləri seçir ki, onların da əlində bütün icra hakimiyyəti cəmləşirdi.

***Dikearx.*** Antik dövrdə olduğu kimi, ellinizmdə də filosovlar öz təlimlərində siyasət, dövlət və hakimiyyət məsələlərinə geniş yer vermiş və onları cəmiyyətin ədalətli idarə olunması baxımından ən yaxşı idarəetmə formalarını axtarıb tapmaq düşündürmüşdür. Bir sıra filosoflar belə vəziyyətdən çıxış yolunu müxtəlif dövlət idarə formalarının bir-birilə qarışığında - sintezində görürdü. Həmin mütəfəkkirlərdən biri də Aristotel məktəbinin davamçısı Dikearx olmuşdu. Bir sosioloq kimi o, özünün «Triptolikos» əsərində ideal dövlət formasını onda hesab edirdi ki, özündə monarxiya, aristokratiya və demokratiyanın elementlərini birləşdirmiş olsun. Dikearxın fikrincə, yalnız müxtəlif idarəetmə formalarının yararsız-nöqsanlı tərəfini ataraq və onların müsbət tərəflərini birləşdirməklə cəmiyyətin düzgün, ədalətli idarə olunmasına nail olmaq olar. Dikearxın bu qəbildən olan siyasi təliminə nüfuz etdikdə belə bir nəticəyə gəlmək olar ki, həqiqətən iqtisadi və siyasi plyüralizm yalnız müxtəlif idaəretmə formalarının bəzi müsbət elementlərinin birləşməsində və onların düzgün tənzimlənməsində mümkündür.

***Siseron.*** Mark Tuli Siseron (e.ə. 106-43) siyasi fəaliyyətində hər şeydən əvvəl tiranlığa qarşı mübariz və Roma respublikasının sonuncu müdafiəçilərindən biri olmuşdur. Siserona görə, şəxsiyyətin siyasi və hüquqi azadlığında respublika dəyərləri mühüm təsirə malikdir. Siseronu başlıca olaraq bir sıra siyasi, ictimai, dövlət və hakimiyyət problemləri narahat etmiş və bu baxımdan da o «Natiqliyə dair», «Qanunlar haqqında», «Dövlət haqqında» və s. traktatlarını yazmışdır. Bu əsərlərdə o, ideal dövlət fəaliyyətinin kosmik mənzərəsini vermişdir. Siseron da Polibi və Dikearx kimi, Roma dövlətinin möhkəmliyinin əsasını onda görürdü ki, onun siyasi quruluşu özündə monarxiyanın (konsulluq, bəzi hallarda zərurət yarandığı zaman diktatura məkanında məhdudlaşır), aristokratiyanın (senat) və demokratiyanın (tribunalar, xalq yığıncağı) elementlərini birləşdirmiş olsun. Siseron üçün həqiqi dövlət – «xalqın nailiyyətidir», xalq isə özündə «adi bir nümunədə bu və ya digər məqsəd üçün toplaşmış insanların hər cür yığıncağı deyil, elə bir çoxlu insanların birliyidir ki, özündə bir sıra hüquqi və ünsiyyət mənafeləri əsasında öz aralarında qarşılıqlı əlaqələri razılaşdırır».

Ellinist kiniklərinin təlimlərində avtarkiya (müstəqil olmaq, özünəinam, özünəgüvənmək və s.) bütün insanların azadlığının məqsədi və əsasını təşkil edir. Bununla əlaqədar olaraq Antisfen yazırdı: «müdrik insan dövlətdən və təmtəraqlı həyatdan kənar olmalıdır».

Doğrudur, kiniklərdə dövlət haqqında dərin fikirlərə rast gəlinir, məsələn, Antisfen dövlətin nüfuzdan düşüb məhv olmasından danışarkən göstərirdi ki, «dövlət o zaman məhv olur ki, orada yaxşı adamları axmaqlardan daha artıq fərqləndirməyi bilmirlər». Bununla yanaşı kiniklər dövlətdən uzaq olmuşlar. Bu isə təəcüblü deyildir. Ona görə ki, bu onların insanların tam azad olma, yaxud dövlətdən kənar olma idealından irəli gəlirdi. Digər tərəfdən, kiniklər meteklər (özgəşəhərli, yad torpaqdan gəlmə) olmuşlar. Belələri isə polislərdə yaşaya bilməzdilər. Məhz buna görə də kinizmin siyasi təlimlərində vətənpərvərlikdən deyil, kosmopolitizmdən daha çox bəhs olunurdu.

Hətta belə hesab olunur ki, Diogen Sinoplu bəşər tarixində ilk kosmopolit olmuşdur, bəlkə də o həmin sözün yaradıcısıdır. O, «bütün dünyanı həqiqi yeganı dövlət hesab edirdi». Buna görə o özünü «dünyanın vətəndaşı», başqa sözlə, kosmopolit adlandırmışdır.

Kiniklər dövlət idarəetmə formalarına, xüsusilə, tiranlığa nifrət edirdilər. Antisfen deyirdi ki, «sərsəmin əlinə qılınc, alçağa isə hakimiyyət vermək qorxuludur». O cəlladın tirandan daha yaxşı olmasını bildirərək göstərirdi ki, «cəlladlar cinayətkarları öldürürlər, tiranlar isə-günahsız adamları».

Ancaq kiniklər demokratik quruluşu da ifrat azadlıq kimi ideallaşdırmamışlar. Dövlət vəzifələrinə şəxslərin demokratik əsaslarla seçilməsinə istehza edərək, Antisfen «afinalılara belə bir qərar qəbul etməyi məsləhət görür: Eşşəkləri atlar hesab edək»; belə bir halda bu söz anlaşılmaz qaldıqda, o qeyd edir: «bəs necə olur ki, siz sadəcə bir səs verməyinizlə yararsız adamlardan sərkərdələr edirsiniz?».

## *2. Orta əsrlərdə siyasi fikrin inkişafı*

Feodalizm ictimai-iqtisadi quruluşunun yaranması bəşər tarixinin, xüsusilə, onun siyasi fikrinin inkişafında yeni bir mərhəlinin başlanğıcını qoyur. Lakin, belə bir addım dünyanın müxtəlif ölkələrində eyni zamanda deyil, tarixin ayrı-ayrı dövrlərində baş vermiş və spesifik xarakter daşımışdır. Belə ki, feodalizm Çində e.ə. təxminən III-II əsrlərdə, Hindistanda bizim eranın 1-ci yüzilliyində, Zaqafqaziya və Orta Asiya ölkələrində IV-VI əsrlərdə, Qərbi Avropa ölkələrində V-VI əsrlərdə və Rusiyada isə bizim eranın IX əsrində təşəkkül tapmışdır

Təbiidir ki, istər Şərqdə və istərsə də Qərbdə feodalizm cəmiyyətinin sosial-siyasi, iqtisadi məzmununu yeni yaranmaqda olan məhsuldar qüvvələrin öz xarakterinə uyğun olan istehsal münasibətlərini yaratmaqla yanaşı, eyni zamanda onun əsasında insanların hüquqi və siyasi azadlıqlarının xarakteri öz ifadəsini tapırdı. Bu proses öz əksini ideologiyada, o cümlədən, feodalizmin müxtəlif ictimai qruplarının müxtəlif formada mənafelərinə cavab verən ictimai-siyasi fikirlərdə də tapır.

Buna əsasən demək olar ki, feodal Şərqində və Qərbində siyasi fikirlər sahəsində tam yekdillik olmamış və onlar cəmiyyətin maraqlarına müxtəlif formalarda cavab vermişdir. Əvvəlcə Şərqdəki siyasi ideyaların inkişafı tarixini izləyək.

***Çin***. Məlum oldu ki, Çində siyasi fikirlər hələ e.ə. 1-ci minillikdə yaranmış və bu ideyalar Konfutsinin, Lao -szın, Mo -szın və s. fikirlərində öz ifadəsini tapmışdır. Lakin, Çin e.ə. II - I əsrlərdə feodalizm dövrünə qədəm qoyduğu bir şəraitdə Konfutsinin məhşur siyasi təlimi olan patriarxal-paternalist konsepsiyası onun öz məktəbinin ardıcıllarından biri olmuş Dun Çjun-Şu tərəfindən başqa cür izah olunur. Onlar sübut edirdilər ki, kainat ən yüksək üstünlüklərə malik olduğundan təbiətdə olduğu kimi, insan cəmiyyətində də bütün hadisələrin və proseslərin hərəkətinə səbəb olur.

Dun Çjun-Şu və onun məktəbinin nümayəndələri göstərirdilər ki, bütün dövrlərin imperatorları idarə etmək üçün «səma mandatı» razılığını alırlar. Bu mənada imperatorun yaxşı və pis hərəkəti «səma»nın sevinc və kədərinə tamamilə uyğundur. «Səma»nın kədəri təbiətdəki qeyri-adi dəyişikliklər formasında təzahür edir. Belə bir təlimlə Dun Çjun-Şu öz zamanının imperatorunun hakimiyyətini təmizliyə çıxarır və bununla onun dövründə baş verən hər cür hərəkətlərin, xüsusilə ədalətsiz hərəkətlərin səbəbini «səma»nın hərəkəti ilə pərdələyirdi.

Çində Xan imperatorluğunun hakimiyyəti devrildikdən sonra Dun Çjun-Şu siyasi ideyalarına qarşı Van Çun və digər mütəfəkkirlər cıxış edirlər.

Van Çun (b.e. 27-97-illər) öz siyasi fikirlərində «səmanın iradəsi» adlanan mistik nəzəriyyəyə qarşı çıxaraq, cəmiyyətdə baş verən bütün hadisələrin və proseslərin, o cümlədən, siyasi münasibətlərin əsasında insanların özlərinin durduğunu göstərir.

Özünün siyasi fikirləri ilə hökmran quruluşu tənqid edən mütəfəkkirlərdən biri də Bao Çjen-Yanı göstərmək olar. O, «Bao Puszı» kitabında (b.e. IV əsrin əvvəlində) deyirdi ki, qədim dövrdə monarxlar olmamışlar; tədricən sonralar güclü adamlar yaranmışlar ki, onlar da zəifləri incitməyə başlamışlar, ağıllılar isə ciddiləri aldatmağa başlamışlar. Beləliklə, güclülər və ağıllılar zəifləri və ciddiləri öz təsirləri altına salmaqla onların «ağaları-hökmdarları» olmuşlar. Bu heç də «səma»nın iradəsi əsasında baş verməmişdir. Onun fikrincə, xalqlar çətinliklə yaşayırdılar və nə zaman ki, onların üzərinə bir qədər vergilər qoyuldu, bu onları öz ağalarından daha çox asılı vəziyyətə saldı.

Çində feodalizm quruluşunun sonrakı dövrlərində siyasi fikirlər Xan Yuyun (768-824-cü illər), Cjan Szayın (1027-1077), Çju Sinin (1130-1200), Çen Lyanın (1143-1194), Xuan Szun-Si (1610-1696) və Day Çjenin (1723-1777) təlimlərində daha da inkişaf etmişdir.

Çen Lyan göstərirdi ki, dövlətin tədbirləri «hökmdarın deyil, xalqın mənafeləri üzərində» həyata keçməlidir. Xuan Szun-Si mütləqiyyət monarxiya quruluşunu kəskin tənqid edərək qeyd edirdi ki, «monarx xalqın deyil, yalnız məmurların üzərində başçıdır; dövlət xalqa məxsusdur». Day Çjen isə bildirirdi ki, «xalq feodalizm cəmiyyətində sosial bəladan qurtula bilər, əgər öz savadlığının üzərində çalışarsa».

***Hindistan.*** Feodalizm dövründə Hindistanda hakim ideologiya din olmuşdur. Demək olar ki, ictimai şüurun bütün formaları – hüquq, əxlaq, incəsənət, elm, siyasi və fəlsəfi təlimlər – əsasən dini xarakter daşıyır. Dini təlimlər altında həm də antifeodal siyasi hərəkatı inkişaf edirdi.

Hindistanda feodalizmə qədər olan dövrdə və hətta feodalizmin ilkin çağlarında siyasi fikir sahəsində Upanişadların, Vedlərin və onların ardıcılları olmuş Şankaranın baxışları üstünlük təşkil etmişdir. Şankara da öz sələfləri kimi hökmran sinfin mənafeyinin təmsilçisi olmuş, sinfi zülmə və cəmiyyətin kastalara ayrılmasına haqq qazandırmışdır.

Lakin, feodalizmin orta dövründə Hindistanda əhalinin sinfi zülmü və kastalara ayrılması nəticə etibarilə bir tərəfdən siyasi baxışlara qarşı yeni sinfi fikirlərin yaranmasına səbəb olursa, digər tərəfdən, bu əsasda antifeodal hərəkatların artmasına gətirib çıxarır. Bu hərəkatlar dini sektalar formasında təzahür tapır. Belə dini təlimlərdən biri kimi «bxakti hərəkatı» nı göstərmək olar. Həmin siyasi təlimə görə dünyanın idarə olunmasında hakimiyyət brəhmən-panteonçu Allaha deyil, vahid ali Allaha mənsubdur. Buna görə də, insanların cəmiyyətin kastalara bölünməsi inkar olunur, onların sosial vəziyyəti və inanc mövqelərindən asılı olmayaraq hamının Allah qarşısında bərabər olması fikri irəli sürülür, eyni zamanda göstərilir ki, bu cəhət daha ədalətlidir, nəinki dini.

«Bxakti hərəkatı» nın görkəmli nümayəndələrindən biri Tulsi Das (1532-1624) idi. O, həmin hərəkatın digər ideoloqlarından fərqli olaraq Hindistanda mövcud olan kasta zülmünü müzakirə etmir, birbaşa onun apologetlərinə

(müdafiəçilərinə) qarşı çıxış edirdi. Onun «Ramayana» poeması özünün realist məzmununa görə kastalara qarşı çıxmaqla, həmçinin insanlarda hümanist, ədalətli hisslər oyadır.

«Bxakti hərəkatı»nın qabaqcıl nümayəndələri sənətkarların, tacirlərin və kəndli kütlələrinin geniş bir hissəsinin antifeodal əhval-ruhiyyəsinin ifadəçisi idi. Amma feodal və patriarxal-kasta ənənəsi və ortodoksal-dini təlimin hökmranlığı bu hərəkatın və onun ideologiyasının qeyri-yetkin olmasına öz təsirini göstərir. Belə ki, Bxakti ideologiyası mövcud quruluşa qarşı kütlələrin fəal mübarizəsi üçün çağırış deyil, ancaq kəndlilərin və sənətkarların cəmiyyətin sülh yolu əsasında yenidən qurulmasında əxlaqi özünü təkmilləşdirməyin illüziyalı ümidlərini təzahür etdirir və onlarda hakim feodal qaydalarına qarşı mübarizədə passiv formanı təlqin edirdi.

Bu qəbildən Vali Ullax (XVII əsrin ortaları) «Xudcatul Allah al-Baliqan» («Hamıdan yüksək Allahın müdafiəçisi») traktatında cəmiyyətin təşkilinin ideal təsvirini yaradır. O, öyrədirdi ki, insana cəmiyyətdən təcrid olunmuş kimi baxmaq olmaz, insan bir çox tellərlə cəmiyyətə bağlıdır: o ailənin, icmanın, dövlətin və bütün bəşərin üzvüdür; Ağıllı dövlət başcısı ədalətli qanunlara və xeyrə əsaslanmalıdır; onun rəhbərləri öz təbəəliyində onların hüquqlarını alçaltmamalıdır.

Şərqdə siyasi və hüquqi fikrin inkişafı islam dini ideologiyasının yaranması ilə daha möhtəşəm forma aldı. Bu, sadəcə sonuncu dünyavi dinin yaranması deyil, əsl realliqda ərəb dünyasında qəbilə siyasi münasibətlərinin tayfa dövlət quruluşu ilə əvəz olunması demək idi. Onun böyük ərazilərə yayılması yeni ictimai-siyasi münasibətlərin – feodalizmin əsasını qoymuş oldu.

Orta əsrlərdə Şərq siyasi ideyaların inkişafında Əl-Fərabinin, Əl-Biruninin, İbn-Sinanın, İbn-Röşdün, İbn-Xaldunun və b. misilsiz rolu olmuşdu. Bunların hamısı üçün xarakterik olan cəhət onda idi ki, siyasi və hüquqi baxışların və yeni dövlət quruluşunun əsasında islam dini ideologiyasını götürürdülər. Lakin, həmin mütəfəkkirlərin hər biri ayrılıqda olduqca dəyərli fikirləri ilə də öz zamanlarının siyasi və hüquqi münasibətlərinə böyük töhvə vermişdir.

Əl-Fərabi (870-950) siyasi fikrinin əsasını dövlətin öz sakinlərini ədalətli və səxavətli idarəetməsinin təşkili və onun mühafizə üsullarını öyrənib, həyata keçirmək təşkil edir. O, bu prosesdə xalqın da özünün fəal iştirakını nəzərdə tutur, və hesab edir ki, əhali cəmiyyətin siyasi həyatına mühüm təsir göstərən xeyir və rifahın hardan gəldiyini nəzərdən qaçırmamalı, onun nadan və şər qüvvələrdən mühafizə olunmasına daim səy göstərməlidir. Onun fikrincə, siyasətin ali məqsədi ədalətlə, haqqa nail olmaqdır.

İbn-Sina (980-1037) siyasi təliminin mahiyyətini siyasi hakimiyyəti, dövlət rəhbərliyini düzgün həyata keçirmək təşkil edirdi. O da, bu məsələdə Əl-Fərabi kimi, idarəetmənin «səxavətli», yaxud «pis» təşkilini doğuran səbəbləri oyrənməyə üstün yer verirdi.

İbn-Röşd (1126-1198) özünün siyasi baxışlarında Aristotelin siyasi ideyalarının davamçısı kimi çıxış edirdi. O, cəmiyyətin sinfi-iyerarxik təşkilini zəruri və qanunauyğun hal hesab etmişdir. Ona görə, dövlət başçısı daha bacarıqlı olmalı və öz siyasi hakimiyyətini ədalətli qanunlar əsasında qurmalıdır.

İbn-Xaldunun (1332-1406) siyasi fikri öz ifadəsini «Müqəddimə» və «Nəsihətlər kitabı» əsərlərində tapmışdır. Məhz o, şərq siyasi fikir tarixində ilk olaraq dövlət, hakimiyyət məsələlərinə tarixi-sosioloji aspektdən yanaşmış, eyni zamanda dövlətin yaranması, inkişafı və süqutunun «təbii qanunları»nı üzə çıxarmaq vəzifəsini qarşıya qoymuşdur. İbn-Xaldun dövlətin «sivilizasiyanın bir sıra mühüm əlamətləri ilə bağlı olaraq» yarandığı qənaətinə gələn ilk mütəfəkkirdir.

İbn–Xaldun dövlət hakimiyyətinin idarə olunmasında hökmdarla, onun təbəələrinin vəhdəti məsələsinə geniş yer vermişdir. İbn-Xalduna görə, ictimai-siyasi vəziyyətdəki mühüm dəyişikliklər dövlət başçısının rolu ilə məhdudlaşmır, daha çox cəmiyyətin ictimai münasibətlərinin dəyişilməsi ilə bağlıdır.

O, dövlət idarə formalarının təsnifatını verərkən, ona hakimiyyətin funksional cəhətindən yanaşır və burada hər bir idarə formasının özünə xas hüquqi tipi olduğunu bildirirdi. Bu prosesdə başlıca müəyyənedici tərəfin siyasi rejimlə əlaqəli olmasına üstünlük vermişdir. Bu qəbildən, İbn-Xaldun hesab edirdi ki, monarxiya, aristokratiya, demokratiya, avtoritarlıq kimi siyasi rejimlər hər biri müvafiq idarə formalarına malikdirlər və fərqli hüquqi münasibətləri təzahür etdirirlər.

İbn-Xaldun siyasi təlimində idarəetmənin üç forması: «təbii monarxiya», «siyasi monarxiya», və «xilafət» fərqləndirilir və üstünlük daha çox axırıncıya verilirdi. Burada o, xilafətin dini sərvətlərə arxalanmasına üstünlük verirdi.

Şərqdə olduğu kimi, Qərbdə də feodalizm dövründə əksər siyasi təlimlər dini xarakter kəsb edərək, hakim ideoloqiyanın maraqlarını ifadə etmişdir.

### *3. İntibah dövrünün siyasi ideyaları*

XV-XVI əsrlərdən başlayaraq Qərbdə feodalizm qaydalarının dağılması və kapitalist münasibətlərinin yaranması bir sıra sosioloji xarakter daşıyan yeni ictimai-siyasi fikirlərin təşəkkül tapmasına şərait yaradır. Burada ən vacib məsələlərdən biri dövlətə münasibət olmuşdur. Yeni yaranmaqda olan burjua ideoloqları özlərinin siyasi fikirləri ilə keçmiş feodal-teokratik baxışlara qarşı çıxaraq milli və mərkəzləşmiş dövlət ideyalarını müdafiə edirlər.

Bu dövrdə insanın «təbii hüquqları» haqqında və «xalqın suverenliyi» adlanan ideyalar meydana gəldi ki, bunlar da kapitalist münasibətlərinin inkişafı maraqlarına uyğun olaraq yeni siyasi qaydaların bərqərar olmasına təkan verir. Ancaq «təbii hüquqlar» və «xalqın suverenliyi» ideyaları hələ o dövr üçün həyata real vəsiqə ala bilmirdi. Belə

ki, istismar olunan kütlələrin inqilabi əhval-ruhiyyəsinin təhlükəsi burjua ideoloqlarından «güclü» dövlət hakimiyyəti haqqında əsaslanan təlimlərin yaradılmasını tələb edir ki, bu da yalnız feodalların müqavimətinə qarşı deyil, eyni zamanda inqilabi xalq hərəkatına cavab verirdi.

***Nikolo Makiavelli*** (1469-1527) öz siyasi görüşlərinə görə İtaliya burjuaziyasının ideoloqu olmuşdur. Onun «dəmir əl» nəzəriyyəsi tərəfdarı olması və bunun hər nə vasitə ilə olursa-olsun istismar olunan xalq kütlələrininə qarşı yönədilməsi fikri İtaliyada vahid dövlətin yaradılmasından irəli gəlmişdir.

Makiavelli üçün zadəganlar – bu «… hər cür vətəndaşlığın lənətlənmiş düşmənidir». Eyni zamanda, onun fikrincə, «qəzəblənmiş kütlələrdən qorxulu heç bir şey yoxdur … ».

Makiavelli hesab edir ki, tarixin hərəkətverici qüvvəsini «maddi maraq» təşkil edir və burada ən möhtəşəm olan xüsusi mülkiyyətdir. O deyirdi ki, insanlar öz atalarının ölümünü daha tez unudurlar, nəinki mülkiyyətdən məhrum olmalarını. Makiavelli yazırdı ki, mahiyyətcə cəmiyyətdə siniflərin mübarizəsi gedir, amma onun səbəblərinin və həqiqi xarakterinin nədən ibarət olmasını dərk etmək hələ mümkün deyildir.

Makiavelliyə görə, dövlətin əsasını tamamilə hər cür əxlaqi prinsiplərdən azad olan güc təşkil edir. O, siyasətə empirik fəaliyyət sahəsi kimi yanaşaraq, onun yalnız gücün vasitəsilə həyata keçirilə bilməsini irəli sürürdü. Makiavellinin fikrincə, «Knyaz» yaxud «Hökmdar» - bu gücün dəyişilməz apologiyasıdır.

Faktiki olaraq Makiavelli istismarçı siniflərin qəddar diktaturasının carçısı idi.

***Jan Boden*** (1530-1596) Fransa mütləqiyyət dövlətinin ideoloqlarından biri olmuşdur. O, Fransanın dövlət suverenliyi ideyasını irəli sürmüşdür. Jan Boden katolik kilsəsinin aydın kosmopolitik xarakter ifadə edən və Fransanın suverenliyinə və milli dövlətçiliyinə qarşı yönələn «papanın ümumdünyəvi hakimiyyəti» haqqında olan mürtəce nəzəriyyəsinə qarşı çıxırdı. Dövlət suverenliyi haqqında Bodenin ideyası yeni yaranmaqda olan milli dövlətçiliyin maraqlarına cavab verməklə, olduqca mütərəqqi əhəmiyyət daşıyırdı.

Kapitalizmin yeni bərqərar olduğu bu dövr üçün İngiltərədə daha artıq İtaliyada və Fransada özünün siyasi fikirləri ilə burjuaziyanın maraqlarını ifadə edən oxşar ideyalar deyil, xalq kütlələrinin zülmü və istismarını üzə çıxaran siyasi təlimlər yaranmaqda idi.

***Tomas Mor*** (1478-1535) görkəmli siyasi xadim və mütəfəkkir olaraq nəinki bir sıra siyasi fikirlər irəli sürmüş, həmçinin o İngiltərə dövlətində mühüm vəzifələrdə çalışmışdır. Belə ki, 1504-cü ildə parlament üzvü seçilən Tomas Mor, 1523-cu ildə parlamentdə icmalar palatasının sədri seçilmiş, 1529-cu ildə isə lord-kansler təyin edilmişdir.

Lakin, o mühüm demokratik prinsiplərə cavab verən parlament sistemində çalışmasına baxmayaraq heç bir zaman burjuaziyanın ideoloqu deyil, yalnız əzilməkdə olan xalqın mənafelərinin təmsilçisi kimi çıxış edirdi.

Tomas Mor tarixə özünün məhşur əsəri olan «Utopiya» ilə düşmüşdür. Bu əsərində o, ən yaxşı dövlət quruluşu haqqında fikirləri ilə çıxış edirdi ki, belə bir dövlətin və cəmiyyətin istismarçı cəmiyyətlərdə ola bilməməsi qənaətinə gəlir. Şərin kökünü Tomas Mor xüsusi mülkiyyətin olmasında görürdü. O, həmçinin deyirdi ki, dövlət varlıların sadə xalqı istismar etmək üçün hökm aparatı vasitəsidir.

«Utopiya» ideal ictimai quruluşun belə bir təsvirini yaradırdı ki, orada xüsusi mülkiyyət yoxdur, hamı çalışır və heç bir varlı, heç bir yoxsul yoxdur. Xarakterikdir ki, Tomas Mor özünün ictimai həyat idealını irəli sürərkən orada istehlaka deyil, istehsala yer verirdi. Burada istehsal orta əsr əl əməyinıə əsaslanırdı.

Bununla yanaşı Morun «Utopiya»sı gələcək yeniliklərlə bağlı bir sıra elementlərə də malikdir: istehsalın və bölgünün mərkəzləşdirilmiş təşkilinin üstünlükləri haqqında, bütün vəzifəli şəxslərin seçkili olması ideyası və s.

Cəmiyyətdə möhtəkirliyi, yararsızlığı aradan qaldırmaq üçün Tomas Mor bütün vətəndaşlardan fiziki əməklə çalışması fikrini irəli sürürdü. Onun fikrincə, fiziki işdən yalnız iki vətəndaş kateqoriyası – müvəqqəti ictimai funksiyanı yerinə yetirənlər və bir də elmi fəaliyyətlə məşğul olanlar azad ola bilər.

***Frensis Bekon*** (1561-1626) özünün siyasi baxışlarına görə güclü mərkəzləşmiş dövlətin tərəfdarı olmuşdur ki, bu cür dövlət kapitalist münasibətlərinin inkişaf maraqlarına uyğun gəlirdi. Bekon cəmiyyət həyatında birinci dərəcəli əhəmiyyəti ticarət və sənayenin inkişafına verirdi. O yazırdı ki, ticarət «siyasi bədənin» başlıca arteriyasını müəyyən edir.

Frensis Bekonun «Yeni Atlantida» əsərində onun utopik görüşlərinə rast gəlinir. O, «qızıl əsr»i arzulayırdı və onun fikrincə, buna maariflənmənin və müxtəlif texniki ixtiraların yolu ilə çatmaq mümkündür. Bekonun bu baxışları onun Böyük Britaniyanın dünya hökmranlığı ideyası ilə yoğrulan mürtəce siyasi görüşləri ilə birləşirdi. Bekona görə, heç bir dövlət, yaxud xalq təkcə öz imkanlarına əsasən yaşaya bilməz. Bununla o İngiltərə burjuaziyasının müstəmləkəçilik siyasətinə haqq qazandırır və yazırdı ki, «… xalq öz varını, sərvətini digər xalqın hesabına olmadan inkişaf etdirə bilməz». Bekon müharibəni «siyasi bədənin» zəruri çalışması hesab edirdi; sülh dövrü isə, ona görə, cəsurlugun aşağı düşməsinə aparıb çıxarır.

### *Burjua inqilabları dövrünün siyasi ideyaları*

Kapitalizm ictimai quruluşunun yaranması təkcə elm, mədəniyyət, incəsənət sahəsində nailiyyətlər qazanması ilə məhdudlaşmır, bütövlükdə bir ictimai-siyasi dövrün digəri ilə əvəzolunması prosesi əsasında baş verir. Bu prosesdə burjua inqilablarının və onunla bağlı siyasi ideyaların özünəməxsus rolu vardır.

***Tomas Hobbs*** (1588-1679) özünün dövlət və cəmiyyət quruluşu problemlərinə həsr olunmuş fikirlərinə əsasən «Vətəndaş haqqında» və «Leviafan» əsərlərində yer vermişdir.

Dövlətin ilahi mənşəyi və ilahi mahiyyəti haqqında feodal ideyalarına qarşı çıxaraq Hobbs hesab edirdi ki, dövlət tamamilə təbii mənşəyə malik olub, insanların özləri tərəfindən yaradılmışdır.

Cəmiyyətə dair Hobbsun təlimi insan haqqında, daha doğrusu onun anadangəlmə fərdiyyətçi və eqoist təbiətə, xarakterə malik olması haqqında burjua təsəvvürləri yaradır. Onun fikrincə, insanlar təbii vəziyyətdə olduğu vaxtlarda həddsiz eqoizm və şərlik çarlıq edirdi. Onun fikrincə, ilk əvvəllər bütün insanlar fiziki və əqli qabiliyyətlər baxımından bərabər yaranmışlar və buna görə də «hər şeyə malik olmaq hüququna sahib olmuşlar. Lakin insan eqoist, xəsis, qorxaq və özünüsevəndir. Onu paxıllar, rəqiblər və düşmənlər əhatə edir. Buradan da onun məşhur ifadəsi yaranmışdır: «İnsan insana canavardır»». Bunu əsas tutaraq, o belə hesab edirdi ki, cəmiyyətdə «hamının hamıya qarşı müharibəsi labüddür».

Hobbs həmçinin hesab edirdi ki, insanlar öz təbiətinə görə bərabərdirlər, amma bundan o özü antidemokratik çıxış edir: bərabərçilik özlüyündə insanlar arasında fasiləsiz münaqişələr və toqquşmalar doğurur. Bunu belə bir formada dərk etmək olar ki, Tomas Hobbs cəmiyyətdə bərabərsizliyin məhz bərabərçilikdən irəli gəldiyini açmaq istəmişdir.

Hobbsun fikrincə, insanların təbii vəziyyətdən cəmiyyətə, yaxud dövlətə kecdi qarşılıqlı razılığa, «ictimai müqaviləyə» görə baş verir.

Bununla yanaşı o, xalqın suverenliyi ideyasına qarşı cıxırdı. Hobbs monarxiyanı ən yaxşı idarə forması hesab edirdi.

Əgər Hobbsun fəlsəfi təlimində elmi, mütərəqqi prinsiplər özünü göstərirdisə, onun sosial – siyasi təlimində isə antidemokratik meyllər daha güclü idi.

Hobbs «Leviafan»da xalqın inqilabi dalğasına qarşı despotik təzyiqin göstərilməsini təbliğ edirdi. Lakin, bununla o, feodal kecmişinə qayıtmaq deyil, burjuaziyanın yuxarı dairələrinin maraqlarına uyğun olan kapitalizmin və onun sənayesinin, ticarətinin və s. inkişafına əsaslanan bir cəmiyyətə doğru addım atırdı.

***Pyer Qassendi*** (1592 - 1655) sosial – siyasi baxışlarına cəmiyyətin, dövlətin, hüququn, qanunların əsası olaraq ictimai müqavilə ideyası xarakterikdir. Ona görə, ilkin başlanğıcda cəmiyyətəqədərki vəziyyət mövcud olmuşdur. O yazırdı: insanlar heyvan kimi yaşadıqları zamanlarda onların arasında parçalanma və zorakılıq olmuşdur ki, bu da idarəsizliyin olmasından irəli gəlmişdir. Sonradan özlərinin xüsusi ağılları ilə fərqlənən insanlar meydana gəlir; bunlar yerdə qalan digər insanları nizam – intizam qaydaları yaratmaq haqqında müqavilə bağlamağa inandırırlar. İlk başlanğıcda xüsusi mülkiyyətin toxunulmazlığı haqqında müqavilə bağlanmışdır. Lakin xüsusi mülkiyyətin və cəmiyyət üzvlərinin digər hüquqlarının mühafizəsi üçün öncə dövlətin yaranması haqqında müqavilə bağlanılır. Beləliklə, dövlət, - Qassendinin fikrincə,- onun xeyrinə, cəmiyyətin bütün üzvlərindən öz hüquqları ilə fərqlənən dövlətin hökmdarının xeyrinə olan özgələşmə yolu ilə yarandı. Bununla eyni zamanda, hökmdarın hüququnu və cəmiyyət üzvlərinin hüquq və vəzifələrini tənzim edən qanunlar da yaranmışdı.

Qassendiyə görə, ictimai müqaviləyə əsaslanan və insanların xeyrinə olan bu hüquq – təbii hüquqdan ibarətdir. İctimai müqavilə nəzəriyyəsi və yaxud təbii hüquq nəzəriyyəsi dövlətin varlığını irəi sürür ki, bu da cəmiyyətin – xalqın iradəsini ifadə edən qanunlar formasıdır. Qassendi deyirdi ki, bununla əlaqədar olaraq, əgər dövlətin hökmdarı qanunlardan sui-istifadə edərək özünü tirana döndərərsə, onda xalq onu kənarlaşdırıb başqası ilə əvəz edə bilər.

Qassendi mütləq monarxiyanın tərəfdarı və «cəmiyyətdə əhliləşmiş dəyişikliyin» əleyhdarı olmuşdu.

***Benedikt Spinoza*** (1632-1677) dövlət və cəmiyyətlə əlaqədar olan siyasi fikirlərini özünün «insanın təbiəti» haqqında metafizik anlayışı əsasında irəli sürür. Həmin fikirlər öz ifadəsini Spinozanın «İlahiyyatçı-siyasi traktat» və «Siyasi traktat» əsərlərində tapmışdır. Spinoza cəmiyyət və dövləti eyniləşdirirdi. Onun fikrincə, dövlət heç də sosial-iqtisadi proseslərin sayəsində deyil, hakimiyyətin və qanunların mövcudluğunun zəruriliyi nəticəsində baş verən ictimai müqavilə əsasında yaranır. Bu nöqteyi-nəzərcə, dövlətin yaranmasına olan ehtiyac hər bir insanın cəmiyyət daxilində öz hüquqlarını və azadlığını həyata kecirməkdə qarşıya çıxan maneələri aradan qaldırmaqdan irəli gəlir.

Məhz bu mənada, Spinozanın siyasi görüşlərində feodal ictimai qaydalarının ciddi inkar olunması və onların «insanın təbiəti» prinsiplərinə uyğun bir əsasda dəyişdirilməsi ideyası ortaya çıxır.

Cəmiyyətin mütərəqqi kapitalist inkişafı maraqlarını ifadə edərək, Spinoza güclü dövlət hakimiyyəti tərəfdarı idi. O öyrədir ki, dövlət hakimiyyətinin hüququ öz tabeçiliyində olanlara münasibətdə müstəsna dərəcədə böyük olmalıdır. Amma mütləq monarxiya tərəfdarı olan Hobbsdan fərqli olaraq Spinoza belə hesab edirdi ki, ali hakimiyyət insanların daxili həyatına qarışa bilməz və onlara vicdan qanunlarını diktə etməməlidir.

***Con Lokk*** (1632-1704) özünün fəlsəfi-etik təlimlərində olduğu kimi, siyasi və sosioloji baxışlarında da birbaşa sinfi münasibət baxımından çıxış edirdi. Burjuaziya konstitusiyalı dövlət nəzəriyyəsi öz başlanğıcını Lokkin «Hakimiyyət haqqında iki traktat» əsərindən almışdır. Burada o, İngiltərə konstitusiyasını əsaslandıraraq, bir tərəfdən, onu mütləqiyyətçilərdən və stüartlar tərəfdarlarından, digər tərəfdən isə respublikaçı demokratlardan müdafiə edirdi.

Lokk da Hobbs kimi, özünün siyasi baxışlarında insanların təbii vəziyyəti haqqında və dövlətin müqaviləli mənşəyi haqqında olan nəzəriyyəsindən çıxış etmişdir.

Lokk bildirirdi ki, təbii vəziyyətində, - bütün insanlar bərabər və azad olmuşlar. İnsanların qarşılıqlı razılaşması əsasında bərqarar olan dövlətin yaranması zərurəti isə, onların həmin təbii vəziyyət rifahının və hər bir kəsin ayrılıqda özünə xas hüquqlarının mühafizəsindən irəli gəlirdi: bunlar həyat, fərdi azadlıq və xüsusi mülkiyyət hüquqları idi. Bütün insanların eyni təbii vəziyyətdə olmasına baxmayaraq, Con Lokkun fikirinçə, dövlətin yaranmasında ən başlıca məqsəd öncə xüsusi mülkiyyətin mühafizəsi zərurətindən doğurdu.

Parlament quruluşu, Lokka ğörə, dövlətin ən yaxşı sistemi deməkdir, belə ki, burada çoxluğun iradəsi üzrə hərəkət edilməlidir. O bunu mexanika sahəsindən olan analogiya ilə eyniləşdirir: cisim daim ona qarşı duran ən böyük

qüvvəyə tərəf istiqaməti üzrə hərəkət edir. Ancaq «çoxluq» altında seçilən burjua və zadəganlar mahiyyət etibarilə xalq kütlələrindən aralı düşürlər.

### *XVIII əsr fransız maarifcilərinin siyasi baxışları*

Bu dövrün ictimai-siyasi proseslərinin, xüsusilə inqilabi ideyalarının yayılmasında və formalaşmasında fransız maarifcilərinin baxışları böyuk rol oynamışdı.

***Şarl Lui Monteskye*** (1698-1755) özünün siyasi baxışlarına görə islahatçı bir mütəfəkkir olmuşdur. Monteskyenin başlıca əsəri olan «Qanunların ruhu haqqında» (1748) yeni dövrdə cəmiyyətdə sosial-siyasi prosesləri, xüsusilə, onların demokratik cəmiyyətin prinsiplərinə uygun əsasında işlənilməsini real bir formada təzahür etdirir.

Burada Monteskye ideyasının əsas mütərəqqi cəhəti ondan ibarət olmuşdur ki, ona görə, ictimai həyat öz təbiəti etibarilə qanunauyğunluqlara tabedir. O, qəti şəkildə T. Hobbsun insanların təbii vəziyyəti haqqında olan ideyasından irəli gələn «hamının hamıya qarşı müharibə vəziyyətində» olması fikrinə qarşı cıxırdı. Onun fikrincə, insanların təbii vəziyyəti onların arsında sülh və bərabərlik deməkdir.

Monteskye burjua hüquq nəzəriyyəsinin yaradıcılarından biri olaraq, belə hesab edirdi ki, hüquq insanların ağılı əsasında şərtlənir.

Fransız mütləq monarxiyasına qarşı çıxaraq, o təsdiq edirdi ki, Fransa üçün inqilabi dəyişikliklər deyil, ingilis nümunəsində olan islahatların həyata keçirilməsi zəruridir.

Monteskyenin siyasi idealı – konstitusiyalı «maarifçi» moanarxiyadan ibarətdir ki, bu da vətəndaşın azadlığı və hakimiyyətin qanunverici, icraedici və məhkəmə bölgüsünün təminatçısıdır. Hakimiyyətin bölgüsü haqqında Monteskye təlimi Fransa inqilabi zamanında bir çox burjua ideoloqlarının siyasi nəzəriyyələrinin əsasını təşkil etmişdir.

Monteskyenin irəli sürdüyü hakimiyyətin bölgüsü, prinsipi, hər şeydən əvvəl hakimiyyətin bir şəxsin əlində cəmlənməsini aradan qaldırır. İkincisi, bu prinsip xalq kütlələrinin siyasi azadlıq və hüqularının həyata keçirilməsini şərtləndirir, üçüncüsü, bu prinsip hakimiyyət orqanlarının – qanunverici, icraedici, məhkəmənin – müstəqil formada öz səlahiyyətlərini bir – birindən asılı olmadan həyata keçirilməsini təmin edir.

***Jan Jak Russo*** (1712-1778) dövlət və cəmiyyətlə bağlı siyasi fikirlərini «insanlar arasında bərabərsizliyin əsasları və mənşəyi haqqında» (1755) və «İctimai müqavilə, yaxud siyasi hüququn prinsiplərinə dair» (1762) əsərlərində irəli sürmüşdür.

Birinci əsərdə Russo ciddi bir şəkildə cəmiyyətin bərabərsizliyinə dair məsələni qarşıya qoyur. Burada o ictimai həyatın bir sıra sahələrində xalqın əleyhinə olan bərabərsizlikdən bəhs edir. Siyasi bərabərsizlik, onun fikrincə, cəmiyyət həyatının başlanğıc mərhələsində mövcud olmamışdı. Russoya görə, «təbii vəziyyət» dövründə, insanların bərabər olduğu bir zamanda xüsusi mülkiyyət və sosial tabecilik mümkünsüzdür. Xalq kütlələrinin sosial istismarının mənbəyini Russo məhz xüsusi mülkiyyətin yaranmasında görürdü.

Xüsusi mülkiyyətə əsaslanan vətəndaş cəmiyyətinin yaranmasını, Russo bir tərəfdən, ilkin «təbii vəziyyət»lə müqayisədə bir addım irəli hesab edirdisə, digər tərəfdən, onu eyni zamanda bərabərsizliyin, yoxsulluğun, hər cür bəlaların təzahür etməsi kimi səciyyələndirirdi.

Russo həmin təlimində insanların təbii bərabərsizliyinə səbəb olan xüsusi mülkiyyətin tamamilə məhv olunmasından bəhs etməsinə baxmayaraq, bunun ardınca o cəmiyyətin əsasını ancaq xüsusi mülkiyyətin saxlanmasında görürdü. Bununla yanaşı cəmiyyətin varlılara və yoxsullara bölünməsini məhv etməyi tələb etməklə, o xüsusi mülkiyyətin bölünməsinin bərabərləşdirici utopik nəzəriyyəsini irəli sürürdü. Burada o «təbii» tələbat prisipini, yəni hər bir kəsin özünün ehtiyacı müqabilində mülkiyyətə sahib olması ideyasını əsas tuturdu.

Russonun feodal – teokratik dövlət nəzəriyyəsinə qarşı qoyduğu burjua – demokratik nəzəriyyəsi, onun xüsusi mülkiyyət haqqında təliminin məntiqi davamı olmuşdur. Dövlətin yaranmasının tarixi şəraiti, onun fikrincə, təbii hüququn zorlaşdırılması nəticəsində yaranan xüsusi mülkiyyətdən irəli gəlmişdir. Bunun əsasında o göstərirdi ki, cəmiyyətin mülkiyyətçilərə və mülkiyyəti olmayanlara bölünməsinin «qeyri-təbii» normaları yaranmışdı. Sonradan varlılar öz hakimiyyətini yoxsulların üzərində möhkəmləndirmək arzusu ilə onlarda aldadıcı inamlar yaratmaqla, guya dövlətin yalnız ictimai qaydaların, sülhün və təhlükəsizliyin rəhnindən ibarət olduğunu bildirməklə, onlarla dövlət hakimiyyətinin təşkili barədə təkliflərlə razılığa gəlmişlər. Beləliklə, xüsusi mülkiyyəti qanunların köməyi ilə mühafizə edən dövlət hakimiyyəti, Russonun fikrincə, xalqın təbii hüquqlarının və insanların bərabərsizliyinin varlılar tərəfindən zorakılıqla həyata kecirilməsinə şərait yaradır.

Russonun təlimi Hobbsun «ictimai müqavilə» nəzəriyyəsindən özünün inqilabi əhval-ruhiyyəsi ilə fərqlənir. Russo bildirirdi ki, əgər dövlət müqavilənin nəticəsində yaranmışsa, onda xalqın özünün tələblərinə cavab verməyən faydasız müqaviləni dağıtmağa və öz maraqlarına uyğun yeni bir assosiasiya (ittifaq) yaratmağa şərait yaradacaq hüquqları qalmaqdadır.

Məhz buna görə də, Russo ictimai müqavilə nəticəsində yaranan hər bir dövlət hakimiyyətini xalq hakimiyyəti hesab edirdi.

***Deni Didro*** (1713-1784) öz siyasi fikirlərində dövlətlə cəmiyyət, hökmdarla xalq arasında kompromissə əsaslanan hakimiyyətə üstünlük verir. Ona görə, xalqla hökmdar arasında razılıq əsasında olan hakimiyyət legitimdir. O, xalqın suverenliyini müdafiə edir və hakimiyyətdən xalqa qarşı zorakılıq məqsədlərinə istifadə edən dövlətin, o

cümlədən «qanuni hökmdarın» vətəndaşların «təbii» hüquqlarını təhqir etməsini dövlətlə xalq arasında qəbul olunmuş razılığın pozulması kimi hesab edirdi.

Didro XVIII əsr Fransa burjuaziyasının maraqlarını ifadə edərək mütləq monarxiyanın nümayəndəli idarə forması ilə əvəz olunmasını tələb edirdi.

Didroya görə, cəmiyyətin mənəviyyatı qanunvercilikdən və idarə formasından asılıdr. Ağılın tələbləri ilə üst – üstə düşən dövlət qanunları, onun fikrincə, mənəvi həyat üçün şərait yaradır, insanı azad, xeyirxah və savadlı edə bilər.

***Klod Adrian Helvetsinin*** (1715-1771) siyasi fikirlərinin əsasında dövlətlə cəmiyyətin mənəviyyatı arasındakı münasibətlər mühüm yer tuturdu. O yazırdı; «... Təcrübə sübut edir ki, xalqların xarakteri və ağlı onların hakimiyyət formaları ilə birlikdə dəyişilirlər; belə ki, hakimiyyətin müxtəlif formaları eyni bir millətə növbəcə gah yüksək, gah aşağı, gah daimi, gah dəyişkən, gah cəsur, gah da kölə xarakteri vermiş olur».

Helvetsinin fikrincə, cəmiyyətin həyatı bütövlükdə qanunvericilikdən asılıdır, bu axırıncı isə, öz növbəsində insanların fikrinə tabedir. Bununla əlaqədar olaraq o yazırdı ki, «və mən belə bir qənaətə gəlirəm ki, xalqların bədbəxtçiliyini həmişə onların qanunlarının təkmilləşməmiş olması ilə həmçinin də onlar tərəfindən bir sıra əxlaqi həqiqətlərin bilməməzliyi ilə izah etmək olar».

Helvetsi mütləq monarxiyanın əleyhdarı olmuşdur. Onun insanların fikir, mənəviyyat azadlığından, eyni zamanda bütün bunların həqiqi qanunvericiliyə əsaslanmasından bəhs etməsi sözsüz ki, demokratiyanın tərəfdarı olduğunu sübut edir.

**Klassik alman fəlsəfəsi nümayəndələrinin siyasi ideyaları.**

Alman klassik fəlsəfəsinin banisi ***İ.Kantın*** (1724-1804) siyasi görüşləri onun fəlsəfi-idealist dünyagörüşünün davamı kimi təzahür tapıb. Bütün fəaliyyət prosesi, onun fikrincə, aprior olduğu kimi, bu eyni dərəcədə siyasi fəaliyyətə xasdır. Hec bir kənar, xarici təsir bu fəaliyyət prosesinə qarışmır. Əksinə, o «qəti imperativ» xarakter daşıyır və özlüyündə kənar, xarici hadisə və proseslərin baş verməsini şərtləndirir. Kantın fikrincə, ayrılıqda hər bir kəsin daxilində olan «praktik zəka» bütün ziddiyyətlərin simptomudur.

Kant cəmiyyətin siyasi həyatında ziddiyyətlərin, antaqonizmlərin tarixi prosesin gedişində mühüm rol oynadığını göstərir. Burada məsələ hansı tərəfin ədalətli, yaxud ədalətsiz mövqe tutmasından getmir. Əsas ondadır ki, tək bir tərəfin olması, yəni biri digərini inkar etməyən tərəfin olması heç bir vəchlə tarixi prosesin yaranmasına və onun siyasi xarakter daşımasına əsas verə bilməz. Kanta görə biri digərinə antaqonist mövqedə duran tərəflər bəşər nəslinin – ən ümumi hüquqi vətəndaş vəziyyətinin mühüm nailiyyətlərinin tərənnümçüsüdür.

Kantın siyasi ideyalarında paralel olaraq bütün dövlətlər arasında əbədi dünyanın gələcəkdə qurulması mümkünlüyünə toxunulur. Dünyanın bu əsasda qurulması və saxlanması vasitəsini Kant beynəlxalq ticarətin inkişafı və müxtəlif dövlətlərin burada qarşılıqlı maraqlarının və faydalarının olmasında görürdü.

***Hegeldə*** (1770-1831) siyasi ideyalar, fəlsəfi baxışlarında olduğu kimi, bütöv bir sistem halında öz ifadəsini tapır. Onun fikrincə, obyektiv «ruh» insanda əvvələn nitq, söz, dil formasında özünü təzahür etdirir. Əmək aləti, maddi mədəniyyət, sivilizasiya eyni ilə ruhun bu qaydada insanda yaradıcı gücünün təntənəsindən ibarət olur. İnkişafın başlanğıc nöqtəsi, bununla, Hegelə görə, insanın özündə deyil, «ruh»un öz «zənginlik nümunələrini» insanın vasitəsilə həyata keçirməsindən irəli gəlir.

Belə bir əsasda, «obyektiv ruh», onun fikrincə, hər şeydən əvvəl, sosial həyat sferasını əhatə edir və onun üzərində fövqəl individ bütövlüyünə malik olur ki, bu cəhətdən o hər bir an üçün ayrı-ayrı insanlarda təzahür olunmaqla, ümumən onların vasitəsilə müxtəlif əlaqələrdə və münasibətlərdə bilavasitə iştirak edir. Yalnız bu əlaqə və münasibətlər nəticəsində insanlar arasında sonradan hüququn, əxlaqın və mənəviyyatın digər sahələrinin yaranmasına səbəb olur. Burada, mənəviyyat adı altında Hegel bəşərin insan azadlıqları inkişafı mərhələsinin ailə, vətəndaş və dövlət pillələrinin yarandığını başa düşür.

Hegel siyasi tarixə bütövlükdə «ruhun öz azadlığını dərk etməsi tərəqqisi» kimi baxır ki, bunu o mütləq rühün müxtəlif xalqların inkişaf mərhələsində müxtəlif formalarda öz missiyasını yerinə yetirməsi kimi qəbul edirdi. Bu mərhələdə, Hegel, «asiya», «antik», «alman» inkişaf yollarını göstərir və bəşərin bunlardan yalnız axırıncısında öz azadlığına çatacağını təkidlə bildirir. Bu mərhələdə xüsusi olaraq «vətəndaş cəmiyyəti», «mülki cəmiyyət» ideyalarının böyük təntənəsindən bəhs olunur.

Siyasi fikrin inkişafında ***K.Marksin*** (1818-1883) və ***F.Engelsin*** (1820-1895) baxışları bütün digər ideyalardan köklü şəkildə fərqlənir. Ümumən marksist təlimində dövlət və siyasət siniflərin tarixi prosesin inkişafı gedişində yaranması ilə əlaqədar olub, bütövlükdə ictimai münasibətlərin fundamentini təşkil edir. Bu aşağıdakı formula kimi xarakterizə olunur:

***Sinif - dövlət – siyasət.***

Həmin formulaya görə, dövlət geniş insan qruplarının qlobal təşkili forması olmaqla, eyni zamanda hakim siniflərin iqtisadi, siyasi və ideoloji maraqlarını reallaşdıran məcburetmə mexanizmi kimi təqdim olunur.

***Amerikada siyasi fikrin inkişafı. XX əsrin əsas siyasi ideyaları***

Qərbi Avropa ölkələrində olduğu kimi, Amerikada da XVII-XVIII əsrlərdə müxtəlif ideya – siyasi cərəyanlar arasında dövlət, hakmiyyət məsələlərində kəskin mübarizə getmiş və bu əsasda dərin siyasi fikirlər irəli sürülmüşdür.

Lakin, Amerikada bu mübarizənin və onun ətrafındakı ideoloqların siyasi fikirlərin müəyyən dərəcədə özünə xas tarixi xüsusiyyətləri olmuşdur.

***Con Eliot*** (1604 - 1690) özünün siyasi baxışlarında insanların bərabərçiliyi ideyasından çıxış etsə də, amma, o, bu bərabərliyin hamılıqla gercək olan bu dünyada deyil, «axirət dünyasında» olacağını iddia edirdi. Buna görə də, Con Eliotun siyasi görüşlərinin dini xarakter daşıması mahiyyətcə daha realdır və bu özünü onun digər puritanlar və katoliklər ilə birlikdə faktiki olaraq quldarlığı müdafiə etməsindən irəli gəlir. Uliyam Foster özünün «Amerikanın siyasi tarixi oçerkində» yazır: «Məhşur puritant təbliğçisi Con Eliot heç də quldarlığa qarşı etiraz etmirdi. Hətta Birləşmiş Ştatların müstəqilliyi elan olunduqdan sonra da ölkədə zəncirlərin azadlığı uğrunda hərəkatın geniş vüsət almasına baxmayaraq, cənub ştatlarda kilsə Bibliya mətinlərinə istinad edərək, demək olar ki, xristianlıq naminə yekdilliklə quldarlıq sistemini müdafiə edirdi».

Eliot teokratik dövlət nəzəriyyəsini irəli sürür və belə hesab edirdi ki, hakimiyyət nəinki ruhani hakimiyyətə tabe olmalı, hətta öz funksiyasını ona verməlidir.

***Veniamin Franklin*** (1706-1790) özünün sosial-siyasi baxışlarında burjua qaydalarının ideoloqu kimi çıxış edirdi.

Cəmiyyət həyatı son nəticədə nədən asılıdır sualına, Franklin belə cavab vermişdir: «Biliyin inkişafından». Franklin üçün bəşər cəmiyyətinin tarixi – zəkanın tarixidir. Bu məqsədlə də, o ağıla əsaslanan burjua demokratiyasının timsalında cəmiyyətin mütərəqqi inkişafının son məqsədini görürdü.

Franklinin siyasi baxışlarında əxlaq məsələləri, xüsusilə, fərdi əxlaq mühüm yer tuturdu. Onun fərdi əxlaq ideyası siyasi baxışları ilə ayrılmaz şəkildə əlaqədar olmuşdur. Franklin Amerikada ingilis idarəçiliyinin «şəxsiyyətin müqəddəs hüquqlarına» qarşı istiqamətlənən qeyri-məhdud hakimiyyətini tənqid edirdi.

Franklin dövlətin inkişafında xüsusi mülkiyyətin roluna böyük qiymət verməsinə baxmayaraq, eyni zamanda hətta kapitalın daha çox geniş maqnatlarının «fövqəladə mülkiyyət» adlanan burjua-demokratik mövqeyinə öz mənfi münasibətini bildirirdi.

***Tomas Ceffersonun*** (1743-1826) siyasi baxışları onun «Virciyniya haqqında qeydlər» (1787) və «ABŞ-ın İstiqlaliyyət Bəyannaməsi» (1776) əsərlərində öz ifadəsini tapmışdır.

Birinci əsərində o, Amerikada köləliyə qarşı çıxaraq bir sıra demokratik fikirlər irəli sürmüşdür. Cefferson insanların qanun qarşısında bərabər olmasının tərəfdarı olmaqla, həmçinin onların silki məhdudlaşdırılması əleyhdarı olmuşdur. O, silki münasibəti qeyri-qanuni hesab edir və onu mürtəce qanunculuğun əks təbii məhsulu kimi qiymətləndirirdi. Təbii hüquq, onun fikrincə, insanları azad edir.

Cefferson «ictimai müqavilə» nəzəriyyəsinə münasibətində bildirirdi ki, təbiətdə elə bir qeyri-özgə təbii hüquq mövcuddur ki, onun qarşısında insanlar heç bir vəziyyətdən imtina edə bilməzlər.

Vaxtilə İngilis filosofu ***Jeremi Bentam*** (1748-1831) tərəfindən irəli sürülən və ***Con Stüart Millin*** (1806-1873) inkişaf etdirdiyi utilitarizm (ingiliscə – «sərfəli», «xeyirli», «faydalı» deməkdir) ideyası insan hüquqlarının labüdlüyünün fundamental əsaslarına çevrilir. Bu ideyanın mahiyyətinə görə, sərfəlik subyektiv anlayış olduğundan hər kəs onu öz bildiyi kimi dərk edir; nəyin həqiqətən sərfəli olduğunun ancaq bazar müəyyən edə bilər; insana yaşamaq, işləmək və bazarda sərbəst şəkildə hərəkət etmək imkanı verməlidir və bu, son nəticədə cəmiyyət lider, iqtisadiyyatın isə dövlət tərəfindən idarə olunması üsülundan daha yüksək fauda verəcək.

Şəxsi maraq və sərfəlilik konsepsiyası Qərbdə, o cümlədən, ABŞ-da mədəniyyət, təhsil, idarəçilik, cinayət hüququ və iqtisadi islahatlara çox böyük təsir göstərdi. İctimai həyatın müvəffəqiyyətlilik meyarı kimi, sərfəlilik ideyası «Allah tərəfindən verilən haqqlar ideyasını» əvəz etdi. Cəmiyyətin ümumən azadlıqları və hüquqları şəxsin sərfəlilik, faydalılıq azadlığı və hüququ əsasında öz nicatını tapdı. Şəxsin azadlığı olmadan cəmiyyətin azad olmasının mümkünsüzlüyü irəli sürüldü.

XX əsrdən başlayaraq kapitalizm cəmiyyətinin texniki və iqtisadi cəhətdən sürətlə inkişafı onda müsbət irəliləyişlərə nail olmaqla yanaşı həmçinin bir sıra mənfi, neqativ sosial halların yaranmasına səbəb olur. Bu cəhət kapitalizmin gələcəkdə təhlükə qarşısında qala biləcək fikrini irəli sürən bir çox nəzəriyyələrin meydana gəlməsinə əsas verir.

Amerika publisisti ***Olvin Toffler*** «Gələcəkdə toqquşma» adlı kitabında yazır ki, cəmiyyətin kapitalist təşkili qaldıqca, sürətli texniki tərəqqinin nəticələri insanlar üçün məhvedici bir qüvvə olmaq təhlükəsini doğurur. Onun fikrincə, belə bir vəziyyətdə kapitalizmi hökmən başqa bir sosial təşkil sistemi əvəz edəcəkdir. E.Kaler «Tarixin mənası» adlı kitabında kapitalizm cəmiyyətinə qarşı duraraq fövqəlrasional sivilizasiyanın cılızlaşaraq mexanikləşdirilmiş barbarlağa çevrildiyini qeyd edir. Kaler göstərir ki, kapitalizmdə insan təbiət üzərində öz nəzarətini çox böyük ölçüdə genişləndirərək öz üzərində, öz təbiəti üzərində nəzarəti itirmişdir. Məşhur Amerika dövlət xadimi C.Fulbrayt «Şikəst nəhəng» adlı kitabında yazır ki, ABŞ-ın demək olar ki, hər bir iri şəhərində «xoşagəlməz bir şey az qala cismən hiss olunur, kütlə içərisində təcrid olunma hissi, eyni zamanda tək qalmağın mümkün olmaması ilə birlikdə tənhalıq hissi yaşayır. Ayrıca bir adam ən çox dərəcədə şeylər üzərində nəzarəti itirdiyini, onu əhatə edən şeylər tərəfindən əsarət altına alındığını, öz ehtiyaclarının təmin olunmadığını, öz təbii mahiyyətinin pozulub getdiyini hiss edir».

Müasir nəzəriyyələrdən biri də ***D.Bellin*** «Postindustrial cəmiyyət» nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə belə bir tipdə olacaq cəmiyyət gələcəkdə dövlət inhisarçı kapitalizmi əvəz edəcəkdir. «Postindustrial cəmiyyət» nəzəriyyəsinə əsasən cəmiyyətin inkişaf səviyyəsini müəyyən edən başlıca amil istehsalın texnikasıdır. İstehsalda texnikanın inkişaf dərəcəsi elə bir həddə gəlib çatacaqdır ki, nəticədə cəmiyyətdə sinfi münasibətlər, istehsal vasitələri üzərində mülkiyyətçi meyllər aradan qalxacaqdır. Bu isə öz növbəsində hər cür sosial partlayışa səbəb ola biləcək mənfi halları

sıradan çıxaracaqdır. «Postindustrial cəmiyyət» nəzəriyyəsində aparıcı rol xidmət, elm və təhsil sahəsinə verilir ki, burada da cəmiyyətin idarə olunmasında alimlərin, mütəxəssislərin zehni əməyinin böyük yer tutacağı göstərilir.

Futoroloji nəziriyyələr sırasında yüxarıda haqqında danışdıqlarımızdan mahiyyətcə köklü şəkildə fərqlənən digər bir konsepsiya «konverqensiya» nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə hazırda kapitalizmlə sosializm arasında iqtisadi, siyasi və ideoloji sahələrdəki bütün fərqlər aradan qalxır, onlar getdikcə bir-birinə daha da yaxınlaşır ki, bu da gələcəkdə yeni tipdə bir cəmiyyətin yaranmasına səbəb olacaqdır. Bu tip cəmiyyətə dünya siyasi elmində «qarşılıq» cəmiyyət deyilir.

## 3-cü MÖVZU

## AZƏRBAYCANDA SİYASİ FİKRİN İNKİŞAFI

### *1. Qədim dövrdə Azərbaycanda siyasi fikir*

Siyasət və siyasi münasibətlər haqqında fikirlər Azərbaycan ərazisində qədim zamanlarda meydana gəlmiş və çox böyük təkamül yolu keçmişdir. Dünyanın bir çox başqa xalqlarında olduğu kimi, burada da siyasi fikir erkən dövrlərdə mifoloji dünyagörüşün tərkib hissəsi kimi çıxış etmiş, miflərdə və əsatirlərdə, nağıllarda və dastanlarda öz əksini tapmışdır.

Azərbaycan xalqının siyasi fikrinin sistemli şəkildə şərh olunduğu ilk böyük yazılı abidəsi «Avesta»dır. Dualist təlim olan zərdüştlük b.e.ə. VII – VI əsrlərdə dini-fəlsəfi sistem kimi qədim Azərbaycan və İran ərazisində meydana gəlib, sonra daha geniş məkana yayılmışdır. Bu dinin yaradıcısı böyük Zərdüşt olmuşdur. O, həm də bu dinin müqəddəs kitabı olan «Avesta»nın («Qanun»un) ən qədim hissəsinin müəllifidir. «Avesta» üç kitabdan – Vendidad, Yasna və Vispereddən ibarətdir. Əvvəlki iki kitabda toplanmış dini mərasimləri əks etdirən mətnlər – yaştlar «Avesta»nın ən qədim hissələri hesab olunur. Onlar irili– xırdalı müxtəlif vaxtlarda yaranmış iyirmi bir himnidir. Yasnanın əsas məzmununu Zərdüştün lirikası – qatlar təşkil edir. Vispered Yasnanın ayrı-ayrı hissələrinə əlavələrdir.

Zərdüştün ideyasını qısaca belə ifadə etmək olar: dünya qaydaları xeyir və şərin, işıq və zülmətin, həyat və ölümün mübarizəsindən asılıdır. Bütün kainatda müsbət başlanğıcın təcəssümü Ahura Mazda (Hörmüz), mənfininki isə Ahurə- Mau (Əhriman) hesab edilir. Onların hər ikisi «Sonsuz zamanın» yəni Allah sayılan Ervanın oğullarıdır. Şər daimi deyil, ondan azad olmağın, ruhu ondan təmizləməyin yolu oda sitayiş etməkdir. Od insanı təmizləyir, saflaşdırır, şəri məhv edir. Zərdüşt Hörmüzü müdafiə edənlərə, onun yolu ilə gedənlərə ölümdən sonra o dünyada əbədi xoşbəxtlik vəd edir, Əhrimanın tərəfdarlarının isə əbədi olaraq cəhənnəm əzabına düçər olacaqlarını göstərir.

Xeyir və şərin mübarizəsi, doğrunun, ədalətin tərənnümü Zərdüşt etikasının əsasını təşkil etməklə, Mazda qanunları üçün başlanğıc kimi çıxış edir. Burada ən yüksək əxlaqi prinsip müqəddəs qanuna, ədalətli qaydaya tabe olmaqdır.

«Avesta»da dövlət insanların birgə ünsiyyət forması, bütün cəmiyyətin mühavizəsinin mühüm atributu hesab olunur, dövlət hakimiyyətinin möhkəmliyinin isə vətəndaşlarda mənəvi borcun tərbiyə edilməsi səviyyəsindən asılı olduğu göstərilir. Burada diqqəti cəlb edən daha bir cəhət ondan ibarətdir ki, Zərdüşt «cəmiyyət» və «dövlət» anlayışlarının eyni məna daşıdığını, öz növbəsində, dövlətin göylər səltənətinin yerdəki təcəssümü olduğunu bildirir. Tədqiqatçılar belə hesab edirlər ki, dövlət anlayışı burada hər hansı bir xarici nəzarətdən daxili müstəqillik, suverenlik, ayrıca götürülən bir ərazi də zərdüştlük dininin ardıcılları üzərində şəriksiz hökmranlıq imkanı kimi nəzərdən keçirilir.

«Avesta» güclü dövlət hakimiyyətini təbliğ edir. Burada göstərilir ki, dövlətə xeyirxah hökmdar başçılıq etməlidir. Dövlət başçısı eyni zamanda ali dini başçı, xalqın fikirlərini və arzularını istiqamətləndirən ideoloq olmalı, xalq arasında zərdüştlüyü yaymaqla məşqul olmalıdır.

«Avesta»da dünyanın yaradılması haqqında da maraqlı fikirlər var. Burada göstərilir ki, dünya on iki min ildir ki, mövcuddur. Dünyanın inkişafı hər biri üç min il olan dörd dövrə bölünür. Birinci dövr şeylər haqqında ideyaların yaranması dövrüdür. Hörmüz ideal aləmin mücərrəd anlayışlarını yaradır. İkinci dövrdə dünya yaradılır. Hörmüz göyü, ulduzları, ayı və günəşi yaradır. Elə həmin vaxt Əhriman yaradılan kainata daxil olur və göy cismlərinin nizamlı hərəkətinə tabe olmayan kometaları və başqa cismləri yaradır; o, ziyanlı heyvanları dünyaya gətirir, suyu çirkləndirir, ilk insana ölüm gətirir. Lakin ilk insanın kişi və qadın cinsindən iki övladı qalır ki, bütün insan nəsli onlardan başlayır. İki zidd başlanğıcın toqquşması nəticəsində bütün dünya hərəkətə gəldi: çaylar axmağa başlayır, dağlar yaranır, göy cismləri hərəkət edir. Üçüncü dövr zərdüşt peyğəmbərin dünyaya gəlməsinə qədərki dövrdür. Bu dövrdə «Avesta»nın qəhramanları fəaliyyət göstərir. Dördüncü dövr (Zərdüştdən sonra) üç min ili əhatə edir; hər min ildə bir xilaskar dünyaya gələcək. Deməli, bu dövrdə üç xilaskar olacaq, onların hamısı Zərdüştün oğullarıdır. Üçüncü minildə gələn üçüncü xilaskar bütün dünyanın və insanlığın taleyini həll edəcək. O, ölüləri dirildəcək, Əhrimana qalib gələcək, dünya saflaşacaq, dünyada ədalət bərqərər olacaq.

**Mani təlimi (maniheizm). Məzdəkçilik**

Maniheizmin banisi Mani(216-273) olmuşdur. Zərdüştlükdən faydalanan Mani, dünyanı dualist bir anlamla izah edir. Onun fikrinə görə yaxşılığın mənşəyi və əsası işıq, pisliyin mənşəyi olan qaranlıq (zülmət) və yaxud şeytan və maddə daim mübarizə halındadır. Kiçik aləm olan insanın bədənini qaranlıqlar hökmdarı, ruhunu işıq hökmdarı yaratmışdır. Qaranlıq pisliyin yaradıcısı, işıq isə yaxşılığın yaradıcısı olduğu üçün onların hər ikisi Allah ilə eyniləşdirilir. Mani bütün varlığı bu iki yaradıcı qüvvə arasındakı mübarizə ilə izah edir. Mani təlimi eyni zamanda yəhudi və xristian dinlərinidən də istifadə etmişdir.

Maniçilik türk xalqlarının, o cümlədən azərbaycanlıların islama qədərki dinlərindən biri olmuş, və öz tərəfdarlarının həyatında əhəmiyyətli rol oynamışdır. V yüzilliyin 80-ci illərində başlayan məzdəki hərəkatına Məzdək (…-529) başçılıq edirdi. Onun təlimi maniliyə çox yaxın olsa da nikbinliyi və üsyankarlığı ilə fərqlənirdi. Məzdək göstərirdi ki, Allah nemətləri hamı üçün yaratmışdır. Ona görə də bu nemətlər hamı arasında bərabər bölünməlidir. Lakin onlar bir-birlərinə qarşı ədalətsizlik edirlər. Odur ki, varlıların əmlakı onların əlindən alınıb kasıblar arasında bölüşdürülməlidir. Yalnız bu yolla sosial bərabərsizlik aradan qaldırıla bilər. Bu hərəkat qırx ilə qədər davam etmiş və İran şahı II Xosrov tərəfindən yatırılmışdır. Məzdək və tərəfdarları edam edildilər.

Məzdəkilərin ideyaları Azərbaycanda da yayılmış və sonralar xürrəmilər tərəfindən davam etdirilmişdir.

### Xürrəmilik təlimi

VIII əsrin axırlarında Bərdə, Beyləqan və Ərdəbildə böyük çaxnaşma baş vermişdir. Lakin ən ciddi və geniş yayılmış üsyan 808-ci ildə başlayan xürrəmilik hərəkatı idi. Xürrəmilərin başçısı Cavidan 816-cı ildə öldükdən sonra onun yerini Babək tutmuş və iyirmi il bu hərəkata başçılıq etmişdir. Tədqiqatçılar göstərirlər ki, xürrəmilərin təlimi şərq ölkələrində yayılmış dini-fəlsəfi fikrin, ilk növbədə zərdüştlüyün əsasında meydana gəmişdir.

Xürrəmilər İslamın əsas müddəalarını qəbul etmirlər. Vahid Allahı tanımayan Xürrəmilər hesab edirdilər ki, kainat daim və sonsuzdur, insanların ruhu da daimi yaşayır. Onlar xeyir ilə şər qüvvələr arasında daimi mübarizə getdiyini deyir. Xeyirin şərə gec-tez qalib gələcəyinə inanırdılar. Babəkilər məzdəkilərin yolu ilə gedərək ümumi torpaq və ictimai bərabərlik ideyalarını irəli sürürdülər. Onların fikrincə bütün insanlar azad yaşamalıdır, ümumi bərabərlik olmalıdır. Odur ki, dövlət də bərabərlik və ədalət prinsipləri əsasında qurulmalıdır. Özlərini həm də mühəmirlər-qırmızı paltarlar adlandıran xürrəmilərin bayraqları qırmızı rəngdə idi.

Babək azadlıq carcısı kimi şöhrət qazanmışdır. Onun üsyanı bütün xilafəti qorxuya salmışdı. Babək deyirdi ki, «qırx il miskin qul kimi ömür sürməkdənsə, bir gün ağa kimi yaşamaq daha yaxşıdır». Bu üsyan böyük qəddarlıqla yatırıldı. Babək və tərəfdarları edam edildi.

### Əbülhəsən Bəhmənyarın sosial-siyasi görüşləri

Orta əsrlərdə Azərbaycan fəlsəfi fikrinin görkəmli nümayəndəsi olan, İbn Sinanın sevimli şagirdi olmuş Bəhmanyarın əsərlərində cəmiyyətin inkişafı ilə bağlı bir çox məsələlər şərh olunmuşdur.

Bəhmənyar yaradıcılığında «Təhsil» kitabı xüsusi yer tutur. Bu kitab «Məntiq», «Metafizika» və əyani mövcud şeylərin halları «olmaqla üç metafizika» altı və «əyani movcud şeylərin halları» iki hissədən ibarətdir.

Bəhmənyarın fəlsəfəsini öyrənmək üçün «İzahat» («Əl-Təliqat») adlı əsəri də çox qiymətlidir. «İzahat» kitabını Bəhmənyar İbn Sinadan təhsil aldığı müddətdə yazmışdır.

Feodalların ideoloqu olan filosof-hakim ictimai quruluşu təbii hesab edir, onu xeyirxah və gözəl quruluş kimi qiymətləndirirdi. O, istismarçı quruluşu tərifləyir, yoxsulluğa dözməyə çağırırdı. Bəhmənyar xüsusi mülkiyyəti qəbul edir, əsl səadətə çatmaq yolunu təhsildə, mənəvi təkmilləşmədə görürdü.

***Marağalı Əhvədi*** öz əsərlərində müdrik və elmli hökmdarın başçılıq etdiyi feodal dövlətini arzulayırdı. Hər bir fərdin əxlaqi, mənəvi kamilliyini, bunun vasitəsi ilə də bütün cəmiyyətin təkmilləşməsini o, öz idealına çatmaqda yeganə yol hesab edirdi.

### Nizami Gəncəvinin sosial-siyasi görüşləri

XII əsrdə Azərbaycanda sosial-siyasi fikir haqqında danışarkən dahi şair Nizami Gəncəvini (1141-1209) xüsusi qeyd etmək lazımdır. N.Gəncəvi feodal cəmiyyətinin əsas bəlasını, nöqsanların başlıca səbəbini ədalətsizliyə, zorakılığa və qarətə əsaslanan dövlətin xarakterində görürdü. Onun siyasi idealı ilk əvvəl maarifçi monarx, sonralar xalq hakimiyyəti idi. Özünün bütün yaradıcılığı boyu şair ideal siyasi quruluş

axtarmış və nəticədə hakimlərin və məhkumların olmadığı, bütün adamların zülmdən və zörakılıqdan azad olduğu xalq hakimiyyəti obrazını yaratmışdır.

«İqbalnamə»nin ikinci hissəsində Nizami öz qəhramanı İsgəndərin inkişafındakı ən yüksək mərhələni – onun peyğəmbərliyini, ideal cəmiyyətlə qarşılaşmasını və ölümünü göstərir. Böyük ölkələri fəth edən, elmi və fəlsəfəni öyrənən müdrik şah nəhayət yer üzünün nadir möcüzəsi olan xəyali xoşbəxtlər ölkəsi ilə qarşılaşır. İsgəndər xoşbəxtlər ölkəsinə çatdıqda gördükləri onu heyrətə salır - təmiz axar sular, məhsuldar tarlalar, hasarsız bağlar, çobansız sürülər, qapısı olmayan gözəl şəhər, qıfılsız dükanlar. Bu ölkənin adamları dindardırlar, düzlük tərəfdarıdırlar, əyrilik qapısını bağlamışlar. Yalan danışmazlar, acizlərə kömək edərlər, dara düşənlərin xilasına çatırlar. Burada hər kəsin malı başqasından artıq deyil, bütün var - dövlət bərabər bölünür. Onların uşaqlarını Allahın özü böyüdür. Nizami bütün əsərlərində tərənnüm etdiyi ədalət və humanizm ideyalarını sanki burada yekunlaşdırır. Müdrik şah həqiqət yolunun hələ harada olduğunu yaxşı bilmir. Xoşbəxtlər ölkəsinin adamları ona həyat və insanlıq qaydalarını öyrədirlər. Bundan sonra İsgəndərin dünyanı dolaşmasına ehtiyac qalmır. Bu onun axırıncı səfəri olur.

Nizaminin utopik fikirləri Azərbaycanda və bütün Şərqdə mütərəqqi ictimai fikrin inkişafında mühüm rol oynamışdır.

### Nəsirəddin Tusinin sosial-siyasi görüşləri

Azərbaycan xalqının, ümumiyyətlə Yaxın və Orta Şərqin siyasi fikirinin ən görkəmli nümayəndəsi Xacə Nəsirəddin Tusi (1201-1274) olmuşdur. Onun astronomiya, riyaziyyat və s. kimi dəqiq elmlərlə yanaşı, fəlsəfə, məntiq, etika və estetikaya dair yazdığı əsərləri dünya elminə qiymətli töhfədir. Şərqin Fərabi, İbn Sina, Biruni, Qərbin isə Platon, Aristotel və s. kimi korifeylərinin təlimlərinə əsaslanaraq, Tusi artıq XIII əsrdə insanlığı indinin özündə də düşündürən bir çox məsələlərə çox düzgün və sərrast cavab vermişdir.

N.Tusi geniş elmi-bədii, fəlsəfi görüşlərlə yanaşı ictimai-siyasi məsələlərə aid qiymətli fikirlər də söyləmişdir. Onun siyasət, hüquq və dövlət haqqında yazdıqları əsasən «Əxlaqi-Nasiri» əsərində toplanmışdır. N.Tusinin dediyinə görə insanların iradi işləri iki yerə – xeyirlər və şərlərə bölündüyündən icmalar da buna uyğun olaraq iki yerə bölünür: səbəbi xeyir olanlar və səbəbi şər olanlar.

Mütəfəkkir siyasətin aşağıdakı növlərini göstərir:

1. Fəzilətli siyasət, buna imamət də deyilir. Belə siyasətin məqsədi xalqı kamilləşdirmək, nəticəsi isə səadətə çatdırmaqdır;
2. Naqis (nöqsanlı) siyasət, buna zorakılıq da deyilir. Belə siyasətin məqsədi xalqı qul halına salmaq, nəticəsi isə bədbəxtlik olar.

Birinci siyasət Tusinin fikrincə camaatı ədalətə çağırır və rəiyyətə ən sədaqətli dost gözü ilə baxır, şəhəri xalqa xeyir verən işlərlə doldurur, əxlaq pozğunluğun qarşısını alır. İkinci siyasət camaatı qarətə təhrik edir, rəiyyəti qul və nökər hesab edir, şəhəri xalqa zərər verən şər işlərlə doldurur, özü şəhvani hisslərin əsiri olur.

Tusinin siyasi görüşlərində «dövlət» anlayışı mühüm yer tutur. Təsadüfi deyildir ki, o görkəmli dövlətşünas, dövlət nəzəriyyəçisi hesab olunur. Tusinin fikrincə, dövlət insanların birliyi, cəmiyyətin təbii vəziyyətidir. O, belə hesab edirdi ki, insanlar öz mənafeləri əsasında könüllü surətdə birləşmək arzusunda olduqları zaman dövlət əmələ gəlir. Həm də dövlət insanların tələbatını ödəmək məqsədilə yaranır və onlara xidmət edir.

Tusi «dövlət» və «cəmiyyət» anlayışlarını təqribən eyni mənada işlədir, dövlət - cəmiyyətin strukturunu təsvir edir. Onun mühüm ünsürləri ailə, məhəllə (rayon yaxud qrup) şəhər icması, böyük xalqlar icması və ümumdünya icmasıdır.

Tusi belə hesab edirdi ki, insanların həyatı dövlətdən kənarda mümkün deyildir. İnsan dövlətin yardımına, dövlət isə insanın aktiv fəaliyyətinə ehtiyac hiss edir. Bu mənada Tusinin təlimində dövlət və insan bir-birinin qarşısında məsuliyyət daşıyır. Böyük mütəfəkkir yazırdı: «Dünya əhlinin ictimai quruluşu bir sistem təşkil etdiyindən, kim sistemdən çıxıb tək yaşamaq, inzivayə çəkilmək xəyalına düşsə, bu baxımdan fəzilətlərdən əli çıxar, öz növünün köməklərindən imtina etdiyi üçün tənhalıq dəhşəti içərisində, əzab və məhrumiyyətlər cəngində məhv olar ».

Tusinin fikrincə, dövlət ancaq ədalət əsasında yaşaya bilər. Ədalətin şərtləri isə dövləti təşkil edən dörd «sinif» «qələm əhli» (ziyalılar), «qılınc əhli» (hərbiçilər), «müamilə əhli» (tacirlər, sövdagərlər, sənətkarlar, vergiyığanlar) və «ziraət əhli» (əkinçilər, biçinçilər, bağbanlar, maldarlıqla məşğul olanlar) arasında uyğunluğun yaradılması («İnsanın sağlamlığı dörd ünsür arasındakı tənasüblükdə olduğu kimi, cəmiyyət arasındakı uyğunluq da dörd sinifin qarşılıqlı müvafiqliyində olar»), insanların ləyaqətinə və istedadına görə vəzifəyə təyin edilməsi, hərənin öz payına düşənin ona verilməsindən ibarətdir. Öz fikrini

davam etdirərək, o yazırdı ki, bu dörd dəstə birgə, əlbir, ahəngdar fəaliyyət göstərdikdə mədəniyyət, fəzilət və səadət sistemi əmələ gəlir.

Dövlətin idarə olunmasında hökmdarın şəxsiyyətinə böyük qiymət verən Tusi göstərir ki, ölkə sahibi olmaq istəyənin yeddi xüsusiyyəti olmalıdır: atalıq, alicənablıq, mətinlik, kişilik əzmi, səbirli olmaq, var-dövlət, sadiq və əməlisaleh köməkçilər. «Həqiqətdə hökmdarlıq o adama yaraşır ki, dünya xəstələndikdə onu müalicə edə bilsin, sağlam olduğda səhhətini qoruya bilsin, çünki hökmdar dünyanın həkimi yerində olar. Xəstəlik isə iki şeydən törəyər: biri ölkədə qəddar şahlıq olanda, digəri ölkə özbaşına buraxılanda».

**Abbasqulu ağa Bakıxanovun sosial-siyasi görüşləri**

XIXəsrin birinci yarısında Azərbaycan maarifçiləri arasında ən görkəmli yeri A.Bakıxanov (1794-1846) tuturdu. O, etika («Təhizibi-əxlaq», «Kitabi-nəsihət»), tarix («Gülüstani-İrəm») və s. elm sahələrində tanınmış mütəfəkkir olmuşdur.

Zadəgən maarifçilərinin siyasi idealı maariflənmiş monarxiya idi. Onlar qüvvətli ordusu, yetkin maliyyə sistemi, maarif ocaqları olan dövlət qurulmasını istəyirdilər; yalnız mütləqiyyət hakimiyyəti ölkəni gerilikdən çıxara bilər. Maarifçilər ölkədə avropasayağı sosial-siyasi təşkilatların qurulmasını tələb edirdilər. Onların ön cərgəsində A.Bakıxanov dayanmışdır.

Maarifin, elmin, mədəniyyətin inkişaf etdirilməsinin qızğın tərəfdarı olan Bakıxanov bütün ümidini maariflənmiş monarxa bağlayır və hesab edirdi ki, cəmiyyəti ağıllı padşahın həyata keçirdiyi köklü islahatlar vasitəsilə mütərəqqi istiqamətdə yenidən dəyişmək mümkündür. Monarxın şəxsiyyəti haqqında danışarkən mütəfəkkir hesab edirdi ki, o, ən yüksək insani ləyaqətlərə sahib olmalıdır; yəni padşah qorxmaz, igid, iradəli, ağıllı, ədalətli, yüksək savadlı, elmə və sənətə himayəci olan, eyni zamanda zülmün, cəhalətin əleyhinə olan adam olmalıdır.

Bakıxanov inanırdı ki, rus imperatoru Zaqafqaziya xalqlarına «xeyir və qayğıkeş» münasibət bəsləyir, onların rifahını yaxşılaşdırmaq və mədəniyyətini yüksəltmək istəyir. O, zalımlıqda ad çıxarmış rus çarı I Nikolayı tərifləyirdi.

Azərbaycan tarixini uzun illər tədqiq edən Bakıxanov «Gülüstani-İrəm» əsərini yazır. Onun fikrinə görə siyasi tarix müxtəlif dövlətlərin yaranması və yıxılması, xarici hücumlar, dövlət başçılarının həyatı, böyük işğallar və s. haqqında tarixdir. A.Bakıxanov cəmiyyətin tarixinə də maarifçi gözü ilə baxırdı. O, hesab edirdi ki, tarix öz keçmişini bilmək istəyən insanların mənəvi tərbiyəsini təmin etməli, onların görüş dairəsini genişləndirməli, həyat və məişət qaydalarını öyrətməlidir.

Bakixanovun fikrincə, cəmiyyət adamların öz tələbatını ödəmək üçün lazım olan birgə yaşayışıdır. O, yazırdı ki, ehtyacdan irəli gələn bu əlaqə məişət tərzi adlanır. O, xüsusi mülkiyyətin zəruri olduğunu göstərir, cəmiyyətin siniflərə bölünməsini təbii hal kimi qiymətləndirirdi.

**Mirzə Məhəmməd Əli Kazım bəy**

Azərbaycan xalqının siyasi fikir tarixində ən görkəmli yerlərdən birini böyük alim, filosof – tarixçi, hüquqşunas kimi tanınmış, Rusiyada şərqşunaslıq elminin yaradıcılarından biri, mənşəcə Azərbaycan türkü olan dərbəndli, sonradan xristianlıq dinini qəbul etmiş, professor Mirzə Kazım bəy (1802-1870) tutur. Dünya şöhrətli bu alimin fəaliyyəti Rusiyanın Qazan(1826-1849) və Sankt-Peterburq(1849-1870) universitetlərində cərəyan etmişdir. Onun «Türk-tatar dilinin qrammatikası» (Qazan, 1839), «Müsəlman qanunşunaslığı kursu» (Qazan, 1845), « Şamil və müridizm» (Sankt-Peterburq, 1859), «Bab və babilik» (Sankt-Peterburq, 1865) və s. əsərləri indi də öz əhəmiyyətini itirməyibdir.

Onun fikrincə, «dünyada, o cümlədən siyasi həyatda hər şey təbii, sarsılmaz qanunlar əsasında inkişaf edir». O, bu müddəasını ictimai inkişaf tarixində tətbiq edərək, Romanın və Babilistanın timsalında sübut edir ki, ictimai həyat fasiləsiz inkişaf edir. O, Roma imperiyasının süqutuna bu baxımdan yanaşır. O, yazırdı ki, Romanın zəifləyib, əldən düşmüş qüvvələrinə üstün gələn barbar tayfaları özlərinin azsaylı olmaları və inkişaf səviyyəsi üzündən Roma xalqını özünə tabe etmədi, onunla qovuşaraq yeni mədəniyyətin əsasını qoydu. O yazırdı; «Roma ruhu Böyük Karllara, Napoleonlara çevrilmişdir, onun izləri və əlamətləri Qərbi Avropanın bütün təsisatlarından görünür». Onun inamına görə, Roma imperiyası iqtisadi ziddiyyətlərin və bununla əlaqədar olan sosial ziddiyyətlərin təsiri altında deyil, müxtəlif siyasi qüvvələr arasındakı intriqaların, həmçinin mənəviyyatların pozulması nəticəsində süqüt etmişdir.

M.Kazım bəy Bizans imperiyasının və İranın süqutunu da həmin səbəblərdə görürdü. O yazırdı: «Bizans Asiyada öz hökmranlığını nəinki çətinliklə saxlaya bilirdi (hələ onun yayılması və möhkəmlənməsi bir yana qalsın), həm də öz doğma ərazisində partiyaların gah anarxiya, gah da müstəbidlikdə təzahür edən,

hər cür tarixi mənadan məhrum, siyasi əhəmiyyətini itirib, ayrı-ayrı şəxslərin və ictimai dərnəklərin ehtiraslarının miskin oyununa çevrilən daxili mübarizəsində zəyifliyini açıq biruzə verirdi».

M.Kazım bəy öz siyasi görüşlərində müstəbidliyin düşməni kimi çıxış edir. Onun fikrincə, müstəbidlik xalqın əsarət altına alınması, onun inkişafının dayandırılması deməkdir.

«Şamil və müridizm» əsərində böyük mütəfəkkir dağlıların carizmə qarşı mübarizəsinin xarakterini düzgün qiymətləndirir və onu car hökumətinin müstəmləkə siyasətinə cavab siyasəti hesab edirdi. O, «Bab və babilər» adlı əsərində babilər hərəkatının siyasi xarakterini düzgün qiymətləndirərək yazırdı: «Bu mübarizədə azadlığa cəhd edən adamların enerjisi və fədakarlığı nəzərə çarpır. Bütün bunlar rühani hakimiyyəti əleyhinə narazılıqda ifadə olunmuşdur».

### M.F.Axundovun sosial-siyasi görüşləri

XIX əsr Azərbaycan demokratik siyasi fikrinin ən böyük nümayəndələrindən biri M.F.Axundovdur (1812-1878). Azərbaycanda inqilabçı demokratik siyasi fikir onun yaradıcılığında özünün ən yüksək nöqtəsinə çatmışdır.

Axundovun siyasi təlimi öz dərinliyinə, çoxcəhətliyinə və demokratikliyinə görə onu sələflərinin ideya və görüşlərindən əsaslı surətdə fərqlənir. O, feodalizmi zorakı yolla devirmək ideyasını irəli sürmüş, xalqı inqilab etməyə çağırmış, xalq hakmiyyəti ideyaları ilə çıxış etmişdir.

Öz yaradıcılığının ilk dövründə «Aldanmış kəvakib»(1857) əsərini yazmış Axundov burada istibdadın tənqidi, feodal cəmiyyətinin islahat yolu ilə dəyişdirilməsinə çağırışla, maarifçi monarxiyanın təbliği ilə çıxış etmişdir.

1863-1865-ci illərdə Axundov «Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəlalüddövləyə yazdığı üç məktubu və Cəlalüddövlənin ona göndərdiyi cavab» adlı fəlsəfi-siyasi traktatını yazır. Burada o, öz fəlsəfi, ateist, sosial-siyasi və hüquqi görüşlərini geniş şərh etmiş, bir sıra sosial problemlərə öz münasibətini bildirmiş, öz siyasi idealını, cəmiyyətin dəyişdirilməsi proqramını ifadə etmişdir. Əsərdə mövcud quruluşa qarşı inqilabi mübarizə yolu açıq etiraf olunmuş, istibdadın zorakılıq yolu ilə devrilməsinə çağırış aydınlıqla səslənmişdir.

60-ci illərin sonu və 70-ci illərin əvvələrində yazdığı «Yek kəlmə haqqında», «Həkimi-ingilis Yuma cavab», «Con Stüart milli azadlıq haqqında», «Babilin əqidələri», «İnsan tələbatları haqqında» və s. əsərlərində M.F.Axundov ictimai hadisələrin qiymətləndirilməsində, sosial-siyasi problemlərin həllində inqilabçı-demokrat kimi çıxış edərək, yeni, ədalətli cəmiyyətin yaradılmasının inqilabi demokratik proqramını təklif edir, xalq hakimiyyəti yaradılmasına çağırırdı.

Axundov sosial tərəqqi məsələlərinə diqqət yetirərək, onu insan cəmiyyəti üçün səciyyəvi olan təbii, qanunauyğun proses hesab edirdi. Onun fikrincə, tərəqqi cəmiyyətin elə vəziyyətidir ki, «xalq hər xüsusda – ülumda, sənayedə və əqayidə anən-fəanən talibi-tərəqqi olub cəharətdən və bərabəriyyətdən nəcat tapmağa sai olalar».

Tərəqqi daimi və həm də irəliyə doğru inkişaf demək olub, son nəticədə sənayedə, elmdə, mədəniyyətdə əsaslı irəliləyişlərlə səciyyələnən daha yüksək pillə sivilizasiyaya gətirib çıxarmalıdır. O yazırdı ki, «sivilizasiyon ondan ibarətdir ki, Haləti Cəhiliyyətdən və bərabəriyyətdən qurtarıb ümuri-məişətdə mərifəti-lazimə hasil edib ümumda və sənayedə və təhsili-əxlaqda bəqədri-imkan dərəcəyi-kəmalə çatmaqdan və adami-tamaddündə məharət yetirməkdir.»

Buradan çıxış edən Axundov ictimai inkişafının mərhələli olması fikrinə gəlir və onun köklərini açmağa cəhd edir.

Dövlət, onun mahiyyəti və əhəmiyyəti haqqında məsələ Axundovun diqqət mərkəzində olmuşdur. O, dövlət və onun idarəolunması məqsədlərini siyasət adlandırdığı xüsusi elm səhəsinə aid edirdi. Onun dövlət formaları haqqındakı fikirləri bu baxımdan diqqəti cəlb edir.

Yaradıcılığının ilkin mərhələsində o, maarifçi monarxiya dövlət formasının tərəfdarı kimi çıxış edirdi. O, güman edirdi ki, ağıllı monarx xalqın mənafeyini, onun rifahını təmin edə bilər, xalqın mənafeyi naminə islahatlar yolu ilə bir sıra sosial dəyişikliklər edə bilər. «Kəmallüdövlə məktubları»nda Axundov İngiltərənin nümunəsində konstitusiyalı monarxiya tərəfdarı kimi çıxış edir. Buna görə o, islahatlar yolu ilə cəmiyyəti dəyişdirmək ideyasından əl çəkir və inqilaba çağırır. Axundov monarxın hakimiyyətinin parlamentlə, xalqın qanunvericilik fəaliyyətində iştirak etməsi yolu ilə məhdudlaşdırılmasını, iki palatadan ibarət parlament təşkil olunmasını təklif edir. Bunlardan biri təbəqələrdən digəri isə əyanlardan ibarət olmalı idi. Dövlətin bütün qanunları birinci palatada tərtib olunur, sonra ikinci palatıanın müzakirəsinə və nəhayət, imzalanmaq üçün hökmdara verilir. Hökmdarın hakimiyyəti qanunla məhdudlaşdırılmışdır, əslində o, «bu qanuna zidd heç nə edə bilməzdi».

Beləliklə xalqı təmsil edən palata qanunvericilik funksiyasını yerinə yetirir, monarxın yalnız qəbul olunmuş qanunları təsdiq etmək hüququ vardır. Monarx «millət vəkili» olmalı, «xalqın özünün iştirakı ilə» qəbul olunmuş qanunlara riayət etməli, «əhalinin himayədarı və ölkənin mühavizəçisi» olmalı, onu övladı hesab etməli və onlara qayğı göstərməlidir. Xalq konstitusiyalı monarxiya zamanında xöşbəxt yaşayır, o savadlıdır, mədənidir. Burada hakimiyətlə xalq arasında heç bir nifaq, xalq tərəfindən monarxa qarşı heç bir çıxış yoxdur.

XIX əsrin 70-ci illərinin əvvəllərindən etibarən M.F.Axundov xalq hakimiyyətinin tərəfdarı kimi çıxış edir. O, belə bir fikir irəli sürürdü ki, konstitusiyanın yaradıcısı xalq olmalıdır.

### H.Zərdabinin siyasi görüşləri

Azərbaycan maarifçiliyinin ən görkəmli nümayəndələrindən biri Həsən bəy Zərdabi (1842-1907) olmuşdur. O, Azərbaycan milli teatrının əsasını qoyanlardan biri, ilk azərbaycan qəzeti olan «Əkinçi»nin (1875-1877) banisi, çoxlu publisistik, elmi-kütləvi əsərlərinin müəllifi, XIX əsrin axırı və XX əsrin əvvələrində çap olunan bir sıra qəzetlərdə çıxış edən jurnalist və müəllim olmuşdur.

Tarixi inkişaf Zərdabiyə görə yüksələn xətt üzrə hərəkətdədir; elmin, maarifin, əkinçiliyin, sənayenin müvəffəqiyyəti bu inkişafı şərtləndirir. O, göstrərirdi ki, bəşəriyyət təbii və qanunauyğun olaraq irəliyə doğru tərəqqi edir.

Siniflərin yaranmasının özünəməxsus nəzəriyyəsini yaradan Zərdabi cəmiyyəti yoxsullara və varlılara bölür və yazırdı ki, mülkiyyət və sərvət əməyin nəticəsidir. Keçmişdə bəziləri çox işləmiş, varlı, qüvvətli olmuşlar, başqaları isə az işləmişlər, ona görə kasıb və zəif olmuşlar. Beləliklə, ikincilər zəifləmiş, birincilər isə getdikcə daha çox varlanmış və qüvvətlənmişlər. Bu səbəbdən də yoxsullar varlılardan asılı vəziyyətə düşmuşlər.

Yoxsulların cahilliyini istəyən varlılar isə onları cəhalətdə və gerilikdə saxlayırlar ki, onların özlərindən asıllığını möhkəmləndirsinlər. Ona görə də ağıllı və ləyaqətli adamların əksəriyyəti öz imkanlarından məhrum olur və heyvan kimi yaşayır. Lakin heyvan həmişə öz ovu uğrunda mübarizə aparır. İnsan isə öz cahilliyi üzündən alın təri ilə özü üçün qazandığını öz əlləri ilə varlıya verir, bununla da onun daha da varlanmasına kömək edir.

İctimai tərəqqinin, təsərrüfatın inkişafının, xalqın maddi və mənəvi rifahının yaxşılmasının əsas mənbəyini Zərdabi elm və marifdə görürdü. Müsəlman xalqlarının geri galmasının əsas səbəbini o, cəhalət, savadsızlıq ilə bağlayırdı. Zərdabi maarifçi kimi dünyəvi təhsil və tərbiyə ocaqlarının çox az olmasını, xalqın müasir elmi biliklərdən xəbərsiz olmasını sosial-iqtisadi və mədəni geriliyin səbəbi hesab edirdi.

İstedadlı publisist kimi Zərdabi dövri mətbuatın rolunu yüksək qiymətləndirirdi. O, hesab edirdi ki, geriliyə və irticaya qarşı mübarizədə, elm və maarifin təbliğində vətənpərvərlik ideyasının yayılması işində qəzetin müstəsna rolu var. Məhz qəzet vasitəsilə Zərdabi çar hakimiyyət orqanlarının bürokratikliyini, rüşvətxorluğunu, müstəmləkəçilik siyasətini kəskin tənqid edirdi.

### C.Məmmədquluzadənin siyasi görüşləri

Xalqımızın siyasi fikrinin inkişafında C.Məmmədquluzadə (1866-1932) böyük rol oynamışdır. 1907-ci ildə yazdığı «Cümhuriyyət» məqaləsində C.Məmmədquluzadə öz dövlət quruluşu idealını şərh etmişdir. O, demokratik respublikanın qızğın tərəfdarı kimi çıxış edirdi. O, yazırdı: «Cümhuriyyət üsulu mocibində məmləkətin idarəsi camaatın öz ixtiyarındadır. Camaat dedikdə, vətənin sahibidir. Dəxi heç bir kəsin ixtiyarı yoxdur ki, özünə padşah adı qoyub, millətin rəyindən kənar məmləkət işinə qarışsın. Məmləkət müəyyən qanunlar qücü ilə idarə olunur. O qanunları yazan və təsdiq edən millətin məbusları, yəni vəkilləridir». Onun fikrincə, belə respublikada ən demokratik seçkilər olacaq, bütün vətəndaşlara eyni hüquqlar veriləcəkdir. Bu respublikada prezident təsisatı vardır. Prezident dövlətin ya bütün millət tərəfindən, ya da ölkənin ali qanunvericilik orqanı tərəfindən seçilən başçıdır. Gündəlik işində ona prezident muavinləri kömək edirlər.

### M.Ə.Rəsulzadənin siyasi görüşləri

XX əsr Azərbaycan siyasi fikir tarixində M.Ə.Rəsulzadə çox mühüm yer tutur. Görkəmli siyasi xadim, Azərbaycan Demokratik Respublikasının banisi (1918-1920), Müsavat partiyasının lideri, böyük publisist və alim M.Ə.Rəsulzadə(1884-1955) 1884-cü ildə Bakının Novxanı kəndində anadan olmuşdur. O, 1905-1909-cu illərdə Bakıda nəşr edilən qəzet və jurnallarda işləmiş və məqalələrlə çıxış etmişdir. O, 1909-1910-cu

illərdə İranda yaşamış, orada inqilabi hərəkatın iştirakçısı olmuş, Tehranda «İrani nov» (Yeni İran) həftəlik qəzetini nəşr etmişdir.

M.Ə.Rəsulzadə 1911-1913-cü illərdə İstambulda yaşamış və jurnalistlik fəaliyyətini davam etdirmişdir. O, 1913-cü ildə Bakıya qayıtmış, «İqbal», «Açıq söz» qəzetlərinin redaktoru olmuşdur. 1918-1920-ci illərdə Azərbaycan Milli Şurasının sədri, parlamentinin üzvü olmuşdur. Azərbaycanda bolşevik rejimi yaradılandan sonra M.Ə.Rəsulzadə xaricdə yaşamış, 1955-ci ildə Ankarada vəfat etmişdir.

M.Ə.Rəsulzadə fəaliyyətinin başlanğıcında islamçılıq tərəfdarı olmaqla bərabər sosial-demokratiyaya meyl göstərmişdir. O, 1905-ci ildə «Həyat» qəzetində yazırdı ki, «biz islamsız məhv olarıq», «islam bizim üçün yeganə xilas yoludur» və s. O, 1907-ci ildə «Təkamül» qəzetində «Tərcüman» qəzetini və onun redaktoru İsmail Qaspirinskini millətçiliyi təbliğ etdiyi üçün tənqid edirdi. M.Ə.Rəsulzadə millətçilik mövqeyinə bir qədər sonra gəlmişdir. O, gənc yaşlarında sosializmə hüsn-rəğbət bəsləyir, sinfi mübarizəni qəbul edirdi.

«Açıq söz» qəzetinin nəşri ilə M.Ə.Rəsulzadə hümmətçilik dövrünü rəsmən bağlayaraq, «milliyyət», «türk millətçiliyi» dövrünün başlandığını elan etmişdir.

M.Ə.Rəsulzadənin siyasi görüşlərində müstəqil Azərbaycan dövlətiçiliyi ideyasının nəzəri cəhətdən işlənməsinə xüsusi diqqət yetirilmişdir. Onun siyasi irsində hürriyyət və azadlıq ideyaları mühüm yer tutur. Hürriyyətin beş əsas formasını göstərirdi: söz azadlığı, mətbuat azadlığı, cəmiyyət və ittifaq azadlığı, vicdan azadlığı, malın, canın mühafizə olunması. O, hürriyyətin xalq qüvvəsi olduğunu, onun mərkəziyyətə qarşı çevrildiyini göstərərək yazırdı ki, «bir qüvvə insanları bir arada toplayıb bir mərkəzə tabe tutaraq, fərdi cəmiyyətə məhkum edən bir istibdad mərkəziyyət, digər şəkildə – cəmiyyətçilik, kollektivizm adını alır. Digər qüvvə də Hürriyyətdir».

Rəsulzadə dövlətin demokratik quruluşuna, şəxsiyyətə vətəndaş hüquqlarına yüksək qiymət verərək yazmışdır: «Azərbaycan cümhuriyyətinin əsas iradəsi bütün vətəndaşların bərabər hüquqla yaşaması üzərində qurulmuşdur. Kimi - qadın, müsəlman – xristian, türk-türk olmayan, cins-milliyət fərqi qoymadan varlı-kasıb, sahibkar - işçi, torpaq sahibi – muzdur, vəzifə, nəsil, bilgi imtiyazı aramadan bütün vətəndaşlar məmləkətin idarəsində iştirak edir, qanun verən qurumlara girmək haqqına da sahib idilər». Onun fikrincə, dövlət quruluşu hüquqi əsaslarla aparılmalı, hüquqi dövlətin əsas təsisatları yaradılmalıdır. Söz, mətbuat, yığıncaq, vicdan, siyasi təşkilatlar yaratmaq hüququ və başqa hüquqlar, azadlıqlar qanunla təsbit edilməlidir. O, keçmişdə dövlətin idarə edilməsi ilə yeni idarəetmənin fərqini göstərərək yazmışdır: Hakimiyyətin xalqdan deyil, Allah tərəfindən bir bəxşiş verildiyi zaman hökmdarlar çoban, məhkumlar qoyun hökmündə idilər. Hakimiyyətə xalq keçdikdə artıq hakimlər xalq üçün, xalq da hakimlərdən ötrü məsuldur.

### N.Nərimanovun siyasi görüşləri

Nəriman Nərimanov(1870-1925) öz yaradıcılığının ilkin dövrlərində maarifçi monarxiya tərəfdarı kimi çıxış etmiş, sonralar isə inqilabçı demokrat və marksist kimi fəaliyyət göstərmişdir.

N.Nərimanov aşağıdakı dövlət formalarını bir-birindən ayırırdı:

-despotiya;
-maarifçi monarxiya;
-konstitusiyalı monarxiya;
-demokratik respublika.

O, despotizmi, şərq istibdad üsul-idarəsini kəskin tənqid edirdi. Buradan çıxış edərək, o, gənclik illərində maarifçi monarxiyanı («Nadir Şah») təbliğ edirdi.

1906-cı ildən etibarən N.Nərimanov demokratik respublika tərəfdarı kimi çıxış edir və yazırdı ki, burada dövlət başçısı ümumi seçki yolu ilə seçilir. «Belə bir səltənətdə azadəlik artacaq olar, tərəqqi, millət və dövlət qabağa gedər».

O, yazırdı ki, dövlət və hüquq bir-biri ilə qarşılıqlı əlaqədə olan və eyni səbəblər, xüsusi-mülkiyyətin yaranması və cəmiyyətin antoqonist siniflərə bölünməsi nəticəsində meydana gələn ictimai hadisələrdir. Hüquq hökmran siniflərin iradəsini ifadə edir və istismarçı cəmiyyətlərdə zəhmətkeşlərin mənafeyinə zidd çıxır.

### Heydər Əliyevin siyasi görüşləri

Görkəmli dövlət xadimi və siyasətşunas Heydər Əliyevin demokratiya, dövlətçilik, müstəqillik və s. haqqında fikirləri böyük elmi əhəmiyyət kəsb edir. Ən əsası isə onun siyasi fikir və ideyaları dövlətçilik fəaliyyəti nəticəsində son on ildə Respublikamıza Prezidentlik etdiyi dövrdə həyata keçirilmişdir. Müstəqil Azərbaycan milli dövlətçiliyinin demokratik inkişafı Heydər Əliyev siyasi ideyasının əsasını təşkil

etmişdir. Müstəqil Azərbaycanın inkişafına xüsusi diqqət yetirən Heydər Əliyev demişdir: «Müstəqil Azərbaycan Respublikası bizim tarixi nailiyyətimizdir».

O, bu nailiyyəti özünün siyasi təcrübəsi və fəaliyyəti ilə daha yüksəklərə qaldırmış, inkişaf etdirmişdir. Məhz onun siyasi təcrübəsi sayəsində Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunda bu gün də əzmlə irəliləyir. Heydər Əliyev bu haqda demişdir: «Dövlət quruculuğunda nəinki tarixi və milli ənənələrimiz nəzərə alınır, həm də dünya təcrübəsindən, demokratik prinsiplərdən istifadə edilir».

Heydər Əliyevin siyasi fikir və ideyalarında insan azadlığı, söz, vicdan azadlığı, insan hüquqlarının qorunması, bütün vətəndaşların eyni hüquqa malik olması, siyasi plyuralizm əsas yer tutur. Məhz Heydər Əliyevin siyasi fəaliyyətinin nəticəsində müstəqil Azərbaycan demokratik prinsiplər əsasında ilk milli konstitusiyasını qəbul etmiş, parlamentini yaratmış və demokratik siyasi sistemin formalaşmasına nail olmuşdur. Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə vətənçilik, yurdçuluq anlayışlarını özündə birləşdirən Azərbaycançılıq ideologiyası cəmiyyətimizdə hakim ideologiyaya çevrilmişdir. Azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarının bir araya gəlməsinə və ümumi siyasi məqsədlərimizə kömək göstərməsinə çox mühüm təsir göstərir.

Heydər Əliyev ideologiya ilə bağlı bildirmişdir ki, milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır.

Milli dövlətçiliyimizin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin xidmətləri əvəzsizdir. Onun bilavasitə rəhbərliyi nəticəsində Azərbaycanın gələcək milli inkişaf strategiyası müəyyənləşdirilib. Bu strategiyanın özəyi isə Azərbaycanın milli dövlətçiliyinə söykənmişdir.

## 4-cü MÖVZU

## SİYASİ MÜNASİBƏTLƏR VƏ MƏNAFELƏR

### *1. İctimai - siyasi əlaqələrin təzahür formaları*

Cəmiyyətin bütün sahələrini əhatə edən dəyişikliklər siyasi sahədə daha aydın şəkildə özünü göstərir. Siyasi sfera siyasi proseslərin rəngarəngliyi ilə seçilərək yeni məna kəsb edir. Siyasi həyat yeni keyfiyyət daşıdığından onun dərin və hərtərəfli tədqiqatına ehtiyac duyulur. İlk növbədə, «cəmiyyətin siyasi həyatı» kateqoriyası ilə müqayisədə daha ümumi xarakter daşıyan «ictimai həyat» kateqoriyasını açıqlayaq. İctimai həyatın mahiyyəti nədən ibarətdir? İctimai həyat özündə ictimai təzahürlərin, daha doğrusu, insanlar arasındakı ictimai münasibətlərin böyük bir spektrini birləşdirir. Bu münasibətlər öz şəxsi maraqlarını müdafiə edən və buna görə də bir-biri ilə lazımi əlaqələrə girən insanların fəaliyyətinin nəticəsidir. İnsanların maraqları ilə şərtlənən bu fəaliyyət burada elə bir vasitə rolunda çıxış edir ki, onun köməyi ilə insanlar arasında ictimai əlaqələr yaranır və beləliklə, o, insanların ictimai həyatının mənbəyinə çevrilir. Bunun nəticəsi olaraq ictimai əlaqələr daim hərəkətdədir (yaranır, inkişaf edir, yeni keyfiyyət halına keçir), başqa sözlə, özünün istehsal və təkrar istehsalı prosesində olur. İctimai həyat isə müxtəlif ictimai əlaqələrin, ilk növbədə, iqtisadi, sosial - siyasi və mənəvi həyatda baş verən əlaqələrə xas xüsusiyyətlərin formalaşmasından asılıdır. Bir sözlə, mahiyyət etibarilə, ictimai həyatı insanlar arasındakı ictimai əlaqələrin istehsalı və təkrar istehsalı kimi müəyyənləşdirmək olar.

Burada belə bir sual meydana çıxır ki, ictimai əlaqələrin növü olan siyasi münasibətlərin mahiyyəti nədən ibarətdir? Bunu aydınlaşdırarkən, yada salaq ki, ictimai həyatın mənbəyi şəxsi maraqlar ilə şərtlənən insanların fəaliyyətindən ibarətdir. Ona görə də siyasi münasibətlərin xarakteri müvafiq olaraq, siyasi fəaliyyət ilə müəyyənləşir. Siyasi fəaliyyət insanların sosial fəallığının bir forması, daxili amil kimi insanların siyasi maraqlarının həyata keçməsinə yönəldilmişdir. Hər bir siyasi fəaliyyətin son məqsədi öz maraqlarını müdafiə etmək üçün dövlət hakimiyyətini əldə edib ondan istifadə etməkdir. Dövlət hakimiyyəti siyasi fəaliyyətin əsas predmetidir və buna görə də siyasi fəaliyyətin ona yönəldilməsi bu fəaliyyətin mahiyyət xəttini, onun əsas xüsusiyyətini, siyasi keyfiyyətini açıqlayır. Demək olar ki, insanların siyasi fəaliyyətinin dövlət hakimiyyətinə yönəldilməsi cəmiyyətin siyasi həyatının müxtəlif təzahürlərini əhatə edir. Buradan aydın olur ki, siyasi əlaqələrin xüsusiyyəti ondan ibarətdir ki, o, insanlar arasında onların fəaliyyəti prosesində təşəkkül tapır və bu fəaliyyət dövlət hakimiyyətinə yiyələnib ondan istifadə etməkdən ibarətdir. Siyasi əlaqələri başqa əlaqələrdən fərqləndirən əsas əlamət bundan ibarətdir.

Siyasi əlaqələrin daha sadə forması siyasi münasibətlərdir. Bu münasibətlər tərəflərin siyasi maraqları ilə, daha doğrusu bu maraqların üst-üstə düşüb - düşməməsi ilə müəyyənləşir. Bu məqama görə insanlar bir-birilərinə qarşı müxtəlif mövqelər tutur, onların arasında rəngarəng siyasi münasibətlər toplusu yaranır. Bu münasibətlər öz növbəsində çox aydın şəkildə özünü göstərən iki əks təzahürlərə apara bilər: siyasi əməkdaşlıq və siyasi rəqabət. Məsələn, müasir cəmiyyətin siyasi mənzərəsi müxtəlif qüvvələri əks etdirir ki, bu da müxtəlif siyasi maraqların mövcudluğunu göstərir. Bir tərəfdən, müxtəlif siyasi maraqların, siyasi qüvvələrin formalaşması təşəkkül tapır, digər tərəfdən onlar arasında siyasi əlaqələr yaranır, onların birləşməsi və ya siyasi maraqlara görə bir-birindən ayrılması baş verir. İctimai inkişafın hər bir konkret mərhələsində müxtəlif siyasi qüvvələr öz aralarında siyasi əməkdaşlığa daxil olur və ya lazım olan təqdirdə bu münasibətləri poza bilirlər. Buna görə də siyasi münasibətləri siyasi əlaqələrin bir forması kimi xarakterizə edərək onların insanların siyasi maraqlarının üst-üstə düşüb-düşməməsi əsasında təşəkkül tapdığını, siyasi əməkdaşlıq və siyasi rəqabətdə təzahür etdiyini göstərmək lazımdır.

Öz növbəsində siyasi əməkdaşlıq və siyasi rəqabət ümumilikdə cəmiyyətin inkişaf səviyyəsi ilə əlaqədar olaraq siyasi həyatın xüsusiyyətləri və onun inkişaf vəziyyətini göstərən konkret ifadəyə malikdir. Siyasi həyatın demokratik nöqteyi-nəzərdən az inkişaf etmiş dövründə, məsələn, kapitalizmin inkişafının ilk dövründə olduğu kimi, siyasi mübarizənin müşahidə edildiyi vaxtda, siyasi rəqabət cəmiyyətin siyasi həyatında üstünlük təşkil edərək sosial qüvvələrin açıq silahlı qarşıdurmasına gətirib çıxarda bilər (silahlı üsyan, inqilab, vətəndaş müharibəsi). Müasir sivil dövlətlərdə isə siyasi ziddiyyətləri aradan qaldıran digər mexanizmlər təşəkkül tapmışdır. Siyasi əməkdaşlığa, xüsusilə siyasi kompromisslərə meyl daha geniş yayılmışdır. Beləliklə, siyasi əlaqələrin əsas formalarından biri olan siyasi münasibətlər cəmiyyətin siyasi həyatının vacib təzahürlərindən biridir.

Siyasi birliklər insanlar arasında siyasi əlaqələrin mühüm formalarından biri kimi cıxış edir. Bu əlaqələr siyasi münasibətlərə nisbətdə daha mürəkkəb xarakter daşıyır və cəmiyyətdə obyektiv şəkildə

təşəkkül tapmış sosial birliklərinin mövcudluğu ilə şərtlənir. Sabit xarakter daşıyan bu birliklər öz üzvləri üçün vahid siyasi mənafelər formalaşdıran əsas kimi çıxış edirlər. Obyektiv təşəkkül tapan sosial birliklərə keyfiyyət baxımından yanaşdıqda siyasi birliklərin iki əsas formasını göstərmək olar. Formalardan biri, müəyyən ərazidə yaşayan, ümumi təsərrüfat və etnik həyata malik insanların birliyi əsasında yaranan siyasi ittifaqlardır. Dövlət məhz belə bir ittifaq kimi çıxış edir. Digər forma isə artıq həmin ərazi daxilində təşəkkül tapmış, sosial birliklər əsasında yaranan, bu və ya başqa ümumi əlamətləri olan (söhbət müxtəlif siniflər, sosial təbəqələr və s. gedir) siyasi ittifaqlardır. Belə siyasi birliklərin daha inkişaf etmiş forması kimi siyasi partiyalar çıxış edir.

Siyasi birliklərin hər iki forması özünün mürəkkəb daxili strukturuna malikdir ki, bu birliyin çərcivəsində insanlar müəyyən nizam-intizama tabedirlər, onların siyasi fəaliyyəti müəyyən mənada təşkilatlanır. Daxili münasibətlərin bu cür nizamlanması nöqteyi-nəzərindən siyasi birlikləri həmçinin siyasi ittifaqlar adlandırırlar.

İnsanları siyasi maraqlara, siyasi baxışlara görə bir-birindən ayıran, özünün daxili təşkilatının xüsusiyyətlərinə görə öz yerini tutan müxtəlif siyasi birliklərin məcmusu cəmiyyətin siyasi strukturunu təşkil edir. Belə ki, siyasi təşkilat kimi dövlət elə bir ictimai mexanizmdir ki, həmin ərazidə yaşayan insanların maraqlarını müdafiə etməli və bunun nəticəsi kimi onların arasındakı münasibətləri hüquqi normaların köməyi ilə nizama salmalı, lazım olan təqdirdə xüsusi məcburetmə orqanlarından istifadə etməlidir. Bu siyasi təşkilat ictimai hakimiyyəti, başqa sözlə dövlət hakimiyyətini təmsil edir. Bu keyfiyyətdə dövlət insanların siyasi maraqlarının əsas predmetidir, belə ki, onu əldə etdikdən sonra siyasi hakimiyyətə nail olurlar, yəni məcburetmə orqanlarına arxalanaraq cəmiyyətin inkişaf xarakterini və istiqamətini müəyyənləşdirirlər.

Dövlət hakimiyyətini əldə etmək və öz maraqlarına görə istifadə etmək üçün vasitə kimi insanların siyasi birliyinin digər forması olan siyasi partiyalar, ittifaqlar çıxış edir. Siyasi təşkilatlar olan bu partiyalar və ittifaqlar insanları vahid siyasi qüvvə kimi səfərbər edir və bu da onların əsas siyasi marağının həyata keçməsinə imkan yaradır. Demokratiya yolunu seçmiş müasir cəmiyyətdə siyasi struktur prosesinin inkişafı daha intensiv gedir. Müxtəlif siyasi partiyalar, ittifaqlar, hərəkatlar yaranır və inkişaf edir. Onların arasında siyasi maraqlardan asılı olaraq müəyyən siyasi münasibətlər yaranır, bu da qarşıdurma və ya əməkdaşlıq yollarının axtarışlarında özünü göstərir. Beləliklə, siyasi əlaqələrin forması kimi insanların siyasi birliyi cəmiyyətin siyasi həyatının vacib bir təzahürü kimi çıxış edir.

Siyasi münasibətlərin daha mürəkkəb forması isə cəmiyyətin siyasi sistemidir. Nə səbəbdən məhz bu sistem forma kimi çıxış edir və daha mürəkkəb sayılır? Buna görə siyasi sistemin mahiyyətini açıqlamaq lazımdır. İlk növbədə qeyd olunmalıdır ki, siyasi sistemin formalaşması üçün zəmin artıq təşəkkül tapmış cəmiyyətin siyasi strukturudur, daha doğrusu, insanların siyasi maraqlarına görə ayrılması və bu bölgünün müxtəlif siyasi birliklər formasında təşkil olunmasıdır. Müəyyən bir şəraitdə bu partiyalardan biri dövlət hakimiyyətini əldə etmək imkanı qazanaraq iqtidar partiyaya çevrilir. Hakim partiya kimi o, digər partiyalar üzərində siyasi hakimiyyəti əldə edərək bütövlükdə cəmiyyətin inkişafının əsas istiqamət və xarakterini müəyyənləşdirmək üçün real imkan əldə edir. Digər partiyalar isə başqa yollardan - konstitusiya hüquqlarından, parlament tribunasından, KİV- dən istifadə edərək, ictimai rəyə müraciət edərək iqtidar partiyaya təsir göstərməyə çalışırlar. Bu partiyalar iqtidar tərəfindən yeridilən siyasəti tənqid edir, cəmiyyətin inkişafına dair öz fikirlərini bildirirlər. Belə siyasi partiyaları müxalifət (opposido-qarşıdurma) partiyaları adlandırırlar.

Beləliklə, cəmiyyətin siyasi sistemi siyasi əlaqələrin bir forması kimi insanların bu və ya digər siyasi partiyaya mənsubluğu əsasında və iqtidar partiya tərəfindən siyasi hakimiyyətin həyata keçirilmə prosesində təşəkkül tapmış qarşılıqlı əlaqələri ifadə edir. İnsanların siyasi birlikləri ilə müqayisədə siyasi münasibətlərin bu forması daha mürəkkəb xarakter daşıyır. Buna görə də cəmiyyətin siyasi sistemi insanlar arasında qarşılıqlı münasibətlərin müəyyən qaydasını ifadə etməklə yanaşı, həmçinin onların siyasi təşkilatının, insanların siyasi baxımdan inkişafının, buna uyğun olaraq, cəmiyyətin siyasi həyatının kamillik dərəcəsinin daha yüksək səviyyəsini xarakterizə edən daha mürəkkəb formasıdır. Müasir cəmiyyətdə yeni siyasi partiyaların yaranması siyasi həyata yeni məzmun verərək, cəmiyyətdə yeni siyasi əlaqələrin yaranmasına gətirib çıxardır. Beləliklə, biz, insanların siyasi fəaliyyəti prosesində yaranmış, cəmiyyətin siyasi həyatının əsas məzmununu təşkil edən siyasi əlaqələrin üç formasını nəzərdən keçirdək: siyasi münasibətlər, siyasi birliklər və siyasi sistem. Bu formalardan hər biri siyasi həyatın inkişafına uyğun olaraq cəmiyyətin siyasi səviyyə dərəcəsini əks etdirir. Burada cəmiyyətin siyasi həyatının daha inkişaf etmiş və ya onun vacib təzahürü kimi siyasi əlaqələrin ən mürəkkəb forması olan siyasi sistem çıxış edir.

Siyasi sistemin başlıca ünsürü olan dövlətin demokratik-hüquqi xarakter daşıması siyasi həyatın inkişafında böyük əhəmiyyət kəsb edir. Cəmiyyət tərəfindən tənzimlənmiş hüquqi normalara riayətə əsaslanan dövlətin demokratik forması dövlətçiliyin daha kamil bir formasıdır. Demokratik dövlət öz

fəaliyyətini beynəlxalq sənədlərdə təsbit edilmiş öhdəliklərə əsasən (insan hüquqlarına hörmət, onlara riayət etmək və s.) həyata keçirir.

Paris Xartiyasında deyilir: «Demokratiyanın əsasında şəxsiyyətə və ali qanunçuluğa hörmət durur». Dövlətin məhz bu forması qanun çərçivəsində müxtəlif siyasi partiyaların, ittifaqların, hərəkatların formalaşıb fəaliyyət göstərməsi üçün daha əlverişli şərait yaradır və bununla da cəmiyyətin siyasi strukturunun tam inkişafına kömək göstərərək insanlar arasında hərtərəfli siyasi münasibətlərin formalaşmasına təkan verir. Demokratik formanın əksi olan avtoritar dövlətlər cəmiyyətin siyasi inkişafına xidmət edən imkanları xeyli məhdudlaşdırır, cəmiyyətin siyasi həyatını deformasiyaya aparır.

Cəmiyyətin siyasi həyatının inkişafının digər cəhəti ondan ibarətdir ki, çoxpartiyalı siyasi sistem mövcuddur, bu da dövlətin demokratik xarakterli olması ilə izah olunur. Çoxpartiyalılıq cəmiyyətin siyasi strukturunda təşəkkül tapmış sosial maraqları siyasi səviyyələrdə ifadə və müdafiə edən bir sıra birliklərin mövcudluğunu göstərir. Bəllidir ki, çoxpartiyalılığın formalaşması üçün iqtisadi proseslərlə müəyyənləşən müxtəlif sosial birliklərin mövcudluğu əsas rol oynayır. Bu müxtəliflik iqtisadi cəhətdən inkişaf etmiş müasir cəmiyyət üçün qanunauyğun bir haldır, eyni zamanda, cəmiyyətin gələcək inkişafına da təsir və xidmət edir. Bəşər tarixinin təcrübəsi göstərir ki, ictimai baxımdan müxtəliflik ideyasını müdafiə edən ölkələr böyük ictimai tərəqqiyə nail olublar. Əksinə, sosial yekcinsliyə və sosial maraqların tarazlaşmasına can atan kommunist hərəkatı hakim olan ölkələrin təcrübəsi göstərdi ki, bu cur mövqe ictimai inkişaf üçün faktiki maneə olmuş, özünün ictimai inkişaf səviyyəsinə görə, həm iqtisadi, həm sosial, siyasi cəhətdən inkişaf etmiş qabaqcıl dövlətlərdən çox geridə qalmışdır. Buradan belə bir nəticə çıxır ki, sosial maraqların müxtəlifliyi cəmiyyətin inkişafı üçün vacib göstəricidir.

Sosial birliklərin bir çox maraqlarının üst-üstə düşməsinə baxmayaraq, hər bir partiyanın əsas vəzifəsi siyasi səviyyədə məhz onun təmsil etdiyi sosial maraqların xüsusiyyətlərini ifadə etməkdir. Yalnız bu halda o, özünün siyasi proqramına, öz yoluna və ya ictimai inkişafın yoluna dair öz variantlarına malik olan siyasi partiya adına layiq ola bilər.

## *2. Siyasət anlayışı və onun mahiyyəti*

Müasir dövrdə cəmiyyətin siyasiləşməsi, maddi və mənəvi həyatın bütün sahələrinə siyasətin təsirinin artması tədqiqat obyekti kimi diqqəti cəlb edən və maraq doğuran bir hadisədir. Buna görə ilk növbədə, siyasətin, onunla bilavasitə bağlı olan siyasi sistemin, iqtisadi və sosial amillərin mahiyyətini araşdırmaq vacibdir. İnsan həyatının qaçılmaz elementi olan siyasət nədir? Siyasət termini çoxmənalıdır və onun məzmunu dövlətin, digər siyasi institutların, hakimiyyətin başqa qollarının öyrənilməsi ilə bərabər araşdırılır. Yunan dilindən tərcümədə siyasət dövləti idarə etmək sənəti, dövlətin öz ərazi daxilində və onun hüdudlarından kənarda öz məqsədlərini həyata keçirməyin müəyyən vasitəsidir. Aristoteldən başlayaraq bütün filosoflar ictimai hadisə kimi siyasətin xarakterik cəhətini, onun hakimiyyətlə bilavasitə əlaqədə olmasını vurğulamışdır. Ş. Furye, M.Veber, K. Marks siyasətin mahiyyətini məhz belə açıqlamışlar. Beləliklə, siyasət hakimiyyətə dair sinif və sosial qrupların münasibətləri ilə bağlı olan cəmiyyət həyatının xüsusi sferasıdır. Hakimiyyətin bir neçə forması seçilir: iqtisadi, siyasi, sinfi, müəyyən qrupun və ya ayrıca bir fərdin hakimiyyəti. Siyasi hakimiyyət fərdin, sinfin və ya sosial qrupun öz iqtisadi, ideoloji və siyasi maraqlarına uyğun olaraq həyata keçirdiyi siyasi xəttdir. Qeyd olunmalıdır ki, fərdə və ya hər hansı sinfə siyasi hakimiyyət hüququnu təmin edən iqtisadi hakimlik siyasi hakimiyyəti müəyyənləşdirir. İqtisadi hakimiyyət bazis olaraq ilkindir, məhz o, siyasi hakimiyyətin məzmununu, onun strukturunu, həyata keçirdiyi funksiyaların xarakterini müəyyənləşdirir. Buradan da siyasətin iqtisadiyyat ilə sıx bağlılığı özünü qabarıq şəkildə göstərir. İqtisadi bazisə münasibətdə siyasət ikincidir və ondan asılıdır. Bu o deməkdir ki, dövlətin daxili və xarici siyasətinin ən dərin kökləri belə hakimiyyətdə duran sinif və sosial qrupun iqtisadi maraqları ilə müəyyənləşir. Eyni zamanda göstərilməlidir ki, siyasətin də iqtisadiyyata təsiri mövcuddur. Belə ki, dövlətdə köklü iqtisadi islahatlar məhz siyasətlə müəyyənləşir və həll olunur. Siyasətin iqtisadiyyata münasibətdə fəal rolu cəmiyyətin inkişafının bütün mərhələlərində özünü göstərir.

«Siyasət» anlayışı qədim yunan filosofu Aristotelin eyni adlı əsərindən sonra geniş yayılmışdır. Aristotel siyasəti insan birliklərinin formaları arasında münasibətlərin ən vacibi hesab edirdi. Onun fikrincə, siyasət hakimiyyət və idarəetmənin müəyyən növlərini təsdiq edərək insanları birləşdirir, cəmiyyətin bütövlüyünü təmin edir. Elmi ədəbiyyatda siyasət termininin çoxlu sayda anlayışları verilir. Onlardan bəzilərini göstərək:

Siyasət birgə yaşamaq sənətidir - Platon, qədim yunan filosofu.

Siyasət siniflər arasında gedən mübarizədir - V.İ.Lenin və s.

Siyasət anlayışının tərifində fikir ayrılığının çoxluğu onun nə qədər mürəkkəb, çoxcəhətli hadisə olduğunu göstərir. Siyasət ilk növbədə , cəmiyyətin iqtisadi və sosial – məişət həyatı ilə yanaşı insanların

həyat fəaliyyətlərinin xüsusi sferasıdır. Siyasətin sosial həyatın bu sferalarından nə ilə fərqləndiyini aydınlaşdıraq.

Birincisi, siyasət hakimiyyət, hakimiyyət münasibətlərinin xüsusi növü ilə fərqlənir. Bildiyimiz kimi, cəmiyyətdə hakimiyyət münasibətlərinin müxtəlif növləri mövcuddur ( ailədə, müəssisədə, dini icmada və s.). Lakin dövlət, onun idarələri tərəfindən həyata keçirilən bir hakimiyyət də mövcuddur. Bu hakimiyyəti fərqləndirən cəhət ondan ibarətdir ki, bütün vətəndaşlar bu hakimiyyətə tabe olmalıdırlar. Dövlət tərəfindən həyata keçirilən hakimiyyət siyasətin özəyidir. Bu siyasətlə, əsasən cəmiyyətin idarə olunması həyata kecirilir, onun bütövlüyü və birliyi qorunur. Müxtəlif sosial qrupların maraqlarını tənzimlədiyinə, ümumi məqsədlərin əldə olunması yollarını göstərdiyinə görə siyasəti cəmiyyətin tənzimləyici sferası hesab edirlər.

İkincisi, hakimiyyətin özü onu həyata keçirənlərə geniş hüquqlar verdiyindən bu zaman hakimiyyət uğrunda mübarizə labüd şəkildə meydana gəlir. Bu mübarizə müxtəlif növ və formalarda, açıq və gizli şəkildə, qanun çərçivəsində ola bilər, məcburi hal ala bilər, bu mübarizəyə həm kiçik qruplar və ya geniş kütlələr cəlb oluna bilər. Siyasətin bu xüsusiyyəti onu rəqabət sahəsi kimi, hətta hakimiyyət uğrunda müxtəlif sosial və siyasi qüvvələrin arasındakı konflikt sahəsi kimi xarakterizə edir. Sosial həyatın bir sahəsi kimi siyasətin xüsusiyyətlərini araşdırarkən aydın olur ki, siyasətin siniflər arası mübarizə üsulu kimi və ya siyasətin cəmiyyətin həyatını tənzimləmə sahəsi kimi təyini bir-birini inkar etmir. Həmin təriflərin müəllifləri bu mürəkkəb hadisənin yalnız müxtəlif tərəflərini vurğulayırlar.

Siyasi hakimiyyət münasibətlərinə daxil olarkən və ya siyasi mübarizəyə qoşularkən insanlar xüsusi siyasi strukturlar: institutlar, təşkilatlar, münasibətlər yaradırlar. Parlament, hökumət, siyasi partiya, seçki hüququ siyasətin dairəsində olan strukturlardır. Siyasi strukturlar sabitdir, onlar bir çox nəsillərin fəaliyyətində təkrar oluna bilər. Məsələn, İngiltərədə parlament 13 –cü əsrdən mövcuddur.

Siyasi strukturları formalaşdırarkən insanlar tədricən simvollar, anlayışlar, fikirlər, dəyərlər, ideyalar işləyib hazırlayırlar ki, bunların köməyi ilə siyasət dünyasını başa salır, siyasi hadisələrin, dövlət başçılarının hərəkətlərini qiymətləndirir, siyasətin mənasını təhlil edir, onun əhəmiyyəti, rolu və s. haqda fikir mübadiləsi edirlər.

Siyasi struktur və siyasi mədəniyyət obyektivdir, yəni siyasi fəaliyyət ilə məşğul olan insanlar cəmiyyətdə təşəkkül tapmış siyasi institutlarla hesablaşmalı, öz hərəkətlərini cəmiyyətdə qəbul olunmuş siyasi normalarla uyğunlaşdırmalı, ümumi qəbul olunmuş siyasi fikirlərə qulaq asmağı bacarmalı, bu və ya digər qruplara birləşməlidir. İnsanlara, onların şüuruna, davranışlarına təsir etmək xüsusiyyəti siyasəti obyektiv reallıq kimi qiymətləndirməyə imkan verir.

Digər tərəfdən siyasət təkcə siyasi həyatın normaları, institut, təşkilat, anlayış, ideal, ideologiya deyil, eyni zamanda bu proseslərə cəlb olunan insanlardır. Siyasi həyata cəlb olunan insanlar müxtəlif siyasi təcrübəyə, müxtəlif maraqlara, dəyərlərə, arzulara malikdirlər. İnsanların fərdi xüsusiyyətləri onların siyasətdə davranışını çoxcəhətli edir. Siyasətdə hər bir insan şəraitdən, bu şəraiti necə qiymətləndirməsindən asılı olaraq, özünün seçimi əsasında hərəkət edir. Bu cəhətə görə deyə bilərik ki, siyasət obyektiv reallıqla yanaşı, həm də insanların subyektiv fəaliyyətidir.

Siyasətin əlamətlərini nəzərdən keçirək.

Birincisi, siyasət - hakimiyyət münasibətləri, daha doğrusu hakimiyyətə, onun təşkilinə, müxtəlif maraq qrupları arasında bölüşdürülməsinə dair dövlətin fəaliyyətinin hansı istiqamətdə aparılmasını müəyyənləşdirən münasibətlər sferasıdır.

İkincisi, siyasət – ictimai həyatın təşkili üçün bir vasitədir. O, müxtəlif maraqların bir araya gəlməsinə əsaslanaraq bu maraqların cəmiyyətin bütün üzvlərini birləşdirən ümumi maraq əsasında uzlaşmasına çalışır.

Ücüncüsü, siyasət - elita və liderlərin, dövlət hakimiyyəti institutlarının köməyi ilə bütün səviyyələrdə ictimai inkişafın proseslərinə rəhbərlik və idarəçilik fəaliyyətini əhatə edir.

Siyasətin strukturu nədən ibarətdir?

Siyasət onda iştirak edən insanların şüurlu fəaliyyətidir, buna görə də onun birinci elementi kimi siyasətin subyektləri çıxış edir. Fərd, sosial qrup, təbəqə, təşkilat dövlət hakimiyyətini realizə prosesində bilavasitə və ya qismən iştirak edirlər. Siyasətin subyekti struktur cəhətdən təşkil oluna bilər və sosial struktur kimi çıxış edə bilər. Məsələn, siyasi partiya, həmkarlar ittifaqı, məscid (kilsə), kütləvi informasiya vasitələri, dövlət, beynəlxalq təşkilatlar ( BMT, Avropa Parlamenti və s.). Eyni zamanda, siyasətin subyekti kimi sosial qruplar, (təbəqələr, siniflər, millətlər, elita, kütlə, peşə qrupları) və ayrıca götürülmüş fərd (siyasi lider, adi vətəndaş) çıxış edə bilər.

Öz maraqlarını həyata keçirən fərd digər tələbatlarla çıxış edən qruplarla qarşılıqlı əlaqədə olur. Siyasi həyatın iştirakçılarının qarşılıqlı əlaqələrinin xarakteri subyektlərin siyasi mədəniyyətindən, cəmiyyətin vəziyyətindən (onun çiçəklənmə, sabitlik, böhran) asılıdır.

İdarəçilik qərarlarının səmərəliliyi müxtəlif maraq dairələrinin nümayəndəlik sisteminin mövcudluğundan asılıdır. Bu sistem özündə partiya sistemi, ictimai siyasi təşkilatlar və hərəkatları birləşdirir ki, onlar da müxtəlif qrupların tələbatlarını dürüst ifadə edərək tələb, proqram və s. şəklində hakimiyyətin nəzərinə çatdırmağa qadirdir. Dövlət və onun orqanları, partiya sistemi, təsir qrupları, ictimai hərəkatlar cəmiyyətin siyasi sistemini təşkil edirlər. İctimai proseslərə rəhbərlik və idarəçilik sferası kimi siyasət insan fəaliyyətinin müxtəlif sahələrinə toxuna bilər. İctimai həyat fəaliyyətinin hər hansı sahəsində tənzimləyici funksiyanı həyata keçirməsindən asılı olaraq siyasəti iqtisadi, sosial, demoqrafik, aqrar, mədəni, texniki, hərbi, milli və s. siyasətə bölürlər. Daxili və xarici vəzifələrin həllinə yönəldilmiş siyasəti daxili və xarici siyasət adlandırırlar. Əgər siyasətin subyekti kimi xalqlar, dövlətlər, müxtəlif dövlətlərin ictimai təşkilatları, hərəkatlar çıxış edirlərsə, onların qarşılıqlı münasibətlərinin predmeti olaraq iqtisadi, sosial, hüquqi, hərbi, humanitar əməkdaşlıq məsələləri sayılır və bu da beynəlxalq siyasəti yaradır.

Siyasət anlayışı müasir dilimizə yunan dilindən daxil olmuş, ənənəvi olaraq dövlət və ictimai işləri, insanlar, sosial qruplar, xalqlar, millətlər və dövlətlər arası münasibətlərlə bağlı olan fəaliyyət sferasını əhatə edir. Siyasət cəmiyyətin siyasi sferasında hakimiyyətin əldə edilib saxlanılması və realizə edilməsinə yönəldilmiş şüurlu fəaliyyətdir. İctimai həyatın müstəqil sahəsi kimi siyasət özündə subyektləri arasında (fərd, sosial təbəqə, sinif, partiya, hərəkatlar və s.) münasibətləri, hakim-idarəçilik və təşkilat fəaliyyətini, insanların davranışını, onların sosial-siyasi maraqlarını, tələbatlarını, motiv və ənənələri, siyasi institut və təşkilatların fəaliyyətlərini, siyasi ideya və baxışları birləşdirir.

Siyasət termini adətən bir neçə mənada işlədilir, Məsələn, fransız politoloqu J.M.Danken onun anlayışında üç aspekti ön plana çəkir:

1. Siyasət - idarəçilik. Bu məqamda siyasət anlayışı ictimai həyatın bu və ya digər sahəsində konkret problemin həllində dövlət hakimiyyətinin fəaliyyətini nəzərdə tutur. Məsələn, maliyyə, sosial, energetika, siyasət, sənaye və s.

2.Siyasət - strategiya. Bu aspektdə siyasət dövlət hakimiyyətinin, siyasi partiyanın və s. realizə etdiyi uzunmüddətli məqsəd və vəzifələr kimi başa düşülür.

3. Siyasət – mülahizə. Cəmiyyət və vətəndaşlar tərəfindən dövlət hakimiyyətinin və siyasi sistemin digər subyektlərinin fəaliyyətinə dair konkret qiyməti əhatə edir.

Yuxarıda qeyd olunan aspektlərlə yanaşı bu və digər əsaslarla əlaqədar olaraq siyasətin müxtəlif kompleks anlamları da verilir.

1) Etik baxımdan təyin ictimai rifahın əldə edilməsinə yönəldilmiş insanların şüurlu fəaliyyətini nəzərdə tutur. Siyasi mütəfəkkirlərdən Aristotel, J.J.Russo, M.Robespyer və b. siyasətin mənasını məhz bu ölçüdə verirdilər. İctimai rifah anlayışı isə onlar tərəfindən müxtəlif anlamlarda verilirdi: əgər Aristotel bunu «insanların əksəriyyətinin maksimal xoşbəxtliyi kimi» başa düşürdüsə, M.Robespyer idrakın tələblərinə uyğun hərəkət etməyi nəzərdə tuturdu, neotomizmin nümayəndəsi J.Mariten isə siyasəti insanların çoxunun «düzgün həyat tərzi» ilə əlaqələndirirdi.

2) Stratifikasiya baxımından siyasətin təhlilində müəyyən sosial təbəqə və qrupların münasibətləri və hakimiyyətin həyata keçirilmə prosesinə onların təsiri göstərilir. Bu cür yanaşma çərçivəsində siyasət sosial-iqtisadi siniflərin (istismarçı və istismar olunanların) (marksizm), irqi, etnik, mədəni və başqa qrupların rəqabəti kimi (L.Qumploviç), aristokrat və ya elit təbəqənin xalq kütlələrinin əksəriyyəti ilə mübarizəsi, (N.Makiavelli, Q.Moska, V.Pareto), idarə edən və idarə olunanların rəqabəti kimi (R.Darendorf) başa düşülür.

3) Hüquqi aspektdə yanaşma siyasəti və dövlətin fəaliyyətini bilavasitə insan hüquqlarının müdafiəsi ilə bağlayırdı (T.Hobbs, C.Lokk, B.Spinoza, J.J.Russo).

Müasir tədqiqatçılardan fransız politoloqu J.Frendin siyasət haqda fikirləri böyük maraq doğurur: «Siyasət müxtəlif və rəngarəng fikir və maraqlardan doğan mübarizə çərçivəsində adətən hüquqa əsaslanan gücün hesabına xarici təhlükəsizliyi və daxili bərqərarlığı təmin edən sosial fəaliyyətdir.».

4) Hakimiyyət münasibətləri baxımından siyasət hakimiyyəti əldə etmək və onu saxlamaq uğrunda mübarizə (N.Makiavelli) və ya hakimiyyətdə iştirak etmək, yaxud hakimiyyətin dövlətlərarası, dövlət daxilində ayrı-ayrı insan qrupları arasında bölüşdürülməsinə təsir cəhdi kimi qiymətləndirilir (M.Veber). Başqa sözlə, siyasət dövlət və cəmiyyət miqyasında, həmçinin xalqlar arası münasibətlərdə hakimiyyətə dair insanların qarşılıqlı münasibətlər sistemidir.

5) İnstitusional izaha görə siyasət dövlətin işlərində, siyasi institut və idarələrin fəaliyyətində iştirak edir (J.J.Russo, K.Marks).

6) Konflikt cəhətdən açıqlanması siyasəti maraq və baxışlarına görə müxtəlif sosial qrup və siniflərin mübarizəsində yaranan konflikt kimi (A.Tokvil, K.Marks, L.Qumploviç, Q.Zimmel, L.Kozer, A.Bentli) və ya bu konfliktləri nizama salan bir fəaliyyət kimi qiymətləndirir.

7) Siyasətin konsensus xarakterli olması onu ictimai ziddiyyətləri nizama salan mexanizm, ümumi vəzifələrin həllində (iqtisadi, siyasi, mədəni və s.) vətəndaşların səylərini səfərbər edən bir vasitə kimi qiymətləndirir. Siyasətin açıqlanmasına bu cür yanaşmanın tərəfdarları T.Parsons, D.İston, R.Merton və başqalarıdır. Onlar cəmiyyətə hər bir element və yarımsistemin başqa element və yarımsistemlərlə birgə müəyyən funksiyanı yerinə yetirən mürəkkəb bir sistem kimi baxırlar.

Xacə Nəsirəddin Tusi «Əxlaqi – Nasiri» əsərində siyasət haqqında maraqlı fikirlər irəli sürmüşdür. O yazırdı: «Hərəsini öz yerində oturtmaq, hərənin öz payını verib, başqasının haqqına əl uzatmağa qoymamaq, ictimai əmək prosesində ona tapşırılan işi yerinə yetirməyə məcbur etmək üçün tədbirlər görmək zəruriyyəti doğur. Bu tədbiri «siyasət» adlandırmışlar».

Öz əsərlərində Tusi siyasətin dörd növünü göstərir: ölkə siyasəti; qələbə siyasəti; kəramət siyasəti; camaat siyasəti. Onun fikrinçə, ölkə siyasəti bütün yerdə qalan siyasətləri əhali arasında yayar və hər təbəqəni özünə müvafiq siyasətlə idarə edər. Tusi göstərir ki, siyasət bəzən qərari işlərə (məsələn, müqavilələr, sazişlər kimi), bəzən isə əqli hökmlərə, məsələn, ölkə, şəhər idarəetməsi kimi məsələlərə aid olur.

Beləliklə, siyasət çoxcəhətli ictimai münasibətlərin, insan fəaliyyətinin, davranışların, baxışların, hakimiyyətə dair və cəmiyyətin idarə olunmasında konkret məsələlərə görə insanlar arasında mövcud olan rəngarəng əlaqələrin toplusudur. Siyasət dünyası mürəkkəb, çoxlaylı forma baxımından çoxluğu ilə fərqlənən hakimiyyət və hakimiyyət münasibətlərini, cəmiyyətin dövlət və siyasi baxımdan təşkilini, siyasi institutların bütün kompleksini əhatə edir. O özündə beynəlxalq, millətlərarası, dövlət-hüquqi, partiya, seçki və s. kimi sferaları, həmçinin qərarları qəbul etmək mexanizmini, siyasi prosesi, siyasi münasibətləri, siyasi mədəniyyəti, siyasi kommunikasiyanı və s. birləşdirir

Siyasətin mahiyyətini açıqlayarkən cəmiyyəti bir-biri ilə əlaqədə, lakin müəyyən dərəcədə müstəqil olan yarımsistemlər (təsərrüfat - iqtisadi, sosial, siyasi və mənəvi) kompleksindən ibarət olan supersistem kimi göstərmək məqsədə uyğundur. Bu yarımsistemlərdən hər biri öz çərçivəsinə, xarakterik xüsusiyyətlərinə malikdir, müəyyən funksiyanı həyata keçirir. İstehsalat və ya iqtisadi-təsərrüfat sistemi öz fəaliyyəti ilə cəmiyyətin maddi tələbatlarını ödəyir. Sosial sistem müxtəlif sosial birliklər, sinfi, formasiya, sivilizasiyalılıq amillərinin təsiri ilə müəyyənləşən sosial birliklər arasındakı münasibətlər məcmusunu özündə birləşdirir. Mənəvi sfera isə ideyaları, bilikləri, bədii dəyərləri əhatə edir. Siyasi sfera siyasi hakimiyyət və onun həyata keçirilməsi ilə bilavasitə bağlı olan institutlar, təşkilatlar, normalar, ideyalar, maraqlar, motivlər və s, toplusunu təşkil edir.

Siyasətin ictimai həyatın əsas sferaları ilə qarşılıqlı əlaqəsini nəzərdən keçirək.

***SİYASƏT VƏ HAKİMİYYƏT.*** Qeyd etdiyimiz kimi, siyasi münasibətlər, hakimiyyətə dair müxtəlif münasibətlər sistemindən ibarətdər. Bundan başqa, siyasi münasibətlərin mürəkkəb və ziddiyyətli sistemi arbitr və nizamlayıcı qüvvə kimi dövlət hakimiyyətinin olmasını tələb edir. Amerika politoloqu R.Dalem deyir: «Siyasi sistem hakimiyyətin, nüfuzun mövcudluğunu tələb edən sabit insan münasibətləri sistemidir».

***SİYASƏT VƏ DÖVLƏT.*** Dövlət hakimiyyətinin fəaliyyətinə təsir göstərən hər hansı bir siyasi təsir siyasiləşir. Bununla yanaşı yadda saxlamaq lazımdır ki, dövlət eyni zamanda bir sıra siyasi funksiyaları yerinə yetirir: 1) İctimai asayişi qoruyur; 2) Müxtəlif sosial təbəqə və qrupların maraqlarını həyata keçirən nümayəndəliklər yaradır; 3) Müdafiə, milli təhlükəsizliyi təmin edir; 4) Sosial-iqtisadi, millətlərarası və digər konfliktləri nizama salır.

Qeyd etmək lazımdır ki, siyasəti təkcə dövlətin fəaliyyəti ilə bağlamaq düzgün olmazdı. O həmçinin müxtəlif sosial qrupların maraqlarını ifadə edən qeyri-dövlət qurumların (partiya, hərəkat və s.) fəaliyyətini nəzərdə tutur. Bütün bunlar dövlət hakimiyyətinə təsir etməyə və ondan öz məqsədləri üçün istifadə etməyə səy göstərirlər.

Bununla yanaşı, müxtəlif siyasi baxışlara malik olanlar dövlətin cəmiyyətin həyatına qarışmasına müxtəlif cür yanaşırlar. Məsələn; liberalizmin nümayəndələri dövlətin həddindən artıq səylərinin, siyasi və sosial fəallığının əleyhinədirlər. Onların fikrincə, bu cəmiyyətin azadlığı üçün bir təhlükədir və bürokratizmin artmasına aparıb çıxardır.

«Solçuların» (kommunistlər, sosial-demokratlar) isə əksinə, dövlətin fəal şəkildə iqtisadiyyata, sosial siyasətə qarışmasının tərəfdarlarıdır. Dövlət və cəmiyyətin qarşılıqlı münasibətlərinə dair totalitar rejimin (kommunizm, faşizm) tərəfdarları dövlət tərəfindən cəmiyyətin bütün sferalarına mütləq və məhdudiyyətsiz nəzarətin olmasını tələb edir.

Siyasətin komponentlərini nəzərdən keçirək:

- konkret ictimai quruluşun arzuedilən obrazı (ideal)
- siyasi reallıq
- siyasi məqsədə və ideala nail olmaq yolları və vasitələri.

Siyasətin elementləri bunlardır: normativ ideyalar, hakimiyyət və siyasi münasibətlər, subyektiv göstərişlər (təfəkkür, nitq, davranış), siyasi institutlar və təşkilatlar.

Siyasətin səviyyələri: mikrosəviyyə (gündəlik), mezasəviyyə (ictimai), meqasəviyyədən ( qlobal ) ibarətdir.

Siyasətin funksiyalarına nəzər salaq:

- mürəkkəb sosial sistem olan cəmiyyətin bütövlüyünün qorunması və möhkəmləndirilməsi, ictimai asayişin təmin olunması;
- bütün cəmiyyətin qarşıda qoyduğu məqsədlərin işlənib hazırlanması, onların həyata keçməsi üçün kütlələrin təşkili və ehtiyatların səfərbər edilməsi;
- maraqların koordinasiyası və konfliktlərin nizama salınması, gərginliyin qarşısının əvvəlcədən alınması;
- mürəkkəb sosial obyektlərin təşkil edilməsi;
- siyasətin subyektlərinin ümumi maraqlarının aşkarlanması;
- subyektlərin davranışlarının nümunəvi qaydalarının işlənib hazırlanması;
- subyektlər arasında funksiyaların bölüşdürülməsi.

### 3. *Siyasətin subyektləri*

Siyasətin subyektləri nədən ibarətdir? Siyasətin subyektləri dedikdə, şəxsi məqsədlərini formalaşdırıb realizə etməyə qadir siyasi həyatın iştirakçıları nəzərdə tutulur (Dövlət, Lider, Partiya, Millət, Seçici və s.). Bunların müstəqilliyi şəxsi maraq və tələbatların mövcudluğunda ifadə olunur. Yalnız maraqların dərkolunma zəminində subyektlərin özünüdərketməsi baş verir, bu səbəbdən siyasət və cəmiyyətdə özünün və öz vəziyyətinin, tərəfdaş və qarşı tərəfin qüvvə və təsirini real qiymətləndirmək əhəmiyyətli rol oynayır.

Subyektin vacib keyfiyyətlərindən biri onun fəallığıdır. Fəallıq subyektin fəaliyyət dairəsinin intensivlik dərəcəsini ifadə edir. Siyasi fəallıq, digər fəallıq növləri kimi, müxtəlif istiqamətlərdə ola bilər. O, siyasi sistemin təkmilləşməsinə, siyasi münasibətlərin sabitləşməsinə yönəldilmiş konstruktiv xarakter daşıya bilər. Eyni zamanda, sistemin dağılmasına yönəldilmiş destruktiv fəallıq da mövcuddur.

Siyasi fəallıq bir çox formalarda: danışıq prosesi; siyasi liderlərin, elita, partiya, dövlət aparatının fəaliyyətində; kütləvi siyasi hərəkatlarda (mitinq, nümayiş, qiyam və s.) özünü göstərir. Siyasi fəallığın son həddi sosial inqilablardır. Sosial inqilablar gedişində təşəkkül tapmış siyasi münasibətlərin köklü şəkildə dəyişməsi, hakimiyyət sisteminin yenidən qurulması baş verir.

Siyasi elmlərdə siyasətin subyektlərinin bir neçə növü verilir. Birinci növ siyasi həyatın bilavasitə iştirakçılarıdır: dövlət, partiya, lider, ictimai təşkilat və hərəkatlar. Məhz onlar siyasi arenada daim iştirak edir, kütləvi şüur isə siyasəti məhz onlarla bağlayır. İkinci qrup siyasi elitalardır. Üçüncü qrup partikulyar mənafe qruplarıdır (lobbi).

Beləliklə, böyük ictimai qruplar siyasətin ilkin subyektləridir. Onun əlavə subyektləri isə birbaşa və bilavasitə subyektlərə bölünür. Birbaşa subyektlərə kiçik qruplar və kollektivlər, habelə fərdlər, bilavasitə subyektlərə isə təbliğat təsisastları, məscid, kilsə və s. aiddir.

Elita hakimiyyət və təsir atributlarına malik imtiyazlı sosial təbəqədir. Siyasi elita siyasi kursu müəyyənləşdirir, siyasi idarəçiliyə dair vacib qərarları qəbul edir, siyasi imkanlara nəzarət edir. Siyasi elitaya adətən ali dövlət vəzifələrində çalışan siyasətçilər - prezident; parlament deputatları; ali dövlət məmurları; nazirlər; digər dövlət təşkilatlarının rəhbərləri; qabaqcıl siyasi partiyaların liderləri daxildir.

Siyasi elitaya ilk elmi təhlili verməyə çalışan italyan alimləri V.Pareto və Q.Moska olmuşlar. V.Pareto elitaya o insanları aid edirdi ki, onlar öz funksiyalarını çox səmərəli surətdə həyata keçirir. Bununla yanaşı, o belə hesab edirdi ki, cəmiyyətə müxtəlif sosial şəraitə uyğunlaşan siyasətçilər lazımdır. Məsələn, dəyişikliklər dövründə zirək, çevik liderlərə, stabil inkişaf vaxtlarında isə güclü, prinsipial siyasətçilərə ehtiyac var.

Bundan başqa, siyasətin beynəlxalq subyektləri də vardır:

- milli dövlətlər
- «supermilli» təşkilatlar. Bura qlobal xarakter daşıyan milli dövlət assosiasiyaları daxildir (Amerika dövlətləri təşkilatı, Avropa iqtisadi birliyi və s.);
- qeyri - hökumət təşkilatları (transmilli korporasiyalar bura aid edilir). Onlar öz investisiyaları və firmaları vasitəsilə dövlətlərin siyasətinə təsir göstərə bilərlər.

- BMT sisteminə daxil olan beynəlxalq hökumət təşkilatları (YUNESKO, Dünya bankı, Beynəlxalq əmək təşkilatı və s.).

### *4. Siyasi münasibətlər və mənafelər*

Siyasi münasibətlər cəmiyyətin idarə olunması və təşkilinə dair sosial qruplar, fərdlər, sosial institutların qarşılıqlı əlaqələri kimi müəyyənləşir. Bu münasibətlər siyasətin əsas atribut keyfiyyətlərini özündə birləşdirir:

- onların mahiyyəti sosial subyektlərin (sosial qrup, fərd) bütöv sosial varlığa uyğun olan problem və maraqlarla əlaqəsinin müəyyən edilməsindən ibarətdir. Dövlət bu əlaqənin saxlanması və istiqamətləndirilməsində bir alət kimi çıxış edir.
- idrakın fəal iştirakı ilə yaranan siyasi münasibətlər insanların beyinlərində deyil, gördükləri işlərdə, hərəkətlərdə, proseslərdə sosial qruplar, dövlətlər, partiyaların əlaqələrində özünü göstərir.
- siyasi münasibətlər fəal xarakteri ilə seçilir ki, bu da insanlara öz həyatlarının bir çox daxili və xarici parametrlərinə təsir etmək imkanı yaradır. Məs; bu cür təsir cəmiyyətin iqtisadi həyatına göstərilə bilər.
- hakimiyyət, məcburiyyət, nüfuz təsiri, təşkilatın imkanlarından istifadə olunma ( bu keyfiyyətdə müəyyən prinsiplər əsasında insanların iradə və hərəkətləri nəticəsində yaranan həm partiyalar, həm ittifaqlar, hərəkatlar, həmçinin, dövlət, institutlar çıxış edə bilərlər) siyasi münasibətlərin əlində spesifik alətdir.

Beləliklə, siyasi münasibətlər sferası bütün siyasi fəaliyyət obyektlərinin məcmusudur, başqa sözlə desək, cəmiyyətin siyasi həyatı məhz bu münasibətlərdə üzə çıxır.

Siyasi münasibətlər siyasi hakimiyyətin əldə edilib, istifadəsi və bölüşdürülməsinə dair siyasi həyatın subyektlərinin qarşılıqlı əlaqəsi və qarşılıqlı fəaliyyətidir. Siyasi münasibətlərin bir neçə növü vardır: hakimiyyətə dair, siyasi institutlara dair, bütövlükdə siyasi təşkilatlara dair və s. Onların spesifikası ondan ibarətdir ki, subyektlərin qarşılıqlı əlaqəsini hakimiyyətə olan münasibətlə ifadə edir, bu və ya başqa formada digər ictimai münasibətlərin xarakterini müəyyənləşdirir. Siyasi münasibətlər müəyyən reallıqların əsasında əlaqələr toplusuna çevrilərək cəmiyyətin siyasi sisteminin ümumi strukturuna inteqrasiya edir.

Siyasi vəziyyətin element hərəkətini aşağıdakılar kimi təsəvvür etmək olar: siyasi hərəkətlərin subyekt və obyektlərinin əlaqəsi; siyasi tələbat, siyasi maraq, siyasi məqsəd, siyasi iradə.

Siyasi münasibətlərin mərkəzi nöqtəsini (özəyini) hakimiyyətə dair mərkəzdə və yerlərdə yaranan münasibətlər, qarşılıqlı hərəkətlər və əlaqələr təşkil edir. Siyasi münasibətlərin subyekti kimi ayrı – ayrı vətəndaşlar, sosial qruplar və birliklər, siyasi hərəkatlar və partiyalar, dövlət, bütövlükdə cəmiyyət çıxış edir. Belə ki, hakimiyyət uğrunda bu və ya başqa məqsədləri və maraqları olan müxtəlif siyasi qüvvələr mübarizə apardıqlarından siyasi münasibətlər rəqabət xarakterli olur. Bu zaman konfliktlər yaranır ki, bunlardan da qeyri - legitim vasitələr istifadə edir. Beləliklə, «məqsəd-vasitə» problemi siyasət və siyasi münasibətlər üçün aktual mənəvi və hüquqi ölçüyə çevrilir. Siyasi münasibətlərdə iqtisadi, sosial, mənəvi münasibətlər və proseslər özünü göstərir. Müasir cəmiyyətdə heç bir sosial institut siyasi sferada təşəkkül tapmış münasibətlərdən kənarda formalaşa bilməz. Siyasi əlaqələrin rəngarəngliyi ondan ibarətdir ki, ölkədə dövlət hakimiyyətinin rəhbərlik və idarəçilik funksiyasını reallaşdırır və bu keyfiyyətdə bilavasitə və ya dolayısı ilə təsir obyekti kimi təkcə siyasi deyil, həmçinin iqtisadi, mənəvi proseslərə malikdir.

İctimai işlərdə, siyasətdə, siyasi münasibətlərdə ənənəvi olaraq problem və hərəkatların miqyasından çıxış edərək xalq kütlələrinin, siniflərin, partiyaların, inqilab, üsyan, müharibə iştirakçılarının xüsusi rolu vurğulanmışdır. Belə hallarda, siyasətdə çox vaxt fərd, insan anlamı kənarda qalırdı. Amma aydındır ki, heç bir siyasi münasibətlər yalnız mütəşəkkil, mobil deyil və eyni zamanda əlaqəsiz şəkildə olan insanların iştirakı olmadan mümkün deyil. Bu və o birilər idrakın təcəssümüdür. Bu yalnız insana aiddir, insanın mahiyyəti isə bütün cəmiyyətin, münasibətlərin, o cümlədən, siyasi münasibətlərin məhsulu (Marksa görə), ansamblıdır (Hegelə görə). İçtimai inkişafın məntiqinə əsaslanaraq siyasi elmlər göstərmişdir ki, siyasətin, dövlətin, ictimai təbəqə və qrupların maraqlarının mərkəzində insan amili durmalıdır.

Subyekt tərkibinə görə siyasi münasibətləri üç qrupa bölmək olar:

Birinci qrup - siniflər, iri sosial qruplar, millətlər və dövlətlər arasında olan münasibətlərdir. Bu münasibətlər siyasi sistemin əsasını təşkil edir və müvafiq siyasi təşkilatların fəaliyyətində öz əksini tapır.

İkinci qrup - şaquli münasibətlər adlandırılan siyasi hakimiyyətin həyata keçirilmə prosesində yaranan münasibətlərdir.

Üçüncü qrupa siyasi təşkilat və idarələrin arasında yaranan münasibətlər aid edilir.

Bildiyimiz kimi, konstitusiya, nizamnamə, proqram, siyasi ənənə şəklində mövcud olan və həyata keçirilən siyasi və hüquqi normalar siyasi sistemin əhəmiyyətli elementidir. Bunlar siyasi proseslərin

normativ əsasını təşkil edir. Siyasi rejimlərə görə (məsələn, totalitarizm və siyasi plüralizm), müvafiq siyasi sistemin fəaliyyətinin əsasında duran prinsip və normaları da müxtəlif olur. Siyasi və hüquqi normalar siyasi münasibətləri nizama salır.

Subyektlərin real qarşılıqlı əlaqəsi siyasi münasibətlərin və proseslərin axarında baş verir. Siyasi münasibətlər cəmiyyətdə əhəmiyyətli rol oynayaraq ictimai təşkilatın tipini xarakterizə edirlər. Siyasi münasibətlərin intensivliyi siyasi həyatın ümumi ab-havasının dəyişməsi ilə, yüksək fəallıqdan tənəzzülə qədər dəyişə bilər. Böhran dövrlərində isə hakimiyyətin və cəmiyyətin münasibətindən asılı olaraq dondurula bilər (fövqəladə vəziyyət, silahlı toqquşmalar, repressiyalar və s) və ya inkişaf edə bilər (açıq demokratik islahatlar)

Konseptual (parlament) siyasi münasibətlər şəraitində siyasi münasibətlərin subyekti iqtidar qüvvələr və müxalifət, sol, sağ, mərkəz qollarını təmsil edən siyasətçilər olur. Bu münasibətlər həm parlament işində, həm də partiyalararası və partiyalardaxili münasibətlərdə özünü göstərir. Həmçinin, radikal (sağ və sol) və mülayim (mərkəz), mütərəqqi (sol) və mürtəce (sağ) kimi siyasi münasibətlərin tərəfləri mövcuddur. Siyasi münasibətlərin qarşılıqlı əlaqəsi məkan və zamanda siyasi proseslər toplusu kimi inkişaf edir.

Siyasi münasibətlərin sabit xarakter daşıması üçün nə lazımdır?

Birincisi, cəmiyyətdə qarşılıqlı əlaqəyə girən insanların davranışını nizama salan dəqiq norma və qaydalar mövcud olmalıdır. Məsələn, əgər söhbət parlamentarizm institutundan gedirsə, parlament deputatlarına müəyyən davranış modelini sərəncam verən normalar toplusu olmalıdır. Bu, deputatlara qanunvericilik fəaliyyətində iştirak etməyə, seçicilərlə görüşməyə, açıq şəkildə öz mövqeyini bildirməyə və s. bir vəzifə kimi tapşırıq verir. Parlamentin tərkibinin dəyişməsi heç də bu normaların dəyişməsinə aparmır. Yeni seçilmiş deputatlar yenə də bu normalara əməl etməklə öz statuslarını qorumalıdırlar.

İkincisi, qəbul olunmuş norma və qaydaları pozanlara qarşı sanksiyaların sabit xarakter daşıması əhəmiyyətli rol oynayır. Düzdür, bu sanksiyalar müxtəlif xarakterli (yüngül və ya daha ağır) ola bilər.

Üçüncüsü, vacibdir ki, qarşılıqlı əlaqələr sferasına daxil olan insanlar institusional normaları lazımi, təbii, əhəmiyyətli bir lüzum kimi qəbul etsinlər. Bu halda institusional normalara əməl etmək onlar üçün adi bir hal alır.

Beləliklə, siyasi münasibətlər maddi və mənəvi münasibətlərin fəaliyyət göstərməsinin zəruri şərti kimi çıxış edirlər. Onların mürəkkəbliyi, dinamizmi və ziddiyyətliliyi, mövcudluq formalarının rəngarəngliyi bu münasibətlərin tədqiq və təhlil edilməsi zamanı fikir müxtəlifliyinin olmasını şərtləndirir.

Ümumi şəkildə mənafe cəmiyyətdə müxtəlif sosial qruplar əmələ gətirən ictimai münasibətlər forması, real əlaqədir. Siyasi mənafe isə sosial-siyasi münasibətlər sistemində subyektin vəziyyətini, ictimai sistemin strukturunda onun yerini və son nəticədə siyasi mənafenin obyektiv tərəfini müəyyən edir. Subyektin öz vəziyyətini dərk etməsi mərhələsi siyasi mənafenin subyektiv tərəfini əmələ gətirir. Bu proses həm adi şüur səviyyəsində, həm də tarixi planda həyata keçirilir. Siyasi mənafenin dərk edilməsi fasiləsiz baş verən prosesdir. Bu proses siyasi biliklərin, qiymətlərin, istiqamətlərin işlənib hazırlanması formasında baş verir. Onlar isə öz növbəsində praktik fəaliyyəti, sosial fəallığı, vətəndaşlıq mövqeyini şərtləndirir.

Siyasi mənafe beş əsas mərhələdən keçir:

- cəmiyyətlə praktik əlaqələrdə subyektin vəziyyəti;
- bu vəziyyətin subyekt tərəfindən dərk edilməsi səviyyəsi;
- davranış və fəaliyyət motivləri;
- obyektiv aləmdə mənafenin təsdiq olunması prosesindən ibarət hərəkətin özü;
- mənafenin təsisləndirilməsi.

Siyasi mənafe ilk səbəb olaraq siyasi davranışın mənbəyidir. Bundan belə nəticə çıxarmaq olar ki, siyasi mənafe siyasi prosesi hərəkətə gətirən qüvvədir. Siyasi mənafelər rəsmi qeydə alınmış partiyalar tərəfindən və həm də siyasi cərəyanların nümayəndələri tərəfindən ifadə oluna bilər. Siyasi problem, siyasi mənafelərin toqquşmasından labüd şəkildə yaranmış şəraitdir. Siyasi problemin vaxtında həll edilməməsi siyasi konfliktə apara bilər, bu da öz növbəsində müvafiq tədbirlərin görülməməsi nəticəsində silahlı toqquşmaya gətirib çıxarda bilər. Beləliklə, siyasi mənafelərin toqquşması müharibəyə, inqilablara, üsyanlara apara bilər.

Hər bir siyasi sistem bir çox amillərlə: geosiyasi, milli, ənənəvi və s. müəyyənləşən özünün siyasi maraqlarını ifadə edir. Müxtəlif əlamətlərə görə siyasi mənafeləri aşağıdakı kimi təsnif etmək olar:

- mənafeni təmsil edən orqana görə: dövlət, partiya, ictimai təşkilatların və birliklərin mənafeyi;
- siyasi xəttin xarakterinə görə: ultrasol, sol (solçu ), sol mərkəz, mərkəz, sağ mərkəz, ultrasağ;
- siyasi rejimin xarakterinə görə: totalitar, demokratik və s.

Hər bir dövlətdə hakimiyyət uğrunda mübarizədə siyasi maraqların toqquşması baş verir və siyasi təfəkkürün əsas problemi dövlət hakimiyyətinin təşkil olunmasıdır. Siyasi mənafelər obyektivdir və son

nəticədə hər bir insanın maraqlarına toxunur. Cəmiyyət həyatı özündə sosial ziddiyyətləri toplamış siyasi maraqlarla zəngindir və ictimai birliklərin və sosial toqquşmaların əsasını təşkil edir. Mübarizə prosesində siyasi diskussiyalar sferasına ictimai təfəkkürün digər formaları: din, elm, fəlsəfə, hüquq, incəsənət də cəlb olunur. Beləliklə, siyasi mənafelərdən təkcə sosial-iqtisadi deyil, eyni zamanda cəmiyyətin mənəvi həyatı da asılı şəkildə olur.

Siyasi mənafe zaman etibarilə sabit xarakter daşıyır. Lakin bu heç də onun dəyişilə bilməsi imkanını inkar etmir. Belə ki, iqtidarda olan qüvvələrin öz mənafeyini lazımi səviyyədə reallışdıra bilməməsi cəmiyyətdə yeni siyasi qüvvələrin meydana gəlməsinə səbəb ola bilir.Bunun qarşısının alınması müvafiq cəmiyyətdə hakim olan siyasi sərvətlərə, normalara və prinsiplərə dəqiq əməl olunması yolu ilə mümkündür.

Hər bir cəmiyyətdə siyasi sərvətlər mövcud olur. İnsanın muxtariyyəti və onun ləyaqəti, fərdin və cəmiyyətin rifahı, sosial təşkilat və qayda siyasi sərvətlər sayılır.

Siyasi sərvətlər daxili və xarici siyasət sahəsində qərarların qəbul edilməsi zamanı siyasi və əxlaqi qiymətləndirmənin başlıca meyarı kimi çıxış edir. Mütləq sərvətlərin inkar edilməsi tamamilə dövlətə tabe olan bir cəmiyyət idealının (totalitarlığın) yaranmasına gətirib çıxarır. Hər bir çəmiyyətdə siyasi həyatın real hadisələrinə qismən uyğun gələn və uyğun gəlməyən sərvətlər sistemi vardır.

Siyasi dəyərlərdə siyasi varlığın vəziyyətinə, müxtəlif obyektlərinə dair düşüncələrdə, mübahisələrdə yaranan müsbət fikirlər öz əksini tapır. Siyasi dəyərlərdə insanlar daha ədalətli cəmiyyətə, səmərəli şəkildə təşkil olunmuş dövlətə, tərəqqiyə olan meyllərini ifadə edirlər.

## 5-ci MÖVZU

## İNSAN VƏ SİYASƏT

### 1. *İnsan siyasi fəaliyyətin obyekti və subyektidir*

İnsan problemi, onun mahiyyəti, maddi və mənəvi mövcudluğu, inkişafı və gələcəyi minilliklər ərzində bəşəriyyət qarşısında duran problemlərdən ən başlıcasıdır. Bu problem muasir dövrdə də nəinki ən mürəkkəb və demək olar ki, tükənməz elmi problem kimi, eyni zamanda əsl insani cəmiyyətin qurulması ilə bağlı olan aktual əməli vəzifə kimi qarşıda durur.

Müasir dövrdə yeni hadisələr məcrasında insan probleminin nəzərdən keçirilməsi böyük əhəmiyyət kəsb edir. Məsələnin belə qoyuluşu yeni insanın formalaşması yollarına aid olan bir çox konkret məsələlərin: əməyə yaradıcı münasibət tərbiyə edilməsinin, ümummədəni və əxlaqi tərbiyənin, sosial fəallığın, siyasi şüurluğun, bazar iqtisadiyyatının və bütün həyatımızın məqsəd və vəzifələrinin mənasının, demokratizmin daha yaxşı anlaşılmasına imkan yaradır.

Müasir dövrdə insan problemlərini anlamağın açarı elm və mədəniyyətin tərəqqisindən ibarətdir. Müasir elmin insanın həyatı və əməyi ilə, biososial varlıq olmaq etibarilə onun perspektivi ilə əlaqəsi, elmi-texniki tərəqqinin humanist mənası əsrin qlobal problemlərindən birinə çevrilir. Elmi-texniki inqilab insanın inkişafı üçün yeni imkanlar və vasitələr yaradır ki, bunlar da yanlız həqiqətən ağıla uyğun və humanist sosial şəraitdə həyata tətbiq edilə bilər. Bu, sivilizasiyamızın ən əsaslı problemlərindən biridir və bu problem nəzərə alınmadan hətta insanın perspektivləri haqqında məsələnin düzgün qoyuluşu mümkün deyildir.

Əvvəllər heç zaman istehsal, əmək fəaliyyətinin texniki əsası insan qarşısında elmi-texniki inqilab şəraitində olduğu kimi yuksək psixoloji tələblər qoymamışdır. Lakin insan əməyi də əvvəllər heç zaman o dərəcədə məhsuldar olmamışdır ki, insanın inkişafı üçün yeni imkanlar yaratmağa qabil olsun. Müasir elm insanın bioloji təbiəti və psixofizioloji xüsusiyyətlərini nəzərə alaraq texnikanın inkişafına müvafiq olaraq insanın qabiliyyətinin fəal surətdə formalaşmasına kömək göstərən səmərəli yollar axtarır.[1]

İnsan problemi – müasir dünyada onun vəziyyəti və onun gələcəyi, şəxsiyyət kimi onun inkişafı və fərdi taleyi, ətraf mühitə onun fəal və getdikcə güclənən təsiri və bununla yanaşı ondan artmaqda olan asılılığı bu gün hər şeydən əvvəl bəşəriyyətin həyati əsasları ilə bağlı vacib ictimai problem olmuşdur.

Biz elmi, fəlsəfi ədəbiyyatda daim insan, fərd, şəxsiyyət, məfhumları ilə rastlaşırıq. Bunların arasında fərq nədən ibarətdir? Obyekt və subyekt dedikdə nə başa düşülür?

Obyekt – ictimai münasibətlərin yönəldiyi, sınaqdan çıxarıldığı sosial sahədir. Buna insanın həyat fəaliyyətinin aşağıdakı sahələri daxildir: cəmiyyətin sosial strukturu, siyasi sistem, cəmiyyətdə subyektin real davranışı.

Subyekt - şüurlu tərzdə hərəkət edən və öz hərəkətlərınə görə məsuliyyət daşıyan şəxsiyyətə deyilir. Subyektə: insan, sosial qrup, sinif, xalq və bəşəriyyət daxildir. Subyektin formaları bunlardır: səbəb, dəlil, məqsəd, vəzifə, maraq, göstəriş, dəyər, ideoloji təsəvvür, ictimai rəy və s.

Cəmiyyətdəki bütün ictimai qruplar siyasətin eyni vaxtda həm subyekti, həm də obyekti kimi çıxış edirlər.

İnsan – bio-psixo-sosial varlıqdır. O, bioloji (təbiət), psixoloji (yalnız insanlara xas olan təfəkkürün xüsusi formasıdır) və sosial (yalnız ictimai həyat prosesində formalaşan xüsusiyyətlər) cəhətləri özündə birləşdirir.

İnsanın bioloji xüsusiyyətləri - insana irsən qabiliyyət formasında verilən təbii vergidir.

Elmi ədəbiyyatda bu məsələyə iki baxımdan yanaşılır: «bioloji» və «sosial». Lakin insanın psixikasına (ruhi aləminə) yalnız «bioloji» və «sosial» tərəfdən baxmaq düzgün olmazdı. Ona görə ki, insan psixikasında nəsə xüsusi bir əlamət vardır.

Psixika – öz-özünü dərketmə prosesidir, xüsusi hissdir: insanın xüsusi varlıq sahəsidir.

Hər bir insan özünəməxsus fərdi xüsusiyyətlərinə görə ictimai-siyasi fəaliyyətə qoşulur və şəxsiyyət kimi çıxış edir.

Fərd – (individium) latın mənşəli sözdür – «bölünməz» deməkdir. Fərd həyatın inkişafının ilkin pillələrində meydana gələn konkret subyektin bütövlüyünü ifadə edir. Fərd anlayışında subyektin bölünməzliyi, bütövlüyü və ona xas olan xüsusiyyətlərin mövcud olması birləşir.

---

[1] И.Т.Фролов. О человеке и гуманизме. М., Политиздат, 1989, s.20.

Ümumiyyətlə insan haqqında məsələ ilə yanaşı mövcud konkret-tarixi şəraitdə fərd və cəmiyyətin münasibəti haqqında məsələ də diqqəti cəlb edir. Fərd ictimai varlıqdır.

Fərd öz fəaliyyəti prosesində başqa adamlarla, ictimai idarə və təşkilatlarla müxtəlif əlaqələrə girdiyi üçün müxtəlif ictimai xüsusiyyətlərə malik olur və beləliklə fərdi və ictimai keyfiyyətləri özünəməxsus və təkrarolunmaz şəkildə əlaqəndirərək sosial keyfiyyətlərin şəxsləşmiş daşıyıcısına, şəxsiyyətə çevrilir. Şəxsiyyət insanın ictimai xüsusiyyətlərinin fərdiləşmiş təzahürüdür.

İnsan probleminin tarixi, sosial, dünyagörüşü, əxlaqi aspektləri vardır. O, maddi və mənəvi həyatın bir çox tərəflərinin, istehsalın və ictimai şüurun, davranış və mənəviyyatın inkişafı ilə əlaqədardır. İnsan şəxsiyyəti nəinki əməkdə, eləcə də başqa adamlara, kollektivə, əxlaqi sərvətlərə, incəsənətə, ədəbiyyata, təbiətə münasibətdə də təzahur edir.

Şəxsiyyət – konkret tarixi münasibətlərin məhsulu və aparıcısı kimi çıxış edən, özünün şüuru ilə onlara təsir göstərən, əmək, sosial-siyasi fəaliyyətinə və cəmiyyətdə tutduğu mövqeyə görə fərqlənən, öz üzərinə sosial funksiyalar götürən və bu funksiyaları icra edən insandır.

Şəxsiyyətin ictimai-siyasi fəaliyyətindən adətən siyasi hakimiyyətin subyektləri olan monarxlar, qanunvericilik orqanları, siyasi liderlər, siyasi partiyalar, hakimiyyətin idarəedici orqanları öz mənafeləri üçün istifadə etmişdir.

Cəmiyyətin yeni-yeni inkişaf mərhələlərində şəxsiyyət bəşəriyyətin tərəqqisi naminə mübarizə apararaq, yeni məzmun əldə edir, onun fərdliyi xeyli zənginləşir, yaradıcılıq imkanları daha da artır. Şəxsiyyətin müəyyən xüsusiyyətlərinin formalaşmasında əməyin təşkilinin, siyasi münasibətlər sisteminin, cəmiyyətin mənəvi həyatının, yeni nəslin tərbiyə sisteminin rolu böyükdür.

İnsan probleminin mühüm tərəfi – ləyaqətli şəxsiyyət tərbiyə edilməsi yollarından ibarətdir. Belə şəxsiyyət formalaşdırmaq üçün adamların tərbiyə edilməsi şəraitini dəyişdirmək lazımdır ki, bu da öz növbəsində ictimai münasibətlərin əsaslı surətdə dəyişdirilməsini tələb edir.

Mövcud ictimai münasibətlər fərdlərin formalaşmasına həlledici təsir göstərir.

Digər tərəfdən, cəmiyyət özü konkret adamlardan, fərdlərdən ibarətdir ki, bunların da hər birinin öz şüuru və iradəsi vardır. Onlar öz arzu və səylərinə müvafiq olaraq davranır və fəaliyyət göstərir ki, bunların da çulğaşması ictimai həyatı, tarixi yaradır.

Deməli, cəmiyyət müəyyən münasibətlərdə olan adamlardan ibarətdir; o həmişə tarixən konkretdir və onu adamlardan ayrılıqda mövcud olan bir şey kimi nəzərdən keçirmək olmaz. İnsan və ictimai münasibətlər bir-birilə qırılmaz vəhdət təşkil edir.

Şəxsiyyətin modelləri. Qərb politologiyasında şəxsiyyətin bir sıra modelləri tədqiq olunubdur:

1. Tabeetmə modeli. Bu model XVII əsr ingilis filosofu T.Hobbs tərəfindən irəli sürülmüşdür. O, hesab edirdi ki, şəxsiyyət xudbin, uzağı görməyən, daim hakimiyyətə can atan mövcudatdır. Bu modelin tərəfdarlarının fikrincə səriştəli azlığın çoxluq üzərində hakimiyyəti vacibdir. Bu, cəmiyyətin inkişaf qanunauyğunluqlarının təbii şərti kimi qəbul edilir.
2. Siyasətdə şəxsiyyətin ikinci modeli – «Mənafe» modelidir. Bu model A.Smit və H.Spenser tərəfindən tədqiq olunmuşdur. «Mənafe» insanları hərəkətə gətirən, onları ayıran və birləşdirən psixoloji mexanizmdir. İnsan yalnız özünün mənafeyinə cavab verən işlə məşğul olur. «Mənafe» modeli müasir nəzəriyyələrdə geniş tədqiq olunubdur. Bu model ifrat sağların, neokonservatorların, sol radikalların və liberalların doktrinalarında istifadə olunur. Burada şəxsiyyət siyasəti idarə edən fəal varlıq və subyekt kimi təqdim olunur. Mənafe modelini təqdim edən müəlliflər öz vəzifələrini dövlətin hakimiyyətindən, onların institutlarından hər bir fərdi müdafiə etməkdə görürlər. «Mənafe» modelinin tərəfdarlarının siyasi təfəkkürünə görə iki növ ziddiyyət mövcuddur: Birinci: - «fərd» və «cəmiyyət» arasında. Bu şəraitdə «fərd» fəal tərəf kimi çıxış edir. Cəmiyyət isə mücərrəddir. İkincisi: - «cəmiyyət» və «dövlət» arasında. Bu halda dövlət fərdlərin mənafelərinə əks çıxır, onların hüquqlarını tapdalayır, sərt mərkəzləşmiş hakimiyyət yaradır.
3. Plyuralizm nəzəriyyəsi modeli. Siyasətin bu modelinə görə aparıcı rolu ümumi mənafedən çıxış edən qruplar və siyasi partiyalar oynayır. Bu partiyalara daxil olan fərd siyasi prosesdə fəal iştirak edə bilər. Bu modelə əsasən müxtəlif partiyalar öz sıralarına tərəfdarlar toplamaq üçün özlərini reklam etməli və öz aralarında rəqabət aparlmalıdırlar.

Şəxsiyyətin siyasətə təsiri. Şəxsiyyət siyasi fəaliyyətin subyekti kimi çıxış edərək və ictimai şəraitdən asılı olaraq siyasətə təsir göstərir: Əvvələ, əgər sosial-iqtisadi və siyasi şərait şəxsiyyət üçün imkan yaratsa və bu imkanı məhdudlaşdırarsa; İkincisi, dünyagörüşünün formalaşması, ictimai həyatın qanunauyğunluqlarının dərk edilməsi, siyasi fəaliyyətin qanunauyğunluqlarının başa düşülməsi; Üçüncüsü, insan mütləq müəyyən bir sosial qrupun, sinfin, siyasi partiyanın tərkibində siyasi fəaliyyət göstərməlidir, ona görə ki, başqa cür o, siyasətə səmərəli təsir göstərə bilməz; Dördüncüsü, şəxsiyyətin siyasətə təsirini

gücləndirmək üçün müəyyən əsas cəhətləri nəzərə almaq lazımdır: müasir şəraitə uyğun olaraq şəxsiyyətin sosial statusunu artırmaq; kütlələrə arxalanmaq; sosial ədalətin bərqərar olması; yaradıcı əməyin yüksəldilməsində şəxsiyyətin bilavasitə iştirakını təmin etmək. İctimai həyatda insan üçün elə şərait yaradılmalıdır ki, o, siyasi fəaliyyətinə görə dövlət orqanları tərəfindən təqib olunmasın, onda cəmiyyətdən uzaqlaşdırılma qorxusu yaranmasın.

Şəxsiyyətin siyasətə təsiri ən əvvəl onun şəxsi mövqeyindən və siyasi fəallığından asılıdır.

Siyasi cəhətdən fəal o şəxsdir ki, o, siyasi partiya və hərəkatların işində fəal iştirak etsin. Qeyd etmək lazımdır ki, müasir dünyada baş verən dəyişikliklər dövründə kütlələrin siyasi fəallığı xeyli artmışdır.

Siyasi fəallıq hər hansı partiya üzvünün, ayrı-ayrı siyasi partiyaların, təşkilatların, hərəkatların əsas əlamətidir. Siyasi fəallığın artırılmasında əsas amillərdən biri onların siyasi aksiyalarda, mitinqlərdə, nümayişlərdə və seçki kampaniyasında iştirakıdır.

Şəxsiyyətin siyasətə təsiri formaları aşağıdakılardır:

- Hakimiyyət orqanlarının keçirdiyi seçkilərdə iştirak etmək;
- Siyasi partiyalarda, ictimai təşkilat və hərəkatlarda fəaliyyət göstərmək;
- Müxtəlif siyasi aksiyalarda: yığıncaq, mitinq, nümayiş və tətillərdə iştirak etmək;
- Kütləvi informasiya vasitələrinin işində iştirak etmək: təbliğat, təşviqat işi aparmaq;
- Siyasi fəaliyyətin bütün praktiki işlərində, siyasi hakimiyyətin möhkəmləndirilməsi və ya devrilməsi işində iştirak etmək.

Siyasətdə ictimai və fərdi məsələlərin dialektik vəhdətinin obyektiv və subyektiv tərəfləri vardır. Obyektiv tərəf kimi elə əlaqələr çıxış edir ki, onlar ayrı-ayrı adamların iradəsindən asılı olmayaraq, onların siyasi fəaliyyətinə nəzarət edən əlaqələr kimi çıxış edirlər.

Subyektiv tərəf dedikdə fərdlərin bir-birinə olan şüurlu münasibəti başa düşülür. Bunlara adətən konkret qruplar, sosial şəxsiyyətlərarası münasibətlər aiddir. Siyasətdə sosial və fərdiliyin vəhdəti fərdin fəaliyyəti, cəmiyyətdə və sosial qrupda bu fəaliyyətin nəticəsində baş verən dəyişikliklər və bu dəyişikliklərin fərdlərə qarşılıqlı təsiri nəticəsində yaranır. Bunlar öz növbəsində yeni sosial münasibətlərin yaradılmasına gətirib çıxarır.

Bu sosial-siyasi münasibətlər sosial qrup və fərdlər arasında güclü və sabit əlaqələr yaradır.

Adamlardan ayrılıqda cəmiyyət mövcud olmadığı kimi, ictimai münasibətlərdən kənarda da adamlar mövcud deyildir. Fərd həm bütün ictimai inkişafın və həm də onun nəticəsinin ilkin şərtidir.

İnsan müəyyən ictimai münasibətlər məcmusunu özünün fərdi keyfiyyətləri və xüsusiyyətləri prizmasından keçirərək mənimsəyir.

Fərd öz fəaliyyəti və fəallığı sayəsində şəxsiyyətə çevrilir.

Konkret – tarixi varlıq olmaq etibarilə şəxsiyyət bir tərəfdən müəyyən ictimai münasibətlərin, digər tərəfdən isə şəxsləşmiş və eyni zamanda ictimai əhəmiyyət kəsb edən sosial keyfiyyətlərin daşıyıcısı kimi çıxış edir.

Şəxsiyyətdən bəhs edərkən onun sosial münasibətlər daşıyıcısı, bu və ya digər sinfə, sosial qrupa, millətə, cəmiyyətə mənsubiyyəti nəzərdə tutulmalıdır. Hər bir ictimai-iqtisadi formasiya öz şəxsiyyət tiplərini yaradır.

Müasir şəraitdə  şəxsiyyətin sosial tipləri məsələsi əvvəlkinə nisbətən getdikcə daha mürəkkəb olur. Cəmiyyətin əsas siniflərinin mövqelərində yaxınlaşma baş verdiyi üçün sosial davranışın sinfi mahiyyəti zəifləşmişdir. Sosial tiplərin formalaşmasına mədəni səviyyədə, vətəndaşlıq şüurunun yetkinliyi dərəcəsində olan fərqlər, fərdi davranışın əxlaqi əsasları daha mühüm təsir göstərir.

Adamların antisosial davranışına gətirib çıxaran başlıca səbəblər – adamların əməkdən, hakimiyyətdən və mədəniyyətdən yadlaşmasından, zəif iqtisadiyyatdan, bölgü prinsipinə düzgün əməl edilməməsindən, bürokratizmin və s. neqativ halların artmasından ibarətdir. Obyektiv şərait və fərdi davranışlar arasında əlaqə daha mürəkkəbdir. Odur ki, bu və ya digər davranış üçün məsuliyyəti şərait üzərinə qoymaq düzgün deyildir. Bu məsuliyyət, qeyd edildiyi kimi, həmişə şəxsiyyət üzərinə düşür. İnsan öz hərəkətlərinə, öz davranışlarına görə cavabdehlik daşıyır.

Ayrı-ayrı davranışlardan ictimai inkişafın müəyyən meyli - cəmiyyət və şəxsiyyətin qarşılıqlı münasibəti meyli meydana çıxır.

Yüksək mənəvi və əxlaqi keyfiyyətlərə malik şəxsiyyətin formalaşması insan tərbiyəsinin mühüm vəzifəsi olaraq qalır.

Şəxsiyyətin siyasi tipologiyası. Hər bir şəxsiyyət təkrar olunmaz xüsusiyyətlərə malikdir, çünki o, tipik olanla fərdi olanın dialektik vəhdətidir.

Ayrı-ayrı adamların fəaliyyətində, davranışında uyğun cəhətlər də vardır. Məhz ona görə də, şəxsiyyətin siyasi tipologiyasını aydınlaşdırarkən, insanları uyğun, oxşar sosial cəhətlərinə görə qruplara

ayırmaq olar ki, bu da adətən şəxsiyyətin sosial tipləri ilə ifadə edilir. Şəxsiyyətin sosial tipi insanın müxtəlif fəaliyyət növlərini həyata kecirmək üsuludur və o, fərdin sosial qrupa münasibətini ifadə edir.

Qeyd etmək lazımdır ki, tarixən ictimai formasiyalara xas olan şəxsiyyət tipləri mövcud olmuşdur. Məsələn, qul və quldar, təhkimli və feodal, proletar və burjua. Bunlar sinifli cəmiyyətlərdə bir-birinə əks olan şəxsiyyət tipləridir.

Şəxsiyyətin cəmiyyətlə əlaqələrinin xarakteri, yəni konkret siyasi fəaliyyəti onun həqiqi mahiyyətini üzə çıxarmağa imkan verir.

Beləliklə, şəxsiyyət siyasi fəaliyyətin həm subyekti və həm də obyektidir.

## *2. Siyasi liderlik*

Liderlik («lider»- inglis dilindən tərcümədə «aparıcı», «rəhbər» mənasını verir) qrupun rəhbərlik iddiasında olan və ya bu funksiyanı yerinə yetirən fərd ətrafında birləşməsini təmin edən inteqrasiya mexanizmidir. Ümumiyyətlə liderlik bəşər cəmiyyətinin bütün formalarına və eyni zamanda bütün təsisat və təşkilatlara xasdır. Tarixdə liderlik haqqında təsəvvürlər dövlət, hakimiyyət və siyasət haqqında təsəvvürlərdən əvvəl formalaşmışdır. Qədim mifoloji və fəlsəfi təlimlərdə rəhbərlərə və liderlərə xas olan qeyri-adi keyfiyyətlər şərh edilir. Məsələn, Misir fironları bir qayda olaraq adi döyüşçülərdən bir neçə dəfə böyük təsvir edilirdi. Antik mütəfəkkirlərdən Herodot, Plutarx və başqaları tarixin inkişafını o dövrün liderləri olan monarxların, sərkərdələrin fəaliyyəti ilə əlaqələndirirdilər.

Liderliyin mahiyyəti haqqında N.Makiavellinin təlimi diqqəti xüsusilə cəlb edir. Onun fikrincə, lider rolunu hakimiyyəti əldə, insanları isə itaət altında saxlamaq üçün bütün vasitələrdən istifadə etməyi bacaran hökmdar oynaya bilər. Belə bir liderin siyasi davranışında qəddarlıqdan tutmuş insanları aldatmağa qədər çox müxtəlif üsullar eyni uğurla tətbiq edilə bilər.

Fransız mütəfəkkiri Q.Karleyl (1795-1881) tarixi böyük şəxsiyyətlərin fəaliyyətinin nəticəsi hesab edərək göstərirdi ki, insanların böyük əksəriyyəti «fağır və aciz olduğundan» liderlərin istiqamətverici təsiri olmadan yaşamağa qadir deyillər.

Liderlik nəzəriyyəsinin inkişafında alman filosofu Fridrix Nitsşenin (1844-1890) ali bioloji tip-fövqəlinsan haqqında konsepsiyasının xüsusi rolu olmuşdur. Nitsşe yazırdı: «Bəşəriyyətin məqsədi onun ali təmsilçilərində ifadə olunur. Bəşəriyyət yorulmadan çalışmalıdır ki, böyük insanlar tərbiyə etsin. Onun vəzifəsi yalnız bundan ibarətdir». Böyük insanların yaradıcılıq instinkti hakimiyyət ehtiraslarında təzahür edir. Bu cür şəxsiyyətlər üçün əxlaq normaları mövcud deyil, çünki əxlaq zəiflərin silahıdır. O, digər insanlardan bir çox keyfiyyətləri ilə fərqlənir. Adi insanla meymun arasında fərq nə qədərdirsə, fövqəlinsanla adi insan arasında da fərq o qədərdir. Fövqəlinsan bioloji növ kimi insanın təkamülünün yuksək pilləsini əks etdirir. Bu da onun liderlik haqqında təsəvvürlərinin Darvinin təkamül nəzəriyyəsinin təsiri altında formalaşdığını göstərir.

Avstriya psixiatrı Z.Freydin (1856-1934) təlimində liderlik hadisəsinin səbəbləri psixoanaliz mövqedən araşdırılır. Onun fikrincə, sivilizasiyanın inkişafı insanın təhtəlşüur ehtiraslarının nəticəsidir. «Sosial-mədəni» mühit instinktləri boğur, instinktlərin yaratdığı impulsların şüura daxil olmasının qarşısını alır. Lakin «psixi enerji» kütləsi sönmür və reallaşmaq üçün dolayı yollar axtarır. Belə bir hal insanın əsəbi, nevroz vəziyyətə düşməsinə səbəb olur. Təsadüfi deyil ki, böyük şəxsiyyətlərin çoxu nevrotik (əsəbi xəstə) olmuşdur. Onların instinktləri sırasında başqaları üzərində ağalıq etmək ehtirası üstün rol oynayır.

Marksizım nəzəriyyəsində liderlik hadisəsinə münasibət tamam başqadır. İctimai tərəqqini tarixi zərurətin və sinfi mənafelərin reallaşmasının nəticəsi kimi nəzərdən keçirən bu təlim böyük şəxsiyyətlərin rolunu lazımınca qiymətləndirmir. Bu nəzəriyyəyə görə siyasi lider sinfi mənafelərin və sinfi iradənin olsa-olsa ardıcıl və səriştəli ifadəçisidir.[2]

Amerikalı alim Sidni Xuk «Tarixdə qəhrəman» monoqrafiyasında siyasi lideri fetişləşdirir, onu xalqdan, sinifdən azad hesab edir. Onun fikrincə, ikinci dünya müharibəsi kapitalizmin böhranı nəticəsində deyil, Hitlerin qəzəbli iradəsinin nəticəsində baş vermişdir. «Qəhramana pərəstiş uşaqlıqdan yetişir»,- deyən Freydin bu məşhur kəlamını təkrar edən Xuk yazır ki, kütlə içərisində insan heç vaxt asılılığdan qurtarmır. O, əvvəlcə valideyinlərindən, sonra müəllimlərindən, daha sonra isə aparıcı rol oynayan, onun suallarına cavab verə bilən daha başqasından asılı olur. Buna görə də kütlə həmişə ailədə atanın rolunu oynaya biləcək bir rəhbər axtarır.

Fransanın görkəmli dövlət xadimi De Qollun fikrincə, «insanlar yemək və su kimi, lidersiz də keçinə bilməzlər». Qərb alimlərinin tədqiqatlarında liderliyin əsaslandırılmasının mühüm üsullarından biri onun psixoloji cəhətdən izah edilməsidir. Onlar göstərirlər ki, ictimai həyatın əsasında insan psixikası durur. O,

---

[2] Həsən Şirəliyev, Əli Əhmədov. Politologiya. Bakı., «Təbib», 1997, s. 115-116.

ilkindir, sosial həyatın digər hadisələrinə münasibətdə müəyyənedicidir. Təbiətcə insan fərdiyyətçi və mülkiyyətçidir, onun hakimiyyət iradəsi vardır. Freydin ardıcılları göstərirlər ki, liderlik müəyyən müdaxilə növüdür, o, nevrozun, manikal paranoyanın nəticəsidir. Tarixdə əsəbi liderlər doğrudan da olmuşdur. Napoleon, Linkoln, Robespyer, Ruzvelt, Puankare, Hitler, Stalin və s. buna gözəl misaldırlar. Freydçilərə görə, cəmiyyət yaradcılıq imkanı olmayan psixi cəhətdən normal və manyak, psixopat olan liderlərə bölünür. Onların fikrincə, liderlər uşaqlıqdan meydana gələn çatışmazlıqarı liderlik uğrunda mübarizə aparmaqla və bu yolla özlərini təsdiq etməklə aradan qaldırmağa çalışırlar.

Bu baxımdan, Makiavellinin yaratdığı hökmdar-lider obrazı diqqəti cəlb edir. Onun qəhramanı öz siyasi məqsədlərinə çatmaq üçün hər cür vasitələrə əl atır.

Politologiyada siyasi liderlik problemi ilə əsaslı surətdə məşğul olan M.Veber liderliyin üç əsas tipini ayırırdı:

1. Ənənəvi liderlik. Liderlik hüqüqu, elitaya mənsub olmaq, ənənələrin müqəddəsliyinə inam bu tipin əsas əlamətləridir.
2. Harizmalı lider. Ona xas olan başlıca keyfiyyətlər rəhbərin qabiliyyətinə hədsiz inam, onun əlahiddəliyi və şəxsiyyətə pərəstişdir.
3. Rasional-leqal lider. Bu tip mövcud quruluşun qanuniliyinə olan inama əsaslanır, o, bürokratik liderlikdir, müəyyən dövlət funksiyasının agentidir.

Veber harizmalı liderə üstünlük verir. Veber üçün harizma şəxsiyyətin fövqəltəbii xüsusiyyətləridir. Məhz onlar kütləni tabe etməyə və itaətdə saxlamağa imkan verir. O, «allah vergisidir», lider olmaq istedadıdır. Bu cür lider peyğəmbər də ola bilər, qəhraman və siyasətci də. Veber onu şəxsiyyətin təntənəsi adlandırır. Onun inamınca, rəhbəri passiv və kor kütlə seçmir, o özü kütləni ona xidmət etməyə məcbur edir. Ona tabe olmaq, hədsiz inam onun müraciət etdiyi hər bir kəsin borcudur. Bu cür inam harizma tipli hakimiyyətin legitimləşdirilməsi üçün əsasdır.

Veberin fikrincə, müasir dövrün harizmalı lideri hər cür vasitələrlə kütlənin etibarını qazanan demaqoq siyasətcidir.

Nəsirəddin Tusi «Əxlaqi-Nasiri» əsərində siyasi liderlik üçün zəruri olan keyfiyyətlərdən bəhs edərək «Ölkə dolandırmaq və şahların xisləti haqqında» fəsildə yazırdı ki, ölkə sahibi olmaq istəyənin yeddi xisləti olmalıdır:

Birinci - atalıq. Bu, hər kəsin özünə görə münasibət, xalqın ürəklərinə yol tapmaq, hamıya mehribanlıq göstərmək, hirs və qəzəbini uda bilmək vasitəsi ilə asanlıqla əldə edilə bilər.

İkinci – alicənablıq. Bu nəfsani qüvvələri tərbiyə edib saflaşdırdıqdan, «qəzəb» qüvvəsini mülayimləşdirdikdən, «şəhvət» qüvvəsini məhv etdikdən sonra əmələ gələr.

Üçüncü – mətinlik. Bu qəti nöqteyi-nəzər, fitri-iradə, dərin mühakimə, ciddi mübahisə, düzgün fikir, böyük təcrübə və keçmişdəkilərin tərcümeyi-hallarından ibrət dərsi götürməklə əmələ gəlir.

Dördüncü – tam əzm. Buna kişilik əzmi, şahlar əzmi də deyilir. Bu düzgün rəy və tam iradənin birləşməsindən əmələ gələn mürəkkəb bir fəzilətdir. Heç bir fəzilətə sahib olmaq, heç bir fəzilətdən can qurtarmaq bu fəzilətsiz mümkün deyil. Bu fəslin əsas məqsədi də məhz bu fəzilətin məziyyətlərindən danışmaqdır, çünki şahların hamıdan çox buna ehtiyacı vardır…

Beşinci – səbirli olmaq. Bu, ağır və çətin günlərdə, ümidsiz anlarda, çıxılmaz vəziyyətdə davam gətirə bilməyə deyilir, bütün mətləblərin açarı səbrdir deyiblər…

Altıncı – var-dövlət. Bu, xalqın malına göz dikməmək, və tamah salmamaq üçün lazımdır.

Yeddinci – sadiq və əməlisaleh köməkçilər. [3]

Cəmiyyətin siyasi sistemindəki mürəkkəb və ziddiyyətli proseslər, müxalifətçi təşkilatların və digər hərəkatların siyasi fəallığı siyasi liderlik problemini ön plana çəkir. Siyasi liderlik insanlar və sosial qruplar arasında cəmiyyətdaxili münasibətləri nizamlayan mexanizmdir. Onun mahiyyətini rəhbərlik və tabeçilik, təsir etmək və ya özünün ardınca aparmaq kimi cəhdlər təşkil edir.

Siyasi liderliyin obyekti və subyekti mövcuddur. Obyektə aşağıdakılar daxildir: millətlər və xalqlar, sosial qrup və təbəqələr, professional və demoqrafik qruplar, liderliyin subyektinə isə siyasi partiya və qruplar, həmçinin ayrıca fərd, daxildir.

Siyasi liderliyin aşağıdakı növləri vardır: avtoritar, totalitar, liberal və demokratik.

Avtoritar (lat: hakimiyyət, nüfuz) – siyasi hökmranlığın antidemokratik sistemidir.

Totalitar liderin səciyyəvi cəhəti hakimiyyətin bir qrupun, partiya və fərdin əlində cəmləşməsidir.

Totalitar sistemi yaradan amillər: bir partiyanın hökmran olması, seçki sisteminin antidemokratik olması, yadfikirliliyin olmaması, ən başlıcası isə subyektivizm və volyuntarizmdir.

---

[3] Bax: Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri, Bakı, «Elm», 1989, səh. 209-210

Totalitar liderin səciyyəvi xüsusiyyətləri liderin hakimiyyətdən bayağı və qeyri-məhdud istifadə etməsidir.

Liberal lider şəxsi proqramı olmayan, məsuliyyətsiz çıxışlar edən və tez-tez bir ideoloji platformadan digərinə sıçrayan şəxsiyyətdir. Lider özünün qabiliyyətindən asılı olaraq alternativliyi ya dərk edir, ya da sadəcə təsəvvür edir, özünün mənəvi prinsiplərini rəhbər tutur, öz məqsədinə çatmaq üçün bacardığı vasitələrdən istifadə edir. Heç bir lider öz məqsədinə sıravi vətəndaşların rəğbətini qazanmadan nail ola bilməz. Lider öz fəaliyyəti və kütlələrə mənəvi təsir qüvvəsi ilə həm cəmiyyətin sosial-siyasi həyatını ləngidə, həm də sosial-siyasi həyatdakı çətinlikləri aradan qaldıra bilər.

Demokratiya – xalq hakimiyyətinin dövlət forması, cəmiyyətin siyasi təşkili qaydasıdır.

Siyasi liderin nüfuzu və populyarlığı onun xalq arasında qazandığı hörmətdən və nə dərəcədə məhşur olmasından asılıdır. İnsanlar liderin fəaliyyətinə rəhbərlik etdiyi müddətdə sosial, iqtisadi və siyasi sahədə gördüyü işinin nəticələrinə görə qiymət verirlər. Əhalinin geniş kütlələrinin fikrincə liderin seçilməsi sinfi mövqelərinə və partiyaların proqram vədlərinə görə aparılmamalıdır. Siyasi lider xalqın arzusu və rəyi nəzərə alınmaqla referendumla seçilən şəxsiyyət olmalıdır.

Beləliklə, yüksək mənəvi cəhətlərə malik olan, dövlət hakimiyyətini ədalətli idarə edən, vətəndaşların hüquq və mənafeyini qoruyan subyektə siyasi lider deyilir.[4]

N.Tusi siyasət və onu həyata keçirməyi bacaran istedad sahibi olan adamların, siyasi liderlərin səciyyəvi xüsusiyyətlərindən bəhs edərək «Əxlaqi - Nasiri» əsərində yazırdı ki, ölkə siyasətinin camaat siyasətilə əlaqəsi, aşağıda deyəcəyimiz kimidir.

Qeyd etmək lazımdır ki, siyasət bəzən qərari işlərə, məsələn, müqavilələr, sazişlər kimi; bəzən əqli hökmlərə, məsələn, ölkə, şəhər idarəetmə kimi məsələlərə aid olur.

Dərrakə, fəzilət və mərifətdə xüsusi istedadı olmayan bir adam bu iki iş növünün heç birinə başlamamalıdır, çünki şəraiti öyrənmədən, onun tələbatını bilmədən bunlardan birini o birisindən qabağa salmaq dava-dalaşa və ixtilafa səbəb olar.

Deməli, şəraitin nə tələb etdiyini müəyyənləşdirmək üçün elə bir şəxsiyyətə ehtiyac var ki, o ülvi bir ilhama malik olmaqda başqalarından fərqlənsin, qalanlar onu təqlid etsin. Qədim alimlərin ifadəsi ilə belə adamlara «qanun sahibi» və onun qanunlarına «ilahi namus» (ilahi qanun-R.S.) deyilərdi, mühəddislər ona «şare» (şəriət gətirən-R.S.), onun qanunlarına isə «şəriət» deyirlər.

Əflatun özünün «Siyasət» kitabının beşinci məqaləsində belə adamlara işarə edərək demişdir: «Bunlar qüvvətli, böyük və fövqəladə adamlardır».

Aristatalis demişdir: «Onların qeybdən xəbərləri var, möcüzə sahibidirlər».

Əqli hökmələrə gəldikdə, burada da elə bir adam lazımdır ki, o da allah vergisində başqalarından üstün olsun, qalanları öz dalısınca apara bilib təkmilləşdirə bilsin. Qədimdə bunlara «hakimi mütləq» deyərdilər, onun hökmlərini isə «hakimlik sənəti» adlandırardılar: mühəddislər bunlara «imam», işlərinə isə «imamlıq» deyirlər: Əflatun onları dünya tədbir tökənləri, dünya müdrikləri adlandırmışdır.

Aristatalis isə onlara ictimai xadim, yəni ictimaiyyətin varlığı, onun kimilərin xidmətinə möhtac olan adam adı vermişdir.

Bəzi filosofların istilahında birinci şəxsə «natiq», ikinci şəxsə isə «əsas» deyilmişdir. Bu məsələni də xatırlatmaq lazımdır ki, burada «hakim», «hökmdar» sözündən məqsəd o adamın böyük həşəmətə və ya məmləkətə sahib olması o deməkdir ki, ölkədə onun haqlı hökmləri yerinə yetirilir; ola bilər zahirdə ona heç məhəl də qoymasınlar.

Yeri gəlmişkən onu da deyək ki, hər dövr, hər zamanda hökmdara ehtiyac yoxdur: əhali arasında nizam-intizam olsa, bu uzun müddət onlara bəsdir. Lakin bütün dövrlərdə müdrik bir rəhbərə, tədbir sahiblərinə ehtiyac vardır: tədbir olmasa, nizam-intizam aradan qalxar, insan cəmiyyəti lazım olduğu kimi inkişaf etməz.

Başçı (müdəbbir) qayda-qanunu mühafizəyə çalışmalı, xalqı nizam-intizama dəvət etməlidir, bunun üçün ona zamanın tələbinə, vaxtın hökmünə uyğun olaraq qanunlarda lazımi dəyişikliklər aparmaq ixtiyarı verilməlidir.[5]

Nəsirəddin Tusi «Əxlaqi-Nasiri» əsərində ədalətliliyi, xeyirxah və iradəli olmağı, tamahkarlıq və şöhrətpərəstlik düşkünü olmamağı siyasi liderlik, hökmdarlıq üçün zəruri şərt hesab edərək yazırdı ki, əksər dövlətlər xeyirxah və iradəli başçıları, ədalətli hökmdarları olduqca, müttəfiqlik şərtləri yerinə yetirildikcə yaşamış və inkişaf etmişlər.

Dövlətin inkişafdan dayanması və inhitata uğramasının bir səbəbi də hökmdarların mal toplamağa, sərmaya yığmağa, vəzifə tutmağa aludə olmalarıdır. Dövlət düşkünlüyü get-gedə bunların artmasını tələb

---

[4] Bax: Politologiya. Bakı, AMTU, 1991, səh. 57-58.

[5] Bax: Xacə Nəsirəddin Tusi. Əxlaqi Nasiri. Bakı., «Elm», 1989,s.176-177.

edər. Elə ki, öyrəşdilər, adətkarda oldular (hər halda kəmağıllar tapılar və belə şeylərə rəğbət göstərirlər), bu xasiyyət başqalarına da sirayət etməyə başlayar, onlar da öz əvvəlki təbiətlərini dəyişdirib varlanmağa, müxtəlif yollarla mal toplamağa, eyş-işrətlə məşğul olmağa həvəslənərlər, silahları yerə qoyar, müdafiə qüvvəsini zəiflədər, döyüş vərdidişlərini unudar, zəhmətsevərliyi əldən verər, rahatlıq axtaran, yeyib yatan, ətalət əsiri olan tənbəllərə çevrilərlər.

Belə halda zəif bir düşmən də onlara hücum etsə, bu camaatı məğlub etmək ona asan olar. Bunsuz da mal-dövlət onların gözlərini tutar, təkəbbür, mənsəb, lovğalıq, qürrə və qüvvə onları qudurdar, ixtilaf münaqişə və müharibələr meydana çıxar: bir – birini məhv edərlər.[6]

Ümumiyyətlə «siyasi liderlik» anlayışının «hakimiyyət» və «nüfuz» kateqoriyalarının nisbəti vasitəsilə nəzərdən kecirilməsi diqqəti cəlb edir. Ümumi mənada bu kateqoriyaların mahiyyəti birgə fəaliyyət prosesində adamlar, sosial qruplar və təsisatlar arasında münasibətdən ibarətdir ki, bu zaman bir tərəf o biri tərəf üzərində öz iradəsinin üstünlüyünü təmin edir. Birinci halda buna inandırma və məcbur etmə vasitəsilə, ikinci halda isə kütlələr tərəfindən rəhbərə, idarə orqanlarına etimad göstərilməsi və onların müdafiə edilməsinə əsaslanan yalnız inandırma və mənəvi təsir vasitəsilə nail olunur.

Hakimiyyət və nüfuzun fərqi və eyni zamanda oxşarlığı onların idarəetmə funksiyalarını necə təmin etmələri ilə üzvi surətdə bağlıdır. Nəticə etibarilə hakimiyyət nüfuza əsaslanmalı və onunla birləşməlidir. Səmərəli siyasi rəhbərlik metodu nüfuza əsaslanmaqla, onun köməyi ilə xalqın mənafeyini ifadə etməklə həyata keçirilə bilər. Cəmiyyətdə dövlət quruluşunun və idarəetmə üsulunun dəyişilməsi yalnız idarəetmə metodlarının deyil, eyni zamanda hakimiyyət nüfuzunun əsaslı idarə olunanlar tərəfindən idarə edənlərə göstərilən etimad dərəcəsi, yeni hakim təbəqələrin fikir və davranışının düzgünlüyünə kütlələrin inamı dərəcəsi təşkil edir. İnam dərəcəsi isə məlum olduğu kimi, adamların mövcud qaydalar və onun qanunları ilə təmasda hər gün müntəzəm olaraq rast gəldikləri hakimiyyət fəaliyyətinin səmərəliliyindən asılıdır. Hakimiyyətin nüfuzu eyni zamanda onun xalqa etimad göstərməsindən asılıdır.

Müasir dövrdə siyasi liderlik problemi diqqəti cəlb edən problemlərdən biridir. Ümumiyyətlə hər bir ictimai hərəkat üçün başlıca cəhət şəraitin müəyyən edilməsidir. Bu onunla izah edilir ki, hərəkat iştirakçılarının fəaliyyəti mövcud şəraiti dərk etmələrindən və ona qiymət vermələrindən asılıdır. Bu və ya digər şəxsiyyətin öz mövqeyi və ya nəzərdə tutulan fəaliyyəti baxımından şəraiti müəyyən etmək qabiliyyəti liderliyin meydana çıxması üçün mühüm şərtdir. Yaranmış şərait müəyyən çoxlu adamlar qrupu üçün əhəmiyyət kəsb etdikdə liderlik meydana çıxır. Kiçik qruplarda, bir qayda olaraq, liderlik qeyri-formal xarakter daşıyır. Böyük və mütəşəkkil qruplarda adətən liderliyin formal strukturları mövcud olur. Siyasi birlik liderliyinin strukturu hökumətdən ibarətdir.

Siyasi liderliyin meydana çıxmasında ictimai-siyasi hərəkatların da rolu böyükdür. Məlum olduğu kimi, tarixdə ictimai-siyasi hərəkatlar çox böyük rol oynamış və oynamaqdadır. Bu hərəkatlar ölkədə cəmiyyət üzvlərinin böyük çoxluğu üçün zəruri şəraitin olmaması və bu şəraitin yaxşılaşdırılması üçün imkan olduğu halda siyasi hakimiyyət tərəfindən onun həyata keçirilməməsi nəticəsində baş verir. İctimai-siyasi hərəkatlar zamanı bu hərəkatların liderləri meydana çıxır. Bu liderlər mövcud hakimiyyət tərəfindən müdafiə edildikdə sosial hərəkat formalaşmağa başlayır. Hərəkat başlanarkən, adətən ona istiqamət vermək üçün təşkilat meydana çıxır və beləliklə bu hərəkata qeyri-formal liderlər kimi rəhbərlik edənlər həmin təşkilatın tanınmış liderləri olur.

Beləliklə, müasir dövrdə cəmiyyətdə baş verən və demək olar ki, ictimai həyatın bütün sahələrini əhatə edən mürəkkəb sosial, siyasi proseslər şəraitində subyektiv amilin, siyasi liderliyin rolu xususi əhəmiyyət kəsb edir.

[6] Bax: Yenə orada, s.211.

## 6-cı MÖVZU

## SİYASİ HAKİMİYYƏT

### *1. «Siyasi hakimiyyət» anlayışının mahiyyəti və məzmunu*

«Hakimiyyət» anlayışı çoxmənalı xarakterə malikdir. Təbiətşünaslar təbiət qüvvələri üzərində hakimiyyətdən, filosoflar obyektiv ictimai qanunların hakimiyyətindən, hüquqşünaslar dövlət hakimiyyətindən, psixoloqlar insanın öz üzərində hakimiyyətdən və s. danışırlar. Siyasət isə öz əksini siyasi hakimiyyətdə tapır. Siyasi hakimiyyətin ələ alınması və onun qorunub saxlanması uğrunda mübarizə cəmiyyətin siyasi həyatının əsas aspektlərindən birini təşkil edir. Hakimiyyət ictimai əməyin təşkili, habelə cəmiyyətdə insanlararası birgə yaşayışla bağlı digər qarşılıqlı münasibətləri tənzim etmək üçün zəruridir. Məhz bunu nəzərdə tutaraq qədim yunan filosofu Aristotel göstərirdi ki, «hakimiyyətin məqsədi cəmiyyətin bütövlüyünü və birliyini təmin etməkdir». Ən qədim dövrlərdən başlayaraq filosoflar hakimiyyət fenomeninin mahiyyətini açmağa cəhd göstərmişlər. Aristotel, Platon, Makiavelli, Hobbs, Lokk, Kant və s. görkəmli mütəfəkkirlər hakimiyyət anlayışına müxtəlif aspektlərdən yanaşaraq onun mahiyyətinə varmağa çalışmışlar. Orta əsrlərin görkəmli ilahiyyatçısı və filosofu, tomizm cərəyanının banisi Foma Akvinalı(1226-1274) «Hökmdarların idarə üsulu» adlı əsərində hakimiyyəti allahın yaratdığı qayda hesab edərək onun mahiyyətini ağalıq və tabeçilik münasibətləri kimi qiymətləndirirdi. Bu fikri inkişaf etdirən H.Morgentaunun qənaətinə görə «hakimiyyət hər hansı bir insanın digər insanların şüuru və hərəkətləri üzərində nəzarətidir». Bu fikrə şərik çıxan P.Blau hesab edir ki, hakimiyyət ayrıca bir fərdin və ya qrupun başqaları üzərində öz iradəsini həyata keçirməsidir.

Yuxarıda deyinlənlərdən belə bir nəticə hasil olur ki, ağalıq və tabeçilik münasibətlərinin təzahür etdiyi, qanunlar və normaların məcmusu ilə hər iki tərəfin davranışı şərtləndirilmiş olduğu halda hakimiyyətdən danışmaq olar. Çünki məhz həmin qanunlar və normalar müəyyən edirlər ki, əmri verən şəxsin əmrin aid olduğu şəxsdən tabe olmağı tələb etmək hüququ vardır. Müasir amerikan politoloqu və iqtisadçısı, idarəetmə nəzəriyyəsinin yaradıcılarından biri olan H.Saymon hakimiyyəti aşağıdakı kimi səciyyələndirir: A - B üzərində o vaxt hakimiyyətə malik olur ki, A – B –nin davranışının şərtləndirsin. Deməli, hakimiyyət nufuz, hüquq və ya güc vasitəsi ilə adamların fəaliyyətinə və davranışına müəyyən təsir göstərmək qabiliyyəti və imkanı deməkdir.

Siyasi hakimiyyətin aşağıdakı aspektlər üzrə izahlarını vermək olar:

1. <u>Teleoloji,</u> yəni məqsəd yönümü üzrə. İngilis filosofu Bertran Rassel yazır ki, «Hakimiyyət qarşıya qoyulmuş məqsədə nail olmaqdır». Teleoloji aspekt hakimiyyət anlayışına çox geniş yanaşır və onu təkcə insanlar arası münasibətlərə deyil, həmçinin insanla onu əhatə edən gerçəkliyə də aid edir. Bu mənada məsələn, təbiət üzərində hakimiyyətdən danışmaq olar.
2. <u>Biheviorist</u> aspekt hakimiyyəti elə bir davranış tipi kimi izah edir ki, bəzi insanlar əmrlər verməklə digərləri isə onu yerinə yetirməklə məşğul olurlar. Biheviorist aspekt hakimiyyətin subyektiv motivlərinə üstünlük verir. İnsan hakimiyyətə həyat tərzinin yaxşılaşdırılması vasitəsi kimi baxır: var – dövlət, azadlıq, nüfuz, təhlükəsizlik və s. H.Lassuel bu münasibətlə yazırdı ki, hakimiyyətin meydana gəlməsinin ilkin impulsları fərdlərə hakimiyyətə gəlmək üçün siyasi enerji (iradə) verir.
3. <u>Psixoloji</u> aspekt hakimiyyətin mənbəyini subyektiv motivlərlə bağlayır. Avstriya psixoloqu Z.Freydin fikrincə insanın psixikasında elə strukturlar vardır ki, onu azadlığı qul olmadıqdan üstün tutmağa vadar edir.
4. <u>Sistemli</u> <u>yanaşma</u> aspekti biheviorist və psixoloji aspektlərin tam əksi kimi çıxış edir. Əgər birincilər hakimiyyətin mahiyyətini aşağıdan yuxarıya doğru (fərddən cəmiyyətə) getməklə başa düşürsə, sistemli yanaşma aspekti əksinə hakimiyyəti sosial sistemdən çıxış edərək izah edir. K.Doyç, N.Luman və b. hakimiyyəti sosial ünsiyyət vasitəsi kimi qiymətləndirirlər. Hakimiyyət burada qruplararası münaqişələri aradan qaldıran və cəmiyyətin inteqrasiyasına xidmət edən vasitə kimi çıxış edir.
5. <u>Struktur</u> – <u>funksional</u> <u>təhlil</u> aspektinə görə hakimiyyət insan cəmiyyətinin özünütəşkili üsulu, sosial təşkilat kimi başa düşülür. Hakimiyyətsiz insanların kollektiv mövcudluğu, birgə yaşayışı mümkün ola bilməz. Hakimiyyət sosial statusların, rolların təsir qüvvəsi deməkdir. Cəmiyyətin özü ierarxik qaydada qurulmuşdur, idarəetmə və icraetmə rollarını differensasiya edir.

6. **Relyasionist** (fransız dilindən tərcümədə – «münasibət» deməkdir) aspekt hakimiyyətə iki partnyor, agent arasında münasibət kimi yanaşır və bu zaman bunlardan biri digərinə həlledici təsir göstərir. Belə olduqda hakimiyyət obyektlə subyekt arasında qarşılıqlı təsir vasitəsi kimi çıxış edir, eyni zamanda subyekt müəyyən vasitələrin köməyi ilə obyektə nəzarət edir. Hakimiyyətin bu cür başa düşülməsi onun strukturunu açmağa müxtəlif tərəflərini vahid tama çevirməyə imkan verir. Hakimiyyətin əsas tərəflərini **subyekt, obyekt, vasitələr** (imkanlar) və onun bütün elementlərini hərəkətə gətirən proses təşkil edir.

Siniflərin və dövlətin yaranmasına qədər hakimiyyət ictimai xarakter daşımışdır. Cəmiyyətin fövqündə duran aparat, xüsusi məcburetmə orqanları hələ formalaşmadığı üçün ibtidai cəmiyyətdə idarəetmə işini qəbilə, tayfa üzvləri tərəfindən seçilən ağsaqqallar şurası idarə edirdi. Sinifli cəmiyyətdə kütləvi hakimiyyət orqanları əmələ gəldi və cəmiyyət üzərində yüksəldi.

Müasir politologiya elmində bəzən hakimiyyəti onun **aləti** ilə (dövlət, cəmiyyətin siyasi sistemi), bəzən onun **vasitəsi** ilə (məsələn, idarəetmə), bəzən isə **metodları** ilə (məcburetmə, zor, güc, inandırma) eyniləşdirirlər. Bir sıra siyasətşünaslar isə hakimiyyəti nüfuzla (avtoritet) eyniləşdirməyə çalışırlar.

Təbiidir ki, idarəetməsiz hakimiyyəti həyata keçirmək olmaz, lakin eyni zamanda idarəetmənin özü də hakimiyyətsiz mümkün deyil. Başqa sözlə, hakimiyyət idarəetmə formasında, idarəetmə isə hakimiyyət kimi çıxış edir. Hakimiyyət idarəetmənin elementi kimi çıxış etdiyi üçün idarəetmə daha geniş anlayışdır. Hakimiyyət müəyyən vaxtda idarəetmənin meydana gəlməsi momentidir. İdarəetmə prosesi hakimiyyətdə olanın hakim iradəsinin həyata keçməsi prosesidir.

Siyasi hakimiyyəin həyata keçirilməsi prosesi müəyyən qabiliyyətə, səriştəyə və təcrübəyə malik olan adamların olmasını tələb edir. Siyasi hakimiyyəti yalnız o şəxs müvəffəqiyyətlə həyata keçirə bilir ki:

1) yaxşı natiq olsun;
2) biliyinə və qayğıkeşliyinə görə ona etibar olsun;
3) müəyyən vəzifə sahibi olsun;
4) itaətsizlik halları olduqda qəti və ciddi addımlar atmaq qabiliyyətinə malik olsun.

Əgər kimsə öz şəxsi keyfiyyələrinə, vəzifəsinə və s. əlamətlərə görə böyük nüfuza malikdirsə və başqalarına öz istədiklərini yerinə yetirə bilirsə bu halda nufuz hakimiyyəti meydana çıxır. Görkəmli alman sosioloqu və politoloqu M.Veber ilk dəfə olaraq hakimiyyətin mahiyyətinin öz idarəsinini həyata keçirmək imkanı kimi qiymətləndirmişdir. O, nüfuz hakimiyyətinin aşağıdakı üç tipini səciyyələndirir:

1) ənənəvi tip - mövcud ənənələrə, davranış qaydalarına əməl edilməsini nəzərdə tutur;
2) harizma tipi – rəhbərə sözsüz inama, kor-koranə etiqada əsaslanır. M.Veber nümunə üçün Xristosu, Buddanı, Məhəmmədi, Napoleonu, Lenini və b. göstərir.
3) rasional-leqal tip - hüququn gücünə olan inama əsaslanır.

Göründüyü kimi, siyasi hakimiyyət mürəkkəb və çoxplanlı prosesdir. Onun fəaliyyəti yalnız o zaman normal olur ki, cəmiyyətdə mövcud olan mənafelər düzgün əlaqələndirilmiş olsun.

Məhz bunu nəzərdə tutan amerikanlı sosioloq T.Parsons hakimiyyəti siyasi sistemdə «ümumiləşdirilmiş vasitəçi» hesab edir və göstərdidi ki, onun bu rolu iqtisadi prosesdə pulun oynadığı rola uyğun gəlir.

Hakimiyyətin və onun strukturlarının öyrənilməsi ilk növbədə hakimiyyətin həyata keçirilməsi vasitələrinin (imkanlarının) öyrənilməsini tələb edir. Amerikalı politoloq A.Entsioni həmin vasitələri (imkanları) aşağıdakı kimi qruplaşdırır:

1) **Utilitar.** Sosial-iqtisadi vasitələrin köməyi ilə dövlət hakimiyyəti təkcə ayrı-ayrı siyasətçiləri deyil, bütöv sosial qrupları öz tərəfinə çəkə bilər. Bu vasitələr həm mükafatlandırma, həm də cəzalandırma vasitəsi kimi (maaşların azaldılması, müxtəlif sosial güzəştlərin ləğvi və s.) istifadə oluna bilər.
2) **Məcburi.** İnzibati və ictimai təsir vasitələri. Utilitar imkanların təsirinə məruz qalmayanların məhkəmə vasitəsi ilə təqib edilməsi.
3) **Normativ.** İnsanın davranış normalarına, sərvətlərə qiymətvermə meyllərinə, bütövlükdə daxili aləminə təsir vasitələri.

Hakimiyyətin təzahürü formalarına aşağıdakılar daxildir: ağalıq, rəhbərlik, idarəetmə, təşkiletmə, nəzarət.

Ağalıq bir sıra adamların (sosial qrupların) digərlərinə mütləq yaxud nisbi tabeçiliyini nəzərdə tutur. Rəhbərlik öz idarəsinin birbaşa və ya dolayı yolla idarə olunan obyektlərə qəbul etdirilməsini nəzərdə tutur. Bu isə yalnız böyük nüfuz sayəsində mümkündür, çünki rəhbərlik məcburetmə prinsiplərinə əsaslanmır. Rəhbərliyin səmərəliliyi siyasətin düzgün seçilməsindən, müxtəlif mənafelərin nəzərə alınmasından, ictimai inkişafın obyektiv tələbatlarının düzgün qiymətləndirilməsindən asılıdır.

Siyasi rəhbərlik anlayışını idarəetmə anlayışından fərqləndirmək lazımdır. Müasir inkişaf etmiş dövlətlərdə monopoliyalar qrupu cəmiyyətdə və dövlətdə rəhbəredici rola malikdirlər. Lakin, onlar bilavasitə idarəetmə funksiyalarını yerinə yetirmirlər. Bu işi peşəkar siyasət xadimləri, idarəetmə aparatı

yerinə yetirir. Monopoliyalar isə siyasi partiyaların və kampaniyaların maliyyələşdirilməsi, parlamentdə lobbilərin yaradılması və s. ilə dövlətin siyasətinə təsir göstərə bilirlər.

Siyasi hakimiyyətin məzmunu və mahiyyəti, onun yaranması zərurəti haqda deyilənləri yekunlaşdırarkən onu aşağıdakı kimi müəyyən etmək olar: Siyasi hakimiyyət dedikdə dövlət orqanları sisteminin öz səlahiyyətlərinə aid olan vətəndaşları, təşkilatları və müəssisələri özünə tabe etmək, onlara sərəncam vermək və onları idarə etmək qabiliyyəti, hamı üçün məcburi olan qanunvericilik və digər normativ aktları dərc etmək və onların icrasını təmin etmək qabiliyyəti nəzərdə tutulur.

Siyasi hakimiyyətdən danışarkən «elita» və «kütlə» anlayışının mahiyyətinə də varmaq lazımdır. Cəmiyyət yaranandan bu günə qədər mövcud olan siyasi sistemlərdə hakimiyyət bu iki qütb arasında qeyri – bərabər formada bölünmüşdür. Anarxizm, liberal demokratiya, demokratik sosializm və s. bu kimi siyasi doktrinaların meydana gəlməsi məhz həmin qeyri-bərabər bölgüyə olan münasibətdən irəli gəlir. Lakin burada bir cəhətə də xüsusi diqqət yetirmək lazımdır. Elitalar müxtəlif cür olub azsaylı sosial qrupları, yaxud böyük siniflərin mənafelərini təmsil edə bilərlər. Buna baxmayaraq M.Veber və Q. Moska kimi politoloqlar xalq kütlələrinin hakimiyyətin subyekti olması ideyasını qəbul etmirlər. Məsələn, Veberin fikrincə «xalqın iradəsi» anlayışı uydurma bir anlayışdır. Q.Moska isə daha radikal çıxış edərək yazırdı ki, hakimiyyət xalq üçün və xalqın adından ola bilər, amma xalq hakimiyyəti ola bilməz.

Siyasi sistemlərin ierarxik strukturu cəmiyyətdaxili münaqişələrin yaranması üçün zəmin yaradan mühüm səbəblərdən biridir. Lakin eyni zamanda bu faktın mövcudluğu sübut edir ki, yalnız cəmiyyətin idarə edənlərə və idarə olunanlara bölgüsü siyasi hakimiyyət anlayışını reallığa çevirir.

Cəmiyyət həyatının düzgün idarə olunmasında hakimiyyət funksiyalarının normal həyata keçirilməsində demokratikləşmə prinsipi mühüm əhəmiyyət kəsb edir. Bəşər tarixinin minillik təcrübəsi sübut edir ki, yalnız xalqın böyük əksəriyyətininin siyasi proseslərə təsiri sayəsində dövlət quruluşu müvəffəqiyyətlə inkişaf edir. Bu, özünü xüsusən seçkili orqanlara aparılan seçkilərdə, müxtəlif siyasi təşkilatlarda iştirakda və s. daha aydın surətdə büruzə verir.

Azərbaycan yenidən müstəqillik əldə etdikdən və azad dövlətə çevrildikdən sonra xalqın demokratik sərvətlərə olan meyli, hakimiyyət orqanlarının fəaliyyətinə təsiri səviyyəsi xeyli güclənmişdir. 1920 – ci ildən 1991 – ci ilədək avtoritar, totalitar bir siyasi sistemdə yaşamış olan xalqımız ictimai – siyasi həyatda fəal iştirakdan məhrum edilmişdi. Cəmiyyətin iqtisadi, siyasi, sosial və mədəni həyat sferalarında hər şeyin ideoloji əsaslar üzərində qurulması adamları şəxsi təşəbbüskarlıqdan, azad fikirlilikdən, müstəqil düşüncə tərzindən məhrum etmişdi. Hazırda ölkəmizdə çoxpartiyalı siyasi sistem formalaşır. Çoxlu sayda içtimai – siyasi birliklər, hərəkatlar, partiyalar və ittifaqlar fəaliyyət müstəqilliyinə malikdirlər. Mətbuat hər cür senzuradan azad surətdə fəaliyyət göstərir. Ölkənin prezidenti vəzifəsinə, habelə Milli Məclisə deputatların alternativ əsaslar üzərində seçilməsi də ödkəmizdə demokrtaik ənənələrin təşəkkülünə kömək edir. Bütün bunlar geniş əhali kütlələrinin hakimiyyətdə iştrakına gətirib çıxarır. Azərbaycan Respublikasının 1995 – ci ilin noyabr ayında Referendum vasitəsi ilə qəbul etdiyi Konstitusiyasının 1–ci maddəsində göstərilir ki, «Azərbaycan Respublikasında» dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.[1]

Azərbaycan Respublikasının prezidenti H.Ə.Əliyev ölkəmizdə demokratiyanın, demokratik sərvətlərin qarantıdır. Bütün ömrünü xalqın rifahının yüksəldilməsi işinə sərf etmiş olan müdrik siyasətçi Yeni əsr və III minillik münasibəti ilə Azərbaycan xalqına Müraciətində göstərir ki, «Bizim bu gün təhsilimiz də, mədəniyyətimiz də, incəsənətimiz də Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək, əsil vətəndaş tərbiyə olunması prosesinə cəlb edilibdir».[2]

## *2. Siyasi hakimiyyətin funksiyaları və təşkili formaları*

Siyasi hakimiyyətin funksiyaları onun tərifindən irəli gəlir. Həmin funksiyalar aşağıdakılardan ibarətdir.

1. Cəmiyyətin siyasi sisteminin formalaşdırılması. Siyasi hakimiyyətin təbiəti, idarəetmədə istifadə etdiyi metodlar bu və ya digər cəmiyyət tipinin formalaşmasına səbəb olur;
2. Cəmiyyətin siyasi həyatının, dövlətlə cəmiyyət, ictimai qruplar, siniflər, siyasi institutlar və s. arasında münasibətləri özündə təcəssüm etdirən siyasi münasibətlərin təşkili;
3. Cəmiyyətin və dövlət işlərinin müxtəlif səviyyələrdə idarə olunması;

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası (əsas qanunu) Bakı, 1995 s.1

[2] Azərbaycan Respublikası prezidentinin «Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət». Bakı, 2001, səh-79.

4. Hakimiyyət orqanlarının siyasi və qeyri-siyasi proseslərə rəhbərlik edərək lazımi istiqamətə yönəltməsi;
5. Siyasi, ictimai, iqtisadi, mədəni və s. münasibətlərə nəzarət edilməsi sayəsində son nəticədə bu və ya digər cəmiyyət üçün xarakterik olan müəyyən siyasi rejimin, habelə dövlət quruluşunun (monarxiya, respublika və s.) yaradılması.

Siyasi hakimiyyətin növlərinin, forma və metodlarının təhlili onun elmi təsnifatını (tipologiyasını) verməyə imkan yaradır. Bu isə cəmiyyətdə hakimiyyətin rolu, funksiyaları və perspektivlərini müəyyən etmək üçün mühüm əhəmiyyətə malikdir. Hakimiyyətin müxtəlif tipləri aşağıdakı əlamətlər üzrə fərləndirilir:

1) Siyasi assosiasiyalarda hakimiyyət, qeyri-formal qruplarda liderlik;
2) Fəaliyyət sahəsi ilə əlaqədar olaraq siyasi və qeyri-siyasi hakimiyyət. Lakin onların hər ikisi siyasətlə bu və ya digər dərəcədə mənşə, ümumi təşkilati prinsiplər, iqtisadi, hüquqi, ideoloji funksiyalar vasitəsilə bağlıdırlar.
3) Fəaliyyət sahəsi və səlahiyyət həcminə görə dövlət, assosiativ (partiya, qrup, inzibati və s.) hakimiyyəti. Xarici siyasət münasibətlərində dövlət hakimiyyəti, beynəlxalq təşkilatlarda beynəlxalq hakimiyyət.
4) Hakimiyyətin subyektinə görə: parlament, hökumət, məhkəmə, şəxsi (monarxiya – kral, şah, çar, prezident), kollektiv (partiya, tayfa, sinif, xalq və s.)
5) İdarə edən subyektin strukturuna görə: təkbaşına, vahid rəhbərlik altında (monarxiya, mütləqiyyət, diktatura və s.) və poliarxik – oliqarxiya hakimiyyəti.
6) Hakimiyyətdə istifadə olunan metodlara görə: ağalıq, məcburetmə, zor, inam, nüfuz və xarizma hakimiyyəti.
7) Sosial – siyasi təbiətinə və haikmiyyət daşıyıcılarının struktur təşkilinə görə – monarxiya, respublika.
8) İdarəetmə rejiminə görə: demokratik, avtoritar, totalitar, despotik, bürokratik və s.
9) İctimai tipinə görə : feodal, burjua və s.

Hakimiyyət cəmiyyətdə qarşılıqlı təsirdə və əlaqədə olan bir neçə səviyyədə təşkil olunur və fəaliyyət göstərir. Bu səviyyələr aşağıdakılardır:

Makro səviyyə – ali mərkəzi siyasi institutlar, ali dövlət müəssisələri və təşkilatları, siyasi partiyaların və aparıcı ictimai təşkilatların rəhbər orqanları;

Orta səviyyə – regional, əyalət, vilayət, rayon miqyasında idarəetmə orqanları müəssisələrinin təşkili;

Mikro səviyyə – insanlar, kiçik qruplar arasında və onların daxilində olan münasibətlər cəmiyyətdə siyasi münasibətlərin,əhval – ruhiyyənin, hərəkatların yaranmasına səbəb olur.

Hakimiyyətin təşkilinin ikinci (orta) səviyyəsi idarəetmənin makro və mikro orqanlar sisteminin əlaqələndiricisi kimi çıxış edir. Bu səviyyə siyasi vəzifə adamlarının və siyasi idarəetmə kadrlarının əsas hissəsini-bürokratiyanı təşkil edir.

Bürokratik aparat siyasi hakimiyyətin gündəlik işlərini yerinə yetirən, idarəetmə işini həyata keçirən məmurlar ordusudur. Bürokratiyanın nümayəndələri cəmiyyətin idarə olunması sistemində öz rollarını dərk edirlər. Çünki tarixi təcrübə göstərir ki, heç bir siyasi sistem bürokratik aparatsız fəaliyyət göstərə bilməz. Maks Veber bu problemləri təhlil edərkən göstərirdi ki, bürokratiya qalib gələn inqilab, yaxud xarici təcavüzkarlar üçün də qanunu hakimiyyət üçün yerinə yetirdiyi fəaliyyəti göstərir. Məsələ həmişə bu cür durur ki, bürokratiya üzərində kim hakimdir. Bu o deməkdir ki, bürokratik vakkum, inzibati aparatın yoxluğu hər bir siyasi sistem üçün son dərəcə təhlükəlidir. Buna görə də hələ antik dövrlərdən başlayaraq bu günə qədər mövcud olan bütün siyasi elitalar ilk növbədə bürokratik aparatın təşkili haqqında düşünmüşlər.

Müxtəlif siyasi sistemdə bürokratiya üçün xarakterik olan ümumiləşdirici cəhət onun müstəqilləşməsi, cəmiyyət üzərində hakimiyyət əldə etməsi və kütlələrin mənafeyini nəzərə almadan öz kursunu yerinə yetirməsidir. Bu problem o zaman həll edilə bilər ki, təbiətindən asılı olmayaraq hər bir siyasi sistemdə kütlələrin nəzarətini səmərəli edən institutlar mövcud olur. Dövlətin idarə olunması məmurun siyasi əqlə və siyasi əxlaqa olan monopoliyası deməkdir. Lakin bu ağıl siyasi gerçəkliyi obyektiv olaraq əks etdirməyə qadir deyildir, çünki bu inikas məmurun sosial statusundan asılıdır. O, dövlətin spesifik mənafelərini əks etdirən gerçəklik haqqında rəsmi məlumatlardan istifadə etmək imkanına malikdir. Məmurun siyasi əxlaqı dövlətin xarakterinə və idarəetmə obrazına əsaslanır. Bürokratik təfəkkürün aşağıdakı ümumi prinsipi də məhz bununla izah olunur: əgər məmur gerçəkliyi dərk edirsə onun haqqında subyektiv fikir yürüdür, əgər subyektiv fikir yürüdürsə, onda deməli gerçəkliyi düzgün dərk etmir. Dövlət idarəçiliyi ierarxiya prinsipinə əsasən qurulur. Vətəndaşların fəallığı və şüurluluğu onların hakimiyyət aparatına mənsubiyyətləri ilə eyniləşdirilir. Hakimiyyət cəmiyyətdəki sosial gərginliklər üçün cavabdeh olmaq istəmir, günahın başqa qüvvələr üzərinə qoyulmasına cəhd göstərir və bunun üçün bürokratik aparatın bütün gücündən istifadə edir.

İkinci dünya müharibəsindən sonra Qərbdə «orta sinif» haqqında nəzəriyyələr əmələ gəlməyə başladı. Bu nəzəriyyələrə görə kütləvi istehsal və istehlak nəticəsində, informasiya vasitələrinin təsiri altında cəmiyyətin iqtisadi, siyasi və sosial yekcinsliyi inkişaf edir, sosial razılaşma üçün əsas, demokratik siyasi rejimlər üçün isə təminat olan orta sinif formalaşır.

Artıq XX əsrin əvvəllərindən başlayaraq alimlər siyasi hakimiyyətin subyektləri kimi ayrı – ayrı sosial qrupları tədqiq etməyə başladılar. Bu nəzəriyyənin mahiyyəti bundan ibarətdir ki, insanın sosiallaşması və ictimai keyfiyyətlər əldə etməsi məhz qrup münasibətlərinə əsaslanır. Sosial qrupu siyasi hakimiyyət subyekti kimi təhlil edən alimlərin fikrincə adamların qrup fəaliyyətinə cəlb oluna bilməsi aşağıdakı üç əsas amillə bağlıdır: maddi maraq, ümumi mənafe birliyi, müəyyən məqsəd uğrunda mübarizə. Məhz buna görə də cəmiyyətdə mövcud olan qruplar aşağıdakı üç tipə bölünür:

***Təsisatlı qruplar*** ordu, kilsə, şirkətlər, siyasi partiyalar kimi təsisatların yarımqruplarıdır. Onlar müvafiq təsisatların mənafeləri qayğısına qalırlar.

***Assosiasiyalaşmış*** qruplar müəyyən struktura, mənafelərin formalaşdırılması üsuluna malik deyillər. Onlar zəif təşkil olunmuş sosial – demokratik birliklərin üzvlərinə kömək məqsədi ilə hökumətlə sıx əlaqə saxlayırlar.

***Anomik*** qruplar kortəbii yaranan, qısa müddət ərzində mövcud olan, qeyri-mütəşəkkil xarakter daşıyan, nümayiş və həyacanlar zamanı öz narazılığını ifadə edən fərdlərdən ibarətdir.

Siyasi hakimiyyət uğrunda mübarizədə qrupların oynadığı rol barədə fikirlər müxtəlifdir. Bəzilərinin fikrincə yeni yaranmış qruplar lazımi enerjinin olmaması, vaxt azlığı və s. üzündən kifayət qədər möhkəmlənə bilmirlər. Bəzilərinin fikrincə isə mənafe qruplarında iştirak şəxsiyyətə siyasi həyatda daha fəal və səmərəli iştiraka imkan vermir, bunun üçün ən yaxşısı müəyyən bir təşkilata qoşulmaq daha məqsədə müvafiqdir.

Deyilənləri yekunlaşdıraraq qeyd etmək lazımdır ki, cəmiyyətin siyasi həyatı rəngarəng xarakter daşıdığı kimi, siyasi hakimiyyət, onun forma və metodları, ondan istifadə üsulları və qaydaları da son dərəcə rəngarəngdir. Bu forma və metodların, üsul və qaydaların öyrənilməsi siyasi hakimiyyətdən istifadənin səmərəliliyinin yüksəldilməsi işinə böyük köməklik göstərə bilər.

Hazırda dünyanın bir çox regionlarında hakimiyyətə münasibət, qanunçuluğa riayət lazımi səviyyədə deyildir. Onun böhranı əslində dünyada baş verən dəyişikliklərin böhranı ilə əlaqədardır. Bu cür dövlətlərdə siyasi hakimiyyətin zəifliyi ilə bağlı olaraq dərin böhranlar baş verməsi ehtimalı böyükdür. Bu, o halda baş verə bilər ki;

a) ictimai quruluşun dəyişilməsi dövründə ənənəvi mühüm qrupların sosial statusuna qarşı təhlükə yaranır;

b) keçid dövründə cəmiyyətdə mövcud olan əsas qrupların hamısı siyasi sistemə cəlb olunmurlar, yaxud hakimiyyətə sərf etməyən siyasi tələblər irəli sürürlər.

Qanunculuğun dövlət həyatında, cəmiyyətdə normaya çevrilməsi üçün yeni sistem uzun bir dövr ərzində cəmiyyətdə mövcud olan əsas sosial qruplarda belə bir inam yaratmalıdır ki, fəaliyyətdə olan qanunlar hamı üçün eyni dərəcədə obyektiv xarakter daşıyır. Tamamilə aydındır ki, hakimiyyət uğrunda mübarizədə qarşıdurmadan qaçılmanın ən düzgün yolu siyasi institutlarda qanunçuluğun qorunması ilə yanaşı struktur dəyişikliklərinin leqallaşması ola bilərdi. Məsələn, əgər biz demokratik dövlətləri sabit və qeyri-sabit ölkələrə bölsək və meyar kimi ikinci dünya müharibəsindən sonra siyasi demokratiyanın fasiləsiz mövcudluğunun və son otuz-qırx il ərzində demokratik «oyun qaydaları» əleyhinə hec bir siyasi hərəkatın meydana gəlmədiyini götürsək qarşıya belə bir maraqlı fakt çıxır: dünyada mövcud olan stabil demokratik dövlətlərin böyük əksəriyyəti ya krallıq, ya da monarxdan asılı olan dominion dövlətlərdir. Bunlara misal olaraq İngiltərəni, İsveci, Danimarkanı, Belcikanı, Hollandiyanı, Lüksemburqu, Avstraliyanı, Kanadanı, Yeni Zellandiyanı və s. göstərmək olar.[3] Bu ölkələrdə monarxiyanın saxlanılması sayəsində müasir industrial cəmiyyətə keçid zamanı dövlət quruluşu, siyasi hakimiyyət daşıyıcıları, əhalinin əksər təbəqələrinin loyal münasibətini qazanmağa nail olmuşdular. İnqilab nəticəsində monarxiyanın devrildiyi ölkələrdə isə respublika rejimləri uzun sürən dövr ərzində əhalinin mühüm təbəqələrinin gözündə qanunilik statasunu almağa müvəffəq ola bilmədilər. Bu isə onların legitim strukturlara malik olmalarını şübhə altına alır.

Radikal sosial dəyişikliklər zamanı legitimliyin itirilməsinin ikinci mühüm səbəbi yeni sosial qrupların siyasi səhnəyə çıxmasıdır. Hər dəfə yeni qruplar öz siyasi fəallıqlarını artırdıqda (məsələn, fəhlələr iqtisadi və siyasi hakimiyyətə malik olmaq istədikdə), onların siyasi institutlara yaxın buraxılması adətən bu cür yeni qrupların siyasi sistemə loyal münasibəti ilə müşayiət olunur. Bu isə öz növbəsində keçmiş hakim institutlara və stratlara hakimiyyəti itirdikdən sonra öz statuslarını qoruyub saxlamaq imkanı verir.

---

[3] Американская социология М. 1972, с 207.

Yeni stratların hakimiyyətə yaxın buraxılmasına imkan verməyən siyasi sistemlər də legitimliyi təhlükə altına qoyurlar. Dövlət hakimiyyətinə güc vasitəsi ilə gələn qruplar adətən siyasi həyatda iştrakın verdiyi imkanlardan geniş istifadə edirlər. Onlar təhlükəyə qarşı və ya təhlükəsizlik naminə arqumentlərin köməyinə əsaslanmaqla qeyri-qanuni hərəkətlərə bəraət qazandırırlar. İyirminci əsrin 20-ci illərində K.Şmitt siyasi münasibətlərin iştirakçılarını dostlara və düşmənlərə bölürdü. Şmittin bu arqumenti totalitar rejimlər üçün davranış qaydasına çevrildi.

Demokratik quruluş müxtəlif sosial qruplarda və ayrı-ayrı şəxsiyyətlərə siyasətdə iştirak etmək üçün maksimum imkanlar açır. Sosial qrupların və şəxsiyyətin qərarlar qəbul edilməsində fəal iştirakı M.Veberin və Y.Ştumpeterin fikrincə seçicilərin səsi uğrunda rəqabətdə siyasi elitanın formalaşdırılmasından asılıdır.

Politologiya elmində ən yaxşı öyrənilmiş olan qruplardan biri siyasi hakimiyyətin subyekti olmaq iddiasında olan elitadır. Daxili strukturuna əsasən elitanın siyasi, iqtisadi, hərbi, bürokratik və s. növləri vardır. Bu sistemdə isə aparıcı rol siyasi elitaya məxsusdur. İqtisadi elita çox vaxt təzyiq qrupu kimi çıxış edir. Ayrı-ayrı ölkələrdə oliqarxların hakimiyyət strukturlarına təsir göstərmə cəhdləri buna misal ola bilər. Bürokratik elita əslində siyasi elitanın bir hissəsi, daha doğrusu onun aşağı təbəqəsi kimi çıxış edir.

Politoloqlar elitaların yaranmasında dörd əsas yolun mümkünlüyünü qeyd edirlər: nümayəndələr irəli sürmək, təyin etmək, himayəçilik, nümayəndənin özünün fəallıqı.

Bəzi politoloqların fikrincə isə «elita» termini elmi xarakter daşımır. Əgər elita hakim sinifdirsə heç bir yeni məzmuna malik deyildir, yox əgər cəmiyyətin sinfi differensiasiyasını elita – kütlə bölgüsü ilə əvəz etmək istəyirsə o, düzgün deyildir, çünki sosial-siyasi sistemin mahiyyətinə uyğun gəlmir. Elita anlayışı Platon, Karleyil, Nitsşe, Pareto, Mixels, Moska və s. tərəfindən inkişaf etdirilmişdir. Bu ideya tərəfdarlarının fikrincə ictimai bərabərsizlik sosial həyatın təbii əsasıdır. Hər cür inqilablar son nəticədə bir elitanın yerinə yeni elitanın yaranmasına gətirib çıxarır.

### *3. «Hakimiyyət bölgüsü» prinsipinin mahiyyəti*

Hər cür siyasi və qeyri-siyasi hakimiyyətin mövcudluğunun prinsipal şərtlərindən birini hakimiyyətin bölgüsü təşkil edir. Bu ideyanı ilk dəfə XVII əsr ingilis filosofu Jon Lokk irəli sürmüşdür. Lokkun sosial-siyasi baxışları öz əksini «Dövlət idarəçiliyi haqqında iki traktat» adlı əsərində tapmışdır. Birinci traktatda kral hakimiyyətinin ilahi mənşəyinə dair feodal-patriarxal baxışlara qarşı çıxan Lokk ikinci traktatda konstitusiyalı parlament monarxiyasının nəzəri əsaslarını hazırlayır. Əslində isə bu 1688-89-cu illərdə İngiltərədə baş vermiş çevrilişdən sonra təşəkkül tapmış olan ictimai – siyasi quruluşa bəraət qazandırmaq və onu əsaslandırmaq məqsədini güdür. Dövlət hakimiyyətinin zəruriliyini Lokk ictimai müqavilə mövqeyindən təsvir edir. Hobbsun mütləq dövlət nəzəriyyəsindən fərqli ollaraq Lokk hesab edir ki, hakimiyyət «təbii hüququn» bir hissəsinə (ədliyyə, xarici əlaqələr və s.) malik olmalıdır. Onun fikrincə dövlətin məqsədi azadlığı və mülkiyyəti qoruyub saxlamaq olduğu üçün vəzifəsi qanunlar qəbul etmək, qanunu pozanlara cəza vermək və vətəndaşları xarici təcavüzdən qorumaqdır. Buna müvafiq olaraq dövlət hakimiyyəti üç yerə bölünür. Qanunverici, icraedici (məhkəmə də buraya daxildir) və «federativ» (xarici əlaqələr). Hökumət qanuna tabe olmalıdır. Yalnız xalq mütləq suveren olaraq qalır və hətta məsuliyyətsiz hökuməti devirmək hüququna malikdir.

Hakimiyyətin hazırki bölgüsünü isə fransız filosofu, tarixçisi və yazıçısı XVIII əsr maarifçilik fəlsəfəsinin nümayəndəsi Ş. L. Monteskye irəli sürmüşdür. Feodal-despotik idarə üsulunu tənqid edən Monteskye ingilis monarxist-konstitusiyon siyasi rejimini ideallaşdıran Lokkun ideyalarına tərəfdar çıxır. 1748-ci ildə nəşr olunmuş «Qanunların ruhu» adlı əsərində o hakimiyyətin aşağıdakı qollar arasında bölgüsünün zəruriliyini əsaslandırmağa çalışır:

***Qanunverici hakimiyyət.*** Buraya ali qanunverici orqan olan ölkə parlamenti, habelə yerli özünüidarə orqanları daxildir;
***İcraedici hakimiyyət.*** Buraya hökumət və onun idarələri, prefekturalar aiddir;
***Məhkəmə hakimiyyəti.*** Buraya Kosntitusiya məhkəməsi, Ali məhkəmə, bütövlükdə məhkəmə sistemi aiddir.

Monteskyenın fikrincə hakimiyyətin qolları bir – birindən asılı deyil, qarşılıqlı əlaqədə olan, əməkdaşlıq edən və qarşılıqlı nəzarəti həyata keçirən qollardır. Lakin onun bu sxemində hakimiyyətin üç əsas qolları arasında əlaqələndirici və hakim rola malik olan legitim fiqur (monarx, prezident və s.) üçün yer yoxdur. Monteskye xristianlığın ehkamlarına, dini fanatizmə, katolik kilsənin dünyəvi hakimiyyətə can atmasına qarşı çıxmaqla yanaşı ictimai asayişin və əxlaq normalarının mühafizə edilməsində dinin funksional rola və əhəmiyyətə malik olduğunu da xüsusi qeyd edirdi.

Hakimiyyətin bölgüsü ideyası hər bir cəmiyyət üçün son dərəcə aktual əhəmiyyətə malikdir. Hakimiyyətin ilk böyük bölgüsü dövlət hakimiyyəti ilə dini (kilsə) hakimiyyət arasında mübarizənin əsasını qoydu. Bu mübarizə bütün orta əsrlər boyu həm Qərbdə, həm də Şərq ölkələrində davam edərək Yeni dövrə qədər gəlib çıxır. Bir sıra dövlətlər üçün bu mübarizə hələ də başa çatmamışdır. Qərb ölkələrinin əksəriyyətində bu mübarizə dünyəvi, dövlət hakimiyyətinin xeyrinə başa çatdığı halda, Şərqdə (bəzi müsəlman dövlətlərində, məsələn İranda, Pakistanda və s.) ictimai həyatda dinin rolu və əhəmiyyəti artır.

Hakimiyyətin peşə funksiyalarına görə bölgüsü də qədim ənənələrə malikdir. Hələ vaxtilə Aristotel qədim Yunanıstanın 158 polisinin (şəhər dövlətlərin) idarəetmə orqanlarının təhlilini verərkən qanunverici orqanı-magistraturanı (icraedici müəssisə) və məhkəmə orqanlarını fərqləndirirdi. Mərkəzi və yerli hakimiyyət orqanları arasında səlahiyyətlərin bölgüsü də hakimiyyət bölgüsündən xəbər verirdi. Hakimiyyətin feodal təşkili hökmdarın qanunverici, icraedici və məhkəmə funksiyalarını öz üzərinə götürməsi ilə yanaşı eyni zamanda hakimiyyətin monarxist mərkəzlə əyalət özünü idarəsi arasında ərazi bölgüsünü irəli sürdü.

Avropada hakimiyyət bölgüsü qeyri-bərabər formada gedirdi. XVII əsrin sonlarında İngiltərədə parlamentin formalaşması Avropada bu posesin əsasını qoydu. XIX əsrdə İtaliyida, Belçikada, Hollandiyada və daha sonra Avropa ölkələrinin əksəriyyətində parlament hakimiyyətinin yaradılması prosesi başa çatdı.

Dövlət səviyyəsində hakimiyyət bölgüsü bütöv dövrlər ərzində böyük münaqişələrə, hətta müharibələrə gətirib çıxarırdı. Mütləq kral hakimiyyəti ilə parlament arasında mübarizə İngiltərədə 1688-ci ildə inqilaba, sülalənin dəyişməsinə gətirib cıxardı. Fransa inqilabi monarxiyanın, imperiyanın ləğvinə, daha sonra isə parlamentin aradan götürülməsinə, konstitusiyanın dəyişilməsinə səbəb oldu. Müasir dövrdə də parlamentlə icraedici orqan arasında böyük münaqişələr baş verir. Buna misal olaraq Rusiya və Ukraynada baş verən münaqişələri göstərmək olar. 1993-cü ilin oktyabr ayında Rusiyada bu qarşıdurma silahlı toqquşma ilə nəticələndi.

Hakimiyyət bölgüsü Konstitusiya və qanunlarla nə dərəcədə tənzim edilsə də bu və ya digər ölkələrdə onlardan bəziləri müəyyən üstünlüyə malik olur. Bu xüsusən hakimiyyət bölgüsünün qısa tarixə malik olduğu ölkələr üçün daha səciyyəvidir.

Azərbaycan Respublikasında hakimiyyət bölgüsü digər demokratik dövlətlərdə olduğu kimi ölkənin Konstitusiyasında (əsas qanunda) öz əksini tapmışdır. Əsas qanunun 7-ci maddəsində deyilir: «Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- Qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- İcra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur.
- Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir»[4].

Son on il ərzində Azərbaycan xalqı əsrlərə bərabər bir tarix yaşamışdır. Bu tarixin ən əlamətdar cəhətlərindən biri də məhz budur ki, həmin dövr Azərbaycan dövlət quruculuğunun təşəkkülündə yeni keyfiyyət mərhələsidir. Ölkəmizdə mövcud olan dövlət hakimiyyətinin mənbəyi xalqdır, hakimiyyətin hər üç qolu isə xalqın mənafeyinə xidmət edir.

---

[4] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1996, s. 2.

# 7 -ci MÖVZU

# SİYASİ SİSTEM

## 1. *Siyasi sistem anlayışı*

Politologiya predmeti çərçivəsində siyasi elmin aparıcı kateqoriyalarından biri olan «siyasi sistem» anlayışının öyrənilməsi ümdə vəzifələrdəndir.

Bu anlayış siyasi fəaliyyətin bütün sahələrini əhatə etmiş və geniş vüsət almağa başlamışdır. Canlı orqanizm kimi bir-birilə sıx əlaqədə olan hissələrdən ibarət olan siyasi sistem anlayışı geniş və konkret mənada işlədilir.

Konkret mənada cəmiyyətin siyasi sistemi əsasən hakim partiyaların (koalisiyaların) və cəmiyyətdə təmsil olunan siniflər və sosial qrupların mənafeyi naminə cəmiyyətin bütün sahələrində idarəetməni həyata keçirən dövlət ictimai təşkilatların, siyasi partiya və təsisatların bütöv və qarşılıqlı əlaqəsi olan kompleksidir. Geniş mənada cəmiyyətin siyasi sistemi özündə siyasi münasibətləri, siyasi şüur və cəmiyyətin siyasi təşkilini cəmləşdirir.

Cəmiyyətin digər sistemlərindən fərqli olaraq siyasi sistem «hakim» mövqeyə malikdir. Yəni siyasi sistem çərçivəsində qəbul edilmiş qərar və göstərişlərə digər sistemlər tərəfindən mütləq əməl edilməlidir. Siyasi sistem çərçivəsində yaranan siyasi kurs bütün cəmiyyət üçün məcburi mükəlləfiyyətə çevrilir.

Siyasi sistemin fəaliyyətində «giriş» və «çıxış» informasiyası anlayışlarından istifadə edilir. Amerika alimi C.İstona görə, siyasi sistemə xaricdən, sosial və mədəni mühitdən müxtəlif impulslar daxil olur, müxtəlif informasiya axını baş verir: təklif, tələb, vətəndaşların müraçiətləri (iqtisadi, siyasi və s.). Siyasi sistemin bu informasiyalara münasibəti nəticəsində cəmiyyətin mövcud hüquqi-normativ bazası əsasında mümkün dəyişikliklər edilir.

Siyasi sistemin bu impulslara cavab reaksiyası siyasi qərarlar, onların reallaşmasına yönəlmiş siyasi fəaliyyətdir. Qeyd olunmalıdır ki, siyasi sistem özünəməxsus özünütənzimləmə, özünüislah və özünüistehsal xüsusiyyətlərinə malikdir. Müxtəlif dövlətlərin siyasi sistemlərində bu xüsusiyyət dəfələrlə müşahidə olunmuşdur.

Siyasi sistemin ictimai sistemlərlə müqayisədə daha yüksək dərəcədə formalizə olunması onu fərqləndirən digər xüsusiyyətdir. Bu da onun xüsusi hüquq normaları və siyasi normalarla yüksək səviyyədə tənzimlənməsi ilə izah olunur. Mövcud vəziyyət siyasi sistemin avtonomluğu və müstəqilliyinə dəlalət edir.

Siyasi sistemin müstəqilləşməsi tədricən baş verən bir prosesdir. Bu onun getdikcə artmaqda olan rolunun, siyasi vasitələrlə həll olunan problemlərin sayının çoxalması, müasir cəmiyyətlərin (dövlətlərin) həyatını mərkəzləşdirən və əlaqələndirən orqanizmlərin özünəməxsus bütövlüyünün obyektiv ifadəsidir. Cəmiyyətdə siyasi sistemin muxtariyyatı üçün müəyyən məhdudiyyətlər fəaliyyət göstərir.

Siyasi sistemin muxtariyyatını məhdudlaşdıran ilk vasitə iqtisadiyyatdır.

Siyasi sistemin ayrı-ayrı təsisatları iqtisadiyyatın vəziyyətini daim nəzərə almalı olurlar. Ümumiyyətlə, cəmiyyətdə iqtisadiyyat, siyasət və mənəvi həyat bir-birilə əlaqədədir, bir-birilə vəhdətdə olur.

Qeyd olunduğu kimi, siyasi sistem, cəmiyyətin hakimiyyət tərəfindən idarə edilən bir orqanizm kimi mövcudluğuna şərait yaradan bir təşkilatdır. Buna görə də bu sistemi analiz edərkən, ilk növbədə onu təşkil edən alt sistem və elementlərin aşkar edilməsi: onların funksiyaları, inkişaf və qarşılıqlı əlaqələrinin öyrənilməsi lazımdır.

Bir qrup tədqiqatçıların fikrinə görə, siyasi sistemdə əsasən 4 qrup element ayırmaq olar:

1. Siyasi struktur və siyasi təşkilat;
2. Siyasi hüquqi normalar;
3. Siyasi münasibətlər;
4. Siyasi şüur və mədəniyyət.

Siyasi sistemin bu elementləri onun ayrı-ayrı fəaliyyət sahələrini xarakterizə edir. Belə ki, cəmiyyətin siyasi strukturu özündə ilk növbədə, dövlət və digər siyasi təşkilatların yaradılması; vətəndaşların cəmiyyətin siyasi həyatında iştirakı forması və mexanizmi və s. daxil edir. Siyasi sistemə daxil olan təşkilatların fəaliyyəti və qarşılıqlı əlaqələri ictimai təşkilatların, siyasi partiyaların, sosial-siyasi hərəkatların müvafiq aktlarında öz əksini tapan sosial-siyasi normaları ilə tənzim olunur. Siyasi hüquqi normalar cəmiyyətdəki siyasi münasibətlərin xarakterini müəyyən edir. Siyasi hüquqi normalar özündə aşağıdakıları birləşdirir:

a) Siyasi prinsip və hüquqi normalar – bunlar siyasi təşkilatlar, xüsusilə dövlət tərəfindən cəmiyyətdəki siyasi münasibətlərin nizamlanması üçün yaradılır;
b) Siyasi ənənələr – siyasi sistemin yaranma prosesində meydana çıxan ümumqəbuledilmiş davranış forması; siyasi davranış etalonu və ya siyasi xəbərlərə olan tipik reaksiyalar. Siyasi sistemin mühüm elementlərindən biri olan siyasi münasibətlər hakimiyyət, onun fəaliyyəti, inkişafı və möhkəmlənməsi ilə bağlı olan siniflər, sosial qrup və təbəqələr, millət və xalqlar arasında olan münasibətlərdir. Siyasi münasibətlər bütün sosial qrup və ayrı-ayrı şəxslərin siyasi prosesdə real davranışlarını əks etdirir, böyük insan qruplarının kütləvi hakimiyyətə münasibətlərini müəyyən edir.

Siyasi şüur – ictimai şüurun tərkib hissəsidir. O, kütlələrin və fərdlərin konkret siyasi fəaliyyəti nəticəsində əldə etdikləri praktiki təcrübələrinin tərkib hissəsinə çevrilmiş və müxtəlif siyasi sənədlərdə (konstitusiyalar, deklarasiya, qanun, proqram və s.) öz əksini tapan siyasi ideyaların, baxışların, adətlərin, ənənələrin və rəylərin məcmusudur.

Siyasi şüur və mədəniyyət siyasi münasibətlərin bütün iştirakçılarının, yəni idarə edən və idarə olunanların atributudur.

Siyasi sistemin mərkəzi elementini siyasi hakimiyyət təşkil edir. Siyasi hakimiyyət bir çox xüsusiyyətlərə malikdir. O, geniş insan kütlələrinin marağını əks etdirir, hakim pozisiyalarda olan sosial qrup tərəfindən idarə olunmasında ifadə olunur.

Eyni zamanda, müxtəlif sosial qruplar öz maraqlarını həyata keçirmək üçün bilavasitə öz təşkilatları və ya hərəkatları vasitəsilə siyasi hakimiyyətə müəyyən təsir göstərirlər. Bu maraqlar qəbul olunduğu halda idarəçilik strukturlarının köməyi ilə siyasi proses, siyasi qərarların qəbul olunması və həyata keçirilməsi ilə realizə olunur.

## *2. Siyasi sistemin strukturu və funksiyaları*

Siyasi sistemin komponentləri heç də təsadüfü fenomenlər yığını deyil. Onlar müxtəlif keyfiyyətlərə malik olub bir-birinə münasibətdə təzad təşkil etsələr də eyni bir sistemdə birləşir və bununla da onun fəaliyyətinə şərait yaradırlar. Bütün bunlar sistemin daxili təşkilinə, strukturuna aiddir. Struktur siyasi sistemin müxtəlif elementlərinin əlaqəsini xarakterizə edir; bu əlaqə nəticəsində onlar mexaniki elementlər kimi deyil, əksinə siyasi sistemə xas olan nizama əsasən fəaliyyət göstərirlər. Struktur anlayışı, elementlər arasındakı bütün əlaqələri deyil, yalnız bütöv proses dövründə mövcud sistemə uyğun olaraq islah edilmiş əlaqələri əhatə edir.

Siyasi struktur cəmiyyətin siyasi münasibətlərinin sabitliyini əks etdirir və onların növlərini xarakterizə edir. Siyasi sistemin mahiyyətini əks etdirən məfhumlara təkcə onun komponentləri olan siyasi təşkilatlar, institutlar deyil, həmçinin strukturu da daxildir. Siyasi sistemin strukturu, komponentlər dəyişsə belə öz özülünü qoruyub saxlamaq xüsusiyyətinə malikdir. Dövlətin forması, siyasi partiyaların, təşkilatların kəmiyyət və keyfiyyəti dəyişsə belə mövcud siyasi münasibətlər tipi saxlanarsa, sistem öz məğzini dəyişmir. Bu ona görə belədir ki, siyasi struktur sistemin daxili təşkilini əks etdirir; başqa sözlə sistemin elementlərinin əlaqə qanunu kimi çıxış edir.

Bütün bunlar heç də o demək deyildir ki, mövcud siyasi sistem çərçivəsi daxilində, onun strukturunda dəyişiklik baş vermir və sistemin komponentləri tərkibində baş verən dəyişikliklər ona təsir etmir. Sistemdə baş verən dəyişikliklər məhz daim inkişaf edən komponentlərdə baş verən dəyişikliklərdən başlayır ki, bu da son nəticədə strukturun yenidən qurulmasına gətirib çıxardır. Strukturun dəyişdirilməsi yeni sistemə malik siyasi həyatın yaranması deməkdir. Bununla yanaşı siyasi fəaliyyətin yeni forma və şərtləri yaradılır. Lakin heç də bütün sosial əlaqələri ictimai münasibətlər hesab etmək olmaz. İctimai münasibətlər dedikdə subyektlərin siyasi sistemin substrat (əsas) komponentlərinin tərəfləri kimi çıxış etdiyi əlaqələr nəzərdə tutulur.

Bəs cəmiyyətin siyasi sisteminin strukturuna konkret olaraq nələr daxildir? Onun alt sistemləri hansılardır?

Siyasi struktura ilk növbədə yerli hakimiyyət orqanlarından başlayaraq beynəlxalq səviyyəli orqanlaradək idarəetmənin bütün mərhələləri daxildir. Siyasi strukturlar həm də siyasi partiyalar kimi çox şaxəli təsirə malik olan təşkilatları da özünə daxil edir.

Cəmiyyətin siyasi sisteminin tərkibində dörd böyük alt sistem fəaliyyət göstərir:

1. **İnstitutisional alt sistem** – bu, cəmiyyətin siyasi sisteminin konstitusiya daşıyıcısı olan əsas karkasdır. Onun tərkibinə əsasən aşağıdakılar daxildir: siyasi institutlar, (siyasi hakimiyyət institutu, xüsusi mülkiyyət institutu və s.); siyasi idarəetmə formaları (respublika, monarxiya və s.); siyasi rejimlər (demokratik, totalitar və s.); qanunverici, idarəedici və məhkəmə orqanları, siyasi partiya və hərəkatlar, müxtəlif ictimai təşkilatlar, seçki sistemi və s. Bu alt sistem demək olar ki, siyasi sistemin açarıdır. Sistemin fəaliyyət imkanları və sərhədləri, normativ hüquqi bazası burada yaranır. Məhz burada siyasi sistemin sabitliyini təmin edən şərtlər, onun digər cəmiyyətin sistemlərinin inkişafına təsir formaları və beynəlxalq siyasət hazırlanır. Göstərilən bu alt sistem əhəmiyyət dərəcəsinə görə bütün siyasi sistemin fəaliyyətinin məqsəd və istiqamətini müəyyənləşdirir.

2. **Tənzimləyici alt sistem** – bu sistem cəmiyyətdə qəbul olunmuş, dövlətlərin konstitusiya və digər qanunvericilik aktlarında öz əksini tapan siyasi - hüquqi normalara əsaslanaraq, bütövlükdə cəmiyyətin siyasi sisteminin fəaliyyətini tənzimləyir. Bu sistemin əsaslandığı bazaya təkcə siyasi-hüquqi normalar deyil, həm də cəmiyyətin siyasi sisteminə təsir edən milli adət-ənənələr, cəmiyyətdə üstünlüyə malik olan hakim siyasi prinsiplər, görüşlər və məsləklər də daxildir.

**3. Kommunikativ alt sistem -** bu, özünə cəmiyyətin siyasi sisteminin fəaliyyəti prosesində yaranan münasibətləri daxil edir. Bura hər şeydən əvvəl, cəmiyyətin idarə edilməsinə aid olan münasibətlər daxildir. Bu münasibətlərin subyektləri aşağıdakılardır: siyasi institut və təşkilatlar; siyasi liderlər; siyasi elitanın nümayəndələri və əlbəttə ki, vətəndaşlar. Bura həmçinin siyasi hakimiyyət uğrunda gedən mübarizə ilə əlaqədar olan münasibətlər də aid edilir: hakimiyyətin əldə edilməsi, saxlanması və həyata keçirilməsi. Belə mübarizə bütün dövlətlərin siyasi sisteminə xasdır. Mövcud münasibətlər bir qayda olaraq rəsmi xarakterə malikdir, başqa sözlə mövcud hüquqi normalara əsaslanır. Lakin bunlarla yanaşı siyasi sistemində mövcud hüquq normalarına əsaslanmayan qeyri-rəsmi münasibətlərin də olmasına baxmayaraq onların əhəmiyyətini azaltmaq olmaz.

**4. Siyasi ideoloji alt sistem** – özünə siyasi konsepsiya, nəzəriyyə və görüşləri daxil edir. Bunlar ictimai-siyasi institutların təşkili və inkişafı, siyasi münasibətlərin təkmilləşdirilməsi və ümumiyyətlə siyasi sistemə əsaslanır. Bu alt sistem siyasi məqsəd və ona çatmaq yollarının strateji siyasi kursunun hazırlanması vəzifəsini yerinə yetirir. Cəmiyyətdə mövcud olan müxtəlif siyasi problemlərin həllində əhəmiyyətli rola malikdir.

Mövcud struktura bütün cəmiyyətlərin siyasi sistemində rast gəlinir. Onu da qeyd etmək zəruridir ki, göstərdiyimiz bu struktur cəmiyyətin digər əsas sistemlərinə, yəni iqtisadi, sosial, mənəvi sistemlərə də xasdır. Bu sistemlərin strukturu da özündə göstərilən bu alt sistemləri birləşdirir. Bununla yanaşı cəmiyyətdə mövcud olan bütün sistemlər bir-birindən fərqlənir. Onların əsas fərqləndirici xüsusiyyəti isə sistemyaradıcı münasibətlərdir. İqtisadi sistemdə bazar iqtisadiyyatı şərtləri altında bu bazar, siyasi sistemdə isə siyasi hakimiyyətdir. Lakin buradan belə nəticə çıxarmaq olmaz ki, cəmiyyətdə mövcud olan sistemlərin fərqi yalnız bundadır.

Cəmiyyətin istənilən sistemi, o cümlədən siyasi sistem, bütövlükdə cəmiyyət və onun digər alt sistemlərinə dair həyata keçirdiyi funksiyalara malikdir. Buna görə də siyasi sistem komponentlərinin və struktur tərkibinin analizi onun funksional cəhətdən tədqiqi ilə tamamlanır.

Ümumiyyətlə, siyasi sistemin fəaliyyəti onun konkret tarixi vəziyyətini əks etdirən funksiyalarının bu və ya digər metod və vasitələrlə realizə edilməsi zamanı meydana çıxır.

Siyasi sistemin funksiyalarının müəyyənləşdirilməsi heç də asan deyil, çünki onun ayrı-ayrı hissələrinin funksiyalarını, ümumilikdə sistemin funksiyası kimi qələmə vermək olmaz. Funksiyanın sosial aspekti təşkilati aspektinə uyğundur, çünki siyasi sistem öz daxili sabitliyi və təşkilatiliyini qorumalıdır. Sistemin funksiyalarının realizəsi cəmiyyət və onun inkişaf sabitliyinin təmin edilməsinə tabedir.

Siyasi sistemin funksiyalarının müəyyənləşdirilməsi aşağıdakı nəticəyə gətirib çıxarır:

1. Cəmiyyətin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi.
2. Hakim və ya başçılıq edən sinfin maraqlarına uyğun olaraq sistemin fəaliyyət proqramının hazırlanması.
3. Cəmiyyət ehtiyaclarının qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün səfərbər edilməsi.
4. Qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün bütün cəmiyyət elementlərinin inteqrasiyası.
5. Cəmiyyətin bütün elementlərinin sinfin sosial-siyasi məqsədləri ətrafında inteqrasiyası.

Bəzi politoloqların elmi araşdırmalarına görə isə siyasi sistemin funksiyaları aşağıdakılardır:

1. Ümumi siyasi yönüm (məqsəd) – bu istənilən siyasi sistemin mövcudluğu və inkişafı üçün böyük əhəmiyyətə malikdir. Sosial birliklər, sinif, millət, təbəqə və qruplar öz maraqlarını siyasi sistemin institutlarının fəaliyyəti vasitəsi ilə ifadə edərək obyektiv reallığı dərk etməyə və fəaliyyət istiqamətlərini müəyyənləşdirməyə çalışırlar. Bu, çox mürəkkəb xarakterə malik olub, özünə həm obyektiv qanunauyğunluqların öyrənilməsi və istifadəsi, həllini tələb edən problem və ziddiyyətlərin proqnozlaşdırılması, məqsədlər və onlara çatma yollarının müəyyənləşdirilməsi, həm də sosial fəaliyyət, mənafelərin, maraqların uyğunlaşdırılması yolları onların ifadə olunması formasını daxil edir. Məqsəd, insanların şüurlu surətdə yaratmağa can atdıqları gələcəyin qabaqcadan görülməsidir. Ümumi siyasi yönüm hakimiyyətin, institutların dəyişdirilməsi və ya möhkəmləndirilməsi, demokratiyanın, milli, sinfi münasibətlərin inkişafına aid olan məqsədlərin yaradılması deməkdir. O, cəmiyyətin digər sahələrinin inkişafına dair məqsədləri də əhatə edir. Məqsədlərin təsnifatının meyarı kimi onların mahiyyətindən istifadə etmək olar. Burada hər şeydən əvvəl iqtisadi orqanizmin inkişafı və onun əsas qanunauyğunluqlarını ifadə edən məqsədlər seçilib ayrılır: hakim sinfin hakimiyyətinin möhkəmləndirilməsi, qanun-qaydalara riayət olunan rejimin yaradılması, siyasi institutların sabitliyi, xarici siyasətdə müstəqil kursun həyata keçirilməsi və s. bura həmçinin iqtisadi inkişaf (iqtisadi siyasət), sosial münasibətlər (sosial siyasət), demoqrafik proseslər (demoqrafik siyasət), elmə və texnikaya aid məqsədlər də daxildir.
2. Cəmiyyətin siyasi-hakimiyyət inteqrasiyası funksiyası, siyasət və hakimiyyətin hakim sinfin və ya xalqın iradəsinin ifadəsi üçün istifadə edilməsi və onun əsas fəaliyyətinin cəmiyyətə tabe edilməsidir. Yuxarıda artıq siyasi məqsəd və siyasi hakimiyyətdən danışmışdıq ki, bu da bizə onların inteqrativ məziyyətini açıqlamağa imkan verir. Burada ilk olaraq ictimai münasibətlərin nizamlanması üçün hüquq və qanunlar, müəyyən qüvvəyə əsaslanan, hamı üçün məcburi olan dövlət hakimiyyəti, demokratik və ya avtoritar siyasi rejimin dərəcəsini, siyasi sistemin institutlarının subordinasiya və koordinasiyasını qeyd etmək lazımdır.

Dövlət ictimai - siyasi inkişafın təcəssümüdür. Dövlət tərəfindən həyata keçirilən hakimiyyət sinfi və siyasi xarakterə malik olub iqtisadi münasibətlərə əsasən müəyyənləşdirilir. Dövlət hakimiyyətinin həyata keçirilmə mexanizmi vasitəsilə hakim sinfin iradəsi ümumməcburi xarakter qazanır; ilk növbədə dövlət orqanları sistemi, dövlət hakimiyyəti fəaliyyətinin hüquqi cəhətdən rəsmiləşdirilməsi üçün. Lakin hakimiyyətin hüquqla deyil, digər sosial

normalarla əlaqədə olan tərəfləri də vardır. Dövlət hakimiyyəti siyasi sistemin ictimai proseslərə təsir vasitəsidir. Lakin onu siyasi sistemin bütün fəaliyyət sahələri ilə eyniləşdirmək olmaz.

3. Cəmiyyətdəki sosial-siyasi fəaliyyət rejiminin nizamlanması funksiyası da özünəməxsus əhəmiyyətə malikdir. Burada ictimai münasibətlərin və ümumi maraqların sabitliyini təmin edən insanlar, qruplar və təşkilatların fəaliyyəti, davranışı, onların bir-birilə və dövlətlə olan münasibətləri nəzərdə tutulur. Sosial-siyasi normalar konfliktlərin nizamlanması, siyasi-iqtisadi və ictimai münasibətlərin hakim sinfin maraqları əsasında müəyyən edilməsi üçün şərait yaradan dövlətin ideal stimul və motivlərini tətbiq edir. Siyasi rejimlərin siyasi qüvvələr tərəfindən dəyişdirilməsi nəticəsində hətta eyni institutların dinamikliyi meydana çıxır.
4. İctimai proseslərin ümumi idarəedilməsi funksiyası – burada idarəetmə obyekti cəmiyyət və onun iqtisadi, mədəni sahələri, ayrı-ayrı istehsal mərkəzləri, sosial birliklər və onlara məxsus inkişaf prosesləridir. İdarəetmədə cəmiyyət resurslarından – təbii, maddi və s.-dən istifadə olunur. Bunun üçün idarətemənin əsas funksiyaları olan informasiyaların təkmilləşdirilməsi və istifadə edilməsi funksiyaları yaradılır.

F.M.Burlatskiy və A.A.Qalkin siyasi sistemin aşağıdakı funksiyalarını bir-birindən fərqləndirirlər:

1. Cəmiyyətdə məqsəd və vəzifələrin müəyyənləşdirilməsi.
2. Ehtiyyatların səfərbər edilməsi.
3. Cəmiyyətin bütün elementlərinin inteqrasiyası.
4. Legitimləşdirmə, yəni siyasi həyatın rəsmi siyasi hüquq normalarına uyğunlaşdırılması.

Birinci və ikinci funksiyalar siyasi sistemə məxsus olan funksiyalardır; üçünçü və dördüncü funksiyalar isə cəmiyyətin bütün sistemlərinin funksiyaları sırasına daxildir.

Digər bir qrup tədqiqatçılar siyasi sistemin aşağıdakı funksiyalarını göstərirlər: onların fikrincə cəmiyyətin siyasi funksiyası onu idarə edilməsi və dövlətin idarəedilməsi funksiyasıdır. Əsas məqsəd ictimai inkişafın vəzifələrini həyata keçirmək üçün siyasi rəhbərlik bütün siyasi sistem elementlərini səfərbərliyə alır. İnteqrativ funksiya, əsasən ictimai-siyasi düzümün möhkəmləndirilməsi, bütövlükdə cəmiyyət və onun ayrı-ayrı sistemlərinin dinamik sabitliyinə nail olmaq məqsədi güdür.

Bütün bunları ümumiləşdirərək demək olar ki, həm praktiki, həm də nəzəri nöqtədən siyasi sistemin funksiyaları çox mürəkkəbdir, hər bir funksiya siyasi institutlar tərəfindən həyata keçirilən alt funksiyalara bölünür. Bununla yanaşı siyasi sistemin ümumi funksiyalarının dövlət, onun orqanları, partiyalar, ictimai təşkilatlar tərəfindən realizə olunması siyasi prosesi daha yaxşı dərk etməyə imkan verir.

Siyasi sistemin funksiyaları daimi deyildir, iqtisadi və mədəni inkişafın sabitlik dərəcəsinin dəyişməsi nəticəsində yeni alt funksiyalar yaranır.

Siyasi partiyalar hər bir inkişaf etmiş siyasi sistemin atributudur. Siyasi partiya-xalqın bir hissəsinin maraqlarını ifadə edən, qarşısına bu maraqları dövlət hakimiyyətini ələ keçirmək və onda iştirak vasitəsi ilə realizə etmək məqsədi qoyan həmfikirlər qrupunun təşkilatıdır.

Siyasi partiyaların əsas funksiyaları aşağıdakılardır:

- sosial nümayəndəlik;
- sosial inteqrasiya və sosiallaşma;
- hakimiyyət uğrunda mübarizə;
- siyasətə cəlb etmək və ya siyasi səfərbərlik;
- elitanın təşkili;
- siyasi kursun yaradılması və həyata keçirilməsi.

Müəyyən sinif və sosial qrupların maraq və məqsədlərini ifadə edən siyasi partiyalar öz fəaliyyətlərində cəmiyyətin daha geniş təbəqələrini təmsil etməyə çalışırlar. Konkret sosial qrup və təbəqələrə əsaslanaraq siyasi hakimiyyətə müəyyən təsirlər göstərməyə nail olurlar. Siyasi partiyaların fəaliyyətinin xarakterik cəhəti ondan ibarətdir ki, onlar öz ideya və proqramları ətrafinda müxtəlif sosial qüvvələri birləşdirirlər, əhaliyə, onun siyasi şüurunun formalaşmasına ideoloji təsir göstərirlər.

Siyasi partiyaların əsas vəzifələrindən biri hakimiyyətə gəlmək, partiyaların irəli sürdüyü sosial maraqları realizə etmək üçün aparata sahib olmaqdır.

Siyasi partiya iqtidara keçdikdə ölkənin siyasi kursunun işlənməsində və həyata keçməsində iştirak edir, dövlətin liderlərinin seçilməsində namizədlərini irəli sürür, hakimiyyət orqanları və icraedici aparat üçün kadrların seçilib hazırlanmasında iştirak edir.

Partiyalar mürəkkəb struktura malikdirlər. İspan politoloqu L.S.Sanisteban partiyaların aşağıdakı elementlərini bir-birindən fərqləndirir:

a) başçı rolunu ifadə edən ali lider və ştab;
b) başçılıq edən ali qrupun sərəncamlarını həyata keçirən sabit bürokratik apparat;
c) bürokratiyaya daxil olmayan, lakin partiyanın fəaliyyətində aktiv iştirak edən partiya üzvləri – bura həmçinin partiyanın üzvü olmayan, lakin onu müdafiə edənlər də daxildir.

Müasir dövrdə fəaliyyət göstərən partiyalar müxtəlif olub, öz sosial mahiyyəti və funksiyalarına, ideya və proqramlarına, daxili struktur və siyasi sistemdə tutduqları yerə görə bir-birindən fərqlənirlər. Məsələn; tipoloji meyarlar əsasında aşağıdakı partiylar fərqlənirlər: mühafizəkar, liberal, islahatçı, inqilabçı, demokratik, avanqard və s. Bu bölgü partiyaların siyasi həyatda yer və rolunu, onların xarakterini müəyyən etməyə imkan verir.

Siyasi sistemdə hakim yer dövlətindir. Siyasi sistemin əsas elementlərindən biri olan dövlət siyasi hakimiyyətin daşıyıcısı, sinfin siyasi marağının əsas realizə silahı və bununla da siyasi münasibət və fəaliyyətin həm subyekti, həm də obyekti kimi çıxış edir. Dövlətin yaranması ilə siyasi hakimiyyət burada cəmlənir. Yəni dövlət vasitəsilə siyasi hakimiyyət özünün əsas xüsusiyyəti olan suverenlik, ölkə xaricində qeyri - asılılığını həyata keçirmə vasitəsinə malik olması və nüfuzunun hüquq normalarında realizə olunmasına nail olur. O, bütün cəmiyyətin təşkilati çərçivələrini təyin edir, hüquq normalarının köməyi ilə öz vətəndaşlarının davranışını formalaşdırır, mülki təşkilatların fəallıq formalarını müəyyən edir.

Dövlət ayrılmaz surətdə hüquqla bağlıdır. Dövlət iradəsi hakimiyyət tərəfindən yaradılmış qanun kimi ifadə olunmalıdır. Hüquq normalarında möhkəmlənən hakim sinfin iradəsi siyasətin spesifik formasıdır. Lakin hakim sinfin iradəsi dövlətin qanunlar sistemində təmsil olunan yeganə iradə deyildir. Siyasi sistemin mövcud şərtləri altında aşağı təbəqənin dövlət hakimiyyətinə təsir etməsinin mümkünlüyünü də qeyd etmək lazımdır. Aşağı təbəqənin öz hüquqları uğrunda apardığı mübarizə nə qədər aktiv və mütəşəkkil olarsa bu ehtimal bir o qədər artar.

Dövlət ayrı-ayrı sinfi birliklərin individlərini (fərd) ümumbirlikdə birləşdirən siyasi münasibətlər, əlaqələr ardıcıllığıdır.

Əlbəttə ki, dövlətin bütün göstəriciləri və xüsusiyyətləri ayrı-ayrılıqda deyil, tam halında fəaliyyət göstərir və bir-birini tamamlayır. Dövlətin bu əlaməti hakimiyyətin bir varlıq forması kimi mahiyyəti, onun cəmiyyətdəki üstünlüyü və suverenliyi ilə sıx surətdə bağlıdır. Cəmiyyətin siyasi sisteminə uyğun olaraq bu, cəmiyyətdə dövlətin siyasi fəaliyyət və siyasi münasibətlərinin əsas nizamlayıcısı rolunda çıxış edir. Bütün orqan və təşkilatlar öz funksiya və vəzifələrini yalnız dövlət hakimiyyətinin hökmlərinə əsaslanmaqla yerinə yetirməlidirlər. Öz ərazisində mövcud olan müxtəlif ictimai təşkilatların hamısı onun ali hakimiyyətinin nəzarəti altında fəaliyyət göstərir.

Dövlətin əsas əlamətləri aşağıdakılardır:

1. Məcburetmə – dövlət mənsubiyyəti ictimai zərurətdir, o məcburidir və dövlət hüququ, habelə beynəlxalq hüquqla tənzim olunur.
2. Zor tətbiq etmək hüququ – dövlətin xüsusi zor orqanları vardır və qanunun nəzərdə tutduğu hallarda o onlara əl atır.
3. Suverenlik – hamı üçün, hər bir təşkilat və təsisat üçün məcburi xarakter daşıyan hakimiyyət yalnız dövlətə mənsubdur.
4. Ümumilik – dövlət hakimiyyəti onun ərazisində yaşayan bütün adamlara aiddir.
5. Hüquq – dövlət onun müəyyən etdiyi hüquq qaydaları və normaları çərçivəsində fəaliyyət göstərir.
6. Əhalidən vergi və mükələfiyyətlər toplamaq hüququ.

Dövlət daxili və xarici funksiyalara malikdir. Daxili funksiyalara – vətəndaşların və cəmiyyətin təhlükəsizliyinin, qanunçuluğun və hüquq qaydalarının təmin edilməsi, iqtisadi əsasların müdafiəsi, mədəniyyət sferasının tənzimlənməsi və s. daxildir.

Dövlətin xarici funksiyaları – beynəlxalq münasibətlərin bütün sferalarında dövlətin mənafeyinin və suverenliyinin müdafiəsi, diplomatik münaisbətlər və s.

Dövlət formaları dedikdə 3 başlıca: dövlətin quruluşu, idarə formaları, siyasi rejimlər başa düşülür.

Ərazi quruluşuna görə dövlətlər unitar və federativ olurlar.

### *2. Siyasi sistemin tarixi formaları*

Cəmiyyətin siyasi sistemi tarixi hadisədir. Heç bir cəmiyyət idarə olunmadan mövcud ola bilməz, lakin müxtəlif tarixi dövrlərdə idarəetmənin forma və məzmunu bir-birindən fərqlənmişdir. Məsələn; qəbilə cəmiyyəti siyasi münasibət və siyasi tənzimləmə anlayışlarından xəbərsiz idilər, idarəçilik özünüidarəetmə yolu ilə həyata keçirilirdi, ictimai həyat ənənə, adətlər, başçılar tərəfindən nizama salınırdı. Qəbilə cəmiyyətinin dağılması və cəmiyyətin siniflərə bölünməsi əvvəlki sosial təşkili pozdu. Hakim sinfin iqtisadi maraqları ümumi marağı kənara çəkmiş, yeni münasibətlər meydana gəlmişdir ki, bununla bağlı olaraq, ictimai həyatı nizamlayan yeni mexanizmlər yaranmışdır.

Siyasi sistemlərin tarixə məlum olan formaları aşağıdakılardır:

Aristokratiya (yun. aristokratiya, hərfi mənası – ən yaxşıların,adlı – sanlıların hakimiyyəti) hakimiyyəti imtiyazlı, kübar azlığın əlində cəmləşdirən idarəçilik formasıdır. Siyasi ideya tarixində dövlət idarəçiliyi formalarından birinin ifadəsi kimi aristokratiya anlayışının meydana gəlməsi Platon və Aristotel ilə bağlıdır. Qədimdə Sparta, Roma (e.ə. VI-I əsrlər), Karfagen; orta əsrlərdə Avropada Venesiya, Pskov və Novqorod feodal respublikaları aristokratiyaya misal ola bilər.

Avtokratiya (yun. Avtokratiya - mütləqiyyət) bir şəxsin, partyia və ya hər hansı bir təsisatın qeyri-məhdud və nəzarətsiz tam hakimiyyətindən ibarət idarə formasıdır.

Avtoritarizm – hakimiyyətin sözsüz tabeçiliyə əsaslanan idaərətmə üsuludur. Hər bir cəmiyyətin inkişaf xüsusiyyətləri və milli xüsusiyyətləri ilə əlaqədar olaraq avtoritarizmin aşağıdakı formaları olur: despotiya, tiraniya, hərbi-polis və faşist rejimləri.

Avtoritarizm sistemi şəraitində demokratik qərarlar ya ümumiyyətlə çıxarılmır, ya da saxta xarakter daşıyır: hökuməti xalq yaratmır və ona nəzarət etmir. Avtoritarizm üçün həddindən artıq mərkəzləşmə, hökumət üzvləri

arasındakı münasibətlərdə ciddi iyerarxiya, hərbi-cəza aparatına istinad, müxalifətə qarşı terrorçuluqdan geniş istifadə səciyyəvidir. Avtoritar dövlətdə ali hakimiyyət, adətən, «liderin» (fürer, duçe, kaudilyo və i.a.) əlində mərkəzləşir.

Avtoritar idaretmə üsulunun əsas formalarından biri totalitarizmdir. Totalitarizm (latın mənşəli sözdür, bütöv, tam anlayışı deməkdir)- idarətemənin elə bir formasıdır ki, bu zaman dövlət cəmiyyət həyatının bütün sahələri üzərində tam hakimiyyətə malikdir.

Avtoritar idarəetmə üsulunun digər forması olan monarxiyada (təkhakimlik) – hakimiyyət faktiki və ya formal olaraq vahid dövlət rəhbərinin əlində cəmləşir. Monarxiyanın səciyyəvi cəhətlərindən biri odur ki, hakimiyyət bir nəfərdən digərinə irsi olaraq keçir.

Tiraniya qəddarlığa, zorakılığa və özbaşınalığa əsaslanan təkhakimiyyətlikdir.

Plutokratiya – dövlət, hakimiyyətin ən varlı təbəqələrin əlində cəmləşdiyi siyasi quruluşdur.

Oxlokratiya – idarəolunmayan qara kütlənin hakimiyyətidir.

Anarxiya (yunanca hakimiyyətsizlik) idarə üsulunu təbliğ edən cərəyan anarxizmdir. Anarxizmin əsas ideyası hər cür dövlət hakimiyyətini inkar etməkdən və hər bir şəxsiyyətin qeyri-məhdud azadlığının təbliğindən ibarətdir. Anarxizmin aşağıdakı xüsusiyyətləri vardır:

1) dövlət hakimiyyətinin hər hansı islahatına mənfi münasibət;
2) xırda xüsusi mülkiyyətin müdafiəsi;
3) yeni cəmiyyətin qurulması yolunda hər hansı bir inqilabdan imtina edilməsi.

Demokratiya – xalq hakimiyyəti deməkdir, elə bir siyasi quruluşdur ki, orada xalq hakimiyyətin mənbəyidir, bərabərlik və azadlıq prinsipləri hökm sürür. O, çoxluğun hakimiyyətini, vətəndaşların hüquq bərabərliyini, qanunun aliliyini təsdiq edir və dövlət orqanlarının seçilməsini təmin edir.

Dövlət idarəçiliyi forması olmaq etibarilə demokratiya bir sıra səciyyəvi əlamətlərə malikdir:

1. Xalqın suverenliyinin, hakimiyyətinin hüquqi cəhətdən tanınması və təsisatlanmış şəkildə ifadə olunması.
2. Əsas dövlət orqanlarının seçkili olması.
3. Dövlətin idarə olunmasında vətəndaşların hüquq bərabərliyi.
4. Qərarların çoxluq tərəfindən qəbul edilməsi.

Siyasi sistemin hər bir tarixi forması cəmiyyətin inkişafında mühüm keyfiyyət mərhələsi olmuşdur.

### *3. Siyasi rejim*

Cəmiyyətin siyasi təşkilinin mahiyyətinin açıqlanması üçün siyasi rejimin tədqiqi çox böyük əhəmiyyətə malikdir. Belə ki, bu kateqoriya, cəmiyyətin siyasi təşkilinin sinfi məzmunu və mahiyyətini, siyasi hakimiyyətin mövcudluq metodları və strukturunu daha dolğun və konkret xarakterizə etməyə imkan verir. Siyasi rejim kateqoriyasından cəmiyyətin siyasi həyatını təhlil etmək üçün istifadə olunur.

Bizim siyasi elmimizdə siyasi rejim kateqoriyası bu yaxınlardan tədqiq edilməyə başlamışdır və onun tədqiqi ilə əsas etibarilə hüquq elminin nümayəndələri məşqul olmuşdur ki, bu da onun məzmununda öz izini qoymuşdur. Siyasi rejim bu və ya digər dövlətin sinfi mahiyyətini ifadə edərək, dövlət hakimiyyətinin təşkilinin əsas xüsusiyyətlərini, metodlarını ortaya çıxarır və buna görə də dövlətin əsas daxili tərəflərindən birinə çevrilir. Bu tədqiqi nəticənin qüsuru ondadır ki, bütün məzmun yalnız fəaliyyətlə əlaqələndirilir. Lakin məlumdur ki, dövlət hakim sinif tərəfindən siyasi hakimiyyətin təşkili üçün əsas vasitə olsa da, sonuncu yalnız onun fəaliyyəti ilə məhdudlaşmır. Bu gün artıq dövlət və siyasi hakimiyyəti eyniləşdirmək olmaz, çünki siyasi hakimiyyət təkcə dövlət vasitəsilə deyil, həm də siniflərin siyasi təşkilatlarının vasitəsilə realizə olunur. Buna görə də siyasi rejim dövlət forması ilə yanaşı, bütün cəmiyyətin siyasi təşkilinin formasını da xarakterizə edir. V.İ. Razin çox düzgün olaraq qeyd edir ki, «siyasi rejim probleminin tədqiqində yalnız dövlətin formasını aydınlaşdırmaqla kifayətlənmək olmaz, çünki siyasi rejim təkcə dövlət orqanları vasitəsilə deyil, sinfin bütöv diktatura sisteminin köməyilə realizə olunur. Siyasi rejimdə monopoliya ilə dövlətin birləşməsi öz aydın ifadəsini tapır».[1]

Zənn edirik ki, siyasi rejimin məzmununu bu müəllif aşağıdakı elementləri qeyd etməklə daha dolğun ifadə etmişdir: «1. Nümayəndələr təsisatının yaradılma qaydası, seçki qanunu və səsvermə sisteminin mahiyyəti. 2. Nümayəndələr təsisatı palatalarının qarşılıqlı əlaqəsi. 3. Qanunverici və icraedici hakimiyyət orqanlarının qarşılıqlı əlaqəsi. 4. Mərkəzi və yerli idarəetmə orqanları arasındakı qarşılıqlı əlaqə. 5. Dövlətdə güc orqanlarının vəziyyəti və fəaliyyəti. 6. Hakim sinfin qeyri dövlət təşkilatlarının rolu. 7. Qanun əsasında yaranmayan və fəaliyyətləri hüquq normaları ilə nizamlanmayan müxtəlif hərbi dəstələrin sayı və aktivliyi. 8. Siyasi rejimdə partiya, kütləvi informasiya vasitələrinin fəaliyyət şərtləri, vəziyyəti, təsir dairəsi ».[2]

Əlbəttə ki, heç də siyasi rejimin göstərilən bütün elementləri eyni mənalı deyil, lakin birlikdə onlar siyasi rejimin məzmunu haqda çox dolğun təsəvvür yaradır. Bununla da tam qanunauyğun olaraq siyasi hakimiyyətin realizə edilməsi real metod və vasitələrinə xüsusi əhəmiyyət verilir. Bu, siyasi rejimin, siyasi demokratiyanın ölkədəki vəziyyəti, halı kimi şərh edildiyi zamanlarda xüsusilə zəruridir. Burada siyasi rejim, bütün siyasi sistemin

---

[1] В.И.Разин «Политическая организация общества». Moskva 1967 s.92.
[2] В.И.Разин «Политическая организация общества». Moskva 1967 s.97.

xarakteristikası kimi nəzərdən keçirilir. Lakin ölkədə demokratiyanın vəziyyəti də siyasi rejimin tam xarakteristikasını vermir.

Antoqonist cəmiyyətdəki siyasi rejim hakim sinfin mənafeyinə uyğun olaraq demokratiyanı genişləndirir və ya məhdudlaşdırır. O, yalnız hakim sinfin öz maraqlarını ifadə etmək metodu və vasitəsidir. Antoqonist cəmiyyətdəki istənilən siyasi rejim şəraitində kütlə siyasi hakimiyyətdən uzaqlaşdırılır. Bu əlbəttə o demək deyil ki, ölkədə hansı siyasi rejimin olmasının kütlə üçün heç bir əhəmiyyəti yoxdur. Axı siyasi rejim onların hüquqi vəziyyətini müəyyən edir.

Siyasi hakimiyyətin metod və vasitələrinin xarakterizə edilməsi yalnız siyasi rejimin məzmununun əsas hissələrindən birini təşkil edir. O həmçinin siyasi hakimiyyətin təşkilinin əsas xüsusiyyətlərini və strukturunu da xarakterizə edir. Burada söhbət təkcə dövlət aparatı strukturunun əsas xüsusiyyətlərindən getmir. Siyasi rejim, həm qanunverici və icraedici, həm ali və yerli orqanlar arasındakı, həm də dövlət, partiya və hakim sinfin digər təşkilatları arasındakı münasibətlərini xarakterizə edir. Bununla da o cəmiyyətin siyasi təşkilinin daxili siyasi münasibətlər sistemini daha dolğun xarakterizə edir. Məhz siyasi hakimiyyətin bu münasibətləri və strukturu onun həyata keçirilmə metod və vasitələrini müəyyən edir.

Hakim sinfin partiya və digər qeyri - dövlət təşkilatlarının vəziyyəti müxtəlif dövlətlərdə müxtəlif olur. Əgər burjua - demokratik rejimində bu təşkilatların, xüsusilə partiyaların rolu böyükdürsə və onlar siyasi strategiyanın müəyyənləşdirilməsində əsas rol oynayırlarsa, əksinə avtoritar, totalitar və faşist rejimlərində onların siyasi hakimiyyətin yaradılması, realizəsindəki rolu sıfra bərabərdir.

«Siyasi rejim müəyyən dərəcədə təkcə cəmiyyətin siyasi təşkilini deyil, həm də bütövlükdə siyasi sistemi xarakterizə edir. Siyasi rejimin xarakteri vətəndaşların hüquq və azadlıqlarına, cəmiyyətdəki kütləvi siyasi təşkilatların vəziyyətinə öz təsirini göstərir. Bizim zənnimizcə o siyasi sistemin deyil, cəmiyyətin siyasi təşkilinin mahiyyətini xarakterizə edir. Çünki siyasi rejimin əsas vəzifəsi – siyasi hakimiyyət və onun həyata keçirilməsi metod və vasitələrinin yaradılmasıdır. Tarixi təcrübədən də gördüyümüz kimi quldarlıq və feodal siyasi sistemlərində kütlənin həyatın bu sahələrinə təsiri mümkün olmamışdır. Burjua siyasi sistemində isə bunu bir o qədər də şişirtmək olmaz.»[3]

Siyasi rejimin xarakterinə təsir edən amillərdən biri də ölkədəki sinfi qüvvələrin əlaqəsi, onların bir-birinə olan münasibəti və sinfi mübarizənin səviyyəsidir. Doğrudan da sinfi qüvvələrin əlaqəsi və sinfi mübarizənin səviyəssini öyrənmədən siyasi rejimin mövcudluğu səbəbini anlamaq çox çətindir. Lakin buna siyasi rejimlərin mövcudluğunun əsas təyinedici xüsusiyyəti kimi baxmaq olmaz. Çünki bununla biz cəmiyyətin quldar və feodal siyasi təşkilində siyasi rejimlərin mövcudluğunu açıqlaya bilmərik. Bəs onda siyasi rejimin bu və ya digər tipinin mövcudluğunun əsas səbəbi nədir? «Belə həlledici amil bizim fikrimizcə hakim sinfin daxilindəki siyasi qüvvələrin münasibəti, hakim sinfin məhz hansı qrupunun siyasi hakimiyyət çərçivəsi daxilində olması və bu hakimiyyətin hansı sosial əsaslara malik olmasıdır.»[4]

Siyasi rejim özündə siyasi hakimiyyətin həyatakeçirilmə metod və vasitələrini birləşdirir. O cəmiyyətin siyasi həyatının siyasi şərtlərini xarakterizə edir, başqa sözlə bu və ya digər ölkədə mövcud olan siyasi mühit, onun inkişafının müxtəlif dövrlərini xarakterizə edir.

Siyasi rejimin dəqiq izahını Polşa politoloqu E.Vyatr vermişdir. O yazırdı: «siyasi rejim anlayışı altında mən konstitisional idarə üsulu və bu sistemin təcrübəyə tətbiq edilməsini başa düşürəm».[5] Burada göstərilir ki, konstitusion cəhətdən möhkəmləndirilmiş idarə üsulu, heç də həmişə onların siyasi həyatda ifadəsi ilə üst-üstə düşmür. Siyasi rejim hər iki anlayışı özündə birləşdirən bir reallıqdır. Bununla yanaşı bu anlayış bu və ya digər ölkədəki real siyasi hakimiyyəti özündə əks etdirir. Bu, mövcud anlayış haqqında ən ümumi məlumat verir. Bu və ya digər ölkədəki siyasi rejim haqqında daha geniş məlumat əldə etmək üçün aşağıdakı suallara cavab vermək lazımdır:

1. Mövcud siyasi rejim necə yarandı? Burada siyasi hakimiyyət orqanlarına seçkilərin keçirilməsi və siyasi hakimiyyətin təşkili nəzərdə tutulur.
2. Siyasi hakimiyyət başında hansı siyasi qruplaşmalar durur? Bu mövcud qruplaşmaların məqsədlərini açıqlayır. Əgər hakimiyyət demokratik qüvvələrə məxsusdursa, onda əsas məqsəd cəmiyyətin demokratikləşdirilməsi olur. Əgər hakimiyyət başında hərbi elita və ekstremist cərəyanlar durursa, onda qarşıya qoyulan məqsədin məzmunu da dəyişir.
3. Hansı siyasi hakimiyyətə üstünlük verilir? Başqa sözlə, siyasi həyat ali hakimiyyətin xalq tərəfindən köklü surətdə qəbul edilməsi ilə xarakterizə oluna bilər /demokratiya / lakin o həm də siyasi zorakılıq, depressiya, insan şüurunun müxtəlif tipli miflər və yalan məlumatlarda manipulyasiya edilməsi ilə də xarakterizə edilə bilər.
4. Hansı partiyalar siyasi hakimiyyətə gəlməyə can atır? / kommunist, liberal, demokratik və s. / siyasi rejimin ölkədəki tipi çox vaxt siyasi partiyaların qarşıya qoyduqları məqsədlərlə müəyyənləşdirilir.
5. Siyasi müxalifətin fəaliyyətinə nə dərəcədə imkan yaradılır? Onun mövcudluğu, fikir azadlığı, KİV–in sərbəstliyini, hakim strukturların fəaliyyətinə nəzarət, iqtisadi və siyasi inkişafa dair alternativ proqramların irəli sürülməsini nəzərdə tutur. Müxalifət hökumətin istefasını və yeni seçkilər keçirilməsini tələb edə bilər. Beləliklə, ölkədə siyasi müxalifətin olub-olmaması siyasi rejimin müəyyənləşdirilməsində böyük rol oynayır.

---

[3] А.А.Лузан «Политическая жизнь общества»М-1989 стр.123
[4] Yenə orada səh. 125
[5] Е.Вятр «Типология политических режимов» Таллин -1991 стр. 55-56 T-I

6. Mövcud ölkədə şəxsiyyətin vəziyyəti necədir? Burada ən başlıcası vətəndaşların hüquq və azadılqları institutlarının realizəsi, insan hüquqları, dövlət idarəetməsində aktiv iştirak, mülkiyyət hüququ və s. nəzərdə tutulur. Buraya həmçinin şəxsiyyətin sosial müdafiəsi, mənəvi inkişafı və layiqli yaşama dərəcəsi də aid edilir. Məlumdur ki, bu və ya digər dövlətdə insan hüquqlarına nə dərəcədə əməl edilməsinin siyasi rejim təsnifatında böyük rolu vardır.

Əvvəllər siyasi rejim və idarəetmə formaları arasında çox dəqiq sərhəd qoyulurdu: idarəetmə forması dövlətin ali orqanlarının təşkilinin nizamı və onlar arasındakı əlaqə idisə, siyasi rejim dedikdə dövlətin idaəretmənin hansı demokratik hüquq və azadlıqları xarakterizə etməsi nəzərdə tutulurdu. Lakin sonra siyasi rejimin daha geniş şərhi yayılmağa başladı. Onun mahiyyəti bundan ibarət idi ki, siyasi rejim təkcə dövlət hakimiyyətini realizə etmə üsul və metodları ilə deyil, həm də bu və ya digər dövlətin sinfi məzmununu əks etdirən struktur xüsusiyyəti ilə xarakterizə olunur. Buna görə də siyasi rejim dövlət formasının daxili hissəsi, bəzən isə onun sinonimi kimi istifadə olunmağa başladı. Siyasi rejim idarəetmə formasından fərqli olaraq, daha elastikdir, yəni dövlət formasının dəyişkən hissəsi olub, bütün dəyişikliklərə qarşı daha həssasdır. Siyasi rejim təkcə faktiki idarəetmə forması, siyasi həyatın daimi və müvəqqəti forması deyil, həm də onların mövcud olduğu şərtlərin özüdür. Buna görə də bu kateqoriya çərçivəsindəki tədqiqat obyekti fəaliyyət göstərən norma və davranış növləridir ki, bu da şəxsiyyətin siyasi şüurunu formalaşdırır, siyasi prosesin iştirakçıları olan sinif, qrup və onların təşkilatlarının qarşılıqlı əlaqəsini reqlamentləşdirir. **Siyasi rejim probleminin tədqiqatının əsas aspekti idaəretmə formasından fərqli olaraq siyasi hüquq və azadlıqlardan istifadə etmə imkanıdır.** Beləliklə, siyasi rejim siyasi sistemin fəaliyyətini daha konkret xarakterizə edir. Bu anlayış vasitəsilə əsas institutlar, siyasi sistem, demokratiyanın inkişafı və tənəzzülü, kütləni idarəetmədə iştirak dərəcəsi, hakimiyyət orqanları və idarəetmənin fəaliyyət metodlarının mərhələləri müəyyənləşdirilir. Siyasi rejim anlayışı dövlətin daxili və xarici siyasətinin əsas istiqamtlərini müəyyənləşdirən siyasi dinamika anlayışı ilə çox sıx surətdə bağlıdır»[6]

Siyasi rejimin formalaşdırılmasında siyasi sistemin ayrı – ayrı komponentlərinin rolu eyni deyil. Onun formalaşdırılmasında əsas rol dövlətə məxsusdur. Dövlətdən sonra siyasi rejimin formalaşdırılmasında əsas yeri siyasi partiyalar tutur. İstənilən dövlətdə siyasi rejim ictimai təşkilatlar və xalq kütlələrinin fəaliyyəti ilə sıx surətdə bağlıdır.

Siyasi rejimin təhlilinə amerikan sosioloq və siyasətçiləri daha çox yer verirlər. Onlardan bəziləri, məsələn, K.Lovenşteyn siyasi rejimin meyarı kimi dövlət siyasətinin həyata keçirilməsində istifadə edilən metod və texnologiyaya əsaslanan prinsipi götürməyi təklif edir. Onun fikrincə siyasi rejimin müəyyənləşdirilməsi üçün aşağıdakı suallara cavab verməк lazımdır:

1. Hakim sinfin hansı qrupları hakimiyyət başındadır?
2. Hansı idarəetmə formasına üstünlük verilir – birbaşa güc vasitəsilə, ənənəvi, demokratik və s.
3. Əsas qüvvə kimi hansı siyasi partiya və ya partiya koalisiyası cıxış edir?
4. Sosial mübarizə və təsir institutlarının, həmkarlar ittifaqı və s. fəaliyyətinə nə dərcədə imkan verirlir?
5. Dövlətdə şəxsiyyətin vəziyyəti necədir?»[7]

Siyasi rejimin təsnifatına gəldikdə isə aşağıdakı əsas tarixi tipləri bir-birindən fərqləndirə bilərik:

«Real demokratiya – xalq tərəfindən seçilənlərin hakimiyyətidir. Bu rejim aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

a) Demokratik dövlətdə hakimiyyət xalqa məxsusdur.
b) Siyasi hakimiyyət demokratik şərtlər altında legitim xarakterə malikdir və mövcud qanunlara uyğun olaraq realizə olunur.
c) Hakimiyyət bölgüsü.
d) Xalqın siyasi qərarların qəbul edilməsinə təsir etmək hüququ.
e) Siyasi plyuralizm.
f) İnsan hüquqlarının yüksək dərəcədə realizəsi.

Demokratik rejimin iki geniş yayılmış forması məlumdur: prezident idarə üsulu, parlament rejimi».[8]

Totalitar rejim «dövlətin cəmiyyət həyatının bütün sahələrinə tam nəzarəti və insanların hakimiyyət və hakim ideologiyaya tabe edilməsi ilə xarakterizə olunur. Totalitar rejimə xas olan xüsusiyyətlər aşağıdakılardır:

a) Hakimiyyətin bütün cəmiyyət sahələrinə təsiri.
b) Birpartiyalılıq.
c) Bütün cəmiyyət həyatının ideallaşdırılması.
d) Kütləvi informasiya vasitələri üzərində tam nəzarət.
e) Güc sistemi».[9]

«Avtoritar rejim şəraitində siyasi fəaliyyət ciddi surətdə reqlamentləşdirilir. Buna uyğun olaraq, burada fəaliyyəti reqlamentləşdirilmiş leqal müxalifət mövcud olur. Bu, rejimin antidemokratik xarakterini sübut edən mühüm cəhət ondan ibarətdir ki, burada baş verən sosial konfliktlər zamanı hakimiyyət orduya arxalanır. Burada vətəndaşların siyasi hakimiyyətə münasibəti özgələşmə ilə səciyyələnir, yəni onlar hakimiyyətdə iştirak etməkdən kənarda qalır. Teokratik, hərbi və s. formalarda olur ».[10]

---

[6] Б.А. Стародубский. «О классификации форм буржуазных государств». Свердловск , 1964г., стр. 464-466.
[7] Ф.М.Бурлацкий , А.А.Галкин «Современный Левиафан». М-1995 стр.121.
[8] Политлогия. М.,1996, стр.139
[9] Политология. М., 1996.стр.141
[10] H.İ.Şirəliyev və F.F.Abbasov «Politologiya» Bakı., 1993 ,səh.160-161.

Beləliklə, siyasi rejim idarəetmə metodları və üsullarının məcmusudur, o dövlətin ictimai vəziyyətini, dövlət hakimiyyətinin fərdə, ictimai təsisiatlara, etnik birliklərə və i.e. münasibətini, cəmiyyətdə siyasi azadlığın səviyyəsini, şəxsiyyətin hakimiyyətə münasibətini və s. səciyyələndirir. Geniş mənada o həm də mülki cəmiyyətin strukturlarına aiddir və məcmu halında siyasi sistemin mahiyyətini ifadə edir.

## 8-ci MÖVZU

## SİYASİ PARTİYALAR VƏ İCTİMAİ – KÜTLƏVİ TƏŞKİLATLAR

### *1. Siyasi partiyalar, onların hakimiyyət uğrunda mübarizələrinin xarakteri, forma və üsulları, tipologiyası*

Siyasi sistemdə partiyaların mövcudluğu zəruri şərtlərdən biridir. Cəmiyyətdə mövcud olan müxtəlif sosial qruplar, siniflər, millətlər, təbəqələr ümdə mənafelərini ifadə etmək üçün öz sıralarından ən şüurlu və fəal nümayəndələrini irəli çəkirlər. Sosial qrupların bu hissəsi təşkilati cəhətdən formalaşaraq öz partiyalarını yaradırlar. («Partiya »latın sözü «partos»dan olub, «hissə» deməkdir).

Hazırda dünyada 1300-ə qədər siyasi partiya fəaliyyət göstərir. 1989-1991-ci illərdə SSRİ-də və Şərqi Avropa ölkələrində baş verən dəyişikliklərlə əlaqədar olaraq onların sayı daha da artmışdır. Məsələn, əvvəllər təkpartiyalı Gürcüstan və Ruminiyada hazırda 100-dən çox partiya mövcuddur. Hazırda dünya ölkələrinin çoxunda çoxpartiyalı, bəzilərində isə təkpartiyalı sistem mövcuddur.

Buna görə də politologiyada bu problem təkcə «partiya və dövlət hakimiyyəti», «partiya və siyasi rejim» baxımından deyil, həmçinin «partiya» və əhalinin etnik tərkibi baxımından da nəzəridən keçirilir.

Tarixə məlum olan ilk siyasi partiyalar qədim Yunanıstanda meydana gəlmişdir. Bu partiyalar təşkilati cəhətdən zəif formalaşmış quldarların müxtəlif təbəqələrinin mənafeyini ifadə edən az saylı qruplaşmalar idilər. Belə tipli partiyalar orta əsrlərdə də olmuşdur. Despotik monarxiya rejimlərində onlar siyasi həyatda çox kiçik rol oynayır, amansız təqiblərə məruz qalırdılar (məs. Rusiyada İvan Qroznının dövründə – A.Kurbskinin tərəfdarları, Fransada katoliklər və hugenotlar – kalvinizmin tərəfdarları və s.).

XVII əsrdə İngiltərədə yaranmış parlament partiyaları daha mütəşəkkil siyasi təşkilat kimi cıxış edirdilər. Onlar iki qrup parlament üzvləri idilər ki, bunların biri kral hakimiyyətinin tərəfdarları, digərləri isə əleyhidarları idi. Britaniyanın Amerikadakı müstəmləkələrində isə seçkili partiyaları fəaliyyət göstərirdilər, yəni yalnız müstəmləkə qanunvericilik orqanlarında yerlər əldə etmək uğrunda mübarizə aparırdılar. Amerikanın bu təcrübəsindən Avropada Böyük Fransa burjua inqilabi (1789-1793)gedişində, 1848-ci il inqilabından əvvəl və sonra geniş istifadə olundu.

Partiyaların təşkilati cəhətdən inkişafı prosesində təzəcə yaranmaqda olan fəhlə sinfinin ilk partiyalarının böyük təsiri olmuşdur (çartistlər, kommunistlər ittifaqı və s.). Hazırda mövcud olan parlament tipli partiyalar XIX əsrin axırlarında meydana gəlmişdir. II Beynəlmiləlin partiyaları belə partiyalardan idi.

XX əsrin əvvəllərində inqilabi hərəkatın gedişində inqilabi metodlara üstünlük verən yeni tipli partiyalar əmələ gəldi. Bu partiyalar isə kapitalizm cəmiyyətinin dəyişdirilməsini qarşısına məqsəd qoydu.

Deməli, partiya hakimiyyəti ələ almaq və ondan istfiadə etmək məqsədilə müəyyən ideologiya, ya da liderin tərəfdarlarının məqsədyönlü və mütəşəkkil qrupudur.

Siyasi partiyaların strukturu, əsas əlamətləri və funksiyalarını aşağıdakı sxemdən aydın görmek olar:



Hər hansı bir siyasi partiyanın fəaliyyətinin əsas məzmununu hakimiyyət uğrunda mübarizə və öz proqram konsepsiyasını (iqtisadi, siyasi və mənəvi) qanunverici, icraedici və məhkəmə hakimiyyəti vasitəsilə həyata keçirmək təşkil edir. Hakimiyyət uğrunda mübarizədə partiyalar öz proqramlarını hazırlayır, təkmilləşdirir, mövcud tarixi şəraitdə, ölkədə sosial vəziyyətin dəyişilməsi ilə əlaqədar olaraq strategiya və taktikasını da dəyişir.

Siyasi partiyaların kütlələrə təsir gücü və onların hakim mövqeyə nail olması və ya məğlubiyyətə uğraması aşağıdakı amillərdən asılıdır:

1. Hərəkatın məqsədlərini müəyyən edən nəzəri baxışların hazırlanması, onların həyatla uyğunlaşması və ideologiyanın cəlbediciliyi və onun geniş kütlələrin mənafelərərini necə əks etdirməsi.
2. Təşkilati formalaşma və təşkilat strukturanın səfərbər olması, nəzərdə tutulan məqsədin həyata keçirilməsini bacarmaq. Bir çox Qərb ölkələrində burjua demokratiyası çərçivəsində parlament tipli partiyalar öz mövqelərinə nail olmaq üçün yüksək qabiliyyət və bacarıq nümayiş etdirirlər. Hərçənd bu mövcud qaydaların özündə də əsaslı istisna halları vardır: Amerikada Respublikaçılar və Demokratlar partiyası ölkənin demokratik siyasi sistemində müvəffəqiyyətlə fəaliyyət göstərsələr də öz təşkilati strukturlarına görə hər şeydən əvvəl yalnız seçkili partiya olaraq qalırlar.
3. Partiya liderlərinin nüfuzu və səriştəliliyi.
4. Partiyanın lazımı səviyyədə kütləviliyi və onun üzvlərinin fəallığı. İngiltərədə leyborist partiyasının 5 milyon, kommunist partiyasının isə 15 min nəfər üzvü vardır. Bu kütləvilikdən asılı olaraq təbiidir ki, onların kütlələrə təsiri də müxtəlifdir.
5. Konkret tarixi şəraitdə partiyanın öz fəaliyyətini əməli surətdə təşkil etmək bacarığı.

Siyasi partiyalar müxtəlif funksiyaları yerinə yetirirlər:

- ictimai rəyi formalaşdırırlar;
- siyasi həyatda vətəndaşların fəal iştirakını təmin edirlər;
- vətəndaşların iedoloji tərbiyəsində iştirak edirlər;
- hakimiyyət orqanlarına öz nümayəndələrini təqdim edirlər;
- parlament və hökumətin siyasi fəaliyyətinə təsir göstərirlər;
- vətəndaş cəmiyyəti ilə dövlət arasında münasibətlərdə vasitəçi rolunu oynayırlar;
- müəyyən sosial qrupların mənafeyi naminə cəmiyyətin fəaliyyətini istiqamətləndirirlər.

Politoloqlar partiyaların təsnifatını aşağıdakı tiplərdə əsaslandırırlar:

1. Sinfi mənsubiyyətinə, sosial əlamətlərinə görə; burjua, fəhlə (sosial – demokratik, KP), zəhmətkeşlərin kəndli partiyaları. 1919 – cu ildə Rusiyada və Azərbaycanda fəhlə partiyası (sosial - demokratik) və onun daxilində iki cərəyan: bolşeviklər və menşeviklər; burjua partiyası – kadetlər fəaliyyət göstərdilər.
2. İctimai tərəqqiyə münasibətinə görə: radikallar (inqilabi), mühafizəkar (rejimin saxlanılması), konservativ (irticaçı), islahatçı, sentrist.
3. Hakimiyyətə gələrlərsə – ölkənin idarə edilməsində istifadə edəcəkləri forma və metodlarına görə: - liberal, demokratik, diktator;
4. Hakimiyyətə münasibətə görə: hakim, müxalifətçi, neytral (bitərəf-sentrist);
5. Mənafeyini müdafiə etdiyi şəxslərin və təbəqələrin etiqadına görə: xristian, islam, buddist (məsələn, İranda İslam partiyası, Pakistanda «İslam Cəmiyyəti», Yaponiyada «Komeyto» buddist partyiası və Azərbaycanda İslam partiyası, Şiə partiyası);
6. Təşkilati quruluşuna və mövcud cəmiyyətdə tutduğu roluna görə; Amerika politoloqu S. Koen bu cəhətə görə partiyaları dörd növə ayırır:
   1. Partiya siyasi avanqard kimi.
   2. Parlament tipli partiya. Bu partiyanın əsas iki funksiyası vardır:
   - parlament və digər seçkilərdə qələbə çalmaq;
   - parlamentin işinə nəzarət etmək.

Seçkilərdə qələbə çalan partiya – hökumətə və onun başçısına təsir göstərmək imkanına malik olur.

Bu partiyalarda demokratik mərkəziyyət və aşağı təşkilatların yaradılmasında istehsalat prinsipi yoxdur. Burada fraksiya və qruplaşma azadlığı vardır.

3. Seçki kampaniyalarına xidmət edən partiyalar. ABŞ-dakı partiyalar belələrindəndir. Onların başlıca vəzifəsi öz namizədlərinin seçkiqabağı kampaniyasını keçirməkdir. (Vəsait toplamaq, təbliğat – təşviqat işi aparmaq). Bu partiyalar yalnız seçki zamanı mövcuddur.

Burada ilk təşkilatlar, partiya bileti, üzvlük haqqı və partiyaya qəbul yoxdur. Hər il seçkilər keçirildiyi üçün bu partiyalar də həmişə fəaliyyət göstərirlər.

4. Hər hansı siyasi xarakterli bir nəzəriyyənin ətrafında deyil, ümumi baxışların, marağın, ünsiyyətin və müəyyən problemlərin müzakirəsi məqsədi ilə insanları birləşdirən partiya klubları. S.Koenin fikrincə keçmiş SSRİ –də belə partiyalara Xalq cəbhələri aid edilə bilər. (Ukraynada RUX, Litvada Sayudis, AXC və s.).

### *2. Təkpartiyalı və çoxpartiyalı siyasi sistemin çətinlikləri və ziddiyyətləri. Azərbaycan Respublikasında çoxpartiyalılığın xüsusiyyətləri*

Politologiyada və siyasi həyatda təkpartiyalı və çoxpartiyalı siyasi sistemlər bir – biri ilə müqayisə edilir və alternativ kimi bir – birinə qarşı qoyulur. Bununla belə siyasi həyatda keçid formaları da mövcuddur.

Məsələn, keçmiş SSRİ-də və hazırda müstəqil dövlətlərin bəzilərində təkpartiyalı siyasi sistem şəraitində çoxpartiyalılıq mövcuddur (Orta Asiya).

Təkpartiyalı siyasi sistem özünün müsbət və mənfi tərəfləri ilə səciyyələnir.

Birincisi – təkpartiyalı sistemdə dövlət hakimiyyətinin bütün formalarında səmərəli istifadə olunur: siyasi qərarlar qısa müddətdə qəbul edilir və həyata keçirilir, nisbətən uzun müddət hakimiyyət sabit olur. Lakin onun üstünlükləri nisbidir, totalitar, hətta açıq və ya gizli despotiya növünə çevrilir.

İkincisi – təkpartiyalı sistemdə partiya dövlətlə birləşir, hakimiyyəti öz inhisarına çevirir. Bir partiyanın uzun müddət hakimiyyətdə qalması halı coxpartiyalı siyasi sistemdə də mövcud ola bilər. Məsələn: Meksikanın konstitusiyalı – inqilabi partiyası 1948 –ci ildən hakimiyyətdədir, o dövlət hakimiyyəti ilə birləşərək burjuaziyaya sədaqətlə xidmət edir. Ölkədə hələ xırda müxalifətçi partiyalar da mövcuddur, onların parçalanması süni olaraq müdafiə olunur. Onlar ölkənin siyasi vəziyyətinə az təsir göstərirlər.

Hakimiyyətdə olan kommunist partiyalarının dövlət hakimiyyətini öz inhisarına çevirdiyi Şərqi Avropa ölkələrində və Çin Xalq Respublikasında çoxpartiyalılıq şərti xarakter daşıyırdı, çünki bu ölkələrdə fəaliyyət göstərən başqa partiyalar faktiki olaraq hakimiyyətə qarşı müxalifətçi olmamış, hakimiyyət uğrunda siyasi mübarizə aparmamışlar.

Asiya və Afrikanın inkişaf etməkdə olan ölkələrinin əksəriyyətində təkpartiyalılıq mövcuddur. Bu onunla bağlıdır ki, burada dərin sinfi differensasiya yoxdur. Mövcud partiyalar intibah naminə «siniflərdən üstün milli birlik» ideyasını təbliğ edirlər.

Üçüncüsü – təkpartiyalı sistem həmkarlar ittifaqını, xalq hərəkatını bir qayda olaraq öz nəzarəti altına almaqla demokratiyanı məhdudlaşdırır, boğur.

Müasir cəmiyyətdə, çoxpartiyalı siyasi sistemin obyektiv amilləri aşağıdakılardır:

- Mülkiyyət formalarının çoxluğu, cürbəcür iqtisadi qüvvələrin mövcudluğu, məqsəd və maraqların müxtəlifliyi;
- Sinifdaxili və siniflər arasında olan mənafe fərqlərinin çoxluğu;
- Dinə etiqad müxtəlifliyi;
- Millətlərarası fərqlər və ziddiyyətlər;
- Həm siniflərarası, həm də siniflər daxilində olan insan mənafelərinin müxtəlifliyi.

Çoxpartiyalı sistemin də müsbət və mənfi tərəfləri vardır. U.Çorçil deyirdi: «demokratiya idarəetmənin ən pis növüdür, ancaq təəssüflər olsun ki, bəşəriyyət bundan yaxşısını fikirləşməyib». O, bunu nəzərdə tuturdu ki, partyialararsı mübarizə bəzən aktual siyasi problemlərə dair qərarların qəbul edilməsini ləngidir.

Şərqi və Qərbi Avropa demokratiyalarının təcrübəsi çoxpartiyalı siyasi sistemlərin bəzi sabit səciyyəsini müəyyən etməyə imkan verir:

1. Ölkədə çoxlu partiyaların mövcud olması nəyə dəlalət edir?

Məsələn, Gürcüstanda yüzə qədər siyasi partyia yaranmışdır. Polşada, Macarıstanda, Ruminiyada də həmçinin. Bununla belə, dünyada artıq çoxdandır ki, partiyaların çoxluğu siyasi sistemdə demokratizmin göstəricisi hesab olunmur. Əgər partiyalar müəyyən həddən artıq olarlarsa, bu zaman xalqın iradəsinin ifadə edilməsi (prezident, bələdiyyə idarəsi, parlament seçkiləri və s.) çətinləşir. Səslərin parçalanması baş verir, bu isə təkrar seçkilərə gətirib çıxarır. Partiyaların platformasına dair həddən çox məlumat seçicilərin seçkilərə marağını azaldır.

2. Həddən artıq çoxpartiyalılıq bir qayda olaraq, koalision hökumətin yaranmasına gətirib çıxarır, bunlar isə hakimiyyətin qeyri – stabilliyi ilə səçiyyələnir və möhkəm olmadığından uzun sürmür.
3. Çoxpartiyalı siyasi sistemlər bir çox partiyaların mövcudluğu ilə yanaşı, bu və ya digər müddətə hakimiyyətin ancaq bir partiyanın əlində olduğu zaman dözümlü olurlar.

Bu zaman: Birincisi – hakim partiyanın heç bir səhvini bağışlamayan, daima onun hakim səlahiyyətini şübhə altına almağa cəhd edən tənqidçiləri, opponentləri, rəqibləri olur;

Digər tərəfdən – hakim partiya dövlətlə birləşir. O, öz kadrlarını dövlət vəzifələrinə irəli çəkir, onların vasitəsi ilə öz siyasətini həyata keçirir.

4. Qərb demokratiyasının təcrübəsi sübut edir ki, çoxlu partiyaların mövcud olduğu şəraitdə hakimiyyətin həyata keçirilməsində real olaraq, adətən 2-3 partiya iştirak edir. Digər partiyalar isə müəyyən sayda mandat almaqda, maksimum koalision hökumətin tərkibində müvəqqəti iştiraka nail olmaq uğrunda mübarizə aparırlar.
5. Dövlət hakimiyyətində iki aparıcı partiyanın dövrü olaraq bir – birini əvəz etməsinin sosial məzmunu vardır. Bəziləri sosial proqramlara üstünlük verir (ABŞ-da Demokratlar partiyası, İngiltərədə leyboristlər, Almaniyada sosial - demokratlar); bəziləri isə investisiyaların artırılmasına imkan yaradır, zəhmətkeşlərin hüquqlarını məhdudlaşdırır, sahibkarların mənafeyini müdafiə edir. (ABŞ –da Respublikaçılar partiyası, İngiltərədə – konservatorlar, Almaniyada Xristian – demokratik İttifaqı, Xristian Sosialist İttifaqı). Bu partiyalar iqtisadiyyatın inkişafını stimullaşdırırlar. Mübarizə nəticəsində onları sosial – müdafiyəyə üstünlük verən partiyalar əvəz edirlər. Onlar isə öz proqramlarını həyata keçirirlər ki, bu zaman necə deyərlər yığılmış sərvətləri «sərf edirlər». Sonra yenə hakimiyyətə sahibkarlığa rəğbət bəsləyənlərin tərəfdarları olan partiyalar gəlirlər.

Dünyada ən çoxsaylı partiyalar kommunist, sosial – demokrat, xristian demokrat və burjua partiyalarıdır. Burjua partiyaları öz qüvvələrini kapitalizmin müdafiəsi üçün birləşdirməyə başladılar. 1973 – cü ildə Avropa Demokratik İttifaqı (ADİ) yarandı, 1983 – cü ildən bu təşkilat Beynəlxalq Demokratik İttifaqa (BDİ) çevrildi ki, bu ittifaqa dünyanın 28 ölkəsinin 30 partiyası daxildir.

Dünyada 79 sosial – demokrat partiyası vardır ki, onlardan 68-i Sosinternə daxildir və öz sıralarında 19 milyon üzvü birləşdirir. Azərbaycan sosial-demokrat partiyası onun fəxri qonağıdır. Bir sıra sosial-demokrat partiyaları fəhlə hərəkatında aparıcı rol oynayır. Onların hakimiyyətə gəlməyə real imkanları da vardır: (Avstriya, Fransa, İsveçrə, İspaniya, Belçika, Hollandiya, Danimarka, Norveç, İngiltərə, Almaniya, Yaponiya, Avstraliya və Yeni Zenlandiya). Sosial – demokratik partiyalarının mövqeləri bütün dünyada möhkəmlənir. Bunu xüsusilə Şərqi Avropa ölkələrində görmək olar. Sosial - demokratlar partiyasını zəhmətkeşlər partiyası da adlandırmaq olar. Bu partiyanın sosial tərkibinə: fəhlələr, qulluqçular, tələbələr, məmurlar, kəndlilər, sənətkarlar və pensiyaçılar daxildirlər. Bu partiyalarda fraksiyalar, cərəyanlar arasında demokratik və qarşılıqlı əlaqə mexanizmi mövcuddur. Sosial demokratiyanın məqsədi – demokratik sosializmdir, kaptalizmin tədricən belə bir cəmiyyətlə dəyişdirilməsidir (Onların baxışlarına görə sosializmin meyarı-azadlıq, sosial ədalət və həmrəylikdir). Belə bir cəmiyyətə qədəm qoymaq üçün həyatın bütün sahələrində demokratiyanın genişləndirilməsi zəruridir:

- İqtisadi sahədə – bütün mülkiyyət formalarının yanaşı mövcud olması və qarşılıqlı əlaqəsi, varlıların iqtisadi hökmranlıqdan məhrum edilməsi, zəhmətkeşlərin iqtisadiyyatın idarə edilməsində iştirakı;
- Sosial sahədə – bütün zəhmətkeşlərə geniş hüquqlar təmin etmək: onların müalicəsinə, istirahətinə, təhsilinə, mənzil ehtiyaclarına, ictimai təminatına qayğı göstərmək;
- Siyasi sahədə xalq üçün xalqın idarə etməsinin təmin edilməsi.

Kommunistlərlə sosial – demokratların baxışları arasında mühüm fərqlər mövcuddur: sosial – demokratlar inqilabi yolu inkar edirlər, onlar məqsədə çatmaq üçün demokratiyanı inkişaf etdirməklə islahat və təkamül yolunun tərəfdarıdırlar. Sosial – demokratlar tarixdə xalq kütlələrinin roluna başqa cür baxırlar. Onlar kütləri yalnız onları hakimiyyətə gətirəcək seçicilər kimi görürlər. Onlar parlament mübarizə formasına, cəmiyyət həyatında kapitalın roluna, inhisarın fəaliyyətinə başqa cür baxırlar.

Yeni siyasi partiyaların yaradılması prosesi getdikcə genişlənir. Bu proses gərgin siyasi mübarizə şəraitində baş verir.

Müasir mərhələdə çəmiyyətimizin siyasi həyatında ictimai-siyasi hərəkat və təşkilatların, siyasi partiyaların sürətlə artması səciyyəvi haldır.

## AZƏRBAYCAN RESPUBLİKASINDA ÇOXPARTİYALILIQ

Azərbaycanda siyasi sistemin təkamülü, respublikamızın sosial-iqtisadi həyatının inkişaf dinamikası, demokratiyanın bərqərar olması çoxpartiyalı sistemin yaradılması ilə nəticələndi. Siyasi həyatın plyuralizmi vətəndaşların məqsəd və mənafeyinin sabit formada təmsil edilməsi prosesində partiyalar siyasi hakimiyyətin stabilləşdirilməsində böyük rol oynayırlar.

XX əsrin əvvəllərində və 1920-ci ilə qədər Azərbaycanda müxtəlif istiqamətdə fəaliyyət göstərən siyasi partiyalar, təşkilatlar mövcud idilər: sosialist orieyentasiyalı partiyalar (RSDP-nin Bakı təşkilati, «Hümmət», «İctimayun-e-Amiyun», «Bakı fəhlələrinin İttifaqı», «Azad» və s.); liberal orientasiyalı

partiyalar («Xalq azadlığı Partiyasının Bakı şöbəsi»(kadetlər) Müsəlman konstitusiyalı partiya «İttifaqi - Müslimin»); milli partiyalar («Qeyrət», «Difai» (Qoruma), «Müdafiyə»), «Müsavat» (Bərabərlik), «Mücandin» və s.), rus («Rus zəhmətkeşlərinin Komitəsi», «Rus xalqının İttifaqının şöbəsi») və sionist təşkilatları («Sion fəhlələri» («Poaley Sion»), Sionist-sosialist fəhlə partyiasının Bakı qrupu»).

Bu gün Azərbaycan Respublikasında çoxpartiyalı siyasi sistem bərpa olunub. Hal-hazırda respublikamızda siyasi partiyaların, birliklərin, ictimai hərəkatların getdikcə artması prosesi gedir.

Azərbaycan Respublikası Konstitusiyasının 58-ci maddəsində deyilir: «demokratik dövlətdə hər bir vətəndaş qanun çərçivəsində fəaliyyət göstərən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai kütləvi təşkilat və hərəkat yaratmaq və ya mövcud könüllü birliyə daxil olmaq hüququna malikdir». Bütün birliklərin sərbəst fəaliyyətinə dövlət tərəfindən təminat verilir.

Azərbaycan Respublikasında çoxpartiyalı sistemə keçid «Qarabağ problemi» ərəfəsində qeyri-formal təşkilatların, klubların əmələ gəlməsi ilə başlanmışdır. 1991-ci ilin yanvarınadək respublikada 37 ictimai – siyasi təşkilat rəsmi qeydiyyatdan keçmişdir. Ali Sovetə seçkilərin hazırlanıb keçirilməsində iştirak etmək üçün «Müstəqil Azərbaycan bloku» yaranmışdır ki, bura: AXC hərəkatı, SD partiyası, Milli istiqlal partiyası, «Çənilibel» cəmiyyəti, «Varlıq», «Azərbaycanın müstəqilliyini müdafiə təşkilatı», «Bakı alimlər klubu», «Qayğı», «Birlik», «Dirçəliş», «Bakılı», «Xudu Məmmədov adına təbiəti sevənlər klubu», «Yurddaş», «Yurd», «Azərbaycan müsəlmanları gəncləri cəmiyyəti», «Azərbaycan hüquqçular cəmiyyəti», «Bakı incəsənət mərkəzi»-daxil idi. Daha sonra formal və qeyri - formal Kütləvi İnformasiya Vasitələri yaranmağa başlandı.

1992-ci ildə «İctimai Birliklər haqqında Qanun», «Siyasi partiyalar haqqında Qanun» qəbul olundu. Bu qanunlara əsasən ictimai-siyasi təşkilatlar öz Nizamnamə və Məramnamələrinə uyğun şəkildə, Konstitusiya çərçivəsində fəaliyyət göstərməlidirlər.

İndiki mərhələdə inkişaf meyllərindən biri mövcud siyasi partiyaların və birliklərin fəallığın artmasıdır, onların dövlət hakimiyyəti onqanları ilə qarşılıqlı əlaqəsidir. Onlar siyasi fəaliyyətə getdikcə daha çox cəlb olunurlar. Siyasi partiyaların liderləri öz platformalarının kütləvi surətdə müdafiə edilməsini təşkil etmək üçün birgə siyasi tədbirlər keçirilməsi üçün hətta, əks istiqamətli birliklərlə də danışıqlar aparırlar.

Bir sıra hallarda belə danışıqlar və razılaşmalar nəticəsində birgə təşkilat quruluşları yaranır (birgə ittifaqlar, bloklar və s.). Belə birliklərdən kütləvi nümayişlərin, mitinqlərin, tətillərin keçirilməsində istifadə olunur ki, cəmiyyətdə gərginliyin güclənməsinə səbəb olur, intizamsızlıq yaranır. Məsələn, Bakıda 1992-ci ilin məlum mart və may hadisələri zamanı Yuxarı Qarabağda, Goranboyda, respublikanın sərhəd rayonlarında, ya da 1993-cü il oktyabrında gərgin vəziyyətlə əlaqədar olaraq bütün siyasi partiyaların və təşkilatların möhkəm birləşməsi yaxşı səmərə vermişdir. 1998-ci ilin 10 oktyabrında prezident seçkiləri mərhələsində və sonralar hakimiyyət strukturlarının yaradılması və dövlət aparatının formalaşması zamanı siyasi partiyaların birliyinin pozulması müşahidə edilmişdir.

Hazırda Azərbaycan Respublikasında 500-ə qədər ictimai-siyasi təşkilatlar, birliklər fəaliyyət göstərir. 40-a yaxın siyasi partiya rəsmi qeydiyyatdan keçmişdir. Siyasi partiyaların haqqında Qanunda deyilir ki, «siyasi partiyalar siyasi proseslərdə fəal iştirak edən təşkilatlardır».

Azərbaycan Respublikasının siyasi həyatında iştirak edən aşağıdakı partiyaları göstərmək olar:

Yeni Azərbaycan partiyası (Heydər Əliyev - sədr) Parlament tipli partiyadır. Onun məqsədi Azərbaycan Respublikasının dövlət müstəqilliyini, ərazi bütövlüyünü təmin etmək, hüquqi dövlət və vətəndaş cəmiyyətinin yaradılmasıdır. Azərbaycan Respublikasının Prezidenti c. H.Əliyev YAP-ın I-ci qurultayında (20-24 dekabr 1999-cu il) qeyd etmişdir ki, «Yeni Azərbaycan partiyası Azərbaycanın bu günü, sabahı və gələcəyinin partiyasıdır»;

Milli istiqlal partiyası.

Ana Vətən partiyası.

AXCP.

Müsavat partiyası.

Azərbaycan kommunist partiyası və s.

Azərbaycanda mövcud olan partiyaların ümumi səciyyəvi xüsusiyyətləri vardır:

1. Cəmiyyətin siyasi həyatında fəaliyyətinə görə partiyalar iqtidar və müxalifət partiyalara bölünürlər;
2. Təşkilati cəhətdən tamamilə formalaşmış və tərkibi kütləvi xarakter olan partiyaların sayı azdır (Yeni Azərbaycan Partiyasını çıxmaq şərtilə, -300 mindən cox üzvü), yəni partiyalar arasında hakimiyyəti tam ələ almağa hazır olan və ölkənin inkişafı üçün məsuliyyəti öz üzərinə götürəcək partiyalar azdır;
3. Respublikada fəaliyyət göstərən partiyalar güclü və zəif strukturuna görə fərqlənirlər.

4. Bir çox partiyaların müxtəlif səbəblərdən (nəzəri biliklərin çatışmamazlığı, öz məqsədlərinin sona kimi açmaq istəmələri, ölkənin böhrandan çıxarılmasının taktiki planlarının işlənib hazırlanması) proqram platformaları hələ dəqiq deyil, burada çoxlu əsassız şüarlar və müddəalar vardır.
5. Bəzi partiyalar qruplaşma, möhkəmlənmə mərhələsini keçdikləri üçün, burada gərgin mübahisələr, mövqelərin toqquşması və hətta hakim mövqelər uğrunda mübarizə gedir.
6. Bir sıra partiyaların sosial bazası aydın deyil, onların hansı sosial təbəqələrin mənafeyini müdafiə edəcəyi dəqiqləşməyib. Onların vətəndaşların sosiallaşmasına təsiri azalmışdır. Bunların bəziləri ümummilli partiya roluna can atırlar.

Bu gün başlıca məqsəd mövqelərin razılaşdırılması, dövlətin və partiyaların qarşısında duran ən ümdə problemlərin həlli mənafeyinə bütün demokratik islahat tərəfdarlarının qüvvələrinin birləşdirilməsini, ekstremistləri, təcavüzkarları, mafiyanı və korrupsiyanı rədd etməyi təşkil etmək lazımdır. Son vaxtların hadisələri göstərir ki, siyasi sistemin demokratikləşdirilməsi şəraitində iqtidar yönümlü bir sıra siyasi partiyaların, birliklərin sosial-siyasi fəallığı artır.

### *3. İctimai - kütləvi təşkilatlar və hərəkatlar*

Müasir cəmiyyətin ictimai – siyasi həyatında ictimai - kütləvi təşkilatlar fəal iştirak edirlər. Ayrı – ayrı fərdlər, qruplar, sosial təbəqələr, kollektivlər cəmiyyətin siyasi həyatında ictimai təşkilatlara üzv olmaq vasitəsilə fəaliyyət göstərirlər.

Bu təşkilatlar insanların tələbatına uyğun olaraq yaranmış, bir çox problemlərin həllində aparıcı rol oynayırlar. Bu təşkilatlar insanı siyasi proseslərdə daha həvəslə və inamla hərəkət etməyə alışdırır.

XX əsrin son onilliklərində ictimai – kütləvi təşkilatların fəallığı əhəmiyyətli dərəcədə artmışdır. Bu isə aşağıdakı amillərlə şərtlənir:

1. İnsan həyatının müxtəlif sahələrində böhranlı hadisələrin artması;
2. Kütləvi qırğın silahlarının tətbiq olunduğu müharibələrin qorxusu;
3. İnsan yaşayışına lazım olan sərvətlərin daha çox dağıdılması;
4. İnsan azadlığı və hüquqlarını boğan mühafizəkar qüvvələrin hücumlarına qarşı müqavimət gəstərilməsi;
5. Humanist sərvətlərin və ideallarin artması;
6. İnsanların birləşməsinə, ünsüyyətinə şərait yaradan vasitələrin bütün növlərinin sürətlə artması;
7. Bəşəriyyətin informatika əsrinə daxil olması.

Qeyri-dövlət təşkilatı kimi müstəqil fəaliyyət göstərən ictimai təşkilatlara və hərəkatlara politologiya həmişə böyük maraq göstərir. Bu ictimai təşkilatlar öz fəaliyyətində siyasi qərarların qəbul edilməsində dövlət hakimiyyəti orqanlarına təsir göstərirlər.

İctimai- kütləvi təşkilatlar XIX əsrin ikinci yarısında yaranmış və XX əsrdə inkişaf etməyə başlamışdır. Xüsusilə sahələr üzrə yaranmış Həmkarlar ittifaqlarını qeyd etmək olar. Onlar zəhmətkeşlərin əmək, məişət, sosial müdafiə, mədəniyyət və sağlamlığı sahəsində maraqlarını və mənafelərini təmsil edir və müdafiə edirlər.

Həmkarlar ittifaqları əmək kollektivlərində yaranmış və indi ən çoxsaylı beynəlxalq təşkilatda təmsil olunurlar. Ümumdünya Həmkarlar İttifaqları Konfederasiyasına 750 milyondan yuxarı adam daxildir.

Qadınlar təşkilatı da böyük qüvvədir. Onlar qadın-anaların, zəhmətkeş işçi qadınların mənafeyini müdafiə edirlər. Beynəlxalq qadınlar təşkilatını planetimizin 200 milyon qadını təmsil edir.

Ümumdünya demokratik gənclər federasiyası 100 milyon oğlan və qızı özündə birləşdirir. Onlar müxtəlif sahələrdə fəaliyyət göstərirlər.

Vətəndaş cəmiyyəti və siyasi plyuralizm şəraitində ictimai-siyasi təşkilatların sayı getdikcə artır.

Kütləvi demokratik təşkilatların və hərəkatların əsas növ müxtəlifliyi aşağıdakılardır:

- Müharibə əleyhinə; Sülh tərfdarların Stokholm hərəkatı; Nevada-Semipalatinsk hərəkatı; bloklara qoşulmayan ölkələrin hərəkatı və s.;
- Ekoloji yönümlü; Yaşıllar hərəkatı; İsıkkul forumu; MAQATE.
- Demokratiyanın, şəxsiyyətin hüquq və azadlığını müdafiə edən təşkilatlar; «YUNESKO», «ATƏT», Minsk qrupu;
- Cinsi və yaş əlamətlərinə görə fəaliyyət göstərən təşkilatlar; Qadınlar təşkilatı; Gənclər təşkilatı; Samanta Smit adına uşaq təşkilatı; YUNİSEF;
- Peşəyönümlü təşkilatlar; Ümumdünya səhiyyə təşkilatı; mühəndis, yazıçı, iqtisadçı və alimlər birliyi, Paqouş hərəkatı; Roma klubu;
- Ərazi üzrə: Asiya, Afrika, Ərəb Şərqi və s.;

- Alternativ: Ku-klus-klan-irqçilik təşkilatı; «Xatirə» - antisemit təşkilatı;
- Dini ittfaqlar: Roma katolik kilsəsi, İslam Konfransı və s.

İctimai-siyasi təşkilatlar siyasi həyatın bürokratikləşməsinə qarşı fəal mübarizə aparırlar.

Cəmiyyətin müxtəlif sosial təbəqələrinin mənafelərini ifadə edən siyasi partiyalar, ictimai təşkilatlar, hərəkatlar mənafe ümumiliyi əsasında birləşmiş vətəndaşların öz iradəsini azad ifadə etməsi üçün yaranmış könüllü birləşmələrdir. Siyasi partiyalar, kütləvi hərəkatlar, həmkarlar ittifaqı, gənclər təşkilatı, kooperasiya, qadın təşkilatları, elmi – texniki, yaradıcı, idman-müdafiə, elmi –maarif cəmiyyətləri, ədəbiyyat, incəsənət, mətbuat-maarif işçilərinin könüllü ittifaqları ictimai birliklərdir.

İctimai-siyasi birliklər könüllülük, üzvlərinin hüquq bərabərliyi, özünüidarəetmə, qanunilik və aşkarlıq əsasında yaradılır və fəaliyyət göstərirlər. Bu birliklərin hər birinin öz nizamnaməsi, müəyyən edilmiş fəaliyyət dairəsi, hüquq və vəzifələri, hərənin özünə xas olan spesifik iş metodları vardır.

Zəhmətkeşlərin bütün bu ictimai-siyasi birlikləri Konstitusiya tələbləri çərçivəsində öz nizamnamə vəzifələrinə uyğun olaraq fəaliyyət göstərirlər. Dövlət işlərinin və ictimai-siyasi işlərin idarə olunmasında, siyasi məsələlərin, təsərrüfat və sosial-mədəni məsələlərin həllində fəal iştirak edirlər.

Keçid dövründə ictimai birliklərin: siyasi partiyaların, təşkilatların, hərəkatların rolu dönmədən artır.

Yeni ictimai-siyasi birliklərin meydana gəlməsi prosesinin güclənməsi təkcə bizə xas deyildir. Keçmiş sosialist blokuna aid olan bir çox ölkələrdə də, həmçinin inkişaf etmiş Qərb ölkələrində də həmin proseslərin sürətlənməsi müşahidə olunur.

Hazırda sosial mənafelərin bütün müxtəlifliyini əks etdirən yeni-yeni birliklər yaranmaqdadır.

## 9-cu MÖVZU

## DEMOKRATİYA VƏ SİYASİ HƏYATIN DEMOKRATİK ƏSASLARI

### *1. Demokratiya anlayışı*

Demokratik cəmiyyətin yaradılması hər şeydən əvvəl insanların azadlığı və bərabərliyi, plyuralizm, hakimiyyət bölgüsü, cəmiyyət üzvlərinin hüquqları, azadlıqları və vəzifələri, ictimai rəyin nəzərə alınması, aşkarlıq və qanunun aliliyinə riayət edilməsi kimi demokratik prinsiplərin həyata keçirilməsini nəzərdə tutur.

«Demokratiya» anlayışı bəşəriyyətə iki min beş yüz ildən artıq tanışdır. İlk dəfə Fukididin işlətdiyi bu qədim yunan sözü «xalq hakimiyyəti» mənasını verir. Qədim yunanlarda dövləti idarə etməyin xüsusi forması kimi qəbul olunan demokratiya müasir dünyada yeni məna çalarları kəsb edərək çoxşaxəli hadisə kimi təzahür edir.

Müasir dövrdə «demokratiya» termini bir neçə mənada işlədilir. Onun ən geniş yayılmış məna çaları, həmin sözün etimologiyası ilə bağlıdır. Bu mənada demokratiya hər şeydən əvvəl, xalq hakimiyyətinə əsaslanan dövlət quruluşu forması kimi başa düşülür. Lakin demokratiya anlayışı yalnız dövlət formasına müncər edilmir, o daha geniş məna çalarları kəsb edir. Buna görə də demokratiya adı altında bütövlükdə cəmiyyətin, cəmiyyətlə vətəndaşların müəyyən dəyərlər sisteminə və dünyagörüşünə əsaslanan ictimai quruluşu, habelə insanların ierarxik (şaquli) münasibətlərini tənzimləyən norma və prinsiplərin məcmusu başa düşülür.

Demokratiya ideyasının əsasını insanların azadlığı və bərabərliyi kimi sosial-siyasi dəyərlərin dərk edilməsi və zəruriliyinin qiymətləndirilməsi təşkil edir. Demokratiya ideyasını ilk irəli sürənlərdən biri Herodot onu belə ifadə etmişdi: demokratiya bərabərliyə əsaslanan dövlətdir (qədim yunanlar belə dövləti izonomiya adlandırırdılar).

Hələ qədimdən demokratiyanı səciyyələndirən ən önəmli keyfiyyətlərdən biri onun çoxluğun hakimiyyətinə əsaslanan quruluş kimi qavranılmasıdır. Demokratik quruluşu səciyyələndirmək üçün Fukididin tərifinə müraciət edək. O yazırdı: «Bu quruluş ona görə demokratik quruluş adlanır ki, o, vətəndaşların azlığına deyil, çoxluğuna əsaslanır».

Demokratiyanın xalq hakimiyyəti, çoxluğun hakimiyyəti kimi səciyyələndirilməsi özünün təzahürünü konkret dövlət formasında tapır. Buna görə də siyasi elmin nöqteyi-nəzərinə görə, demokratiya hər şeydən əvvəl dövlət quruluşu forması kimi qavranılır. Antik siyasi fikirdə əsası qoyulmuş bu ənənə öz ilkin mənasını qoruyub saxlamışdır. T.Hobbsun fikrincə, demokratiya elə dövlət formasıdır ki, burada ali hakimiyyət istisnasız olaraq bütün vətəndaşlara məxsusdur. Ş.Monteskyenin fikrincə isə, əgər respublikada hakimiyyət xalqa məxsusdursa, onda bu demokratiyadır. O belə hesab edir ki, demokratiya xalq suverenliyinin eynidir.

Dövlət idarəçiliyi forması olmaq etibarilə demokratiya bir sıra səciyyəvi əlamətlərlə fərqlənir:

1. Xalqın suverenliyinin, hakimiyyətinin hüquqi cəhətdən tanınması və təsisatlanmış şəkildə ifadə olunması. Demokratiyanın ən önəmli prinsipi xalqın hakimyyətin mənbəyi rolunda çıxış etməsinə təminat verməsidir. Xalqın suverenliyi ondan ibarətdir ki, hakimiyyəti məhz xalq formalaşdırır, yəni dövlət hakimiyyətini təsis etmək onun səlahiyyətidir.
2. Əsas dövlət orqanlarının seçkili olması. Bu prinsipin demokratiyanın təmin edilməsi baxımından səmərəsindən o zaman söhbət gedə bilər ki, əvvəla, seçkilər mütəmadi olaraq keçirilsin, ikincisi, formal xarakter daşımasın, üçüncüsü, seçilən orqanların və səlahiyyətli şəxslərin səlahiyyət müddətləri məhdudlaşdırılsın. Demokratiyanı qədim dövlətlərdə çarların seçilməsi ilə yaradılan monarxiyalardan məhz bu cəhətlər fərqləndirir (seçilən hökmdarlar ömürlük hakimiyyətdə olurdular).
3. Dövlətin idarə olunmasında vətəndaşların hüquq bərabərliyi. Bu prinsipin ən elementar tələbi öz ifadəsini secki hüququnun ədalətliliyində tapır. Demokratik cəmiyytdə bütün vətəndaşlara həm seçməkdə, həm də seçilməkdə tam bərabər hüquqlar və imkanlar təmin edilməlidir. Əvvəllər müxtəlif formalarda tətbiq edilən seçki senzləri müasir demokratik ölkələrdə minimuma endirilmiş, bu sahədə olan digər məhdudiyyətlər rasional formada aradan qaldırılmış və ya aradan qaldırılmaqdadır.

   Vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək üçün hüquq bərabərliyi siyasi partiyalar, müxtəlif ictimai təşkilatlar yaradaraq hakimiyyət uğrunda mübarizədə iştirak

etməsində, öz fikrini bildirməsində, hakimiyyətə bu və ya digər formada təsir göstərməsində özünü göstərir.

4. Qərarların çoxluq tərəfindən qəbul edilməsi. Demokratiya hansı formada təzahür etməsindən asılı olmayaraq çoxluğun hakimiyyətidir. Demokratik proseduralarda, xüsusilə də dövlət hakimiyyəti strukturlarının formalaşdırılması zamanı tələb olunan xalqın çoxluğu anlayışının müəyyən hallarda nisbi xarakter daşımasına baxmayaraq, demokratiya şəraitində hakimiyyət məhz çoxluğun iradəsinin ifadəsi kimi qərarlaşır.[1]

«Demokratiya» anlayışı Qədim Yunanıstanda meydana gəlmiş, sonra isə digər xalqların dillərinə daxil olmuşdur. Tarixi inkişafın hər bir mərhələsində demokratiya məfhumu yeni məzmun və məna kəsb etmişdir.

Konkret mənada demokratiya elə bir dövlət formasıdır ki, burada xalq geniş hüquqlara, azadlıqlara və dövlətin idarə edilməsi işində iştirak etmək hüququna malikdir. Siyasi anlayış olan demokratiya dövlət formasıdır. Dövlət forması geniş mənada həm dövlət mexanizminin fəaliyyət formaları kimi, həm də onun təşkili qaydası, yəni idarəetmə forması, dövlət quruluşu və s. kimi dərk edilir.

Sivilizasiyanın ən ümumi sərvəti kimi meydana gəlmiş demokratiya demək olar ki, ictimai həyatın bütün sahələrini əhatə edir. Demokratiya eyni zamanda insanın müstəqilliyini və təşəbbüskarlığını təmin edən iqtisadi fəaliyyət azadlığını tələb edir.

Demokratiya azadlığın sinonimi kimi də ifadə edilir. Belə ki, onun əsas dəyəri insanın azadlığa doğru can atmasında əks olunur. Demokratiya insanın enerjisini və fəallığını cəmiyyətdəki özbaşınalığa, zorakılığa və totalitarizmə qarşı qoyur.

Cəmiyyət həyatının idarə edilməsində demokratik təsisat vasitəsilə daha optimal strukturlara malik olan dövlət və ictimai formalar tədqiq edilir.

Sivilizasiya tarixi başlayan gündən insanlar daim özlərini və gələcək nəsillərini təkmilləşdirmək, yaxşı, ədalətli cəmiyyət üçün yüksək mənəvi keyfiyyətlərə malik yeni insanlar nəsli yetişdirmək haqqında düşünmüşlər.

Demokratiyanın tarixi inkişafının əsas mərhələləri aşağıdakılardır: ibtidai demokratiya; hərbi demokratiya; antik demokratiya; yeni dövrün klassik demokratiyası; müasir demokratiya.

Bəşər sivilizasiyasının tərəqqisi konteksində demokratiyanın inkişafı diqqəti xüsusilə cəlb edir. Demokratiya ilkin insan cəmiyyətinin yaranması ilə yanaşı meydana gəlmişdir. Belə ki, ibtidai dövrlərdə cəmiyyətin icma-qəbilə təşkili həm xalq hakimiyyətinin icmanın bütün üzvlərinin ümumi iclasından ibarət birbaşa formasından, həm də ağsaqqallar və başçıların iclasından ibarət nümayəndəlik formasından istifadə edirdi. Bunlar isə demokratiyanın ilkin cücərtiləri kimi təzahür edirdi. Bütün bunlar onu göstərir ki, demokratiyanın ünsürləri hələ sinfi cəmiyyətdən əvvəl meydana gəlmişdir.

Antik dövrdə quldarlıq demokratiyasının özünəməxsus tarixi vardır. Antik demokratiyanın əsas xüsusiyyəti qulları quldarlara tabe etməkdən ibarət idi. Bu demokratiyadan bəhs edərkən Afinanın və bəzi Qədim Yunanıstan şəhər- dövlətlərinin adlarının çəkilməsi məqsədəuyğundur. Burada dövlət əhəmiyyətli vəzifələr seçkilər və püşk atma yolu ilə tutulurdu. Qanunun qəbul edilməsi üçün dövlətin idarəedilməsində iştirak edən xalq yığıncaqları keçirilirdi. Lakin bu demokratiya əhalinin əksəriyyəti üçün deyil, imtiyazlı azlıq üçün idi. Afina əhalisinin əksəriyyətini təşkil edən qullar bütün hüquqlardan məhrum edilmişdi. Beləliklə, antik demokratiyanı nisbətən inkişaf etmiş dövlət forması və siyasi münasibətlər kimi xarakterizə etmək olar.

Feodal cəmiyyətində demokratiyanı feodalın əsarətindən azad olan və seçilən hakimiyyət orqanları, yəni posadnik, mer və başqaları tərəfindən idarə olunan orta əsr kommunaları, özünüidarə edən şəhər icmaları təmsil edirdilər. O dövrdəki şəhər respublikalarında rəhbəredici rol şəhər əhalisinin yuxarı təbəqələrinin əlində idi. Bu cür demokratiya azlıq təşkil edənlərin, bəzi hallarda adlı-sanlı və varlı ailələrin kiçik qruplarının demokratiyası idi.

Beləliklə, orta əsrlərdə demokratiya şəhər respublikalarında inkişaf etmiş, monarxiya şəraitində isə acınacaqlı vəziyyətə düşmüşdür. Orta əsr demokratiyası silk xarakteri daşıyırdı və aşağı kütlələrə aid deyildi.

Burjua demokratiyası demokratiyanın tarixi tiplərindən biridir. Burjua demokratiyası respublika, parlamentli respublika, konstitusiyalı monarxiya kimi dövlət tiplərini yaratmışdır. Burjuaziyanın təkmilləşdirib həyata keçirdiyi hakimiyyət üsulları və formaları hər halda feodal tipli dövlətlərə nisbətən irəliyə doğru atılmış böyük bir addım idi. Burjuaziya çoxpartiyalılığa, hakimiyyətin bölüşdürülməsinə, söz və mətbuat azadlığına rəvac verir. Burjuaziya demokratiyası həm hakim, həm də digər təbəqələrin təşkilat və hərəkatlarının geniş demokratik hüquqlarının inkişafına şərait yaradır. Qeyri-demokratik, avtoritar rejimlərdən fərqli olaraq burjua demokratiyası siyasi konsensus əldə etmək üçün geniş imkanlar açır.

---

[1] Bax: Həsən Şirəliyev, Əli Əhmədov. Politologiya, Bakı, 1997, səh. 213-215.

Demokratiyanın tarixi tiplərindən biri də sosialist demokratiyasıdır. Sosialist demokratiyası geniş xalq kütlələrinə, insanların hüquq bərabərliyinə və azadlıqlarına yönədilmiş siyasətin təzahürüdür. Tarixən mütərəqqi hadisə kimi meydana gəlmiş sosialist demokratiyası real praktikada kəskin deformasiyalara uğradı. Xalq hakimiyyəti formasından hakim partiyanın diktaturasına çevrilən sosialist demokratiyası özünün real təbiətindən və məzmunundan uzaqlaşdırıldı. Bu da SSRİ-də və bir sıra sosialist ölkələrində siyasi böhranlara və nəticə etibarilə SSRİ-nin dağılmasına gətirib çıxardı.[2]

Xalq demokratiyası istər iqtisadiyyat və siyasətdə, istərsə də mənəvi, ideoloji sahədə köhnə buxovların qırılması və yeni qüvvələrin fəaliyyəti üçün geniş imkanlar yaradılması ilə şərtlənir. Lakin bu azadlıqlar heç də həmişə hamının hüquqlarının qorunması üçün təminat verə bilmir və təbii ki, xaosla, qarşıdurma ilə, qrupbazlıqla, ümumi ictimai-siyasi narazılıqlarla və s. müşaiyət olunur.

Xalq hakimiyyəti olmaq etibarilə demokratiyanın mahiyyəti dövlətin xüsusi formasının qərarlaşması ilə yanaşı, vətəndaşların hakimiyyətə yaxınlaşmasına imkan yaradan bir sıra demokratiya təsisatlarının yaradılması vasitəsilə reallaşır. Dövlət cəmiyyətin yeganə təşkilat strukturu deyildir. Dövlətlə bərabər cəmiyyətdə bir sıra strukturlar, birliklər və təsisatlar qərarlaşır və cəmiyyətin idarə olunmasında iştirak edir. Buna görə də xalq hakimiyyəti ideyasının tam qəti qələbəsi əhəmiyyətli dərəcədə həmin qeyri-dövlət strukturlarının fəaliyyəti ilə əlaqədardır. Əslində bu təsisatlar vətəndaşların dövlət idarəçiliyinə cəlb olunmadan cəmiyyətin idarə edilməsi prosesində iştirakını mümkünləşdirir və buna görə də demokratik təsisatlar statusu qazanmış olur.

Demokratiyanın geniş intişar tapması vətəndaş cəmiyyəti əsaslarının genişlənməsinə dəlalət edir. Vətəndaşların müxtəlif siyasi partiyalarda birləşməsi, təzyiq qrupları yaratması yolu ilə hakimiyyətə təsir göstərmək, bu və ya digər qrup mənafelərindən irəli gələn problemlərin həllinə nail olmaq imkanı demokratiyanın önəmli prinsipi kimi əhəmiyyətli rol oynayır. Çünki dövlət forması olaraq demokratiya çoxluğun iradəsilə qərarlaşmış hakimiyyəti ifadə etdiyi halda, yuxarıda şərh olunan prinsip bir tərəfdən hakimiyyətin bütün vətəndaşların, bütün əhalinin mənafeyinə xidmət göstərməsinə zəmin yaradır, digər tərəfdən isə siyasi hakimiyyətin tədricən vətəndaşların ayrı-ayrı birlikləri və ya ittifaqları arasında paylanmasını şərtləndirir.

Vətəndaşların birləşdikləri siyasi və digər birliklər və ittifaqlar onların hüquqları və azadlıqlarının müdafiəsini təmin edir, əhalinin mənafeyini ifadə edərək vətəndaşla mərkəzi hakimiyyət arasında bir növ vasitəçi funksiyasını yerinə yetirir.

Demokratiyanın yuxarıda sadalanan iki əsas məna çalarının təhlili onun yeni bir məna çalarının və ya qavranılma formasının meydana çıxmasını şərtləndirir. Bir çox hallarda demokratiya anlayışı siyasi rejim anlayışı ilə eyniləşdirilir. Siyasi rejim anlayışını dövlətdən fərqləndirən odur ki, o, cəmiyyətin siyasi təşkili formalarının məcmusu kimi təzahür edir. Siyasi rejim dövlətin, vətəndaşların hüquq və azadlıqları sisteminin, cəmiyyətdə qərarlaşmış müxtəlif qeyri-dövlət siyasi strukturlarının sistemli məcmusudur. Bununla əlaqədar olaraq demokratiya siyasi sistemin xüsusi forması kimi qavrama formalarının sistemini nəzərdə tutur.

Demokratiya bəşəriyyətin yaratdığı dövlət forması, siyasi rejim növü olaraq qalmır. O həm də cəmiyyətin siyasi təşkilində daim can atdığı bəşəri idealdır. Demokratiya ideyalarının bütün tarix boyu xalq arasında populyarlığı, cazibədarlığı bərabərlik, şəxsiyyətin ləyaqətinə hörmət kimi əbədi dəyərlərə əsaslanan ideal olmasındadır. İnsanların, xalqların demokratiya uğrunda mübarizəsi primitiv bərabərlik prinsiplərinin təsis edilməsindən başlayaraq bu ideala addımbaaddım yaxınlaşmaq uğrunda mübarizəni xatırladır. Lakin heç vaxt heç bir ölkədə demokratiya təxəyyüldə canlandırılan ideala tam uyğun olmayıb. Buna görə də adi insanlar arasında da, siyasətşünaslar arasında da nə vaxtsa həqiqi demokratiyanın qərarlaşması şübhə altına alınır. Müxtəlif tarixi mühitdə, ayrı-ayrı ölkələrdə demokratiya adı altında bir-birindən kəskin fərqlənən dövlət quruluşu formalarının, siyasi rejimlərin qurulması da demokratiya haqqında ideal təsəvvürlərin real gerçəklikdə rast gəlinən xalq hakimiyyəti prinsiplərindən xeyli fərqləndiyindən xəbər verir.

Demokratiya prinsipləri həyatda geniş tətbiq edildikcə xalq hakimiyyəti haqqında ideallların real gerçəkliyin tələbləri ilə ziddiyəti aydın şəkildə özünü büruzə verir. Bütün dövlətlərin demokratiya tarixi göstərir ki, xalqın idarə etməsi qeyri-mümkün olduğu kimi, hakimiyyətin bütün mərhələlərdə xalqın əlində olması ideyası da reallıqdan uzaqdır. Müasir demokratiya nəzəriyyələri reallıqdan əxz edilən təcrübəyə əsaslanaraq ***demokratiyanı konkret fərdlərin, liderlərin xalqın səsvermədə etimadını qazanmaq uğrunda rəqabətinə əsaslanan idarəetmə forması kimi qiymətləndirirlər (İ.Şumpeter).***

Müasir demokratik ölkələrdə qərarlaşmış idarəetmə formasını xalqın rəqabət mübarizəsində seçdiyi azlığın idarəçiliyi hesab edən Robert Dal belə dövlətləri «poliarxiya» adlandıraraq, həqiqi demokratiyanı

---

[2] Bax: Politologiya. Bakı., AzMTU, 1991, s. 82-84.

bütün vətəndaşların idarəçilikdə iştirakını nəzərdə tutan və bu günədək heç bir yerdə həyata keçirilməyən ideal hesab edir.[3]

## *2. Demokratiyanın prinsipləri*

Demokratik dövlətin mühüm prinsiplərindən biri plyuralizmdir. Plyuralizm latın sözü olub, mənası çoxluq, külliyyat deməkdir. Plyuralizm mövqelərin, baxışların, fikirlərin və insanın daxili aləminin rəngarəngliyi deməkdir.

Müxtəlif dövrlərdə və ayrı-ayrı siyasi reallıqlar şəraitində formalaşmış demokratiya ənənələri bir sıra nəzəriyyə və doktrinalarda özünün ifadəsini tapmışdır. Belə nəzəriyyələrdən biri plyuralist demokratiya konsepsiyasıdır.

Antik demokratiya siyasi prosesdə xalqın rolunu, klassik demokratiya isə fərdin rolunu ön plana keçirdiyi halda, plyuralist demokratiyada əsas hərəkətverici qüvvə funksiyasını qrup yerinə yetirir. Fərdin mənafeyi, siyasi davranış motivləri qrupda, habelə qruplararası münasibətlər prosesində formalaşır. Buna görə də, demokratiya insanlara ayrı-ayrı qruplarda birləşmək, öz mənafeyi uğrunda qrup şəklində mübarizə aparmaq üçün şərait yaratmalıdır.

Plyuralist nəzəriyyəyə görə, demokratiya müxtəlif ictimai qruplarda öz mənafeyini ifadə etməyə və rəqabət mübarizəsində onların qüvvələr nisbətini əks etdirən kompromis qərar qəbul etməyə imkan yaradan idarəçilik forması kimi qavranılır.

Plyuralizm insanların mənafelərinin çoxluğunu ifadə edir. Bu mənafelər ziddiyyətli qarşılıqlı əlaqəyə malikdir. Plyuralizm ictimai həyatın müxtəlif sahələrində öz əksini tapır.

Siyasi plyuralizmdən danışarkən ən başlıcası onun formaları probleminin ön plana çıxmasıdır. Yəni ictimai strukturun, iqtisadiyyatın və ideoloji işin rəngarəngliyi siyasi sistemdə hansı formalarda əks etdirilir.

Burada bəzi ən ümdə məsələlərin həyata keçirilməsi zəruridir: 1. son dərəcə zərərli olan bürokratik mərəzçilikdən əl çəkmək; 2. çoxpartiyalılıq şəraitində müxtəlif fikirləri nəzərə almaqla qərarların hazırlanması və qəbul olunması mexanizmini işləyib həyata keçirmək; 3. müxtəlif tərəflərin öz mövqelərini izah etməsini, hətta qərar qəbul olunduqdan sonra öz düzgünlüyünü müdafiə etmək imkanını təmin etmək.

Bu halda bəzi politoloqlar siyasi sistemin tərəflərinin rəngarəngliyinin hədsiz artacağını və müxtəlif mənafeləri ifadə edən yeni formal və qeyri-formal təşkilatların yaranmasının mümkünlüyünü qeyd edirlər.

Cəmiyyət həyatının demokratikləşməsi «hakimiyyət bölgüsü» prinsipindən asılıdır. «Hakimiyyət bölgüsü»- siyasi-hüquqi doktrinadır. Bu prinsipə görə dövlət hakimiyyəti vahid bir bütöv kimi deyil, ayrı-ayrı hökmranlıq funksiyalarının (qanunverici, icraedici, məhkəmə) məcmusu kimi ifadə edilir. Bu funksiyaları bir-birindən asılı olmayan dövlət orqanları həyata keçirir. Bu fikir hələ antik və orta əsr mütəfəkkirləri tərəfindən irəli sürülmüşdür. «Hakimiyyət bölgüsü» müstəqil formalaşmış təlim kimi XVIII əsrin ortalarında Ş.Monteskye tərəfindən işlənmişdir. Bu prinsipdən Qərb ölkələrinin dövlət quruculuğunda geniş istifadə olunmuşdur. 1787-ci ildə qəbul edilmiş və indiyədək qüvvədə olan ABŞ Konstitusiyasının tərtib edilməsində də bu prinsipdən istifadə edilmişdir.

«Hakimiyyət bölgüsü» prinsipinin müsbət tərəfi ali nümayəndəli hakimiyyət orqanının olmasını nəzərdə tutur. Belə ki, bu, böyük əhəmiyyəti olan demokratik institutdur. Ali nümayəndəli orqanın əlində qanunvericilik hakimiyyətinin cəmləşməsi təqdirə layiqdir. İcraedici funksiya hökumətin əlində cəmləşir. Hakimlərin müstəqil olması qanunun əsas tələbidir.

«Hakimiyyət bölgüsü» nəzəriyyəsi və təcrübəsi demokratiynın bilavasitə və nümayəndəli formaları ilə bağlıdır. Bilavasitə demokratiya dedikdə, əsas qərarların bütün vətəndaşların iradələrini birbaşa və konkret, yəni referendum, dövlət həyatına dair məsələlərin ümumxalq müzakirəsi və s. yollarla ifadə etdikdən sonra qəbul edilməsi qaydası başa düşülür. Nümayəndəli demokratiya dedikdə dövlət məsələlərinin baxılması və həllinin əhali tərəfindən seçilmiş səlahiyyətli nümayəndələr (məsələn, parlament və s.) tərəfindən həyata keçirilməsi qaydası başa düşülür.

İctimai dəyişikliklərin ümumi məcrasında özlərinin spesifik məsələlərini həll edən müxtəlif qeyri-formal birliklər yaranır. Mühüm qanun Layihələrinin və sosial proqramların ümumxalq müzakirəsi dövlət qanunlarının qəbul edilməsinin fəal nəzarət mexanizmlərindən birinə çevrilir. Konstitusiya ilə nəzərdə tutulan referendum təcrübəsi də yayılmaqdadır. Birbaşa demokratiyanın ənənəvi institutları-vətəndaşların

[3] Bax: Həsən Şirəliyev, Əli Əhmədov. Politologiya. Bakı., 1997, s. 215-217.

iclasları, seçicilərin tapşırıqları, kütləvi informasiya vasitələrinin çıxışları, zəhmətkeşlərin məktubları öz böyük potensialını tədricən təzahür etdirir.[4]

Dövlət hakimiyyətlərinin tarazlığını və obyektiv fəaliyyətini təmin etmək, habelə dövlət və şəxsiyyət arasında razılığa nail olmaq məqsədilə sosial-müdafiə təşkilatlarının – cəmiyyətin aztəminatlı hissəsinin mənafeyini ifadə edən təşkilatların, bütün zəhmətkeşlərin kütləvi sosial-müdafiə təşkilatı olan azad həmkarlar ittifaqlarının, azad ictimai təsisatların, azad informasiya vasitələrinin, azad mətbuat və s. fəaliyyət göstərməsinə şərait yaradılmalıdır.

Hakimiyyətin bölünməsi demokratiyanın atributu və əsas prinsiplərindən biridir. Buna əsasən demokratik sistemlərdə qanunverici, icraedici və məhkəmə hakimiyyəti bir-birindən ayrılır və müstəqil fəaliyyət göstərir. Eyni zamanda dövlət hakimiyyətinin başlıca qərarlarının, dövlət siyasətinin hazırlanmasında onlar birgə fəaliyyət göstərirlər.

Ali qanunverici orqan olan parlament qanunlar qəbul edir, dövlətin daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyənləşdirir. Buna uyğun olaraq, icra hakimiyyəti həmin xəttin həyata keçirilməsini təşkil edir. Lakin hökumətin qanunvericilik təşəbbüsü də var, o, parlamentin xəttini passiv surətdə müşahidə etməklə qalmır. Onların arasında münaqişə yarana bilər. Əksər hallarda bu, kompromislə nəticələnir. Lakin elə hallar ola bilir ki, münaqişə dərinləşir və kompromis əldə etmək mümkün olmur. Belə olduqda parlament hökumətə etimadsızlıq göstərir.

Prezident idarə formasında icra hakimiyyəti qanunverici hakimiyyətdən daha az asılıdır, lakin, hətta bu halda da hökumətin fəaliyyətinə təsir göstərmək üçün parlamentin ixtiyarında kifayət qədər vasitələr vardır.

Məhkəmə hakimiyyəti həm qanunverici, həm də icraedici hakimiyyətdən azaddır. O, Konstitusiya nəzarəti funksiyasını həyata keçirir. Məhkəmə orqanlarının formalaşması isə icra hakimiyyətinin səlahiyyətinə aiddir. Parlament məhkəmənin strukturu və funksiyalarını dəyişdirmək haqqında qanunlar qəbul edə bilər.

Beləliklə, hakimiyyətin bölünməsi tərəflərin bir-birinin fəaliyyətlərini tarazlaşdırmasına şərait yaradır və onu təmin edir, onlardan hər hansı birinin üstünlük qazanmasına imkan vermir.

Demokratiyanın mühüm şərtlərindən biri hakimiyyətin həddindən artıq mərkəzləşməsinin qarşısını almaq məqsədilə hakimiyyət funksiyalarının fəal surətdə yerli özünüidarə orqanlarına verilməsidir. Məsələn, ABŞ-da mövcud olan 80 min hakimiyyət orqanından bir milli hökumət və 50 ştat çıxılmaq şərtilə qalanların hamısı yerli idarə orqanlarıdır. R.Reyqanın prezidentliyi dövründə hakimiyyət səlahiyyətlərinin federal hökumətin əlində həddindən artıq cəmləşməsinin qarşısı alındı və onlar fəal surətdə yerli idarə orqanlarına, o cümlədən ştatlara verilməyə başlandı.[5]

Azərbaycan Respublikası Konstitusiyasının «Yerli özünüidarəetmə» adlanan dördüncü bölməsindəki IX fəsildə bələdiyyələrdən bəhs olunur. Həmin fəsildə «Yerlərdə özünüidarənin təşkili» adlanan 142-ci maddədə deyilir:

I. Yerli özünüidarəni bələdiyyələr həyata keçirir;

II. Bəlidiyyələr seçkilər əsasında yaradılır;

III. Bələdiyyələrin statusunun əsasları bu Konstitusiya ilə, bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir.

Həmin fəslin 143-cü maddəsində bələdiyyələrin işinin təşkili, 144-cü maddəsində bələdiyyələrin səlahiyyətləri, 145-ci maddəsində bələdiyyələrin qərarları, 146-cı maddəsində bələdiyyələrin müstəqilliyinin təminatı şərh edilmişdir.[6]

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq respublikamızda 1999-cu il dekabrın 12-də bələdiyyə seçkiləri keçirilmiş və hazırda bələdiyyələr fəaliyyət göstərməkdədir.

Dövlət başçısı – dövlətdə ali idarəedici hakimiyyət funksiyasını yerinə yetirir. Monarxiya quruluşunda dövlət başçısı irsən təyin olunur. Burjua respublikalarında dövlətin başçısı prezidentdir. Bəzi ölkələrdə dövlətin başçısı, həm də hökumətin başında durur. Dövlət başçısının səlahiyyətləri və fəaliyyət müddəti Konstitusiya ilə müəyyən olunur.

Dövlət idarəçiliyi – dövlətin fəaliyyət formalarından biridir. O, dövlət hakimiyyətinin müvafiq idarəçilik orqanları vasitəsilə reallaşdırılmasını təmin edir və sosial idarəetmənin tərkib hissəsidir.

Müasir dövrdə demokratiyanın ən geniş yayılmış və səmərəli forması nümayəndəli (təmsilçi) demokratiyadır. Onun mahiyyəti vətəndaşların siyasi qərarların qəbul edilməsində birbaşa deyil, hakimiyyət orqanlarına seçilmiş nümayəndələri vasitəsilə iştirak etməsində ifadə olunur. Nümayəndəli demokratiya zərurəti ölkə ərazisinin böyüklüyü və ya digər obyektiv səbəblər üzündən əhalinin qərarların qəbul edilməsi prosesində mütəmadi iştirakının qeyri-mümkünlüyündən irəli gəlmişdir.

---

[4] Bax: Politologiya, Bakı, AMTU, 1991, səh. 85-87.

[5] Bax: H.Şirəliyev, F.F.Abbasov. Politologiya, Bakı, 1992, səh. 147-148.

[6] Bax: Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, «Qanun» 1996, səh. 75-77.

Birbaşa demokratiyanın reallaşmasını çətinləşdirən səbəbləri nəzərə alaraq nümayəndəli demokratiya ideyasını Monteskye və Russo irəli sürmüşlər. Russonun fikrincə, böyük ölkələrdə xalqın birbaşa siyasi qərar qəbul etməsi qeyri-mümkündür, ona görə də xalq bu hüququnu öz təmsilçilərinə verir. Monteskyenin fikrincə isə xalq qərar vermək hüququna malikdir. Lakin düzgün, rasional qərar çıxarmaq üçün o, lazımi siyasi mədəniyyətə, habelə vaxta malik deyil. Buna görə də xalq etibarlı və lazımi hazırlıq səviyyəsinə malik adamları seçərək hakimiyyətdə, siyasi qərarlar qəbul etməkdə xalqı təmsil etməyi onlara həvalə edir.

Nümayəndəli demokratiyanın hüquqi əsasını seçilənlərlə seçicilər arasında təzahür edən təmsilçilik təşkil edir. Təmsilçilik anlayışına görə hər kəs başqasına öz adından hərəkət etmək səlahiyyətləri vermək hüququna malikdir. Lakin vəkalət verilənin səlahiyyətləri vəkalət verən tərəfindən əvvəlcədən müəyyənləşdirilir. Vəkalət verilən bu səlahiyyətləri aşdıqda vəkalət verən onu geri çağırmaq hüququnu özündə saxlayır. Avropanın bəzi ölkələrində tarixən qərar tapmış seçki göstərişləri buna misaldır.

Müasir şəraitdə təmsilçilik ideyası əhəmiyyətli dərəcədə təkmilləşib. Əgər ilk dövrlərdə şəxsi vəkalət prinsiplərinə əsaslanırdısa, indi seçicilər ayrı-ayrı partiyalara və proqramlara səs vermək məcburiyyətində qalırlar.

Nümayəndəli demokratiya vətəndaşların seçdiyi nümayəndəli hakimiyyət orqanlarından ibarət idarəçilik formasını nəzərdə tutur. Bu mənada demokratiyanın formalarından söhbət gedəndə həm də demokratik dövlət idarəçiliyi formaları başa düşülür. Adətən prezident idarəçiliyi və parlament idarəçiliyi kimi iki demokratiya forması fərqləndirilir.

Prezident idarəçiliyi sistemində prezident və parlament xalq tərəfindən müxtəlif vaxtlarda ayrı-ayrı seçkilərlə seçilir. Prezident geniş səlahiyyətlərə malik olur, həm dövlət, həm də hökumət başçısı funksiyalarını özündə birləşdirir. Hökumət prezident tərəfindən təyin edilir və ona tabe olur. Eyni zamanda hakimiyyət bölgüsü prinsipinə mütləq şəkildə riayət edilir. Konstitusiyanı pozmaq və cinayət törətməkdən başqa, hec bir halda prezidentin vəzifəsindən kənarlaşdırılmasına yol verilmir, eynilə də prezidentin parlamenti ləğv etmək səlahiyyətləri olmur. Lakin prezident qanunverici orqanın qərarı üzərinə veto qoymaq hüququna malikdir.

Xalis şəkildə prezident idarəciliyi forması Amerika Birləşmiş Ştatlarında qərarlaşıb. Təkmilləşmədə və tamamlanmaqda olan Azərbaycan Respublikasının idarəçilik forması aydın şəkildə təzahür edən prezident idarəçiliyi əlamətləri kəsb etməkdədir.

Ümumiyyətlə, Azərbaycanın mövcud siyasi sistemi demokratiyaya kecid mərhələsindədir. Bir yandan siyasi islahatlar liberal demokratiya ünsürlərinin movqeyini gücləndirir, digər tərəfdən isə mühafizəkar mövqeli ünsürlərin hələ kökü kəsilməyən müqaviməti qarşıya qoyulan məqsədlərə catmağa əngəllər törədir.

Azərbaycan Respublikasının siyasi sisteminin struktur formalaşması əsasən 1995-ci il noyabrın 12-də ölkənin yeni Konstitusiyasının qəbul edilməsi ilə başa çatdı. Konstitusiya ilə Azərbaycan dövləti demokratik, hüquqi, unitar respublika kimi müəyyənləşdirilir. Dövlət hakimiyyətinin həyata kecirilməsi formasına görə Azərbaycan prezident üsul-idarəsinə əsaslanan respublika parametrlərinə uyğundur.

Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq Azərbaycanda müstəqil şəkildə formalaşan və fəaliyyət göstərən üç hakimiyyət qolu qərarlaşmışdır: qanunverici hakimiyyət səlahiyyətlərini həyata keçirən Milli Məclis, icra hakimiyyətini həyata keçirən prezident və məhkəmə hakimiyyəti.

Azərbaycan Respublikası Konstitusiyasının icra hakimiyyətinin mənsubiyyəti adlanan 99-cu maddəsində deyilir ki, Azərbaycan Respublikasında icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur.

Konstitusiyanın Azərbaycan Respublikasının Prezidentliyinə namizədlərə aid tələblər adlanan 100-cü maddəsində göstərilir ki, yaşı otuz beşdən aşağı olmayan, Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikasının Prezidenti seçilə bilər.

Konstitusiyanın 101-ci maddəsində deyilir ki, Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 5 il müddətinə secilir.

Konstitusiyanın Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətləri adlanan 109-cu maddəsində Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətləri şərh edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 81-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir. Onun fəaliyyəti və səlahiyyəti statusu iki əsas istiqamətdə reallaşır: birincisi, Milli Məclis geniş məsələlər kompleksi üzrə ümumi qaydaları müəyyənləşdirir. Həmin qaydalar çərçivəsində icraedici hakimiyyət konkret idarəçilik funksiyasını həyata keçirir. İkincisi, Milli Məclisin bilavasitə həll etdiyi məsələlər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təqdimatına əsasən Milli Məclis impiçment yolu ilə prezidenti vəzifədən kenarlaşdırmaq səlahiyyətinə malikdir.

Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Ali Məhkəmə və İqtisad Məhkəməsi həyata keçirir. Prezidentin təqdimatına əsasən Milli Məclis tərəfindən təyin edilən 9 hakimdən ibarət Konstitusiya Məhkəməsi qəbul edilmiş qanunların, nomativ hüquqi aktların konstitusiyaya uyğunluğunu müəyyənləşdirir, habelə ayrı-ayrı dövlət orqanlarının və yüksək səlahiyyətli vəzifəli şəxslərin fəaliyyətinin səlahiyyətlərini aşıb-aşmadığına nəzarəti həyata keçirir.

Ali Məhkəmə cinayət və digər işlər üzrə, İqtisad Məhkəməsi isə iqtisadi mübahisələrə baxılması üzrə məhkəmə icraatını həyata keçirir.

Parlament idarəçiliyi formasında parlament və prezident eyni seçkilərin nəticəsindən asılı olaraq müəyyənləşir. Prezident parlamentdə seçilir. İcra hakimiyyəti iki pillədə – prezident və hökumət strukturları formasında təzahür edir. Hökuməti parlament formalaşdırır, habelə onu geri çağırmaq hüququna malikdir. Hökumət parlament qarşısında hesabat verir. Parlament idarəçiliyi sistemində parlament ölkənin ali hakimiyyət orqanı hesab olunur.

Müasir dünyada parlament idarəçiliyinin üç əsas növü mövcuddur. Birincisi, parlamentdə təkpariyalı çoxluq əsasında formalaşan rejimlər. Buna bəzən «Vestminster modeli» də deyilir. Böyük Britaniya modeli buna misaldır. Həmin sistem onunla seçilir ki, parlamentdə 50 faizdən çox səsə malik olan partiya hökuməti təşkil etmək hüququnu qazanır.

İkincisi, parlament koalisiyası sistemi. Bu rejimdə hökumət parlamentdə mütləq çoxluğu təkbaşına qazana bilməyən bir neçə partiyanın koalisiyaya girməsi sayəsində formalaşır. Məsələn, AFR, İtaliya buna misaldır.

Üçüncüsü, parlament konsensusu adlanan rejimdir. Parlament demokratiyasının bu forması politoloq Laybxart tərəfindən təklif edilib, regional və ya etnik çoxluğun hökmranlığına əsaslanan siyasi sistemi ifadə etmək məqsədi daşıyır. Parlament konsensusu idarəçiliyi sistemində ölkəni ali dövlət hakimiyyəti orqanı olan parlament əvvəlcədən müəyyənləşdirilmiş regional və etnik təmsilçilik konsensus rejimdən istifadə olunur.

Deyilənlərdən əlavə, müasir dünya praktikasında qarışıq idarəçilik forması adlandırılan sistemlərə də təsadüf olunur. Bu sistemlərdə həm prezident, həm də parlament idarəçiliyi ünsürləri özünün əksini tapır. Məsələn, Fransanın siyasi sistemi prezident və parlament idarəçiliyi formalarının ayrı-ayrı cəhətlərini özündə birləşdirir.[7]

Müasir dünyada hər hansı cəmiyyətin, dövlətin demokratik xarakteri xeyli dərəcədə ölkədə şəxsiyyətin konstitusiya yolu ilə təsbit edilmiş hüquq və azadlıqları sisteminin miqyası, təbiəti və təminatı mexanizminin səmərəliliyi ilə müəyyən edilir. Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquqlarına geniş yer verilməsi Azərbaycan dövlətinin demokratik ənənələrə, insan hüquqları ideyasına əməl etmək istəyindən xəbər verir. Konstitusiyada insanların hüquq və azadlıqları 48 maddədə öz əksini tapmışdır.

Konstitusiyanın bütün maddələri ilə yanaşı, insan hüquq və azadlıqları ilə bağlı maddələrinin həyata keçirilməsi təminatı ilk növbədə əsas qanunun dövlətdə ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olmasını təsbit edən 147-ci maddəsində öz ifadəsini tapır.

Müasir dövrdə hər hansı ölkənin, dövlətin demokratik xarakteri həmin ölkədə cəmiyyət üzvlərinin hüquq və azadlıqlarının təmin edilməsi ilə müəyyən edilir.

Azərbaycan Respublikasının Konstitusiyasında «Əsas qanunlar, azadlıqlar və vəzifələr» adlanan ikinci bölmədə əsas insan və vətəndaş hüquqları və azadlıqlarından bəhs edilərək, insan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi adlanan 24-cü maddədə deyilir ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Həmin maddədə eyni zamanda göstərilir ki, hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir.[8]

Ümumiyyətlə, Azərbaycan Respublikasının Konstitusiyasının 48-ci maddəsində şəxsiyyətin azadlıq, toxunulmazlıq hüququ, söz, fikir, mətbuat, vicdan azadlıqı, sərbəst toplaşmaq hüququ, seçki hüququ, mülkiyyət və azad sahibkarlıq hüququ kimi vətəndaş hüquqları təsbit edilmişdir.

Konstitusiyada eyni zamanda cəmiyyət üzvlərinin sosial hüquqları da özünün əksini tapmışdır. Dövlət şəxsiyyətin əmək, sosial təminat, sağlamlıq, təhsil, sərbəst yaradıcılıq, mədəni sərvətlərdən istifadə etmək hüquqlarına təminat verməklə ölkədə insan hüquq və azadlıqlarının bitkin sisteminin yradılmasının əsasını qoymuşdur.

Konstitusiyanın «Bərabərlik hüququ» adlanan 25-ci maddəsində demokratik cəmiyyətin çox mühüm bir prinsipi öz əksini tapmış və şəhr edilmişdir. Həmin maddədə deyilir:

---

[7] Bax: Həsən Şirəliyev, Əli Əhmədov. Politologiya. Bakı., 1997, s. 236-238.

[8] Bax: Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, «Qanun», 1996, s. 12.

1. Hamı qanun və məhkəmə qarşısında bərabərdir.
2. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır.
3. Dövlət irqindən, milliyyətindən, dinindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

Konstitusiyanın insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi adlanan 26-cı maddəsində göstərilir ki; 1. Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır; 2. Dövlət hər kəsin hüquqlarının müdafiəsinə təminat verir.[9]

Azərbaycan Respublikasının Konstitusiyasında cəmiyyət üzvlərinin əsas hüquqları və azadlıqları ilə yanaşı onların vəzifələri də müəyyən edilmişdir.

«Vətəndaşların vəzifələrinin əsası» adlanan 72-ci maddədə deyilir:

I. Dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır.

II. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidirlər.

III. Qanunu bilməmək məsuliyyətdən azad etmir.[10]

Konstitusiyanın məsuliyyət adlanan 80-ci maddəsində isə qeyd edilir ki, Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan suiistifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur.[11]

Demokratik cəmiyyətdə insanların geniş hüquqlara, azadlıqlara malik olmaları ilə yanaşı onların cəmiyyət, dövlət qarşısında öz vəzifələrinə əməl etmələri və məsuliyyət daşımaları mühüm demokratik prinsiplərdən biridir.

Ümumiyyətlə şəxsiyyətin hüquqları, azadlıqları onun vəzifəsi və məsuliyyəti ilə sıx surətdə əlaqədardır.

Demokratiya şəraitində şəxsiyyətin məsuliyyətinə cəmiyyətin öz vətəndaşlarının şüuruna və davranışına yönəltdiyi siyasi, hüquqi, mənəvi və əxlaqi tələblərin məcmusundan ibarət müəyyən obyektiv məzmun xas olur. Bu məzmun cəmiyyət üzvləri tərəfindən dərk edildikdə onların şüurunun ünsürünə çevrilir və onlarda öz fəaliyyətlərinə şüurlu münasibət yaradır, yəni onlar öz fəaliyyətlərinə ictimai məna və əhəmiyyət nöqteyi-nəzərindən qiymət verə bilirlər.

Demokratiyanın ümumi prinsiplərinə uyğun olaraq insanların öz hüquqları və azadlıqlarından istifadə etməsi onların vəzifələrini və vətəndaşlıq məsuliyyətlərini yerinə yetirmələri ilə sıx surətdə bağlı olmalıdır. Müxtəlif siyasi sistemlərdə ictimai rəyin rolu həmin sistemin xüsusiyyətlərindən asılıdır. İctimai rəy geniş insan qruplarının təzyiqi ciddi hiss olunan ümumi hissin üstünlüyünün formalaşmasına gətirən meyarların oxşarlığında əks olunmuş ictimai-psixoloji amildir. İctimai rəy gizli və ya elan olunmuş ola bilər. O hər şeydən əvvəl emosional (hissiyat) amillərinə əsaslanır. O özünə «deyilənləri», «düşünülənləri», «inanılanları» daxil etdiyinə görə anonim xarakter daşıyır. O bu amillərdən asılıdır və məntiqi təhlil və ya təcrübədən keçmiş təsdiqlər əsasında yaranır, lakin kütləvi məlumat vasitələrinin təsirinə məruz qalır. İctimai rəy intellektual işin nəticəsi deyildir. Ona görə də o tez-tez səhvlərlə müşahidə olunur. İctimai rəy çox vaxt bir mənalı olmur, onun hədlərində müxtəlif cərəyanlar birgə mövcud ola bilər, müxtəlif qrupların tərəfdar olduğu müxtəlif mövqe və nöqteyi-nəzərlər cəmlənə bilər. İctimai rəyin istiqamətlərinin əsas tədqiqat üsulu sorğudur. İnsanların şəxsi həyatı qapalı olduğuna görə bu üsul tələb olunan məlumatın alınmasının yeganə vasitəsidir.

Əlbətdə, siyasi elitalar çalışırlar ki, ictimai rəy və ya heç olmasa onun çox hissəsi onların tərəfində olsun. Çox vaxt siyasi sistemin müsbət surətini yaymaq üçün elitalar müxtəlif ictimai qrupların arasından seçməli olurlar. Məsələn, elita istəyə bilər ki, onun müsbət surəti beynəlxalq maliyyə dairələri arasında yayılmış olsun. Bu zaman milli ictimai rəy arxa plana çəkilmiş olur. Elitalar istəyə bilərlər ki, onların ölkələri «borcları yaxşı ödəyə bilən» kimi tanınsın. Belə ad-san əhalinin daha da yoxsullaşması hesabına da aparıla bilər. Siyasi hakimiyyətlərini həyata keçirərkən elitalar ictimai rəylə bütövlükdə və ya onun hissəsi ilə hesablaşmalı olurlar. İctimai rəy bütövlükdə daim əleyhinə yönəldilmiş elitanın mövqeyi möhkəm olmur və o öz mövqeyini yalnız zorakılıq vasitələrindən müntəzəm olaraq istifadə etməklə saxlaya bilməz. İctimai

[9] Bax: Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, «Qanun», 1996, s. 12-13.
[10] Yene orada, s. 30.
[11] yenə orada, s. 32.

rəyə daxil olmuş düzgün və səhv mülahizələr siyasi sistemlərə təzyiq göstərdiyinə görə elitalar ictimai rəyə müxtəlif vasitələrdən istifadə etməklə təsir etməyə çalışırlar.

Artıq uzun müddətdir ki, elitanan ictimai rəyə təsir vasitəsi kimi təbliğat və senzuradan istifadə olunur. Müasir həyatımızda isə kütləvi məlumat vasitələrinin güclü texnoloji inkişafı ilə əlaqədar olaraq təbliğat və senzura kollektiv davranışı güclü idarəetmə alətinə çevrilmişlər.

Siyasi təbliğat kütləni müəyyən davranışa sövq edən ideya və hissiyatların kütləyə ötürülməsidir. Bu, elitanan siyasi ağalığını təmin etməyə yönəldilən kollektiv inandırma alətidir. Siyasi təbliğat insanların psixologiyası ilə əlaqədardır. Müxtəlif vasitələrdən istifadə etməklə insanları nəyəsə inandırmaq lazımdır. Bir qayda olaraq, təbliğat eyni mövzuların müntəzəm şəkildə təkrarlanmasına əsaslanır. O, ağıla yox, hissiyata yönəldilir, hadisələri sadələşdirir, bəzi hallarda isə şişirtmə və yalandan istifadə edir. Təbliğat əsasən elita tərəfindən istifadə olunur. Əkselita da təbliğatdan istifadə edir. Ona görə də ictimai fikirdə elita və onun əleyhdarları arasında olan ziddiyyətləri əks etdirən müxtəlif cərəyanlar yaranıb formalaşır.

Senzura isə öz növbəsində əhalinin elitaya münasibətinə mənfi təsir göstərə biləcək bəzi hadisələr, faktlar haqqında kütləyə məlumat verilməsinin əkselitaya qadağan edilməsidir. Belə hallarda hökumət dairələrinin nümayəndələri müvafiq faktlarla tanış olur və xüsusi əmr və sərəncamla onlar haqqında məlumat verilməsini qadağan edirlər. Senzuranın formalarından biri də özünü senzuradır. Özünüsenzura müəyyən məlumatların verilməsinin heç bir əmr olmadan qadağan edilməsidir. Özünüsenzura o siyasi sistemlər üçün xarakterikdir ki, orada məlumat vasitələrinin rəhbərləri «bilirlər» ki, bu tip məlumatlar hakim elitanın narazılığına səbəb olacaqdır.

Təbliğat və senzura siyasi sistemlərə cox ciddi təsir göstərə bilən yanlış fikirlərin formalaşmasının iki əsas vasitələridir. Siyasi həyatda yanlış fikirlər çox geniş yayılmışdır. Burada «lehinə» və ya «əleyhinə» mövqeyi məsələsinin mahiyyəti formalaşır.

Qabaqcadan inandırılmış yanlış və mənfi fikirlər siyasi sistemin müxtəlif qruplarının qarşıdurmasında həlledici təsirə malikdir. Elitalar kütlələri birləşdirib öz əleyhdarları əleyhinə yönəltmək üçün onlara qabaqcadan inandırılmış yanlış və mənfi fikirlər təlqin edirlər. Nasist Almaniyasında istifadə olunan belə xürafat və zehniyyat antisemitizm oldu. Xürafat və zehniyyatlardan siyasətdə müxtəlif qruplar arasında sədd yaratmaq, onların mümkün ola biləcək birgə fəaliyyətinin qarşısını almaqdan ötrü istifadə olunur. Onlar o dərəcədə güclü təsirə malikdir ki, bəzən çox yaxın ideologiyaya malik qruplar arasında da toqquşmaya gətirib çıxarır. Yuxarıda qeyd olunanlar göstərir ki, psixoloji amillər siyasi həyatda mühüm rol oynayırlar. Lakin o da aydındır ki, siyasi sistemlər yalnız bu amillərlə izah oluna bilməzlər.[12]

İctimai rəyin nəzərə alınması cəmiyyətin siyasi həyatının demokratikləşdirilməsinin mühüm meyarıdır. İctimai rəy ictimai şüurun özünəməxsus forması olub, cəmiyyət üzvlərinin faktlara, hadisələrə, sosial mühitə, ayrı-ayrı şəxslərin və müxtəlif sosial qrupların fəaliyyətinə münasibətini ifadə edir. İctimai rəyin ifadəçisi ayrı-ayrı sosial qrupların və bütövlükdə xalqın ictimai maraq kəsb edən aktual problemlərə münasibətini əks etdirən cəmiyyətin hər bir üzvü, insanların hər hansı birliyi ola bilər. İctimai həyatın mühüm və aktual problemlərinə dair çoxlu şəxsi fikirlərin aşkara çıxarılması ictimai rəyin ifadə edilməsinin mahiyyətini təşkil edir. Bu fikirlər birbaşa demokratiya və nümayəndəli demokratiya formaları vasitəsilə ifadə olunur. Beləliklə, ictimai rəy siyasi təsisatların fəallaşmasına real təsir göstərir.

Aşkarlıq demokratik cəmiyyətin mühüm prinsiplərindən biri olub xüsüsi əhəmiyyət kəsb edib. O, cəmiyyətin, dövlətin qarşısında duran cox mühüm vəzifə və problemlərin düzgün, obyektiv həllində ictimai təşkilatların fəaliyyətində acıqlıq və düzlük deməkdir. Cəmiyyətdə ictimai – siyasi və mənəvi mühitin saflaşması və sağlamlaşmasında aşkarlıq zəruri amillərdən biridir. O, eyni zamanda cəmiyyətdə müxtəlif ictimai-siyasi qüvvələrin qarşılıqlı əlaqələsinin möhkəmlənməsinə, neqativ halların aradan qaldırılmasına kömək edir.

Azərbaycan Respublikası Konstitusiyasının «Fikir və söz azadlığı» adlanan 47-ci maddəsində aşkarlığa xüsüsi diqqət yetirilir. Orada qeyd edilir:

I. Hər kəsin fikir və söz azadlığı vardır;

II. Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz;

III. İrqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir.

Konstitusiya eyni zamanda cəmiyyətin hər bir üzvünün ictimai həyatın müxtəlif sahələrinə dair ayrı-ayrı məsələlər haqqında tam və kifayət qədər məlumat almaq və ictimai əhəmiyyət kəsb edən hər hansı məsələni acıq və azad şəkildə müzakirə etmək hüququnu təsbit edir.

Konstitusiyanın «Məlumat azadlığı» adlanan 50-ci maddəsində deyilir:

---

[12] Bax: L.S.Sanisteban. Siyasət elminin əsasları. Bakı, 1994, səh. 29-31.

1. Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq,əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadığı vardır.
2. Kütləvi informasiyasının azadlığına təminat verilir.Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.[13]

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında ölkəmizdə qurulmaqda olan demokratik cəmiyyətin başlıca prinsipləri öz əksini tapmış və şərh edilmişdir.

Konstitusiyanın «Azərbaycan dövləti» adlanan 7-ci maddəsində deyilir:

I. Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır.

II. Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

III. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətin bölünməsi prinsipi əsasında təşkil edilir.

- Qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- İcra hakimiyyəti Azərbaycan Respublikasının prezidentinə mənsubdur;
- Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

IV. Bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.[14]

Konstitusiyanın «Azərbaycan dövlətinin başçısı» adlanan 8-ci maddəsində göstərilir:

I. Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir.

II. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisçiliyini təmin edir.

III. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır.

IV. Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.[15]

Demokratik cəmiyyətin mühüm prinsiplərindən biri qanunun aliliyinin təmin edilməsindən ibarətdir. Bu prinsip qanunun cəmiyyətin bütün ictimai-siyasi təsisatlarına, ölkənin bütün vətəndaşlarına eyni dərəcədə aid olmasını təsdiq edir.

Qanunun aliliyinin, qanun qarşısında cəmiyyətin bütün üzvlərinin bərabərliyinin ölkə vətəndaşlarının hamısı tərəfindən dərk edilməsi, şəxsiyyətin hüquq və azadlıqlarına hörmət və s. bu kimi cəhətlər demokratik cəmiyyətin səciyyəvi xüsusiyyətlərindən biridir.

Azərbaycan Respublikasının Konstitusiyasında deyilir: Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya aktında əks olunan prinsipləri əsas götürərək bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüquqlarından istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- Vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- Xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- Ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
- Ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Yuxarıda sadalanan ülvi niyyətlərlə ümumxalq səsverməsi – referendum yolu ilə bu Konstitusiya qəbul edilir. [16]

---

[13] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, «Qanun», 1996, səh. 21-22.
[14] Bax: Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, «Qanun», 1996, səh 6.
[15] Yenə orada, səh. 6-7.
[16] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, «Qanun», 1996, səh. 3.

### 3. *Demokratik proseduralar*

Müasir dövrdə demokratik cəmiyyətin qərarlaşmasının mühüm amilləri sırasında seçkilər, ümumxalq səsverməsi – referendum, opponentlik və yarışmaq, ictimai rəyin öyrənilməsi kimi demokratik proseduralar xüsusilə böyük əhəmiyyət kəsb edir.

Seçkilər – dövlət hakimiyyətinin nümayəndəli orqanlarının seçilməsinə yönəldilmiş kütləvi siyasi kompaniyadır.

Demokratik cəmiyyətin növbəti proseduru ümumxalq müzakirəsi və referendumdur.

Referendum latınca: «Nə var, o da xəbər verilməlidir» deməkdir. Müstəqil Azərbaycanda bu demokratik prosedurdan istifadə olunmuşdur. Sonuncu dəfə 2002-ci ilin avqust ayının 24-də keçirilən referendum Konstitusiyada əsaslı dəyişiklikləri təsdiqlədi.

Demokratik cəmiyyətin siyasi həyatında mühüm proseduralardan biri də opponentlik və yarışmaqdır.

Bu prosedura dövlət hakimiyyət orqanlarının seçkiqabağı kompaniyasında namizədlər arasında mübarizə və sağlam rəqabət olmasını nəzərdə tutur. Hər bir seçkiyə bərabər hüquqlu alternativ namizədlərin rəqabəti xas olmalıdır.Burada seçkilərin yüksək tələblərinə cavab verə biləcək namizəd qələbə çalmalıdır.

Səlahiyyətin verilməsi / tapşırılması / - demokratik cəmiyyətin siyasi həyatında mühüm proseduralardan biridir.

Seçicilər bütün səlahiyyəti, onların istəklərini və mənafelərini ifadə edən deputatlarına verirlər.

Deputatlar öz xalqının səlahiyyətli nümayyəndəsi kimi dövlət, təsərrüfat və sosial-mədəni quruculuğa dair məsələləri həll edirlər, qərarların həyata keçməsi üçün təşkilat işi aparırlar, dövlət orqanlarının, müəssisələrinin və təşkilatlarının işləri üzərində nəzarət edirlər.

Cəmiyyətin siyasi həyatında mühüm demokratik proseduralardan biri də ictimai rəyin öyrənilməsidir.

İctimai rəyin sosiologiyasında bu elmə xas olan ənənəvi metodlardan istifadə olunur (müxtəlif sorğular, müşahidə, anket və s.).

## 10-cu MÖVZU

# SOSİAL QRUPLAR VƏ SOSİAL SİYASƏT

### 1. *Cəmiyyətin sosial differensasiyası və onun siyasi proseslərə təsiri*

Hər bir cəmiyyətdə, xüsusilə müasir cəmiyyətlərdə müxtəlif sosial təbəqələr, qruplar, siniflər, millətlər, siyasi, iqtisadi və mədəni təşkilatlar vardır.

Siniflərin, sosial təbəqələrin və qrupların məcmusu, onların qarşılıqlı münasibətləri sistemi cəmiyyətin sosial strukturunu təşkil edir.

Sosial həyatın və siyasi proseslərin başlıca subyektlərindən biri sosial qruplardır. Düzgün siyasət işləyib hazırlamaq və onu həyata keçirmək həmin qrupların mənafeyini nəzərə almağı, onların fəaliyyətini düzgün əlaqələndirməyi tələb edir. Bu mənada, cəmiyyətin sosial strukturunu, onu təşkil edən sosial qrupları öyrənmək politologiyanın tədqiqat obyektinə daxil olan mühüm problemlərdən biridir.

Bir və ya bir neçə ümumi sosial əlamət əsasında birləşmiş insanların məcmusu sosial qrup adlanır. Sosial qruplar demoqrafik, etnik, peşə, ərazi, dini və s. birliklərdir. Öz ictimai vəziyyətinə görə insan eyni zamanda bir neçə sosial qrupun üzvü ola bilər (məsələn, qoca, azərbaycanlı, müsəlman, dulusçu və s.).

Sosial qruplar arasındakı fərqləri əmələ gətirən amillər olduqca müxtəlifdir. Buraya əmək bölgüsü, cəmiyyətdə mövcud olan iqtisadi, ictimai və siyasi vəziyyət, tarixi, milli-etnik xüsusiyyətlər, iqtisadi və mədəni səviyyələr və s. daxildir.

Sosial qruplar və onlar arasındakı fərqlərin əmələ gəlməsi və formalaşmasında dövlət və digər rəhbər orqanların apardıqları uzunmüddətli ardıcıl sosial siyasətin də böyük rolu vardır.

Sosial qruplar arasındakı fərqlərin əmələ gəlməsində, yeni-yeni sosial zümrələrin və onların arasındakı fərqlərin yaranmasında elmi-texniki inqilabın təsiri də az deyildir.

Cəmiyyətin sosial strukturu dedikdə, bir-biri ilə qarşılıqlı əlaqədə və təsirdə olan sosial qrupların məcmusu, onlar arasındakı münasibətlərin müəyyən qaydası nəzərdə tutulur. İnsanın ictimai vəziyyətindəki əsas əlamətlər sosial strukturun aşağıdakı növlərini ayırmağa imkan verir: sosial stratifikasiya; sosial-etnik struktur; sosial-demoqrafik struktur; sosial-peşə strukturu; sosial-ərazi strukturu.

Leninin məlum tərifinə görə sinif tarixən müəyyən ictimai istehsal sistemində tutduğu yerinə görə, istehsal vasitələrinə olan münasibətinə (çox qisim qanunlarda rəsmiləşdirilib möhkəmləndirilən bu münasibətlərə) görə, ictimai əməyin təşkilindəki roluna görə, deməli, malik olduqları ictimai sərvətdən pay almaq üsuluna və bu payın miqdarına görə fərqlənən böyük insan qruplarına deyilir. Buradan məlum olur ki, cəmiyyətin sinfi strukturu əsasən istehsal sferasında təşəkkül tapır. Məhz buna görə də marksizm-leninizm təlimi belə hesab edirdi ki, o, sosial strukturda mərkəzi mövqe tutur. Buna əsasən, demək olar ki, kapitalizmdə burjuaziya, proletariat və xırda burjuaziya, sosializmdə isə fəhlə sinfi, kolxozçu kəndlilər cəmiyyətin əsas sinifləri kimi qeyd olunurdu. Həmin sxemə əsasən SSRİ-nin sosial-sinfi strukturu «iki üstəgəl bir» formasında, yəni iki sinif və üstəgəl ziyalı təbəqəsi kimi təsvir edilirdi.

Lakin öz növbəsində marksizm-leninizmin cəmiyyətin sosial-sinfi strukturu haqqında məlum konsepsiyasının çatışmayan cəhətləri və nöqsanları vardır. Müəyyən ümumiləşdirmə aparmaqla onları aşağıdakı kimi qruplaşdırmaq mümkündür.

Hər şeydən əvvəl marksizm təlimində əsas üstünlük verilən «sinif» anlayışının özünün mənası və mahiyyəti mübahisəlidir. Belə ki, dünya sosiologiyasında həmin anlayış yuxarıda qeyd olunan mənanı vermir. Belə ki, bir qayda olaraq, həmin anlayışı Qərb sosioloqları və politoloqları bu və ya başqa bir ümumi sosial əlamətlə birləşən istənilən insanlar qrupunu ifadə etmək üçün işlədirlər. Bu baxımdan, «Sosiologiya: 90-cı illərin dərsliyi» (Kembric, 1989) adlı məşhur dərsliyin müəllifi Entoni Giddensin «sinif» haqqında dedikləri ibrətamizdir. O yazır: «Biz sinifləri, onların həyat stilinin tipinə xeyli təsir göstərən ümumi iqtisadi imkanlarına görə fərqlənən böyük insan qrupları kimi müəyyən edə bilərik».

Sinfi fərqlərin başlıca əsası məşğulluq tipi ilə birlikdə xüsusi sərvətlərdir. Qərb cəmiyyətlərində mövcud olan başlıca siniflər aşağıdakılardır:

1. Yüksək siniflər (istehsal ehtiyatlarına sahib olan, yaxud onlara birbaşa nəzarət edənlər, varlılar, iri sənayeçilər, rəhbərliyin yuxarı təbəqələri);
2. Orta sinif («ağ yaxalıqlılar»);
3. Bəzi sənaye ölkələrində növbəti sinif kəndlilərdir (ənənvi kənd təsərrüfatı istehsalı sahələrində çalışanlar)…»

Öz növbəsində Erik Olin Rayt (ABŞ) müasir kapitalist istehsalında iqtisadi ehtiyatlar üzərində nəzarətin üç əsas növünü qeyd edir və göstərir ki, buradakı əsas siniflərin həmin növlərə uyğun gələnləri aşağıdakılardır:

1. İnvestisiyalar, yaxud pul kapitalı üzərində nəzarət;
2. Fiziki istehsal vasitələri (torpaq, müəssisələr, ofislər) üzərində nəzarət;
3. Əmək və hakimiyyət üzərində nəzarət.

O yazır ki, kaptalistlər sinfinə mənsub olan adamlar ehtiyatların hər üç növünə nəzarət edirlər. Fəhlə sinfinə mənsub olanlar isə onların heç biri üzərində nəzarət etmirlər. Rayt «ağ yaxalıqlıları» həmin siniflərin heç birinə aid etmir və göstərir ki, onlar iki sinfin əlamətlərini özlərində birləşdirirlər.

Marksizm isə yalnız mövcud mülkiyyət münasibətləri sistemində müstəqil yer tutan və istehsal vasitələrinə ümumi bir münasibəti olan qruplara sinif anlayışının tətbiq oluna bildiyini iddia edir. Buradan çıxış edərək, başqa əlamətlərə (məsələn, hakimiyyət sistemindəki yerinə, gəlirinin miqdarına, əməyin məzmununa və xarakterinə) görə fərqlənən sosial qrup sinif adlandırılır. Məhz bu səbəbdən də ziyalıları sosial qrup, yaxud təbəqə adlandırırlar.

Məlumdur ki, bütün başqa ictimai hadisələr kimi sosial struktur da cəmiyyətin inkişafı ilə həmahəng inkişaf edir və dəyişir. Elmin vəzifəsi həmin dəyişiklikləri izləmək, onları qeydə almaq və ümumiləşdirmək əsasında gələcəyin perspektivlərinin aydınlaşdırılmasına kömək etməkdir. Lakin bizdə bunun tamamilə əksi baş vermişdir. Belə ki, məsələn, 19-cu əsrdə K.Marks fəhlə sinfindən danışarkən onun əsas dəstəsini bir-birindən fərqləndirirdi: fabrik-zavod sənaye fəhlələri; ticarət, ictimai iaşə və s. müəssisələrdə çalışan fəhlələr və kənd təsərrüfatı fəhlələri.

Marksın nəzəriyyəsinin meydana gəldiyi vaxtdan keçən yüz ildən artıq bir dövrdə fəhlə sinfinin daxilində çox ciddi irəliləmələr və yerdəyişmələr olmuşdur. Belə ki, məsələn, Qərb ölkələrində ağır fiziki əməklə məşğul olan «göy yaxalıqlı» fəhlələrlə yanaşı, «ağ yaxalıqlı» və hətta, «qızılı yaxalıqlı» fəhlələr dəstəsi meydana gəlmiş və elmi-texniki inqilabın gedişində onların sayı sürətlə artmağa başlamışdır. Təbii ki, əsasən zehni əməklə, mürəkkəb texnika və texnoloqiyanı idarə etməklə məşğul olan, istər öz ictimai vəziyyətinə, istərsə də gəlirinin miqdarına görə tamamilə fərqli olan həmin şəxsləri ənənəvi sanaye sahələrində (tikinti, toxuculuq, metallurgiya, dağ - mədən və s.) əsasən fiziki əməklə məşğul olan adamlarla eyniləşdirmək və onların hamısını bir adla - «fəhlə» adlandırmaq kökündən səhv olardı.

Buna baxmayaraq, son zamanlara kimi alimlər fəhlə sinifinin həmin üç dəstəsinin mövcud olduğunu iddia etməkdə davam edir və həmin sxemi heç vəchlə dəyişdirməyə çalışmırlar. Bu isə öz növbəsində yaşadığımız cəmiyyətin real mənzərəsinin bizim üçün aydın olmamasına, burada mövcud olan qruplar haqqında yanlış fikrin formalaşmasına gətirib çıxarmışdır.

Beləliklə, elmlər sistemində çoxdan vətəndaşlıq hüququ almış «sosial stratifikasiya» (latın sözü olub «təbəqə» mənasını daşıyır) nəzəriyyəsinə müraciət etməkdən başqa bir yol qalmırdı. Bu nəzəriyyəyə görə, cəmiyyətin sosial strukturunun əsas elementi stratlar (təbəqələr) hesab olunur. Stratların ayırılması isə marksizmdə olduğundan tamamilə fərqli əlamətlər əsasında aparılır.

Müasir Amerika sosiologiyasında cəmiyyətin sosial straifikasiyası aşağıdakı əsas meyarlar əsasında müəyyən olunur:

***Birincisi, peşə nüfuzu.*** Tarixdən bəllidir ki, bu və ya başqa xalqın nümayəndələri ayrı-ayrı zamanlarda müxtəlif peşələrə üstünlük vermiş, öz növbəsində valideyinlər övladlarını daha nüfuzlu peşələrə yiyələnməyə sövq etmişlər. Bu isə müvafiq peşə sahəsində çalışanların başqalarından fərqlənməsinə gətirib çıxarmış, həmin peşə sahəsində çalışan xüsusi adamlar qrupunun yaranmasına səbəb olmuşdur.

***İkincisi, hakimiyyət və əzəmət.*** Təbii ki, cəmiyyətdə mövcud qruplar əllərində olan hakimiyyətə və əzəmətə görə bir-birindən fərqlənir, hakimiyyət nərdivanında onların hər birinin öz yeri və rolu olur.

***Üçüncüsü, gəlir və sərvət.*** Ayrı-ayrı qrupların gəlir və sərvət mənbəyi iki cür olur. Bir tərəfdən hər bir peşə sahibi özünəməxsus yolla gəlir və sərvət alır. Digər tərəfdən isə bir sıra şəxslər onlara qalmış miras əsasında da sərvətə sahib ola bilirlər. Hər iki halda gəlir və sərvətin miqdarı müvafiq qrupu başqalarından fərqləndirir. Gəlir həm varlanmaq, həm də yüksək rola sahib olmaq vasitəsi kimi çıxış edir.

***Dördüncüsü, təhsil yaxud bilik.*** İnsanların təhsil almaq imkanları tarix boyunca həmişə müxtəlif olmuşdur. Bu, son nəticədə istər onların sosial roluna, istər irəliləmək imkanına, istərsə də cəmiyyətdə tutduğu yerə öz təsirini göstərmişdir. Bir çox alimlərin fikrincə müasir cəmiyyət «meritokratiyaya» (ingilis dilində «xidmət», «ləyaqət» sözündəndir) doğru təkamül edir. Orada isə insanların sosial nərdivanda yerləşməsində və yerdəyişməsində pul deyil, məhz təhsil, insanların mənəvi-əxlaqi və s. keyfiyyətləri daha əhəmiyyətli rol oynayacaqdır.

***Beşinci, din və ya mərasim təmizliyi.***

***Altıncısı, adamların qohumluq əlaqələrinə görə fərqləndirilməsi.*** Bütün cəmiyyətlərdə qohumluq əlaqələri və onun davamı olan etnik qruplar müstəqil və çox mühüm funksiyalar yerinə yetirirlər (nəslin

davam etdirilməsi, uşaqların sosiallaşdırılması, valideyinlərlə uşaqlar, valideyinlərin özləri, qardaş və bacılar və s. qohumlar arasındakı münasibətlərin sosial-psixoloji və əxlaqi cəhətdən tənzim edilməsi və s.).

Göründüyü kimi, straifikasiya cəmiyyətdə mövcud olan bütün qrupları səciyyələndirməyə imkan verir. Bu zaman təsadüflərə yol verməmək, cəmiyyətin tərkibini öyrənərkən volyuntarizmdən yaxa qurtarmaq üçün mövcud olan bütün qrupları əhatə etmək və həm də onların hamısını eyni meyarlar əsasında qiymətləndirmək lazımdır. Bu yolla ictimai həyatın demək olar bütün sahələrində insan fəaliyyətini təhlil etmək mümkündür. Sosial dəyişikliklərin dinamikasını öyrənmək üçün adətən alimlər şaquli və üfüqi stratifikasiyadan istifadə edirlər. O, insanın bir sosial səviyyədən başqasına yüksəlməsini və yaxud enməsini, ya da eyni səviyyədə qalmaqla, bir sosial qrupdan digərinə keçməsini izləməyə imkan verir. İnsanın və ya qrupun sosial strukturda tutduğu yerin dəyişməsi sosial yerdəiyşmə, yaxud mobillik adlanır. Təbii ki, dövlət həmin prosesin qarşısını tamamilə almaq iqtidarında deyildir. Lakin qanunlardan, vergi siyasətindən, milli gəliri bölüşdürməyin digər formalarından istifadə etməklə, həmin prosesi ləngidə, yaxud sürətləndirə, əhalinin müəyyən bir qisminin vəziyyətini yaxşılaşdıra, başqa bir qisminin vəziyyətini isə pisləşdirə bilir. Bu mənada dövlət sosial prosesin güclü tənzimləyicisi kimi çıxış edir.

## *2. Sosial siyasətin məqsədləri, vəzifələri və funksiyaları*

Siyasətin real təcəssümü konkret fəaliyyətdən ibarətdir. Siyasətin əsas subyekti olan başlıca qurumların, xüsusilə dövlətin fəaliyyəti mahiyyət etibarilə siyasətin mövcudluq formasını ifadə edir. Dövlətin fəaliyyətinin mühüm istiqamətlərindən, funksiyalarından birini sosial siyasət təşkil edir.

Sosial siyasət cəmiyyətdə vətəndaşların, sosial qrup və birliklərin tələbatlarını nəzərə alaraq, onlar üçün yaşayış şəraiti yaratmaq sahəsində dövlətin konkret fəaliyyətidir.

Sosial qrupların differensiyasının dəqiq uçotunu aparmaq, onların əməyinin xarakter və məzmununu müəyyən etmək, mənafelərinin rəngarəngliyini öyrənmək sosial siyasət üçün mühüm cəhətdir. İnsanların imkanları, qabiliyyətləri, maraq və mənafelərinin müxtəlifliyi sosial siyasətdə nəzərə alınmalıdır.

**Sosial siyasət** – siyasi rəhbərliyin maddi rifahi yüksəltmək, sosial ədalətin bərqərar edilməsi, siniflərin, millət və xalqların, sosial qrup və zümrələrin, kollektivlərin, ayrı-ayrı şəxslərin əmək, mədəni-məişət, sosial şəraitinin yaxşılaşdırılması üçün həyata keçirdiyi tədbirlərin məcmusuna deyilir.

Başqa sozlə desək, sosial siyasət dövlətin cəmiyyət həyatının sosial sferasının idarə edilməsi sahəsindəki fəaliyyətidir. Bu fəaliyyət adamların əmək və ictimai-siyasi fəallığının artırılmasına, onların mənafeləri və tələbatlarının ödənilməsinə xidmət etməlidir.

Sosial siyasətə bu və ya digər səbəblər üzündən çətin sosial vəziyyətə düşən, əhalinin digər qrup və zümrələrinə nisbətən öz qüvvəsi ilə öz vəziyyətini yaxşılaşdırmağa imkanı olmayan sosial qrup və zümrələri müdafiə etmək məqsədilə dövlətin həyata keçirdiyi tədbirlər və s. də daxildir.

Sosial siyasət bir sıra vəzifələrə xidmət göstərir. Onun mahiyyətindən irəli gələn başlıça vəzifə cəmiyyət üzvlərinin təkrar istehsalına şərait yaratmaq, insanların zəruri maddi ehtiyaclarını ödəməkdir. Hər bir dövlət insanların siyasi təşkili forması olmaq etibarilə, bir yandan onların məcburi surətdə kütləvi hakimiyyətə tabe olmalarını təmin edir, digər tərəfdən isə əhali qarşısında üzərinə müəyyən öhdəliklər götürür. Bu öhdəliklərə insanların təhlükəsizliyini, ictimai asayişi təmin etməklə yanaşı onların maddi tələbatlarının və ehtiyaclarının ödənilməsi üçün şərait yaradılması kimi vəzifələr daxildir. Hələ lap qədim dövrlərdən hökmdarların ədalətliliyi haqqında insanların şüurunda dərin kök salmış təsəvvürlər onların əhalinin ehtiyaclarına qayğısı və diqqəti kimi humanist keyfiyyətlərinə əsaslanırdı.

Sosial siyasətin yerinə yetirdiyi ikinci mühüm vəzifə sosial ədalətin həyata keçirilməsi ilə əlaqədardır. Ədalət anlayışı tarixi dəyişkənliyin təsirini öz üzərində hiss edən sosial həyat hadisəsidir. Hər bir tarixi dövr, hər bir xalq və millət, hər bir ictimai quruluş ədalət haqqında öz təsəvvürlərini formalaşdırır. Lakin bütün dövrlər üçün ümumi olan bir prinsip dəyişməzdir, o da mövcud dövlətin, siyasi rejimin, konkret hökmdarın ədalətin təcəssümü olması haqqında fikrin əsaslandırılması cəhdidir. Hər bir konkret şəraitdə özünəməxsus şəkildə dərk edilən ədalət prinsiplərinin həyata kecirilməsində mühüm vasitələrdən biri sosial siyasət hesab olunur. Bu halda sosial ədalət haqqında təsəvvürlər ilkin, sosial siyasət isə törəmə mahiyyət daşıyır. Yəni siyasi rejim sosial ədalət haqqında rəsmi baxışları və mövqeyi müəyyənləşdirir və ona uyğun sosial siyasət həyata keçirir.

Sosial siyasətin üçüncü vəzifəsi cəmiyyətdə ictimai ahəngdarlığın, sosial sülhün təmin edilməsində təmin olunur. Müxtəlif qrup, birlik və təbəqələrin mürəkkəb və çoxşaxəli sistemi kimi mövcud olan cəmiyyətin həyat qabiliyyəti onu təşkil edən ünsürlərin harmoniyasından, dinc qarşılıqlı fəaliyyətindən asılıdır. İctimai sülh və ahəngdarlıq insanların və onların bilavasitə daxil olduqları sosial qrup və birliklərin sərvətlər və imkanlardan istifadə edilməsi prosesində iştirakı dərəcəsindən asılıdır. Sosial siyasət insanların bu prosesdə iştirakının optimal və məqbul formasını işləyib hazırlayır və həyata keçirir.

Sosial siyasət hakimiyyətin sosial əsası, rejimin özünümüdafiə sistemində mühüm vasitə rolunu oynayır. Siyasi sistemin qüdrəti, taleyi bir sıra mühüm dayaqlara söykənir. Bu dayaqlardan ən etibarlılarından biri həyata keçirilən səmərəli sosial siyasət sayıla bilər. Sosial siyasət hakimiyyətin xalqa bağlılığını xalqın ehtiyac və tələbatını dərk etdiyini, ona qayğı ilə yanaşdığını sübuta yetirən ən təsirli mexanizmdir.

Sosial tədbirlər vasitəsilə siyasi rejim sosial bazanı genişləndirir, əhali arasında dəstək qazanır. Müasir siyasi elm belə bir qəti nəticəyə gəlməmişdir ki, səmərəli sosial siyasət cəmiyyətdə siyasi sabitliyi təmin edən ən güclü amil rolunu oynayır. Qərbi Avropada, ABŞ-da uzunmüddətli siyasi sabitlik, siyasi rejimin səmərəli fəaliyyəti ədalətli sosial siyasətin nəticəsidir. Böyük siyasi kataklizmlər, münaqişə və toqquşmalar müşahidə edilən dövlətlərdə bu cür təhlükəli halların meydana gəlməsi də bir sıra digər səbəblərlə yanaşı dövlətin sosial siyasətinin yarıtmaz şəkildə qurulması ilə əlaqədardır.

Sosial siyasətin subyekti və obyekti insandır. Başqa sözlə desək, sosial siyasətin subyektinə hakim partiya, dövlət, digər rəhbər orqan və təşkilatlar aiddirsə, obyektinə cəmiyyəti təşkil edən sosial qruplar, zümrələr, milli və etnik qruplar, habelə ayrı-ayrı adamlar aiddir.

Sosial siyasətin daha dolğun həyata keçirilməsi hər şeydən əvvəl maddi-texniki imkanlarla, iqtisadi vəziyyətlə bağlıdır. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması məqsəd olsa da, bu məqsədə nail olmanın əsas vasitəsi maddi və mənəvi istehsaldır, iqtisadiyyatın inkişafıdır. Sosial siyasət o zaman müvəffəqiyyətli olur ki, iqtisadi inkişaf arzu olunan kimi baş vermiş olsun. Zəif iqtisadiyyata malik olan cəmiyyətdə sosial problemlər yüksək səviyyədə həll edilə bilməz.

Sosial qruplar və zümrələr arasında münasibətlərin nizama salınması, sosial differensiasiya və inteqrasiya prosesinin optimallaşdırılması, cəmiyyətin humanist mahiyyətinin reallaşdırılması üçün şərait yaradılması, istehsalın idarə olunmasında sosial meyarlara üstünlük verilməsi, cəmiyyət həyatının demokratikləşdirilməsi, şəxsiyyətin hüquq və azadlıqlarının daha dolğun həyata keçirilməsi və s., sosial siyasətin ümdə vəzifələridir.

Sosial siyasətin həyata keçməsi vəziyyətinin ölçüsü, onun yuxarıda sadaladığımız vəzifələrin yerinə yetirilməsi ilə bağlıdır. Yəni, yeni-yeni sosial proqnoz və proqramların təntənə ilə elan və qəbul edilməsi yox, onların düzgün yerinə yetirilməsi ilə bağlıdır.

Sosial siyasət dəyişməz, əbədi, sabit olan bir şey deyildir. Hər bir cəmiyyətdə sosial siyasətin subyektləri dəyişildikdə yeni subyektin, yaxud yeni rəhbərliyin siyasi proqram və planları ilə əlaqədar olaraq sosial siyasət dəyişə də bilər, sabit də qala bilər.

Sosial siyasətin xarakteri və məzmunu bir çox amillərlə müəyyən olunur. Bunlardan ən birincisi siyasi rejimin təbiəti, onun rəsmi ideologiyasında və dəyərlər sistemində humanizm və sosial ədalət prinsiplərinin yeri və rolu hesab edilməlidir. İnsanların konkret mənafeləri, ehtiyac və tələbatlarına qayğı rejimin fəaliyyətinin başlıça məqsədi hesab edilən ölkələrdə dövlətin bütün siyasəti və səyləri nəticə etibarilə sosial vəzifələrin yerinə yetirilməsinə tabe edilir. Liberalizm ideyalarına üstünlük verilən Qərb ölkələrində insanın mənafeyinin ön plana çəkilməsi yüksək səmərəli sosial siyasət vasitəsilə əhalinin yüksək həyat səviyyəsinə təminat vermişdir. Abstrakt sinfi, milli, kollektiv mənafelərin və məqsədlərin üstün əhəmiyyət kəsb etdiyi siyasi sistemlərdə təcrübə göstərir ki, dövlətin siyasəti və praktik fəliyyəti insanların tələbat və ehtiyaclarından uzaq düşür, sosial siyasət deklorativ məzmun alaraq əhalinin həyat şəraitinə real təsir göstərmək imkanlarından məhrum olur.

Sosial siyasət cəmiyyətlə onu təşkil edən sosial qruplar arasındakı münasibətləri, bununla da cəmiyyətlə şəxsiyyət arasındakı münasibətləri tənzim edir.

Sosial siyasət çoxşaxəliliyi ilə seçilir. Onun məzmununa daxil olan ünsürlər müxtəlifdir. Sosial siyasətin miqyasları və əhatə dairəsi insanların tələbat və ehtiyaclarının ödənilməsi məqsədilə dövlətin həyata keçirdiyi tədbirlərin xarakterindən asılıdır. Sosial siyasətin məzmununu təşkil edən fəaliyyət istiqamtlərinin böyük rəngarəgliyi daxilində onun strukturunu təşkil edən bir sıra ünsürlər (istiqamətlər) daimi və məcburi xarakter daşıyır. Bunlar aşağıdakılardan ibarətdir:

a) dövlətin insanların əmək hüququnun əməli surətdə reallaşması sahəsində səyləri (təbii ki, hər bir fərdin, ailənin, bütünlükdə əhalinin maddi tələbatlarının ödənilməsi, həyat səviyyəsinin yüksəldilməsi, əmək qabiliyyətli əhalinin, əvvəla, işlə təmin olunması, ikincisi isə əməyə görə layiqli haqq verilməsi ilə şərtlənir);
b) sosial müdafiə sisteminin yaradılması;
c) əhaliyə səhiyyə xidmətinin təşkili;
d) təhsilin, mədəniyyətin dövlətin himayəsi altına alınması.

Dövlətlərin insanların sosial tələbatlarına yanaşması metodları, habelə bu tələbatları ödəmək üçün maddi əsas olan iqtisadi imkanları bir-birindən köklü surətdə fərqləndiyi kimi, onların həyata keçirdiyi sosial siyasət də eyni deyil. Hətta belə demək olar ki, dünyada nə qədər dövlət varsa, sosial siyasətin də o qədər

konkret təzahür formaları mövcuddur. Lakin bununla belə sosial siyasətin bu rəngarəgliyini ümumi, oxşar əlamətlər əsasında üç əsas qrupda ifadə etmək mümkündür:

a) kommunist sosial siyasət;
b) liberal sosial siyasəti;
c) sosial-demokrat sosial siyasəti.

Sosial siyasətin kommunist modeli marksizm-leninizm ideologiyasına əsaslanan siyasi rejimlərdə, məsələn, keçmiş SSRİ-də, Şərqi Avropanın keçmiş sosialist ölkələrində tətbiq edilirdi. Bu modelə hazırda Kubada üstünlük verilir. Sosial siyasətin kommunist modelinin başlıca xüsusiyyəti onun bərabərləşdiricilik prinsiplərinə əsaslanması idi. Bundan əlavə, kommunist sosial siyasəti bu ölkələr üçün səciyyəvi olan sərvətlərin bölgüsünün bərabərləşdiricilik prinsipi əsasında həyata keçirilməsində həlledici vasitə rolunu oynayırdı.

Kommunist sosial siyasətin həm üstün, həm də çatışmayan cəhətləri vardır. Üstünlüyü ondan ibarətdir ki, insanların sosial və maddi tələbatlarının böyük hissəsinin ödənilməsini dövlət öz üzərinə götürür. Tələbatların ödənilməsi səviyyəsi insanların layiqli həyat səviyyəsi meyarlarından uzaq olsa da, dövlətin sosial müdafiə sahəsində siyasətinin miqyasları adamlarda, xüsusilə də qocalarda minimum təminatdan irəli gələn müəyyən optimizm hissi formalaşdırırdı. Sosial siyasətin bu modelinin çatışmayan cəhətləri isə aşağıdakılardan ibarətdir:

- Birincisi, insanların həyat səviyyəsinin fərdi əmək və qabiliyyətdən asılılığını zəiflədir.
- İkincisi, bərabərlişdiricilik prinsipi zəminində sosial ədaləti kobudcasına pozur. Mərkəzləşmiş ictimai fondlardan sərvətlərin bölgüsü əməyə görə deyil, tələbata görə aparıldığından, az işləyənin çox, çox işləyənin isə az pay alması adi qaydaya çevrilir.
- Üçüncüsü, əməkdə yüksək nailiyyətlərə, təşəbbüskarlığa, bir sözlə, tərəqqiyə təkan verən yaradcı fəallığa stimulu söndürür.

Sosial siyasətin liberal modelinin başlıca xüsusiyyəti fərdin tələbat və qabiliyyətlərinin müxtəlifliyini nəzərə almasıdır. Bu model əsas etibarilə azad bazar münasibətlərinə, liberal iqtisadiyyata üstünlük verən ölakələrdə tətbiq edilir. Sosial siyasətin liberal modeli insanların tələbatının fərdi qaydada, onların əməyi və əməkdən aldığı haqq hesabına ödənilməsinin üstünlüyünü nəzərdə tutur.

Sosial siyasətin liberal modeli kommunist modelinə xas olan nöqsanlardan azaddır. Lakin bu modelin tətbiq edilməsi ölkənin maddi ehtiyatlarının, iqtisadi imkanlarının yüksək səivyyəsini tələb edir. Kasıb ölkələrdə sosial siyasətin bu modeli tətbiq oluna bilməz, çünki bu halda sosial müdafiəyə ehtiyacı olan insanların çoxu ya ondan məhrum olar (məsələn, işsizlər), ya da sosial müdafiə fondlarının yardımları ailələrin həyat şəraitinə real təsir göstərmək imkanından məhrum olar.

Sosial siyasətin sosial-demokrat modeli yuxarıda şərh olunan modellərin bir növ qarışığıdır. Onun xüsusiyyəti insanların tələbat və ehtiyaclarının ödənilməsində dövlətin mərkəzləşmiş səyləri ilə onların özlərinin fərdi qayda iştirakını üzvi surətdə əlaqəndirməkdir. Bu model sosial-demokrat ideyalarının mövqelərinin güclü olduğu bir sıra Avropa ölkələrində uğurla tətbiq olunur.

Müasir şəraitdə sosial problemlərin həllinə diqqətin artması, dövlətin sosial funksiyalarının rol və əhəmiyyətinin güclənməsi dövlətin özünün təbiətində əhəmiyyətli dəyişikliklərə gətirib çıxarmışdır. Bu dəyişikliklərin məntiqi nəticəsi sosial dövlət anlayışının meydana gəlməsidir.

Sosial dövlət elə bir dövlətdir ki, hər bir vətəndaşa layiqli həyat səviyyəsi, sosial müdafiə, istehsalda iştirakçılıq, habelə bir ideal olaraq bərabər imkanlar təmin etməyə çalışır. Sosial ədalət prinsiplərinin daha tam şəkildə reallaşmasına çalışaraq, sosial dövlət insanlar arasında əmlak bərabəsizliyini, digər qeyri-bərabərliyi ağrısız yollarla yumşaldır. Sosial dövlətin fəaliyyətinin əsas iqtisadi göstəriciləri bu ölkələrdə güclü sosial siyasət mexanizminə çevrilir.

Dövlətin həyata keçirdiyi sosial siyasətə eyni zamanda: Sosial-demoqrafik planda – pensiyaçılar, yetim uşaqlar, tələbələr, analar və s.; Ərazi planında – kiçik kəndlərdə, uzaq rayonlarda yaşayanlar; Sosial – peşə planında – az əmək haqqı alan işçilər, ziyalı qrupları (mühəndis, müəllim, həkim və s.): İqtisadi planda – mənzili və s. zəruri yaşayış vasitələri olmayan ailələr, çoxuşaqlı ailələr və i.a. aid edilir.

Sosial siyasəti dövlətin insana münasibəti kimi də başa düşmək olar.

Sosial siyasətin başlıça məqsədi:

1. Bütün sosial qrupların maddi və mənəvi tələbatını daha yaxşı ödəmək üçün şərait yaratmaq;
2. İqtisadi, siyasi, hüquqi və mənəvi münasibətlər sahəsində sosial ədaləti gücləndirməkdən ibarətdir.

Əgər birinci məqsədə çatmaq üçün daha çox və keyfiyyətli maddi və mənəvi sərvətlər yaratmaq lazımdırsa, ikinci məqsədə çatmaq isə bu sərvətlərin ədalətli bölgüsünü tələb edir.

Sosial siyasətin vəzifələrinə: adamların rifahının yüksəldilməsi, əmək və həyat şəraitinin yaxşılaşdırılması, ictimai münasibətlərin bütün sahələrində sosial ədalət prinsipinin daha dolğun həyata keçməsi və siniflərin, sosial qrupların, təbəqələrin bir-birinə yaxınlaşdırılması və s. daxildir.

Sosial siyasət öz məzmununa görə ictimai siyasətdən daha məhdud anlayışıdır. İctimai siyasətə dövlət-siyasi quruluşun təşkili və fəaliyyəti, dövlət və digər rəhbər qüvvələrin ictimai qruplar, cəmiyyətlər və təşkilatlara yönələn tədbirləri və s. də daxildir.

Sosial siyasət insanların həyat fəaliyyətinin bütün sahələrini əhatə edir. Sosial siyasətin prinsiplərinə cəmiyyətin mənəviyyatının humanistləşdirilməsi və cəmiyyətdə sağlam mənəvi-psixoloji şərait yaradılması da daxildir.

Əmək və istehlak ölçüləri üzərindəki nəzarət, sosial ədalət prinsipinin pozulmasının qarşısının alınmasına yönəldilən təbdirlər də sosial siyasətin prinsiplərinə daxildir.

Sosial siyasətin aşağıdakı funksiyaları vardır:

1. Proqnozlaşdırıcı.
2. Tənzimləyici.
3. Mühafizəedici.

Proqnozlaşdırma – «proqnosis»- qabağcadan görmək, qabağcadan xəbər vermək mənasını verən sözdən götürülmüşdür. Sosial proqnozlaşdırılma – sosial proqnozlaşdırmanın, planlaşdırmanın və idarəetmənin elmi əsaslandırılması və səmərəliliyinin artırılması məqsədilə sosial hadisə və proseslərin perspektivlərinin tədqiqi deməkdir. Sosial proqram – yunanca «proqramma» - elan etmə, «sərəncam», «təminat» mənasını verən sözdən götürülmüşdür. Sosial proqram – birincisi dövlətin iqtisadi və sosial inkişaf planının bir hissəsi olub, sosial sahədə əsas məqsəd və vəzifələri və bunların yerinə yetirilməsi üçün vacib olan başlıca vasitə və yolları müəyyən edir. İkincisi – konkret sosial problemlərin həllinə yönəldilmiş sosial tədbirlər sisteminin məcmusuna deyilir. Sosial proqramlar mərhələlərlə həyata keçirilir.

Sosial tənzimetmə – siyasət subyektinin elə funksiyasıdır ki, bu zaman cəmiyyətin bütün sosial qruplarının mənafeyi nəzərə alınmaqla, onların həyat şəraitinin ən azı minimum səviyyəsinin təmin edilməsi əsas götürülür. Həm də buraya təkcə maddi nemətlərdən deyil, həmçinin mənəvi nemətlərdən də vətəndaşların faydalanmasına nəzarət və qayğı mühüm yer tutur. Tənzimləyici funksiyanın lazımi qaydada yerinə yetirilməməsi ciddi sosial böhranlara səbəb ola bilər.

Mühafizəedici funksiya – hər şeydən əvvəl sosial qrupların və ya ayrı – ayrı şəxslərin statusunun qorunub saxlanmasına, sosial ədalətin və ictimai asayişin mühafizə edilməsinə yönəldilir. Sosial ədalətin pozulması siyasət subyektinin sosial mühafizəedici funksiyasının lazımi şəkildə yerinə yetirilməməsi nəticəsində baş verir.

Sosial ədalət – insanların, sinif və sosial qrupların cəmiyyətin maddi və mənəvi inkişaf səviyyəsilə obyektiv surətdə şərtlənən həyat şəraitində bərabərsizlik ölçüsüdür. Sosial ədalət anlayışına xalqın hakimiyyətdə iştirakı, bütün vətəndaşların qanun qarşısında bərabərliyi, millətlərin faktiki bərabərliyi, şəxsiyyətə hörmət, onun hərtərəfli inkişafı üçün şərait yaradılması və s. aiddir. Geniş sosial təminat: işlə təmin olunmanın, qocalara, ana və uşaqlara qayğının hamı üçün mümkün olması da sosial ədalətin komponentləridir.

Sosial ədalət anlayışı tarixi xarakter daşıyır və onun məzmunu hər bir tarixi mərhələdə dəyişir, yeniləşir. F.Engels qeyd edir ki, yünanlar və romalıların təsəvvürlərində ədalətlilik «ədalətli quldarlıq» kimi idisə, «ədalətli burjua» ədalətsiz elan olunan feodalizmi rədd etməyi tələb edirdi. Fəhlə sinfinin ideologiyasında isə kapitalizm özü bir ədalətsiz cəmiyyət elan edilir və onun dəyişilməsi tələb olunur. Sosializm isə ədalətli bərabərliyi hər şeydən əvvəl «Hər kəsdən qabiliyyətinə və hər kəsə əməyinə görə» prinsipində görür.

Sosial ədalət anlayışı təkcə iqtisadi deyil, eyni zamanda mənəvi – hüquqi mahiyyət də kəsb edir. Belə ki, o eyni zamanda vətəndaşların azadlıqları və məsuliyyəti, hüquq və vəzifələri, adamların xidmətləri və onların ictimai qiymət almaları kimi cəhətləri də ehtiva edir.

Sosial ədalət cəmiyyətin təkmilləşməsinin güclü amilidir. Sosial ədalətin meyarı təkcə vətəndaşların qanun qarşısında bərabərliyi, onların azadlıqlarının bərabərliyində deyil, habelə onların ictimai – faydalı fəaliyyətinə, əməklərinin kəmiyyət və keyfiyyətlərinə, təşəbbüskarlıq və yaradıcılıqlarına, məsuliyyətlilik və vicdanlılığına görə qeyri-bərabər qiymətləndirilməsində də əks olunur.

## 11 mövzu
## SİYASİ ŞÜUR VƏ SİYASİ MƏDƏNİYYƏT

### *1. Siyasi şüur anlayışı*

Siyasi şüur – cəmiyyətin siniflərə parçalandığı və dövlətin yarandığı dövrdə formalaşmağa başlamışdır. Siniflərin istehsala, hakimiyyətə, ictimai təşkilat və təsisatlara, digər siniflərə olan münasibətləri müəyyən siyasi ideya, baxış, təsəvvür və hisslər doğurur. Həmin ideya və baxışların məcmusu siyasi şüuru əmələ gətirir. Deməli, siyasi şüur siniflərin, sosial təbəqələrin dövlət hakimiyyətinə münasibətləri əsasında yaranan sosial-iqtisadi və ictimai-siyasi mövqe və mənafelərini əks etdirən ideya və təsəvvürlərin, hiss və əhval-ruhiyyələrin məcmusudur. Həmin sosial-iqtisadi və sinfi mənafelər əsasında xüsusi siyasi mənafelər formalaşır.

Siyasi şüurda ideya və baxışlarla əhval-ruhiyyə və hisslər vəhdət halında olur: adi və nəzəri siyasi şüur səviyyələri də bir-birindən fərqlənir. Sinifli cəmiyyətlərdə hər sinfin dövlət hakimiyyətinə xüsusi münasibəti olduğu üçün, hər sinfin siyasi mənafeyi, deməli, siyasi şüuru da fərqli olur. Siyasi şüur siyasi fəaliyyətdə – dövlət sənədlərinin, sosial-siyasi qanunların açıq müzakirəsində və seçkilərdə iştirak etmək, siyasi və sosial-iqtisadi tələblərin irəli sürülməsi, parlament mübahisələri, dövlət çevrilişində, sosial inqlabda iştirak və s. təzahür edir. Hər bir sinif və sosial təbəqə həmin fəaliyyətdə öz siyasi mənafeyinə uyğun şəkildə iştirak edir və sosial-siyasi mövqe tutur, deməli, hadisələrə öz siyasi baxışı formalaşır.

Cəmiyyətdə siniflər və siyasi münasibətlər, dövlət hakimiyyəti qaldıqca siyasi mənafe və siyasi ziddiyyətlər də qalacaqdır. Onların doğurduğu ideya, təsəvvür, hiss və s. ibarət olan siyasi şüur da yaşayacaqdır.

Siyasi şüurun normal formalaşmasına və yetginləşməsinə bir sıra amillər təsir göstərir. Buraya siyasi sistemin demokratik məzmununu, hüquqi dövlət quruculuğunu, insan hüquqlarına ardıcıl əməl edilməsini, habelə cəmiyyətin mədəni-intellektual səviyyəsini aid etmək olar.

Müasir Qərb politologiyasında belə bir fikrə rast gəlmək olar ki, vətəndaş cəmiyyətində siyasətin əsas məqsədini maddi nemətlər bolluğunun yaradılması deyil, insana öz azadlığını həyata kecirmək üçün imkan verilməsi təşkil edir. Belə bir siyasətin həyata kecirilməsinə isə formalaşmış ideallar və dəyərlər sistemi təsir göstərir. Bu zaman aşağıdaki prinsiplərin nəzərə alınması vacibdir:

1. Şəxsiyyətin hüquqlarının bütün digər amillərdən öncə nəzərə alınması.
2. Bəşər sivilizasiyasının müasir tələblərinə uyğun olaraq ümumbəşəri sərvətlərin üstünlüyü.
3. Fantaziya ilə deyil, obyektiv gerçəkliyin nəzərə alınması yolu ilə fəaliyyət göstərilməsi.

İctimai rəy ilə siyasi şüur arasında sıx qarşılıqlı əlaqə mövcuddur. İctmai siyasi proqnozlar, siyasi tədbirlər geniş ictimai rəyə arxalandıqda səmərəli və təsirli olur. Qərb ölkələrində ictimai rəyin öyrənilməsinə çox böyük əhəmiyyət verilir. Müxtəlif sosioloji xidmət büroları daima seçicilərin, vətəndaşların əhval-ruhiyyələrini öyrənir, siyasi xadimlər isə bundan praktiki məqsədlər üçün istifadə edir. İctimai rəyin fəallığında və çevikliyində siyasi şüurun yetkinliyi özünü aydın təzahür etdirir.

Ayrı-ayrı mərhələlərdə ictimai fikir cəmiyyətdə, ölkədə baş verən iqtisadi, sosial, siyasi və mənəvi proseslərlə əlaqədar olaraq müxtəlif, bir-birinə zidd istiqamətlərə ayrıla bilər. Onu da qeyd etmək lazımdır ki, insanların heç də hamısı müstəqil fikir yürütmək qabiliyyətinə malik deyillər. Burada məqsədyönlü fəaliyyət tələb olunur. İctimai fikirsiz cəmiyyət öz strukturunu və təşkilini itirir. Hər bir dövlətdə hakimiyyət orqanlarının və rəhbər şəxslərin dəyişilməsi insanların çoxunda müəyyən bir ideoloji və siyasi yükdən azad olma hissini oyadır.

Siyasi şüuru qıcıqlandıran, onu fəaliyyətə gətirən aşağıdaki amilləri göstərmək olar:

1. Müəyyən idarəetmə formasına və siyasi davranışa vərdiş;
2. Dövlət orqanlarına inam;
3. Şəxsiyyətin və cəmiyyətin, ictimai və siyasi ideallərın bir-birinə uyğun olması;
4. Şəxsiyyətin öz ideallarının həyata kecirilməsinə ümidi;
5. Qorxu və qəzəb.[1]

Bütün bu cəhətlər şəxsiyyətin cəmiyyətlə əlaqəsinin müxtəlif formaları kimi insanı ictimai münasibətlər sisteminə cəlb edir.

Siyasi şüur insanın obyektiv surətdə cəmiyyətdə qərarlaşan spesifik münasibətlərə reaksiyası, bu münasibətlərə uyğun olaraq fəaliyyət forması seçməsi üsulu kimi qiymətləndirilə bilər. Bu siyasi şüurun passiv şəkildə təzahürünün ifadəsidir. Siyasi şüur eyni zamanda fəal rol oynamaq imkanlarına malikdir, belə ki, onun bilavasitə təsiri altında siyasi həyatın dəyişdirilməsi prosesi baş verir.

Siyasi şüur mahiyyət etibarilə mənəvi hadisədir. Onun əsasını insanların siyasi reallıqları qavramaq zəminində yaranan inam, etiqad və baxışları sistemi təşkil edir.[2]

Siyasət ictimai həyatın bütün tərəflərinin təmərküzləşmiş ifadəsi olduğu üçün siyasi mənafe özündə başlıca ümumsinifi mənafeləri birləşdirir. Bu o deməkdir ki, siyasi mənafe nəzərə alınmadan heç bir sinifin və heç bir sosial qrupun davranışı anlaşıla bilməz. Yalnız siyasi mənafe sinif və sosial qrupların sosial yetkinlik göstəricisi ola bilər. Lakin mənafe ümumilyi şəxsiyyətin öz fərdiliyini itirməsi demək deyildir və hər kəsin azad inkişafı üçün şərtdir.

Siyasi mənafe sinif və sosial qruplardan kənarda mövcud deyildir. Siyasi mənafe iqtisadi mənafe əsasında meydana çıxsa da yalnız ona müncər edilmir. Siyasi mənafeyin məzmununu hakimiyyətin əldə edilməsi zərurəti təşkil edir.

Bəşər tarixinin bütün gedişi göstərir ki, bu və ya digər siyasi mənafe yalnız böyuk insan kütlələrinin, siniflər və digər sosial birliklərin fəal fəaliyyətləri nəticəsində həyata keçirilə bilər. Tarixin qanunları kütləvi fəaliyyətlər qanunlarından ibarətdir. Bu hər şeydən əvvəl ən kütləvi sosial qüvvə olan zəhmətkeş siniflərin soial tərəqqinin tələblərinə cavab verən siyasi mənafeyi əsasında əldə edilir.

Adamların yeni nəslinin şüurlu əmək və siyasi həyata qədəm qoyarkən yüksək ideyalılığa və mənəviyyata, öz peşəsini yaxşı bilməyə və geniş mədəni səviyyəyə malik olmaları, ölkənin müqəddəratı üçün məsuliyyəti öz üzərlərinə götürməyə hazır olmaları üçün hər cür şərait yaradılmalıdır.

Rəylər plyuralizm mənəvi həyatın, tərbiyənin demokratikləşdirilməsinin tərkib hissəsi, şəxsiyyətin inkişafının zəruri şərtidir. Bununla əlaqədar olaraq təbliğatın necə aparılmasının, yüksək diskussiya mədəniyyətinin, aşkarlığın inkişafının çox böyük əhəmiyyəti vardır.

Müasir şəraitdə tərbiyə prosesinin vəzifələrindən biri şəxsiyyətin fərdi xüsusiyyət və keyfiyyətlərə malik olmasına nail olmağa, tərbiyəçilərin və tərbiyə olunanların ağıl və davranışlarında belə bir fikrin özünə yer etməsinə çalışmaq lazımdır ki, insan yalnız özünü tam şəkildə büruzə verdikdə, öz şəxsi potensialını təzahür etdirdikdə qiymətlidir. Adamların özünüinkişafının əsası daim özünün nəyə qadir olmasını axtarışdan ibarət olmalıdır, bunsuz adam şəxsiyyət kimi fəaliyyət göstərə bilməz.

Tərbiyə işinin başlıca vəzifəsi adamların rəngarəng mənafeləri, tələbatları və qabiliyyətlərinin inkişaf etdirilməsindən ibarətdir. Hazırda adamların yaradıcılıq fəallığının, təşəbbüsünün daha da inkişafının, gənc və istedadlar yarışının zəruri şərti olmaq etibarilə belə bir rəngarəngliyə cəmiyyətin obyektiv olaraq ehtiyacı vardır.

Müasir dövrdə cəmiyyətin demokratikləşdirilməsi prosesi müxtəlif fəaliyyət sahələrində adamların siyasiləşməsi ilə eyni zamanda baş verir. İstər dövlət səviyyəsində və istərsə də ayrı-ayrı əmək kollektivlərində iqtisadi, təsərrüfat, sosial, mədəni, millətlərarası və digər vəzifələrin həllinə siyasi cəhətdən yanaşılması getdikcə daha çox dərəcədə xüsusi zərurət təşkil edir.

Respublikamızda cəmiyyət üzvlərinin siyasi həyatda fəal iştirakı üçün imkan yaradan yeni şərait siyasi fəaliyyətin əhəmiyyətinin daha da artmasına gətirib çıxarmışdır. İctimai həyatın demokratikləşdirilməsi adamların siyasi fəaliyyətə hazırlanması problemini irəli sürür ki, bu da onlardan bacarıq, səriştəlilik, təhsilli olmaq, siyasi mədəniyyət və s. tələb edir.

Ümumiyyətlə siyasi fəaliyyət ictimai fəaliyyətin xüsusi, spesifik sahəsidir. Ümumi şəkildə siyasi fəaliyyət böyük ictimai qrupların (sinif, millət, sosial təbəqə və i.a.) öz siyasi mənafelərinin, yəni hakimiyyət əldə etmək, istifadə etmək və əldə saxlamaqla əlaqədar mənafelərinin həyata keçirilməsi sahəsində fəaliyyətinin məcmusundan ibarətdir. Siyasi fəaliyyətin sosial səbəbi nəticə etibarilə iqtisadi mənafelərdən ibarətdir. Odur ki, adamların siyasi fəaliyyəti onların iqtisadi fəaliyyətinə nisbətən törəmədir. Lakin bununla yanaşı siyasi fəaliyyət xeyli müstəqilliyə malikdir. Bu, iqtisadi və təsərrüfat məsələlərinə hər şeydən əvvəl siyasi mövqedən yanaşılması ilə əlaqədardır.

Siyasi fəaliyyətin bir-birinə zidd istiqamətləri mövcud siyasi münasibətlər sisteminin möhkəmləndirilməsi və yaxud dağılmasına yönəlir və insanları iki əsas qrupa bölür. Bu qruplar bir qayda olaraq həmin siyasi rejim və ona zidd olan siyasi müxalifət şəklində formalaşırlar. Praktiki siyasi fəaliyyətə proqram xarakterli siyasi qərarlar, yerli miqyaslı tədbirlər və siyasi həyatın müxtəlif sahələrində həyata kecirilən spesifik hərəkatlar daxildir.

Siyasi fəaliyyət dövlətin və hakim partiyanın fəaliyyətinin əsas istiqamətlərini əhatə edir. Müasir dövrdə cəmiyyətin getdikcə daha da demokratikləşdirilməsi şəraitində siyasi həyat səhnəsinə yeni ictimai – siyasi birliklər çıxmaqdadır. Onların fəaliyyəti şüurlu tənzim edilən və ya kortəbii ola bilər. Şüurlu tənzim edilən fəaliyyət qabaqcadan qarşıya qoyulmuş məqsədə uyğun fəaliyyəti nəzərdə tutur.

Kortəbii proseslər qabaqcadan nəzərdə tutulmadan həyata kecirilir, bu proseslərə nəzarət mümkün olmur. Kortəbiilik – hərəkatın inkişaf etməməsinin, onun kifayət qədər mütəşəkkil olmamasının, siyasi partiya və ya ictimai – siyasi təşkilat tərəfindən rəhbərliyin olmamasının ğöstəricisidir. Digər tərəfdən, hərəkatın kortəbiiliyi onun həyatiliyinin, kütlələrin qarşısıalınmaz cıxışlarının göstəricisi də ola bilər.

Şüurluluq və kortəbiilik müəyyən şəraitdə bir-birinə keçə də bilər. Eyni zamanda kortəbii fəaliyyət xeyli dərəcədə emosional təsirə məruzdur ki, bu da məlum olduğu kimi şəxsiyyətin fəallığını artırır. Bu isə şərait və vəziyyətdən asılı olaraq, müsbət və ya mənfi nəticələrə gətirib cıxara bilər. Buna misal olaraq müxtəlif səciyyəli mitinqləri, nümayişləri, yığıncaqları və i. a. göstərmək olar. Ölkəmizdə başlanmış demokratikləşdirmə prosesinə onlar müəyyən müsbət təsir göstərmişdir. Demokratik cəmiyyət quruculuğunda siyasi fəaliyyətdə ekstremizmə, iqtisadiyyatda, mədəniyyətdə, millətlərarası münasibətlərdə dagıdıcı fəaliyyətə, siyasi şantaja, qorxutmağa, ölkədə yaranmış şəraitlə əlaqədar çətinliklərdən siyasi sui – istifadələrə və i. a. yol vermək olmaz.

Bu və ya digər siyasi fəaliyyətin nəticələrini qabaqcadan görmək böyük əhəmiyyət kəsb edir. Qələbəni qabaqcadan görmək bu qələbənin mövcud ictimai vəziyyətdə nə kimi dəyişikliklərə gətirib cıxarmasını hesaba almağı nəzərdə tutur, yəni, mövcud sinfin (təbəqənin, qrupun) siyasi mənafeləri nöqteyi – nəzərindən əldə edilən uduş nə qədər böyük və hiss ediləndir; bu siyasi prosesin digər iştirakçılarının mənafelərinə nə dərəcədə təsir göstərir və müvafiq olaraq bu təsirə cavab nə dərəcədə güclü olacaqdır; bu qələbə mövcud sinfin (təbəqənin, qrupun) digər siyasi mənafelərinin həyata keçirilməsi üçün zəruri imkanlar yarada biləcəkmi; bu, indiki siyasi qüvvələrin müqavimətinə gətirib çıxarmazmı? Bu eyni zamanda mümkün məğlubiyyətə də ziddir, yəni: xüsusi məsələ ilə əlaqədar məğlubiyyət «özününkülərin» etimadının itirilməsinə və siyasi qarşıdurmanın bütün digər sahələrində siyasi düşmənlərin fəallaşmasına səbəb olmazmı?

Dünya təcrübəsi göstərir ki, siyasi sahədə dürüst qabaqcadan görmək bir qayda olaraq qısa müddətli olub, hər hansı bir meylin nəzərə çarpacaq dərəcədə üstünlük təşkil etdiyi proseslərə aiddir.

Sinfin və ya müəyyən ictimai təbəqə və qrupların avanqardı rolunu öz üzərinə götürən partiya öz fəaliyyətini proqnozlaşdırarkən bir sıra amilləri nəzərə almalıdır:

-Partiyanın ictimai həyatda təmsil etdiyi siyasi subyektin mənafelərinin nəzəri cəhətdən dərk edilməsi üçün informasiyanın düzğünlüyü;

-Cəmiyyətdə siyasi qüvvələrin nisbəti («müttəfiqlər», «rəqiblər», «bitərəflər»);

-Qarşıya qoyulmuş siyasi məqsədə nail olmaq ücün iqtisadi baza;

-Mövcud siyasi qüvvənin mütəşəkkilliyi, onun tərəfdarları və düşmənlərinin mütəşəkkilliyi;

-İctimai əhval – ruhiyyə və i. a.

Qısa olaraq siyasi fəaliyyətin aşağıdakı istiqamətlərini göstərmək olar:

1. Seckili orqanlarda siyasi subyektlərin iştirakı;
2. Müxtəlif siyasi tədbirlərdə (iclaslar, mitinqlər, nümayişlər və s.) siyasi subyektlərin iştirakını;
3. Siyasi təbliğat və təşviqat və s.[3]

Müasir dövrdə meydana cıxan yeni partiyalar, hər cür siyasiləşmiş təşkilat və hərəkatlar ölkənin ictimai həyatında indiyədək görünməmiş çoxlu baxışların, platformaların, cəmiyyətdəki böhranın aradan qaldırılması yollarının, sosial fəaliyyətinin müxtəlif təşkilat formaları və metodlarının özlərinə yer etmələrinə səbəb olmuşdur.

Siyasi plyuralizm demokratik ictimai sistemin mahiyyətinə daxil olmaqdadır. Birpartiyalılıqdan coxpartiyalılığa kecid asanlıqla baş vermir.

Siyasi fəallıq şəxsiyyətin, kollektivin, partiyaların, xalq kütlələrinin müəyyən sosial-iqtisadi və siyasi məqsədlərə nail olmağa yönəlmiş fəaliyyətinin ən mühüm keyfiyyətlərindən biridir. İctimai həyatın demokratikləşdirilməsi siyasi fəallığın cox mühüm amilidir. Siyasi fəallıq həm müsbət (cəmiyyətin mənafeyinə, onun siyasi sabitliyinə uyğun olan əməli fəaliyyət) və həm də mənfi (ekstremizm, millətçilik, separatçılıq və s.) planda təzahür edə bilər.

Başqa fəaliyyət növlərində olduğu kimi, siyasi fəaliyyətdə də məqsədə çatmaq üçün müxtəlif metod və vasitələrdən istifadə edilir. Bununla yanaşı onun spesifikliyi ondan ibarətdir ki, metod və vasitələrin seçilməsi müəyyən əxlaqi təsəvvürlərlə əlaqədardır.

Vaxtilə İtaliya ictimai xadimi N.Makiavelli belə bir müddəa irəli sürmüşdür ki, siyasi məqsədlərə çatmaq üçün bütün vasitələrdən istifadə edilə bilər və əgər göstərilən fəaliyyət dövlətin rifahına qayğı ilə bağlıdırsa o zaman heç də əxlaqi tələblərin nəzərə alınması vacib deyildir. O zamandan etibarən əxlaq normalarına etina etməyən siyasi fəaliyyətlər «makiavellizm» adlanmağa başlamışdır. Tarixi təcrübə göstərdi ki, siyasi məqsədlərə çatmaq üçün əxlaqa, mənəviyyata zidd vasitələrdən istifadə edilməsi nəticə etibarilə məqsədin özünün qiymətdən, nəzərdən düşməsinə gətirib çıxarır.[4]

Siyasi fəaliyyət siyasi nüfuz ilə sıx surətdə bağlıdır.

Siyasi nüfuz – ictimai xadimin, kollektivin, dövlət, ictimai və digər təşkilatın keyfiyyət göstəricilərindən biri və eyni zamanda siyasi həyata sabit təsir göstərən ideyalar sistemidir.

Siyasi nüfuz xalqların mənafeyi, rifahı və azadlığı uğrunda mübarizədə qazanılır. Onun möhkəmliyi və səmərəliliyi hər şeydən əvvəl xalq kütlələrinin etimad göstərdiyi şəxsin, təşkilatın xalq qarşısında öz siyasi və vətəndaşlıq məsuliyyətini nə dərəcədə dərin və düzgün dərk etməsi ilə, qanunlara, demokratik normalara düzgün riayət etmək nümunəsi olması ilə, öz mühakimələri, siyasi fəaliyyətləri və gündəlik işlərində nə dərəcədə səriştəli olmaları ilə əlaqədardır.

Cəmiyyət üzvlərinin siyasi fəaliyyəti onların hüquq və azadlıqları ilə sıx surətdə əlaqədardır.

Vətəndaşların hüquq və azadlıqları hər şeydən əvvəl beynəlxalq miqyasda tanınmış normalar səviyyəsində insan hüquqlarının həyata keçirilməsini; siyasi, dini, milli-etnik və cins-yaş əlamətlərinə görə hər hansı ayrı seçkiliyin istisna edilməsini; adamların şəxsiyyət və ləyaqətinin, əmlakının toxunulmazlığını, söz, mətbuat və informasiya azadlığının qanunvericiliklə etibarlı surətdə qorunmasını, vicdan azadlığını; vətəndaş hüquqlarının qorunmasında məhkəmənin və ictimai təşkilatların rolunun yüksəlməsini; əmək hüququnun təmin edilməsini nəzərdə tutur.

Demokratik cəmiyyət quruculuğu şəraitində siyasi azadlığın ictimai həyat və dövlət həyatı məsələlərinin azad müzakirəsi və bu məsələlərin həllində zəhmətkeşlərin iştirakı, habelə cəmiyyət və dövlət işlərinin idarə edilməsində onların praktik iştirakı kimi nailiyyətləri adamların gündəlik həyatına getdikcə daha geniş surətdə daxil olmalıdır.

Azadlıq şəxsiyyətə yalnız öz iradəsini ifadə etmək və qabiliyyətlərini inkişaf etdirmək üçün deyil, eyni zamanda cəmiyyətə zidd davranış və fəaliyyətə qarşı mübarizə aparılması üçün zəruridir.

### 2. *Siyasi mədəniyyətin mahiyyəti, əlamətləri və funksiyaları*

Mədəniyyət ictimai həyatın demək olar ki, bütün sahələrində özünü göstərən spesifik hadisədir. Geniş mənada mədəniyyət dedikdə cəmiyyətin tarixən əldə etdiyi fəaliyyət üsulları və bu fəaliyyətin nəticələri başa düşülür ki, buraya maddi dəyərlərlə yanaşı ictimai münasibətlər, ictimai şüur, ideyalar, davranış normaları, insanların qabiliyyət, zövq və tələbatları da aid edilir.

Sözün dar mənasında mədəniyyət anlayışı cəmiyyətdə qəbul olunmuş dəyərlər və normalar sistemini əks etdirir. Bu mənada mədəniyyətə incəsənət, elm, təhsil, əxlaq və s. aid edilir.

İnsanlar mədəniyyəti hər şeydən əvvəl öz maddi həyat şəraitlərinin istehsalı prosesində, bütün həyatları boyu, özlərinin təbiətə bilavasitə təsiri gedişində yaradırlar. Öz əməyi ilə cəmiyyətin maddi və mənəvi sərvətini yaradan adamlar mədəniyyətin yaradıcılarıdır.

Mədəniyyətə obyektiv cəhətlə yanaşı subyektiv cəhət, insan fəaliyyəti ilə əlaqədar olan qüvvə və qabiliyyət də aiddir. Burada adamların bilik və bacarığı, istehsal və peşə vərdişləri, intellektual, estetik və əxlaqi inkişaf səviyyələri, habelə dünyagörüşü, qarşılıqlı ünsiyyət üsulları və formaları daxildir. Mədəniyyətdə başlıca cəhət ilk növbədə insanda həyata və başqa adamlara humanist, düzgün və ədalətli münasibət tərbiyə edən əxlaqi cəhətdir. Mədəniyyət eyni zamanda insanın təbiətə, bəşəri dəyərlərə, başqa adamlara və eləcə də özünə münasibəti kimi də nəzərdən keçirilə bilər.

Cəmiyyətin yeni keyfiyyət halına keçməsi üçün mədəniyyətin, mənəvi həyatın bütün sahələrinin – elm, təhsil, ədəbiyyat və incəsənətin; sosial və əxlaqi dəyərlərin yeni şəraitə uyğun olaraq inkişafı və tərəqqisi müasir dövrdə xüsusilə böyuk əhəmiyyət kəsb edir. Mənəvi mədəniyyət sahəsinə yeniləşmənin siyasi mənası və xarakteri cəmiyyətin demokratikləşdirilməsi prosesində bütün mədəniyyət və təhsil işçilərinin fəal iştirakını, ziyalıların və hər bir adamın fəal vətəndaşlıq və sosial mövqeyi olmasını tələb edir.

Demokratik cəmiyyət şəraitində mədəniyyət bütün sosial qrupların mənəvi sərvətlər əldə etdiyi xəzinədir. Demokratik cəmiyyətin mədəniyyəti öz məzmununa görə beynəlmiləl mahiyyət kəsb edir. Bu mədəniyyət cəmiyyətin bütün üzvlərini onların milli və iqri mənsubiyyətindən asılı olmayaraq sıx birləşdirir. Bu mədəniyyət eyni zamanda humanist mədəniyyətdir. O, cəmiyyət üzvlərinin sıx birləşməsinə, xalqlar

arasında sülh və dostluğun, insana hörmətin bərqərar olmasına yardım göstərir, onun qədr-qiymətini yuksəldir.

Müstəqil, demokratik Azərbaycan Respublikasının Konstitusiyasında cəmiyyət üzvlərinin mədəniyyət hüququ öz əksini tapmışdır. Konstitusiyanın «Mədəniyyət hüququ» adlanan 40-cı məddəsində deyilir:

«1. Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır.

II. Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır».[5]

Demokratik cəmiyyətin mədəniyyəti ictimai həyatın müxtəlif sahələrində öz ifadəsini tapır. Onun ən aydın təcəssümü cəmiyyət üzvləri ilə öz münasibətlərini demokratik əxlaq prinsipləri əsasında – xalqa, vətənə xidmət etməyi ilk sırada qoyan bu prinsiplər əsasında quran demokratik şüurlu adamlardır.

Respublikamızda vətəndaşların təhsil hüququ, mədəniyyət nailiyyətlərindən istifadə etmək hüququ, ədəbi-bədii, elmi-texniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat hüququ Azərbaycan Respublikası Konstitusiyasının elan etdiyi və təminat verdiyi bu hüquqlar dönmədən həyata keçirilməlidir.

Ölkəmizdə məhsuldar qüvvələrin artması, əmək məhsuldarlığının yüksəlməsi, elm və texnikanın inkişaf etməsi, istehsalın təşkilinin yaxşılaşması, cəmiyyət üzvlərinin fəallığının qüvvətlənməsi, demokratik prinsiplərin təkmilləşməsi və həyata keçirilməsi, məişətə demokratik əsaslarda qurulması çox mühüm dərəcədə adamların mədəni yuksəlişindən, onların siyasi şüur və siyasi mədəniyyət səviyyəsinin artmasından asılıdır.

Ümumiyyətlə mədəniyyətin inkişaf təcrübəsi göstərir ki, bəşəriyyətin mənəvi tərəqqisi yalnız həyatın demokratik əsaslarda dəyişdirilməsi yolu ilə mümkündür.

Mənəvi mədəniyyətin mühüm tərkib hissələrindən biri olan siyasi mədəniyyət ictimai-siyasi münasibətlərin dəyişməsi prosesində cəmiyyət uzvlərinin siyasi fəallığının yuksəlməsində mühüm rol oynayır.

Mədəniyyət bəşəriyyətin yaratmış olduğu maddi və mənəvi sərvətlərin məcmusundan ibarətdir. Siyasi mədəniyyət mədəniyyətin elə sahəsidir ki, bilavasitə insanların siyasi fəaliyyəti və davranışı ilə əlaqədar olub demokratik proseslərin güclənməsi ilə şərtlənir. Siyasi mədəniyyət hər şeydən əvvəl insanların siyasi cəhətdən sosiallaşmasını nəzərdə tutur. Müxtəlif tarixi dövrlərdə yaşamış ayrı-ayrı mütəfəkkirlər (Platon, Aristotel, Makiavelli, Monteskye və s.) siyasi mədəniyyət haqqında fikirlər söyləmişlər. Müstəqil bir problem kimi «Cəmiyyətin siyasi mədəniyyəti» anlayışı 50-ci illərdən başlayaraq öyrənilməyə başlamışdır.

Siyasi mədəniyyət anlayışı ilk dəfə 18-ci əsrdə alman filosofu və maarifçisi İ.Gerder tərəfindən işlədilmişdir. Lakin bu hadisə haqqında elmi nəzəriyyə xeyli sonra 20-ci əsrin ortalarında yaradılmışdır.

Müasir politologiyada «siyasi mədəniyyət» kateqoriyasına ilk dəfə amerikan tədqiqatçısı X.Fayerin «Böyük Avropa dövlətlərinin idarəçiliyi sistemləri» (1956) əsərində rast gəlinsə də, bu problemin tədqiqinin pioneri amerikan politoloqu Q.Almond sayılır. Siyasi mədəniyyəti tədqiq etməyin əhəmiyyətini şərh edərək o yazır: «Hər bir siyasi sistem siyasi fəaliyyətə meyllənmiş xüsusi nümunə kimi mövcuddur. Mən bunu «siyasi mədəniyyət» adlandırmağı lazım bildim. Lakin Q.Almondun Q.Pouellə birlikdə təklif etdikləri definisiya (tərif) bu günədək öz aktuallığını itirmir və tədqiqatçıların böyük əksəriyyəti ona üstünlük verirlər. Onların fikrincə, «siyasi mədəniyyət» siyasi sistemin iştirakçıları arasında siyasi münasibətdə təzahür edən fərdi mövqe və meyllərin nümunəsi rolunu oynayır».[6]

Siyasi mədəniyyət bütövlükdə siyasi fəaliyyət mədəniyyətidir, onun subyekti cəmiyyət, sinif, təsisatlar, qruplar, şəxslər ola bilər.

Siyasi mədəniyyətin strukturuna biliklər, inam və fəaliyyət daxildir.

Siyasi mədəniyyətin inkişafı və dəyişilməsi imkanları ilk növbədə onun mövcud siyasi sistemlə, habelə digər amillərlə sıx qarşılıqlı təsirdə olması ilə əlaqədardır. Siyasi mədəniyyət mövcud siyasi sistemə uyğun gələ yaxud gəlməyə, onu möhkəmləndirə yaxud laxlada bilər.

Siyasi sistemlə siyasi mədəniyyət arasındakı əlaqə özünü onda göstərir ki, birincisi, müvafiq siyasi sistem müəyyən siyasi mədəniyyətin tarixini özündə əks etdirir və ikincisi, tarixin uzun dövrləri ərzində siyasi mədəniyyət müvafiq siyasi sistemin modifikasiyası kimi çıxış edir.

Siyasi mədəniyyət hakimiyyət və vətəndaş arasındakı qarşılıqlı münasibətlərə aid olan mövqelərin, sərvətlərin və davranış normalarının məcmusudur. Buna daxildir:

- siyasəti, siyasi hadisələrə aid faktları bilmək və yaxud onlarla maraqlanmaq;
- siyasi hadisələrin emosional tərəfi (məsələn, vətən məhəbbəti, düşmənə nifrət və s.);
- müvafiq cəmiyyətdəki siyasi davranış nümunələrinin qəbul edilməsi.[7]

Müasir dövrdə cəmiyyətin demokratikləşdirilməsi prosesində mədəniyyətin rolu getdikcə daha da artmaqdadır. Məhsuldar qüvvələrin inkişafı, əmək məhsuldarlığının artması, adamların ictimai-siyasi və əmək fəallığının yuksəlməsi, demokratiyanın təkmilləşməsi cəmiyyət üzvlərinin mədəni səviyyəsindən asılıdır. Cəmiyyətin inkişafı adamların şüur səviyyəsinin, siyasi mədəniyyətinin yuksəlməsi, mənəvi aləminin zənginləşməsi ilə sıx surətdə bağlıdır.

Hazırda ölkəmizin yeni ictimai-siyasi sistemə, bazar münasibətləri və iqtisadiyyatına keçdiyi dövrdə cəmiyyət həyatının çox mürəkkəb və mühüm vəzifələrinin həllində siyasi mədəniyyətin rolu artmaqdadır.

Adamların şüurunun və sosial münasibətlərin, dövrünü keçirmiş iş formaları və metodlarının yeniləşdirilməsində siyasi mədəniyyətin xususilə böyük əhəmiyyəti vardır.

Cəmiyyətin yeniləşməsi və demokratikləşdirilməsi şəraitində mədəniyyətin inkişafına rəhbərlik bədii yaradıcılığın spesifikası və mürəkkəbliyinin dərindən dərk olunması ilə fərqlənməlidir. Ədəbiyyat və incəsənətə münasibətdə subyektivizmə yol verilməməlidir. Cəmiyyətin mənəvi sahəsinin, bədii mədəniyyətin inkişafına rəhbərlikdə başlıca cəhət ədəbiyyat, incəsənət və mədəniyyət xadimlərinin xalqa xidmət kimi nəcib məqsədə cəlb edilməsi bacarığından ibarətdir.

Cəmiyyətin mənəvi həyatının əsasını mənəvi mədəniyyət təşkil edir. Mədəniyyət - istehsalın maddi və mənəvi növlərinə müvafiq olaraq maddi və mənəvi mədəniyyətə bölünür. Maddi sahədə tərəqqi mənəvi sahənin inkişafına səbəb olur və mənəvi mədəniyyət bəşəriyyətin bütün ən yaxşı nailiyyətləri ilə zənginləşəir.

Mənəvi mədəniyyətin əsas məqsədləri – cəmiyyət üzvlərinin müxtəlif təbəqələrinin daim artmaqda olan mənəvi tələbatların ödənilməsindən, xalqın bədii özfəaliyyət yaradıcılığı üçün zəruri olan imkanın təmin edilməsindən, adamların qabiliyyətlərini inkişaf etdirməkdən ibarətdir.

Şəxsiyyətin mədəniyyətinin məzmununa adamların ümumi və xüsusi təhsil, dünyagörüşü, siyasi, hüquqi, əxlaqi, estetik və fiziki mədəniyyəti daxildir. Mədəniyyət şəxsiyyətin həyat fəaliyyətinin bütün sahələrində meydana çıxır. Adamların mədəniyyəti əmək mədəniyyətində, siyasi mədəniyyətdə, ünsiyyət və davranış mədəniyyətində, istehlak mədəniyyətində və i. a. təzahür edir.

Siyasi mədəniyyət – cəmiyyətin mənəvi potensialının tərkib hissələrindən biridir. Onu ümumi mədəniyyətdən ayırmaq müəyyən mənada şərtidir, çünki mənəvi mədəniyyətin hər hansı forması, məsələn, hüquqi, əxlaqi, estetik və s. mədəniyyətlər bu və ya digər formada mövcud olan siyasi münasibətlərə daxil olurlar. Siyasi mədəniyyət insanların siyasi biliyinin, siyasi yetkinlik səviyyəsinin göstəricisidir. Siyasi mədəniyyət yalnız siyasi məlumatlılığın, siyasi biliklərin çoxluğundan ibarət deyildir, o, fikirlərin, ideyaların, emosiyaların, əqidələrin, əməllərin vəhdətidir. Siyasi mədəniyyət müəyyən sinifi və ümumbəşəri dəyərlər üzərində təşəkkül tapır və özündə konkret dünyagörüşü prinsiplərini təcəssüm etdirir.

Şəxsin siyasi mədəniyyəti hər şeydən əvvəl onun ictimai-siyasi fəallığında təzahür edir. İctimai-siyasi fəallıq isə ideologiya, dünyagörüşü və əqidənin formalaşması istiqamətində göstərilən səylərdə, yerinə yetirilən vəzifənin ictimai əhəmiyyətini dərk etməyə, biganəlik və laqeydlikdən, mənəvi-əxlaqi naqislikdən, milli məhdudluqdan uzaq olmağa, beynəlmiləlçiliyə və vətənpərvərliyə sadiq olmağa, həyat tərzinin ən yaxşı cəhətlərinə yiyələnməyə təşəbbüslərdə əks olunur.

Siyasi mədəniyyətin formalaşmasında ailənin, sosial qrupun və kollektivin mühüm rolu vardır. İnsani keyfiyyətlərin bünövrəsi ailədə qoyulur. Bu keyfiyyətlərin sonrakı inkişafında məktəb və əmək kollektivləri də iştirak edir. Ayrı-ayrı kiçik sosial qruplarda mövcud olan mikromühit şəxsiyyətin ideya-siyasi keyfiyyətlərinə də fəal təsir göstərir.

Siyasi mədəniyyət cəmiyyətin sinifləri, sosial qrupları və ayrı-ayrı adamların təsəvvürlərinə, onların siyasi hakimiyyətləri və siyasi münasibətlərinin səviyyələrinə uyğun olaraq adətlərdə, qanunlarda və siyasi təcrübələrdə əks olunur.

Siyasi mədəniyyətin inkişafına müsbət təsir göstərən amillər aşağıdakılardır:

1. Siyasi mədəniyyətin ümumbəşəri təcrübəsi;
2. İnsanın mənafeyinin, onun azadlıq, bərabərlik və mühafizə olunmaq kimi tələbatının ödənilməsi;
3. İnsan hüququnun təmin olunması;
4. Mənafe və tələbatların kafi dərəcədə ödənilməsi və s.

Ölkənin iqtisadi və sosial geriliyi, əhalinin tələbatının və ehtiyaclarının lazımi şəkildə ödənilməməsi, mənzil, kommunal, nəqliyyat, rabitə, ticarət və s. kimi sahələrdəki çatışmazlıqlar siyasi mədəniyyətin inkaişafına mane olur. Bu cür vəziyyət siyasi mədəniyyətin ən mühüm komnonetləri olan təmkinlilik və səbatlılığı zəiflədir, ekstrimal və psixoz şərait yaradır, ictimai həyatın bütün sahələrində, o cümlədən mənəvi həyatında böhran yaranmasına səbəb olur. Siyasi mədəniyyət cəmiyyətin siyasi sisteminin bütün ünsürlərinin

– siyasi şüurluğun, siyasi münasibətlərin, siyasi təşkilatların xarakteri və keyfiyyət səviyyəsini, siyasi münasibətləri nizamlayan, tənzim edən sosial dəyərlərin, adət və ənənələrin, habelə normaların məcmusunu ifadə edir. Siyasi mədəniyyətin sosial məzmununu və xarakterini hər şeydən əvvəl iqtisadi və sinfi amillər müəyyən edir. Siyasi mədəniyyətdə cəmiyyətin və onun hər bir üzvünün yetkinlik səviyyəsi, onların fəal həyat mövqeyi təzahür edir.

Siyasi mədəniyyət müxtəlif sosial qruplar və təbəqələr, onların mənafe və tələbatlarını ifadə edən siyasi hakimiyyətin fəaliyyəti sayəsində formalaşır. Cəmiyyətdə siyasi mədəniyyət öz ifadəsini dövlət, demokratiya, konstitusiya, hüquq kimi institutların fəaliyyətində tapır. Bu institutlar bir sıra sosial funksiyaları yerinə yetirir.

Siyasi mədəniyyətin meyarları müxtəlifdir. Totalitar xarakterli liderlərin nəzərində siyasi mədəniyyət kütlələrin itaətkarlığı və siyasi passivliyi, liderlərə yaltaqlanmağıdırsa, liderlərin özləri üçün amirlik, inzibatçılıq və ağalıq keyfiyyətləridir. Humanist-demokratik adamların nəzərində siyasi mədəniyyət kütlələrin mütəşəkkil siyasi fəallığı, zülmə və zorakılığa qarşı barışmazlığı, vətənpərvərlik və beynəlmiləlçilikdirsə, rəhbərlər, liderlər üçün isə ədalətli idarəetmədir, xalqın qayğısına qalmaqdır, sülh və əminamanlıq üçün çalışmaqdır və s.

Siyasi mədəniyyətin başlıca cəhəti ictimai-siyasi fəaliyyət olsa da, o, möhkəm bilik və əqidəyə əsaslanmalıdır ki, bunları da ideoloji və təlim-tərbiyə vasitələri verir. Düzgün təşkil edilmiş ideoloji sistemlər normal siyasi mədəniyyət formalaşdırır. Geniş xalq kütlələrinin siyasi mədəniyyətinin formalaşmasında kütləvi məlumat vasitələri və təbliğat mühüm rol oynayır. Onların vəzifəsi ölkə daxilində və beynəlxalq həyatda baş verən iqtisadi, sosial və siyasi hadisələrin meyllərinin dərin təhlili təşkil edir. Aşkarlıq, tənqid və özünütənqid prinsipinin həyata keçməsi ictimai rəyin formalaşmasına, cəmiyyət üzvlərinin ictimai-siyasi fəallığının artırılmasına yönəlir.

Prinsipiallıq, doğruçuluq, mənəvi təmizlik kimi keyfiyyətlər mədəniyyətin tərkib hissələridir. İnsanların ehtiyaclarına, sosial, məişət problemlərinə etinasızlıq, biganəlik, mərhəmətsizlik siyasi mədəniyyətdən kənardır. Qəddarlıq, amansızlıq isə bəzi hallarda zəruri hesab edilsə də vəhşilik əlamətidir. Bu cür eybəcərliklər yalnız ayrı-ayrı adamların fərdi psixikasına deyil, habelə eyni zamanda müəyyən sosial qruplara da xasdır. «Nomenklatur» psixologiyası, inzibatçılıq, amirlik psixologiyası da yetkin mənəviyyata malik olmayanlara xasdır. Özünə kütlələrin gözü ilə baxmayan, kütlələrin dərdlərinə məhəl qoymayan rəhbər mənəvi iflasa məhkumdur. Humanizm keyfiyyəti siyasi mədəniyyət üçün əsas keyfiyyətdir. Sədi Şirazi yazır:

Bir bədən üzvüdür bu bəni adam
Eyni bir cövhərdən yaranmış aləm
Bir üzvü dərdlərə salsa ruzigar
Tapmaz başqa üzvü yerində qərar
Özgənin dərdinə əgər yanmasan,
Yaraşmaz adına deyilsin: insan

Özgənin dərdinə yanmaq adi insan üçün vacibdirsə, rəhbər üçün isə yüz qat vacibdir.[8]

Siyasi mədəniyyət mənəvi mədəniyyətin mühüm tərkib hissələrindən biri olub heç də yalnız siyasi şüurla məhdudlaşmır. Adamların siyasi bilikləri, siyasi əqidə və fəaliyyəti də siyasi mədəniyyət anlayışının strukturuna daxildir.

Mədəniyyətin əsas sahələrindən hər biri insanların müvafiq fəaliyyəti ilə üzvi surətdə bağlıdır. Şəxsiyyətin, qrupların, yaxud bütövlükdə cəmiyyətin mədəniyyəti haqqında biz ilk növbədə onların real fəaliyyətinin insanın inkişafına nə dərəcədə təsir göstərməsinə, hansı şəxsiyyət tipi formalaşdırmasına, hansı sərvətlər yaratmasına görə mühakimə yürüdürük.

Mədəniyyətin müxtəlif sahələrinə xas olan sərvətlər spesifik əlamətlərə malikdir. Eyni zamanda bu sərvətləri ümumi cəhətlər birləşdirir.

Siyasi mədəniyyətin inkişafı və zənginləşməsi cəmiyyətin demokratikləşdirilməsi prosesinin tərəqqisi ilə qırılmaz surətdə bağlıdır. Demokratikləşmə siyasi mədəniyyətin real əsası, şəxsiyyətin sosial-siyasi fəallığının artmasının ən mühüm şərtlərindən biridir. Xalq hakimiyyəti – demokratik cəmiyyətin siyasi mədəniyyətinin mərkəzi ideyası, onun formalaşması və inkişafının mənbəyidir. Demokratiya hər kəsin cəmiyyət həyatına real təsir göstərməsi imkanını təmin edən, hər bir şəxsin dövlət işlərindən, vasitələrindən, əməyinin nəticələrindən, mədəniyyətdən və s. ayrı düşməsini aradan qaldıran səmərəli mexanizmdir. Demokratiya cəmiyyətin sosial ədalətliliyinin ali meyarı olan humanizm prinsipinin təsdiqidir.

Demokratiyanın inkişafı yeni abu-hava yaradır, köhnə mühiti dəyişir, xalqı cəmiyyətin idarə edilməsinə yaxınlaşdırır, kütləvi hərəkatların və təşəbbüslərin artmasını stimullaşdırır.

Cəmiyyətin demokratikləşdirilməsi ilə əlaqədar olaraq ölkəmizdə çoxlu qeyri-formal təşkilatlar və birliklər yaranır. Onlar aktual sosial, siyasi, iqtisadi, ekoloji və s. problemlərin həlli üçün öz xüsusi proqram və layihələrini irəli sürürlər. Bu isə cəmiyyətin mənəvi həyatını yeknəsəqlikdən xilas edir, rəylərin plyuralizmini genişləndirir, siyasi mədəniyyətin inkişafına təsir göstərir.

Hakimiyyətin, onun bütün siyasi mexanizminin keyfiyyətlə yeniləşməsi müvafiq olaraq siyasi mədəniyyətin də təkmilləşməsini tələb edir. Hər şeydən əvvəl yeni siyasi təfəkkürün formalaşması zərurəti meydana çıxır. Yeni siyasi təfəkkür yalnız qlobal nöqteyi-nəzər, dünyəvi problemlərin yeni tərzdə düşünülməsi deyildir, eyni zamanda daxili vəzifələr haqqında yeni tərzdə düşünməkdir. Siyasi mədəniyyət əslində bu gün idarə edənlərlə idarə olunanlar arsındakı münasibətin ifadəsidir. Vətəndaşların öz hüquqlarını bilməsi və vəzifələrinə riayət etməsi qanunlara hörmət mədəniyyətidir, siyasi aktlarda iştirak etmək mədəniyyətidir, demokratiyaya, aşkarlığa münasibət mədəniyyətidir.

İctimai-siyasi quruluşun xarakteri siyasi mədəniyyətə və fəaliyyətə ciddi təsir edə bilər. Məsələn, avtoritar bürokratik rejimlərdə insanaların siyasi fəaliyyətə gedən yolu bağlı olur. Belə şəraitdə onların siyasi mədəniyyətləri səviyyəsi üçün tələbat da olmadığından insanların siyasi mədəniyyəti də çox aşağı olur. Demokratik rejimlərdə isə əksinə, insanlar geniş siyasi fəaliyyətə cəlb olunurlar və onların siyasi mədəniyyəti formalaşır və daim təkmilləşir, səviyyəcə yüksəlir. Deməli, mövcud şərait, üsul-idarə və hakim dövlət orqanları kütlələrin siyasi mədəniyyətinin inkişafı üçün müəyyən obyektiv və subyektiv zəmin hazırlamış olurlar. Tarixin böyük siyasi xadimləri və siyasətçiləri məhz müəyyən obyektiv və subyektiv amillərin təsiri altında formalaşmışlar. Tarixin müəyyən anlarının hər biri öz inkişafı müqabilində böyük siyasi xadimlər yetirmişlər.

Cəmiyyətimizin müasir inkişafı tələb edir ki, müxtəlif siyasi cərəyanların, məktəb və cəmiyyətlərin hamısı siyasi razılığa gəlsinlər, milli vətəndaş həmrəyliyi və razılığı əsasında vahid ideya-siyasi xətti işləyib hazırlasınlar.

Qabaqcıl cəmiyyətlərdə həmahəngliyin pozulmaması, siyasi stabilliyin saxlanması, istehsalın durmadan artması, cəmiyyət üzvlərinin maddi və mənəvi tələbatlarının ödənilməsi zərurəti həmişə belə bir vətəndaş həmrəyliyinə dərin bir ehtiyac yaratmışdır və o, indi bizim Azərbaycan cəmiyyəti üçün də səciyyəvidir. Cəmiyyət həyatında yaranmış kəskin dönüş mərhələlərində və böhranlı anlarda mənafeləri bir-biri ilə diametrial əkslik təşkil edən qüvvələr müəyyən bir tarixi vəzifəni yerinə yetirmək üçün mütləq öz səylərini birləşdirməli və ümumi razılığa, başqa sözlə desək, ictimai konsensusa gəlməlidirlər.

Siyasi mədəniyyətin bir sıra modelləri vardır: millətçilik, dövlətçilik, dinçilik, konservatizm, inqilabçılıq, demokratiya və diktatorluq. Bu modellərdən birinin hakimiyyətdə olması digərlərinin gələcək fəaliyyətini şərtləndirə bilər, onları yaşada və ya aradan qaldıra bilər. Demokratik cəmiyyətin siyasi mədəniyyəti bir qayda olaraq özünü müxtəlif modellərin rəngarəngliyində tapır. Diktatorluq isə əksinə, belə rəngarəngliyə dözmür və onları aradan qaldırmağa çalışır (Hitler, Stalin və b.).

Siyasi mədəniyyətlə siyasi sistemin qarşılıqlı əlaqələri və birinin dəgərinə təsiri də tarixən formalaşır. Burada əsas yer, başlıca cəhət siyasi sistemə aiddir və o, özünə uyğun tərzdə siyasi mədəniyyət yaradır.

Lakin cəmiyyətin siyasi mədəniyyəti siyasi sistemə təsir göstərərək onu dəyişdirə bilər. Siyasi mədəniyyətə təsir göstərən amillərdən biri də cəmiyyətin və ya millətin ictimai və milli xarakteri ola bilər.

Milli xarakter özünü aşağıdakı kimi göstərir:

- tarixi – mədəni ənənələrdə;
- ictimai-siyasi praktikada;
- təfəkkür tərzində;
- millətin ayrı-ayrı fərdlərinin əxlaqi-etik davranış normalarında və siyasi xarakterində.

Cəmiyyətin mənəvi həyatı ictimai həyatın iqtisadi və sosial-siyasi sahələri, adamların bütün fəaliyyəti ilə sıx bağlı olub, onu humanist, əxlaqi və estetik məzmunla zənginləşdirir.

Qeyd etmək lazımdır ki, cəmiyyətin mənəvi həyatı mənəvi mədəniyyətindən geniş məfhum olub, elmi nailiyyətlər, incəsənət əsərləri və s. ibarət cəmiyyətin mənəvi dəyərləri sistemi ilə yanaşı eyni zamanda adamların bu dəyərlərə münasibətini də əhatə edir ki, bu da onların mənəvi inkişafından asılıdır.

Demokratik cəmiyyət şəraitində mədəniyyət nailiyyətlərindən cəmiyyətin bütün üzvləri sosial bərabərlik və sosial ədalət prinsipləri əsasında geniş surətdə istifadə etmək imkanına malikdirlər. Həm də adamlar mənəvi dəyərlərdən istifadə etməklə yanaşı eyni zamanda bu dəyərlərin yaradıcılarıdır.

Əsil mənəvi dəyərlərin yaradılması xüsusi qabiliyyətə, xüsusi əmək və peşəkarlığa malik xüsusi hazırlıqlı adamların olmasını tələb edir. Lakin bu o demək deyildir ki, belə dəyərlərin yaradılmasında xalq kütlələri iştirak etmir.

Mükalimə, diskussiya və siyasi dözümlülük mədəniyyətin mühüm tərkib hissələridir. Başqasının rəyinə diqqətlə qulaq asmaq, ictimai ədəb qaydaları daxilində həqiqəti aşkara çıxarmaq üçün normal mübahisələrə girmək, ictimai-siyasi hadisələrə olan münasibətini və ona verilən qiyməti məntiqi əsaslarla sübut etməyə çalışmaq, ictimai rəyi sübut edərkən elmi, nəzəri, habelə praktiki biliklər nümayiş etdirmək böyük məharət olub, siyasi mədəniyyət üçün səciyyəvi cəhətdir.

«Siyasətnamə» əsərində Nizamülmülk yazırdı ki, …Allahtaala buyurmuşdur ki, «işlərdə məsləhətləşin». «Ya Məhəmməd, qarşına bir iş çıxanda əsabələrinlə məsləhətləş». Ona məşvərət etməyi buyurmuşdur, çünki onun da məsləhət və məşvərətə ehtiyacı var imiş. Onu da bilmək lazımdır ki, ondan daha az ehtiyacı olan heç kəs ola bilməz.

Deməli, şah bir iş görmək istədikdə, ya qarşısına bir iş çıxdıqda qocalar və tərəfdarları ilə məsləhətləşməli, məşvərət etməlidir ki, hər kəs o barədə düşündüyünü desin, şah öz fikirləri ilə onların hər birini müqaisə edər, onlar da bir-birlərinin fikirlərini eşidib götür-qoy edərlər. Nəticədə işin doğru yolu meydana çıxar. Ən düz tədbir və doğru yol o hesab edilir ki, hamının fikri bir olsun.

İşdə məşvərət etməmək ağlın zəifliyinə dəlalət edər və belə adamı özbaşına adlandırırlar. Məqsəd olmadan heç bir iş görmək mümkün ola bilmədiyi kimi, məşvərət etmədən də heç bir tədbiri yaxşı həyata keçirmək olmaz.[9]

Demokratik cəmiyyətin təkmilləşməsi, ölkənin sosial-iqtisadi inkişafı mədəniyyət quruculuğunda keyfiyyətcə yeni vəzifələrin irəli sürülməsi, mədəniyyət sahəsində siyasətin yenidən qurulması ilə sıx surətdə bağlıdır. Burada başlıca vəzifə adamların qabiliyyətlərinin aşkara çıxarılmasından, onların həyatını mənəvi cəhətdən zənginləşdirməkdən ibarətdir. Mənəvi mədəniyyət elm və təhsili, ədəbiyyat və incəsənəti, xalqın bütün sosial və əxlaqi dəyərlər məcmusunu əhatə edərək cəmiyyətin intellektual və mədəni potensialını təşkil edir.

Bütünlükdə xalqın və eləcə də hər bir cəmiyyət üzvünün mədəni inkişafı, onların demokratik cəmiyyət naminə fəallığı və yeni sosial həyat formalarına keçmələri üçün zəruri şərtdir.

Mədəniyyət məsələlərində, cəmiyyətin mənəvi həyatında demokratikləşdirmə, adamlara etiqad, səriştəlilik, xeyrxahlıq üçün şərait yaradılması, istedadlara kömək göstərilməsi başlıca meyar olmalıdır. Mənəvi həyatın, mədəniyyətin inkişafı insan amilinin fəallaşması, adamların siyasi şüurunun yeni ideyalarla zənginləşməsi, xalqın və hər bir adamın yaradıcı potensialının yeni vəzifələrin həllinə yönəldilməsi sahəsində müstəsna əhəmiyyətə malikdir. Hazırda mənəvi həyat sahəsində vəzifələr əsaslı iqtisadi, siyasi islahatlar və cəmiyyətin bütün həyatının demokratikləşdirilməsi ilə sıx əlaqədə həll edilməlidir.

Ölkəmizin və xalqımızın qarşısında duran çox mühüm problemlərin həllində aşkarlıq, demokratizm, cəmiyyətin mənəvi həyatında elmin, ədəbiyyat və incəsənətin rolunun artması yeni siyasi təfəkkürün inkişafına, adamların baxış və rəylərində plyuralizmə, cəmiyyətin demokratikləşdirilməsinin konkret vəzifələrinin həllinə yaradıcı münasibətdə kömək göstərir.

Cəmiyyətin inkişafı elmi nailiyyətlərin maddi və mənəvi istehsal sahəsində tətbiqi ilə, yeni texnologiyadan istifadə edilməsi və əmək mədəniyyətinin yüksəldilməsi ilə bilavasitə əlaqədardır. Bu isə xalq təhsili sistemində əsaslı islahatlar keçirilməsini tələb edir.

Əhalinin müxtəlif təbəqələrinin artmaqda olan mədəni tələbatının ödənilməsinin, xalqın bədii yaradıcılığının inkişafı üçün şərait yaradılmasının, adamlarda müxtəlif qabiliyyətlərin inkişafı, sağlam tələbat və estetik zövqün formalaşmasının zəruri şərti mədəni-maarif işinin məzmun və metodlarının daim təkmilləşdirilməsindən ibarətdir.

Bədii mədəniyyət sahəsində demokratikləşmə və aşkarlıq adamların, müxtəlif təbəqələrin və qrupların bədii və estetik tələbatlarının real vəziyyətini dərindən öyrənməyə və bu əsas üzərində bədii mədəniyyətin yüksəlməsi, incəsənət və xalqın yaxınlaşması üçün mühüm tədbirlər sisteminin işlənib hazırlanmasına imkan yaradır.

Mədəniyyət idarələrinin işində demokratikləşdirmə istedadların inkişafı üçün imkan və şərait yaratmalıdır.

Cəmiyyətin demokratikləşdirilməsi və daha da inkişafı adamların şüur yetkinliyinin yuksəlməsi, mənəvi aləminin, xalqın mədəniyyətinin zənginləşməsi ilə sıx surətdə əlaqədardır.

Cəmiyyətin mənəvi həyatı maddi istehsalın möhkəm bünövrəsinə əsaslanır. İnsan özünün zəruri təbii maddi tələbatını ödəməklə mənəvi yaradıcılıqla məşğul olmaq üçün imkan əldə edir. Eyni zamanda mənəvi yaradıcılıq nailiyyətləri maddi istehsalın daha da inkişafına kömək göstərir.

Demokratik cəmiyyətin mənəvi həyatı maddi istehsal ilə yanaşı cəmiyyət üzvlərinin mənəvi tələbatının ödənilməsi ilə də sıx bağlıdır. Bu öz ifadəsini adamların mənəvi fəaliyyətində tapır və istehsalı, bölgünü, mübadiləni və mənəvi dəyər və nemətlərin istehlakını nəzərdə tutur.

Cəmiyyətin mənəvi mədəniyyəti onun mənəvi həyatının inkişafının nəticəsi və insan yaradıcılığının məhsuludur.

Yalnız yuksək mədəni səviyyəyə malik olan insan cəmiyyətə fayda verməklə yanaşı öz mənəvi tələbatını da ödəyə bilər.

Demokratik cəmiyyətin mənəvi həyatı və mədəniyyəti bəşəriyyətin mənəvi nailiyyətləri və dəyərləridir. Humanizm, demokratizm, mənəvi dəyərlərdən istifadə edilməsində sosial ədalət, mənəvi tərəqqinin yüksək sürəti və onun nailiyyətlərinin geniş xalq kütlələrinə müəyyəssər olması, beynəlmiləlçilik demokratik cəmiyyətin mənəvi həyatının səciyyəvi cəhətləridir.

Cəmiyyətin inkişafı prosesində mədəniyyət ilə din arasında sıx qarşılıqlı əlaqə mövcud olmuşdur. Orta əsrlərdə siyasi həyatda dini ideologiya hakim olduğundan mədəniyyət də demək olar ki, dini mahiyyət kəsb edirdi.

Bununla yanaşı mədəniyyətin inkişafında dinin rolu böyük olmuşdur. Din insanları lazımsız hərəkətlərdən çəkindirmiş, onların mənəviyyatını zənginləşdirmiş, onlarda inam, ədalət, səxavət, etibar, humanizm və s. kimi müsbət keyfiyyətlər tərbiyə etmişdir. Din insanı yer üzünün əşrəfi elan etməklə onu müqəddəsləşdirmiş, özünə hörmət və inamı bəxş etmişdir.

**Cəmiyyət həyatının bütün sahələrinin demokratikləşdirilməsi siyasi mədəniyyətin başlıca funksiyasıdır.**

Demokratiya sivilizasiyanın ən ümumi sərvəti kimi meydana gəlmiş və ictimai həyatın demək olar ki, bütün sahələrini əhatə edir.

Demokratiya insanın təşəbbüskarlıq və müstəqilliyini təmin edərək onun fəaliyyətini cəmiyyətdəki özbaşınalığa, zorakılığa və totalitarizmə qarşı mübarizəyə yönəldir.

Siyasi mədəniyyətin digər bir mühüm funksiyası dövlət və ictimai işlərin idarə edilməsində xalqın iştirakından ibarətdir.

Cəmiyyətin getdikcə daha da demokratikləşdirilməsi prosesi xalqın hakimiyyətdən uzaqlaşdırılmasının, saxta demokratiyanın, fərdiyyətçiliyin, təhrif olunmuş siyasi şüurun aradan qaldırılmasını və cəmiyyət üzvlərinin siyasi fəallığının, siyasi mədəniyyətin yüksəldilməsini tələb edir. Siyasi mədəniyyətin səviyyəsinin aşağı olması müasir dövrdə cəmiyyətimiz qarşısında duran son dərəcə vacib və çox mühüm vəzifələrin həyata keçirilməsinə mane olur.

Cəmiyyətin siyasi mədəniyyəti ölkənin siyasi həyatının inkişafını düzgün və səmərəli istiqamətləndirməyə qabil siyasi təsisatların yaradılmasını, rəylər plyuralizmini, şəxsiyyətə hörməti və hamının qanun qarşısında bərabərliyini nəzərdə tutur.

Siyasi mədəniyyət demokratik forma və metodların inkişafına kömək göstərir, siyasi təcrübənin və müsbət ənənələrin bir nəsildən digərinə verilməsində böyük rol oynayır.

Siyasi mədəniyyətin inkişaf səviyyəsi meyarının əsası-ictimai həyatın bütün sahələrinin demokratikləşdirilməsi dərəcəsindən, adamların ictimai-siyasi fəaliyyətə real surətdə cəlb edilməsindən, sosial-iqtisadi və mənəvi proseslərin idarə edilməsində onların iştirakından ibarətdir. Siyasi mədəniyyət – siyasi bilik və siyasi təcrübənin, siyasi şüurluq və siyasi fəaliyyətin sintezidir. Şəxsiyyətin siyasi mədəniyyəti bütövlüklə cəmiyyətin siyasi mədəniyyətinin səviyyəsindən, ictimai həyatın demokratikləşdirilməsindən asılıdır.

İdarəetmə funksiyası siyasi mədəniyyətin əsas funksiyasıdır.

Bu funksiya eyni zamanda özünüidarəetməni də nəzərdə tutur. Özünüidarəetmə şəraitində adamların ictimai-siyasi fəallığı artır.

Kütlələrin siyasi yaradıcılığının rolu formal və qeyri-formal ictimai-siyasi təşkilatların fəaliyyətində daha aydın şəkildə təzahür edir. Sosial və siyasi həyatın bütün sahələrində cəmiyyət üzvlərinin iştirakı cəmiyyətin siyasi mədəniyyətinin yüksəlməsi üçün zəruri şərait yaradır.

## 12-ci MÖVZU
## SİYASİ İDEOLOGİYALAR

### 1. *Siyasət və ideologiyanın qarşılıqlı əlaqəsi*

**İdeologiya** (yunan dilindən tərcümədə – «ideya» və «elm», «təlim» sözlərinin birləşməsi) anlayışışın siyasət elminə gətirilməsi fransız alimi Lestyut de Qrasinin adı ilə bağlıdır. Onun 1801-1815 illərdə çapdan çıxmış olan dörd cildlik «İdeologiyanın elementləri» əsərində bu terminin geniş elmi izahının verilməsinə cəhd göstərilir. L.de Qrasi bu əsərində və həmçinin «Düşünmək qabiliyyəti haqqında etüdlər» kitabında belə bir qənaətə gəlir ki, ideologiya ideyaların meydana gəlməsi və inkişafı, habelə insan idrakının qanunları haqqında elmdir.

Bu terminin meydana gəldiyi vaxtdan etibarən ona qarşı böyük elmi maraq formalaşmışdır. Məhz buna görə də «ideologiya» və «ideoloq» terminlərinin şərhində böyük fikir müxtəlifliyi mövcuddur. Həqiqət və yalan, rasional və irrasional cəhətlər siyasətdə, ictimai və fərdi şüurda olduğu kimi ideologiyada da bilavasitə sıx əlaqədə çıxış edir. İdeologiyanın idraki funksiya yerinə yetirməsi haqqında irəli sürülən fikirlər K.Marks və F.Engels tərəfindən «Alman ideologiyası» əsərində tənqid olunmuşdur. Lakin, buna baxmayaraq ideologiya siyasi reallıq kimi qəbul edildi və tezliklə onun müxtəlif istiqamətli meylləri meydana gəldi.

İdeoloju cərəyanlar, onların arasında mübarizə siyasi baxışların, qruplaşmaların qarşıdurması kimi hələ lap qədim zamanlardan mövcud olsalar da, onların sistemli baxışlar şəklinə düşməsi XVII əsrin əvvəlinə təsadüf edir. Buna misal olaraq ***ənənəviçilik cərəyanını*** göstərmək olar. Onun nümayəndələri olan J.Bossyue (1627-1704), R.Filmer(1610-1688) və başqaları dini - monarxist ənənələrin qorunub saxlanması ideyasını müdafiə edirdilər. «Əvvəlki qaydaların» və onun mənəvi sərvətlərinin müdafiəsi öz geniş əksini Bossyuenin «Müqəddəs Yazıdan irəli gələn siyasət» əsərində tapmışdır. Ənənəviçilik ideyaları Marifçiliyə, Liberalizmə və fransız inqilabına cavab olaraq İngiltərədə meydana gəlmiş olan klassik mühafizəkarlıqın əsasını təşkil edir. Bu cərəyanın ən görkəmli nümayəndəsi E.Berk (1729-1797) hesab olunur. Berk özünün «Fransız inqilabı haqqında düşüncələr» əsərində köhnə gözəl ənənələrin, möhkəm qayda-qanunun tərəfdarı, inqilabın və əxlaq pozuntularının mənbəyi olan mütləq demokratiyanın əleyhdarı kimi çıxış edir.

XVIII əsrdə daha mütərəqqi bir cərəyanın – ***liberalizmin*** ilkin təzahür formaları meydana gəlir. Bu öz əksini T.Hobbsun, C.Lokkun, Qərbi Avropa, amerikan və rus maarifçilərinin əsərləri7ndə tapır. Klassik liberalizm cərəyanı isə XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəlində V.Humboldt, B.Konstan, A.de Tokvill və başqaları tərəfindən yaradılmışdır. Özünün «Dövlətin təşkili haqqında düşüncələr», «Dövlətin fəaliyyət hüdudları haqqında oçerklər» və s. əsərlərində V.Humoldt idarəetmənin demokratikləşdirilməsi, siyasi və vətəndaş hüquqlarının, azadlıqlarının tərəfdarı kimi çıxış edir.

XIX əsrdə siyasi ideologiyalar səhnəsinə utopik və elmi sosializm, anarxizm, marksizm, sosial-demokratiya, inqilabi demokratiya və s. cərəyanlar çıxır. Bu ideoloqiyaların bəziləri uzun ömürlü olub, bu gün də öz tərəfdarlarına malik olduğu halda, bəzi ideoloqiyalar tarixi, müvəqqəti və lokal xarakter daşımışdır.

Siyasi fəaliyyətə başlayan hər bir qruplaşma, partiya, təşkilat və ya ayrılıqda götürülmüş siyasi lider birinci növbədə özü üçün ideoloji bazanı müəyyən etməlidir. Bu səbəbdən də siyasi ideyaların və ideoloji cərəyanların meydana gəlməsi prosesi fasiləsiz, ardıcıl xarakter daşıyır.

İdeologiya ilə siyasətin qarşılıqlı münasibəti onların spesifik xüsusiyyətləri ilə bağlıdır. Məhz bu xüsusiyyətlər xeyli dərəcədə onları bir - birinə yaxınlaşdırır. İstər ideologiya, istərsə də siyasət cəmiyyətin maddi, iqtisadi bazası üzərində, habelə mənəvi və mədəni təməlləri əsasında yüksələrək tarixi və ictimai proseslərə qoşulur. İdeolgiya da siyasət kimi universal xarakter daşıyır, yəni təfəkkürün, fəaliyyətin və davranışın ən müxtəlif sahələrini əhatə edir, onların istiqamətini, məqsəd və vasitələrinri müəyyən edir. Bu öz əksini «təfəkkür tərzi», «xüsusi maraqlar» və s. kimi anlayışlarda tapır.

İdeologiya həmçinin siyasətdə mərkəzi yerdə dəyanan məqsədlərin, konkret vəzifələrin, imkanların, ideallarin müəyyən edilməsi prosesi ilə də bağlıdır. Məhz ideologiya siyasətin qarşısına çatmalı olduğu ideallar sistemini qoyur. Bunun sayəsində isə liberal, mühafizəkar, mütərəqqi, irticaçı və s. siyasət növləri meydana gəlir.

Siyasət və ideologiya ictimai şüurun və cəmiyyətin təşkili sisteminin daha fəal, mütəhərrik elementləri kimi çıxış edirlər. Onlar təkcə cəmiyyətin bütün sferalarına sirayət etməklə kifayətlənməyərək, həmçinin bir - birilə üzvü əlaqəyə girirlər. Qeyd etmək lazımdır ki, siyasətin zəyifliyi, onun çatışmazlığı, siyasi ideyaların və qərarların azlığı çox tezliklə və hökmən ideologiya ilə əvəz olunur. Xarici amillərin təsiri altında (məsələn,

başqa ölkədən təhlükə gəldikdə), yaxud daxili vəziyyət sabit xarakter daşımadıqda ideologiya siyasəti sıxışdıraraq, onu öz təsiri altına alır.

Siyasət və ideologiya fikirlərin, proqramların, qərarların müxtəlifliyi və fəal mübarizəsi ilə bağlıdır. Onlar hökmən hər hansı bir məsələyə müsbət yaxud mənfi qiymət vermə məcburiyyəti qarşısında qalırlar. Məhz buna görə də onlar sağlara və sollara, mürtəcelərə və mütərəqqilərə bölünürlər. Lakin, eyni zamanda istər siyasət, istərsə də ideologiya kompromisə, qarşılıqlı güzəştlərə getməyə meylli olurlar.

Bütün yuxarıda göstərilən səbəblər üzündən təbii olaraq, siyasət ilə ideologiyanın qarşılıqlı əlaqəsi siyasi - ideoloji kompleksə çevrilir. Mədəniyyət, din, əxlaq, elmi biliklər və s. kimi amillər siyasətdə böyük təsir qüvvəsinə malik olsalar da onu müəyyən edə bilmirlər. Onlardan fərqli olaraq ideologiya bilavasitə siyasətlə qovuşur. Siyasət öz mahiyyətinə görə ideoloji xarakter daşıyır, çünki idarəetməyə nəzarəti, istiqamətverməni məhz bu və ya digər ideyaların, maraqların və mənafelərin naminə həyata keçirirlər. Lakin, bunun da müəyyən həddi olmalıdır. Çünki siyasətin həddindən artıq ideologiyalaşdırılması cəmiyyətin avtoritarlaşmasına, totalitar, tiran rejimlərin əmələ gəlməsinə səbəb olur. Bu isə öz növbəsində şəxsiyyətə pərəstiş, şəxsi yaxud qrup diktaturası yaradır. Buna misal olaraq sosialist ideologiyası əsasında qurulmuş olan dövlətləri göstərmək olar. SSRİ-də, Şərqi Avropanın, Asiyanın sosialist ölkələrində kommunist ideologiyası ictimai həyatın bütün sferalarını nəzarət altına almışdı. Nəticədə qeyd olunduğu kimi, bu ölkələrdə antidemokratik, totalitar rejimlər təşəkkül tapmışdı.

Siyasi həyatda ideologiya müəyyən dərəcədə elitanın mənəvi silahı rolunu oynayır. Məhz siyasi elitanın davranış taktikasından asılı olaraq müxtəlif qrup mənafelərinin ideya cəhətdən formalaşdırılması baş verir. Lakin, siyasi ideologiyanın hakimiyyətə münasibəti onun nə dərəcədə ictimai şüura təsir qüvvəsinə malik olmasından asılıdır.

İdeologiya ilə siyasətin qarşılıqlı əlaqəsini bir sıra politoloqlar və dövlət xadimləri çox parlaq ifadə etmişlər. Məsələn, fransız sərkərdəsi və dövlət xadimi Napoleonun fikrincə, ideologiya dövlət başçısının həyata keçirdiyi siyasəti əsaslandırmağa yönəlmiş olan vasitədir. Bu fikri daha da inkişaf etdirən H.Morqentau siyasətçini – aktyor, ideologiyanı isə onun öz rolunu yerinə yetirmək üçün istifadə etdiyi pərdə adlandırır: «Siyasətin mahiyyəti siyasi səhnənin aktyorundan öz fəaliyyətinin məqsədlərini pərdələmək üçün istifadə etməyi tələb edir».

İtaliyalı sosioloqlar Q.Moska, Q.Pareto və başqaları siyasi ideologiynın məzmununu həddindən artıq geniş mənada götürərək dini və estetik şüur formalarını da onun təzahürü hesab edirdilər. Alman politoloqu və sosioloqu Maks Veber isə, ideologiyanın idraki funksiyalarını inkar edərək, ona inamla bağlı fenomen kimi yanaşırdı.

İdeologiya haqqında mövcud olan çoxlu sayda fikirləri ümumiləşdirmək əsasında fransız politoloqu O.Rebul onları aşağıdakı kimi qruplaşdırır:

1. **Sezarçı ideologiya** sisteminə görə mövcud cəmiyyətin sosial münasibətlərinin tənqidinə və dəyişdirilməsinə yönəlmiş olan fikirlərin məcmusu ideologiyadır.
2. **Marksist ideologiyası** isə əksinə hesab edir ki, mövcud cəmiyyətin sosial əsaslarını qoruyub saxlamağa yönəlmiş olan baxışların məcmusunu ideologiya adlandırmaq olar.
3. Kollektiv inam və düşüncə səviyyəsinə yüksəlmiş olan fikir və ideyaların məcmusunu ideologiya hesab edən **sosioloji cərəyanın** fərqləndirici xüsusiyyəti budur ki, ideologiyanı təsvir etdiyi gerçəkliyə uyğun hesab etmir.

Elmi ədəbiyyatda ideologiya anlayışına verilən çoxlu sayda təriflər içərisində diqqəti daha çox aşağıdakı variant cəlb edir: ***İdeologiya bu və ya digər ictimai qrupun hakimiyyətə və ondan istifadəyə olan iddialarına haqq qazandıran və buna uyğun olaraq ictimai rəyi öz ideyalarına tabe etdirməyə çalışan doktrinadır.***

İdeologiyanın siyasi şüur forması kimi məzmununu izah etməyə səy göstərərkən unutmaq olmaz ki, o hər şeydən əvvəl ayrı-ayrı ictimai qrupların mənafelərinin reallaşdırılması işinə xidmət edir.

İdeologiyanı siyasi şüur forması kimi xarakterizə edən əsas cəhət onun sistem şəkilində çıxış etməsidir. Real gərçəklikliyi inikas edən baxışların, nəzəriyyələrin məcmusu hələ ideologiya hesab edilə bilməz. Yalnız konkret məqsədin əldə olunmasına yönəlmiş olan və konkret mənafeləri müdafiə edən baxışların və idealların bitkin sistemi ideologiya sayıla bilər. Sosial münasibətlərin mahiyyətini insanlar dərindən dərk etdikcə həmin münasibətlər haqqında onlarda müəyyən təsəvvürlər əmələ gəlir. Həmin təsəvvürlər isə öz əksini konkret ideologiyada tapır. İctimai şüurun müxtəlif gollarının təcəssümu kimi çıxış edən müxtəlif fikir və təsəvvürlər müəyyən istiqamətə yönəldildikdə və sistem şəklinə salındıqda ideologiya səviyyəsinə yüksəlir.

Amma heç də sistem şəklinə salınmış hər cür baxışların məcmusunu ideologiya hesab etmək olmaz. Çünki ideologiya öz mahiyyətinə görə sistem şəklinə salınmış elmi nəzəriyyələrdən fərqlənir. Elm obyektiv

gerçəkliyi idraki metodların köməyi ilə öyrəndiyi və təsvir etdiyi halda ideologiya həmin gerçəkliyi müəyyən mənafelərdən çıxış edərək əks etdirir.

Politoloji ədəbiyyatda ideologiyanın məzmununun aşağıdakı üç əsas ünsürdən ibarət olduğu göstərilir. Bu ünsürlərdən *birincisi* – gerçəkliyin təsvirindən ibarətdir. Real gerçəkliyin təsvirinin məqsədi cəmiyyətin qarşısında duran sosial problemlərin aktuallığını ön plana çəkməkdir. Çünki bütün ideoloji sistemlərin vacibliyi gerçəkliyin dəyişdirilməsinə yönəlməsidir. Real gerçəkliyin təsviri az-çox həqiqətə uyğun ola bilər. Əsas məqsəd həmin gerçəkliyin ya dəyişdirilməsinə, ya da təkmilləşdirilməsinə dair təkliflərin irəli sürülməsidir.

İdeologiynın məzmununa daxil olan ünsürlərdən *ikincisi* - aksioloji sistemdir. Bu sistemin əsas məqsədi real gerçəkliyin təsvirinə əsaslanmaqla onu reallıqdan gələcəkdə arzu edilən gerçəklik səviyyəsinə qaldırmaqdır. Bundan əsas məqsəd insanların perspektivdə nail ola biləcəkləri maddi və mənəvi sərvətlərin müəyyən edilməsidir. Aksioloji sistemin köməyi ilə sosial dəyərlərin və sərvətlərin kompleksi aşkar olunur. Bəzi politoloqlar (D.Frankel) məhz sosial dəyərlərin məcmusunu ideologiya kimi qiymətləndirirlər.

Siyasi ideologiyalırın məzmununu təşkil edən ünsürlərdən *üçüncüsü* – praktiki göstərişlərdir. Həmin göstərişlər müxtəlif qruplara daxil olan insanların sosial davranışını yeni ideologiyanın təmsilçisi olan sosial qrupun mənafeyinə uyğunlaşdırır.

Siyasi ideologiyalar bir sıra təzahür xüsusiyyətlərinə malikdirlər. Hər bir siyasi ideologiya mövcud cəmiyyətdə fəaliyyətdə olan siyasi rejimlərlə əlaqələrə malikdir. Siyasi yönümündən, xarakterik xüsusiyyətlərdən və bir sıra digər amillərdən asılı olaraq, ideologiyalar ya mövcud normaları, qaydaları, üsul – idarəni qoruyub saxlamağa ya da onları dəyişdirməyə yönəlmiş olur. Bundan əlavə ideologiya mövcud sosial normalara və münasibətlərə qarşı fəal təsiredici qüvvəyə malikdir. Bu, öz əksini həmin normaların təkmilləşdirilməsinə dair irəli sürülən proqramlarda, təkliflərdə tapır.

Beləliklə, cəmiyyətin siyasi həyatında müstəsna rola və əhəmiyyətə malik olan ideologiyalar soial gerçəklikdə özünü biruzə verən ziddiyyətlərin təhlilinə əsaslanmaqla həmin ziddiyyətlərin aradan qaldırılması yollarını göstərir. Bu yol ya radikal xarakter daşıyır və sosial münasibətlərin kökündən dəyişdirilməsini nəzərdə tutur, ya da islahatçı xarakter daşıyır və mövcud münasibətlərin təkmilləşdirilməsi işinə xidmət edir.

### *2. Siyasi ideologiyaların formaları və funksiyaları*

Sosial həyatın müxtəlif sahələrində fəaliyyət göstərən ideologiya çox mürəkkəb mənəvi qurum kimi çıxış edir. İdeologiyanın məzmun mürəkkəbliyi həm fəaliyyət sferalarını və funksiyalarını, həm də təzahür formalarını müəyyən edir. Fəaliyyət səviyyələri kimi aşağıdakı amilləri göstərmək olar:

*1.* ***Nəzəri konseptual səviyyə*** – ideologiyanın formalaşmasının ilkin səviyyəsi olub əsasən başlıca mənəvi dəyərlər və ideyalar sisteminin formalaşdırılması işinə xidmət edir. Bu səviyyədə ideologiya öz əksini nəzəri müddəalar şəklində büruzə verir. Təbiidir ki, bu səviyyədə ideologiyanın fəaliyyət miqyası bir qədər məhdud olur. Başqa cür desək, nəzəri-konseptual səviyyədə ideologiya mənafeyini əks etdirdiyi sosial qrupun qabaqcıl nümayəndələrinin fəaliyyətində özünü əks etdirir. Bu səviyyə qarşısında duran əsas vəzifə yeni ideyaların ictimai fikrə təsiri və ictimai şüura sirayət etməsinə köməklik göstərməkdir.

*2.* ***Proqram - siyasi səviyyə*** - ideologiyanın bu fəaliyyət səviyyəsində əvvəlki mərhələdə formulə edilmiş prinsiplər əməli - siyasi fəaliyyəti təşkil etmək üçün konkret proqram səviyyəsinə yüksəldilir. Bu mərhələdə mənəvi dəyərlər, ideya və baxışlar normativ xarakter daşıyır və siyasi fəaliyyətlə məşğul olan iştirakcıların davranış qaydalarını müəyyən edir.

*3.* ***Kütləvi yayılma səviyyəsi*** - hər bir ideologiya öz qarşısına əsas məqsəd kimi kütlələr arasında daha geniş yayılma vəzifəsini qoyur. Çünki yalnız bu yolla son məqsədə çatmaq olar. Bütün ideoloji sistemlərin məzmununu təşkil edən ideya və prinsiplər, dəyərlər və normalar insanlar tərəfindən mənimsənildikdə, qəbul edildikdə onlar haqqında bitkin baxışlar sistemi kimi danışmaq mümkün olur. Buna görə də ideologiyaların yayılması və insanlara təsir dərəcəsi müxtəlif ola bilər. Elə ideologiyalar vardır ki, sosial həyatın kəskin problemlərini özündə təcəssüm etdirməklə cəmiyyətin çox böyük hissəsini öz təsiri altına ala bilir. Bu cür ideologiyaları Manheym «total» ideologiyalar adlandırır və onlara misal olaraq faşizmi, marksizmi və geniş yayılmış dini cərəyanları göstərir.

Cəmiyyətin siyasi sisteminin, idarəetmə formalarının, siyasi hakimiyyət haqqında təsəvvürlərin dəyişdirilməsini nəzərdə tutan fikirlərin, ideyaların və baxışların toplusu kimi cıxış edən ideologiyalar isə «xüsusi» ideologiyalar adlandırılır.

Politoloqlar siyasi ideologiyaların təsnifatını müxtəlif meyarlara əsaslanmaqla aşağıdakı kimi müəyyən edirlər:

a) Yerinə yetirdiyi funksiyalara görə;
b) Əsaslandığı sosial bazaya görə;
c) Öz daxili strukturuna görə;
d) Tarixən təşəkkul tapmış taleyinə görə;
e) Fəaliyyət sferasının miqyaslarına görə.

Yerinə yetirdiyi funksiyalara görə ideologiyaları xarakterizə edərkən ilk növbədə onun hansı sosial təbəqələrin mənafelərini əks etdirdiyini müəyyən etmək lazımdır. Bu, böyük əhəmiyyət daşıyır, çünki fəhlə sinfinin, burjuaziyanın, kənd yerlərində yaşayan insan qruplarının mənafelərini əks etdirən ideologiyalar məhz bu meyara əsaslanmaqla aşkara cıxarılır. Bundan başqa siyasi ideologiyanın müxtəlif formaları sosial mənafelərə münasibət baxımından da təhlil edilir. Bu baxımdan mühafizəkar, mütərəqqi və mürtəce ideologiya tiplərini göstərmək mümkündür.

Sosial bazasına görə ideologiyaların milli, irqi, sinfi və s. tiplərini göstərmək olar. Bu əlamətə görə ideologiyanın təhlili göstərir ki, onun məzmunu ilə sosial qrupların, birliklərin mənafeləri arasında funksional asılılıq mövcuddur. Başqa cür desək, müxtəlif sosial qrupların mənafelərinə xidmət göstərən ideoloji sistemlərin tərəfdarları da ilk növbədə həmin sosial qruplara mənsub olan adamlardır. Qeyd etmək lazımdır ki, ideologiyanın funksional mahiyyəti ilə onun sosial bazası arasında müəyyən uyğunsuzluq da mümkündür. Başqa sözlə, konkret sosial qrupun mənafeyinə xidmət edən ideologiya digər sosial qrupların da mənafelərinə uyğun gələ bilər. Buradan isə belə bir nəticə hasil olur ki, siyasi ideologiya yalnız cəmiyyətin konkret olaraq bir sosial qrupunun deyil, xeyli hissəsinin mənafelərini əks etdirməlidir.

Siyasi ideologiyaların daxili struktur əlamətlərinə görə aşağıdakı cüt formaları göstərilir:

- dini və dünyəvi ideologiyalar;
- rasional və irrasional ideologiyalar;
- universal və partikulyar ideologiyalar.

Dini və dünyəvi ideologiyalar öz mahiyyətinə görə adamların dünyagörüşünü şərh edərkən, habelə onların fəaliyyətini əsaslandırarkən mifoloji, yaxud rasional - məntiqi metodlara arxalanmağa üstünlük verir. Məlumdur ki, dini ideologiyanın əsas məqsədi bir tərəfdən müqəddəs varlığın mövcudluğunun əsaslandırılması işini, digər tərəfdən isə müqəddəs hesab edilən subyektlərə etiqadın formalaşdırılması vəzifəsini yerinə yetirir. Dünəvi ideologiyalar isə dini anlayışlardan azad, real gerçəkliyin şərhinə əsaslanan və gələcəyin arzu olunan səviyyəsini təsvir edən ideologiyalardır.

Rasional və irrasional ideologiyalar irəli sürdükləri fikir və ideyaların yalnız rasional idraka və məntiq qaydalarına əsaslanmasına çalışırlar. Bu zaman rasional ideologiyalar idrakı meyarları, məntiqi mülahizələri əsas götürdükləri halda, irrasional ideologiyalar əksinə, yalnız fəhmə, hisslərə, duyğulara əsaslanır. Əksər hallarda irrasional ideologiyalar liderlik ideologiyası xarakteri daşıyır, çünki onun əsasında bu və ya digər liderin irəli sürdüyü fikirlər, ideyalar, göstərişlər, fəhmlər dayanır.

Universal və partikulyar ideologiyalar öz mahiyyətinə görə bir və ya bir neçə sosial qrupa, təbəqəyə, yaxud bütöv cəmiyyətə yönəlmiş olan, xidmət göstərən ideologiyalardır. Milli, irqi ideologiyalar öz məzmununa görə əvvəlcədən hansı qrup insanları əhatə etdiyini bildikləri üçün onlar partikulyar xarakter daşıyırlar. Heç bir məhdudiyyət qoyulmadan, bütün insanlara yönəlmiş olan ideyalar, baxışlar sistemi ümumi səciyyə daşıyır və buna görə də universal ideologiyalar adlanırlar. Buna misal olaraq dini ideologiyaları göstərmək olar. Məsələn, islam dini universal mahiyyətə malikdir, çünki onun ehkamları bütün insanları əhatə edir.

Siyasi ideologiyaları tarixi taleyinə görə fərqləndirərkən əsas əlamət kimi onların fəaliyyət göstərdikləri dövr, müddət götürülür. Məsələn, bir sıra ideologiyalar həddindən artıq uzun bir dövr ərzində mövcud olmaqla yüksək davamlılıq nümunəsi numayiş etdirirlər. Onlara misal olaraq dini ideologiyaları göstərmək olar. Bunun əksinə olaraq bəzi ideologiyalar meydana gəldikdən sonra az müddət ərzində mövcud olur və çox tez unudulur. Bu onu göstərir ki, həmin ideologiyalar cəmiyyətdə özünəməxsus sosial bazaya malik olmurlar. Buna görə də onların irəli sürdüyü ideyalar qısa müddət ərzində özünə tərəfdarlar tapsalar da, çox tez müddət ərzində əhəmiyyətini itirərək sıradan çıxırlar.

Siyasi ideologiyaların təsnifatını yekunlaşdırarkən qeyd etmək lazımdır ki, ən mühüm əlamətlərdən biri onların fəaliyyət sferalarının miqyasının müəyyən edilməsidir. Burada əsas meyar ideologiyanın hansı coğrafi məkanda, regionda yayılması miqyasının aşkara çıxarılmasıdır. Siyasi ideologiyaların bir qrupu bütün dünyanın müxtəlif ərazilərində mövcud olduqları halda, digər qrupu isə yalnız ayrı-ayrı regionlarda və ölkələrdə mövcud olur.

Siyasi ideologiyalar bir sıra mühüm funksiyalar yerinə yetirirlər. Həmin funksiyaları araşdırmaq və qruplaşdırmaq üçün birinci növbədə siyasi ideologiyaların hansı məqsəd və vəzifələrə xidmət etdiyini, cəmiyyətin həyatında nə kimi rol oynamasını aydınlaşdırmaq lazımdır. Cəmiyyətin siyasi həyatında ideologiyanın rolunun təhlilinə əsaslanmaqla onun bir tərəfdən ümumi, digər tərəfdən isə siyasi funksiyaları aşkara çıxır. Birincilərə aşağıdakıları aid etmək olar:

- gerçəkliyin spesifik obrazının yaradılması;
- içtimai şüurun əhatə edilməsi;
- yeni dəyərlərin içtimai şüura gətirilməsi;
- təbliğ edilən cəmiyyətin modelinin yaradılması və s.

Bu funksiyaları yerinə yetirməklə ideologiya ictimai şüur forması kimi idrakı, qiymətvermə, proqnozlaşdırma vəzifələrini yerinə yetirir.

İkincilərə isə aşağıdakıları aıd etmək olar:

- cəmiyyətin gələcək siyasi inkişaf istiqamətlərinin və əsas aparıcı qüvvələrinin müəyyən edilməsi;
- siyasi ideologiyaların daşıyıcılarının və tərəfdarlarının vahid məqsədin həyata keçilməsi uğrunda səfərbər edilməsi;
- insanların ümumi ideyalar və fikirlər əsasında birləşdirilməsi.

Siyasi ideologiyaların formaları və funksiyalarının elmi təhlili göstərir ki, ideologiyalar bütün dövrlər ərzində bu və ya digər siyasi məqsədin həyata keçirilməsi işinə xidmət edir və böyük forma müxtəlifliyinə malikdirlər.

### *3. Müasir dövrün əsas ideoloji nəzəriyyələri və cərəyanları*

Cəmiyyətin siyasi həyatının müasir dövr üçün xarakterik olan mühüm əlamətlərindən biri ideoloji nəzəriyyələrin və cərəyanların böyük rəngarəngliyə malik olmasıdır. Bu isə təbiidir, çünki siyasi həyatda özünü biruzə verən plyuralizm birinci növbədə ideoloji əsaslarla bağlıdır. Cəmiyyətdə mövcud olan çoxlu sayda sosial qrup və təbəqələrin mənafeləri öz əksini ideologiyaların müxtəlifliyində tapır. Bununla yanaşı regional və bəşəri miqyasda özünü biruzə verən ideallar da çox vaxt üst – üstə düşmür.

Lakin qeyd etmək lazımdır ki, hazırda dünyanın siyasi mənzərəsini əks etdirən ideoloji cərəyanlar dərin tarixi köklərə malikdirlər. Bu cərəyanlar liberalizm, mühafizəkarlıq və sosialist ideologiyalarından ibarətdir. Həmin cərəyanların hər biri tarixi mənşəyə malik olmaqla yanaşı eyni zamanda yeni təzahür xüsusiyyətlərinə də malikdirlər. Bu özünü yeni liberalizm, yeni mühafizakarlıq, sosial – demokratiya kimi cərəyanlarda əks etdirir.

***Liberalizm*** (latın dilindən tərcümədə «azadlığa aid olan», «azad insana xas olan» deməkdir) özünü hələ qədim yunan filosofları Lukretsinin, Demokritin əsərlərində büruzə versə də onun cərəyan şəklinə düşməsi XVII-XVIII əsrlərin burjua inqilabları ilə bağlıdır. Xüsusən ingilis maarifçiləri Lokkun, Hobbsun və Smitin liberalizmin meydana gəlməsində xüsusi rolu olmuşdur. Liberalizm cərəyanın əsasında duran əsas məsələ dövlətin sosial - iqtisadi roluna münasibət bildirilməsidir. Bu münasibət bütün hallarda şəxsiyyətin hüquqları, azadlığı, azad rəqabət, xüsusi mülkiyyətçilik və s. məsələlərlə bağlıdır. Buna görə də liberalizmin başlıca prinsipləri vətəndaşların hüquq bərabərliyi, sosial, siyasi, dini, peşə qruplarının bir-birindən üstün olmaması, dövlətin içtimai müqaviləyə əsaslanmasıdır.

Siyasi ideologiya kimi liberalizmin əsasında isə şəxsiyyətin sinfi, qrup, dini amillərdən azadlığı, insanın ən ali varlıq kimi qiymətləndirilməsi, habelə fərdiyəçilik, humanizm və kosmopolitizm dayanır. Klassik liberalizmin mənəvi -əxlaqi dayaqlarını aşağıdakı prinsiplər təşkil edir:

1. İnsanın şəxsiyyətinin əsl sərvət olması və hamının bərabərliyi;
2. Fərdi iradənin müstəqilliyi;
3. İnsan rasional və xeyirxah varlıqdır;
4. İnsanın həyat, azadlıq, mülkiyyət kimi hüquqlarının özgələşdirilməsinin qeyri – mümkünlüyü;
5. Ümumi konsens əsasında yaranan dövlətin yeganə məqsədi insanın mənafelərini qorumaqdır;
6. Dövlətlə fərd arasında münasibətlər razılaşma əsasında olmalıdır;

7. Qanunun aliliyi hamı üçün eynidir;
8. Dövlətin fəaliyyətinin həcmi və sferaları məhdudlaşdırılmalıdır;
9. İnsanın şəxsi həyatına dövlətin müdaxiləsinə yol verilməməlidir.

Müasir dövrdə liberalizm cərəyanı bütün dünyada özünə çoxlu sayda tərəfdarlar qazanmışdır. Bunu belə bir fakt təsdiq edir ki, 1947-ci ildə Liberal İnternosional təşkil olunmuşdur. Bu İnternosionala ilk əvvəl 19 partiya daxil olduğu halda, az sonra buraya daha 13 partiya qoşuldu. Hazırda Avropa parlamentində liberal fraksiya üzvlərinin sayına görə beşinci yeri tutur.

Meydana gəldiyi gündən liberalizmi səciyyələndirən ən mühüm cəhət onun dövlətə tənqidi münasibət göstərməsidir. Qeyd etdiyimiz kimi siyasi sahədə qarşısına qoyduğu başlıca məqsəd isə fərdin, şəxsin həyatına dövlətin müdaxiləsinin dərəcəsini və miqyasını məhdudlaşdırmaqdan ibarətdir. Azadlıq, demokratiya və s. ümumbəşəri sərvətlərin qorunması da liberalların qarşısında duran ən mühüm vəzifələrdən biridir. Qeyd etmək lazımdır ki, XX əsrin ortalarına qədər liberallar öz fəaliyyətlərində üstünlüyü xüsusi mülkiyyət münasibətlərinin qurulmasına yönəldirdilər və demokratik dəyərlər diqqət mərkəzindən kənarda qalırdı.

XX əsrin ikinci yarısından etibarən meydana gələn *yeni liberalizm* cərəyanı öz qarşısına demokratiya, azad rəqabət, şəxsiyyətin hüquq və azadlıqları kimi sərvətlərin qorunması və inkişaf etdirilməsini qoydu. Yeni liberalizm həmçinin siyasi baxışlarda da dərin dəyişikliklər meydana gətirdi. Belə ki, müasir demokratiyanın əsas anlayışları olan siyasi iştirakçılıq, demokratik elita nəzəriyyələri liberalizm prinsiplərinə əsaslanır.

Siyasi ideologiya kimi liberalizm müasir dünyanın siyasi fikrinin inkişafında mühüm rol oynayır. Liberalizm ideyaları əsasında və onun ardıcılları tərəfindən bir sıra nəzəriyyələr və cərəyanlar meydana gəlmişdir. Dünyanın ictimai - siyasi proseslərinin təhlilinə və gələcək inkişaf prespektivlərinə həsr edilmiş «sosial qlobalizm», «konvergensiya», «informasiya cəmiyyəti» və s. doktrinalar buna misal ola bilər.

***Mühafizəkarlıq*** (Konsrvatizm latın dilindən tərcümədə «mühafizə etmək», «qoruyub saxlamaq» mənasını bildirir) müasir dünyanın sosial - siyasi inkişafına güclü təsir göstərən siyasi ideologiyadır. Bu ideologiyanı səciyyələndirən əsas cəhət dövlətin və ictimai həyatın tarixən qərarlaşdırmış olan formalarının qorunub saxlanmasına yönəlmiş olan mənəvi - hüquqi sərvətlərə üstünlük verməsidir. Bu termini ilk dəfə fransız yazıçısı Şatobrian irəli sürmüşdür. Böyük Fransa burjua inqilabından sonra keçmiş feodal - zadəgan qaydalarını ideallaşdıran və müdafiə edən qruplar meydana gəlmişdir. Həmin əhval - ruhiyyəni əks etdirən ideologiyalar məhz Şatobrian tərəfindən mühafizəkarlıq kimi formulə edilmişdir. Cəmiyyəti köklü surətdə yenidən qurmağı tələb edən liberalist ideologiyadan fərqli olaraq E.Berk, L.de Bonald, J.de Mestr və başqaları mövcud qaydaları qoruyub saxlamaq məqsədi güdən mühafizakarlıq ideologiyasının nəzəri əsaslarını işləyib hazırladılar. Siyasi ideologiya kimi mühafizakarlığın əsasında Berkin 1790-ci ildə nəşr olunmuş «Fransa inqilabi haqqında düşüncələr» əsəri dayanır. Bu əsərində o cəmiyyətin ictimai əsaslarının dəyişdirilməsi cəhdlərinin ictimai inkişaf qanunauyğunluqlarına zidd olması fikrini irəli sürür.

Mühafizəkarlıq ideologiyasının tərəfdarları belə bir müddəadan çıxış edirlər ki, hər bir yenilik, dəyişiklik özündən əvvəlki qaydalar üzərində, varislik əlaqəsi əsasında baş verməlidir. Cəmiyyətdə təbii surətdə qərarlaşmış olan sosial ierarxiya xüsusən də ailə, din, mülkiyyət kimi təsisatlar, habelə cəmiyyətin mənəvi normaları və prinsipləri ali dəyərlər olub ötəri xarakter daşıya, tez-tez dəyişilə bilməz.İctimai həyatda rast gəlinən ziddiyyətlər, əksliklər, onların yaratdığı sosial gərginliklər isə ənənəvi qaydalar əsasında aradan qaldırıla bilər.

Alman alimi Manheym köhnə qaydaların qorunub saxlanmasına yönəlmiş olan baxışları ***ənənəvilik***, bu baxışları qoruyan nəzəriyyəni isə ***təbii mühafizakarlıq*** adlandırır. Siyasi – ideoloji cərəyan kimi mühafizakarlıq məhz ənənəvilik, təbii mühafizakarlıq prinsipləri üzərində təşəkkül tapır. Lakin qeyd etmək lazımdır ki, mühafizakarlıq yalnız əvvəlki qaydaları qoruyub saxlamaq meyllərini xarakterizə etmir. Bu qaydalara ehkamçı – qoruyucu münasibət zəmnində mühafizakarlığın siyasi konsepsiyası və dəyərlər sistemi formalaşmışdır. Mühafizakarlığın siyasi konsepsiyası dövlətin ali prinsiplərinin insanlar tərəfindən tez-tez dəyişdirilməsini yol verilməz hesab edir. Bundan əlavə dövlətin fəaliyyətində qanunun hökmranlığının və mənəvi məsuliyyətin zəruriyyətinə əsaslanmaqla mühafizakarlıq ***eqalitarizm*** prinsiplərini, yəni səmərəli dövlət idarəçiliyi kimi demokratiyanı şübhə altına alır.

İdeya - siyasi konsepsiya kimi mühafizakarlığın əsasında güclü dövlət ideyası dayanır. Bu cərəyana görə ictimai həyatın bütün sahələrində vəziyyətin normal olması dövlətin tənzimedici funksiyasından asılıdır. Buna görə də demokratiya və azadlıq şəxsiyyətin sosial mövcudluğunun təzahürü deyil, onun dövlətə itaətinin təzahür formalarıdır. Lakin mühfizakarlar qatı ənənəviçiliyin problemlərinin həll edilməsi yolunda gücsüz olduğunu görərək öz baxışlarında müəyyən dəyişikliklər aparmağa məcbur oldular. Bu dəyişikliklər

mühfizakarlığın daxilində liberal əhval - ruhiyyənin artmasına və son nəticədə ***yeni mühafizakarlıq*** cərəyanın meydana gəlməsinə səbəb oldu.

Yeni mühafizəkarlıq üçün xarakterik olan əsas cəhət ailə, din, əxlaq və s. kimi ənənəvi mənəvi sərvətlərin yaradıcı əmək, şəxsiyyətin təkrar olunmazlığı, sosial sahənin sürətli inkişafI kimi amillərlə qovuşmasıdır. Sosial həyatın sürətlə inkişafı, ictimai əməyin təşkilində texniki amilin rolunun artması və s. bu kimi amillər yeni mühafizəkarlığı müasirləşməyə vadar edir. Bu müasirləşmə bir tərəfdən fərdin ictimai həyatda rolunun artırılmasına yönəlmişdirsə, digər tərəfdən dövlətin öz fəaliyyətində əxlaq prinsiplərinə əsaslanmasını, hər bir şəxsiyyətin inkişafı üçün qanun çərçivəsində zəruri şəraitin yaradılmasına yönəlmişdir. Dövlətlə vətəndaş arasında bu cür qarşılıqlı əlaqənin təşkili yalnız demokratik siyasi qurluş şəraitində mümkün olur. Lakin bir sıra politoloqlar , yeni mühafizəkarlıq cərəyanı ideoloqları böyük insan kütlələrinin idarəetmə prosesinə cəlb edilməsini məqbul hesab etmirlər. C.Bell, Z.Bjezinski və b. fikrincə böyük insan kütlələri ən yaxşı halda siyasətə yalnız münasibət bildirməklə kifayətlənməlidirlər. Cəmiyyətin siyasi cəhətdən idarə olunması işi ilə peşəkarlar məşğul olmalıdırlar.

XIX əsrin ortalarından etibarən Avropa ölkələrində meydana gəlib formalaşan ***sosialist ideologiyası*** XX əsrin sonlarına qədər bütün dünyada özünə çoxlu sayda tərəfdarlar toplamağa müvəffəq olmuşdu. Soialist ideologiyası öz mənşəyini T.Morun, T.Kampanellanın utopik baxışlarından, J.J.Russonun eqalitarist ideyalarından, A.Sen-Simonun, Ş.Furyenin, R.Ouenin əsərlərindən götürür. Ədalətli cəmiyyət haqqında baxışların sintezi kimi çıxış edən sosialist ideologiyası özündə iki əsas cərəyanı birləşdirir: ***elmi sosializm*** və ***sosial demokratiya.***

Elmi sosializm cərəyanının əsası XIX əsrin 40-50-ci illərindən etibarən K.Marks və F.Engels tərəfindən qoyulmuşdur. Onların çoxlu sayda ardıcılları tərəfindən təkmilləşdirilən bu ideologiya XX əsrin əvvəllərində inkişaf etmiş ölkələrin əksəriyyətində, xüsusən də Qərbi Avropada özünə böyük sayda tərəfdarlar toplamağa müvəffəq olmuşdu. Bunun məntiqi nəticəsi olaraq, 1917-ci ildə Rusiyada, 1945-ci ildən sonra isə bir sıra Şərqi Avropa və Asiya ölkələrində, Kubada sosialist tipli dövlətlər meydana gəldi.

XX əsrin tarixi məhz iki düşmən sistemin qarşılıqlı mübarizəsinə çevrildi. Sosialist ölkələrində siyasi ideologiya cəmiyyətin bütün həyat sferalarını nəzarət altında saxlayaraq onlara böyük təsir qüvvəsinə malik idi. Cəmiyyətin inkişafının bütün aspektləri dövlət aparatı, sosialist ideologiyası tərəfindən tənzimlənirdi. Şəxsiyyətin, fərdlərin rolununun heçə yendiyi şəraitdə görəkəmli liderlərin şəxsiyyətinə pərəstiş kimi zərərli meyl meydana gəldi. Bu meyl demək olar ki, bütün sosialist ölkələri üçün səciyyəvidir. Rusiyada leninizm və stalinizm, Çində maoizm, Yuqoslaviyada titoizm buna misal ola bilər.

Siyasi cərəyan kimi marksizmə qarşı mübarizə aparan K.Kautskinin, A.Bebelin, E.Bernşteynin baxışları soialist ideologiyası daxilində yeni bir cərəyanın – ***sosial - demokratiyanın*** əsasını qoydu. Soial - demokratiya tərəfdarları marksistlərdən fərqli olaraq, əsas dəyərlər kimi üstünlüyü sosial barışığa, sülhə və əməkdaşlığa verirlər. Bu cərəyan bütünlükdə əsas diqqəti fərdlərin azadlıq və təşəbbüskalığının inkişaf etdirilməsinə, bu əsasda isə ədalətli cəmiyyət qurulmasına yönəldir. Cəmiyyətin dəyişdirilməsində əsas yolu inqilab hesab edən marksistlərdən fərqli olaraq, sosial – demokratlar yeganə məqbul yol kimi sosial islahatları qəbul edirlər. E.Bernşteynin «Son məqsəd heç nədir, hərəkət isə hər şeydir «fikri sosial demokratiyanın təkamulçülük ideologiyasını çox dolğun əks etdirir. Marksitlərin sinfi mübarizə ideologiyasına qarşı sosial demokratlar «sosial partnyorluq» ideyasını irəli sürürlər.

XX əsrin 90-cı illərinin məlumatına görə dünyanın 80-dən çox ölkəsində sosial-demokrat partiyaları fəaliyyət göstərir. Bu partiyalar birləşərək Sosialist İnternasionalını təşkil etmişlər. Müasir sosial-demokratiya hərəkatının əsasında vaxtilə K.Kautski tərəfindən irəli sürülən «demokratik sosializm» ideologiyası dayanır. Bu ideologiyanın məzmununu təşkil edən əsas müddəalar və prinsiplər bunlardır:

- cəmiyyətin iqtisadi həyatının dövlət tərəfindən tənzimlənməsinə yol verilməsi və qarışıq iqtisadiyyatın üstünlüyü;
- bir sıra iri sənaye müəssisələrinin milliləşdirilməsi;
- dövlətin sosial funksiyalarının qüclәndirilməsi;
- cəmiyyət həyatının fərdi və kollektiv başlanğıcları arasında optimal variantın tapılması;
- cəmiyyət həyatının müxtəlif sferalarının idarə olunmasında vətəndaşlara geniş səlahiyyətlər verilməsi.

Müasir dünyanın siyasi mənzərəsini müəyyən edən ideologiyalar içərisində _ da mühüm yer tutur. XX əsrin birinci yarısında baş verən iki dünya müharibəsi nəticəsində bir sıra xalqlar böyük tarixi dövrlərdən sonra yenidən dövlət müstəqilliyi əldə etdilər. Bunun nəticəsində milli şüurun, psixologiyanın, mənəvi özünüdərketmənin oyanması prosesi baş verdi. Lakin müsbət meyllərlə yanaşı bu prosesdə mənfi meyllər də meydana gəldi. Bu öz əksini bir sıra ölkələrdə millətçi, şovinist rejimlərin yaranmasında tapdı.

Dünyanın bir sıra xalqları kimi, Azərbaycan xalqı da XX əsrdə iki dəfə dövlət müstəqilliyi əldə etmişdir. 1918-ci ildə yaranmış ilk demokratik respublika məhz millətçi, şovinist ideologiyanı əldə rəhbər tutan dövlətlərin siyasəti nəticəsində süquta uğradı. Lakin 70 il ərzində xalqın yaddaşından silinmədi. Əsrin son on illiyi soialist ideologiyasının tənəzzülü, sosialist tipli dövlətlərin tarixin səhnəsindən getməsi ilə əlamətdar oldu. Bunun nəticəsində xalqımız yenidən öz müstəqilliyinə nail oldu. Demokratik, hüquqi, milli dövlət quruculuğu yoluna qədəm qoyan ölkəmiz bəşəri sərvətlərə üstünlük verir. Bunu ölkəmizin bütün beynəlxalq təşkilatlara üzv qəbul olunması sübut edir.

Müasir dünyanın siyasi mənzərəsinin müəyyən edilməsində yuxarıda qeyd olunan əsas ideoloji nəzəriyyələr və cərəyənlarla yanaşı regional, milli xarakter daşıyan çoxlu sayda cərəyanların da mühüm rolu vardır. Hər bir dövlətin, xalqın inkişafı milli ideologiyanın müəyyən edilməsi ilə bağlıdır. Milli ideologiyanın yaradılması porsesi çox çətin və uzun sürən bir prosesdir. Çox zaman bu ideologiyanın yaranması hətta mümkün olmur. İdeoloqlar, politoloqlar, ictimai xadimlər tərəfindən irəli sürülən müxtəlif fikirlər, tezislər, baxışlar xeyli dərəcədə şüarçı xarakter daşıyır. Buna görə də cəmiyyətin qarşısında duran məqsəd və vəzifələr nə qədər aydın olsa da, onların ümumləşdirilərək bitkin baxışlar sisteminə salınması, ideologiyaya çevrilməsi baş vermir. Bunu biz hazırki Azərbaycan cəmiyyətində də müşahidə edirik. Demokratiyanın ən önəmli nümunəsi kimi Azərbaycanda çoxpartiyalı siyasi sistemin təşəkkülü göstərilə bilər. Bu partiyaların hər biri öz fəaliyyət proqramına malikdir. Həmin prqramların təhlili göstərir ki, onların arasında ciddi fərqlər yoxdur. Bütün proqramlarda əsas məqsəd kimi qarşıya dövlət müstəqilliyinin qorunub saxlanması və inkişaf etdirilməsi, milli-mənəvi dəyərlərə üstünlük verilməsi və s. vəzifələr qoyulur. Belə olduqda qarşıya məntiqi bir sual çıxır: əgər partiyaların proqramlarında prinsipial fərqlər yoxdursa, onların çoxluğu nədən irəli gəlir? Bunun izahı isə çox sadədir. Cəmiyyətin müxtəlif təbəqələrinin mənafelərinin təmsilçisi kimi yaranan, formalaşan və fəaliyyət göstərən siyasi partiyalar öz qarşılarına əsas məqsəd kimi milli ideologiyanın formalaşdırılması fəzifəsini deyil, siyasi hakimiyyət uğrunda mübarizəni qoyurlar.

Cəmiyyətin siyasi həyatında siyasi ideologiyaların rolu və əhəmiyyəti qaldıqca, onların təzahür formaları və xüsusiyyətləri də qalacaqdır. Siyasi ideologiyaların palitrası nə qədər rəngarənq olsa, insanların seçimi də bir o qədər demokratik olacaqdır.

13-cü MÖVZU
# SİYASİ SOSİALLAŞMA

## *1. Şəxsiyyətin siyasi sosiallaşması anlayışı və ona təsir edən amillər*

XIX-XX əsrlərdə iqtisadiyyat, elm-texnika və KİV-in sürətlə inkişafı geniş əhali kütləsinin siyasi həyata cəlb olunmasına və onların siyasi proseslərə təsir səviyyəsinin yüksəlməsinə səbəb oldu ki, bu da öz növbəsində şəxsiyyət və siyasət probleminin ön plana çəkilməsinə gətirib çıxardı.

İnsanların sosial-siyasi fəallığı və məlumatlılığı səviyyəsinin yüksəlməsi, geniş əhali kütləsinin siyasi sferaya axını, yeni siyasi davranış təcrübəsinin və kütləvi siyasi şüurun formalaşması fərdin siyasi sferaya qoşulması probleminin nəzəri cəhətdən işlənib hazırlanmasını tələb edirdi ki, bütün bunların nəticəsində politologiya elminin yeni bir qolu, «siyasi sosiallaşma» nəzəriyyəsi meydana gəldi.

Siyasi sosiallaşma terminini açıqlamamışdan əvvəl «sosiallaşma nədir» sualına cavab verməklazımdır.

Geniş mənada, sosiallaşma tarixən qərarlaşmış ənənəvi və sosial cəhətdən şərtlənmiş amillər əsasında fərdin «ictimailəşdirilməsini» nəzərdə tutur. Politoloqlar bu zaman aşağıdakı əsas şərtləri ayırırlar: 1. Tarixi prosesin maddi nəticələri (burada insan fəaliyyət subyekti kimi çıxış edir); 2. Əvvəlki sosial münasibətlər (burada insan əlaqələrin subyekti kimi çıxış edir); 3. İctimai şüur sistemi (burada insan sərvət orientasiyalarını və müvafiq sosial birliyin məqsədlərini mənimsəyir).

Nisbətən dar mənada, sosiallaşma dedikdə, şəxsiyyətin sosial təşəkkülü və inkişafı, onun siyasi şüuru və siyasi davranışının formalaşması prosesi başa düşülür. Onun gedişində cəmiyyətin sosial, iqtisadi və siyasi şəraiti ilə fərdin qarşılıqlı təsiri baş verir, o sosial struktura inteqrasiya olunur. Bu inteqrasiya koqnitiv (idraki), aksioloji (sərvət) və davranış istiqamətlərində həyata keçirilir.

Siyasi sistem şəxsiyyəti öz orbitinə cəlb etdiyi, öz tərəfdarlarını səfərbər etdiyi, onlara sadə siyasi funksiyaları, nəyi bilmək lazım olduğunu öyrətməyə başladığı andan onun siyasi sosiallaşması başlanır.

Müasir dövrdə tədqiqatçılar arasında «siyasi sosiallaşma» termininə dair müxtəlif fikirlər mövcuddur. «Siyasi sosiallaşma» anlayışını ilk dəfə Q. Xaymen 1959-cu ildə çapdan çıxmış «Siyasi sosiallaşma» adlı əsərində irəli sürmüşdür. «Siyasi sosiallaşma probleminin tədqiqində Y. Dauson və K.Priuitin 1969-cu ildə çapdan çıxmış «Siyasi sosiallaşma» əsərinin də xüsusi rolu olmuşdur.

D.İstona görə siyasi sosiallaşma insana siyasət sahəsində yerinə yetirməli olduğu rolun öyrədilməsidir. Siyasi sosiallaşma vasitəsilə siyasi sistemin üzvləri siyasi mühitdə fəaliyyət göstərə bilmək üçün zəruri olan üç mühüm keyfiyyət qazanır: 1) Siyasi proseslər, siyasi liderlərin fəaliyyəti haqqında zəruri biliklər; 2) Siyasi sistemin inkişaf istiqamətlərini göstərən və ən ümumi siyasi məqsəd kimi qələmə verilən siyasi dəyərlər; 3) Fərdin siyasi obyektlərə münasibətdə seçdiyi həyat mövqeyi (məsələn siyasi obyektlərə inam və rəğbət, inamsızlıq və ya antipatiya).

Siyasi elmin M.Xabermes və K.Lumanın təmsil etdikləri digər məktəbi siyasi sosiallaşmanı insan tərəfindən yeni dəyərlərin mənimsənilməsi kimi nəzərdən keçirir. Bu konsepsiyanın əsasını sosiallaşma prosesinin şəxsiyyətdaxili, psixoloji mexanizminin təhlili təşkil edir. Fərdin daxil olduğu sosial mühitin siyasi və digər amilləri onun davranışının müvafiq istiqamətdə köklənməsini, dəyərlər sisteminin yeniləşməsini şərtləndirir. Şəxsiyyətin siyasi həyata daxil olması onun davranışının sosial-psixoloji əsaslarının yeni dəyərlərlə tamamlanması nəticəsi kimi təzahür edir.

E. Erikson və E. Fromm isə siyasi sosiallaşmanı psixoanaliz nöqteyi-nəzərindən açıqlamışlar. Onların fikrincə siyasi fəaliyyətdə təhtəlşüur ünsürləri mühüm rol oynayır və buna görə də siyasi sosiallaşma insanın hiss və təsəvvürlərinin gizli şəkildə siyasiləşməsi prosesi kimi meydana çıxır.

C.Rismanın «Kütlə içərisində tülkü» əsərində şəxsiyyətin siyasi həyata qoşulması «siyasi maraq» və «siyasi apatiya» mexanizmlərinin təsiri sferasına aid edilən hadisə sayılır. «Siyasi maraq» fərdin siyasi proseslərdə iştirakını şərtləndirici, «siyasi apatiya» isə onun siyasətə etinasızlığı halını ifadə edir.

Yuxarıda adları çəkilən alimlərdən başqa siyasi sosiallaşdırma termininə Qess, Torni, Siqel və s.tədqiqatçıların əsərlərində də rast gəlmək olar. Siqelin fikrincə siyasi sosiallaşma elə bir bilik öyrənmə prosesidir ki, bu prosesin nəticəsində hal-hazırki cəmiyyətlə uzlaşan, uyğunlaşan davranış sistemi nəsildən-nəslə ötürülür. Siyasi sosiallaşma nəticəsində fərd siyasi sistemlə qarşılıqlı əlaqədə olur və nəticədə öz sosial-siyasi orientasiyasını müəyyən etmiş olur.

Siyasi sosiallaşmaya dair müxtəlif fikirləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, siyasi sosiallaşma fərdin siyasi sferaya daxil olması və onun mövcud sosial-siyasi şəraitə inteqrasiya və adaptasiyası, mədəni dəyərlərin, siyasi orientasiyaların, mövcud cəmiyyətdə qəbul olunmuş siyasi davranış normalarının

mənimsənilməsi deməkdir.

Siyasi sosiallaşma geniş və dar mənada işlədilir. Geniş mənada siyasi sosiallaşma cəmiyyətdəki siyasi mədəniyyətin nəsildən-nəsilə ötürülməsinin metod, üsul və vasitələrinin öyrənilməsini nəzərdə tutur.

Dar mənada siyasi sosiallaşma dedikdə fərdin siyasi sistemdə mövcud olan siyasi normaları, siyasi maraq və münasibətləri mənimsəməsi nəzərdə tutulur.

Siyasi sosiallaşma anlayışı «şəxsiyyətin siyasi rakursdan formalaşması» termini ilə çox sıx bağlıdır. Ümumiyyətlə, siyasi sosiallaşma prosesi ümummədəni sosiallaşma çərçivəsi daxilində inkişaf edir. O.N. Qumençuk siyasi sosiallaşmanın istiqamətini bir-birindən fərqləndirir: 1. Rəsmi (normaya salınmış); 2. Kortəbii - fərdlərin müxtəlif həyat şəraiti amilləri təsiri altında yaranır.

Siyasi sosiallaşmanın mürəkkəbliyi onun ilkin strukturu ilə şərtlənir. Belə ki, bir tərəfdən onun gedişində siyasi normalar və sərvətlər birbaşa öyrədilir, siyasi informasiya birbaşa verilir. Digər tərəfdən isə həmin proses latent formada gedir, bu zaman xüsusi məqsəd güdülmədən fərdin siyasi davranışına təsir göstərilir, məsələn, ailədə formalaşmış təcrübə sonralar da fərdin şüuruna və davranışına təsir göstərməkdə davam edir. Bundan əlavə siyasi sosiallaşmanın əsasən 2 forması fərqləndirilir: birbaşa və dolayı.

***Birbaşa*** **-** siyasi sosiallaşmada fərd tərəfindən mənimsənilən orientasiyalar sırf siyasi xarakter daşıyır. Məsələn: dövlət və siyasi düzüm, daxili və xarici siyasətlə bağlı təsəvvürlər.

***Dolayı*** - Fərdin birbaşa siyasi xarakterli olmayan, lakin onun siyasi davranışına təsir edən orientasiyalarını nəzərdə tutur (mənəvi-etik, qrup, dini və s.).

Əlbəttə ki, hər iki tip bir-başa sıx əlaqəlidir və bir-birini tamamlayır.

Siyasi sosiallaşma prosesinin xarakterinə, formalaşmasına və istiqamətinə müxtəlif amillər; ailə, məktəb, gənclər təşkilatları, siyasi partiyalar, KİV, siyasi mədəniyyət, siyasi sistemdə mövcud olan siyasi rejim və s. təsir edir.

***Ailə*** - Adətən daha davamlı siyasi dəyər, normalar ailədəki əhval-ruhiyyənin təsiri nəticəsində formalaşır. Ailədə əldə edilmiş baxışlar və dəyərlər gələcəkdə əldə ediləcək sosial təcrübə əsasında daha da möhkəmlənə və yaxud dəyişikliyə uğraya bilər. Ailə həyatıyla bağlı bəzi amilləri nəzərdən keçirək:

- fərdi ailə dəyərlərinin ötürülməsi;
- şəxsiyyətin formalaşmasında və qeyri-siyasi xarakterli üstünlüklərin rolu;
- ailə üzvlərinin sosial - iqtisadi, dini və siyasi münasibətlər qovşağına daxil olmasına şərait yaratmaq.

Siyasi orientasiyanın sosial bazasında baş verən prinsipiallıq, dəyişikliklər, ailə münasibəti modelində də dəyişikliklər edilməsini tələb edir. Ailə institutunun ictimai rəyin və fərdi davranışın lazımi normaları ilə uzlaşdırıla bilməsi üçün belə islahatlar vacib xarakter daşıyır.

***Məktəb*** - ABŞ, Böyük Britaniya, Fransa, hətta keçmiş SSRİ məkanında cəmiyyətdə siyasi tərbiyə işi əsasən məktəbdə həyata keçirilir.

Təhsil proqramının siyasi aspektlərinin ümumi məqsədi vətəndaş tərbiyəsinin müxtəlif metodları vasitəsilə vicdanlı vətəndaş formalaşdırmaqdan ibarətdir.

***Gənclər təşkilatı*** - Adətən bu cür təşkilatlar siyasi dəyərlərin, norma və informasiyaların əhalinin gənc təbəqəsi arasında geniş yayılmasına şərait yaradır (dəyərlər - özünəhörmət, dinə hörmət, vətəndaşlıq borcu, ədəb-ərkan və s.).

***Siyasi partiyalar*** **-** Siyasi partiyalar vətəndaşların siyasi bilik səviyyəsinin artırılmasına geniş şərait yaradır.

***KİV*** **-** Siyasi sosiallaşma strukturunda fərdin şəxsiyyət kimi formalaşmasına geniş təsir imkanına malik olan informasiya amilinə geniş yer verilir. Siyasi ədəbiyyatlarda şəxsiyyət və ona təsir edən xarici informasiya axını çox geniş öyrənilmiş və əsasən fərdin şəxsiyyət kimi formalaşmasında kommunikasiya kanallarının müsbət rolu qabardılmışdır. Lakin bununla yanaşı KİV-in neqativ təsirini də nəzərdən qaçırmaq olmaz, çünki bu sosial-siyasi cəhətdən çox ləng inkişaf edən infantil şəxsiyyətin yaranmasına gətirib çıxarır.

***Siyasi mədəniyyət*** **-** siyasi sosiallaşmanın mühüm əhəmiyyət kəsb edən amillərindən biri də siyasi mədəniyyətdir. Çünki siyasi mədəniyyət nəsillər boyu formalaşan siyasi ənənələri, siyasi praktikanın qüvvədə olan normalarını, ictimai-siyasi təsisatların və s. qarşılıqlı münasibətlərinə aid olan ideyaları, konsepsiyaları və inamları, insanların mövcud ictimai sistemə, onun təsisatlarına, orada mövcud olan «oyun qaydalarına» münasibətini müəyyən edən prinsip və orientasiyaları əhatə edir.

Siyasi sosiallaşmanın xarakterinə təsir edən mühüm amillərdən biri də siyasi rejimdir. Cəmiyyətdə mövcud olan siyasi rejim tipi həmin cəmiyyətdə formalaşan şəxsiyyətin siyasi sosiallaşma amillərinin istiqaməti, xarakteri və məzmununa əhəmiyyətli dərəcədə təsir edir. Məsələn, demokratik və totalitar cəmiy-

yətlərdəki siyasi sosiallaşma prosesini müqayisə edək. Demokratik rejimli cəmiyyətlərdə siyasi sosiallaşma prosesinin əsasını aşağıdakılar təşkil edir:

- fərdin sivil siyasi normalara, dəyərlərə, siyasi mədəniyyət və təcrübəyə fəal müdaxiləsi;
- şəxsiyyətin siyasi sosiallaşma vasitəsi kimi düşünülmüş şüurlu siyasi fəaliyyəti;
- siyasi dözümlülük, siyasi dialoq aparmaq səriştəsi, siyasi kompromis və konsensus yaratmaq təcrübəsinin formalaşdırılması;
- siyasi sosiallaşmanın açıq deyil, latent formada aparılması;
- birbaşa siyasi xarakterə malik olmayan, lakin insanların birgə yaşayışının əsasını təşkil edən mənəvi dəyərlərin (ailə, əmək, din) siyasi sosiallaşmanın başlıca vasitələri olması.

Demokratik xarakterli cəmiyyətlərdə siyasi sosiallaşma prosesi nəticəsində elə bir siyasi mədəniyyət formalaşır ki, burada vətəndaşların siyasətdə iştirakı, siyasi proseslərə qoşulması və bu proseslərə təsir imkanı konservativ dəyərlərə (ənənələrə) bağlılıq sayəsində tarazlaşdırılır.

Totalitar rejimli cəmiyyətlərdə siyasi sosiallaşma prosesi cəmiyyətin bütövlülüyünə, vəhdətinə yönəldilmişdir ki, bu da fərdin birbaşa iradəsinə təsir vasitəsilə əldə edilir.

Totalitar cəmiyyətlərdə siyasi sosiallaşma strategiyasının əsas ideyasını dünyada sosial cəhətdən harmonik bir cəmiyyət yaratmaq təşkil edir. Bu isə aşağıdakı amillərin köməyi ilə əldə oluna bilər:

- başçıya hədsiz inam;
- şəxsi maraqların dövlət və ya ümumi maraqlara tabe edilməsi.

Belə şəraitdə siyasi sosiallaşmanın lazımi istiqamətini təmin etmək üçün fərdə planlı şəkildə ideya-siyasi təsir sistemi yaradılması vacibdir. Planlı şəkildə təşkil edilmiş siyasi sosiallaşma prosesində istənilən çatışmamazlıq latent sosiallaşma vasitələrinə şamil edilir.

Totalitar cəmiyyətlərdəki siyasi sosiallaşma prosesinin əsas xüsusiyyətləri bunlardır:

- Açıq siyasi sosiallaşma;
- Tam siyasi məqsədəyönümlülük;
- Şəxsiyyətə mənəvi və fiziki təsir;
- Bütövlükdə cəmiyyətə və hər bir fərdin fəaliyyətinə kütləvi nəzarət.

Totalitar cəmiyyətlərdə adətən ailə, din və dini təşkilatların siyasi sosiallaşdırıcı təsirini hər vasitəylə məhdudlaşdarmağa çalışırlar (bu muxtariyyət ünsürü kimi qiymətləndirilir). Burada gənc nəslin siyasi sosiallaşmasına daha böyük diqqət yetirilir ki, bunun üçün dövlət təhsil sistemindən, gənclər təşkilatı və s. geniş istifadə edilir.

Belə siyasi sosiallaşma nəticəsində konformist və paternalist orientasiyalı insan kütləsi yaranır. Bunun da nəticəsində fərdin siyasi sferadan kənarlaşdırılması baş verir və o özünü siyasi subyekt kimi hiss etmir. Belə şəraitdə şəxsiyyətin real siyasi sosiallaşması rəsmi siyasi sosiallaşma strategiyası əsasında deyil, kortəbii formada sosial-siyasi amillərin təsiri altında formalaşır.

Siyasi sosiallaşmaya təsir edən amillər içərisində siyasi sistemin yaratdığı siyasi təsisatlar xüsusi əhəmiyyət kəsb edir. Bunlar aşağıdakılardır:

- ***Təhsil müəssisələri*** - siyasi proseslərin bilavasitə subyektləri kimi insanın yeni keyfiyyət halına qədəm qoyması orta məktəbin yuxarı siniflərinə və ali məktəb illərinə təsadüf edir. Buna görə də, siyasi sosiallaşma prosesində bu amilin üzərinə böyük məsuliyyət düşür.
- ***Sosial normalar*** - 1. Cəmiyyət üçün gərəkli davranış formalarının müəyyənləşdirilməsi; 2. Fərdi davranışın ictimai məqsədlərə uyğun olması və ya onlara zidd gəlməsi probleminin aydınlaşdırılması. Bu mənada sosial normalar şəxsiyyətin sosiallaşmasının vacib meyarlarından biri kimi qiymətləndirilir.
- ***Hüquqi normaların*** - fərdin siyasi sosiallaşmasına təsiri müxtəlif formalarda ola bilər. Bunlar aşağıdakılardır: a) şəxsiyyətin hüquqi statusunun müəyyən edilməsi; b) şəxsiyyətin hüquq və azadlıqları ilə məsuliyyətinin nisbətinin müəyyən edilməsi; c) qəbul edilmiş normalardan kənarlaşmalara görə ictimai sanksiyanın dərəcəsinin müəyyənləşdirilsməsi.
- ***İncəsənət və KİV*** - bunların köməyi ilə zəruri informasiya təminatı yaradılır, həm də bu və ya digər davranış norması, konkret iştirakçılıq tipi formalaşdırılır. Bu vasitələr fərdin siyasi mövqeyinin formalaşmasında siyasi həyata qovuşmasında xüsusi rol oynayır.

Siyasi sosiallaşma prosesində bloklar sistemi yaranır ki, onlar aşağıdakılardır: a) siyasi tələb və maraqlar; b) siyasi mövqe və orientasiyalar; c) siyasi sferada davranış strategiyası; d) sosial-siyasi fəallıq. Siyasi sosiallaşmada a və b motivləşdiriçi, c təşkiledici, d isə realizəedici kimi qiymətləndirilir. Bu sistemlərdən hər hansı birində ciddi nöqsan olarsa şəxsiyyətin siyasi sosiallaşması bütöv, tam ola bilməz.

Bunu nəzərə alaraq qeyd etmək olar ki, siyasi sosiallaşma özündə şəxsiyyətin siyasi özünüdərkini, öz siyasi maraqlarını müəyyən siyasi maraq, proqram və aksiyaların daşıyıcısı olan siyasi qüvvələrlə uzlaşdırılması prosesini əks etdirir.

### 2. *Siyasi sosiallaşma prosesinin əsas mərhələləri, funksiyaları və tipologiyası*

Politoloji ədəbiyyatda siyasi sosiallaşmanın bir neçə mərhələsi fərqləndirilir:

1) Siyasiləşmə, yəni siyasi həyat haqqında ilkin məlumatların qavranılması - (erkən yaşlarda) həmin məlumatların mənbəyi valideynlər və onların siyasi proseslər haqqında rəyi və hadisələrə münasibətidir.

2) Siyasətin «fərdiləşdirilməsi» - hakimiyyətdə olan həlledici fiqurlar (prezident, liderlər, baş nazir və s.) fərd üçün siyasi sistemlə əlaqə yaratma vasitəsinə cevrilir.

3) İdeallaşdırma - siyasi fiqurun ideallaşdırılması və bunun əsasında siyasi sistemə emosional münasibətin formalaşması.

4) Təsisatlanma - siyasi həyat haqqında müstəqil təsəvvürlərin formalaşması, qiymətləndirilməsi.

5) Fərdin dərk edilmiş tələbatları, dəyərlər sistemi ilə siyasi normalar arasında qarşılıqlı əlaqənin formalaşması.

Siyasi sosiallaşmanın aşağıdakı funksiyaları vardır:

1) Şəxsiyyətin siyasi sistemin demokratik prinsipləri əsasında fəaliyyət göstərməsi.

2) Dəyərlər orientasiyası - şəxsiyyətin siyasi sferanın ədalət, bərabərlik, azadlığın hüquqi qarantı və s. kimi prinsiplərini özünə daxil edən konseptual əsasını qəbul etməsi. Başqa sözlə desək bu funksiya şəxsiyyətin cəmiyyətin mənəvi dəyərlərini qəbul etməsi kimi vacib aspektlə sıx bağlıdır.

3) İnstrumental - (praqmatik) şəxsiyyətin tələbləri, onun sosial və siyasi fəallığı formaları, siyasi həyatda iştirakı, öz hüquqlarından istifadə imkanı, mürəkkəb sosial-siyasi şəraitlərdə orientasiyası ilə bağlıdır.

Siyasi dəyərlərin və mədəniyyətin mənimsənilməsi üsul və formalarında mövcud olan müxtəliflik siyasi sosiallaşmanın bir necə tipini fərqləndirməyə əsas verir.

Politoloji ədəbiyyatda siyasi sosiallaşmanın aşağıdakı əsas tipləri fərqləndirilir:

1) Harmonik - fərdin və hakimiyyət təsisatlarının normal münasibətlərini, fərdin nizam-intizama, hüquqi normalara, dövlətə rasional və səmimi münasibətini, habelə özünün məsuliyyətini dərk etdiyini ifadə edir. Sosiallaşma amilləri kimi ailə, həmyaşıdlar çıxış edir.

2) Hegemon - şəxsin öz mənafeyinə xidmət göstərməyən bütün sosial-siyasi sistemlərə neqativ münasibətinə əsaslanır. Əsas sosiallaşma amili kimi KİV çıxış edir.

3) Plyuralist - vətəndaşın öz siyasi maraqları haqqında təsəvvür yaratmaq və bu maraqların realizə edilməsinə həvəs yaratmaq, başqa sözlə desək yüksək vətəndaş fəallığını təmin etmək.

4) Münaqişəli tip - qruplararası mübarizə və bir-biri ilə bağlı mənafelərin qarşı-qarşıya qoyulması əsasında meydana gəlir. Bu tip siyasi sosiallaşmanın nəticəsində şəxsiyyətin müəyyən qrupa loyal münasibəti formalaşır və rəqiblərlə mübarizədə şəxsiyyət bu qrupu yüksək fəallığla müdafiə edir (bütün hallarda).

Respublikamızın müstəqilliyi bərpa edildikdən sonra şəxsiyyətin siyasi sosiallaşması prosesi iki başlıca istiqamətdə gedir:

1) **Makromühit səviyyədə** - bütövlükdə siyasi çərçivədə o, siyasətə cəlb olunur. (Məsələn; torpaqlarımızın 20%-nin işğal edilməsi ilə bağlı respublikamızı bürümüş ümumxalq hərəkatı).

2) ***Mikromühit səviyyəsində*** **-** ayrı-ayrı təşkilatlar və hərəkatların şəxsiyyətin siyasi sosiallaşma amili kimi çıxış etməsi (müxtəlif siyasi partiyalar və ictimai təşkilatlar).

Bütün yuxarıda qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, siyasi sosiallaşma siyasi həyata girişdir və sosial mühitin təsiri altında baş verir: bura siyasi və qeyri-siyasi amillər daxil olur. Xüsusi mexanizmlər vasitəsilə həmin amillər şəxsiyyətin davranışını tənzim və ona nəzarət edir. Bu amillər sosial, sosial-psixoloji və şəxsiyyətdaxili səviyyələrdə fəaliyyət göstərirlər. Şəxsiyyətin sosiallaşması təhsil, tərbiyə və təlim proseslərinin üzvi sürətdə birləşdirilməsini nəzərdə tutur. Onun gedişində tədricən dünyagörüşü formalaşır, fərd onu əhatə edən sosial-siyasi mühit haqqında suallara cavab tapır.

### *3. Siyasi proseslərdə iştirakcılıq şəxsiyyətin sosial keyfiyyətlərinin göstəricisidir*

Şəxsiyyətin siyasi sosiallaşmasının praktik cəhəti onun siyasi prosesdə iştiraka cəlb olunmasıdır. Siyasi iştirakcılıq siyasi sistemin fəaliyyət qabiliyyətini sübuta yetirən mühüm amil sayılır. Dövlət kimi təşkil olunmuş hər bir cəmiyyətdə vətəndaşların siyasətə cəlb olunmasının spesifik üsul və formaları qərarlaşır.

Siyasi iştirakçılığın ümumsosioloji əsasları onun sosial münasibətlərin subyekti kimi rolunda ifadə olunur. Sosial həyatda hər bir fərd obyektiv şərtlənmiş sosial rola malikdir. Şəxsiyyətin sosial münasibətlərin subyekti kimi üzərinə düşən rollarının məcmusu onun ***sosial statusunu*** müəyyənləşdirir. Sosial mühiti təşkil edən sosial münasibətlərin zəruri tərəfi, subyekti kimi fərd özünün sosial mahiyyətini ifadə etmək çərçivəsində müxtəlif «rollara girir». Şəxsiyyətin özünümüdafiəsi sosial həyatın ayrı-ayrı sahələrində cərəyan edən müxtəlif situasiyalarda onun konkret funksiyalar yerinə yetirməsi vasitəsilə baş verir. Bu minvalla şəxsiyyətin «siyasi rola girməsi», siyasi proseslərdə iştirakı onun sosial mövcudluğunun ifadə forması kimi meydana çıxır.

Şəxsiyyətin siyasi iştirakçılığına politoloqlar arasında münasibət birmənalı deyil. Bir qrup tədqiqatçılar siyasi iştirakçılığı cəmiyyətin bütün üzvlərinin siyasi həyatda fəal iştirakı kimi dərk edir. Bu nöqteyi-nəzər marksist baxışları ifadə edən politoloqlar tərəfindən fəal şəkildə müdafiə olunur. Müasir şəraitdə L.Qudmen, T.Xeyden kimi yeni solçular, habelə partisipar demokratiya nəzəriyyəsinin ardıcılları əhalinin qoşulmasını siyasi iştirakçılığın müəyyənedici əlaməti hesab edirlər.

Bununla yanaşı, siyasi iştirakçılığı siyasi qərarların qəbul edilməsi kimi dərk edən antik yunan demokratiyasından başlanmış müasir dövrün demokratik ənənələrinə qədər çoxminillik tarixi təcrübə sübuta yetirmişdir ki, bu cür qavranılan siyasi iştirakçılıq nəinki səmərəli, həm də sadəcə olaraq yerinə yetirilməsi baxımından mümkün ola bilməz. Adi insanların dövlətin idarə edilməsi işlərinə yüksək maraq göstərməsi, onların siyasi fəaliyyətə xüsusi diqqət və vaxt ayırması cəmiyyətin lüzumsuz siyasiləşməsi, insanların həyatını təmin edən digər fəaliyyət növlərinə diqqətin azalması kimi zərərli meylin kök salması təhlükəsi yarada bilər. Politoloqların başqa bir qrupu bu müddəadan çıxış edərək sübuta yetirməyə çalışırlar ki, vətəndaşların siyasi həyatda iştirakının yeganə mümkün forması liderlərə səs vermək və diskussiyalarda iştirak etməkdir.

Siyasi iştirakçılıq hadisəsini təhlil edərkən onun təzahür formalarını, miqyaslarını, intensivlik dərəcəsini, habelə onu şərtləndirən konkret şəraiti və amillər sistemini nəzərə almaq tələb olunur. Liberal demokratiya şəraitində siyasi iştirakçılıq kollektiv demokratiya şəraitindəki siyasi iştirakçılıqdan fərqlənir. Eynilə də demokratik və totalitar cəmiyyətlərdə əhalinin siyasi proseslərə cəlb olunması miqyasları, üsulları müxtəlif parametrlərlə ölçülür.

Şəxsiyyətin siyasi iştirakçılığının forması və məzmunu bir yandan siyasi sistemin təbiəti ilə şərtlənmiş olduğu halda, digər yandan fərdin daxili tələbatı və dəyərlər sisteminin yönümü ilə əlaqədardır.

Siyasi sistemin təbiəti ilə siyasi iştirakçılığın əlaqəsi, hər şeydən əvvəl, onda təzahür edir ki, hakimiyyət insanların siyasi proseslərə cəlb olunmasını nə dərəcədə məqbul hesab edir. Vətəndaşların siyasi iştirakçılığını siyasi sistemin səmərəli fəaliyyəti üçün vacib şərt hesab edən cəmiyyətlərdə siyasi iştirakçılıq üçün zəruri sosial mühit və normativ-hüquqi baza yaradılır. Əks halda, əhalinin siyasi proseslərə cəlb olunması qarşısında müxtəlif maneələr ortaya çıxır.

Siyasi iştirakçılıq prosesində şəxsi motivlər xüsusi rol oynayır. Müasir nəzəriyyələrdə şəxsiyyətin siyasətə qoşulmasının şəxsi motivlərə əsaslanan bir sıra səbəbləri nəzərdən keçirilir. Məsələn, Lassuell belə hesab edir ki, fərdin siyasi iştirakçılığının əsasında onun cəmiyyətdə tutduğu ictimai mövqeyinə təhlükə yarandığını dərk etməsi kimi sosial-psixoloji halı durur. Başqa sözlə desək insanın öz mənafeyini aydın dərk etməsi, onu təmin etmək və cəmiyyətdə yeni status qazanmaq istəyi siyasi iştirakçılığın əsasını təşkil edən şərt kimi nəzərdən keçirilə bilər. Bu nöqteyi-nəzəri Leyn də müdafiə edir. Dounsun fikrincə, şəxsiyyətin siyasətə qoşulması cəmiyyətdə nüfuz qazanmaq, özünü reallaşdırmaq arzusundan irəli gəlir. Bəzi tədqiqatçılar isə siyasi iştirakçılığın səbəblərini fərdin cəmiyyət qarşısında yüksək məsuliyyət hissində, siyasi sistemi mühafizə etmək cəhətlərində görürlər.

İnsanların siyasi mədəniyyətinin yüksəlməsi, informasiya sistemlərinin inkişafı və hamı üçün açıq olması kimi amillər də fərdin siyasi iştirakçılığı üçün əlverişli zəmin hazırlayır.

Sadalanan amillər və şərtlər şəxsiyyətin siyasi iştirakçılığı motivlərini və mexanizmini dərk etməyə əsas verir. Ən ümumi halda fərdin siyasi proseslərə qoşulması onun hakimiyyətlə münasibətdə mənafelərinin reallaşması məqsədlərinə xidmət edir. Siyasi iştirakçılığın mahiyyəti öz ifadəsini bu və ya digər dərəcədə dövlət hakimiyyəti orqanlarının qəbul etdiyi qərarlara fərdlərin və ya sosial birliklərin təsir göstərmək məqsədi daşıyan siyasi davranışında tapır.

Şəxsiyyətin siyasi iştirakçılığını şərtləndirən amillər onun forma rəngarəngliyi üçün də əsas rolunu oynayır. Fərdin siyasətdə iştirakının təzahür formaları bir tərəfdən subyektin xüsusiyyətləri ilə digər tərəfdən isə siyasi idarəçiliyin təbiəti ilə müəyyənləşir. Siyasi prosesdə fərdin davranış forması seçməsində onun cinsi, yaşı, peşə növü, təhsil səviyyəsi və s. kimi keyfiyyətləri başlıca rol oynayır. L.Milbert və M.L.Gel (ABŞ) «Siyasətdə iştirak: insanlar necə və nəyə görə siyasətə cəlb olunurlar» adlı əsərdə ABŞ şəraitində yüksək

siyasi iştirakçılığı mümkün edən bir sıra vacib şərtləri səciyyələndirirlər. Həmin şərtlər aşağıdakılardır: yaş həddi; cins; protestantlığa nisbətən katolik və iudaizm dinlərinin üstünlüyü; ağ irqə mənsubluq; həmkarlar ittifaqında üzvlükdə olmaq; üzvü olduğü icmada yaşamaq müddəti; seçkilərin mühümlüyünə inam; siyasətə müsbət münasibət; orta sinif statusu; ali təhsil; yüksək xidməti mövqe; subyektin tərbiyə aldığı ailənin yüksək siyasi fəallığı; informasiya təminatı; partiya mənsubiyyəti; vətəndaşlıq borcunun dərk edilməsi; siyasi alternativləri aydın görmək; seçkilərin yüksək bəhsləşmə şəraitində keçməsi.

Bununla bərabər siyasi iştirakçılığın hər hansı formasının qərarlaşmasına siyasi rejimin insanların siyasətə qoşulması üçün məqbul hesab etdiyi üsul və vasitələrin məcmusu da əhəmiyyətli təsir göstərir.

Sadalanan şərtlər daxilində fərdin siyasi iştirakçılığının müxtəlif formaları göstərilə bilər. Amerika politoloqları S.Verba və L.Pay siyasi iştirakçılığın aşağıdakı növ müxtəlifliyini fərqləndirirlər:

- vətəndaşların siyasi davranışının çox passiv forması;
- insanların yalnız nümayəndəli orqanlara seçkilərdə iştirakı;
- vətəndaşların yalnız yerli problemlərin həllinə cəlb edilməsi; səçkiqabağı kampaniyanın fəal iştirakçılarının siyasi fəaliyyəti;
- bütün sferalarda yüksək iştirakçılıq nümayiş etdirən siyasi fəalların davranışı;
- siyasətçinin peşəkar fəaliyyətindən ibarət olan siyasi iştirakçılıq.

L.Milbert siyasi iştirakçılığın formalarının başqa təsnifatını təklif edir:

- Siyasi iştirakçılığın fəal forması - dövlət və partiya orqanlarına rəhbərlik, seçkili hakimiyyət orqanlarında namizədlik fəaliyyəti, seçkiqabağı kampaniyaların təşkili və s.
- Siyasi iştirakçılığın «orta» forması - siyasi yığıncaqlarda iştirak, partiyalara maddi yardımlar göstərilməsi, rəsmi şəxslərlə və siyasi liderlərlə əlaqələrin həyata keçirilməsi və s.
- Siyasi iştirakçılığın «müşahidəçi-nümayişçi» forması - nümayişlərdə transportantların gəzdirilməsi, diskussiyalar keçirilməsi, vətəndaşların səsverməyə cəlb edilməsi və s.
- Vətəndaşların siyasətə «etinasız» münasibəti.

Siyasi iştirakçılığın göstərilən forma müxtəlifliyində fərdlərin siyasi prosesdə davranışının miqyas və ya sferası baxımından fərqi vurğulanır. Fərdin şəxsi mənafelərinin xarakteri və miqyasları onun həmin mənafeləri müdafiə etmək üçün müvafiq surətdə ümumdövlət və ya yerli miqyaslarda siyasi proseslərə cəlb olunmasını şərtləndirir. Lakin şəxsiyyətin maraqları və tələbatlarındakı fərqlər onun bütünlükdə siyasi iştirakçılığa fəal və ya passiv münasibətini formalaşdırır. Siyasi fəaliyətin subyekti kimi şəxsiyyətin davranışı onun siyasi hakimiyyəti təmsil edən dövlətə və dövlət orqanlarına təsirinin imkan və ölçülərində öz ifadəsini tapır. Bundan asılı olaraq, şəxsiyyətin siyasi iştirakçılığı fəallıq dərəcəsi baxımından müxtəlif formalara bölünə bilər. Politoloqlar siyasi iştirakçılığın subyekti kimi şəxsiyyətin aşağıdakı tiplərini göstərirlər: yüksək siyasi fəallığa malik olan, siyasi həyatda fəal iştirak edən şəxsiyyət; siyasi səriştəsi olan, siyasətə maraq göstərən, lakin siyasətdə şəxsən iştirak etməyən insanlar; özünün siyasi iştirakçılığına mənfi münasibət bəsləyən insanlar; siyasətə biganə olan, siyasi proseslərdən özgələşmiş şəxsiyyət.

Sonuncu təsnifatda şəxsiyyətin siyasi iştirakçılığının fəallıq dərəcəsi ilə yanaşı intensivliyi kimi səciyyəsi də özünü büruzə verir. Siyasi iştirakçılığın intensivliyi amplitudasının bir qütbünü siyasi partiyaların, siyasi hərəkatların fəallarının, siyasi liderlərin fəaliyəti əks etdirirsə, digər qütbünü cəmiyyət üzvlərinin müəyyən qrupunun siyasətə etinasızlığı, siyasətdən, siyasi proseslərdən özgələşməsi təşkil edir.

Siyasətdə yüksək iştirakçılıq subyektin hakimiyyətə münasibətinin ifadə edilməsi, hakimiyyət ehtiraslarının qabarıq şəkildə təzahür etməsi, ictimai məsuliyyət hissinin güclü inkişafı və s. deməkdir. Siyasi sistemin fəaliyyət qabiliyyəti siyasi cəhətdən fəal insanların davranışının sosial tərəqqinin mütərəqqi tələb və meyllərinə uyğunluq dərəcəsindən asılı olur.

Siyasi özgələşəmə şəxsiyyətin siyasi proseslərdən kənarda qalmasını, onun siyasi iştirakçılıq rolundan təcrid olunmasını ifadə edir. Bu hadisənin müxtəlif səbəbləri ola bilər. Əsas etibarilə siyasi özgələşmənin iki qrup səbəbləri və buna uyğun olaraq onun iki növ müxtəlifliyi diqqəti cəlb edir. Birinci halda siyasi özgələşmə siyasi laqeydlik, siyasi biganəlik kimi təzahür edir. Siyasi laqeydlik şəxsiyyətin mənafe və tələbatları ilə hakimiyyət münasibətləri arasında əlaqəni görə bilməməsindən, ictimai məsuliyyət hissinin inkişaf tapmamasından, bütün fəaliyyətini sırf şəxsi və məişət problemlərinə həsr etməsindən irəli gəlir.

Siyasi özgələşmənin digər növ müxtəlifliyi siyasətdən kənar edilməkdir. Siyasətdən kənaredilmə siyasi sistemin vətəndaşların siyasi azadlıqlarını və hüquqlarını məhdudlaşdırması, şəxsiyyətin siyasi iştirakçılığına meydan verməməsi və s. kimi səbəblərlə əlaqədar olur.

Həyata keçirilən dövlət siyasətinin əhalinin tələblərinə uyğun olmaması üzündən insanlarda meydana gələn məyusluq, vətəndaşların siyasi iştirakçılığının formal xarakter daşıması, liderlərin və rəhbərlərin, o

cümlədən hakimiyyətin xalqın siyasi iradəsinə etinasızlığı və bu qəbildən olan digər səbəblər də fərdin siyasətdən özgələşməsinə gətirib çıxarır.

Müasir siyasi nəzəriyyə və praktika belə bir müddəadan çıxış edir ki, siyasi özgələşmə cəmiyyətin siyasi inkişafının demokratik əsaslarını laxladaraq, insanlarda radikalizmə, hətta ekstremizmə meyl yaradır, siyasətə marağın həddən artıq yüksək olması isə sosial həyatın bəhsləşmə təbiətini mütləqləşdirərək qrup mənafeyi uğrunda mübarizəni sosial mövcudluğun az qala yeganə üsuluna çevirir. Buna görə də, bütün əhali üçün siyasi iştirakçılığın ən optimal forması seçkili hakimiyyət orqanlarına seçkilərdə iştirak etmək hesab oluna bilər. Seçkilərdə iştirak hər bir fərdə öz imkan, tələbat və meylinə uyğun olaraq siyasi fəallığını təzahür etdirməyə, hakimiyyət strukturları ilə əlaqələrə girməyə, ən başlıcası isə siyasi iştirakçılıq vərdişləri mənimsəməyə şərait yaradır.

Siyasi iştirakçılıq öz xarakterinə və məzmununa görə çox rəngarəng olur. Siyasi iştirakçılıq seçkilər, vətəndaşların hakimiyyətlə pozitiv dialoqu kimi formalarla yanaşı, mövcud siyasi rejim və ya hakimiyyətə etiraz formasında da üzə çıxır. Siyasi etiraz cəmiyyətdə qərarlaşmış siyasi şəraitə, idarəçilik üsullarına, hakimiyyətin siyasi kursuna fərdin və ya qrupun neqativ məzmunlu reaksiyasıdır. Siyasi etirazın ən mühüm mənbələrini cəmiyyətdəki siyasi dəyərlərin vətəndaşlara zəif sirayət etməsi, siyasi hakimiyyətin bəyan etdiyi prinsiplərin onların mənafeləri və həyat mövqeləri ilə ziddiyətə girdiyindən sosial bazadan məhrum olması, insan hüquq və azadlıqlarının pozulması, əhalinin həyat səviyyəsinin pisləşməsi və s. təşkil edir. Mövcud siyasi rejimin təbliğ etdiyi siyasi dəyərlər və idarəçilik üsulları ilə əhalinin əksəriyyətinin həyat mənafeləri arasında ziddiyyətin kəskinlik dərəcəsi siyasi etirazın konkret təzahür formasında öz ifadəsini tapır. Müxtəlif xarakterli etiraz nümayişləri, tətillər, piketlər, qeyri-qanuni, antikonstitusiya fəaliyyəti, dövlət çevrilişləri və bu kimi siyasi iştirakçılıq siyasi etirazın ayrı-ayrı formalarını təmsil edir. Cəmiyyət üçün sosial və siyasi nəticələrinə görə ən təhlükəli, dağıdıcı siyasi etiraz forması sosial inqilablar hesab olunur.

Siyasi sistemin mühüm vəzifələrindən biri siyasi etirazı meydana gətirən səbəbləri aradan qaldırmaqla siyasi iştirakçılığın bu formasını ya bütünlükdə dəf etmək, ya da onun dağıdıcı, pozucu xarakter və miqyaslar kəsb etməsinə imkan verməməkdir.

## 14-cü MÖVZU

## MİLLİ SİYASƏT

### *1. Millətlərarası münasibətlərdə siyasi aspekt və onun aparıcı rolu*

Millətlərarası münasibətlərin düzgün qurulması, həm çoxsaylı, həm də azsaylı xalqların sosial-iqtisadi və mədəni problemlərinin obyektiv surətdə həll edilməsi problemi bütün çoxmillətli dövlətlərin, o cümlədən Azərbaycanın da siyasi həyatında çox mühüm yerlərdən birini tutur.

Millətlərarası münasibətlər ictimai münasibətlərin çox mürəkkəb spesifik formalarından biri olub iqtisadi, siyasi və mənəvi münasibətlərin ayrılmaz tərəfi kimi təzahür edir, eyni zamanda onların təsirinə məruz qalır. Buna görə də millətlərin və xalqların qarşılıqlı əlaqələrinin bütün aspektləri mahiyyətcə siyasi xarakter daşıyır.

Milli münasibətlər sahəsində siyasətin mahiyyətini araşdırmazdan əvvəl ilk növbədə «milli məsələ» və «milli münasibətlər» anlayışlarının mahiyyətinə varmaq zəruridir.

***Milli məsələ*** hər şeydən əvvəl milli bərabərsizlik münasibətləri, millətlərin imtiyazlı və imtiyazsızlara, hakim və məzlumlara bölünməsi, iqtisadi və mədəni inkişaf səviyyəsində bərabərsizlik və s. məsələsidir. Milli məsələ milli zəmində ədavət, çəkişmə, düşmənçilik və şübhə məsələsidir. Milli məsələ millətlər və xalqlar arasında dövlətdaxili və dövlətlərarası ünsiyyət prosesində təzahür edən siyasi, iqtisadi, hüquqi, ideoloji və b. problemlərin məcmusudur. Cəmiyyət həyatının hər bir mərhələsində milli məsələ bu və ya digər ölkənin konkret şəraitinə uyğun olaraq konkret məzmuna malik olur. Hər bir dövrdə milli münasibətlər sistemində yeni problemlər irəli sürülür.

«Milli münasibətlər» anlayışı daha geniş məzmuna malik olub, özündə aşağıdakı münasibətləri əhatə etdirir:

1. millətdaxili münasibətlər;
2. milli-etnik birliklərarası münasibətlər;
3. millət və xalqların şəxsiyyətlərarası səviyyədə münasibətləri.

Məhz bu üç cəhət millət və xalqların qarşılıqlı münasibətləri sahəsində yaranmış olan sosial əlaqələrin mahiyyətini tam əks etdirir. Millətlərarası münasibətlər əslində müxtəlif millətlərə mənsub olan adamların əmək, ictimai-siyasi, ailə-məişət və asudə vaxtdakı həyat formalarında yaranan qarşılıqlı münasibətlərini nəzərdə tutur. Milli münasibətlər sistemində siyasi aspektin aparıcı rolu hər şeydən əvvəl millətin formalaşması və onun inkişafının mühüm amili olan dövlətin əhəmiyyəti, milli və sosial-siyasi proseslərin daxili əlaqəsi ilə şərtlənir. Milli münasibətlərin milli özünütəyinetmə, milli və beynəlmiləl mənafelərin əlaqələndirilməsi, millətlərin hüquq bərəbərliyi, milli dillərin və mədəniyyətlərin inkişafı üçün şəraitin yaradılması, milli kadrların hazırlanması və hakimiyyət strukturlarında onların təmsil edilməsi və s. kimi məsələlər bilavasitə siyasət sferasına aiddir.

Millətlərarası münasibətlərin həlli sferasında dünya ölkələrinin uzun dövrlər ərzində topladıqları təcrübə bir sıra siyasi prinsiplərin irəli sürülməsinə imkan vermişdir. Belə ki, milli məsələni demokratik yolla tənzim etmənin əsas siyasi-hüquqi prinsipi millətlərin öz müqəddəratını təyin etməsi hüququdur. Bu, dövlətçilik simvolları və təşkilatlarınnın azad seçilməsi, hər bir xalqın öz iqtisadi, siyasi, sosial-mədəni problemlərini müstəqil həll etmək hüququ deməkdir.

Bu və ya başqa xalq öz müqəddəratını o şərtlə həll edə bilər ki, onun suverenliyi təmin edilmiş olsun. Milli suverenlik – millətin taleyinin həll edilməsində onun hakimlik rolunu, milli dövlət yaratmaq hüququnu, bütöv milli əraziyə malik olmasını, iqtisadi mədəniyyətini, milli şərəf və ləyaqətini, başqa millət və xalqlara tam bərabər hüquqlara malik olmasını ifadə edən yeni keyfiyyətidir.

Milli məsələni həll etməyin ikinci demokratik prinsipi dilindən, irqindən və s. asılı olmayaraq bütün millətlərdən olan vətəndaşların hüquq bərabərliyinin təmin edilməsidir.

Bu, yalnız hüquqi təminat olmayıb sosial sistemin mahiyyətini də üzə çıxarır. İctimai quruluş milli bərabərliyin hüquqi və faktiki mövcudluğunu təmin etməlidir.

Milli özünütəyinetmə xalqların müəyyən milli-dövlət quruluşuna malik olmalarını nəzərdə tutur. Burada əsas cəhət elə optimal dövlət quruluşunun tapılmasıdır ki, millət onun daxilində və onun vasitəsi ilə öz problemlərini həll edə bilsin. Bəşər tarixinin uzun təcrübəsi göstərir ki, xalqların milli-dövlət quruluşunun aşağıdakıı əsas formaları yaranmışdır:

1. ***Unitar dövlət.*** Bu dövlətin xarakterik cəhəti mərkəzləşdirilmiş rəhbərlikdir. Burada əlahiddə səlahiyyətlərə malik olan müstəqil dövlət qurumları olmur. Lakin unitar dövlət daxilində geniş ərazi və milli-mədəni muxtariyyət mümkündür. Bu cür dövlətlərə misal olaraq Azərbaycanı, Çini, İspaniyanı, Rumıniyanı, Vyetnamı, Laosu, CAR-ı və b. göstərmək olar.
2. ***Federativ dövlət*** iki və daha çox dövlətlərin birləşərək yeni dövlət yaratmasıdır. Hazırda dünyada movcud olan federasiyalardan böyük əksirəyyəti milli və ərazi bölgüləri əsasında təşkil olunur. Bu dövlət tipi hakimiyyət bölgüsünün düzgün aparılmasına, yerli hakimiyyət orqanlarının səlahiyyətlərinin artırılmasına, demokratik idarəetmə formalarının tətbiqinə şərait yaradır. Müasir dünyada çoxlu sayda iri və qüdrətli federativ dövlətlər mövcuddur. Onlara misal olaraq Amerika qitəsində ABŞ-ı, Meksikanı, Braziliyanı, Argentinanı, Avropada Almaniya, Rusiya və Avstriyanı, Asiyada Hindistanı, Pakistanı və Malaziyanı, Afrikada isə Nigeriyanı göstərmək olar.
3. ***Konfederasiya*** müstəqil dövlətlərin birliyidir. Federasiyaya daxil olan dövlətləri Konstitusiya birləşdirdiyi halda Konfedarasiyada dövlətlərarası müqavilə bağlanır. Onun üzvləri tam muxtardırlar, onların hər birinin qanunvericilik orqanları vardır, sanksiya vermək və nullifikasiya (ittifaq orqanları aktlarını ləğv etmək) hüququna malikdir. Konfederasiya üzvlərinin müstəqil vətəndaşlığı, ordusu, valyutası və s. olur. Bu dövlət tipi hərbi yaxud xarici siyasət məsələlərinin tənzimlənməsi məqsədi ilə təşkil olunur. Bu dövlət forması kimi İsveçrəni göstərmək olar. Buraya daxil olan 23 kantonun hər biri öz Konstitusiyasına, parlamentinə və hökumətinə malikdir. Yaxud konfederasiyaya misal olaraq Misir, Liviya, Suriya və b. ərəb dövlətlərinin təşkil etdikləri birliyi göstərmək olar. Bu dövlət quruluşu müvəqqəti xarakter daşıyır. İsveçrə artıq demək olar ki, federativ dövlətə çevrilmişdir. Ərəb dövlətlərinin konfederasiyası da daxili problemlərlə, mənafelərin qarşıdurması ilə əlaqədar olaraq artıq dağılmışdır. Deməli çoxmillətli ölkələr üçün ideal dövlət tipi federasiya hesab olunmalıdır.

### *2. Milli münaqişələrin həllinin siyasi prinsipləri*

Milli münasibətlərin normal inkişafı dəqiq, düzgün və hərtərəfli əsaslandırmış milli siyasətin işlənib hazıralnmasını və həyata keçirilməsini tələb edir. Millətlərarası münasibətlər sahəsində siyasətin uğurlu olması üçün o, elmi əsaslara idarə olunmalı, milli münasibətlərin inkişafına məqsədyönlü rəhbərlik edilməlidir. Bu, o deməkdir ki, milli siyasət düzgün proqramlaşdırılmalı, nizamlanmalı, həyata keçirilməsi təşkil edilməli və ona nəzarət olunmalıdır. Milli siyasət millətlər və xalqlar arasındakı qarşılıqlı münasibətlərin dövlətin müvafiq sənədlərində və qanunvericilik aktlarında təsbit olunmuş formada tənzim edilməsi üzrə məqsədyönlü fəaliyyətidir. Bu siyasətin başlıca müddəaları aşağıdakılardan ibarətdir: bütün xalqların və millətlərin hüquqi bərabərliyi, onların mənafelərinə və sərvətlərinə qarşılıqlı hörmət, qarşılıqlı surətdə faydalı əməkdaşlıq, millətçiliyin və irqi-ayrı seçkiliyin təzahürlərinə qarşı barışmazlıq və s. və i.a. Milli siyasət həmçinin demoqrafik prosesləri, coğrafi amili, tarixi xüsusiyyətləri, ayrı-ayrı regionların milli tərkibini, yerli və gəlmə əhalinin nisbətini, dini mənsubiyyəti, milli psixologiyanın xüsusiyyətlərini, milli adət və ənənələri nəzərə almalıdır.

Milli siyasətin mühüm cəhətlərindən biri təkcə vaxtı çatmış ziddiyyətlərin, problemlərin həll edilməsi olmayıb eyni zamanda onları qabağcadan görməsidir. Lakin bütün proqnozlara baxmayaraq müxtəlif vaxtlarda müxtəlif səbəblər üzündən millətlərarası münaqişələr, milli-etnik zəmində problemlər ortaya çıxır. Millətlərarası münaqişə dedikdə bir-birinə qarşı duran və biri digərini tamamlayan iki reallıq başa düşülür. Belə ki, bir tərəfdən o, ictimai şüur səviyyəsində başqa xalqa qarşı münasibət tipidir. Bu münasibət passiv etinasızlıqdan fəal qarşıdurmaya və birbaşa əkslik əhval-ruhiyyəsinə gətirib çıxara bilər. Buradan isə aydın olur ki, millətlərarası münasibətlərin üç tipi (müsbət, mənfi və ya bitərəf) arasındakı fərqlər kifayət qədər şərtidir və biri digərinə asanlıqla keçə bilər. Digər tərəfdən, ictimai həyat səviyyəsidə siyasi proseslərin real fenomeni olan millətlərarası (yaxud etnoslar arası) münaqişə haqqında yalnız o zaman danışmaq mümkündür ki, öz qarşısına reallığı dəyişməyi məqsəd qoyan nufuzlu milli hərəkat formalaşmış olsun. Bu isə onu göstərir ki, hər bir münaqişənin öz təşəbbüsçüsü olur. Buna görə də millətlərarası münaqişə dedikdə milli mənafelərin müdafiəsi üçün yaradılmış olan və yeni zamanda bir –biri ilə rəqabətdə olan ictimai-siyasi hərəkatlar arasındakı münaqişə başa düşülür.

Millətlərarası münaqişələrin tipologiyası aşağıdakiları nəzərdə tutur: sosial-iqtisadi, mədəni-dil, ərazi-status və separatizmə əsaslanan münaqişələr.

Politoloqların fikrincə milllətlərarası münaqişələrin meydana gəlmə səbəbləri aşağıdakilardır:

1. Xalqların müstəqil siyasi həyat formalarına, perspektivdə isə müstəqil milli dövlət yaratmağa can atması.
2. İnkişaf ehtiyatlarının məhdudluğu.
3. Etnik reallığı lazımi səviyyədə nəzərə almayan dövlətin siyasi qurluşunun etnoslararası gərginliyin artmasına təsir göstərməsi və s.

Göründüyü kimi, millətlərarası münaqişələr bir tərəfdən ümumsosial ziddiyətlərın konkret ifadəsi kimi çıxış etsə də digər tərəfdən o, məhz etnik (milli) münaqişədir. Millətlərarası ziddiyyətlər münaqişə həddinə çatdıqda təhlükəli xarakrer alır. Tədqiqatçıların fikrincə milli münaqişələrin meydana gəlməsi xeyli dərəcədə millətin siyasi təşkilindən asılıdır. Onlar həmçinin bu təşkilin aşağıdakı üç əsas tipini səciyyələndirirlər:

1. Etnik birliyin milli – etnik muxtariyyati. Etnik birliklərə xüsusi siyasi azadlıqların verilməsini nəzərdə tutur.
2. Çoxmillətli dövlətlər. Bu dövlətlərdə etnik birliklərə xüsusi siyasi hüquqlar verilir. Məsələn, Finlandiya əhalisinin cəmi 6 faizini təşkil edən isveçlilərə dövlət dili statusu verilmişdir.
3. Çoxmillətli dövlət daxilində milli-ərazi qurumları. Bu tip ən çox münaqişə yaradan tipdir. Azərbaycanın, Gürcüstanın, Rusiyanın, Ukraynanın və b. dövlətlərin daxilində milli zəmində yaranan münaqişələr ilk növbədə milli-ərazi zəmində meydana gələn münaqişələrdir. Bu isə onu göstərir ki, azsaylı xalqlara siyasi strukturlar verməklə onların problemlərini həll etmək mümkün deyil.

Milli məsələnin ən doğru yolu onun etno-mədəni səviyyədə həll olunmasıdır. Ən əhəmiyyətli olanı isə budur ki, bəşəriyyət bu sahədə müəyyən təcrubəyə malikdir. Ən parlaq misal isə İspaniyanın təcrubəsidir.

Elmi tədqiqatlar göstərir ki, İspaniyanın demokratik rejimə keçidi mərhələsində ölkədə milli-etnik münaqişələr aşağıdakı iki amilin köməyi ilə uğurla həll edilmişdir. Birincisi, siyasi islahatların keçirilməsi zərurəti haqqında demokratik qüvvələr arasında razılaşmanın olması; ikincisi, istər siyasi elitaların, istərsə də geniş kütlələrin şüurunda demokratiya ideyasının mərkəzləşmənin azaldılması ideyası ilə eyniləşdirilməsi. İspaniyada ilk demokratik parlament seçkilərindən cəmi il yarım sonra Konstitusiyanın qəbul edilməsi nəticəsində mərkəzi hakimiyyət ilə reqionlar arasında münaqişələr mülayim xarakter aldı. İspaniya dövlətinin bölünməzliyi və suvernliyi haqqında müddəalar Konstitusiya vasitəsi ilə təsbit olundu. Burada muxtar regionların təşkil olunması haqqında ən ümumi məqsədlər öz əksini tapmışdır. Eyni zamanda regionlara verilən hüquqlar və hamı üçün məcburi olan aşağıdaki şərtlər Konstitusiyada öz əksini tapdı:

1. Demokratik parlamentin mövcudluğu.
2. İcraedici hakimiyyətin parlamentə tabe olması.
3. Müstəqil məhkəmə sisteminin yaradılması.
4. Mərkəz ilə muxtar vilayətlər arasında mübahisəli məsələlərin Konstitusiya Məhkəməsi yolu ilə həllinin zəruriliyi.

İspaniyanın Konstitusiyasında muxtar vilayətlərin daxili quruluşu haqqında heç nə deyilmir, lakin ərazi hakimiyyətinin quruluşuna aid olan məsələlər üzrə müvafiq müddəalar müəyyən olunur. Bununla da mərkəzlə özünün qarşılıqlı münasibətlərini istədəiyi formada qurmaq imkanı verilir. Muxtar qurumun əsas qanunu region əhalisi tərəfindən bəyənildikdən və bütün mübahisəli məsələlər aydınlaşdırıldıqdan sonra mərkəzi parlament tərəfindən təsdiq olunmalıdır.

Mərkəzi hakimiyyət orqanları ilə muxtar qurumlar arasındakı münasibətlərdə ən mürəkkəb problemlərdən biri də razılaşdırılmış iqtisadi siyasətin həyata keçirilməsi idi. Səlahiyyətlərin həddi dəqiq müəyyən edildiyi bir şəraitdə də tənzimlənmənin, planlaşdırmanın və investisiya siyasətinin həyata keçirilməsində böyük problemlər qarşıya çıxdı.

Hökumət proqramının sərt xarakter daşıması yerlərin müstəqilliyini məhdudlaşdırılması cəhdi kimi qiymətləndirildi. Bu isə hətta bir sıra regionlarda millətçilik meyillərinin güclənməsinə səbəb oldu. Belə bir şəraitdə hökumətin sosial-iqtisadi və milli sferalarda kompromislərə meyl göstərməsi əyalətlərin ümumdövlət hakimiyyətinə etimadlarının qorunub saxlanmasına imkan yaratdı.

Yuxarda deyilənlər milli dövlət quruluşunun təkmilləşdirilməsi və möhkəmləndirilməsi prosesinin aşağıdakı qanunauyğunluqlara malik olduğunu sübut edir:

1. Ümumi, vahid dövlət çərçivəsində mərkəz və regionlar, habelə müxtəlif etnik qurumlar arasında qarşılıqlı münasibətlər müəyyən qanunauyğunluqlar əsasında baş verir. Bu qanunauyğunluqları nəzərə almadan mərkəzi hökumət öz siyasi xəttini işləyib hazırlaya və həyata keçirə bilməz.

2. Etnosun mədəni səviyyəsi, sosial-iqtisadi vəziyyəti nə qədər yuksək olursa, onun dövlət müstəqilliyinə olan tələbləri də bir o qədər yüksək olur. Milli özünüdərk səviyyəsinin yüksəkliyi də etnosa öz qarşısında duran problemləri daha asan həll etmək imkanı verir.
3. Millətlərarası münasibətlərin tənzim edilməsinə yönəlmiş olan hər hansı bir qərar daha ümumi xarakterli siyasi cəhətlərdən asılı olaraq qəbul edilirsə onda o, məsələni daha da kəsginləşdirir.

Avropa ölkələrindən fərqli olan Latın Amerikasında dövlət müvafiq etnoslar formalaşmazdan əvvəl meydana gəldiyi üçün burada millətin, yaxud ərazinin etnosa mənsubluğu sualı ortaya çıxmır. Burada etnosun, millətin və ölkənin sərhədləri tam üst-üstə düşür. Burada «millət», «ölkə», «vətəndaşlıq» kimi anlayışlar sinonim xarakteri daşıdığı üçün burada «millətçilik» anlayışı mənfi məna kəsb etmir və xeyli dərəcədə «vətənpərvərlik» anlayışına uyğun gəlir.

Beləliklə, dünya ölkələrinin təcrübəsi göstərir ki, siyasi birlik yalnız demokratik mexanizmlərin inkişafı vasitəsi ilə millətin yaranmasının etnik və mədəni sintezi nəticəsində başlanmış prosesini başa çatdıra bilər.

### *3. Sosial-etnik birliklər siyasi münasibətlərin tərkib hissəsidir*

Son illər millətlərarası munasibətlər problemi son dərəcə kəsginləşmiş və böhranlı vəziyyət yaranmışdır. Millətlərarası zəmində baş verən qanlı toqquşmalar ölkələr və millətlər arasında münasibətləri kəsginləşdirmişdir.

Millətlərarası problemlərin meydana gəlməsinin səbəblərindən biri onun nəzəri məsələlərinin tədqiqinin real praktikadan geri qalması ilə bağlıdır. Məhz ona görə də milli məsələyə aid siyasi qərarlar, əksər hallarda real hadisələr dərin təhlil edilmədən, ayrı-ayrı millətlərin milli xüsusiyyətləri və psixologiyası nəzərə alınmadan qəbul edilir. Bu da səhvlərə gətirib çıxarır. Məhz bu səhvlərə görə yüz minlərlə insanın acı taleləri ilə barışmalı oluruq.

Hələ də milli siyasətə dair qəbul edilmiş qanun və qərarlar bütöv və bitgin konsepsiyanın işlənib hazırlanmasına imkan vermir.

Adətən milli münasibətlər problemindən danışarkən sosial-siyasi ədəbiyyatda millət məfhumundan istifadə edilir, lakin milli münasibətlərin məzmununu, özünəməxsusluğunu dərk etmək üçün etnos məfhumundan istifadə etmək məqsədə uyğundur.

Etnoslar, etnik birliklər insan birliyinin ən başlıcası, ilkinidirlər, siniflərdən əvvəl meydana gəliblər.

Etnos (yunanca – tayfa, xalq deməkdir) – tarixən müəyyən ərazi hüdudlarında yaşayan, mədəniyyət (dil də daxil olmaqla) və psixoloji xarakterin dəyişilməz xüsusiyyətlərinə və ümumi cəhətlərinə malik olan, həmçinin özlərinin birliyini və başqalarından fərqlərini dərk edən insanların sabit məcmusudur.

Etnosun formalaşması adətən ərazi və iqtisadi həyatın vahidliyi (birliyi) əsasında baş verir. Lakin ərazi birliyi müəyyən müddətdən sonra qəbilənin, tayfanın köcməsi ilə əlaqədar olaraq itirilə bilərdi.

Bir etnosu digərindən ayıran əsas cəhətlər aşağıdakilardır: dil, incəsənət, adətlər – ənənələr, davranış normaları, vərdişlər. Adətlər, ənənələr nəsildən-nəsilə verilir və etnos mədəniyyətini yaradır.

Etnos – müəyyən mədəni bütövlükdür. Etnos üçün «biz» - «onlar» prinsipinə əsaslanan, fərqləndirici milli mənlik şüuru vacibdir. Etnos özünü başqasından fərqləndirən, yəni etnik özünü dərk etmə şüuruna malik olan mədəni birliyə deyilir.

Politologiya elmində etnosun tarixi inkişafı bir formasiyanın digəri ilə əvəz edilməsi ilə əlaqələndirilir. Belə ki, qəbilə-etnosunun inkişafınının birinci mərhələsi kimi ibtidai-icma quruluşu ilə bağlıdır.

Əlbəttə, etnosların öz tarixiləri vardır və onların inkişafı müəyyən özünəməxsus qanunauyğunluqlar əsasında baş verir. Qeyd etmək lazımdır ki, bir çox ölkə və xalqların taleyində də özünəməxsusluq vardır. Belə ki, onların çoxu müəyyən formasiyaları – məsələn quldarlıq və ya kapitalizmi ötüb keçiblər. Şübhəsiz etnoslar maddi istehsalın müəyyən tipi, müəyyən ictimai quruluş şəraitində yaşayır və fəaliyyət göstərirlər və biz də «sosial-etnik» birlik, yəni müəyyən cəmiyyətin etnosu məfhumundan istifadə etməyi məqsədəuyğun hesab edirik.

«Millət» məfhumunun son təriflərindən biri aşağıdakı kimidir: millət tarixən kapitalist ictimai-iqtisadi formasiyası və əmtəə istehsalının meydana gəlməsi ilə bağlı olan və iqtisadi həyatın, dilin, ərazinin, milli özünü dərk etmənin və mədəniyyətin, adətlərin, məişətin, ənənələrin bəzi spesifik cəhətlərinin ümumliyi ilə səciyyələnən, insanların sosial-etnik birliyinin ali formasıdır.

Lakin qeyd etmək lazımdır ki, göstərilən bu əlamətlər heç də hər bir millətin meydana gəlməsi və inkişafı praktikasına uyğun gəlmir. Belə ki, müsəlman millətləri olan ölkələrin heç də hamısı kapitalizm

mərhələsini keçməyiblər. Onda belə çıxır ki, keçmiş SSRİ-də yalnız azərbaycanlılar və özbəklər millət kimi formalaşıblar, qırğızlar, qazaxlar, taciklər, türkmənlər isə millət kimi yalnız sosializmdə formalaşıblar.

Bundan başqa, millətin etnosun ali forması adlandırılması, kiçik xalqları qeyri-bərabər vəziyyətə salır, onları aşağı səviyyəli xalqlar kimi qiymətləndirir.

Bu gün az saylı xalqlar milli özünüdərketmə, milli mənlik, milli mədəniyyət, iqtisadi inkişaf və s. kimi problemləri çox kəskin surətdə irəli sürürlər. Buna görə də millətin etnosun ali forması olması, millət-kapitalizmin məhsuludur kimi tezisləri dəqiqləşdirmək lazımdır.

Qərb politologiyası millət probleminə necə baxır?

Latınca – *natio* – millət (tayfa), xalq deməkdir. Müəyyən müddətdən sonra Avropada millət məfhumu dövlət-siyasi məzmun termini kimi bütün əhalini qeyd etmək üçün istifadə edilirdi.

Beləliklə, etnik məfhum olan millət fransız, sonra isə inglis dilində dövlət məzmunu alır.

Müasir sivilizasiya dünyasında «millət» sözü faktiki olaraq, «dövlət» sözünün sinonimidir. Bu mənada «millət» məfhumu yalnız etnik planda şərh edilir.

Siyasi ədəbiyyatda da həmçinin «millət» anlayışı işlədirlir. Bunun vasitəsilə adətən insanın bu və ya digər xalqa mənsubiyyəti ifadə olunur. Bundan başqa, ərazidən və iqtisadi həyat ümumiliyindən asılı olmayaraq, etno-mədəni təşəkküllər səciyyələndirilir (məsələn, azərbaycanlı başqa respublikalarda və xaricdə yaşaya bilər). Başqa millətdən olan adamlara münasibətdə «başqa milli qruplar», «yerli millətlərdən olmayan şəxslər» kimi ifadələr də işlədilir (məsələn, Gürcüstanda azərbaycanlılar, Tacikistanda özbəklər və s.).

Etnik törəmələrin iki səviyyəsi vardır: birinci səviyyəyə qəbilə, xalq kimi etnik qruplar, ikinci səviyyəyə isə subetnik və məqaetnik qruplar daxildir.

Subetnik birlik öz spesifik cəhətləri və özünüdərketmə şüuru ilə fərqlənən etnosun bir hissəsi olan xalqdır. Məsələn, latqallar latışların subetnosu, teptarlar və moşarlar tatarların subetnosudur.

Meqaetnik birliklər – ümumi tarixi-mədəni cəhətlərə və ümumi özünüdərketmə elementlərinə malik olan xalqlar qrupudur. Məsələn, türk xalqı.

Xalqlar xüsusi mədəniyyəti və özünüdərketmə cəhətləri olan xırda etnoslardır. Onlara bəzən subetnosları da aid edirlər. Məslən, Azərbaycanda talışlar, Latviyada livlər və s.

Sosial-etnik törəmələrin müxtəlifliyi, onların qarşılıqlı əlaqəsi millətlərarası münasibətlər məsələsini irəli sürür.

Lakin hər bir sosial-etnik birlik daima dəyişmə prosesindədir. Buna görə də milli proseslər haqqında danışmaq daha düzgündür, çünki yalnız bu prosesləri öyrəndikdən sonra millətlərarası münasibətlərdəki problemləri düzgün həll etmək olar.

Milli münasibətlər müxtəlif etnoslara (millət, xalq, etnik qrup) məxsus olan insanların qarşılıqlı münasibətləridir. Bu münasibətlərə iqtisadi və siyasi amillər müəyyən dərəcədə təsir göstərirlər. Habelə tarixən təşəkkül tapmış ənənələr, sosial əhval-ruhiyyələr, coğrafi və mədəni-məişət şəraiti də milli münasibətlərin formalaşmasında mühüm rol oynayır.

«Milli məsələ» anlayışı tarixən istismar edən və istismar olunan millətlərin qarşılıqlı münasibətlərinə,millətlərin bərabərsizliyi, iqri və milli qruplar probleminə xas olan anlayış kimi meydana gəlmişdir. «Milli məsələ» geniş mənada bu və ya digər ölkədə inkişafın hər hansı mərhələsində milli problemlərin məcmusunu ifadə edir.

Milli-dini və iqri əsaslarda Yaxın Şərqdə və Şimali İrlandiyada, Cənubi Afrika Respublikasında, Hindistanda, Şri-Lankada və s. ölkələrdə davam edən münaqişələr dünya birliyini narahat edir.

Keçmiş SSRİ-də yeridilən siyasət milli siyasətdə ciddi deformasiyalara səbəb olmuş, hətta ölkənin bir sıra millətlərinə və xalqlarına qarşı cinayət edilmişdir.

Əgər 1926-cı ildə siyahıya alınma zamanı SSRİ-də 194 millət, xalq və etnik qrup qeydə alınmışdırsa, 1939-cu ildə siyahıyaalınmanın yekunlarına görə ölkədə 99 millət və xalq var idi, demək olar ki, 13 il ərzində millətlərin və xalqların sayı iki dəfə azalmışdır.

Bütün respublikaları və diyarları bürüyən kütləvi cəza tədbirləri ölkənin millət və xalqlarının inkişafına fəlakətli təsir göstərdi. Milli regionlarda cəza tədbirləri burjua millətçiliyinin və yerli millətçiliyin daşıyıçylarına qarşı mübarizə bayrağı altında həyata keçirilirdi.

Böyük Vətən müharibəsi millətlərarası münasibətlər sahəsində fəlakətin növbəti mərhələsi oldu. Bir sıra xalqların milli dövlət qurumları ləğv edildi və heç bir hərbi zərurət olmadan bu xalqlar kütləvi surətdə öz doğma yurdlarından köçürüldülər. Belə cinayətkar siyasətin ilk qurbanı sovet adamları oldu. SSRİ Ali Soveti Rəyasət heyətinin 1941-ci il 26 avqust tarixli fərmanı ilə Volqaboyu almanlarının muxtar sovet respublikası

ləğv edildi. Çox keçmədən, bu almanlar ölkənin Avropa hissəsindən və Volqaboyundan Qazaxstanın çöl rayonlarına köçürülməyə başlandı. Bunun ardınca Krım tatarlarının muxtariyyəti ləğv edildi, məshəti türklərini bir gün ərzində Orta Asiyaya sürgün etdilər. Müharibədən sonra bu siyasətin qurbanı Ermənistandan iki yüz minə qədər azərbaycanlının köçürülməsi oldu.

Bir sıra xalqların haqqında ədalət 50-ci illərdə bərpa olundu. Belə ki, 1957-ci ildə çeçenlər, inquşlar, kabardinlər, balkarlar, kalmıklar tam bəraət aldılar və onların muxtar qurumları bərpa edildi. Lakin indiyədək Erənistandan köçürülən azərbaycanlıların hüquqları bərpa olunmamışdır. Krım tatarlarının və Volqaboyu almanların muxtar respublikalarının bərpa edilməsi, məshəti türklərinin öz yaşayış yerlərinə qaytarılması, azərbaycanlıların Ermənistandan köçürülməsinin siyasi qiymətinin verilməsi bütün kəsginliyi ilə qarşıda durur. Faciəli Fərqanə hadisələri, üç-dörd onillikdə yarım miliyona qədər azərbaycanlının Ermənistandan köçürülməsi bir daha göstərdi ki, elə bu gün də cəza tədbirlərinə məruz qalmış xalqların hərtərəfli inkişafını təmin edən mexanizmin yaradılmasına ehtiyac vardır.

«Dağlıq Qarabağ məsələsi» ilk gündən saxta və qondarma problem kimi meydana çıxmışdı. Onun baş tutması üçün nə tarixi, coğrafi, siyasi, hüquqi, nə də mənəvi, əxlaqi əsaslar yox idi. Odur ki, onun həllini də ancaq süni yollarla uzatmaq, süründürmək, mahiyyəti gizlədərək və ictimayyəti aldadaraq məqsədə yaxınlaşmaq olardı.

Erməni millətçiləri yenidənqurmadan, demokratiyadan riyakarcasına istifadə edərək «Dağlıq Qarabağ probleminə» hər cür ictimai-siyasi don geyindirmiş, onu dünya ictimaiyyətinin diqqət mərkəzinə çəkmişdir. Məqsəd «Qarabağ probleminə» tarixi bəraət qazandırmaq, beynəlxalq səviyyədə onun həllini sivilizasiyanın «borcu» hesab etməkdir.

İndi dünya ictimaiyyəti nəhayət siyasi reallığı dərk etmiş, atılan bu cür addımların və avantüraların məqsədini başa düşmüşdür.

Hazırda ən mühüm problemlərdən biri millətlərarası münasibətlər mədəniyyətinin yuksəldilməsidir.

Milli siyasətin əsas istiqamətləri aşağıdakılardır:

- Bütün millətlərin və xalqların hüquq və azadlıqlarını genişləndirmək;
- Hər bir xalqın və millətin real hüquqlarını və spesifik mənafelərini təmin etmək;
- Milli dillərin və mədəniyyətlərin azad inkişafı üçün şərait yaratmaq;

Milli cəhətə görə vətəndaşların hüquqlarının pozulmasını aradan qaldıran təminat möhkəmləndirilməlidir;

- Millətlərarası ünsiyyətdə tarixi ənənələrə və milli spesifik cəhətlərə qarşılıqlı hörmət edilməli və hər bir xalqın iqtisadi və mənəvi mənafeləri nəzərə alınmalıdır.

XVIII əsrin ortalarından başlayan imperiyaların dağılması prosesi (məsələn, Şimali Amerikanın Böyuk Britaniyadan ayrılması) XX əsrin 60-cı illərində Asiya və Afrika ölkələrinin tam müstəqillik əldə etmələri ilə nəticələndi. Lakin dünyanın ayrı-ayrı ölkələrində milli-etnik zəmində münaqişələr hələ də davam etməkdədir.

Bununla belə XX əsrin ikinci yarısı üçün inteqrasiya proseslərinin güclənməsi də xarakterikdir. Bu proses xüsusən Qərbi Avropa və Latın Amerikası ölkələri üçün daha xarakterikdir. İctimai həyatın bütün sferalarının beynəlmiləlləşməsi istehsalın inkişafı, onun ixtisaslaşması və təmərküzləşməsi zərurəti ilə bağlı olan obyektiv bir prosesdir. Bu isə gələcəkdə millətlərin «özünəqapanma» meyilini tamamilə aradan galdıracaqdır.

## 15-ci MÖVZU

## SİYASİ MÜNAQİŞƏLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

### *1. Siyasi münaqişələrin mənşəyi və mahiyyəti*

Biz olduqca mürəkkəb bir dövrdə yaşayırıq. XX əsrin son onilliyi bir tərəfdən dövlətlər və xalqlar arasında olan əməkdaşlıq və qarşılıqlı anlaşmanın inkişafı, diqər tərəfdən isə ciddi nəticələrlə başa çatan müxtəlif növlü münaqişələrin çoxalması və gərginləşməsi ilə müşaiyət olunur.

Bəs münaqişə nə deməkdir?

Münaqişə (lat.dilində «conflictus» - toqquşma) müxtəlif mənafe, baxışlar, tələbatların toqquşması, ciddi fikir ayrılığı və ciddi mübahisə deməkdir. **Münaqişə** – iki və ya bir neçə müxtəlif istiqamətlərdə olan qüvvələrin toqquşmasına deyilir.

Münaqişə sosial həyatın mühüm elementidir. İnsanların, onların müxtəlif xarakterli birliklərinin təbiətində rəqabət, fikir ayrılığı və münaqişə subyektin özünüreallaşdırma vasitələrindən biri kimi önəmli rol oynayır. Müxtəlif səviyyələrdə təzahür edən sosial proseslərin, ziddiyyətlərin münaqişəli xarakteri onların inkişafını şərtləndirən və istiqamətləndirən amil kimi çıxış edir.

Münaqişə nəzəriyyəsi e.ə.VII-VI əsrlərdə Çin filosofları tərəfindən irəli sürülmüşdür. Onlar təbiət və cəmiyyətin inkişafının mənbəyini əksliklərin mübarizəsində görürdülər. Bu problem N.Makiavellinin də diqqət mərkəzində olmuşdur.

Münaqişələrin baş vermə səbəblərinə görə mənafe, dəyərlər və tutuşdurma tiplərini ayırmaq olar. Xalqlar, millətlər, şəxslər ideya və ənənə, hakimiyyət və mənafe ayrılığına baxmayaraq bir-biri ilə ümumi məqsədlərlə, arzularla bağlıdırlar.

Azərbaycanın görkəmli mütəfəkkiri Nəsrəddin Tusi (1201-1274) özünün «Əxlaqi nasiri» əsərində qruplar arası, dövlətlər arası və s. münaqişələri bir-birindən fərqləndirmişdir və şəxsiyyətlər arası münaqişələrin yaranma səbəblərini on kateqoriyaya ayırmışdır: iftixar, iddialıq, dava-dalaş, höcət, zarafat, təkəbbür, təlxəklik, xəyanət, qisas, hərislik.

XX əsrin ortalarında münaqişə probleminə boyük diqqət yetirərək, alman politoloqu R. Darendorf, amerikan politoloqları L.Kozer və Kennet E.Bouldinq siyasi elmdə yeni istiqamətin - ***«konfliktologiyanın»*** əsasını qoymuşlar. R.Darendorf münaqişələrin formalaşmasının səbəb və inkişaf mərhələlərini müəyyən edərək, onların əsasını mənafelərin münaqişəsində görürdü. O, münaqişələri ziddiyyətlərin həll edilməsi üsulu kimi qiymətləndirirdi. Münaqişələr insanların bütün siyasi birlikləri (o çümlədən dövlətlər), onların qarşılıqlı fəaliyyəti və rəqabəti şəraitində formalaşır və mövcud olurlar.

Siyasi (içtimai) münaqişələr – ictimai proseslərin iştirakçılarının şüur və əxlaqını xarakterizə edən mübahisənin göstəricisidir.

Siyasi münaqişələr müxtəlif sahələrdə və müxtəlif formalarda ola bilərlər. Politoloqlar hesab edirlər ki, ***siyasi münaqişə hakimiyyət səlahiyyətləri və sərvətlər uğrunda mübarizə aparan iki və ya daha çox tərəfin (qrupun, birliklərin, dövlətlərin) rəqabət mahiyyətli qarşılıqlı fəaliyyətidir.***

Hər bir münaqişə üç əsas mərhələdən keçir: münaqişənin başlanması, inkişafı və sona çatması mərhələsi. Bu mərhələlər münaqişənin məzmununu təşkil edən zidiyyətlərin üzə çıxması, subyektlərin fəaliyyətində əsas amilə çevrilməsi və ziddiyyətlərin həll edilməsi mərhələsini ifadə edir. Münaqişənin mərhələləri içərisində ən mürəkkəb sonuncu mərhələ hesab edilir.

Münaqişələr müxtəlif formalarda təzahür edir: sosial, siyasi, şəxsiyyətlər arası, dövlətlər arası və s. siyasi münaqişələrin hərbi, beynəlxalq, dini dözülməzlik, ərazi iddiası və s. tipləri vardır. Siyasi münaqişələr ictimai tərəqqinin təkanvericisidir. Bu baxımdan siyasi münaqişələr növünə görə ***aqonist*** (barışdırıcı) və ***antaqonist*** (barışmaz) ola bilərlər. Aqonist münaqişələrin vaxtında həll olmaması onu xronik formasına, hətta antoqonist münaqişəyə çevrilməsinə gətirə bilər.

Obyektiv tarixi proseslər çərçivəsində münaqişələr sosial gerçəkliyə müsbət, ya da mənfi təsir göstərə bilərlər. Bu səbəbdən münaqişələrin yaranma şəraiti onun inkişaf formalarını müəyyən edir: gizli (latent) ya da açıq. Yayılmasına görə siyasi münaqişələr dövlətlər arası, dövlət, regional və yerli münaqişələrə bölünə bilərlər.

Hakim qruplar siyasi təsirin cəmiyyətdə ictimai-siyasi qarşıdurmaya çevrilməsinə imkan verməmək üçün siyasi tələbatların məhdudlaşdırılması yolu ilə münaqişəli vəziyyəti yüngülləşdirməyə çalışırlar.

Bu mövqedən qərb politoloqu Darendorf münaqişə nəzəriyyəsini inkişaf etdirərək belə bir nəticəyə gəlmişdir ki, münaqişə hakimiyyətin hegemonluq münasibətlərinin elementidir, çünki cəmiyyətdə hökmranlıq və tabeçilik münasibətləri mövcuddur (R.Darendorf. «Soial münaqişələr nəzəriyyəsinin elementləri»).

Amerika sosioloqu Kozer ictimai münasibətləri sosial qrup və fərdlərin öz subyektiv məqsədləri, yəni hakimiyyətin, soial statusun, gəlirlərin bölüşdürülməsi prinsipinin dəyişdirilməsi uğrunda mübarizə kimi qiymətləndirir. Onun fikrincə, hər bir cəmiyyətin özünəməxsus münaqişələri və sosial gərginlik halı olur və bunlar ya ictimai əlaqələrin möhkəmləndirilməsi və ya da dağıdılması məqsədlərinə xidmət edir. Münaqişələrin əhəmiyyəti ondadır ki, onlar cəmiyyəti durğunlaşmağa, süstləşməyə, ətalət vəziyyətinə düşməyə qoymur, ona yenilik ab-havasını gətirir.

Münaqişələrin subyekti kimi fərdlər, siyasiləşmiş soial hərəkatlar kimi yaranmış, formal cəhətdən sosial birliklərdə təşkil olunan (siyasi, iqtisadi strukturlar və s.) kiçik və böyük qruplar, siyasi təsiredici qruplar, kriminal qruplar, yəni müəyyən məqsədlərə nail olmaq istəyən qruplar təşkil edir.

Əgər münaqişələr beynəlxalq, sinfi, etnoslar arası, millətlər arası, icmalar arası, dini, demoqrafik, regional, lokal münasibətləri əhatə edirsə, onlar siyasi xarakter alır. Siyasi münaqişələrin mənbəyini sosial amillər təşkil edir.

İctimai həyatın müəyyən sahəsində meydana gələn, siyasi münaqişələr müxtəlif ziddiyyətlər sayəsində digər sahələrə də yayıla bilərlər. Bu baxımdan siyasi münaqişələrin subyekti dövlətlər, siniflər və sosial qruplar, etnik qruplar, siyasi partiya və hərəkatlar, ictimai təşkilatlar və mənafelərinə müvafiq olan ayrı-ayrı şəxslər də ola bilər.

Siyasi münaqişələrin təsnifatını verərkən adətən onları daxili siyasi və xarici siyasi, beynəlxalq münaqişələrə bölürlər. Daxili siyasi münaqişələrin əsas səbəbi hakimiyyət uğrunda mübarizə olduğu üçün təbliğat-təşviqat vasitələrindən istifadə olunur. Siyasi partiyaların, təşkilatların, ayrı-ayrı şəxsiyyətlərin və siyasi xadimlərin mənafelərinin, baxışlarının, fikirlərinin bir-birinə uyğun gəlməməsi, çox vaxt tam əks olması da daxili siyasi münaqişələrə aid edilir.

Xarici siyasi münaqişələrin təsnifatının əsasında hər bir münaqişənin sinfi, soial-siyasi təbiəti və onda iştirak edən tərəflərin məqsədləri və stratagiyasının əks olunduğu məzmun durur. Beynəlxalq münaqişələrin aşağıdaki **<u>tipologiyasını</u>** vermək olar:

1. Müxtəlif sosial-siyasi sistemlərə mənsub olan dövlətlərin arasında ziddiyyətləri və mübarizəni əks etdirən beynəlxalq münaqişələr.
2. Xalqın öz azadlığı uğrunda mübarizəsinin boğulması cəhdi ilə bağlı olan beynəlxalq münaqişələr.
3. Bu və ya digər dövlətlər sistemi içərəsində ziddiyytləri və mübarizəni əks etdirdirən benəlxalq münaqişələr.

Beynəlxalq münaqişələr özünün miqyası və kəskinlik dərəcəsinə görə fərqlənir. Bu mənada beynəlxalq münaqişələr böyük dağıdıcılıq potensialına malikdir. Bu barədə bütün dövlətlər, həmçinin Azərbaycan Respublikasının ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığını tanımaq mövqeyindən çıxış edirlər. Dağlıq Qarabağ ətrafında davam edən münaqişə, Azərbaycanın ərazisinin 20%-nin işğal edilməsi respublikamızın bütün vətəndaşlarını narahat edir. Yerli münaqişələrin dincliklə və ədalətlə nizama salınması, beynəlxalq hüququn normalarına və prinsiplərinə, ilk növbədə, ərazi bütövlüyü və beynəlxalq aləmdə tanınmış sərhədlərin pozulmazlığı prinsiplərinə sadiqlık, regionda təhlükəsizliyin və çoxtərəfli qarşılıqlı fəaliyyətin başlıca şərtidir.

Beləliklə, bu gün siyasi mübarizənin üsulları siyasi münasibətlərin xarakterini müəyyən edir. Hətta müəyyən ərazi zəbt olunması üzündən münaqişələrin genişlənməsi (Qarabağ, həmçinin Azərbaycanın 20% ərazisini təşkil edən 7 rayon), yaxud da müəyyən ərazi üzərində nəzarət (Abxaziya, Dnestryanı, Çeçenistan) şəraitində belə bir sual qaranlıq qalır ki, niyə görə məhz bu ərazi simvol kimi qarşıdurmanın predmeti kimi qarşıya çıxır? Münaqişəni başlamaq, silahlı qarşı durmanı təşkil etmək, hətta öz xalqını, etnik qrupları bu ərazi üstündə zorakılıq hərəkətlərinə sövq etməyə dəyərmi? Bu suala ABŞ, Ermənistan, Rusiya, Serbiya, İsrail və bəzi ölkələr cavab verməlidirlər. Bu gün dünya, xüsusilə də MDB-yə daxil olan dövlətlər başa düşməlidirlər ki, Qarabağ sindromu digər regionlarda da təkrar oluna bilər. Artıq aydın görünür ki, zorakılıq siyasəti konsepsiyası bir sıra səbəblərə görə iflasa uğrayır. Əsas səbəb ondadır ki, qlobal münaqişədə zorakılıqdan istifadə etmək imkanları öz ömrünü başa vurublar.

Beynəlxalq səviyyədə siyasi ziddiyyətlərin əsasını bir ölkənin, ya da bir qrup dövlətlərin dünya siyasi məkanda üstün rolu deyil (ABŞ, AŞ, MDB), onların ümumbəşəri işlərdə iştirakının payı vacib rol oynayır. Müasir münaqişələrin səbəbi (hətta öz milli mənafe və idealları əsasında yarananların) nəzarət altından çıxan üsulların toqquşmasındadır.

Münaqişələrin meydana gəlməsi və inkişafı təkcə obyektiv səbəblərlə məhdudlaşmır, həm də bu və ya digər dövlətin daxili və xarici siyasəti kimi subyektiv amillə də bağlıdır.

Siyasi münasibət kimi meydana gələn münaqişə daha sonra öz inkişafının nisbətən müstəqil məntiqini əldə edir. Münaqişənin məzmunu onun iştirakçılarının məqsəd və mənafeləri ilə sıx bağlıdır. Məlumdur ki, siyasi mənafelər iqtisadi mənafeni əks etdirir. Lakin münaqişə zamanı siyasi mənafelər yalnız iqtisadi mənafe ilə məhdudlaşmışdır. Dövlətin siyasətinin əsasında bir sinfin mənafeyi deyil, bütün siniflərin və sosial qrupların mənafeləri dayanır. Bundan əlavə, beynəlxalq münaqişələr prosesində onun iştirakçılarının obyektiv və subyektiv milli mənafeləri də nəzərə alınmalıdır.

Siyasi mənafe sinfi şüur prizmasından keçərək müəyyən mənada formula edilmiş və ya edilməmiş siyasi məqsəd kimi çıxış edir. Münaqişə iştirakçılarının siyasi məqsədləri əhalinin bütün təbəqələrinin mənafelərinin, milli mənafeyi özündə cəmləşdirərək sanki siyasi qüvvələrin və onların arasındakı mübarizənin nəticəsi kimi çıxış edir.

Siyasi həyat, onun məzmunu insanların, siniflərin, millət və xalqların, sosial qrupların, partiyaların, hərəkatların siyasi mənafelərinin həyata keçirilməsinin xüsusi formasını təşkil edirlər. Siyasi həyat öz əksini əldə olunmuş nailiyyətlərin qorunub saxlanmasına və inkişaf etdirilməsinə, cəmiyyətdə mövcud olan siyasi qüvvələr arasında konsensus əldə olunmasına yönəlmiş olan hakimiyyət münasibətlərində tapır. Məhz burada siyasi həyatın müxtəlif strukturları arasında ziddiyyətlər özünü biruzə verir. Lakin bu tamamilə təbii bir haldır.

Cəmiyyətin inkişafının bütün mərhələlərində ziddiyyətlər özünü biruzə verir. Lakin onlar bu və ya digər münaqişənin səbəbi kimi çıxış etmirlər. Əgər subyektin iddiaları cəmiyyətin inkişafının qanunauyğunluqlarını nəzərə alırsa, onda partlayışsız keçinmək mümkün olur. Əgər iki əks qüvvələrdən biri, yaxud da hər ikisi ictimai inkişaf prosesinin obyektiv gedişatını nəzərə almırsa onda ziddiyyət açıq mübarizəyə-münaqişəyə çevrilir.

Beynəlxalq münasibətlər siyasi vahidlər arasında olan münasibətlərdir (R.Aron) və onların məzmunu dövlətlər arasında münasibətləri təşkil edir. Bu baxımdan MDB-yə daxil olan dövlətlər bir-birinin ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını tanımaq mövqeyindən çıxış etməlidirlər.

XX əsrin 80-90-cı illəri ərzində münaqişələr haqqında nəzəriyyə və demokratik təcrübədə dialoq xəttinin üstünlük təşkil etməsi öz yerini tapdı. Dünya siyasi gərginliyin, münaqişələrin, hətta çıxılmaz vəziyyətdə keçməsindən irs qalmış sindromlara baxmayaraq kompromisslərin vacibliyini başa düşmüşdür. Müasir siyasi vəziyyət münaqişəli vəziyyətin dinc üsullarla həll olunmasını və bloklar arasında mövcud münasibətlər qəbul olunan qərarlar üzərində qarşılıqlı nəzarət sistemi yaradılmasını tələb edir.

### *2. Siyasi münaqişələrin həll olunma mexanizmləri. Siyasi konsensus*

Münaqişələrin meydana gəlməsi, kəskinlik dərəcəsi və müddəti onu ortaya çıxaran amillərdən, münaqişənin yayılması miqyaslarından, münaqişəyə cəlb olunan tərəflərin sayından asılıdır. Münaqişənin başlanmasına səbəb olan amillər nə qədər mürəkkəb və çoxşaxəli olursa, onun aradan qaldırılması da o qədər çətinləşir. Münaqişələrin həlli diplomatiyada olduğu kimi «imkanlar incəsənəti» kimi qiymətləndirilə bilər. Burada da, siyasətdə olduğu kimi uğursuzluqlar düzgün və vaxtında hərəkət etməmək, vəziyyətin çətinliyi, problemin aradan qaldırılması imkanlarının olmaması ilə izah edilir.

Məlumdur ki, münaqişələrin xarakterindən, xüsusiyyətlərindən asılı olaraq onların həlli müxtəlif yollar və vasitələrlə ola bilər. Politoloqlar münaqişələrin sona çatması mərhələsinin iki əsas variantını qeyd edirlər:

1. Tərəflərin barışmasına nail olunması, yəni münaqişənin səbəbi süni yolla yox olub gedir;
2. Tərəflərin barışmazlığı, bu təqdirdə münaqişə uzunsürən xarakter alır. Mübahisəli məsələ aradan qaldırılmadan tərəflərin mövqeyindən və davranışında dəyişikliyə nail olmaq mümkün deyildir.

E.Nordlinjer siyasi münaqişələrin müvəffəqiyyətlə həll edilməsinin altı əsas prinsipinin təhlilini vermişdir: daimi koalisiya, mütənasiblik prinsipi, siyasətsizlik, qarşılıqlı veto hüququ, razılaşma, münaqişənin həll edilməsi hüququnu üçüncü tərəfə verilməsi.

Münaqişələrin həlli üçün beynəlxalq təcrübədə xüsusi mexanizmlər işlənib və onlar öz əksini aşağıdaki metodlararda tapmışlar:

***Birinci metod*** -münaqişədən «çəkinmək». Bu ən geniş yayılmış metoddur. Bu zaman aşağıdakı hərəkətlər mümkündür: bu və ya digər siyasi xadimin siyasi səhnədən getməsi; ölkədən mühacirətə gedilməsi; əks tərəfin inkar olunması; onunla mükalimədən çəkinməsi; onun fəaliyyətinə reaksiya verilməməsi. Lakin bu hələ də münaqişənin tam aradan qaldırılması demək deyildir, çünki onun əsasında duran ziddiyyət qalır və müəyyən şəraitdə daha da kəskinləşərək üzə çıxa bilər.

***İkinci metod*** –münaqişənin həllinin sonraya qoyulmasıdır. Buna misal 1919-cu ildə Versal sülh müqaviləsi ola bilər. Almaniya və digər dövlətlər üçün o təhqiredici xarakter daşıyırdı. Tarixi təcrübə göstərir ki, öz movqeyini qorumaq məqsədi ilə geriyə çəkilmiş tərəf yenidən qüvvə topladıqca və şərait dəyişdikcə itirdiklərini geri qaytarmağa cəhd göstərir – nəticədə İkinci dünya müharibəsi başlandı.

***Üçüncü metod*** - münaqişələrin həll edilməsi uğrunda mübarizə aparan tərəflərin vasitəçilik yolu ilə barışdırılması. Vasitəçilik metodu orta əsrlərdən bəri istifadə olunur. Vasitəçi rolunda təhqiqatçı yaxud razılaşdırıcı komissiyalar çıxış edə bilərlər. Onların iş üslubu 1907-ci ildə qəbul olunan Haaqa Konvensiyasında qeydə alınıb. Son dövrlərdə belə vəzifələri münaqişələr üzrə menecerlər də yerinə yetirirlər.

Təhqiqat komissiyaları və razılaşdırıcı komissiyası münaqişələrin dinc yolla həll edilməsi üsulları sayılır. Təhqiqat komissiyaları faktların müəyyən edilməsi və təsdiqi vəzifəsini yerinə yetirir. Barışdırıcı komissiyaları isə nəinki faktların təhlilini verir, hətta tərəflər üçün konkret təkliflər, tövsiyələr də hazırlayır. Lakin hər iki komissiya fəaliyyətinin nəticələri münaqişəli tərəflər üçün mütləq xarakter daşımır. Bu kimi prosess gərginliyi bir qədər azaldır, amma dəyərlər və ideya mövqelərini razılaşdırmır. Bəzən tərəflərin məcburi barışdırılması tələb olunur. Bu komissiyaların fəaliyyət prosedurаları 1907-ci il Haaqa konfransı, 1919-cu ildə Millətlər Liqası, 1948-ci ildə BMT tərəfindən istiqamətləndirilmişdir.

Bu kimi komissiyalar bütün qitələrdə fəaliyyət göstərir. Amerika qitəsində mübahisələrin dinc yolla həll edilməsi «Baqota paktını» (30.04.1948), Afrikada «Afrika birliyi təşkilatlarının komissiyaların protokolu» (25.05.1963) və s. meydana gətirdi.

***Dördüncü metod*** - üçüncü tərəfin, yaxud arbitrajın məsələlər üzrə qərar çıxarmasıdır. Bu halda tərəflər könüllü olaraq mübahisənin həllini üçüncü tərəfə həvalə edirlər və onun çıxardığı qərara tabe olurlar. Məsələyə baxan hakimlər öz fəaliyyətlərində hamı tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normalarına, ölkənin konstitusiyasına, iştirakçı tərəfin müqavilələrinin normalarına əsaslanırlar.

Münaqişənin arbitraj ya da üçüncü qüvvə tərəfindən həll edilməsi – onun «yuxarıdan» həllini nəzərdə tutur ki, bu da münaqişənin həllini bir neçə il uzada bilər.

***Beşinci metod*** **- d**anışıqlar yoludur. Siyasi xarakteli münaqişəli vəziyyət siyasi üsullarla həll oluna bilər və burada tərəflərə onları razı salan danışıqlar prosedurunu seçirlər və danışıqlara kənar qüvvələri də cəlb edirlər. Danışıqlarda iştirak edənlərin sayı münaqişəyə cəlb olunan tərəflərin sayından asılıdır. Münaqişənin həlli ya tərəflərin kompromisə getməsini, ya da nədənsə imtina etməsini nəzərdə tutur. Lakin 80-90-cı illərdən etibarən münaqişəyə bu cür münasibət daha düzgün hesab edilmişdir. Hal-hazırda münaqişə yalnız o vaxt həll olunmuş hesab edilir ki, bütün tərəflər onu tam bitmiş hesab etsinlər, münaqişənin həqiqi səbəbləri aşkara cıxarılıb aradan qaldırılsın. Diplomatik danışıqların önəmliliyi həm də ondadır ki, münaqişələri dinc vasitələrlə yoluna qoymaq, bütün beynəlxalq müqavilə və sazişlərdən istifadə etməklə onları uğurla başa catdırmaq deməkdir.

***Danışıqlar*** – razılığa gəlməyə imkan verir, mübarizə aparan tərəflərin əməkdaşlığına yol açır. Bu da konsensus yoludur. Əgər tərəflərdən biri özünü danışıqlardan sonra incidilmiş hesab edirsə, onda əldə olunmuş razılaşdırma sabit deyildir.

Yuxarıda deyilənlərdən göründüyü kimi, mübarizə aparan tərəflər arasında münaqişənin tənzimlənməsinin başlıca yolu konsensusdur.

Münaqişənin həll edilməsinin isə üç yolu vardır:

1. Bir tərəfin digər tərəf üzərində qələbəsi (güc vasitəsi ilə məsələnin həll olunması);
2. Qarşılıqlı məcburiyyət (kompromis, üçüncü tərəfə müraciət və s.);
3. Hər iki tərəfin qələbəsi (konsensus əldə olunması).

Münaqişəli tərəflər hər iki tərəfi razı sala bilən qərara ehtiyac duyduqda, qarşılıqlı etibarı saxladıqda münaqişənin həllinin optimal variantını tapmaq mümkündür.

Konsensus (lat. dilində razılıq, birlik deməkdir) – qərarların hazırlanması və qəbul olunması metodudur, həm də beynəlxalq sazişlərin, sənədlərin qəbulu deməkdir. Bu zaman müzakirəyə qoyulan məsələ səs vermək yolu ilə deyil, razılaşdırma yolu ilə qəbul olunur.

Razılaşdırma dedikdə, danışıqlarda iştirak edən dövlətlər, hətta bu və ya digər vəziyyətlə razı olmasa da, sənədin beynəlxalq əməkdaşlıq naminə qəbul edilməsinə etiraz etmirlər.

Siyasi fəaliyyətdə konsensus bir və bir neçə subyektin birgə fəaliyyətində əks olunan ümumi iştirak, ümumi fikir, baxışlar, mövqelər deməkdir. Bu metod konfrans, simpozium, qurultay iştirakçıları tərəfindən müzakirə, mübahisə, danışıqlar əsasında bu və ya digər tərəfin etirazı olmadan kolleqial qərarın qəbul edilmə formasıdır.

Konsensus ictimai şüurun tələbatı ilə obyektiv surətdə şərtlənən universal demokratik prinsip olub istər dövlətdaxili, istərsə də beynəlxalq problemlərin həllində istifadə olunur. İlk dəfə olaraq mühüm siyasi məsələlərin həllində konsensus metodundan BMT Təhlükəsizlik Şurasının daimi üzvləri istifadə etmişdir, çünki məlum oldu ki, bu və ya digər böyük dövləti hər hansı bir qərarı yerinə yetirməyə məcbur etmək mümkün deyil. Qərar o vaxt qəbul edilmiş hesab olunur ki, tərəflərdən heç biri ona etiraz etmir. Bu qərar konstruktiv xarakter daşıyır – razılığa gələn tərəflər onun pozulmasına deyil, yerinə yetirilməsinə çalışırlar.

Qərarlar könüllü güzəşt, qarşılıqlı hörmət, bərabərlik, hər bir tərəfin mənafeyinin tanınması əsasında qəbul olunaraq, avtoritarizm və diktatı istisna edir.

Konsensus beynəlxalq fəaliyyətdə geniş istifadə edilir. Xüsusilə o, Helsinkidə «Avropa təhlükəsizlik və əməkdaşlıq problemi» üzrə 1975-ci ildə keçirilən beynəlxalq konfransda, onun Yekun Aktında (01.08.1975) öz əksini tapmışdır.

Bundan başqa bu metoddan BMT-nin dəniz hüququ haqqında III Konfrasında (1973-1982), yeni Avropa üçün Paris Xartiyası (1990) və digər konfranslarda, görüşlərdə, sammitlərdə dövlətlərarası dinc yaşayış və əməkdaşlıq vasitəsi kimi geniş istifadə edilmişdir. Konsensus – məsələnin həllinin «paketdə» (yəni ayrı-ayrı problem və sualların həlli üçün deyil, onların məcmusu formasında)baxılması ilə sıx əlaqədardır.

Konsensusun vəzifəsi – daha güclü iradəyə əsaslanma deyil, vətəndaşların iradələrinin cəmiyyətin vahid iradəsinə çevirməkdir. Konsensusun mexanizmi kiminsə rəyinə üstünlük verməyə deyil, optimal variantın tapılmasına əsaslanır. Konsensusun üstünlüyü burasındadır ki, o, partnyorlarla birgə işləməyi, onların mənafelərini nəzərə almağı, ortaya çıxan problemləri danışıqlar yolu ilə həll etməyi, yalnız zəruriyyət olduqda qanunlara müraciət etməyi nəzərdə tutur.

Siyasətin mahiyyəti siyasi rəqiblər arasında danışıqlar aparılması və konsensus axtarılması vasitəsi ilə kompromis, qarşılıqlı güzəştlər əldə olunmasıdır. Ölkədaxili ziddiyyətlərin həllində də bu metoddan müxtəlif siyasi partiyalar, hərəkatlar, təşkilatlar, cərəyanlar da mübahisəli süallarda mövqeləri əldə etmək üçün «vətəndaş həmrəyliyi», «vətəndaş razılığı», «dəyirmi stol» siyasətini həyata keçirmək üçün istifadə edilir.

Konsensusa zidd olan metod «disensus» (razılığın olmaması) adlanır.

Konsensusun formalaşmasına plyuralizm və aşkarlığın böyük təsiri vardır. Plyralizm olmadan seçim yoxdur, seçim olmadan da konsensus yoxdur. Seçim mexanizmi konsensusu formalaşdırır. Konsensusun başlıca şərti tərəflərin bir-birinə qarşı dözümlü münasibətdir. Lakin bu dözümlülüyün əsasında vətəndaş cəmiyyətinin əsas xassəsi olan siyasi mədəniyyət dayanır. Amma bizim ictimai psixologiyamız səbirsizliklə səciyyələnir ki, bu da ölkə daxilində siyasi qüvvələrin parçalanması ilə xarakterizə olunur. Qərb dövlətlərində demokratiya qanunla, nizam-imtizamla, qayda ilə uyğunlaşır. Bizdə isə siyasi mübarizədə bir siyasi qüvvənin digərləri üzərində inhisları cəmiyyətin disharmoniyasına gətirir, bir sıra ictimai qrupların mənafelərinə etinadsızlıq göstərilir. Mübarizə aparan mənafelər, prinsiplər, ideyalar arasında münaqişənin həlli siyasi fəaliyyətin mühüm istiqamətlərindən birini təşkil edir. Lakin siyasi münaqişələrin həll edilməsi vacibdir, çünki bu bəşəriyyətin inkişafının yeganə yoludur.

# 16-cı MÖVZU

## DÜNYA İNKİŞAFININ MÜASİR DOKTRİNALARI

### *1. Dünyanın sosial-siyasi inkişafına müasir baxışlar*

Müasir dunya çox böyük və nəhəng bir sistemdir. Bu sistemə bir-biri ilə iqtisadi, siyasi, mədəni, elmi-texniki və s. münasibətlərlə bağlı olan çoxlu sayda dövlətlər daxildir. Bu dövlətlər həm BMT çərçivəsində, həm də digər müxtəlif ittifaqlar, qruplaşmalar daxilində qarşılıqlı əməkdaşlıq edirlər. XX əsrin sonlarında iki sistemin qarşıdurmasının aradan qalxması beynəlxalq münasibətlərə yeni məna vermişdir.

Dünya inkişafının yenidən dərk edilməsinin zəruriliyi əsasən insan cəmiyyətinin iki yeni cəhəti ilə bağlıdır. Birincisi, daha da kəsginləşmiş qlobal problemlər çox vacib və təxirəsalınmaz əhəmiyyət kəsb edir. Bunlardan başlıcası - dünyanın sonrakı mövcudluğu problemidir. Doğrudan da dünya öz inkişafında elə bir hala yaxınlaşmışdır ki, hər hansı bir təhlükəli hadisə faciəli xarakter daşıya bilər. Buraya nüvə və digər kütləvi qırğın silahlarının artması ilə yanaşı ekoloji, demoqrafik, energetika, ərzaq və digər böhranlar təhlükəsinin artmasını da aid etmək olar.

İkincisi, elmi-texniki inqilabın genişlənməsi nəticəsində məhsuldar qüvvələrin inkişafı ictimai həyatın beynəlmiləlləşdirilməsi proseslərinin sürətlənməsinə, ziddiyyətli olsa da, bütöv qarşılıqlı əlaqəli və asılı dünyanın qurulmasına gətirib çıxarır.

Bəşəriyyətin qarşılaşdığı belə bir vəziyyət hər bir ölkənin, xalqın nümayəndələrindən, siyasi xadimlərdən daha ölçülüb - biçilmiş elmi siyasətin hazırlanmasını və həyata keçirilməsini tələb edir. Həm nəzəriyyə, həm də praktika belə bir siyasətin hazırlanmasını zəruri edir. Müasir dövrdə bu yeni xətt yeni siyasi təfəkkür və yaxud yeni təfəkkür kimi ifadə edilir.

Yeni siyasi təfəkkür fəlsəfi kateqoriyadır. O, siyasi şüur sahəsində formalaşır, ümumbəşəri mənafelərin üstünlüklərinə əsaslanır və başlıca olaraq müxtəlif ictimai-siyasi quruluşlu ölkələr arasındakı dövlətlərarası münasibətləri əks etdirir.

1968-ci ildə rus alimi və ictimai xadim akademik A.Saxarov «Tərəqqi, dinc yanaşı yaşama və intellektual azadlıq haqqında düşüncələr» kitabını yazdı. Bu kitabda irəli sürülən iki əsas ideya bunlardır:

1. Cəmiyyətdə parçalanma labüddür.
2. İnsan cəmiyyətinə bütün sferalarda intellektual azadlıq lazımdır.

Ümumbəşəri mövqelərin üstünlüyünü dərk etmək şüurlarda dərin inqlab aparılmasını tələb edir. İnkişaf etmiş ölkələrdə geniş iqtisadi və sosial ineqrasiya nəticəsində bu sahədə müəyyən nailiyyətlər əldə edilmişdir. İndi isə bu sahədə qarşıda daha mühüm vəzifələr durur.

Ölkələr arasındakı münasibətlərdə ümumbəşəri sərvətlərə üstünlük vermək dünyada yeni siyasi vəziyyət yaradır. Bu vəziyyəti beynəlxalq münasibətlərin ideologiyasızlaşması kimi adlandırmaq olar. ***İdeologiyasızlaşma*** yad fikirliyə nifrət və etiraz oyatmaq üçün «düşmən obrazının» yaradılmasına son qoyulmasının təmin edilməsi deməkdir. İdeogiyasızlaşma həmçinin sosial-fəlsəfi, dini, mənəvi və digər azadlıqların inkişaf etdirilməsinə şərait yaradılması deməkdir.

Müasir dövrün xarakterik cəhətlərindən biri bütün həyat sferalarının, xüsusən də iqtisadiyyatın beynəlmiləlləşməsidir. İnkişaf etməkdə olan ölkələr neftin 94%-ni, dəmir filizinin 45,5%-ni dünya bazarlarına çatdırırlar.

Yeni siyasi təfəkkürün geniş yayılması ilə əlaqədar olaraq «konvergensiya» nəzəriyyəsinin tərəfdarlarının fəaliyyəti güclənməyə başlamışdır. Uzun illərdir ki, bu nəzəriyyə Qərb ölkələrində çox geniş yayılmış ümumi sosioloji siyasi nəzəriyyələrdən biridir. Bildiyimiz kimi «konvergensiya» termini politologiya və sosiologiya elminə biologiya elmindən gətirilmişdir; bu termin orqanizmlərin eyni həyat şəraitində uyğunlaşması nəticəsində onların bədən qurluşunda və funksiyalarında oxşarlığın əmələ gəlməsini ifadə edir. Qeyd etmək lazımdır ki, sovet siyasi və ictimai fikrində konvergensiya nəzəriyyəsi qəbul edilmirdi və ona qarşı bir çox tənqidi materiallar çap edilmişdi. Bir çox başqa hallarda olduğu kimi, bu nəzəriyyədə də mövcud olan müsbət fikirlər, tənqidi qeydlər və pozitiv təkliflər rədd edilmişdir. Son zamanlar elmi ədəbiyyatda, qəzet və jurnalların səhifələrində konvergensiya nəzəriyyəsinin tərəfdarları müxtəlif ictimai-siyasi quruluşlu dövlətlər arasında ziddiyyətlər, onların siyasi, iqtisadi, hərbi qarşıdurmasının qızışdırılması deyil, qərb və şərq ölkələri arasında daha çox oxşar cəhətləri və eyni tipli sosial hadisələri araşdırırlar. Onlar

qeyd edirlər ki, müasir dünyada baş verən dərin ictimai – siyasi hadisələr nəticəsində ölkələr daxilində iqtisadi və siyasi sahədə baş verən dəyişikliklər nəticəsində bu «ümumilik» halları artır və nəticə etibarılə Qərb və Şərq ölkələri oxşar xətlər üzrə vahid iqtisadi, sosial və siyasi inkişaf yoluna qədəm qoyurlar. Gələcəkdə isə bəşəri miqyasda iqtisadi və sosial birlik yaranacaqdır. Konvergensiya nəzəriyyəsinin tərəfdarları tərəfindən müxtəlif konsepsiyalar irəli sürülmüşdür ki, bu haqda biz irəlidə geniş danışacayıq.

Politoloqların fikrincə sivilizasiyanın mövcudluğunu təmin etmək üçün dünya inkişafında aşağıdakı obyektiv dəyişiklikləri həyata keçirmək zəruridir: hərbi xərclərin qəti surətdə azaldılması; bəşəriyyətin texnoloji inkişafının xarakterinin dəyişdirilməsi və onun hərbi yönümünün aradan qaldırılması; böhranların, konfliktlərin aradan qaldırılması mexanizminin səmərəliliyinin artırılması; bütün dünya birliyi tərəfindən vahid ekoloji siyasətin qəbul edilməsi; «üçüncü dünya» ölkələrinin geriliyinin aradan qaldırılması üçün geniş miqyaslı birgə lahiyələrin həyata keçirilməsi və s.

Bu yolda əsas məsuliyyət və vəzifə nüvə silahına malik olan ölkələrin üzərinə düşür. Lakin bununla yanaşı çətin beynalxalq problemlərin, konflikt halların aradan qaldırılmasında böyüklüyündən və kiçikliyindən asılı olmayaraq bütün dövlətlər iştirak edə bilərlər və etməlidirlər.

Bütün ölkələr öz milli mənafelərini unutmaq şərti ilə dünyanın qorunması məqsədilə daha sıx surətdə birləşməlidirlər.

Müasir beynalxalq münasibətlər militarist şüurun zorakılıq qüvvəsinə arxalanan məngənələrdən çıxmalıdır. Yeni təffəkür qarşıya böyük humanist məqsədlər qoyur, yəni siyasətin ümumibəşəri mənəviyyat normalarından qoparılıb ayrılmasına son qoymaq, beynəlxalq münasibətləri humanistləşdirmək, nüvə silahsız və zorakılıqsız dünyanın quruculuğuna başlamaq.

### *2. Dünya inkişafına dair müasir doktrinalar*

Dünyada baş verən müsbət dəyişikliklərə, ideologiyasızlaşma proseslərinə baxmayaraq bu gün də bəzi ideoloqlar liberal-islahatçı mövqelərindən radikal - nihilist mövqelərə keçməkdə davam edirlər.

Nihilizm (lat. nihil – heç nə ) – ümumi qəbul edilmiş dəyərlərin: ideyaların, əxlaq normalarının, mədəniyyətin, ictimai həyat formalarının inkar edilməsi deməkdir və ictimai-tarixi inkişafın böhranlı dövrlərində xüsusilə geniş yayılır.

Bu özünü bəşər cəmiyyətinin və sivilizasiyasının gələcəyi barəsində bədbin proqnozlarda göstərir. Həmin bədbin əhval-ruhiyyənin nümayəndələrindən biri Amerika sosial filosofu və iqtisadçısı Robert Haylbronerdir. Onun əsərlərindəki ictimai inkişaf konsepsiyası Qərb mətbuatında «ekoloji təfəkkürün ikinci nəsli» kimi qiymətləndirilir. Haylbroner müasir ekoloji hərəkatın ideoloqu roluna can atır. Onun konsepsiyasının əsas ideyası budur ki, dövrümüzün qlobal problemlərinin həllində təbiətlə qarşılıqlı əlaqədə kapitalizmlə sosializm arasındakı əksliklər kənara qoyulmalıdır.

Haylbronerin liberal reformizmdən radikal nihilizm mövqelərinə keçməsi ilə əlaqədar onun iki müxtəlif «gələcəyin ssenarisi» vardır.

I. Liberal- reformist ssenaridə o, kapitalizmin məhv olacağını bildirir və oxucunu da qabağcadan buna hazırlayır. II. Radikal- nihilist ssenaridə o, yetmişinci illərdə, kapitalizmin məhvinə təəssüfləndiyini bildirir və onun əvəzinə «qeyri-kapitalist» cəmiyyət konsepsiyasını irəli sürür.

I ssenari Haylbronerin «Amerika kapitalizminin həddi» kitabında şərh edilib. Bu kitab yeni sollar hərəkatının inkişafı dövründə yazılıb. Əsərdə kapitalist sistemi tənqid edilir və qeyd edilir ki, bu sistem nə elmi-texniki inqlab, nə də ümumdemokratik tələblərə uyğun gəlmir.

ETİ və kapitalizm arasındakı konfliktdə, bir tərəfdə hakimiyyəti əldə saxlamağa çalışan azlığın imtiyazları, digər tərəfdə isə cəmiyyətin radikal dəyişdirilməsini tələb edən çoxluğunun mənafeyi durmuşdur.

«Biznes sivilizasiyasının süqutu» adlı kitabında Haylbroner kapitalizmdən sonra nə olacaq sualına cavab verərkən o, yazır ki, fikrimizcə «inqilab» olmayacaqdır: o belə bir nəticəyə gəlir ki, biznes sisteminin dağıdılması tədricən «kapitalist» adlandırıla bilən biznes sivilizasiyasının növ dəyişməsi kimi baş verəcəkdir ki, digər yeni yaranmış növ isə bu sistemlə oxşar cəhətlərini müəyyən dövrdən sonra itirəcək və onu artıq köhnə adla, yəni kapitalizm adlandırmaq mümkün olmayacaqdır. Haylbroner qeyd edir ki, kapitalizmin ənənəvi əsasları olan xüsusi mülkiyyət və bazar mexanizmi əsaslı dərəcədə dəyişdiriləcəkdir. Haylbronerə görə geridə qalmış ölkələrdə demoqrafik və ekoloji böhranlar nəticəsində hakimiyyətə millətçi və militarist hökümətlər keçəcəklər. Qabağcıl ölkələrə çata bilmədiklərinə görə onlar müasir kütləvi qırğın silahları əldə edəcək, iri sənaye ölkələrində toplanmış və istehsal edilən sərvətlərin hədə-qorxu ilə öz xeyrlərinə yenidən

bölünməsini tələb edəcəklər. İnkişaf etmiş ölkələr bunun müqabilində silah və hərbi güc vasitəsilə «qabaqcadan istila» siyasətini həyata keçirəcəklər.

İnkişaf etmiş ölkələrin daxilində ziddiyyətlər kəskinləşəcəkdir, kasıblar milli sərvətdən aldıqları payın artırılmasını tələb edəcəklər. Bu isə Haylbronerin dediyi kimi, «nəinki bir sinfi digərinə, həmçinin hər bir adamı başqasına qarşı qaldıracaqdır». Hamının hamıya qarşı müharibəsi başlanacaqdır. Bu halda demokratiya və insan hüqüqlarının saxlanması qeyri-mümkün olacaq və bütün dünyada avtoritar millətçi hökümətlər hakimiyyət başına gələcək. Özünün ideyalarını yekünlaşdıraraq Haylbroner bu çətinliklərdən çıxış yolunun olmamasını qeyd edir.

Gələcəyin proqnozunu vermiş görkəmli politoloqlardan biri amerikalı alim C.Helbreytdir. O, 1967-ci ildə «yeni industrial cəmiyyət» kitabını çap etdirmişdir. Burada Helbreyt müasir cəmiyyətdə intellektual – mənəvi motivlərin əhəmiyyətinin artması, sosial həyatın yaxşılaşdırılması kimi humanist vəzifənin ön plana çıxması ideyasını irəli sürür. Gələcək cəmiyyət bütövlükdə ziyalıların, pedaqoq alimlərin siyasi fəaliyyət və siyasi rəhbərlik təşəbbüsünü öz üzərlərinə götürmələrindən asılıdır. Helbreytin konsepsiyasına görə hakimiyyət yeni amilin – «texnostrukturun əlinə keçəcəkdir». Heylbreytə görə «texnostruktur» - xüsusi bilik, bacarıq, təcrübəyə malik çoxsaylı insanlar üçündür. Bu qrupa müasir sənaye korporasiyalarının ən yüksək vəzifəli qulluqçularından tutmuş orta vəzifəli şəxslər də daxildir.

İctimai inkişafın bütöv konsepsiyasını yaratmaq sahəsində daha qəti cəhdi Daniyel Bell etmişdir. Hazırda politologiya elmində aparıcı yerlərdən birini tutan «postindustrial cəmiyyət» konsepsiyasının əsasını D.Bell XX əsrin əllinci illərinin axırlarında qoymuşdur. Cəmiyyətin «industrial» sistemindən «postindustrial» sistemə keçməsi beş əsas amili özündə birləşdirir: 1) iqtisadi amil; əmtəə istehsalından «xidmət iqtisadiyyatına» keçilməsi; 2) yüksək təhsilli peşə-texniki mütəxəssislər sinifinin hakimiyyətə gəlməsi; 3) özül prinsipi; cəmiyyətdə kəşflərin və siyasi qərarların mənbəyi kimi nəzəri biliklərin başlıca rolu; 4) texnika üzərində nəzarət və elmi-texniki yeniliklərin qiymətləndirilməsinin mümkünlüyü; 5) «intellektual texnologiya» bazasının yardılması əsasında qərarların qəbul edilməsi.

Bellin fikrincə rəqabətin, bazarın mənfəət əldə etmək həvəsinin yerinə həqiqi insan mədəniyyəti, əxlaqi sərvətlər və siyasi həyata marağın artması gələcəkdir.

D.Bell cəmiyyəti üç sahəyə – iqtisadiyyat, siyasət və mədəniyyətə bölür. İqtisadiyyatda əsas prinsip – səmərəlilik, siyasətdə bərabərlik, mədəniyyətdə – özünü realizə etmək təşkil edir.

D.Bell, C.Helbreyt, Z.Bzejinski və başqalarının ideyaları ilə bağlı olaraq «kompyuter» cəmiyyəti nəzəriyyəsinin əsas istiqamətləri hazırlanmışdır.

ETİ – nin yeni dalğası cəmiyyət həyatının bütün sahələrinə təsir göstərir. EHM, fərdi kompyüterlər və digər məlumat – hesablama texnikası nəinki məişət xidməti sahəsində daha çevik və səmərəli əməliyyatlar aparmağa imkan verir, həmçinin istehsalatın, sosial proseslərin idarə edilməsi və proqnozlaşdırılmasında qlobal miqyasda böyük əhəmiyyət kəsb etməyə başlayır.

Bu isə «xalis demokratiyaya» keçməyə imkan yaradır, çünki kompyüterləşmə demokratiyaya daha çox insan cəlb etməyə, hakimiyyəti mərkəzdən kənar idarə etməyə imkan yaradır. Amerika texnokratlarının bu ideyasını inkişaf etdirərək C.Pelton «Qlobal söhbət, kompyüterlər, dünya kommunikasiyaları və insanın ittifaqı» kitabında qeyd edir ki, «telekompyüter - energetikanın» inkişafı «vahid informasiya» cəmiyyətinin qurulmasına gətirib çıxarır.

Elektronika tərəfindən yaradılmış yeni sosial və demokratik təsisatlar antoqonizmləri sıxışdırıb çıxarır və qəbul edilən bütün qərarların məsuliyyətini kompyüter öz üzərinə götürür. Bu, EHM-in köməyi ilə idarə edilən nə kapitalist, nə də ki, sosialist cəmiyyəti deyil, vahid planetdir. Bu da cəmiyyətin inkişafının sabitliyinə zəmanət verir. Bu siyasi proqramlarsız və şüarlarsız, siniflər toqquşması və qarşıdurması olmayan bir cəmiyyətdir.

Gələcəyin qlobal modellərinin hazırlanmasında Roma klubunun da rolu böyükdür. Roma klubunun əsası 1968-ci ildə İtaliya iqtisadcısı, ictimai xadim, biznesmeni A.Peççey (1908-1984) tərəfindən qoyulmuşdur. Roma klubu alimləri, biznesmenləri, ictimai-siyasi xadimləri öz ətrafında birləşdirən ictimai, qeyri-hökümət təşkilatdır. Onlar bir-biri ilə qarşılıqlı əlaqədə olan beş əsas sistemi öyrənmişlər:

1) əhali;
2) kənd təsərrüfat istehsalı;
3) təbii ehtiyatlar;
4) sənaye istehsalı;
5) ətraf mühit.

Tədqiqat əsasında qlobal miqyaslı insan cəmiyyəti modeli yaradılmışdır. Bu modelə nəinki əhali artımı ehtiyatlarından istifadə və s., həmçinin onların qarşılıqlı əlaqəsi də daxil edilmişdir. Bunun nəticəsində belə bir meyl qeydə alınmışdır ki, 2100-cü ildə bütün göstəricilər kəskin surətdə aşağı düşməyə başlayacaqdır. Əvvəlcə bərpa olunmayan ehtiyatların hasili azalacaq, sonra isə ərzaq böhranı və s., hətta ölüm halları kəskin artacaq. Bu isə əhalinin və sənaye məhsulunun azalmasına gətirib çıxaracaqdır.

«İnkişaf həddi» (Roma klubunun ilk məruzəsi) adlannan bu tədqiqatda aşağıdakı həqiqətlər ifadə olunur: «Əgər dünyada sənayeləşmənin, çirklənmənin və yeyinti məhsulu istehsalının artmasının müasir inkişaf meyli qalarsa, planetin iqtisadi inkişaf həddi yüz il ərzində başa çatacaq».

Müəlliflər bu vəziyyətdən çıxış yollarını da göstərirlər. Tarazlığı saxlamağın əsas şərtlərindən biri – doğum səviyyəsinin kəskin azaldılmasıdır. Onların fikrincə qlobal tarazlıq bütün insanlara böyük kapital qoyuluşu tələb etməyən, onların tələbatını ödəyən sahələrə (təhsil, rəssamlıq, musiqi, dil, fundamental elmi tədqiqatlar, idman və s.) çox səy yönəltməyə imkan verir. Texniki tərəqqi isə yalnız qlobal mütənasibliyi saxlamaq üçün lazımdır.

Roma klubunda ikinci məruzə «Bəşəriyyət dönüş nöqtəsində» adlanır. Bu məruzə M.Mesaroviç (ABŞ) və E.Pestel (Almaniya) tərəfindən hazırlanmışdır. Birinci və ikinci məruzə öz nəticələrinin xarakterinə görə bir-birindən çox da fərqlənmir. Əgər birinci modeldə dünya bütövlükdə götürülürdüsə, Mesaroviç və Pestel dünyanı sosial-siyasi, iqtisadi, coğrafi və s. cəhətlərinə görə fərqlənən on regiona bölürlər. Müəlliflərin əsas nəticəsi: dünyanı bir-birindən fərqlənən, lakin qarşılıqlı əlaqədə olan bir sistem kimi nəzərdən keçirmək lazımdır. Regionların xüsusiyyətləri ilə bağlı olaraq onların bəzilərində böhran halları daha tez başlaya bilər. Böhranların əsas səbəblərindən biri regionlararası inkişaf proseslərinin uzlaşdırılmasıdır. Birinci məruzədən fərqli olaraq, onlar dünya inkişafının ləngidilməsini deyil, üzvi inkişafın, yəni qlobal miqyaslı inteqrasiya yolu ilə coğrafi, sosial-iqtisadi, sosial-mədəni xüsusiyyətlərin nəzərə alınması yolu ilə inkişafın tərəfdarlarıdırlar.

Birinci məruzədə olduğu kimi, onlar ikinci məruzədə də bəşəriyyətin bütün problemlərinin səbəbini əhalinin artmasında görürlər. Buna görə də əhalinin artımı üzərində səmərəli nəzarəti, doğum və ölüm arasında mütənasibliyin əldə edilməsini zəruri sayırlar. Bir şəxsin ölümü faciədir, lakin milyonların məhvi statistikadır, yüz milyonların ölümü isə bütün dünya üçün görünməmiş faciədir. Dünya ölkələri arasında qarşılıqlı münasibətlərdə artan gərginlik yuxarıda deyilənlərə nəticə hazırlayır. Onlar bütün ölkələri iqtisadi, elmi və texniki sahədə, ətraf mühitin qorunması sahəsində birgə fəaliyyətə çağırırlar.

Qeyd etmək lazımdır ki, son zamanlar Qərb və Amerika politologiyasında «texniki determinizm» nümayəndələri arasında inamsızlıq meydana gəlmişdir. Texnika və texnologiyinın inkişafı ilə bağlı ümidlər özünü tam doğrultmur. Ölkələr qarşısında duran bir çox problemlər hələ də qalmaqdadır. Belə ki, insan əlləri ilə yaradırmış yeni texnologiya artıq onun özünə təhlükə yaradır. Bu özünü xüsusilə hərbi sənaye kompleksinin inkişafında göstərir.

Bəzi politoloqlar hətta xalqı inqilaba çağırırlar. Belə ki, T.Rozzakın fikrinə görə, bəşəriyyət çörək xatirinə, sosial ədalət və milli istiqlaliyyət naminə inqilab tələb edir. Dünyanın yeni inqilaba ehtiyacı var. Bu inqilabın əsas məqsədi insanın təfəkkür qabiliyyətinin məhdud çərçivədən azad olunmasıdır. Digər tərəfdən onlar nə kapitalizm, nə də ki, sosializm cəmiyyətinin inkişaf perspektivlərinin görmədiklərini bildirirlər. Görkəmli politoloq O.Toffler kapitalizm və soializm salamat qala bilərmi sualına cavab verərkən qeyd edir ki, onların hər birinin özünəməxsus fəal xüsusiyyətləri vardır. Onların hər ikisi köhnəlmişdir.

Qeyd etmək zəruridir ki, dünya inkişafının müasir doktrinaları müxtəlifdir. Lakin bir halı xüsusi göstərmək istərdik ki, hər bir doktrinaya bəşəriyyətin bu günü və sabahına maraq, narahatçılıq, inam və ümid hissləri xasdır. Bu isə onu göstərir ki, bütün mütərəqqi elm, mədəniyyət və siyasət zəhmət adamlarının birgə səyi ilə planetimizi hər cür təhlükədən qorumalı, onu gələcək nəsillər üçün salamat saxlamalıdır.

### *3. Elita nəzəriyyələri və onların mahiyyəti*

***Siyasi Elita.*** «Elita» sözü fransız dilindən tərcümədə «ən yaxşı», «seçilmiş» mənasını verir. Siyasi elmdə bu anlayışa ilk dəfə 20-ci əsrin əvvələrində Sorelin və Paretonun əsərlərində rast gəlinir. Siyasi təlimlərdə elita sözü malik olduğu yüksək keyfiyyətlərinə görə kütlələrdən seçilən və onlara rəhbərlik etməli olan xüsusi qrupu ifadə etmək üçün işlədilir. Bu anlayış qabarıq şəkildə özünü büruzə verən siyasi və idarəetmə keyfiyyətlərinin və funksiyalarının daşıyıcılarını səciyyələndirir.

Elita anlayışının meydana gəlməsi cəmiyyətin sosial strukturu haqqında təsəvvurlərin formalaşmasının birbaşa təsirinin nəticəsi hesab edilə bilər. Lap qədim dövrlərdən – hələ icma cəmiyyəti dağılmağa başladığı zamandan etibarən cəmiyyətin nəinki yaxşılara və pislərə, aristokratlara və sadə adamlara bölünməsi, habelə

belə bir bölgünün ədalətli və zəruri olması haqqında baxışlar qərarlaşıb yayılır. Tarixin müxtəlif dövrlərində, ayrı-ayrı siyasi rejimlər şəraitində cəmiyyətin bu cür qruplara bölünməsi konkret məzmun və məqsəd daşımışdır. Burada kiçik bir qrupun çoxluq üzərində ağalığına haqq qazandırmaqdan tutmuş cəmiyyətin səmərəli idarə edilməsi təminatı kimi böyük amplituda fərq nəzərə çarpır. Müasir elita anlayışı bir çox cəhətdən cəmiyyətin haqqında sözü gedən bölgüsü barədə təsəvvürlərə əsaslansa da, məzmunca əhəmiyyətli dərəcədə zənginləşmiş, daha konkret cizgilər kəsb etmişdir. O, siyasətin, hakimiyyətin və onların daşıyıcılarının cəmiyyətdə rolu və yeri haqqında aydın və hərtərəfli təsəvvürlərə əsaslanır.

Müasir siyasi elmdə elita anlayışının müxtəlif tərifləri verilib. Paretonun fikrincə, elita öz fəaliyyəti sahəsində ən yüksək indeks göstərici qazanmış insanlardır. Moskanın tərifinə görə, cəmiyyətin hakimiyyətə can atan, siyasi cəhətdən ən fəal üzvlərindən ibarət mütəşəkkil azlığı elita hesab olunur. Orteqa –i Qassetin tərifinə görə, elita cəmiyyətdə daha yüksək hörmətə və statusa, zənginliyə malik, kütlələrdən intellektual və ya mənəvi keyfiyyətləri ilə fərqlənən insanlardır. Bundan əlavə, elita dedikdə M.Veber harizmatik şəxsiyyətləri, Dyüpre cəmiyyətdə yüksək mənsəb sahibi olub, tərəqqiyə təkan vermək iqtidarında olan insanları başa düşürdü.

Elita haqqında müasir təsəvvürləri sistemləşdirmək əsasında belə bir ümumi nəticəyə gəlmək olar: siyasi elita cəmiyyətin daxilən rəngarəng, bu və ya digər dərəcədə idarəetmə funksiyalarını yerinə yetirmək keyfiyyətlərinə və qabiliyyətlərinə malik olan, ictimai strukturlarda rəhbər mövqe tutan və cəmiyyətdə siyasi qərarlar qəbul edilməsinə təsir göstərən mütəşəkkil azlığıdır. Siyasi elitanı səciyyələndirən başlıca cəhətlər odur ki, o, cəmiyyətin siyasi həyatında aparıcı mövqe tutur, xalqı təmsil etmək iddiasından çıxış edir və böyük imtiyazlara malikdir. Demokratik cəmiyyətlərdə elitanın bu ümumi əlamətləri onun bu və ya digər dərəcədə kütlələrin nəzarəti altında fəaliyyət göstərmək məcburiyyətində qalması, habelə öz tərkibinə cəmiyyətin bütün təbəqələrindən çıxmış, lakin zəruri keyfiyyələrə və peşəkarlığa malik olan vətəndaşları qəbul etməsinin adi hal alması kimi yeni xüsusiyyətlərlə tamamlanır.

Siyasi elitanın meydana gəlməsi və mövcudluğu mexanizmi mürəkkəb təbiətə malikdir. Ümumi kütlədən fərqlənən xüsusi seçmə təbəqənin yaranmasını təmin edən amillər və şərtlər müxtəlifliyi ilə seçilir. Lakin bunların sırasında soial orqanizmin tamlığını, bütövlüyünü və həyat qabiliyyətini qoruyub saxlamaq məqsədləri güdən mexanizmin zəruriliyi kimi həlledici amil xüsusi vurğunlanmağa layıqdir. Cəmiyyət spontan şəkildə meydana gələn mexanizmlər vasitəstilə özünün ən fəal, ictimai tələbatı dərk edən, onun həyata keçirilməsinə təminat verə bilən üzvlərini seçir. Hər bir cəmiyyətin ən qabağcıl, fəal, yüksək mənəvi və peşə keyfiyyətləri ilə seçilən təbəqəsini elita təbəqəsinə seçib gətirmək vərdişlərinə və imkanlarına malik olan millət sosial tərəqqi üçün etibarlı mənbə hazırlanmış olur. Əksinə, elitanı mənəvi və əxlaqi deqradasiyaya uğramış insanlar hesabına formalaşdıran cəmiyyətlər tarixi tərəqqinin artan tempi ilə ayaqlaşa bilmir, bütün sahələrdə tənəzzülə düçar olur.

Siyasi elm elitanın meydana gəlməsi və mövcudluğunu şərtləndirən başlıca amilləri müəyyənləşdirib. Bunlar aşağıdakılardır:

1) insanların psixoloji və sosial qeyri-bərabərliyi, onların siyasətdə iştirak etmək imkanlarının, qabiliyyətlərinin və istəklərinin müxtəlifliyi;
2) idaretmə fəaliyyətinin səmərəsini qaldırmaq məqsədilə onun xüsusi peşə növü kimi ayrılması;
3) idarəetmə əməyinin yüksək ictimai əhəmiyyəti və müvafiq surətdə həvəsləndirilməsi;
4) idarəçilik əməyinin sosial imtiyazlara imkan və şərait yaratması;
5) əhalinin böyük əksəriyyətinin siyasi passivliyi və idarə olunmağa meylli olması.

Siyasi elita öz tərkibinə görə rəngarəngdir. Bu rəngarənglik elitanın bir çox əlamətlərə görə bir-birindən fərqlənən çoxsaylı müxtəlif tiplərinin mövcudluğunda ifadə olunur.

Siyasi həyatda roluna, siyasi qərarların qəbul edilməsində iştirak etmək dərəcəsinə görə elita yüksək elita və orta elita kimi iki başlıca qrupa bölününr.

Yüksək elita siyasi qərarların qəbul edilməsində bilavasitə iştirak edir. Yüksək elitanın xarakteri, tərkibi, əhatə dairəsi əsas etibarilə cəmiyyətin siyasi sisteminin təbiətindən, idarəçilik üsullarından asılıdır. Onu bir qayda olaraq dövlət idarəçiliyi strukturunda yüksək mövqeyə malik, yaxud siyasi qərarların qəbul edilməsinə təsir göstərə bilən böyük nüfuzlu şəxslər təşkil edir.

Yüksək elitanın fəaliyyətinin səmərəliliyi bir yandan onun səlahiyyətlərinin miqyasından, digər tərəfdən isə optimal say nisbətinin müəyyənləşdirilməsindən asılıdır.

Orta elita daha çoxsaylı olub, üç başlıca əlamətə əsasən müəyyən edilir: gəlirin səviyyəsinə görə, peşəsinə görə və təhsilinə görə. Qeyd edilməlidir ki, orta elitanı təşkil edənləri yuxarıda sadalanan əlamətlərin

eyni zamanda hər üçü, yaxud ayrılıqda biri və ya ikisi səciyyələndirə bilər. Orta elitanı fərqləndirən əlamətlərdən yalnız biri və ya ikisi üzrə ən yüksək göstəricilərə malik olanlar marginal elita qrupuna aid edilir. Aparılan tədqiqatlar göstərir ki, təhsil səviyyəsi yüksək olan, lakin gəlirləri bu səviyyəyə uyğun gəlməyən insanlar mövcud ictimai qaydalara tənqidi münasibəti və öz siyasi mövqelərində sol radikalçılığa, yaxud mərkəzçiliyə meyl etmələri ilə seçilir. Eynilə də gəlirləri yüksək olan, lakin təhsil səviyyəsi yüksək olmayan insanlar qrupu cəmiyyətdəki mövqeyindən, nüfuzundan, hörmətindən narazı qaldığından, sağçı siyasi mövqe seçir. Belə bir vəziyyətin yaranması səbəbi ondadır ki, yalnız yüksək gəlir və ya yüksək təhsil səviyyəsi cəmiyyətdə lazımi mövqe və nüfuz qazanmağa kifayət etmir.

Yüksək gəlir sahibi olan, lakin kifayət qədər təhsil səviyyəsi olmayanlar cəmiyyətdə gəlirlərinin səviyyəsinið uyğun ictimai status qazana bilmədiyindən sosial qaydalardan narazı qalır.

Eyni minvalla, yüksək təhsil səviyyəsi əldə edən, lakin yüksək gəlirə malik olmayan vətəndaşlar da özlərinə təhsillərinə uyğun ictimai status təmin edə bilmədiyindən cəmiyyətdəki sosial qaydalarla barışmaq istəmirlər. Buna görə də marginal elitanı yüksək təhsil səviyyəsi, gəliri və peşə statusu bir-birinə uyğun olan təbəqə təşkil edir. Məhz bu təbəqənin siyasi baxışları, mövqeyi, dəyərlər sistemi və davranış qaydaları hər bir cəmiyyətin siyasi reallıqlarını, abi-havasını müəyyənləşdirir. Tədqiqatçıların fikrincə, orta elita ölkə əhalisinin təxminən beş faizini təşkil etdikdə optimal hesab oluna bilər.

Elitanın digər əlamətlərə görə də təsnifatı mövcuddur. Formalaşma mənbələrinə görə elitanın aşağıdaki tipləri mövcuddur:

1) İrsi elita. Buraya aristokratiya daxildir.
2) Nüfuz elitası-cəmiyyətdə yüksək ictimai və ya dövlət mövqeyi olan insanlar.
3) Funksional elita – yüksək peşə hazırılığına malik olan və idarəetmə strukturunda çalışanlar.

Bundan əlavə, elitanı dövlət hakimiyyətinə malik olan insanlardan təşkil edilmiş hakim elitaya və hakimiyyətə rəqabət mövqeyində olan müxalifət elitasına bölürlər. Elita komplektləşmə üsullarına görə də müxtəlif formalara bölünür. Bu baxımdan adətən açıq və qapalı elita seçilir. Birinci halda elita təbəqəsi cəmiyyətin bütün qrup və təbəqələrindən çıxmış peşəkarların üzünə açıq olur, müxtəlif təbəqəni təmsil edən cəmiyyətin digər təbəqələrinin üzünə qapalı olur və o, bir qayda olaraq, öz sıralarından çıxanlar hesabına yeniləşir.

Elitanın əhalinin digər təbəqələri ilə əlaqəsi və daxili vəhdətinin təminatı baxımından müxtəlif tipləri mövcuddur. Müşahidə edilmişdir ki, demokratik cəmiyyətlərdə elitanın əhalinin bütün təbəqələri ilə sıx qarşılıqlı əlaqəsi onun daxili birliyi ilə düz münasibətdədir, yeni elitanın təmsilçilik dərəcəsi nə qədər yüksəkdirsə, onun elitadaxili inteqrasiyası da o dərəcədə möhkəm və etibarlı olur. Bu baxımdan elitanın aşağıdakı tipləri göstərilə bilər:

1) sabit demokratik elita – onu yüksək təmsilçilik və qrupdaxili inteqrasiya fərqləndirir;
2) plyuralist elita – təmsilçiliyin və qrupdaxili inteqrasiyanın aşağı səviyyəsi ilə səciyyələnir;
3) iqtisad elitası – ona təmsilçiliyin aşağı səviyyəsi və qrupdaxili inteqrasiyanın güclü olması xasdır;
4) inteqrasiyasız elita – onun səciyyəvi cəhəti həm təmsilçiliyin zəif olması, həm də qrupdaxili inteqrasiyanın inkişaf etməməsidir.

Elitanın xarakteri, funksiyalarının məzmunu və səmərəlilik səviyyəsi, peşə keyfiyyətləri və bir çox digər xüsusiyyətləri onun seçilməsi sistemindən asılıdır. Elitanın seçilmə sistemi dedikdə, onun hansı mənbələr hesabına, kim tərəfindən, necə seçilməsi üsul və qaydalarının məcmusu başa düşülür. Praktikada elitanın seçilməsinin başlıca olaraq iki sistemi qərarlaşıb. Onlardan biri gildiya sistemi, digəri isə antreprener (sahibkarlıq) sistemidir. Bu və ya digər sistemin qərarlaşması ölkənin siyasi rejimindən, idarəçilik formasından, milli-tarixi ənənələrindən və başqa amillərindən asılıdır. Demokratiya ənənələrinin dərin kök saldığı ölkələrdə antreprener sistem, avtoritar idarəçilik metodlarının hökm sürdüyü ölkələrdə isə bir qayda olaraq gildiya sistemi üstünlük təşkil edir. Elitanın seçilməsinin bu iki sistemi bir çox cəhətdən bir-birinə ziddir, bununla belə praktikada onların hər ikisinin qarışıq modelinin tətbiq edilməsinə tez-tez rast gəlinir.

Elitanın formalaşmasının antreprener sistemi aşağıdakı cəhətlərlə səciyyələnir:

1) elitanın seçilməsinin açıq xarakteri, cəmiyyətin bütün qruplarının elitada təmsil olunmaq imkanları;
2) elitanın formalaşmasında yüksək rəqabət;
3) idarəetmə strukturlarına daxil olmağın müstəsna olaraq əsasında aparılması;
4) elita sıralarına daxil olmağın müstəsna olaraq şəxsi keyfiyyətlər əsasında həyata keçirilməsi;

5) elitanın seçilməsi zamanı maneələrin və formal tələblərin məhdud olması.

Bu sistemin mütərəqqi cəhəti ondan ibarətdir ki, idarəedənlərin sırasına gənc, enerjili, yenilikçi ruhlu qüvvələrin axınına geniş imkanlar açır. Öz peşəsi sahəsində yüksək nailiyyətlər qazanmış hər bir şəxsin qısa bir vaxtda cəmiyyətin yüksək pilləsinə qalxması, qərarların qəbul edilməsində mühüm rol oynaması məhz antreprener sistemin sayəsində mümkün olmuşdur.

Elitanın seçilməsinin gildiya sisteminin əlamətləri bunlar hesab edilir:

1) Elitanın qapalı xarakteri. Elitaya yeni nümayəndələr əsas etibarilə həmin qrupun aşağı təbəqələri sırasından seçilir. Cəmiyyətin digər təbəqələrinin elita qrupuna daxil olması qarşısında çoxlu ciddi maneələr yaradılır.
2) Sosial statusu yüksəltmək üçün müxtəlif tələblər sisteminin mövcudluğu - məsələn, yaş həddi, partiya mənsubiyyəti, iş stajı və s. Həmin tələblər xüsusilə qabiliyyətli peşəkarların və liderlərin sosial ierarxiyannın yüksək pilləsinə sıçrayışla qalxmasını praktik olaraq qeyri-mümkün edir.
3) Elitaya namizədlər seçən sosial bazanın məhdud dairəsi. Çox vaxt bu funksiyanı ali rəhbərlikdə təmsil olunanlar, hətta ölkə və ya partiya başçısı yerinə yetirir.
4) Elitanın yeniləşmək, daha enerjili, yenilikçi qüvvələr hesabına keyfiyyət dəyişikliliyinə uğramaq imkanlarının olmaması. Bu sistemə uyğun seçilən elita adətən mühafizəkarlıq mövqeyində durur.

Gildiya sistemi bir sıra müsbət və mənfi cəhətlərə malikdir. Onun daxili konsensus yaratmaq, qərarların qəbulunda tələsikliyə yol verməк, siyasətin ənənəvi dəstxəttini qoruyub saxlamaq kimi üstünlükləri göstərilir. Eyni zamanda bu sistemə uyğun olaraq seçilən elita cəmiyyətdə avtoritarizmi möhkəmləndirir, siyasətdə yeni meyllərin inkişafına mane olur, mühafizəkarlığı gücləndirir.

***Elita nəzəriyyələri.*** Elita nəzəriyyəsinin kökləri tarixin çox dərin qatlarına gedib çıxır. Qədim dövrün bir çox görkəmli mütəfəkkirləri cəmiyyətin ali və aşağı təbəqəyə bölünməsi haqqında fikirləri yürütmüşlər. Roma senatoru M.Aqripp insanların böyük hissəsinin «işlək heyvan» rolu oynadığını göstərərək qeyd edirdi ki, onlar «çodarlarsız» - aristokratiyasız keçinə bilməz.

Elita haqqında ideyalar antik dövrün böyük mütəfəkkiri Platonun təlimində daha ətraflı əks olunmuşdur. Onun fikrincə, insanın ruhu üç hissədən ibarətdir: 1) idraki; 2) iradi; 3) hissi.

İnsanın ruhi fəaliyyətinin idraki və iradi ünsürlərlə bağlı olan formaları çox az adamlara-aristokratiyaya xasdır. Bu, aristokratiyaya dövləti idarə etmək hüququ verir. Müvafiq surətdə cəmiyyət üç hissəyə bölünür:

1) filosof-hökmdarlar (onların fəaliyyətində ruhun idraki hissəsi üstünlük təşkil edir);
2) Hərbçilər (onların fəaliyyətində ruhun iradi hissəsi təzahür edir);
3) Sadə insanlar (onların fəaliyyəti ruhun hissi cəhətlərinə əsaslanır).

Elitarizm nəzəriyyəsinin formalaşmasına Nitsşenin baxışları güclü təsir göstərmişdir. Onun siyasi idealı aristokratiyanın güclü hakimiyyəti olmuşdur. Nitsşe yazırdı : «Həqiqi sağlam aristokratiyanın mahiyyəti ondadır ki, özünü kral hakimiyyətinin və ya cəmiyyətin funksiyası deyil, əksinə, onların «mənası» hiss etsin».

Müasir elita nəzəriyyələri 19-cu əsrin sonu - 20-ci əsrin əvvələrində meydana gəlmişdir. Onların yaradılmasında italyan sosioloq və politoloqları V.Pareto, Q.Moska, R.Mixels, ispan politoloqu X.Orteqa-i-Qasset xüsusi rol oynamışdır.

V.Pareto (1848-1923) elita təlimini «Ümumi sosiologiya haqqında traktat» əsərində şərh etmişdir. O, yazırdı ki, bəzilərinin xoşuna gəlib-gəlməməyindən asılı olmayaraq, insan cəmiyyəti yekcins deyil və fərdlər fiziki, əxlaqi və intellektual cəhətdən bir-birindən fərqlənir. İnsanların fərdi qabiliyyətlərindəki fərqlər cəmiyyətin elitaya və kütlələrə bölünməsinin ilkin əsasını təşkil edir. Böyük nüfuza, var-dövlətə malik olan insanlar cəmiyyətin elitasını təşkil edir.

Pareto bir-birini növbə ilə əvəz edən iki elita tipi göstərir. Makiavellinin ifadələrini işlədərək bu elitalardan birini «pələng» tipi, digərini isə «tülkü» tipi adlandırır.

Mühafizəkarlığa, gücə əsaslanan idarəçilik üsuluna üstünlük verən «pələng» elitasının üstünlük təşkil etdiyi siyasi sistemlər bir qayda olaraq siyasi sabitliklə səciyyələnir. «Tülkü» elitasının üstünlük təşkil etdiyi cəmiyyətlərdə isə, əksinə, siyasi sistem dəyişikənliyi, yüksək dinamizmi ilə fərqlənir. Bu elitalardan hər hansı birinin malik olduğu üstünlük vaxtaşırı öz əhəmiyyətini itirir və onun yeni elita ilə əvəz olunması zərurəti bu elitaların mütəmadi olaraq bir-birini əvəz etməsi tələbini irəli sürür.

Q.Moska (1858-1941) da cəmiyyətin obyektiv surətdə hakim və idarə olunan təbəqə kimi iki qeyri-bərabər hissəyə bölünməsi haqqında konsepsiya işləyib hazırlamışdır. O, «Hakim sinif» adlı kitabında yazırdı: «Sivilizasiyaya yenicə yaxınlaşmağa başlayan cəmiyyətlərdən tutmuş müasir qabaqcıl və qüdrətli dövlətlərə qədər bütün cəmiyyətlərdə həmişə iki sinif mövcuddur: bunlardan biri idarə edir, digəri isə idarə olunur. Həmişə sayca nisbətən az olan birinci sinif bütün siyasi funksiyaları yerinə yetirir, hakimiyyəti inhisara alır və onun verdiyi imtiyazlardan istifadə edir, sayca daha çox olan ikinci sinif isə birinci sinif tərəfindən idarə və nəzarət edilir. Həm də elə üsulla idarə olunur ki, siyasi orqanizmin fəaliyyət göstərməsini təmin edir».

Siyasi elitanın formalaşması mexanizmini təhlil edərək, Moska belə bir nəticə çıxarır ki, fərdin elita qrupuna daxil olmasının ən mühüm meyarı insanları idarə etmək qabiliyyətidir. Təşkilatçılıq qabiliyyəti ilə yanaşı elita kütlədən özünün maddi, mənəvi və intellektual keyfiyyətləri ilə də fərqlənir.

Moskanın təlimində siyasi sinif anlayışının tədqiqi geniş yer tutur. İdarə edənlər qrupunun daxili birliyi və cəmiyyətin həyatında xüsusi mövqe tutması Moskaya onu siyasi sinif adlandırmağa əsas verir.

Siyasi vəziyyətdən asılı olaraq hakimiyyətdə olan azlığın təşkilinin aristokratik və demokratik (liberal) prinsiplərini fərqləndirir. Hakimiyyətdə olan sinif öz siyasi mövqeyini ənənəvi olaraq möhkəmləndirmək, irsi keyfiyyətə çevirmək cəhdi göstərdikdə cəmiyyətdə aristokratik meylin guclənməsi müşahidə edilir. Bu halda sosial qruplar və təbəqələr arasında hakim mövqe uğrunda mübarizə kəskinləşir, siyasi sistemin sabitliyinin pozulması təhlükəsi yaranır.

Elita nəzəriyyəsinin inkişafında R.Mixels (1876-1936) dərin iz buraxmışdır. Elitarizmin meydana gəlməsi səbəbləri məsələsində Moska ilə əsas etibarilə həmrəyliyini bildirən tədqiqatçı elitaların formalaşmasında insanların təşkilatçılıq səriştəsini və cəmiyyətin siyasi təşkilinin xüsusiyyətlərini vurğulayır. Başqa sözlə, elitanın mövcudluğunu cəmiyyətin təşkili strukturu tələb edir.

Elitarizm təlimininin inkişafında Mixelsin «oliqarxiya meyllərinin dəmir qanunu» adlandırdığı postulatının böyük rolu olmuşdur. Onun mahiyyəti qısa şəkildə belə ifadə oluna bilər: demokratiya özünü qoruyub saxlamaq və müəyyən sabitliyə nail olmaq üçün xüsusi təşkilat yaratmağa möhtaçdır. Kütlələr böyük təşkilatlar üzərində bilavasitə nəzarəti həyata keçirmək imkanlarına malik olmadığından, bu səlahiyyətinin həyata keçirilməsini elitaya etibar etməyə məcburdur. Beləliklə, demokratiya mütləq oliqarxiyaya çevrilir, çünki rəhbərliyin səmərəliliyini artırmaq məqsədilə xüsusi orqanlar yaradan və ixtisaslaşan elita tədricən sadə üzvlərin nəzarətindən çıxır, onların mənafe və tələbatından uzaqlaşır, siyasəti bilavasitə öz mənafeyinə tabe edir.

Mixelsin gəldiyi nəticə bundan ibarətdir ki, nə qədər demokratik olsa da, hər bir təşkilata faktik olaraq oliqarxiya rəhbərlik edir.

XX əsrin birinci rübündə elita nəzəriyyəsinin inkişafı ispan politoloqu Xose Orteqa-i-Qassetin adı ilə bağlıdır. Onun «Kütlələrin üsyanı» kitabında şərh edilən konsepsiyasının qısa məzmunu belədir: insan cəmiyyəti istəsə də, istəməsə də lap əvvəldən aristokratikdir. O, öz aristokratikliyini itirdiyi andan cəmiyyət olmağına da son qoyur. Hər bir cəmiyyət iki amilin – azlığın və kütlələrin dinamik vəhdətidir. Azlığı xüsusi kateqoriyalı şəxsiyyətlər təşkil edir. Kütlə isə orta səviyyəli, başqalarından seçilməyən insanlardan ibarətdir. Bunlar xüsusi fərdi qabiliyyətləri olmayan, «ümumi tipi» təmsil edən adamlardır. Elita tərəfindən idarə edilən cəmiyyət və «öz yerini bilən kütlə» siyasi sistemin uğurlu fəaliyyətini şərtləndirən başlıca amillərdir. Lakin cəmiyyət bu qaydalara keçmişdə əməl edirdi – o zaman hər bir fəaliyyət növü (incəsənət, siyasət) xüsusi qabiliyyəti olan ixtisaslı azlıq tərəfindən yerinə yetirilirdi. Kütlənin isə siyasətdə iştirak etmək iddiası yox idi . 20-ci əsrdə bu qayda pozuldu, çünki kütlələr elitaya tabe olmaqdan imtina etdilər, ona qarşı üsyan qaldırdılar. Sivilizasiyanın məhvinə doğru aparan böyük fəlakətlər dövrü başladı. Kütlələr sosial həyatın ön sırasına çıxmaq, seçmə insanlara mənsub olan imtiyazlardan bəhrələnmək qərarına gəldi. Kütlənin azlığın yerini tutması sayəsində superdemokratiyanın zəfər yürüşü başlayır. Özünü elita kimi təsəvvür edən, öz iradəsini bütün cəmiyyətə qəbul etdirməyə çalışan kütlə özü ilə dağıntı gətirir.

Paretonun, Moskanın, Mixelsin və Orteqa-i-Qassetin elita konsepsiyaları sonralar cəmiyyəti və dövləti idarə edən və ya idarə etmək iddiasında olan xüsusi qrupun nəzəri və empirik tədqiqinin geniş intişar tapmasında güclü təkan vermişdir. Hazırda elita problemi ətrafında çoxşaxəli nəzəriyyələr yaranmışdır. Ən geniş yayılmış cərəyanlardan biri Makiavelli məktəbi adı altında məhşurdur. Onun ən qabağcıl nümayəndəsi Nyu–York Universitetinin professoru C.Bernxemmdir. Moskanın, Paretonun, Mixelsin elitarizminə əsaslanan Makiavelli məktəbi öz sələflərinin aşağıdakı ideyalarının müasir şərhi üzərində iş aparır:

1). Elitanın dövləti idarə etməyə əsas verən xüsusi keyfiyyətlərə malik olması.

2). Hər bir cəmiyyətin idarə edən azlıqla idarə olunan çoxluğa bölünməsindən irəli gələn elitarçılığı.

3). Hakimiyyət uğrunda sosial qrupların mübarizəsi nəticəsində elita təbəqələrinin dəyişkənliyi.

Müasir elita konsepsiyasının xüsusi qolunu dəyərlər nəzəriyyəsi təmsil edir. Onun irəli sürüb əsaslandırmağa çalışdığı başlıca ideyalar aşağıdakılardır:

1) Elita sosial sistemin ən dəyərli ünsürü olub, onun başlıca tələblərinin ödənilməsinə xidmət edir. Tarixi inkişaf nəticəsində köhnə dəyərlər aradan çıxır, yeniləri meydana gəlir və müvafiq sürətdə yeni dəyərlərin daşıyıcısı olan yeni elita təbəqəsi formalaşır. Həqiqi elitar cəmiyyət o cəmiyyətdir ki, onun işgüzarlığına, peşəkarlığına görə formalaşır. Bu cür xüsusiyyətlər məhz sənaye və postsənaye cəmiyyətlərinə xasdır.
2) Elitanın formalaşması hakimiyyət uğrunda mübarizənin deyil, cəmiyyətin ən dəyərli nümayəndələrinin təbii seçilməsinin nəticəsidir.
3) Elitarçılıq hər bir cəmiyyətin səmərəli fəaliyyətinin mühüm şərtidir. Elita ilə kütlə arasında münasibətlər siyasi və ya sosial xarakter daşımayıb, başlıca olaraq cəmiyyətə rəhbərlik edilməsi prinsiplərinə əsaslanır. Elitanın rəhbər rolu onun hakim mövqeləri əlində cəmləşdirməsi ilə yox, idarəetmə səriştəsi ilə şərtlənir.

Dəyərlər nəzəriyyəsinin başlıca müddəaları demokratik elitarizm nəzəriyyəsinin (P.Baxrax) meydana gəlməsinə təkan vermişdir. Bu nəzəriyyənin məzmunu İ.Şumpeterin demokratiya anlamının təsiri altında cəmiyyətdə elitanın formalaşması və roluna dair yeni baxışlar təşkil edir. Demokratiya elitanı inkar etmir, sadəcə olaraq onun formalaşmasının yeni üsul və formasını nəzərdə tutur. Demokratiya cəmiyyətə rəhbərlik etmək hüququnu qazanmaq üçün fərdlərin, seçicilərin etimadını öz tərəfinə çəkmək uğrunda mübarizəsidir. Elita isə əhalinin rəhbərliyə daha ləyaqətli nümayəndələr seçməsinə bir növ təminat rolunu oynayır.

Müasir dövrdə ən geniş yayılmış elita nəzəriyyələrindən biri elitanın funksional nəzəriyyəsidir (S.Keller). Elitanın çoxluğu, plyuralizm ideyalarına əsaslandığından onu elitanın plyuralizmi konsepsiyası da adlandırırlar. Bu nəzəriyyə klassik elita nəzəriyyəsinin bir sıra fundamental prinsiplərinə baxışın dəyişdirilməsi zərurətindən çıxış edir. Funksional nəzəriyyə aşağıdakı müddəaları sübuta yetirməyə çalışır.

1) Cəmiyyətdə idarə edənlərin xüsusi qrupunun meydana çıxması onun funksional ehtiyaclarından irəli gəlir. Siyasi elitanın başlıca xüsusiyyəti onun funksional keyfiyyəti hesab edilməlidir. Onun sosial ağalıq roluna iddia etməsi qeyri-mümkündür.
2) Muasir demokratik cəmiyyətdə hakimiyyət müxtəlif strukturlar və subyektlər arasında paylandığından, siyasi elitanın yeganə imtiyazlı və daxilən vahid qrup kimi çıxış etməsi qeyri-mümkündür. Hər bir cəmiyyətdə çoxlu elita var və onlardan heç biri siyasi sistemdə həlledici rola malik deyil.
3) Elita ilə kütlə arasında həlledici əhəmiyyət ağalıq-tabelik münasibətlərinə deyil, təmsilçilik münasibətlərinə xas olduğundan, cəmiyyətin belə iki qrupa bölünməsinin özü şərti xarkter daşıyır və sosial strukturun aparıcı xüsusiyyəti sayıla bilməz. Elitanın xüsusi qrup kimi qərarlaşmasının qarşısını almaq üçün kütlənin əlində seçkilər, referendum, rəy sorğuları, təzyiq qrupları və s. kimi təsirli vasitələr mövcuddur.

Elitanın solçu liberal nəzəriyyələri (H.Lassuell, R.Mills), funksional konsepsiyanın müddəalarını təkzib edir. Makiavelli məktəbinin nümayəndələri ilə ideya yaxınlığından savayı bu cərəyan bir sıra spesifik müddəaları ilə səciyyələnir:

1) Elitanı cəmiyyətin bütün digər təbəqələrindən fərqləndirən başlıca əlamət onun rəhbər mövqeləri öz əlində cəmləməsidir. Cəmiyyətdə yüksək mövqe yalnız siyasət sferası ilə məhdudlaşmadığından, iqtisadiyyatda, maliyyə strukturlarında, digər sahələrdə yüksək mövqe tutanlar da dövlətin həyatında vacib qərarların qəbul edilməsində fəal iştirak edir. Buradan da elitanın rəngarəng tərkibi şərtlənmiş olur.
2) Elita ilə kütlə arasında böyük fərq mövcuddur. Aşağı təbəqəni təmsil edənlər elita qrupuna daxil olmaq üçün yüksək vəzifə tutmaq məcburiyyətindədir. Sonuncu isə kütlənin nümayəndəsinin ondan ayrı düşməsi ilə nəticələnir.
3) Elitanın ən başlıca funksiyası cəmiyyətdə öz ağalıqını təmin etməkdir.

Müasir elita nəzəriyyəsində müxtəlif ideya zəmini üzərində elitarizmin iki əsas forması-mühafizəkar elita və liberal elita formaları seçilir. 80-ci illərdə bir sıra Qərb ölkələrində mühafizəkarların hakimiyyətə gəlməsi mühafizəkar elitanın mövqeyini möhkəmləndirirdi. ABŞ-nın mühafizəkar elita cərəyanının ideoloqları sayılan P.Virek və F.Uilson iddia edirlər ki, soial ədalətin əsasını qeyri-bərabər sosial funksiyalara görə qeyri-bərabər mükafat təşkil edir. Elita meritokratiya (xidməti olan elita) kimi kifayət qədər yüksək səviyyədə təmin edilməlidir.

Müasir cəmiyyətin eqalitarizmi (kütlələrin hakimiyyətə təsir göstərməsi) elitaya səmərəli fəaliyyət göstərməyə imkan vermir ki, bundan da bütün cəmiyyət əzab çəkir.

Liberal elitizm cərəyanının yüksəlişi XX əsrin 50-70-ci illərinə təsadüf edir. Onun idealı yüksək ixtisaslı siyasətçilər və menecerlərdən ibarət elita tərəfindən böhranlardan xilas edilən, güclü nəzəriyyələrdə öz əksini tapan liberal elita ilə kütlələrin kompromisini, kütlələrin siyasətə daha geniş cəlb edilməsini təbliğ edir.

## 17-ci MÖVZU

## MÜASİR SİVİLİZASİYA VƏ QLOBAL PROBLEMLƏR

### *1. Müasir dövrün qlobal problemlərinin mahiyyəti*

Elmi ədəbiyyatda qlobal problemlər termini XX əsrin 60-cı illərinin sonundan işlənməyə başlanmışdır. Qlobal problemlərin özü çox əvvələr meydana gəlmişdir. Artıq 50-ci illərin sonundan qlobal problemlər kifayət qədər aydın şəkildə təzahür etdi. XX əsrin dünya müharibələri, 40-cı və 50-ci illərdə raket və nüvə silahının yaradılması bəşəriyyəti özünü məhv etmək təhlükəsi qarsısında qoydu.

Problemin qloballığı meyarını ayrıca qeyd etmək lazımdır. Burada onun zəruri olan məkan ölçüləri diqqəti cəlb edir. Bəşəriyyətin ictimai inkişafının, sivilizasiyanın qarşısını alan, müəyyən şəraitdə isə sivilizasiyanın mövcudluğunu şübhə altında qoyan problemləri qlobal hesab etmək lazımdır. Bu tərif kifayət qədər ümumidir, lakin onun əsasında qlobal problemlərin ən səciyyəvi xüsusiyyətlərini ifadə etmək olar. Bunlar ümumbəşəri xarakter daşıyır. Belə ki, bütün ölkələrin və xalqların maraqlarına, perspektivinə, bütün bəşəriyyətin gələcəyinə toxunur. Çünki bunların fəaliyyət dairəsi ilk dəfə bütün planeti əhatə edir, kompleks, sistemli xarakter daşıyır və bunların uğurla həll edilməsi üçün bütün ölkələrin və xalqların birgə səy göstərməsi lazımdır, zaman və məkan daxilində daima inkişafdadır, nəticədə yeni qlobal problemlər meydana çıxa, bəziləri isə yox ola bilər; özünün həll hüdüdları baxımından ziddiyətlidir, çünki qlobal tələblər tamamilə yalnız böyük tarixi perspektivdə təmin edilə bilər. Müasir şəraitdə isə bunlar fəal beynəlxalq əməkdaşlıq şəraitində cüzi, fasiləli şəkildə həll edilir; həm əmələ gəlmə səbəblərinə görə, həm də təzahüretmə xarakterinə görə qarşılıqlı sosial-təbii mahiyyətə malikdir.

Beləliklə, qlobal problemlər – həllindən bəşəriyyətin sosial inkişafının və sivilizasiyanın qorunmasının asılı olduğu sosial-təbii problemlər məcmusudur, onlar dinamizmi ilə xarakterizə olunan cəmiyyətin inkişafının obyektiv amili kimi meydana çıxan və özünün həll edilməsi üçün bütün bəşəriyyətin birgə səylər göstərməsini tələb edən problemlərdir.

Müasir dövrün qlobal problemləri bəşəriyyətin inkişafının indiki mərhələsi üçün yeni bir şey deyil, « insan-cəmiyyət-təbiət « sistemində mövcud olan ziddiyyətlərin son dərəcə kəskinləşməsi və dərinləşməsidir. Buna görə də həmin problemlərin daha ətraflı təhlili üçün onların aktuallaşmasına səbəb olan amillərin aydınlaşdırılması üzərində dayanmaq lazımdır. Hər şeydən əvvəl bunların kəskinləşməsinin əsasında bir-birinə bağlı iki proses durur. Bir tərəfdən bu məhsuldar qüvvələrin və istehsal münasibətlərinin təkmilləşməsi və inkişafının, cəmiyyətin maddi mədəniyyətinin inkişafının nəticəsidir. Digər tərəfdən, qlobal problemlərin meydana gəlməsinin bu iki əsas səbəbi həm də onların dərinləşməsinə gətirib çıxarmışdır. Əgər bəşər tarixinin inkişafının ilk mərhələlərində bu iki proses lokal, sonra isə regional xarakter daşıyırdısa, müasir dövrdə bunlar qlobal xarakter almışdır.

Bundan başqa müasir sivilizasiyanın inkişafı bir çox mühüm proseslərin və hadisələrin ümumdünya xarakterinin güclənməsi şüarı altında gedir. Qlobal problemlərin kəskinləşməsinin ciddi səbəbi əvvəlki antoqonist formasiyalarda insan və təbiətə yırtıcıl münasibətlə müəyyənləşən ziddiyyətlərin dərinləşməsidir. Təbii ehtiyatların nəzarətsiz və get-gedə daha intensiv istismarı təbiətə münasibətdə insan fəaliyyətinin mənfi nəticələrinin güclənməsi cəmiyyəti ekoloji fəlakət qarşısında qoymuşdur. ETT - nin sürətli inkişafı « insan-cəmiyyət-təbiət « sistemində heç də həmişə harmonik inkişaf etməyə, bəzən isə bu sistemdə qlobal ziddiyyətlərlərin kəskinləşməsinə səbəb olan münasibətlərin dinamik inkişafına səbəb olmuşdur.

Qlobal ziddiyyətlərin dərinləşməsinə elmi-texniki inqilabın sürətli inkişafı ilə dünyada gedən ən böyük sosial dəyişikliklərin eyni vaxtda cərəyan etməsi mühüm təsir göstərdi. Hərbi işdə dönüş, bəşər sivilizasiyasının mövcudluğuna təhlükə törədən miqdarda kütləvi qırğın silahlarının yaradılması bu sivilizasiyanın qorunması və yaşaması problemlərini son dərəcə kəskin şəkildə ortaya qoydu.

Müasir dövrdə qlobal problemlərin kəskinləşməsinin cəmiyyətin, onun məhsuldar qüvvələrinin inkişafı ilə, elmi – texniki inqilabın sürətilə inkişaf və sosial tərəfi ilə bağlı olan əsas səbəbləri bunlardır.

Müasir qlobal problemləri xarakterizə edən ayrılmaz əsas xüsusiyyət olnların dinamizmidir ki, bu da qlobal problemlərin kəskinliyinin azalmasını və ya artmasını göstərir. Qlobal problemlər sistemi zaman ərzində dəyişilməz qalmır, qlobal problemlərin miqdarı və xarakteri daima dinamik inkişafdadır.

Qanunauyğundur ki, artıq 3-cü minilliyin başlanğıcında bəşəriyyət indi tərkibi və xarakterinə görə tamamilə fərqli qlobal problemlər sisteminin həll edilməsi zərurəti qarşısında dayanmışdır.

Bütün qlobal problemlər bir-birilə ayrılmaz qarşılıqlı asılılıqdadır. Hər bir qlobal problem təklikdə deyil, bütün qlobal problemlər sisteminin struktur «elementi» kimi çıxış edir. Müasir dövrün qlobal problemlərinin sistemliyi onların eyni vaxtda elmin əsas sahələrinin hamısı tərəfindən kompleks şəkildə tədqiq edilməsini və onların bir-birindən ayırılmaz, əlaqəli şəkildə nəzərdə tutulmasını tələb edir.

### *2. Qlobal problemlərin tipologiyası*

Müasir dövrün qlobal problemlərinin qarşılıqlı əlaqəsini və qarşılıqlı asılılığını qeyd etmək və onun əsasını təşkil edən konkret meyardan asılı olan tipologiyasını ilk dəfə B.B. Zaqladin və İ.R.Frolov təklif etmişlər. Bu sistemləşdirmə sonrakı inkişafını B.A.Enqelqartdın və L.N. Samoylovun əsərlərində tapmışdır. Qlobal problemlərin əsas qrupları tipologiyaya əsasən, əsas qlobal ümumiliklərin arasındakı münasibətlərdən, insanla təbiət və insanla cəmiyyət arasındakı münasibətlərdən əmələ gəlib. Münasibətlərin üç tipinə uyğun olaraq qlobal problemlərin üç əsas qrupunu ayırmaqla nəzərə almaq lazımdır ki, hər bir qrup öz növbəsində eyni tipli qlobal problemlərin konkret növlərindən ibarət olan problemlərin bəzi tiplərindən ibarətdir. Qlobal problemlərin tipologiyasının aşağıda təklif edilən variantı L.N.Samoylovun konsepsiyası əsasındadır:

***1-Sinif.*** Müasir dövrün superqlobal (ümumdünya qlobal) problemləri. Bunlar beynəlxalq münasibətlərin bəşəriyyətin sonrakı inkişafı tələblərinə uyğun şəkildə yenidən qurulması ilə bağldır. Buraya daxildir: dünya raket-nüvə müharibəsinin qarşısının alınması problemi, bərabər hüquqluluq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında yeni beynəlxalq nizamın yaradılması, iqtisadi inteqrasiyanın inkişafı və s.

***2-Sinif.*** Ümumplanet Qlobal ehtiyatlar problemləri: bunlar cəmiyyətin təbiətə olan münasibətinin optimallığı, hormoniyası və humanizmi ilə bağlıdır. Buraya daxildir: özünün bütün təzahürləri ilə ekoloji problem, demoqrafiya, enreji, ərzaq problemləri, kosmosun istifadə edilməsi problemi və s.

***3-Sinif.*** Cəmiyyətin və şəxsiyyətin münasibətlərinin demokratikləşdirilməsi ilə bağlı olan sosial – mədəni humanitar sıradan olan ümumbəşəri (subqlobal) problemlər. Buraya istismarın, yoxsulluğun və başqa sosial qeyri – bərabərlik formalarının ləğvi problemi, səhiyyə, təhsil, həyat səviyyəsinin planlaşdırılması və tənzimlənməsi, insan hüquqlarına təminat problemləri və s. daxildir.

Qlobal problemlərin sistem bütövlüyü müasir elmlərin kompleksliyi ilə səciyyələnən müəyyən biliklər sistemini də nəzərdə tutur. Öz növbəsində müasir elmi biliklərin kompleks xarakteri müxtəlif elmlərin nümayəndələrinin bir elmi problem ətrafında sadə birliyi deyil, onların bu problemlərin araşdırılması işində fəal, birgə iştirakı deməkdir. Bu isə hər şeydən əvvəl fənnlərarası ünsiyyət üçün hər hansı ümumi elmi məfhumların müəyyən məcmusunun və yeni terminologiyanın tətbiq edilməsini, birgə iş prosesində müxtəlif elmlərin nümayəndələri arasında əməli qarşılıqlı fəaliyyət üçün şəraitin yaradılmasını tələb edir.

### *3. Qlobal problemlərin həlli yolları*

Qloabal problemlərin uğurla həll edilməsi üçün qabaqlayıcı elmi hesablama və proqnoz böyük əhəmiyyət kəsb edir. Qlobal problemlər kortəbii şəkildə meydana gələrək həll edilməsi üçün insanların planlı istiqamət verilmiş fəaliyyət göstərməsini tələb edir. Burada ictimai şüurun içtimai varlığın təsiri altında kortəbii şəkildə formalaşmasına ümüd etmək olmaz.

Qlobalistikanı şüurlu və məqsədə uyğun şəkildə planetimizdə sivilizasiyanın qorunması məsələlərini həll edən yeni bütöv biliklər sistemi kimi yaratmaq və inkişaf etdirmək lazımdır. Elmi idrakın yeni sahəsi kimi qlobalistikada əsas yeri qlobal modelləşdirmə və proqnozlaşdırma metodu tutur. Bunun tətbiqi qlobal problemlər kimi geniş miqyaslı tədqiqatların aparılması zamanı lazımdır.

Müasir şəraitdə qlobal problemlərin həll edilməsi insan fəaliyyətinin bütün sahələrində gələcək inkişaf üçün zəmin olmuşdur. Bəşəriyyət indiki və gələcək nəsillərin mövcudluğuna və inkişafına təhlükə törədən mümkün neqativ nəticələrin qarşısını almalıdır. Bu qeyri – adi mürəkkəb və məsuliyyətli məsələdir. Onun həll edilməsi mürəkkəbliyi sivilizasiyanın yüksələn inkişafının əsasını təşkil edən mütərəqqi meyllərlə yanaşı bəzi hallarda belə inkişafın yolunda dayanan çətinliklərin və ziddiyyətlərin güclənməsi ilə artır. Qlobal problemlərin həll edilməsi çətinliyi həmçinin bunların ikili mahiyyəti ilə şərtlənir. Bunlar öz xarakterinə görə həm təbii, həm də sosialdır. Qlobal problemlərin bu iki cəhətini bir-birindən ayırmaq praktiki olaraq mümkün deyildir. Buna görə də bunların həlli üçün elmi - texniki və sosial-siyasi aspektləri nəzərə almaq lazımdır.

Qlobal problemlərin planetar xarakteri yanaşmaların, rəylərin, nəzəriyyələrin geniş diapazonunu qabaqcadan müəyyən etmişdir. Bu çoxsaylı konsepsiyaların arasında həm bir-birini tamamlayanları, həm də bir-birini istisna edənləri ayırmaq olar. Qlobal problemlərin həlli strategiyası özündə bu problemlərə elmi, sosial və humanist yanaşmanı labüd şəkildə birləşdirməlidir.

Qeyd etmək lazımdır ki, indiyədək qərb alimləri arasında qlobal problemlərin vahid izahı işlənib hazırlanmamışdır. Lakin qlobal problemlərin izahına müxtəlif yanaşmaların çoxluğuna baxmayaraq, burjua qlobalistikasının marksist qlobalistikadan əsas fərqlərini ayırmaq olar. Qlobal problemlərin təbii və sosial siyasi cəhətlərini və ya xarakteristikalarını bir-birindən ayıraraq burjua alimlərinin çoxu onlara labüd xarakter verir. Belə yanaşma qlobal problemləri və onların həlli yollarını obyektiv gözdən keçirməni əhəmiyyətli dərəcədə mürəkkəbləşir.

XX əsrin ikinci yarısında qlobal problemlərin kəskinləşməsi onların gələcək inkişafının proqnozlaşdırılması probleminə yenidən baxmaq zərurəti yaratdı. 60-70-ci illərdəki prqnozlar dalğasında futurologiya (gələcək haqqında elm) adlanan elm meydana çıxır. Qlobal problemlərin həll edilməsi layihələrində elmi-texniki tərəqqinin yolunun və əhəmiyyətinin nəzərdən keçirilməsində dörd əsas mövqeyi ayırmaq olar:

Qlobal problemlərin həll edilməsini bunların sosial təmayülünü qətiyyən nəzərə almadan yalnız elmi-texniki inqilabın nailiyyətləri ilə bağlayan konsepsiyalar;

Elmi-texniki tərəqqinin nailiyyətlərini tamamilə inkar edən, istehsalın inkişafı və dəyişdirilməsi üzrə fəaliyyətə son qoyulması uğrunda çıxış edən konsepsiyalar;

ETT-yə qlobal problemlərin həlli ilə bağlı olaraq əhəmiyyət verməyən, lakin onu cəmiyyətdə inkar etməyən konsepsiyalar; burada əsas diqqət insanların mənəvi həyatının dəyişdirilməsinə yönəldilir;

Qlobal problemlərin həll edilməsində marksist-leninçi metodologiyanı əks etdirən, cəmiyyətin elmi-texniki və sosial tərəqqisindən əldə edilmiş nailiyyətlərin birləşdirilməsi zərurətini nəzərdə tutan konsepsiyalar.

Daha məşhur olan konkret konsepsiyaların üzərində bir qədər ətraflı dayanaq. Meydana gəlmələrinə əsrimizin 60-cı illərində elmi-texniki tərəqqinin sürətli inkişafının səbəb olduğu «texnoloji optimizm» və sənayeləşdirilmə adlanan bir-birinə yaxın nəzəriyyələr maraq kəsb edir (U. Rostou, D.Bell, R.Aron, Q.Kan və s.).

60-cı illərdə sənayeləşmənin əsas nəzəri mühakiməsi ölkənin sosial-iqtisadi inkişafının səviyyəsini ictimai-iqtisadi formasiya ilə deyil, onun sənaye-texniki potensialının inkişaf səviyyəsi ilə müəyyən edilməsidir. Güman edilirdi ki, ictimai istehsalın kompleks mexanikləşdirilməsinin, avtomatlaşdırılmasının, kompyüterləşdirilməsinin, kibernetikləşdirilməsinin, gələcək inkişafında adambaşına düşən ümumi daxili məhsulun artımı müşahidə ediləcək. Bunun nəticəsində isə «sənaye cəmiyyətindən» «bolluq cəmiyyəti» yaradılacaq, postsənaye cəmiyyətinə keçmək mümkün olacaq. «Sənayeləşdirmə» ideyalarının populyarlığının qısamüddətli olması hər şeydən əvvəl onunla izah edilir ki, onların ideoloqları, bəşəriyyətin sosial-iqtisadi inkişafının real meyllərinə əhəmiyyət vermirdilər və ictimai tərəfini yalnız texniki inkişafa bağlayırdılar.

«Texnoloji optimizmin» ikinci dalğasının qalxması 70-ci illərin ikinci yarısına təsadüf edir; bu, ekoloji pessimizmin əvəzinə meydana çıxsa da, mahiyyətcə «sənayeləşdirmə» nəzəriyyəsinin davamıdır. Bu mərhələdə ideyalar geniş yayılmadı.

«Sənayeləşdirmə» ideyalarının yeni yüksəlişi 80-ci illərin əvvəllərinə təsadüf edir və Q.Kanın əsərləri ilə əlaqədardır. Burada o, yeni «supersənaye» sivilizasiyasının modellərini təklif edir və «qeyri-məhdud artım» nəzəriyyəsini müdafiə edir. Hər iki yanaşma geniş yayılmayaraq nəzərləri «həyatın keyfiyyətinin» yeni kateqoriyasına cəlb edir ki, burada da onun maddi göstəriciləri ilə yanaşı mənəvi aspektləri də əlavə olunur. Həyat keyfiyyətinin yeni kateqoriyasının məhz mənəvi tərəfinə üstünlük verilir. Bu konsepsiyalarda şəxsiyyətin inkişafına, onun dünyagörüşünün təkmilləşməsinə böyük əhəmiyyət verilirdi və burada elm, din, hüquq, əxlaq ön plana çıxarılırdı.

«Ekoloji pessimizm» tərəfdarlarının mövqeyi Roma klubunun proyektləri və proqnozlarında «sıfır artımı» konsersiyasından başlayaraq «təbii artım» konsepsiyasınadək daha aydın şəkildə ifadə edilmişdir. Qlobal böhranın aradan qaldırılmasına ETT-nin imkanlarına inamsızlıq, mütərəqqi içtimai inkişafdan imtina edilməsi, sosial pessimizmin dərinləşməsi bu proqramın praktikada reallaşdırılmasını və onun gələcək nəzəri inkişafını qeyri-mümkün etdi.

Şübhəsiz ki, qlobal problemlərin optimal həllinin belə layihələri müəyyən konstruktiv elementlərə malikdir. Lakin həqiqətə uyğun olan şuarları elan edərək, öz qarşılarına müəyyən məqsədlər qoyaraq «həyatın keyfiyyəti» nəzəriyyələri abstrak humanizm nüvələrində qalır.

Yeni «qlobal təfəkkürün» formalaşması yollarının axtarışı Roma klubunun ilk məruzələrindən birində «Bəşəriyyətin məqsədləri» (E.Laslo) məruzəsində kifayət qədər ətraflı sürətdə nəzərdən keçirilir. Baxışlarda müəyyən təkamül başqa məruzədə də – «Təhsilin həddi yoxdur» (C.Botkin və başqaları) hiss olunur. Burada əsas diqqət təhsil sistemində islahatlarla bağlı olan məsələlərin nəzərdən keçirilməsinə yönəldilir. Qlobal böhrandan cıxmaq üçün real vasitələr təklif etmək əvəzinə onlar əslində bəşəriyyətin inkişafına mane olan əngəllərin təhlil edilməsi üzərində dayanırlar. Müasir təfəkkür tərzinin dəyişdirilməsinə bir-birinə bənzər utopik çağırışlar Roma klubunda olan bəzi başqa məruzələrdə də ifadə edilir. O cümlədən, bunlar Roma klubunun keçmiş prezidenti A.Peççeninin təfəkkürün üsul və tərzinin keyfiyyətcə dəyişilməsi zərurətini müdafiə etdiyi məşhur «İnsani keyfiyyətlər» (1979) və «Gələcək üçün yüz səhifə» (1981) adlı əsərlərində daha da inkişaf etdirilmişdir.

Bəşəriyyətin həyat fəaliyyətində yalnız mənəvi dəyişikliklərə əsaslanaraq müasir dövrün qlobal problemlərini həll etmək cəhdi dini ideoloqların əsərlərində də kifayət qədər aydın və bir mənalı şəkildə tədqiq edilir. Kilsə müasir dövrün qlobal problemlərinin tədqiq edilməsinə fəal sürətdə qoşularaq bütün qüvvə və imkanlar daxilində əhalinin bütün təbəqələri üzərində öz təsirini qoruyub saxlamaq və genişləndirməyə çalışır. Bu məqsədlə müxtəlif «təbiət ilahiyyatı», «ekoilahiyyat», «yaşamanın qlobal strategiyası» və s. yaradılır.

Dini ideoloqlar qlobal problemlərin həlli yolunu axtararkən diqqəti ruhun materiya üzərində üstünlüyü uğrunda mübarizəyə yönəldirlər.

Mənəviyyatın, əxlaqın üstünlüyünün qəbul edilməsi qlobal problemlərin açılması üzərində, texniki sivilizasiyanın inkişafı üzərində uğurlu nəzarətin şərtidir. Elmi-texniki tərəqqi ictimai tərəqqiyə yad olan və özünün inkişafı ilə insanın, onun mənəvi mahiyyətinin əsarət altına düşməsi təhlükəsi yaradan qüvvə kimi qəbul olunur. Buna görə də dinin və etikanın texnika qarşısında birinciliyi qlobal problemlərin həll edilməsinə kömək edəcək. Əsas və başlıca məsələlərdə oxşar mövqeyə malik olan din ideoloqları ümumi tezisləri konkretləşdirərək qlobal problemlərin həllində öz spesifik layihələrini işləyib-hazırlayırlar.

«Qlobal şüur» layihələrinin dini araşdırmaları arasında Papa II İoann Pavelin «Redemitor hominis» (1979), «Sollistudo rei sosialis» (1987) və s. ensiklikaları mühüm yer tutur. 80-ci illərin əvvələri «Katolik qlobalistikasının» və ya «Qlobal problemlər ilahiyyatının» yaranması ilə əlamətdardır. Burada qeyd etmək lazımdır ki, «katolik qlobalistikası» qlobal problemlərin şərhinə olan yanaşmaların müxtəlifliyi ilə fərqlənir.

Qlobal problemlərin araşdırılması ilə Rus Pravoslav kilsəsinin nümayəndələri də fəal məşğul olurlar. Başqa kilsələrdən fərqli olaraq Pravoslav ilahiyyatçılar elmi-texniki tərəqqinin əhəmiyyətini təsdiq edirlər. Lakin ETT yalnız onun vüsət tapması üzərində dini nəzarət qoyulduqda qlobal problemlərin həll edilməsində mühüm rol oynayacaq. Pravoslav ideoloqlar qlobal problemlərin həll edilməsini hər şeydən əvvəl «Yeni qlobal şüurun» formalaşmasını nəzərdə tutduğunu sübut edərək və qlobal problemlərin həll edilməsinin əsas vasitəsi kimi «Bütün dünyanın xristianlaşdırılmasını» müdafiə edərək dinin cəmiyyətdə aparıcı rolunu sübut etməyə çalışırlar. Lakin onlar bu mövqelərdə qalmaqla qlobal problemlərin aradan qaldırılmasına tövsiyyələr hazırlaya bilmirlər.

Qlobal problemlərin həll edilməsi işində dinin, dini etikanın üstün rolunu bu və ya digər dərəcədə kilsə məsələlərinin araşdırılması ilə məşğul olan bir çox burjua alimləri də müdafiə edirlər. Bu barədə qlobal problemlərin həlli üçün qədim (panteist) görüşlərə qayıtmağın lazım olduğunu hesab edən L.Uayt və A.Toynbinin mövqeləri daha səciyyəvidir.

Müasir şəraitdə qlobal problematika ilahiyyatçı ekumenistlər tərəfindən xüsusi fəallıqla araşdırılır. Onlar üçün müxtəlif elmi mərkəzlərlə fəal əməkdaşlıq, öz konfranslarına müxtəlif ölkələrdən ekspertlərin cəlb edilməsi səciyyəvidir. Lakin, təbiət elmlərinin son məlumatlarını, tədqiqat metodlarından istifadə edərək, ümumi nəzəriyyə yaradarkən alimlərin müddəa və çıxardıqları nəticələrə əsaslanaraq ilahiyyatçılar dünyagörüşü məsələlərinin həllində daima müəyyən ideya mövqeyi tuturlar. Ekumenist ilahiyyatçılar «qlobal problemlərin» həll edilməsinin dini etik modelləri və mexanizmlərini yaradaraq yenə də bütün digər dini ideoloqların ardınca bu problemlərin aradan qaldırılması üçün real yollar hazırlanmasından qaçırlar.

Dini ideoloqların qlobal problemlərin nəzərdən keçirilməsinə yanaşmasını ümumlikdə qiymətləndirərək qeyd etmək lazımdır ki, sosial varlığı dəyişdirmədən «şüurun transformasiyası» mümkünlüyünə ümüd etmək mahiyyətcə qeyri - realdır və qlobal problemlərin həlli üçün real strategiya hazırlamaq üçün əsas ola bilməz.

Marksist tədqiqatlar arasında qlobal problemlərin təhlil edilməsinə yanaşmalarda müəyyən fərqlərin olmasına baxmayaraq, onların hər şeydən əvvəl bu problemlərin meydana gəlməsinin obyektivliyinin təsdiq edilməsinə əsaslanan ümumi konseptual yanaşma birləşdirir. Bunların əsil həlli müəyyən maddi və sosial zəminlərin formalaşdırılması zamanı mümkündür. Elmi - texniki tərəqqi cəmiyyətdə qlobal böhranın aradan qaldırılması üçün özlüyündə bunun həllinə gətirib çıxara bilməyən maddi-texniki texnoloji əsaslar yaratmaq iqtidarındadır. Bunun üçün həm də müəyyən sosial şərait lazımdır ki, ETİ-ın nailiyyətləri yalnız insanların rifahı üçün istifadə edilsin, elə şərait yaradılsın ki, bəşəriyyət cəmiyyətdə öz münasibətlərini və təbiətlə qarşılıqlı əlaqələrini şüurlu şəkildə nizamlaya bilsin.

Burada xüsusi qeyd etmək lazımdır ki, cəmiyyətin sosial - iqtisadi cəhətdən yenidən qurulması ilə yanaşı yeni qlobal şüurun formalaşdırılması getdikcə daha böyük əhəmiyyət kəsb edir. Elmi fikrin və əməyin təsiri altında insan təbiətlə qarşılıqlı əlaqəsinin texniki və bioloji qanunlarının hökmranlığı sosial (ağıllı) qanunlarla əvəz edilməlidir.

İnkişafın yeni pilləsinə, cəmiyyətin təbiətlə qarşılıqlı əlaqəsi qanunlarının başa düşülməsinin yeni səviyyəsinə bu keçidi V.İ.Vernadski noosferin formalaşması mərhələsi adlandırır. Noosferin formalaşdırılması bu gün özünün təşəkkül mərhələsində olan uzun, şüurlu surətdə təşkil edilmiş və istiqamət verilmiş prosesdir. Yeni qlobal şüurun formalaşması isə onun mühüm tərkib hissələrindən biridir.

Qlobal problemlərin həlli yollarının təhlilinə elmi yanaşmanın əsas fərqləndirici xüsusiyyəti noosferin formalaşmasının qlobal böhranın qarşısının alınmasına yönəldilmiş, texniki-texnoloji tədbirlərin işlənilməsi və praktiki reallaşdırılması zərurəti ilə sıx bağlı şəkildə nəzərdən keçirilməlidir.

Burada beynəlxalq texniki əməkdaşlığın inkişafının təbii ətraf mühitin çirklənməsinə qarşı tanışlıqla və informasiya mübadiləsi ilə məhdudlaşmayan, daimi birgə elmi tədqiqatları fəal aparmaq imkanı verən əməkdaşlıq formalarına birinci dərcəli əhəmiyyət verilir.

Beynəlxalq əməkdaşlığın inkişafında müasir dövrün qlobal problemləri ilə bağlı olan, BMT və onun ixtisaslaşmış təsisatlarının himayəsi altında aparılan beynəlxalq tədqiqat layihələrinin həyata kecirilməsinin mühüm yeri vardır.

### *4. Müasir dövrün qlobal problemlərinin sosial-siyasi aspektləri*

Qeyd edildiyi kimi, bəşəriyyət XX əsrin ikinci yarısında sivilizasiyanın mövcudluğunun ən dərin əsaslarında, bütün xalqların maraqlarına toxunan problemlərlə qarşılaşdı. Bunların kəskinləşməsi insan fəaliyyətinin nəticəsində baş verdi. Lakin bunların həlli də, onun şüurlu və məqsədyönlü fəaliyyəti olmadan mümkün deyil. Bu problemlərin qlobal xarakteri onların həlli üçün bütün ölkələrin və dünya xalqlarının birgə səylərini tələb edir.

Müasir dünyanın sosial, iqtisadi, siyasi ziddiyətləri ilə üzvi surətdə bağlı və sıx əlaqəli olaraq qlobal problemlər labüd şəkildə müxtəlif siniflərin, sosial qrupların, siyasi partiyaların, ictimai hərəkatların və s. maraqlarının toqquşmasına səbəb olur. Bunlar get-gedə daha aydın şəkildə ifadə edilmiş siyasi rəng alır və bunların həlli daha çox siyasət sahəsinə keçir. Müəyyən dərəcədə hətta demək olar ki, qlobalistika siyasi kursların və müxtəlif dövlətlərin, partiyaların, siniflərin, hərəkatların toqquşduğu sahəyə çevrilməkdədir.

Öz içtimai fəaliyyətində müxtəlif siyasi qüvvələrin ideoloqlarının qlobal problemlərdən istifadə etməsi daha çox tərəfdar cəlb etmək üçün öz idyeya-siyasi məqsədlərinə cazibədarlıq vermək cəhdini göstərir. Burada həm də bu fakt diqqəti cəlb edir ki, içtimai şüurla manipulyasiya etmək üzrə zəngin təcrübəyə malik olan, içtimai problemlərin kəskinləşməsindən istifiadə edən siyasət və dövlət xadimləri bütün sivilizasiyanın inkişafının qlobal modernləşdirilməsində fəal mövqe tutmuşlar.

Bununla yanaşı qeyd etmək lazımdır ki, qlobal problemlərin mahiyyətinin nəzərdən keçirilməsi zamanı müxtəlif doktorinaların hətta bir dövlətin çərçivəsində ideya-siyasi vəhdəti haqqında danışmaq olmaz. Bu problemlərin həll edilməsində maraqlı olan bir çox siyasi partiyalar, içtimai təşkilatlar və hərəkatlar öz siyasi doktorinalarını hazırlayarkən qlobal problemlərin həlli üzrə öz proqramlarını irəli sürürlər.

Baxmayaraq ki, qlobal probemlər bütün bəşəriyyəti narahat edir, hamı bunların həll edilməsi zərurəti haqqında düşünür. Yaddan çıxarmaq olmaz ki, bunların həll edilməsi yolları və vasitələri haqqında məsələ müxtəlif siyasi və ideoloji maraqların toqquşmasına səbəb olur. Buna görə də, təbii ki, XX əsrin ikinci yarısında bəşəriyyətin qarşılaşdığı problemlərin müzakirəsinə yalnız peşəkar siyasətçilər deyil, həm də, kilsə xadimləri, müxtəlif qeyri-hökumət təşkilatlarının nümayəndələri qoşulurlar. Bu cəhətdən də demək mümkündür ki, kilsə siyasi partiyaların nümayəndələri ilə yanaşı qlobal problemlərin həll edilməsinə maraqlı

olmalarını göstərməyə və bununla da öz nüfuzlarını qaldırmağa cəhd edir. Onların bir çoxu tez-tez siyasi, sinfi ziddiyyətləri qlobal problematika kimi qələmə verməyə çalışır.

Öz mahiyyətinə görə bütün qlobal problemlər biososial xarakterə malikdir. Lakin təbii cəhətin əhəmiyyətini qəbul etməklə bərabər, daima nəzərdə saxlamaq lazımdır ki, qlobal problemlərin həllində əsas rol sosial-siyasi dəyişikliklərə məxsusdur. Elmi-texniki tərəqqinin müasir templərlə inkişafı zamanı qlobal xarakterli problemlərin həlli üçün texniki-iqtisadi tədbirlərin hazırlanması bir o qədər də çətin deyil. Elmi biliklər bu gün bəşəriyyətin qarşılaşdığı hər hansı ən mürəkkəb problemlərin həll edilməsinin texniki tərəfini təklif etmək imkanı verir. Həmin layihənin praktiki reallaşması isə artıq hər şeydən əvvəl həmin dövlətin və ya siyasi partiyanın real siyasi kursunun, sosial-siyasi şəraitindən, başlca məqsədlərindən asılıdr.

Qlobal problemlərin həll edilməsi zamanı sosial-siyasi amillərin birinciliyinin dərk edilməsi bir çox ölkələrdə qlobalistikanın yalnız elmi biliklərin xüsusi sahəsi deyil, həm də dövlət siyasətinin mühüm istiqaməti olmasına gətirib çıxarmışdır. Müasir şəraitdə hətta inkişafın qlobal modelləşdirilməsi haqqında bütün dövlətlərin siyasətlərinin ayrılmaz hissəsi kimi danışmaq olar. Bu sahəyə konkret rəhbərliyi bu məsələlərlə məşğul olan xüsusi olaraq yaradılmış nazirliklər, dövlət komitələri və ya başqa xüsusi orqanlar həyata keçirir. Cəmiyyətdə aparılan qlobalistika siyasəti meydana çıxan qlobal xarakterli problemlərin aradan qaldırılmasına yönəlmişdir və dövlətin ümumi siyasət fəaliyyətinin mühüm, ayrılmaz tərkib hissəsidir. O, cəmiyyətdə hər bir ayrıca götürülmüş dövlətdə konkret sosial-siyasi xüsusiyyətlərin və qlobal problmlərin kəskinliyini nəzərə almaqla formalaşır və təşəkkül tapır. Məhz buna görə də, o, ya hakim sinfin maraqlarını ifadə edir, ya da qarşı duran tərəflər arasnıda əldə olunmuş müəyyən razılaşmanı əks etdirir.

Siyasətin və qloabal problemlərin əlaqəsi daha aydın və dəqiq şəkildə müharibə və sülh probleminin həll edilməsi misalında görünür. Bir mühüm məqamı qeyd etmək kifayətdir ki, müasir şəraitdə müharibə və sülh problmeinin həll edilməsi siyasi vasitələrdən savayı heç bir başqa vasitə ilə mümkün deyil. Bu gün üçün qərb siyasətçilərinin və ideoloqlarının geniş istifadə etdiyi «nüvə dünyası» adlanan konsepsiya xüsusi təhlükə doğurur. Bunun tərəfdarları nüvə müharibəsini rədd edərək sürətlə silahlanmaya beynəlxalq münasibətlərdə sabitləşdirici amil rolunu aid etməyə çalışırlar. Onlar sübut etməyə çalışırlar ki, sülhün qorunmasını nüvə dövlətlərini yalnız onlar arasında «qorxu bərabərliyi» əsasında qarşılıqlı «vahiməyə salma» vasitəsilə təmin etmək olar. Bu konsepsiyanın işlənməsinin siyasi aspektləri tamamilə aydındır-arası kəsilməyən sürətlə silahlanmaya istənilən vasitə ilə bəraət qazandırmaq. Lakin beynəlxalq münaqişələrin həll edilməsi vasitəsi kimi müharibədən yalnız tam imtina edilməsi dünyada siyasi sabitliyi təmin edə bilər.

Siyasətin qlobal problemlərlə əlaqəsini kifayət qədər aydın şəkildə dövlətin ekoloji siyasəti həyata keçirir. Həm də bu zaman həmin qarşılıqlı əlaqə kifayət qədər orijinal formalarda təzahür edir. Bu həm də nəhəng inhisarların təbiətin mühafizəsi üzrə qanunvericiliyi pozmaları, dövlətin proqram və standartlarını yerinə yetirməmələridir. Dövlətin ekoloji siyasətinin formalaşmasına hər şeydən əvvəl nəhəng kapitalın «təzyiq qrupları» əhəmiyyətli dərəcədə təsir edir. Qiymətlərə dövlət «ekoloji vergisinin» və «ekoloji əlavələrinin» qoyulması ekoloji fəlakətə görə «bərabər məsuliyyət» haqqında tezisin praktik reallaşmasıdır. Dövlətin ekoloji siyasətinin həyata keçirilməsi daha bir xüsusiyyətlə xarakterizə olunur: öz ölkələrində ekoloji fəlakətlərin əsil miqyasının gizlədilməsinə cəhd edilməsi.

Əvvəlcə ekoloji hərəkatın siyasi səhnəyə çıxması, sonra isə ekoloji partiyaların yaranması ekoloji siyasətin formalaşmasında yeni mərhələ idi. Seçkiqabağı kampaniyalarda təbiətin mühafizəsi zərurəti haqqında şüarlardan istifadə edilməsi, «ekoloji» nümayişlərin və mitinqlərin keçirilməsi - bütün bunlar ekoloji problemlərin siyasi prosesə qoşulmasını sübut edir.

Beynəlxalq siyasətdə bu qarşılıqlı əlaqə «ekoloji» neokolonializmin həyata keçirilməsində, idxalata «ekoloji» standartların qoyulmasında, ekoloji problemlərin «ixracında» üzə çıxır.

Müasir şəraitdə tamamilə əsaslı şəkildə siyasətin sosial-mədəni, humanitar qəbildən olan subqlobal problemlərlə sıx qarşılıqlı əlaqəsi haqqında danışmaq olar. Bu, həllindən bəşəriyyətin bu gün üçün yaşaması asılı olmayan problemlərdir. Bunlar daha çox cəmiyyətin «həyat keyfiyyətini» müəyyən edir. Təhsil, mədəniyyət problemləri, milli-etnik problemləri, kütləvi kommunikasiya vasitələrinin inkişafı problemləri bir çox cəhətdən ölkənin siyasi kursundan asılıdr. İnsanların hüquqlarının, hər şeydən əvvəl yaşama hüququnun təmin edilməsi problemi birinci növbədə dövlət və beynəlxalq səviyyələrdə siyasi qərar tələb edir.

Qlobal problemlərin ümumbəşəri aspektləri onların beynəlxalq siyasətlə sıx əlaqəsini qabaqcadan müəyyən etmişdir. Qlobal problemlərin mövcud olmasına və hətta dərinləşməkdə davam etməsinə baxmayaraq, qeyd etmək lazımdır ki, son illər praktik olaraq bütün ölkələr onların həll edilməsi işində beynəlxalq əməkdaşlığın zəruri olduğunu dərk etməyə başlamışdır. Buna dünyada siyasi iqlimin dəyişməsi də xeyli dərəcədə imkan yaradır. Bundan başqa, qlobal problemlərin həll edilməsi işində geniş beynəlxalq

əməkdaşlıq bu problemləri həll etməklə müxtəlif ölkələrin siyasi sahədə qarşılıqlı münasibətlərini əhəmiyyətli dərəcədə yaxınlaşdırmaq imkanı verə biləcək təməl hesab edilə bilər. Qlobal problemlərin həll edilməsi üzrə əməkdaşlıqda iştirakdan birtərəfli qaydada imtina edilməsi bu problemlərin mahiyyətini dəyişdirmir. Lakin belə siyasət onların sonradan kəskinləşməsinə səbəb olur. Bu da ki, gələcəkdə bütün dövlətlərin daha çox səy göstərməsini tələb edəcək.

Beləliklə, bütün qlobal problemlərin uğurla aradan qaldırılması üçün bütün dövlətlərin beynəlxalq əməkdaşlığın inkişafı üzrə düşünülmüş, ölçülüb-biçilmiş siyasəti və onlrarın bütün göstərilən tədbirlərin praktik reallaşdırılması üzrə fəal işləməsi lazımdır.

## DƏRS VƏSAİTİNİN SİYASİ TERMİNLƏR LÜĞƏTİ

ALTERNATİV - (fr. alternative, lat. alter – ikisindən biri) biri digərini qarşılıqlı surətdə istisna edən imkanlardan birinin seçilməsi zəruriliyi.

ABSOLYUTİZM – (lat. absolutus - şərtsiz) – dövlətin idarə olunmasında qeyri-məhdud, despotik monarxiya olub, burada siyasi hakimiyyət bir nəfər şəxsə – monarxa məxsusdur.

ANARXİZM - (yunanca, anarxiya - hakimiyyətsizlik) – xırda burjua ictimai-siyasi cərəyanı olub, hər cür siyasi və dövlət hakimiyyətinin zəruriliyini inkar edən, şəxsiyyətin qeyri-məhdud azadlığını təbliğ edən.

ANARXİYA - (yunanca, anarxiya - hakimiyyətsizlik) – ayrı-ayrı insanların və qrupların rəhbərliyə tabe olmaması və bununla intizamsızlığın, hərc-mərcliyin yaranması.

APOLİTİK - (yunanca, a – inkar və politike - siyasət) – siyasətə, ictimai həyatda iştiraka münasibətdə inkaredici yanaşma. Apolitikliyin təzahürü kimi – nümayəndəli orqanlara seçkilərdə iştirak etməkdən imtina etmək.

APOLOGET - (yunanca apoligia - müdafiə) – nəyisə, yaxud kimi isə çılğın müdafiə etmək.

APATRİDİZM - (yunanca, a-inkar və patris-vətən)- bu dünyanın dövlətlərindən hec birində vətəndaşlığa malik olmayan şəxsdir (Vətəndaşsızlıq).

ASSOSİASİYA - (lat. assosiation – ittifaq, birlik deməkdir).

AVTARKİYA - (yunanca, autarkeya – özündən razıqalma, özünə güvənmə).

AVTORİTARİZM – (lat. autorias – hakimiyyət, təsir, güc) hakimiyyətə danışıqsız tabe olmaq. Dövlət quruluşunda avtoritarlıq bir şəxsin (monarxın, diktatorun) despotik hakimiyyəti ilə əlaqədardır.

ARİSTOKRATİYA – (yunanca, aristos-ən yaxşı və kratos-hakimiyyət)-1) istismarçı siniflərin yüksək təbəqəsi, quldarlıq, feodalizm, eləcə də kapitalizm cəmiyyətində varlı nəslin hakimiyyəti; 2) antik mütəfəkkirlərin – filosofların fikrincə «mənəvi və əxlaqi cəhətdən yüksək olanların hakimiyyəti».

BÜROKRATİYA – (fr. bureaukratie – hərfi mənada dəftərxana hakimiyyəti, fransızcadan bureau-dəftərxana və yunanca kratos – hakimiyyət, hökmranlıq)-1) xüsusi aparatın köməyi ilə (xalqdan ayrı düşmüş) həyata keçirilən idarəetmə sistemi; 2) həmin sistemlə bağlı olan insan təbəqəsi. Bürokratiya cəmiyyətin siniflərə bölünməsi ilə təzahür edir. O, quldarlıq və feodalizm cəmiyyətində yaranmış, kapitalizmdə və sosializmdə də fəaliyyət göstərmişdir.

DESPOTİZM - (DESPOTİK) (yunanca, despoteya – qeyri-məhdud hakimiyyət) – Bu, qeyri-məhdud monarxiya dövlət quruluşuna xas olub, xalqın hüquqsuzluğu ilə xarakterizə olunan idarəetmə sistemləridir. Despot - qeyri-məhdud və qəddar hökmdara, tirana deyilir.

DEPOLİTİZASİYA – (lat. de və yunanca politse - siyasi, siyasətdən kənar olma, siyasətə qarışmamaq). Məsələn, dövlətdə ordunun, polisin siyasət işlərinə qoşulmaması.

DEMOKRATİYA – (yunanca, demos-xalq və kratos hakimiyyət) – xalq hakimiyyəti, azadlığa və vətəndaşların bərabərliyi prinsiplərinə əsaslanan siyasi quruluş forması. Demokratiya iki əsas prinsipin - azlığın çoxluğa tabe olmasını və söz, mətbuat, fikir azadlığı və s. olmasını tələb edir.

ELİTA - (fr. elite – ən yaxşı, seçilmiş)-1) cəmiyyətin idarə olunmasında secilmiş adamların rolu; 2) cəmiyyətin üç hissəyə: yaradıcı azlıq, qeyri-yaradıcı azlıq və qara camaata bölünməsi.

EKSTREMİST – (fr. extremiste, lat. extremus-son hədd fəaliyyəti) Ekstremist insan - siyasətdə son hədd baxışa, tədbirə, hərəkətə meyilli olan insandır.

OLİQARXİYA - (yunanca oliqos – çox olmayan, az bir hissə və arxe-hakimiyyət), az bir hissənin hakimiyyəti dövlətin idarəetmə formalarından biri olub, burada dövlət hakimiyyəti bütünlükə çox da böyük olmayan varlılara məxsusdur. Maliyyə oliqarxiyası-inhisarçı burjuaziyanın yuxarı dairələrinə aid olub, dövlət aparatını özünə tabe edir, dövlətin daxili və xarici siyasətini müəyyən edir, ölkədə iqtisadi və siyasi hökmranlığı həyata keçirir.

İNFLYASİYA - (lat. inflatno-süni yüksəlmə) pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi. Gündəlik həyatda bahalıq daimi olaraq artır, bütün malların və xidmətin qiyməti yüksəlir.

KOSMOPOLİTİZM – (yunanca, kosmopolites – dünya vətəndaşı deməkdir). Kosmopolitizm vətənə, öz xalqına, onun milli mədəniyyətinə qarşı etinasız olan, «dünyəvi dövlət», «dünyəvi vətəndaş» ideyasını qəbul edən nəzəriyyədir. Kosmopolitizm patriotizmə qarşıdır.

KOMPROMİSS – (lat. kompromisse –iki müxtəlif tərəfin qarşılıqlı razılaşması deməkdir).

KONTRAKT - (lat. kontrastus – müqavilə, razılaşma), müqavilə bağlayan tərəflərin hüquqlarını müəyyən edən sənəddir.

KOMPRADOR - (ispan. komprador-satın alınmaq) – iqtisadi cəhətdən geri qalan burjuaziyanın bir hissəsi, xarici kapital və müstəmləkələrlə əlaqədar olub onlardan iqtisadi və siyasi münasibətlərdə asılı olmaq, bu mövqedən də imperialist siyasətini müdafiə edən.

KLERİKAL - (lat. klerikalis - kilsə, ruhani idarə sistemi) – ictimai-siyasi cərəyan olub, hakim dairələrin mənafeyi naminə cəmiyyətin ictimai-siyasi həyatında xalq kütlələrinə dini mövqeyin təsirinin artırılması.

KONSERVATİZM – (fr. konservatisme, lat konservars – mühafizə etmə) kecmişin bütün cəhətlərinə bağlılıq və tərəqqiyə, ictimai-siyasi həyatda yeni olan hər şeyə, elmə, incəsənətə və i.a. qarşı əks fəaliyyət. Siyasi fəaliyyətdə konservativlik – mürtəce istiqamət olub, köhnə, vaxtı keçmiş quruluşu hakim dairələrin xeyrinə olaraq inadcasına mühafizə etmə.

KONKURENSİYA – (lat. konkurrentina – qarşı-qarşıya durma, toqquşma) ayrı-ayrı kapitalistlər, kapitalist birlikləri və kapitalist ölkələri arasında xammal mənbələri, bazarlar uğrunda, kapital qoyuluşu məqsədilə öz aralarında gərgin mübarizə aparmaq. Siyasi fəaliyyətdə konkurensiya dedikdə, burjuaziyanın mütləq monarxiyanın qeyri-məhdud hakimiyyətinə qarşı durması və onun yekcinsliyinə son qoyulması.

KOALİSİYA - (lat. koalitis-birləşmə) – dövlətlərarası, dövlətdaxili siyasi partiyalar, həmkarlar və digər təşkilatlar arasında ümumi siyasi, hərbi, iqtisadi məqsədlərə nail olmaq üçün birlik, ittifaq, razılaşma. Məsələn, koalisyon hökumət, antihitler koalisiyası.

KONSENSUS - (lat. konsensus – razılıq, vahidlik, yekdillik) – konfransın, iclasın, yığıncağın və yaxud digər nümayəndəli forumların iştirakcıları tərəfindən bu və ya digər bir məsələnin müzakirəsi və onun hamılıqla, yekdilliklə kollegial qəbulu forması. Bu prosesdə bir tərəf belə konsensusa-razılığa getməsə məsələ bütövlükdə qəbul olunmur. Məsələn, 1996-cı il Lissabon zirvə toplantısı-konsensusu.

KORRUPSİYA - (lat. korruptio – pula satılma, rüşvət alma) – müxtəlif vəzifəli şəxslərin, siyasi xadimlərin və s. öz vəzifələrindən sui-istifadə edərək rüşvət alması.

LİBERALİZM - (lat. liberalis-azad, sərbəst)-1) burjua siyasi və ideoloji cərəyanı olub, sənaye burjuaziyasının feodal-təhkimli quruluşuna və mütləq monarxiyaya qarşı mübarizədə mənafelərini ifadə edir. Liberalizm monarxın hüquqlarının parlamentlə məhdudlaşdırılmasını, konstitusiyalı quruluşun yaranması ideyasını irəli sürür.

MAKKARTİZM - XX əsrin 50-ci illərində ABŞ-da siyasi cərəyan (ABŞ senatoru C.Makkartinin adı ilə bağlı olub, antiamerikan fəaliyyətin təhqiq olunması ilə əlaqədar yaradılmış komissiya).

MERİTOKRATİYA – (lat. meritus-layiqli və yunanca kratos-hakimiyyət) – daha çox layiqli, bacarıqlı olanların hakimiyyəti. Meritokratiya – texnokratik utopiyanın növlərindən olub, guya kapitalizm özlüyündə transformasiya olur və hakimiyyət, rəhbərlik postları daha çox qabiliyyətli insanların, bütün təbəqələrdən seçilənlərin əlinə keçir.

MONARXİYA - (yunanca, monarxiya - təkhakimiyyətlilik) – istismarçı dövlətlərdə idarəetmə forması olub, burada ali dövlət hakimiyyəti bir nəfərin, dövlətin başçısının əlində cəmləşir. Quldarlıq və feodalizmdə monarxiya qeyri-məhdud hakimiyyət kimi çıxış edirdi. Müasir dövlətlərdə, kapitalizmdə monarxın hakimiyyəti konstitusiya ilə məhdudlaşır, qanunverici funksiya parlamentə, icraedici hökumətə verilir, monarx isə «çarlıq edir, amma idarə etmir».

PLYURALİZM - (lat. plyuralis - çoxnövlü) – 1) fəlsəfi anlayış olub, varlığın bir neçə və yaxud çoxnövlü başlanğıca malik olmasını təsdiq etmək deməkdir; 2) müasir sosiologiyada plyuralizm demokratiyanın «təmiz», «ali» forması kimi şərh olunur ki, burada da siyasi hakimiyyət bir-birilə qarşılıqlı mübarizə aparan siyasi partiyalar, eləcə də təşkilatlar – həmkarlar, sahibkarlar assosiasiyaları və s. tərəfindən həyata keçirilir; 3) avrokommunizm ideoloqlarında plyuralizm sosializmin çoxnövlü «modeli» tipində qəbul edilir.

PATRİOTİZM - (yunanca, patriotes – vətənpərvər, patris - vətən) – öz vətəninə sevgi hissi, onun düşməndən qorunmasına hazır olmaq.

PATRİARXAL - (yunanca, pater - ata və arxa - hakimiyyət; hərfi mənası ata hakimiyyəti)- ibtidai icma dövründə ana hakimiyyətini əvəz edən bir forma. Patriarxlıqda nəsil ata, kişi xətti üzrə sayılır. Patriarxlıq üçün kişinin ailədə, təsərrüfat və ictimai həyatda başlıca rolu xarakterikdir.

PATERNALİST – (lat. paternus - atalıq) – hakim dairələrin doktrinası olub, zəhmətkeş kütlələrin şüurunda «sosial müttəfiqlik» ideyası yaratmaq, bu məqsədlə hər bir cəmiyyətdə idarəedənlərin kütlələrə «atalıq qayğısında» olmasına inandırmaq.

PROQNOSTİKA – (yunanca, proqnosis - qabaqcadan görmə) – 1) məlumatın – proqnozun işlənilməsi; 2) bu və ya digər ictimai hadisənin (iqtisadi proqnostikanın, siyasi proqnostikanın – qabaqcadan görmənin) konkret perspektivlərinin xüsusi tədqiqi.

PARLAMENT - (ing. parlament, fr. parlament, parler sözü-danışmaq) kapitalist ölkələrində nümayəndəli, seçkili qanunverici orqan: ABŞ-da və Amerikanın digər ölkələrində Konqress, Türkiyədə – Böyük Millət Məclisi, İsveçdə – Riksdaq, Rusiyada – Duma, Azərbaycanda – Milli Məclis adlanır.

PREZİDENT - (lat. praesidens-qabaqda əyləşən) - iki mənada işlənir. 1) ictimai və elmi müəssisələrdə, təşkilatlarda (məs: Elmlər Akademiyası Prezidenti) seckili rəhbər, sədr. 2) Respublika idarə forması ölkələrində dövlət başçısı. Parlamentli respublikalarda (İtaliya, Hindistan, Almaniya, Türkiyə) prezident ya parlament, ya da tərkibi parlament üzvlərindən ibarət olan xüsusi kollegiya tərəfindən seçilir. Prezidentli respublikalarda prezident birbaşa (Fransa), yaxud dolayısı (ABŞ) yolla seçilir.

PLUTOKRATİYA – (yunanca plutos – varlılıq, varlı olmaq və kratos-güc, hakimiyyət) – 1) varlıların hakimiyyəti, pulun hökmranlığı; 2) siyasi quruluş olub, burada dövlət hakimiyyəti cəmiyyətin daha çox varlı təbəqələrinin nümayəndələrinə məxsusdur.

PREMYER-MİNİSTR - (fr. premier-birinci) – müasir dövlətlərdə hökumət başçısıdır. O, dövlətin başçısı tərəfindən təyin olunur. Premyer-Ministr – Baş Nazir parlamentdə əksər səs toplamış partiya və ya partiya koalisiyalarının (məs., Türkiyədə hazırkı hökumət) lideri, parlament fraksiyası çoxluğunun rəhbəridir.

POLİS - (yunanca, polites – antik dövrdə müstəqil şəhər – dövlət) müasir dövrdə daxili, ictimai mühafizə idarəsi mənasını bildirir.

RADİKALİZM – (lat. radiax - köklü) – qarşıya qoyulmuş məqsədin qəti, kompromissiz həyata keçirilməsi, bu və ya digər işdə mövcud olan vəziyyətin köklü dəyişilməsinə səy göstərmək.

RASİZM - (qeyri-elmi, mürtəce «nəzəriyyə»). Rasistlər təsdiq edirlər ki, müxtəlif irqlər və onların nümayəndələri öz imkanlarına, dəyərlərinə görə biri digərindən üstündür. Bu halda

«tam dəyərli» və «qeyri-tam dəyərli» irqlər və millətlər mövcuddur. Rasizm nəzəriyyəsi və praktikası faşist ideologiyası və siyasəti ilə sıx bağlıdır.

RESPUBLİKA - (lat. res-iş və publisus-cəmiyyət, ümumxalq) – burada dövlət idarəetmə hakimiyyətinin bütün ali orqanları ya seçilir, ya da ümummilli nümayəndəli müəssisələrdə (parlamentlərdə) formalaşır, vətəndaşlar isə şəxsi və siyasi hüquqlara malik olurlar. Kapitalist ölkələrində səlahiyyətlərindən, yəni hökumətin parlamentinmi, yaxud prezidentinmi qarşısındakı cavabdehliyindən asılı olaraq iki cür respublika – parlamentli (məsələn, İtaliya) və prezidentli respublika (məsələn, ABŞ) olur.

SİONİST - yəhudi millətçi burjuaziyasının mürtəce təşkilatı. İsrail dövlətində və kapitalist ölkələrinin bir çox yəhudi icmalarında hökmran ideoloji cərəyan.

SUVERENİTET – (alm. souveranitat, fr. souverainete – ali hakimiyyət) – olub, iki mənada işlənir. 1) siyasi müstəqillik və daxili, xarici siyasi fəaliyyətdə dövlətin sərbəstliyi deməkdir. Dövlət suverenliyi ölkənin öz ərazisi, əhali daxilində həyata keçirilir; 2) hakimiyyətin xalqa, millətə məxsusluğu (xalq suverenliyi, millət suverenliyi) nəzərdə tutulur. Yəni dövlət hakimiyyətinin xalq nümayəndəliyi, referendum vasitəsilə həyata keçirilməsidir.

SPİKER - (ing. speaker-hərfi mənası natiq)-bir sıra ölkələrdə (məsələn, Böyük Britaniyada-spiker icma palatasının, ABŞ-da spiker nümayəndələr palatasının) parlamentin aşağı palatasının sədri.

STATUS - (lat. status-vəziyyət, hal) vətəndaşın, hüquqi şəxsin, dövlət orqanının, beynəlxalq təşkilatın hüquq və vəzifələrinin məcmusu.

VANDALİZM - (lat. vandalı)-1) qədim german tayfaları, b.e. I əsrində yaşamış, özlərinin təcavüzkarlığı və qəddarlığı ilə fərqlənmişlər; 2) insana qarşı kobudluq, mədəniyyətsizlik.

ŞOVİNİST - (fr. şauviniste) – milli istisnalığı təbliğ edən, bir millətin mənafelərini digər millətin mənafelərinə qarşı qoyan, milli ehtirası, milli düşmənçiliyi və nifrəti qızışdıran.

TEXNOKRATİYA - (yunanca, texhne-incəsənət, ustalıq və kratos-hakimiyyət) - 20-ci əsrdə burjua cəmiyyətində istiqamətlənən fikir olub, kapitalizm cəmiyyətinin gələcəkdə bütövlükdə rasional (ağılla) əsasda, alimlər, mühəndislər, texniklər tərəfindən idarə olunacaq hakimiyyətdir. Bunun əsasında texnokratik konsepsiyada təsdiq olunur ki, hakimiyyət və idarəetmə siyasətçilərdən texnokratların əlinə keçəcək və nəticədə kapitalizm sosial ziddiyyətlərdən xilas olacaqdır.

TİMOKRATİYA – (yunanca «time»-şərəf, kratos-hakimiyyət deməkdir) – qüdrətli döyüşçülərin hakimiyyəti. Platonun fikrincə, müdrik aristokratiyanın tədricən aradan qalxması öz növbəsində xüsusi mülkiyyətin də aradan qalxmasına və azad əkinçilərin qula çevrilməsinə gətirib çıxarır. Timokratik idarəetmə quruluşuna malik olan dövlət həmişə müharibələr aparmağa məhkumdur.